AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

**İLQAR HÜSEYNOV**
**NİGAR ƏFƏNDİYEVA**

# XARİCİ ÖLKƏLƏRDƏ MƏDƏNİ FƏALİYYƏTİN TƏŞKİLİ

DƏRSLİK

DƏRSLİK AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRİNİN 27 MAY 2008-ci il TARİXLİ 659 SAYLI ƏMRİ İLƏ TƏSDİQ OLUNMUŞDUR

**BAKI 2008**

63.3(0)3
H 98

Dərslik Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Tətbiqi kulturologiya" kafedrasının müdiri İlqar Həsrət oğlu Hüseynov və kulturologiya elmləri doktoru Nigar Timuçin qızı Əfəndiyeva tərəfindən hazırlanmışdır.

*Redaktor:* **Pərviz Rzaquliyev**, ETRTMM-nin əməkdaşı, azerbaijan_books@mail.ru
Elmi redaktor: Ağalar Abbasbəyli, tarix elmləri doktoru, professor, BDU-nun "Beynəlxalq münasibətlər" kafedrasının müdiri;
*Elmi redaktor:* **Nigar Rüstəmova**, filologiya elmləri namizədi, dosent;
*Rəyçilər:* **Ağayar Şükürov,** fəlsəfə elmləri doktoru, professor;
**Əlikram Tağıyev,** fəlsəfə elmləri doktoru, professor;
**Ramiz Ağayev,** ADMİU-nun "Muzeyşünaslıq" kafedrasının müdiri, professor;
*Dizayn*: **Rəşad Rzaquliyev**, rashad156@mail.ru

İlqar Hüseynov, Nigar Əfəndiyeva.
**XARİCİ ÖLKƏLƏRDƏ MƏDƏNİ FƏALİYYƏTİN TƏŞKİLİ**
DƏRSLİK. AZƏRBAYCAN DİLİNDƏ.

"Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili" adlı dərslik Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tarixində yenilik kimi qiymətləndirilə bilər. Dərslikdə xarici ölkələrin mədəni fəaliyyətinə müqayisəli şəkildə yanaşılmış mədəni fəaliyyətin müasir tələbləri nəzərə alınmışdır. Dərsliyin hazırlanmasında xarici ölkələrin iş təcrübəsinə geniş şəkildə istinad edilmiş, milli adət və ənənələr, dini xüsusiyyətlər, beynəlxalq mədəni əlaqələr, mədəniyyət və incəsənətin sosial-iqtisadi mahiyyəti, tarixi mənşəyi, turizm fəaliyyəti, mədəni maarifləndirici iş, ixtisaslı kadrların hazırlanması və təkmilləşdirilməsi, dövlətin tənzimləyici rolu, beynəlxalq təşkilatların fəaliyyəti və digər problemlər kulturoloji aspektdə tədqiq olunmuşdur.

Dərslik ali və orta ixtisas məktəblərinin professor-müəllim heyəti və tələbələri, mədəniyyət və incəsənət işçiləri, beynəlxalq təşkilatların nümayəndəlikləri, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

*Naşir-Pərviz Rzaquliyev*

378 səh. 60x84/16 nüsxə 1000

© İlqar Hüseynov

# MÜNDƏRİCAT

Giriş........................................................................................................ **5**
**I fəsil. Beynəlxalq mədəni təcrübə və inteqrasiya prosesləri**
1.1. Xarici ölkələrdə mədəni fəaliyyətinin təşkilinin kulturoloji mahiyyəti və onun ilkin şərtləri
İlqar Hüseynov, Nigar Əfəndiyeva........................................................ **7**
1.2.Azərbaycanın beynəlxalq mədəni əlaqələr sisteminə inteqrasiyası
İlqar Hüseynov, Nigar Əfəndiyeva........................................................ **9**
1.3.Beynəlxalq mədəni əlaqələr sahəsində ixtisaslı kadrların hazırlanmasının əhəmiyyəti
İlqar Hüseynov, Nigar Əfəndiyeva........................................................ **13**
1.4.Beynəlxalq mədəni əlaqələr Azərbaycanın dövlətlərarası siyasətinin əsas prioritetlərindən biri kimi
İlqar Hüseynov, Nigar Əfəndiyeva........................................................ **16**
**II fəsil. İqtisadi inkişaf etmiş ölkələrdə mədəni fəaliyyətin təşkili**
2.1.Xarici ölkələrdə istirahət və əyləncənin təşkilinin elmi əsasları
İlqar Hüseynov, Nigar Əfəndiyeva........................................................ **23**
2.2. Mədəni fəaliyyət strategiyasında muzey və digər mədəniyyət, istirahət və əyləncə mərkəzlərinin rolu
İlqar Hüseynov, Nigar Əfəndiyeva........................................................ **27**
2.3. Xarici ölkələrdə mədəni fəaliyyətin təşkilinin inkişaf mərhələləri
İlqar Hüseynov, Nigar Əfəndiyeva........................................................ **31**
2.4.Mədəni fəaliyyətin təşkilində beynəlxalq və regional proqramların əhəmiyyəti
İlqar Hüseynov, Nigar Əfəndiyeva........................................................ **39**
**III fəsil. Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili**
3.1. Amerika Birləşmiş Ştatları
İlqar Hüseynov, Nigar Əfəndiyeva........................................................ **43**
3.2. Böyük Britaniya
Nigar Əfəndiyeva, İlqar Hüseynov........................................................ **48**
3.3. Fransa
Nigar Əfəndiyeva, İlqar Hüseynov........................................................ **52**
3.4. Almaniya Federativ Respublikası
Nigar Əfəndiyeva, İlqar Hüseynov........................................................ **59**
3.5. Rusiya Federasiyası
Nigar Əfəndiyeva, İlqar Hüseynov........................................................ **66**
3.6. İran İslam Respublikası
Nigar Əfəndiyeva, İlqar Hüseynov........................................................ **85**
3.7. Tailand
Nigar Əfəndiyeva, İlqar Hüseynov........................................................ **87**
3.8. Yaponiya
Nigar Əfəndiyeva, İlqar Hüseynov........................................................ **93**
3.9. Çin Xalq Respublikası
Nigar Əfəndiyeva, İlqar Hüseynov........................................................ **98**
3.10. İtaliya
Gülçin Kazımova, İlqar Hüseynov........................................................ **102**
3.11. Hindistan
Gülçin Kazımova, İlqar Hüseynov........................................................ **107**
3.12. İsrail dövləti
Gülçin Kazımova, İlqar Hüseynov........................................................ **110**
3.13. Misir
Gülçin Kazımova, İlqar Hüseynov........................................................ **113**

3.14. Birləşmiş Ərəb Əmirlikləri
Gülçin Kazımova, İlqar Hüseynov........................................................................ **115**
3.15. Dünyanın 7 möcüzəsi
Fərqanə Hüseynova, İlqar Hüseynov.................................................................. **119**
3.16. Malayziya
Fərqanə Hüseynova, İlqar Hüseynov.................................................................. **120**
3.17. İspaniya
Yaşar Yusubov, İlqar Hüseynov.......................................................................... **123**
3.18. Türkiyə Cümhuriyyəti
Fərqanə Hüseynova, İlqar Hüseynov.................................................................. **128**
3.19. TÜRKSOY - türkdilli xalqların milli-mədəni mərkəzi kimi
Fərqanə Hüseynova, İlqar Hüseynov................................................................. **131**
3.20.Yunanıstan
İlqar Hüseynov, Nigar Əfəndiyeva, Fərqanə Hüseynova....................................... **139**
Xülasə.................................................................................................................. **143**
Summary……………………………………………………………………...…... **144**
Заключение………………………………………………………………… **145**
"Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili" fənni üzrə Proqram........................... **146**
Ədəbiyyat............................................................................................................ **147**
Литература.......................................................................................................... **149**
Bibliography......................................................................................................... **151**

.

***Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.***

***Heydər Əliyev***

## Giriş

Müasir dövrdə xarici ölkələrdə mədəni fəaliyyətin təşkili mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu gün xarici ölkələrin mədəni fəaliyyət sahəsində iş təcrübəsinin müqayisəli öyrənilməsi olduqca aktualdır.

Dünya azərbaycanlılarının I qurultayında ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, dünya sivilizasiyasını zənginləşdirmişdir."[1]

Respublikamızın xarici ölkələrlə beynəlxalq mədəni əlaqələri bir daha sübut edir ki, xalqımız öz təbiətindən irəli dələn sülhsevərliyi, dili, dini, adət-ənənələrinə dərindən hörmət etməsi ilə beynəlxalq münasibətlərə öz töhfəsini vermiş və beləliklə də, dünya meridianlarında milliliklə bəşəriliyin vəhdətini yaratmışdır.

Mədəniyyət, incəsənət və xalq yaradıcılığı zəminində milli mədəni əməkdaşlıq və beynəlxalq mədəni əlaqələrin getdikcə möhkəmlənməsi dünyada millətlərarası ünsiyyət mədəniyyətinin, sülh və əmin-amanlığın, qardaşlıq və dostluq tellərinin bərqərar olmasına güclü təsir göstərir.[2]

Mədəni kulturoloji əlaqələr Azərbaycan xalqının qədim zəngin tarixini, mədəni inkişafını nümayiş etdirir və eyni zamanda xalqımızın ümumbəşəri və milli mədəniyyətinin dünyanın bütün ölkələrinə inteqrasiya olunmasına zəmin yaradır. Bu isə öz növbəsində milliliklə bəşəriliyin vəhdətini daha da zənginləşdirir.

Bu gün milli mədəniyyətin və beynəlxalq mədəni əlaqələrin inkişaf konsepsiyası xalqımızın əsrlər boyu çətin, həm də təmkin və səbirlə əldə etdiyi mədəni - mənəvi sərvətlərin, milli dəyərlərin varisliyinin təsdiq və təmin edilməsini, habelə folklor inciləri, milli ənənələrin və mərasimlərin qorunması və təbliğini, millətlərarası mədəni əməkdaşlığın və xarici ölkələrlə qarşılığı yaradıcılıq əlaqələrini nəzərdə tutur.

İndiki zamanda milli mədəniyyət təkcə öz xalqına xidmət etməklə kifayətlənməməli, milli mədəniyyətimizin bəşəriliyinə rəvac verilməli, onunla vəhdətdə inkişaf etməlidir. Çünki, mədəniyyətdə millilik və bəşəriliyin dialektikası ifadə olunur. Ən qiymətli milli sərvət olan istedadla yaradılmış sənət əsəri yalnız bir millətə yox, bütün millətlərə məxsusdur. Homer, Firdovsi, Nizami, Şekspir, Bethoven, Bax, Ü. Hacıbəyov, Mikelancelo hər biri öz millətlərinin və bütün bəşəriyyətindir.[3]

Xarici ölkələrlə qarşılıqlı yaradıcılıq əlaqələrində mədəniyyətlərə sərhəd olmamalıdır, əksinə Azərbaycanla təmasda, ünsiyyətdə olan xalqların mədəniyyətlərini bir araya gətirmək, mənəvi dəyərləri üzə çıxarmaq müqayisəli kulturologiyanın qarşısında duran ən başlıca vəzifələrdən biri hesab edilir.

Dünya xalqları yaşadıqca onların mədəniyyətləri də bir-birinə inteqrasiya edəcək, mədəni kulturoloji əlaqələri də millətlərarası ünsiyyət mədəniyyətinə, xalqların bir-birinə yaxınlaşmasına, onların arasında inam və etimadın, qardaşlıq və dostluq tellərinin daima möhkəmlənməsinə təkan verəcəkdir. Beynəlxalq mədəni əlaqələr ünsiyyət mədəniyyətinin formalaşmasında, mənəvi və fiziki tərbiyənin, istirahət və əyləncənin təşkilində, şəxsiyyətin mənən zənginləşməsində, hər bir fərdin elmi biliklərə yiyələnməsində xüsusi əhəmiyyət kəsb edir. Mədəni fəaliyyətin təşkili təkcə fərdlərarası ünsiyyətin gerçəkləşməsində deyil, eyni zamanda beynəlxalq mədəni əlaqələrin və bəşəri münasibətlərin inkişaf etməsində böyük əhəmiyyətə malikdir. Bu gün mədəni fəaliyyətin təşkili istirahət və əyləncənin, asudə vaxtın mədəni təşkilinin vasitəsi kimi nəzərdən keçirilir.

Beynəlxalq mədəni əlaqələr zamanın öz məhsuludur. Bu sahə sosial mədəni fəaliyyətə qoşulan konkret şəxsiyyətlə mənəvi həyatın inteqral təzahürü hesab olunan mədəniyyət arasında bir körpüdür. Bu körpü şəxsiyyətin yaradıcı potensialının maksimal inkişafının yeni metodları ilə formalaşaraq, onun şəxsi

[1] Bax: "Azərbaycan" qəzeti, 10 noyabr, 2001-ci il

[2] R. Ağayev Azərbaycan beynəlxalq mədəni əlaqələri B. 2002. səh. 7.

[3] Şəmsizadə N. Azərbaycan ideologiyası. B. 1996. səh. 77

keyfiyyətləri və zəkasının zənginləşməsi ilə möhkəmlənir. Bu sahənin prinsipial xüsusiyyətlərindən ən başlıcası odur ki, o öz tədqiqində idealı yox, məhz müasir dünyanın obyektiv reallığını seçir və ümumbəşəri mənəvi dəyərlərə istinad edir. Beynəlxalq mədəni əlaqələr inkişaf etdikcə insana məxsus olan mənəvi keyfiyyətlər də daima formalaşmaqda davam edir. Mədəni inkişafın təsiri ilə insanlar intellektuallaşır, onların davranış və vərdişləri humanistləşir.

Beynəlxalq mədəni əlaqələrdə demokratik prinsiplərin bərqərar olması XXI yüzillikdə daha geniş vüsət alacaq və dövlətlərarası münasibətlərdə, dövlət quruculuğunda, ölkənin idarə edilməsində başlıca prioritetlərdən biri olacaqdır.

Bizim təqdim etdiyimiz bu dərslik, məhz beynəlxalq mədəni əlaqələr ixtisası üzrə ADMİU-da təhsil alan tələbələrin peşəkarlaşmasına kömək etmək məqsədi daşıyır.

# I FƏSİL

# BEYNƏLXALQ MƏDƏNİ TƏCRÜBƏ VƏ İNTEQRASİYA PROSESLƏRİ

## *1.1. Xarici ölkələrdə mədəni fəaliyyətinin təşkilinin kulturoloji mahiyyəti və onun ilkin şərtləri*

Müasir dövrdə xarici ölkələrin mədəniyyətlərinin müqayisəli şəkildə öyrənilməsi müstəqil Azərbaycan Respublikası üçün böyük əhəmiyyətə malikdir. Belə ki, hər bir xalqın özünəməxsus milli və dini xüsusiyyətləri, əxlaqi-mənəvi dəyərləri, adət və ənənələri, milli mentaliteti vardır ki, bu mövcudluq və rəngarənglik mədəniyyətlərin müqayisəli təhlilində xüsusi maraq doğurur. Onu da qeyd etmək lazımdır ki, əxlaqi, hüquqi, etik, estetik və mənəvi anlamlar müqayisəli kulturologiyada həmişə üstünlük təşkil etmişdir. Belə ki, müqayisəli kulturologiya xalqların və millətlərin adət və ənənələrini, bayram və mərasimlərinin ən mütərəqqi nümunələrini tətbiq edib, sistemləşdirir və onlardan kompleks tərbiyə vasitəsi kimi istifadə edir.

Müqayisəli kulturologiya dünyəvilik prinsiplərindən bəhrələnərək əlaqələndirici mövqe tutur, ayrı-ayrı mədəniyyətlərin inteqrasiyasına təminat yaradır, qloballaşma proseslərinin formalaşmasını sürətləndirir. Belə ki, Azərbaycanın bu gün dünya ölkələri ilə sərbəst mədəni əlaqələr qurmaq imkanları genişləndikcə, mənəviyyatımızda xarici mədəniyyətlərin təsiri də özünü göstərməkdədir.

Azərbaycan dövləti ikinci dəfə müstəqillik qazandıqdan sonra ölkəmizin dünya xalqları ilə mədəni əlaqələri daha da genişlənmişdir. Həm dövlət səviyyəsində, həm də ayrı-ayrı mədəniyyət fondları və assosiasiyaların fəaliyyəti dairəsində bir çox müxtəlif ölkələrin mədəniyyət siyasəti öyrənilir və onlardan mədəniyyət müəssisələrimizdə qabaqcıl təcrübə kimi istifadə olunur. Məsələn, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən 2001-ci ilin iyun ayının 27-29-da Bakıda "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım" adlı böyük elmi-nəzəri konfrans təşkil olunmuşdu. Konfransda Amerikanın, Fransanın, Norveçin, Yaponiyanın, Rusiyanın, habelə Azərbaycanın tanınmış kulturoloq alimləri iştirak edirdilər. Alimlər öz çıxışlarında dövlətlərarası əlaqələrin inkişaf etməsində mədəniyyətin daha böyük əhəmiyyət kəsb etdiyini söyləmişlər. ABŞ nümayəndəsi Ceyms Stüart çıxışında qeyd etmişdi ki, Amerika hökuməti mədəniyyət və incəsənət siyasəti məsələlərinə çox böyük əhəmiyyət verir. 2007-ci ildə Ağ Evdə mədəniyyət mövzusunda keçirilən konfransda Amerika mədəniyyətinin xaricdə nümayişinin və təbliğinin mədəniyyət siyasətinin çox vacib hissəsi olduğu xüsusi ilə qeyd olunmuşdu.

Ən maraqlısı odur ki, ABŞ beynəlxalq miqyasda özünün mədəniyyət siyasətini genişləndirmək üçün ən çox ölkənin muzeylərindən istifadə edir. MET, MOMA, Koçran, Metropoliten kimi muzeylər mədəniyyətin siyasi münasibətlərin yaxşılaşmasına tətbiq olunmasında daha fəal olmuşlar. Muzeylər müxtəlif ölkələrdə sərgilərini, elmi-nəzəri konfranslarını, ekspozisiya mübadiləsini və s. iş formalarını təşkil etməklə dövlətlərarası mədəni əlaqələrin genişlənməsində yaxından iştirak edirlər. Belə işgüzar əlaqələrin səmərəli təşkil olunması üçün kulturologiyanın müqayisəli əhəmiyyəti daha böyükdür. Bu sahədə fəaliyyət göstərən peşəkarların, xüsusilə, nəzəriyyəçilərin apardıqları təhlillər, təşkilatçılıq metodları muzeylərin fəaliyyət istiqamətlərinin genişlənməsinə, tətbiq olunan iş formalarının müsbət nəticələr verməsinə səbəb olur. Buna görə də, muzeyşünaslıq xüsusi bir elm olsa da, müqayisəli kulturologiyanın fəaliyyət məkanına daxildir. Belə ki, muzeylər özlərinin bədii-kütləvi tədbirlərini məhz kulturologiyanın işləyib hazırladığı metodlar, formalar əsasında qururlar. Muzey özünün kütləvi tədbirləri ilə mədəniyyət müəssisəsi kimi diqqəti cəlb edir. Bu, Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım baxımdan kulturologiya elmi ilə bilavasitə bağlıdır. Kulturologiya muzey işi sahəsinə aid olan yenilikləri müqayisəli şəkildə öz fəaliyyət dairəsinə tətbiq edir.

Müqayisəli kulturologiyanın predmetində mədəniyyət mərkəzlərinin ardıcıl fəaliyyət göstərməsi yollarının araşdırılması, onların maliyyə mənbələrinin təşkili problemləri də öyrənilir. Bildiyimiz kimi bütün dünya miqyasında mədəni asudə vaxtın səmərəli təşkilinin texnologiyası, onun mənəvi mühiti daima təkmilləşir. Elmi-texniki tərəqqiyə uyğun olaraq yeni tipli mədəniyyət və istirahət parkları, əyləncə mərkəzləri meydana gəlir. Həmin əyləncə mərkəzləri kompyuterlər və başqa müasir texniki vasitələrlə təmin olunur.

Bir çox inkişaf etmiş ölkələrdə kulturologiyanın texniki audiovizual vasitələrinin modernləşməsi prosesi çoxdan başlamışdır. Məsələn, ABŞ-da hələ 1955-ci ildə uşaqlar üçün fantaziya ilə zəngin olan "Disneylend" adlı əyləncə parkı yaradılmışdır. Sonralar həmin parkın iş təcrübəsi Fransa, Yaponiya, Almaniya, İtaliya və başqa dövlətlərin mədəniyyət fəaliyyətlərinə tətbiq olunmuşdur. 1986-cı ildə fransızlar Parisdə "Disneylend" əyləncə parkının planı əsasında özlərinin nəhəng "Avrodisneylend" adlı

parklarmı yaratmışlar. "Fantaziya aləmində" parkı da "Disneylendin" təcrübəsinə istinad edilərək yaradılmışdır.

Bunlardan başqa dünyanın müxtəlif ölkələrində ekzotik əhəmiyyət kəsb edən, çox mürəkkəb əyləncə texnologiyalarına malik olan parklar yaradılmışdır. Onların təcrübəsi əsasında Azərbaycanda da yeni tipli əyləncə və istirahət parkları meydana gəlmişdir. Bunların içərisində "Lunapark" və "Akvapark" hazırda mütərəqqi iş təcrübəsi ilə seçilir.

Bu gün kulturologiya sahəsində dünyada baş verən modernləşmə mədəni asudə vaxt şəraitində əyləncə və istirahətin təşkilinin metodologiyasına və iş formalarına müasirlik baxımından yanaşmağı tələb edir. Belə ki, hazırda dünyada əyləncə və istirahətin sosial mühiti dəyişmiş, yeni ictimai-siyasi quruluşa xas olan fəaliyyət prinsipləri meydana gəlmişdir. Bu prinsiplər bazar iqtisadiyyatı şərtləri əsasında nəzərə çarpır, istirahət və əyləncənin təşkili formasına öz təsirini göstərir. İndi bazar iqtisadiyyatı qanunlarına uyğun olaraq bütün mədəni əyləncə və istirahət sahələri haqqı ödənilməklə realizə olunur.

Bazar iqtisadiyyatı mədəniyyət müəssisələrinin fəaliyyətində müstəqillik yaradır, onların özlərini maliyyələşdirmək imkanlarını genişləndirir. Bu vaxtdan kulturologiya bir elm sahəsi kimi dünya təcrübəsinə istinad edərək bazar iqtisadiyyatı şəraitində mədəniyyətin idarə olunmasının, onun maliyyələşdirilməsinin forma və metodlarını beynəlxalq standartlara uyğunlaşdırır.

Heç kəsə sirr deyil ki, müasir mərhələdə bazar iqtisadiyyatı dünyada mədəniyyətin məzmununa, onun inkişaf istiqamətlərinə çox böyük təsir göstərir. İndi dünyada mövcud olan mədəni fəaliyyət proseslərində şou-biznes anlamı ön plana keçmişdir. Mədəniyyət və incəsənət nümayəndələri öz fəaliyyətlərində iqtisadi gəlir əldə etməyə daha çox üstünlük verirlər. Buna görə də onlar öz xidmətlərini reklam edir, yaradıcılıq proqramlarmı da bazar iqtisadiyyatı şəraitinin tələbləri səviyyəsində qururlar. Təbii ki, müasir mərhələdə mədəni fəaliyyətin məzmun və formasının dəyişməsi müqayisəli kulturologiyanın predmetinə də yeniliklər gətirir. İlk növbədə mədəni fəaliyyətin bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılmasının xüsusiyyətləri müqayisəli kulturologiyada öz əksini tapır. Mədəniyyətin inkişafına müsbət təsir göstərən həm dövlət, həm də ictimai yardımların obyektləri müqayisəli kulturologiyanın predmetində geniş şərh olunur, sahibkarlıqla mədəni prosesin qarşılıqlı əlaqələrinin həm mənəvi, həm də iqtisadi əhəmiyyəti, istehsal müəssisəsi ilə mədəniyyət müəssisəsinin qarşılıqlı iş birliyinin məqsəd və məzmunu aşkarlanır. Bazar iqtisadiyyatı mühitində menecment və marketinq xidmətinin mahiyyəti açıqlanır. Menecerlərin və marketoloqların peşəkarlığından istifadə olunaraq istehsal və biznes müəssisələri ilə işgüzar əlaqələr yaradılır. Onlar ikitərəfli maraqların reallaşması üçün sosial, mədəni və iqtisadi mühit formalaşdırırlar. Bunun da nəticəsində mədəni xidmətlərdən istifadə edən sahibkarlar öz gəlirlərini daha çox artırmaq imkanı əldə edir, fəaliyyətlərini stabilləşdirə bilirlər.

Sahibkarlıq inkişaf etdikcə mədəniyyət sahələrinə sponsorluq-xeyriyyəçilik fəaliyyəti də artır. Mədəniyyətin maliyyə imkanları genişləndikcə o, özünün yaradıcılıq mühitini genişləndirməyə meylli olur, yəni, təkcə mədəni-əyləncə xidməti ilə kifayətlənmir. Eyni zamanda mədəniyyət sahələrində geniş istifadə edilən məhsulların istehsalı və kommersiyası ilə də məşğul ola bilir.

Hamımıza məlumdur ki, mədəni xidmətlər sahəsi çox genişdir. Cəmiyyət inkişaf etdikcə bu sahələrə tələbat da artır. Belə ki, kulturologiya ilə məşğul olan müəssisələr və onlarda fəaliyyət göstərən mütəxəssislər sosioloji tədqiqatlar əsasında bu tələbatın həcmini, onun mahiyyətini öyrənir, onların təminatının daha səmərəli variantlarını işləyib hazırlayırlar. Aparılan tədqiqatlar həm diferensial, həm də kütləvi formada yerinə yetirilir. Belə ki, yaş və peşə maraqları, cinsi və başqa sosial maraqlar da nəzərdən qaçmır. Təbii ki, müxtəlif sosial qrupların maraqlarının və mənəvi tələbatlarının öyrənilməsini sosiologiya elminin obyektindən ayrı təsəvvür etmək mümkün deyildir.

Ümumiyyətlə, müqayisəli kulturologiya bir çox elmlərin nailiyyətlərindən bəhrələnir, onların tədqiqat metodlarından səmərəli şəkildə istifadə edir. Belə ki, tarix, psixologiya, pedaqogika, etnoqrafiya, arxeologiya, fəlsəfə, estetika, etika, sənətşünaslıq və s. humanitar elm sahələri kulturologiyanın inkişafında çox mühüm əhəmiyyətə malikdir. Bu elmlər kulturologiyanın həm nəzəri mənbələrini, həm də təcrübə bazasını öz tədqiqatlarının nəticələri ilə daima zənginləşdirir. Həmçinin, folklorşünasların apardıqları tədqiqatlar hesabına bədii-kütləvi tədbirlərin emosional ifadə vasitələri genişlənir, inkişaf edir. Yeni folklor materialları mədəniyyət müəssisələrinin bədii-kütləvi işinə tətbiq olunur. Bu səbəbdən də demək olar ki, kulturologiya bir sıra fundamental elmləri özündə birləşdirir və onların nailiyyətlərinin mədəni həyatımıza daxil olmasında xüsusi əhəmiyyət kəsb edir.

Xüsusilə, XX əsrin sonu və XXI əsrin başlanğıcında kulturologiya mənəvi həyatın zənginləşməsinə təkan verən, sosial problemlərin həlli istiqamətində özünün fundamentallığı ilə fərqlənən bir elm sahəsi, əməli mədəni fəaliyyətin qurucusu kimi nəzərə çarpır. Kulturologiya insanların biri-biri ilə mədəni ünsiyyətinin və davranışının sosial mexanizmini araşdırır, milli-ənənəvi xüsusiyyətləri beynəlxalq nailiyyətlərlə zənginləşdirir.

Mədəni ünsiyyətin beynəlxalq təcrübəsi sosial həyatın bütün istiqamətlərində nəzərə çarpır və kulturologiyanın əsas tədqiqat sahəsi kimi diqqəti cəlb edir. Təbii ki, Azərbaycan kulturoloqları da beynəlxalq təcrübənin yerli mədəniyyət müəssisələrinin işinə tətbiq olunmasına xüsusi əhəmiyyət verirlər. Bu baxımdan tarixi ənənələr zəminində Rusiyanın kulturoloq alimlərinin yaradıcılıqları ilə tanışlıq üstünlük təşkil edir. M. A. Ariarski, P. A. Podbolotov kimi rus alimlərinin kulturologiya haqqında fikirlər daha böyük maraq doğurur. Məsələn, P. A. Podbolotov kulturologiyanın fundamental və tətbiqi hissələrə bölündüyünü qeyd edir. Onun fikrincə kulturologiya rasional və empirik mahiyyət kəsb edərək mənəvi həyatın əsas tələbatlarını ödəyən geniş anlayış kimi nəzərə çarpır. Bu elm digər elmlərdən fərqli olaraq cəmiyyətin sosial-iqtisadi proseslərinə daha geniş təsir göstərir. Kulturologiya həm tarixi-ənənəvi hadisələrin qoruyucusu, həm də insan xarakterini formalaşdıran elmi-fəlsəfi mahiyyəti ilə başqa elmlərdən fərqlənir.

Müqayisəli kulturologiya həm rasional, həm də empirik mahiyyəti ilə seçilir və eyni zamanda ictimai həyatın bütün sahələrində dinamik xarakterli fəaliyyəti ilə fərqlənir. Müqayisəli kulturologiya ümumbəşəri mənəvi-əxlaqi dəyərlərə istinad edərək insan əxlaqının, istedad və qabiliyyətinin, ünsiyyət mədəniyyətinin formalaşmasında əməli mahiyyət kəsb edir və beynəlxalq əhəmiyyətə malikdir.

Məhz müqayisəli kulturologiya ilk növbədə mədəniyyətin işlək tərəflərini tənzimləyir, onu iqtisadiyyata, siyasətə, sosial mühitə uyğun şəkildə idarə edir. O, hər bir fərdin mədəni həyata qatılması mexanizmini işləyib hazırlayır, məişət, əmək, istirahət prosesini stimullaşdırır. Bunun da nəticəsində hər bir fərdin dünyagörüşü zənginləşir, əxlaq və davranışı mövcud ictimai quruluşun həyat prinsiplərinə uyğunlaşdırılır.

Sovet dövründə kulturologiya “mədəni-maarif işi” adı altında mövcud olmuş, sırf siyasi-əxlaqi əhəmiyyət kəsb etmişdir. İnsanlara ideologiya aşılayan bir sahə kimi mövcud olmuşdur. Bu cəhd kulturologiyanı ideologiyalaşdırmış, onun əhatə dairəsini məhdudlaşdırmışdır. Kulturoloqların fəaliyyəti üçün azad yaradıcılıq mühiti olmamışdır. Kulturologiya kommunist rejiminin ideyalarının, siyasətinin təbliğat maşınına çevrilmişdi. Lakin etiraf etmək lazımdır ki, sovet hakimiyyəti totalitar bir rejim olsa da savadsızlığın ləğvinə nail olmuş, mədəni-maarif şəbəkələrini genişləndirmiş, özfəaliyyət yaradıcılığının inkişafına və kütləviləşməsinə şərait yaratmışdır. Tarixi abidələrin və başqa mənəvi sərvətlərin qorunub mühafizə olunmasına xüsusi diqqət yetirmişdir. Bütün bu müsbət hallarla yanaşı ayrı-ayrı yaradıcı adamlara fərdi azadlıq mühiti yaradılmamışdı. Bədii yaradıcılıqla məşğul olanlara sosializm realizmi ideyalarından kənara çıxmaq qadağan edilmişdi.

### *1.2. Azərbaycanın beynəlxalq mədəni əlaqələr sisteminə inteqrasiyası*

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra, Azərbaycanın beynəlxalq mədəni əlaqələri yeni bir inkişaf mərhələsinə qədəm qoyaraq sürətlə inkişaf etməyə başlamış, demokratik inkişaf yolunu seçmiş və insanların mədəni-estetik baxışlarında da azadlıq meylləri təkamül etmişdir. Eyni zamanda ölkənin mənəvi-estetik potensialı da yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Bu proses kulturologiyanın da elmi mahiyyətini yeniləşdirdi. Ümumiyyətlə, ictimai-siyasi quruluşların xüsusiyyətlərindən asılı olaraq mədəniyyət və kulturologiya anlayışlarına müxtəlif mövqelərdən yanaşılmışdır.

XX əsrin əvvəllərində yaşamış türk sosioloğu Ziya Göyalp qeyd edirdi ki, kültürlə mədəniyyət bir-biri ilə fərqlənən anlayışlardır. Ziya Göyalpın fikrincə “kültür milli olduğu halda, mədəniyyət uluslararasıdır - beynəlmiləldir. Kültür yalnız bir millətin din, əxlaq, hüquq, ağıl, estetika, dil, iqtisadiyyat və texnika ilə bağlı yaşayışlarının uyumlu-ahəngdar bir bütünüdür. Mədəniyyət isə eyni inkişaf səviyyəsində olan bir çox millətlərin toplumsal ictimai həyatlarının ortaq bir bütünüdür. Məsələn, Avropa və Amerika mədəniyyət dairəsində bütün Avropada yaşayan millətlərin ortaq bir Qərb mədəniyyəti vardır. Bu mədəniyyətin içində bir-birindən ayrı və baxımsız-müstəqil bir ingilis kültürü, bir alman kültürü, bir fransız kültürü və s. mövcuddur”.[1] Bu fikirlər Ziya Göyalpın məfkurəçiliyindən və türkçülüyündən irəli gəlirdi. O, milli kültürün inkişafına daha çox meylli idi. Z. Göyalp milli kültürü yetkinlik kimi qəbul edirdi. Onun təhlilinə görə fransızca “kültür” sözünün də ayrı-ayrılıqda iki anlamı vardır. Bu anlamlardan birini “milli kültür” (hars), o birini “yetkinlik” (məhzib) kimi çevirə bilirik. Milli kültür haqqındakı bütün yanlış anlamlar fransızca “kültür” sözünün bu cür iki anlamlı olmasındadır. Ziya Göyalpa görə “kültür ilə yetkinlik arasındakı fərqlərdən birincisi, kültürün “demokratik”, yetkinliyin isə “aristokratik” olmasıdır. Kültür xalqın gələnəklərindən - ənənələrindən, alışqanlıqlarından - vərdişlərindən, adətlərindən, şifahi və yazılı ədəbiyyatından, dilindən, musiqisindən, dinindən, əxlaqından, bədii və iqtisadi məhsullarından ibarətdir”.

[1] Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, “Maarif”, 1991 səh. 40

Ziya Göyalp XX əsrin əvvəlində yaşamasına baxmayaraq kültür anlamını izah edərkən kulturologiyanın əhatə dairəsinin rəngarəng olması arzusunda da olmuşdur. O, bir sosioloq kimi estetik zövqlərin müxtəlifliyini, insan təbiətinin qeyri-sabitliyini də unutmamışdır. Kulturologiya anlamını geniş mənada işlətməsə də mədəni tələbatın müxtəlif olduğunu bilmiş, yalnız milli kültürə qapılmağın insanın mənəviyyatında məhdudiyyət yaradacağını anlayaraq yazmışdır: "... insan hər gün eyni yeməyi yeməkdən usandığı kimi, daim eyni kültürə mənsub ədəbiyyatdan, eyni musiqidən, eyni memarlıqdan və eyni qidalanmaqdan da bezər".[1]

Məhz kulturologiya bir elm sahəsi kimi daima insanların gündəlik mənəvi tələbatını ödəyir, onları yalnız bir kültürün bədii-estetik materialları ilə deyil, müxtəlif kültürlərin bədii əhəmiyyət kəsb edən mənəvi sərvətləri ilə də qidalandırır. Bu prosesdə həm milli zövqlər, həm də diferensial və kütləvi, qrup zövqləri də nəzərə alınır.

Kulturologiya estetik kateqoriyalara istinad edərək insan duyğularının hissi-emosional tələbatını ayırd edir, müxtəlif tədbirlərin vasitəsilə mənəviyyatı kamilləşdirə bilin, insanları bəzən güldürən, bəzən isə həyəcanlandıran bədii formalar və metodlar seçir. Hissi-emosional tələbatının ödənilməsində incəsənətin bütün növlərindən istifadə olunur. Teatr, kino, musiqi, xoreoqrafiya, təsviri incəsənət insan mənəviyyatını zənginləşdirən, şəxsiyyətin formalaşmasına daha emosional təsir göstərə bilən vasitələr kimi qiymətləndirilir. Elə buna görə də keçmiş sovetlər ittifaqı məkanında bədii xalq yaradıcılığının inkişafına xüsusi diqqət yetirilirdi. Özfəaliyyət kollektivləri həmkarlar ittifaqları, əmək kollektivləri və bir sıra ictimai təşkilatlar tərəfindən maliyyələşdirilirdi. Uşaq və yeniyetmələrin bədii özfəaliyyət yaradıcılığı ilə məşğul olmaları üçün böyük şəraitə malik olan maddi-texniki bazalar mövcud idi. Bu bazalarda müxtəlif yaş qrupları üzrə maraq klub və dərnəkləri də fəaliyyət göstərirdi. Bədii xalq yaradıcılığının daha geniş məkanda inkişaf etməsi tətbiqi kulturologiyanın problemlərinin həll edilməsini asanlaşdırırdı. Təkcə mərkəzi şəhərlərimizdə deyil, ölkəmizin qəsəbə və kəndlərində də bədii özfəaliyyət yaradıcılığını kütləvi tədbirlərlə təbliğ etmək mümkün idi. Çünki hər bir kənd klubunda da özfəaliyyət kollektivləri fəaliyyət göstərirdi. Özfəaliyyət yaradıcılığının tədqiqi ilə məşğul olan professor Ramiz Ağayev respublikamızda mədəniyyət şəbəkələrinin həcminə diqqət yetirərək, yazmışdır: "Cəmiyyətin intellektual, siyasi həyatında mühüm rol oynayan mədəniyyət, incəsənət, mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradılmışdır. Respublikamızda 28 teatr, 160 muzey, 100-yə yaxın mədəniyyət və istirahət parkı, 4000-dən çox kitabxana, 3500-ə yaxın klub və mədəniyyət evləri, 100-dən çox xalq kollektivi, 2500-dən artıq teatr kollektivi, 1700 musiqi kollektivi, 2000-ə yaxın xor-vokal kollektivi, 1000-dən artıq rəqs ansamblları fəaliyyət göstərir".

Lakin ölkəmiz imperiya əsarətindən azad olunduqdan sonra keçid dövrünün özünəməxsus qanunlarına uyğun olaraq ictimai həyatın bütün sahələrində olduğu kimi mədəniyyət sahəsində də qeyri-sabitlik yarandı. Cəbhə hakimiyyəti dövründə mədəniyyət şəbəkələrinin fəaliyyəti başqa məqsədlərə yönəldildi. Onlardan bəziləri kommersiya mərkəzlərinə və ayn-ayrı təşkilatların ofisinə çevrildi.

Qeyd etmək lazımdır ki, imperiya dağıldıqdan sonra mədəniyyət sahəsində Rusiyanın özündə daha böyük böhranlar baş vermişdir. Rusiyanın tanınmış kulturoloqlarından biri olan M. A. Ariarskinin fikrincə rus mədəniyyəti çox çətin bir böhran içərisində çapalamaqdadır. M. A. Ariarskinin qeydlərinə görə maliyyə çətinlikləri ucbatından rus mədəniyyəti "iflic" vəziyyətinə düşmüşdür. Xüsusilə, daha demokratik fəaliyyətlə məşğul olan asudə vaxt mərkəzləri daha acınacaqlı vəziyyəti yaşamışdır. Bu baxımdan yalnız kommersiya ilə məşğul olan, özünü sərbəst surətdə maliyyələşdirən mədəniyyət müəssisələri bu yaranmış böhrandan çıxmaq şansı qazanmışdır.

Qeyd olunan faktlara istinad edərək deyə bilərik ki, mədəniyyətdə baş verən bir sıra tənəzzüllü proseslər MDB məkanına daxil olan bütün dövlətlərdə mövcud olmuşdur. Bu dövlətlər arasında Azərbaycan Respublikası mədəniyyətin inkişafı istiqamətində daha çox işlər görə bilmişdir. Məhz bunun nəticəsində tətbiqi kulturologiyanın da müasir təcrübə sahələri meydana gəlmişdir. Xüsusilə, adət və ənənələrin ictimai həyata realizə olunması zəminində nəzərə çarpacaq dərəcədə inkişaf baş vermişdir. Mədəniyyət sahəsinə daxil olan özəl sahələrin miqdarı sürətlə artmışdır. Belə ki, sovet rejimi dövründə toy mərasimlərini, nikah, ad günləri və başqa ənənəvi ailə-məişət şənliklərini keçirməyin bir sıra çətinlikləri olduğu halda indi özəl şadlıq evləri və sarayları bu problemlərin həllini böyük peşəkarlıqla aradan qaldırır. Həmçinin, müasir tətbiqi kulturologiyanın tələblərinə uyğun olaraq mədəniyyət və incəsənət adamlarının da istedad və bacarıqlarının artmasına, onların sənət karyerasının inkişaf etməsinə kifayət qədər şərait yaradılır.

Müqayisəli kulturologiya üçün xalqların milli adət və ənənələrinin öyrənilməsi və onların mənəvi dəyərlər sisteminə realizə olunması həmişə aktual olmuşdur. Çünki tarixin bütün dövrlərində millətin və xalqın ictimai şüur səviyyəsini əks etdirən adət və ənənələr həm də mədəni tərəqqinin, əxlaqi

---

[1] Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, "Maarif", 1991 səh. 85

xüsusiyyətlərin göstəriciləri kimi nəzərə çarpmışdır. Digər tərəfdən hər bir millətin və xalqın bədii yaradıcılıq nümunələri adət və ənənə məkanında klassikləşmiş, mədəni irsə çevrilmişdir. Yeni yaranan mənəvi dəyərlər də varislik prinsipinə uyğun olaraq keçmiş adət və ənənələrdən bəhrələnmişdir. Lakin, varislik prinsipi insanların mənəvi dəyərlərinin inkişafına, yeniləşməsinə mane olmamışdır. Sadəcə olaraq adət və ənənə formasında mənəvi mədəniyyətin tarixi təcrübəyə əsaslanan yeni istiqamətləri formalaşmışdır. Məhz yaranan yeni istiqamətlərin öyrənilməsi, onların tarixi inkişaf əsasında toplanan təcrübəsinin müasir cəmiyyətimizin həyatına şamil edilməsi tətbiqi kulturologiyanın əsas vəzifələrindən biri hesab edilir.

Qeyd edək ki, bütün tarix boyu əsarət altına düşmüş hər bir xalqın mədəniyyətində, xüsusi ilə milli dəyərlər sistemini özündə cəmləşdirən adət və ənənələrdə deformasiya halları da baş verir. Azərbaycan ərazisinin böyük bir hissəsinin 200 ilə yaxın Rusiyanın işğalı altında olması bir çox milli və dini adət və ənənələrimizin ciddi siyasi və mənəvi təzyiqlər altında qalmasına səbəb olmuşdur. Dini bayramlarımızın keçirilməsinə qadağalar qoyulduğundan onların bədii-emosional ifadə vasitələri xalqımızın yaddaşından silinmişdir. Onların əvəzinə sosialist həyat tərzini təbliğ edən, mahiyyət etibarı ilə siyasi, ideoloji xüsusiyyətə malik olan adət və ənənələr təbliğ edilmişdir. Bunun da nəticəsində sovet dövründəki bütün mədəniyyət müəssisələri dini adət və ənənələrə qarşı mübarizə mərkəzlərinə çevrilmiş, kommunist rejiminin tarixi bayramlarını geniş miqyasda təbliğ etməklə məşğul olmuşlar.

Azərbaycan xalqı öz müstəqilliyini əldə etdikdən sonra isə "Qurban", "Ramazan", "Novruz" kimi dini və milli bayramlarımızın dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunmasına başlanmışdır.

Məhz müasir mərhələdə Azərbaycan xalqının dini və milli adət və ənənələrinin icra edilməsi prosesində siyasi və ideoloji amillərin aradan qaldırıldığını nəzərə alaraq deyə bilərik ki, milli və dini adət və ənənələrimizdəki bədii-emosional cəhətlərin tədqiq olunmasına, onlarla əlaqədar olan folklor nümunələrinin aşkar olunmasına böyük ehtiyac vardır. Bədii-estetik dəyərə malik olan incəsənət nümunələrini araşdırmaqla milli mentalitetimizin reallıqlarını bütün dünya miqyasında nümayiş etdirmək mümkündür. Müqayisəli kulturologiyanın əsas məqsədlərindən biri də məhz xalqımıza məxsus olan bədii duyğuların mahiyyətini açıb, onların insan mənəviyyatına təsirini əyani vasitələrlə və müxtəlif forma və metodlarla dünyaya nümayiş etdirməkdən ibarətdir.

Müqayisəli və tətbiqi kulturologiyanın ən böyük metodlarından biri məhz hər bir ictimai, siyasi, fəlsəfi fikri bədii hadisəyə çevirməkdir. Bunun üçün tətbiqi kulturologiya bədii-sənədli dramaturgiya janrından yaradıcı şəkildə istifadə edir, nəzərdə tutulan hadisələrin ideyasını aşkar edib onları əvvəlcə ssenari nümunəsində təcəssümləşdirir. Təcəssümləşdirmə həm nümayişetdirmə, həm də teatrlaşdırma vasitəsilə reallaşdırılır.

Qeyd olunan nümunələr əsasında bədii ifadə vasitələri toplanılır və onlar ssenariçi-rejissor tərəfindən mövzunun ideya məzmununa uyğunlaşdırılır. Bunun da nəticəsində mədəniyyətin bədii-kütləvi forması meydana çıxır. Bədii-kütləvi için formalarından istifadə edilərək unudulub yaddaşdan silinmiş milli adət və ənənələrimizi yenidən bərpa edir, folklor nümunələrimizi öyrənib həmin bədii kütləvi tədbirlərin ifadə vasitələrinə çeviririk.

Kulturoloq alim Telman Haqverdiyevin fikrincə "bütün tarixi mərhələlərdə bədii ifadə vasitələrindən obrazlı emosional təsir amili kimi geniş istifadə edilmişdir. Bədii söz, bədii boya, musiqi və başqa sənət növləri insanın mənəvi aləminə dərindən müdaxilə edən ən güclü təsir vasitələri kimi qiymətləndirilmişdir. Buna görə də dini baxışların və sinfi mövqelərin tətbiqində bədii-kütləvi formalara böyük üstünlük verilmişdir. Hələ ibtidai dövrlərdə yaranan sehrbazlıq oyunları, animistik mərasimlər, totem bayramları və s. bədii vasitələrlə müşayiət olunmuşdur. Dünyanın bütün dini məbədlərində bu gün də bədii ifadə vasitələrindən geniş istifadə edilir".[1]

Ən maraqlı cəhət odur ki, dini ayin və mərasimlərdə həmişə nümayişetdirmə və teatrlaşdırma metodlarından istifadə edilmişdir. Hətta allahların şərəfinə təşkil olunan qədim kütləvi bayramlar da teatrlaşdırılmışdır. Bədii təcəssümləşdirmə zamanı həmin allahlar haqqında xalq tərəfindən yaradılmış miflərdən geniş istifadə olunmuşdur. Məsələn, antik dövrdə yunanların şərab allahı sayılan Dionisin şərəfinə ildə üç dəfə kütləvi bayram keçirilmiş və bayram şənliklərində ənənəvi olaraq miflərdən, rəqslərdən, xor mahnılarından yaradıcılıqla istifadə edilmişdir.

Buna görə də mahiyyət etibarı ilə hələ antik dövrdə bayram və mərasimlərə hazırlıq prosesi müasir müqayisəli kulturologiyanın ilkin mərhələsi sayıla bilər. Belə ki, aparılan tədqiqatlara görə "bu bayramlarda allahlar təbliğ edilərkən miflərdən, musiqidən, xor mahnılarından, teatr maskalarından, dekorasiyalardan geniş istifadə edilirdi. Mərasimlərdə hazırlıq görən və onları idarə edən şəxs "Arxont"

[1] T. Haqverdiyev. Bədii-kütləvi işin təşkili və metodikası. Bakı, ADU-nun nəşriyyatı, 1992, səh. 9-10.

adlanırdı. Arxont bayramın maliyyə xərclərini dəqiqləşdirir, repertuarını seçir, iştirakçılarını müəyyənləşdirirdi”.[1]

Yəqin ki, qeyd olunan tarixi mərhələ müasir kulturologiyanın ilkin tarixi təcrübəsi olmuş müqayisəli və tətbiqi kulturologiyanın forma və metodlarının əsası da məhz elə demək olar ki, həmin dövrdə qoyulmuşdur. Çünki tarixi faktlardan göründüyü kimi həmin dövrdə də kütləvi bayram və mərasimlərin ssenarisi hazırlanmış, onlarda bədii ifadə vasitələrindən, əyani vəsaitlərdən geniş səpkidə istifadə edilmişdir. Mədəniyyətdə daha geniş mənada təkamülün əsası qoyulmuşdur. İncəsənətə aid terminlər və adlar meydana gəlmişdir. Həmin sənət terminləri və adları müasir dövrdə də işlədilməkdədir.

Lakin ictimai formasiyalar dəyişdikcə sinfi və demokratik, totalitar və s. xarakterli cəmiyyətlərin siyasi-ideoloji baxışlarına uyğun olan müxtəlif mədəniyyətlər yaranmışdır. Yeni yaranan hər bir mədəniyyətin öz təkamül prinsipləri olmuşdur. Müqayisəli və tətbiqi kulturologiyanın vəzifələrindən biri də bu prinsipləri dərindən öyrənib onları mövcud cəmiyyətin həyatına tətbiq etməkdən ibarətdir. Məsələn, sovet dövründə mədəniyyət tam şəkildə dövlət dotasiyası ilə idarə olunurdu. İndi də mədəniyyətə dövlət yardımları vardır. Ancaq indiki cəmiyyətdə mədəniyyətin idarə olunması bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılmışdır. Bu işin reallaşdırılması vəzifəsi isə əsasən tətbiqi kulturologiyanın üzərinə düşür. Lakin bazar iqtisadiyyatı şəraitində mədəniyyətin idarə olunmasını indiki sosial-siyasi quruluşumuza uyğun gələn inkişaf etmiş ölkələrin təcrübəsinə istinad etmədən reallaşdırmaq mümkün deyildir. Yalnız dünyada mövcud olan və ölkəmizin indiki iqtisadi quruluşuna uyğun gələn təcrübə formasına keçmək lazım gəlir.

Bildiyimiz kimi dünyanın ən böyük, qüdrətli dövlətilərindən biri Amerika Birləşmiş Ştatlarıdır. Maraqlıdır ki, Azərbaycan Respublikasında əhalinin mədəni fəaliyyətinin vaxtının təşkili işində xüsusi ali və orta pedaqoji sistem olduğu halda, ABŞ-da mədəni fəaliyyətin kulturoloji sistemi yoxdur. Bizim ölkədə mədəniyyət və incəsənət sahəsi üzrə kadrlar hazırlayan xüsusi ali və orta təhsil müəssisələri var. Lakin ABŞ-da mədəni fəaliyyətin təşkilatçıları müxtəlif peşə sahibləridirlər. Bu peşə sahibləri onlar üçün yaradılan xüsusi kurslarda təkmilləşirlər.

Digər tərəfdən ABŞ-da hər ştatın mədəniyyət haqqında öz qanunu vardır. Bu qanun ştat ərazisinin xüsusiyyətlərinə uyğun olaraq hazırlanır. Ölkədə mədəni fəaliyyətin təşkili ilə həm dövlət, həm də müxtəlif təşəbbüs qrupları məşğul olur. Dövlətin təşkil etdiyi mədəni xidmət, əhalinin bütün yaş qruplarını və təbəqələrini əhatə edir. Mədəni fəaliyyətin təşkili sahəsində dövlətin bir çox qanun və proqramları hazırlanır. Onların cəmiyyətin həyatına tətbiq olunmasına ciddi nəzarət edilir. Mədəniyyətə aid hazırlanan proqramların maliyyələşdirilməsi əsasən vergidən gələn gəlirlər hesabına yerinə yetirilir. Eyni zamanda müxtəlif nazirliklərin və idarələrin də mədəni asudə vaxtın təşkilində öz maraqları vardır. Məsələn, Kənd Təsərrüfatı Nazirliyinin ölkə əhalisi arasında kənd təsərrüfatı sahəsi üzrə biliklərin təbliğ olunmasında böyük marağı vardır. Bu nazirlik ölkənin hər yerində “Amerika fermerləri” adlı klublar yaratmışdır. Qeyd edək ki, həmin klublar kənd əhalisinin təsərrüfat məşğuliyyətinin təşkili üzrə bilgilərini artırmaqla yanaşı, onların həm də mədəni asudə vaxtının səmərəli keçməsi qayğısına da qalırlar.

Şəxsi təşəbbüsü ilə mədəni asudə vaxtın təşkilinə qoşulan imkanlı adamlar isə xüsusi birliklər və assosiasiyalar yaradır, daha maraqlı və geniş əhatə dairəsinə malik olan mədəni-kütləvi tədbirlər həyata keçirirlər.

ABŞ-da hələ vaxtı ilə 1906-cı ildə yaradılmış “Milli Asudə Vaxt Assosiasiyası” adlı təşkilat indi də bu ölkədə mədəniyyətin inkişafında xüsusi rol oynayır. Mədəni asudə vaxtın təbliği və reklamı üçün həmin assosiasiyanın müxtəlif istirahət və əyləncə parkları vardır.

Bu təşkilat ölkənin tanınmış pedaqoqlarının gücü ilə 37 şəhərdə oyun meydanları yaratmış, mədəni asudə vaxtın təşkili ilə məşğul olmuşdur.

Yeni iqtisadi quruluşa keçdiyimizi nəzərə alaraq kapitalist dünyasında mövcud olan iş təcrübəsinə və nəzəriyyəsinə əsaslanmaqla müqayisəli kulturologiyanın predmetini müasirləşdirməyi, mədəniyyətin idarə olunmasının yeni formalarını cəmiyyətimizə tətbiq etməyə çalışmalıyıq.

Köhnə nəzəriyyə və təcrübə əsasında mədəniyyətin idarə olunmasını təsəvvür etmək mümkün deyil. Çünki indiyə qədər mövcud olan kulturologiya kommunist ideologiyasına xas olan prinsiplərə əsaslanırdı və müasir dövrün həyat tərzinə uyğun gəlmirdi. Lakin klublar, mədəniyyət sarayları, istirahət və əyləncə parkları, mədəni idman kompleksləri və s. mədəniyyət formaları indi də şəxsiyyətin formalaşması, ailə istirahəti və əyləncələrinin səmərəli keçməsi işi aparır, tərbiyə və təhsilin daha da inkişaf etməsi üçün yeni forma və metodlar arayırlar.

Onu da qeyd edək ki, müqayisəli kulturologiya başqa elmlər kimi empirik və rasional bilgilər əsasında formalaşan ümumi metodologiyaya daha çox üstünlük verir. Eyni zamanda dövrün və ictimai həyatın tələblərinə uyğun olaraq bir elm kimi özünün də müasir metodologiyasını yaradır. Məhz bunun

---

[1] T. Haqverdiyev. Bədii-kütləvi işin təşkili və metodikası. Bakı, ADU-nun nəşriyyatı, 1992, səh. 11.

əsasında müqayisəli kulturologiyanın tədqiqat obyektləri daima yeniləşir, müvafiq sahələr üzrə istiqamətləndirilir.

### *1.3. Beynəlxalq mədəni əlaqələr sahəsində ixtisaslı kadrların hazırlanmasının əhəmiyyəti*

Hazırda kulturologiyanın əsas vəzifələrindən ən əhəmiyyətlisi mədəniyyət müəssisələrinə rəhbərlik üçün ixtisaslı kadrların hazırlanmasıdır. Hərtərəfli biliyə malik olan, estetik duyğusu və pedaqoji məharəti ilə fərqlənən, yüksək təşkilatçılıq qabiliyyətinə yiyələnən mütəxəssislərin yetişdirilməsi müasir kulturologiyanın əsas vəzifələrindən biridir. Məhz bu məqsədlə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində mədəniyyət və incəsənətin bütün sahələrini əhatə edən unikal ixtisaslar üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Bu işdə rektor Timuçin Əfəndiyevin müstəsna xidməti vardır.

Yeni mütəxəssislər hazırlanarkən cəmiyyətdə insan amilinə, şəxsiyyət azadlığına daha çox üstünlük verilir. İnsanların mədəni asudə vaxt fəaliyyətləri siyasiləşdirilmir, hər bir fərdin estetik duyumu, azad seçim imkanları nəzərə alınır. İnsanların arzu etdikləri istirahət və əyləncə, bədii və texniki yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradılır. Mədəni xidmət sahəsində rəqabət prinsipinə üstünlük verilir.

Məlumdur ki, müstəqil bir ölkə kimi inkişaf etmiş nəhəng dövlətlərlə mədəni əlaqələrin yaradılması indiki çətin geosiyasi məkanda Azərbaycan üçün çox vacibdir. Azərbaycan güclü dövlətlərin himayəçiliyini, dəstəyini qazanmadan öz müstəqilliyini lazımi səviyyədə qoruyub saxlaya bilməz. Həmin nüfuzu və dəstəyi qazanmaq üçün isə Azərbaycan dövləti öz xalqının qədim sivilizasiya yolu keçdiyini və bəşər mədəniyyətinə gətirdiyi mənəvi sərvətləri dünya ictimaiyyətinə təqdim etməyi bacarmalıdır. Bu təqdimat mədəni sərvətlərimizi dünyanın hərrac bazarlarına çıxarıb satmaqla baş vermir. Satışa çıxarılanlar heç zaman bizim olmamışdır. Ayrı-ayrı tarixi dövrlərdə milli xalçalarımız, məişət əşyalarımız, dekorativ-tətbiqi sənət nümunələrimiz satın alınaraq xarici ölkələrə daşınmış və Azərbaycan mədəniyyət xəzinəsində ağır itkilər olmuşdur. Məhz bütün bunları nəzərə alaraq Azərbaycan dövləti tarix və mədəniyyət abidələrimizi qoruyub saxlayır, onlardan daha səmərəli şəkildə istifadə edir. Mədəni irsimizin qorunub saxlanılması dövlətin mədəniyyət siyasətinin tərkib hissəsi hesab olunur. Lakin mədəni irsin beynəlxalq siyasətə tətbiq edilməsi vəzifəsi əsasən mədəniyyət müəssisələrinin və onların kulturoloq mütəxəssislərinin üzərinə düşür. Məsələn, muzeylərimiz xalqımıza məxsus olan mənəvi-tarixi dəyərlərimizi ayrı-ayrı ölkələrdə təbliğ edirlər. Bu sərgilər prosesində kütləvi informasiya vasitələrindən, müxtəlif dillərdə nəşr olunmuş buklet və kitablardan istifadə olunur, Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin çıxışları təşkil edilir. Məhz müqayisəli kulturologiyanın elmi-metodiki potensialı muzey əşyalarının və bir sıra yardımçı vasitələrin köməyi ilə Azərbaycan xalqı və onun mədəniyyəti haqqında sərgi keçirilən ərazinin əhalisində obyektiv fikir yaratmaq imkanı verir.

Dünyada mədəni asudə vaxtın turizm formasına da çox geniş yer verilir. Turizm həm asudə vaxtın daha mənalı keçməsi üçün əhəmiyyətlidir, həm də ölkənin milli gəlirinin artmasına əhəmiyyətli təsir göstərən əlverişli bir sahədir. Müqayisəli kulturologiya sahəsində aparılan araşdırmalara görə müxtəlif ölkələrin milli gəlirinin böyük bir hissəsi turizm xidmətindən daxil olan mənfəətdən formalaşır. Hələ XX yüzilliyin 60-cı illərindən başlayaraq dünyanın iqtisadi inkişaf etmiş ölkələri mədəni asudə vaxtın geniş məkanda təşkilinə üstünlük verməyi zəruri hesab edirlər. Bunun da nəticəsində müasir mərhələdə ABŞ-da, Böyük Britaniyada, Kanadada, Avstriyada, Almaniyada və dünyanın bir sıra digər ölkələrində turizm yüksək inkişaf həddinə qalxmışdır. Adı çəkilən ölkələrdə turizmin inkişafı üçün dövlət büdcəsindən böyük maliyyə vəsaiti ayrılır.

Müqayisəli kulturologiya mədəni asudə vaxtın təşkili məsələsini insanın mənəvi fəaliyyət azadlığına təminat yaradan əsas amillərdən biri kimi qiymətləndirir. Bununla yanaşı, müqayisəli kulturologiya beynəlxalq təcrübənin mənimsənilməsinə diqqətlə yanaşır. Kulturoloqların apardıqları araşdırmalar göstərir ki, ABŞ və Böyük Britaniyada tərbiyə potensialını ardıcıl olaraq artırmaq və inkişaf etdirmək üçün xüsusi ənənəvi sistem formalaşmışdır. Bu sistemə uyğun olan ictimaiyyətin və dövlətin tələbləri aşağıdakı istiqamətlərdə reallaşdırılır:

- milli mədəniyyətin ən qiymətli nümunələrinin dövlət tərəfindən mühafizə olunması;
- ənənəvi xalq yaradıcılığının qorunması və inkişaf etdirilməsi;
- əhalinin asudə vaxtının təşkili üçün müəssisələr, təşkilatlar, ictimai və sosial institutlara dövlət tərəfindən vergi imtiyazlarının verilməsi;
- uşaq və yeniyetmələrin, gənclərin, habelə yaşlı nəslin estetik tələbatını ödəyə biləcək, hər bir sosial qrupun mənəvi tərbiyəsinə təminat yaradacaq və bir-birinə alternativ olan müxtəlif proqramların yaradılması.

Müqayisəli kulturologiya beynəlxalq mədəni təcrübəni milli-ənənəvi xüsusiyyətlərlə, dövlətin siyasəti və mədəniyyət strategiyası ilə əlaqələndirir, hər bir xalqın etnoqrafiyasını, etik normalarını, psixoloji cəhətlərini nəzərə alır. Mədəniyyət siyasəti mahiyyəti etibarı ilə bəşəridir. Bir sıra beynəlxalq diplomatik münasibət və əlaqələrin formalaşmasında, bəşəriyyətə humanist ideyaların aşılanmasında mədəniyyət siyasəti zəruridir. Digər tərəfdən yaradılan mədəni əlaqələr xalqları bir-birinə yaxınlaşdırmaqla yanaşı, bir-birinin mədəni sərvətlərindən bəhrələnir. Eyni zamanda ayrı-ayrı ölkələrin mədəni inkişaf təcrübəsi öyrənilir. Məsələn, Yaponiyada mədəniyyətin inkişafı haqqında xüsusi dövlət konsepsiyası mövcuddur. Bu mədəni inkişaf konsepsiyasında 5 əsas siyasi xətt üstünlük təşkil edir. Burada mədəniyyətin inkişaf istiqamətləri aşağıdakı amillər üzərində qurulur:

- Milli xüsusiyyətlərin qorunması və istifadəsi;
- Mədəni imkanlar;
- Milli dil siyasətinə yardım;
- İncəsənətin dəstəklənməsi;
- Müəlliflik hüququnun qorunması.

Milli xüsusiyyətlərin qorunması və istifadəsi anlayışına uyğun olaraq yapon xalqının tarixinin və mədəniyyətinin öyrənilməsinə, düzgün anlaşılmasına dövlət səviyyəsində qayğı göstərilir. Mədəni irsin qorunması haqqında qanuna əsasən vacib mədəni xüsusiyyətlər, tarixi-incəsənət yerləri, monumental abidələr və s. qorunur, bərpa edilir. Tarixi yerlərdə qazıntı işləri aparılır, bədii və elmi əhəmiyyətli olan əsərlərin satın alınmasına və qorunmasına dövlət tərəfindən yardım edilir.

Məlumdur ki, dünyada millətlərarası münasibətlərdə kifayət qədər düyünlər də vardır. Lakin milli münasibətlərdə mövcud olan bu düyünlər və qarşıdurmalarla yanaşı, dünya sivilizasiyasının inkişafına müsbət təsir edən humanist amillər də çoxdur. Belə ki, yalnız beynəlxalq mədəni əlaqələr prosesində milli və humanist ideyaların bir vəhdət şəklində birləşməsi mümkündür. Göstərilən amillərin vahid formada təzahür etməsi üçün millətlərarası mədəni əlaqələrin təşkilinin alternativi yoxdur. Çünki millətlərarası mədəni əlaqələr nəinki milli münasibətlərin humanistləşdirilməsinə təkan verir, eyni zamanda qloballaşma və dövlətlərarası inteqrasiya proseslərinin formalaşmasını sürətləndirir.

Mədəni əlaqələr milli ünsiyyətin məzmununu zənginləşdirir, xalqlar arasında çoxsahəli iş birliyinin qurulmasına, cəmiyyətdə mövcud olan müxtəlif problemlərin həllinə geniş şərait yaradır. Odur ki, millətlərarası ünsiyyət mədəniyyəti müasir dövrdə hətta ən ziddiyyətli və gərgin vəziyyətlərin tənzimlənməsinin daha çevik vasitəsidir. Bəşəri normalara əsaslanan mədəni əlaqələr yüksək əxlaq prinsiplərinə uyğun olaraq özündə yüksək insani mənəviyyatı birləşdirir. Bu ünsiyyət forması milli-etnik fərqlənmələrdən uzaqlaşmanın vasitəsi kimi katalizator rolunu oynayır, milli mədəniyyətlərin bir-birinin mənəvi-irsi dəyərlərindən bəhrələnməsinə yardımçı olur.

Məhz bu spesifik xüsusiyyətlərinə görə hələ sovet dövründə beynəlxalq mədəni əməkdaşlıq dövlətin xarici siyasətinin əsas təzahürlərindən biri olmuşdur.

Heç kəsə sirr deyildir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra onun daha yüksək səviyyədə beynəlxalq mədəni əlaqələr yaratmasına ehtiyac vardır. Ölkəmizin müstəqil bir subyekt kimi dünya siyasətinə inteqrasiya olunması yenicə möhkəmlənən dövlət sisteminin davamiyyətli inkişafına təminat yaratmalı, beynəlxalq mədəni əlaqələr əsasında millətimiz və xalqımız haqqında müsbət fikirlər formalaşdırılmalıdır. Həmçinin, dünya dövlətləri bütün ölkələr və xalqlar arasında həqiqi mədəni sərvətlərin geniş qarşılıqlı mübadiləsinə tərəfdar olmalıdırlar. Bu cür mübadilə humanizm məqsədlərinə, xalqların mənəviyyatca zənginləşməsinə, sülhün və mehriban qonşuluğun möhkəmlənməsinə xidmət etməlidir. Bu prosesin inkişaf etdirilməsində isə müqayisəli kulturologiyanın rolu əvəzsizdir.

Qeyd etmək lazımdır ki, zəngin təbii sərvətlərə, əlverişli coğrafi mövqeyə, güclü istehsal vasitələrinə malik olan Azərbaycan həmişə dünya ölkələrinin diqqətini cəlb etmişdir. Lakin Azərbaycan 200 ilə yaxın bir müddət ərzində rus imperiyasının əsarəti altında olduğuna görə özünün müstəqil xarici mədəni əlaqələrini yarada bilməmişdir. 70 il ərzində isə sovet imperiyası tərkibində Azərbaycan mədəniyyəti müəyyən siyasi məhdudiyyətlərə baxmayaraq inkişaf etmiş, dünya miqyasında öz milli simasını nümayiş etdirə bilmişdir. Azərbaycan mədəniyyətinə sovet etiketinin vurulmasına baxmayaraq xalqımızın müəyyən istedad və qabiliyyətlərini, tarixini, adət və ənənəsini, milli-etnoqrafik xüsusiyyətlərini təbliğ edə bilən şəxsiyyətlərimiz yetişmişdir. Xüsusilə dünya şöhrətli mədəniyyət və incəsənət xadimlərimizin sənətkarlıq fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələri bu və ya digər formada mümkün olmuşdur.

Mübaliğəsiz demək olar ki, 1993-cü ildə ümummilli lider Heydər Əliyevin Azərbaycan prezidenti vəzifəsinə gəlməsi Azərbaycan Respublikasının xarici ölkələrlə mədəni əlaqələrini xeyli dərəcədə dəyişmiş və qardaş Türkiyə dövləti ilə çox geniş şəkildə (bir millət iki dövlət) mədəni əlaqələr qurulmuşdur.

Bizə tarixi araşdırmalardan hələ məlumdur ki, sovet imperiyası ərazisinin 0.4 faizini və əhalisinin 2.5 faizini təşkil edən Azərbaycan, üzüm və çay istehsalında ikinci, neft və polad boruların istehsalı da, görə isə SSRİ-də üçüncü yeri tuturdu. Məişət kondensionerləri və silindr yağları istehsalı da əsasən Azərbaycan ərazisində cəmləşdirilmişdi. Bununla yanaşı SSRİ-də istehsal edilən neft-qazıma və neft-istismar, geoloji kəşfiyyat avadanlıqlarının əsas hissəsi Azərbaycan SSR-in payına düşürdü. Pambıq, tütün, yun, ipək, meyvə, tərəvəz və s. sahələr üzrə də Azərbaycan fərqlənirdi. Lakin bu qədər geniş istehsal sahələri olmasına baxmayaraq Azərbaycan xalqı əldə olunan külli miqdarda vəsaitdən məhrum edilirdi. Bu məhrumiyyətlər respublikanın xarici dövlətlərlə birbaşa mədəni və iqtisadi əlaqələrini yaratmaq sahəsində də özünü büruzə verirdi. Mərkəzi hakimiyyətin icazəsi olmadan adi turist kimi də başqa dövlətlərlə əlaqə yaratmaq mümkün deyildi. Hər halda mərkəzin nəzarəti altında da olsa, Azərbaycanın beynəlxalq mədəni əlaqələri məhdud səviyyədə inkişaf edirdi. Professor Musa Qasımovun fikrincə həmin dövrlərdə "Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrini xüsusi dövlət orqanları, ictimai və yaradıcı təşkilatlar, ayrı-ayrı mədəniyyət xadimləri həyata keçirirdilər. Respublikamız dünyanın 120-dən çox ölkəsi ilə mədəni əlaqələr saxlayırdı". [1]

Bildiyimiz kimi dövlətlərarası işgüzar münasibətlərin formalaşmasında, millətlər və xalqların bir-birinə yaxınlaşmasında turizm işinin düzgün təşkili çox böyük siyasi əhəmiyyət kəsb edir. Turizm həm dövlət siyasətində, həm də onun iqtisadi potensialının artırılmasında mühüm yer tutur. Belə ki, turizmə ciddi xərc qoymadan kifayət qədər xarici valyuta əldə etmək mümkün deyil. İndiki mərhələdə Azərbaycanın zəngin turizm potensialı vardır. Bu potensialdan sovet ittifaqı dövründə də istifadə edilmişdir. Lakin sovet ittifaqı mədəni əlaqələri kommunist əxlaq prinsiplərinə uyğun şəkildə siyasiləşdirdiyindən turizm imkanlarından tam şəkildə istifadə olunmurdu.

Turizmin təşkili ilə hələ əvvəllər əsasən Respublika Baş Turizm İdarəsi və Azərbaycan Turizm və Ekskursiya Şurası məşğul olurdu. Tarixi materiallardan məlum olur ki, 1975-ci ildə Bakı Xarici Turizm İdarəsi 28289 xarici turist qəbul etmiş, xaricə isə 4509 nəfər göndərmişdir. Bunun nəticəsində 51.6 min manat məbləğində vəsait qazanılmışdır və bundan sonra Respublika rəhbərliyi turizmin inkişafı üçün müəyyən işlər görmüşdür.

Respublikada turizm işinin maddi-texniki bazasını yaxşılaşdırmaq məqsədilə 1978-ci ildə "Moskva" mehmanxanası yenidən istifadəyə verilmişdir. Sonralar da turizmin inkişafına qismən diqqət yetirilmiş, "Karvansaranın" və "Gəncə" mehmanxanasının açılışı hesabına turizm bazaları artmışdı. 1987-ci ildə turizmdən 254.3 min manat gəlir əldə olunmuşdu. Məhz həmin ildən başlayaraq turizmdən əldə olunan gəlirin bir hissəsi Azərbaycan Respublikasının özünə qalmışdır. Hazırda isə, Mədəniyyət və Turizm Nazirliyi bu işdə çox böyük və əhəmiyyətli işləri layiqincə yerinə yetirir.

Beynəlxalq mədəni əlaqələr genişləndikcə Azərbaycan xalqı tanınmış, onun haqqında daha çox informasiyalar almaq və yaymaq maraqları da artmışdır. Təbii ki, turizm əlaqələri Azərbaycanın mədəniyyətinin, incəsənətinin, tarixinin təbliğində müstəsna rol oynamışdır. Hətta Azərbaycanla tanışlıqda siyasi maraqları olan xaricilər də "turist" adı altında xalqımızın həyat tərzini, onun mədəni irsini öyrənməyə cəhdlər göstərmişlər. Bunun da nəticəsində bir çox xarici ölkələrdə Azərbaycan xalqının mədəni irsindən, onun mövcud vəziyyətindən bəhs edən kitab və məqalələr dərc olunmuşdur. Eyni zamanda Azərbaycan ədiblərinin və alimlərinin əsərlərini öz ölkələrinin nəşriyyatlarında kitab şəklində çap etmişlər. Məsələn, hələ 1970-1976-cı illərdə ABŞ-da sənətşünas Çarlz Elisin "Azərbaycan xalqları" adlı kitabı nəşr olunmuş, 1977-ci ildə isə Azərbaycanın satirik şairi Mirzə Ələkbər Sabirin "Hophopnamə" kitabı çap olunmuşdur. ABŞ Konqresi kitabxanasında Nizaminin, Füzulinin, Səməd Vurğunun, Cəfər Cabbarlının və başqa şairlərin əsərləri saxlanılır.

Türkiyədə, İranda, Macarıstanda, Almaniyada, Kubada və dünyanın onlarla başqa ölkələrində Azərbaycan müəlliflərinin əsərləri çap edilmişdir.

Almaniyanın Frankfurt şəhərində keçirilən 41-ci beynəlxalq kitab yarmarkasında tarixdə ilk dəfə olaraq müstəqil bölmədə Azərbaycan kitabları nümayiş etdirilmişdir. Təxminən 150 adda milli kitablarımız olan bu sərgidə Dağlıq Qarabağ, Naxçıvan, Şəki, Lənkəran haqqında albomlar, Azərbaycan klassikləri Nizami Gəncəvinin, Məhəmməd Füzulinin əsərləri, bəstəkarlar Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, şair Rəsul Rzanın həyat və yaradıcılığından bəhs edən albomlar nümayiş etdirilmişdir. Sərgidə "Azərbaycan xörəkləri", "Azərbaycan miniatürləri", "Azərbaycan təbiəti" və başqa kitablar böyük maraqla qarşılanmışdı. Tanınmış tarixçilərimiz Ziya Bünyadovun, Fəridə Məmmədovanın ölkəmizin tarixi keçmişinə həsr etdikləri əsərlər Dağlıq Qarabağ həqiqətlərini almanlara olduğu kimi çatdıra bilmişdir.

Xarici ölkələrlə mədəni əlaqələrin formalaşmasında Azərbaycanın mədəniyyət günlərinin keçirilməsi də xüsusi rol oynamışdı. Mədəniyyət günləri zamanı Azərbaycan dünyanın hər yerində bütün

---

[1] M. Qasımov. Bəşəriyyətin sağ qalması naminə. Bakı, Azərnəşr ,1991, səh. 51

millət və xalqların nümayəndələrinin dərin rəğbətinə səbəb olmuşdur. Məsələn, Rəşid Behbudovun, Zeynəb Xanlarovanın, Fidan və Xuraman Qasımovaların və başqa dünya şöhrətli sənətkarlarımızın çıxışları xarici ölkələrdə böyük hərarətlə qarşılanmışdı. Azərbaycan xalqının sivil mədəniyyətə malik olması haqqında beynəlxalq miqyasda müsbət rəy yaranmışdı.

Mədəniyyətlərin bir-biri ilə yaxınlaşması dövlətlərarası münasibətlərin ahəngdar inkişafında böyük əhəmiyyətə malikdir. Belə ki, sənətkarlar, mədəniyyət və incəsənət xadimlər bəzən dövlətlərarası siyasi münasibətlərin qurucularına, "katalizatorlarına" çevrilirlər.

Sovet imperiyasının dağıldığı son anlara qədər xarici aləmlə mədəni əlaqələr ideologiyalaşdırılır, böyük məhdudiyyətlərlə müşayiət olunurdu. Xüsusilə, sovet dövründə bizə qardaş olan Türkiyə strateji düşmən kimi təqdim edilirdi. Lakin buna baxmayaraq ayrı-ayrı illərdə Türkiyə ilə mədəni əməkdaşlığa dair sazişlər bağlanmış, Türkiyənin mədəniyyət və incəsənət xadimlərinə də Azərbaycanla tanışlıq və mədəni əlaqələr üçün imkanlar yaradılmışdı. 1977-ci ildə Türkiyə ictimaiyyətinin böyük bir nümayəndə heyəti Azərbaycana gəlmişdi. 1978-1979-cu illərdə isə SSRİ dostluq və mədəni əlaqələr cəmiyyətinin nümayəndələri respublikamıza gəlmiş və ölkə ictimaiyyəti ilə bir sıra görüşlər keçirmişdilər.

Azərbaycanla Türkiyənin tarixi əlaqələrinin tədqiqatçısı Mahir Abdullayevin fikrincə Türkiyənin keçmiş baş naziri Süleyman Dəmirəl və prezident (sabiqlər) Turqut Özalın, və hazırkı Abdullah Gül habelə türk xalqının bir sıra ictimai və dövlət xadimlərinin, Türkiyə Böyük Millət Məclisinin üzvlərinin, ictimai təşkilatların, müxtəlif mədəniyyət, elm və incəsənət nümayəndələrinin, işgüzar adamların respublikamıza səfərləri, habelə Azərbaycanın da müxtəlif səviyyəli nümayəndələrinin, o cümlədən Azərbaycanın dövlət başçısı İlham Əliyevin qonşu ölkəyə səfəri qarşılıqlı etimadı artırmış, mədəni əlaqələrin genişləndirməsinə imkan yaratmışdır.

## *1.4. Beynəlxalq mədəni əlaqələr Azərbaycanın dövlətlərarası siyasətinin əsas prioritetlərindən biri kimi*

Bu gün beynəlxalq mədəni əlaqələrin genişlənməsi əsarətdən xilas olmuş və öz müstəqil dövlətini qurmuş bir xalqın baş verə biləcək yeni təcavüzlərdən müdafiə olunması üçün də imkanlar yaradır. Əslində mədəni əlaqələr Azərbaycanın dövlətlərarası siyasətinin əsas vasitələrindən birinə çevrilərək strateji əhəmiyyət kəsb edən fəaliyyət sahəsi kimi mövcuddur. Bu fəaliyyət sahəsi gücləndirildikcə millətlərin və dövlətlərin bir-birini daha dərindən tanıması, bir-birinin mədəniyyətini öyrənməsi prosesi baş verir. Bunun da nəticəsində milli, dini, irqi cəhətlərə görə fərqləndirmə tədricən aradan qalxır, gözəl musiqi, incəsənət nümunələri, humanist mahiyyətli insani davranışlar dövlətlərin beynəlxalq ünsiyyətinin, siyasətinin inkişafına nəzərə çarpacaq dərəcədə müsbət təsir edir.

Digər tərəfdən mədəni əlaqələr yolu ilə xalqlar bir-birinin mədəni irsindən bəhrələnməklə yanaşı, onların həyat tərzlərində, dünya görüşlərində, ictimai-siyasi münasibətlərində ümumi cəhətlər formalaşır.

Azərbaycan dövləti başqa ölkələrlə mədəni əlaqələr yaradarkən həmin dövlətlərin qanunlarını, hakimiyyət strukturlarını öyrənir və onların münasib cəhətlərini dövlət quruculuğu prosesinə tətbiq edir. Bununla da başqa ölkələrin əldə etdiyi tarixi təcrübədən istifadə olunur. Həmçinin, ölkəmizdə mövcud olan bir sıra problemləri dünya ictimaiyyətinin nəzərinə çatdırmaqla onların həlli üçün inkişaf dövlətlərdən yardımlar əldə etmək və dəstək qazanmaq imkanı qazanır. Belə ki, Ermənistanın respublikamıza təcavüzünün ən gərgin dövrü olan 1990-cı ildə Türkiyədə Azərbaycan mədəniyyəti günləri təşkil olunmuşdu. Həmin günlərdə türk ictimaiyyəti ermənilər tərəfindən Azərbaycan xalqının başına gətirilən faciəli hadisələr barədə daha geniş məlumatlar ala bilmiş, Ermənistanın qatı düşmən siması haqqında onlarda daha aydın təsəvvür yaranmışdır.

Beynəlxalq miqyasda mədəni əlaqələrin qurulması təkcə kiçik və nisbətən az inkişaf etmiş dövlətlərin siyasəti deyildir. Eyni zamanda böyük dövlətlər də beynəlxalq miqyasda mədəniyyət siyasətinə çox mühüm əhəmiyyət verirlər.

Hazırda Azərbaycan müstəqil bir dövlət kimi özünün milli mədəniyyət siyasətini həyata keçirməklə dünya ölkələri sırasında diqqətə çarpan yerlərdən birini tutmalıdır. Mədəni əlaqələr vasitəsilə ölkəmizin xarici dövlətlərlə iqtisadi, siyasi inteqrasiyası üçün də zəmin yaratmış oluruq.

İkincisi, mədəni əlaqələr dövlətlərarası əlaqələrin imkanlarını dəqiqləşdirir və yaradılan münasibətlərin əhatə dairəsinə ilkin aydınlıq gətirir. Belə ki, Azərbaycan Respublikası bu gün mədəni əlaqələr yaratdığı dövlətlərin ictimai, siyasi, mədəni, hərbi və s. potensialını öyrənir və özünün xarici siyasətini qurur və inkişaf etdirir.

Beynəlxalq siyasətin tərkib hissəsi kimi mədəni əlaqələr əməkdaşlıq prinsipinə əsaslanmalı, dinamik xakterə malik olmalıdır. Bu sahədə mövsümi fəaliyyət göstərmək, fasilələrlə münasibətlər qurmaq isə keyfiyyət etibarilə istənilən nəticəni vermir. Hətta din və dil baxımından, eləcə də adət və

ənənələrinə görə bir-birinə çox yaxın olan dövlətlərarası münasibətlərdə də ardıcıllıq prinsipinə əməl edilmədikdə, əlaqələrdə yaranan dostluq həmin andaca hər iki tərəfin xarici siyasətinə öz mənfi təsirini göstərir. Azərbaycan xalqının atalar sözlərində deyildiyi kimi, "qohumlar bir-birinə getməyə-getməyə yadlaşır, yad isə əlaqələrini artırdıqca "doğmalaşır". Çox təəssüflər olsun ki, yalnız mərhum prezident Heydər Əliyevin və bəzi dövlət və ictimai təşkilatların xarici ölkələrə etdiyi rəsmi səfərlər zamanı yaradılan mədəni-siyasi əlaqələr istisna olunmaqla, respublikada başqa qeyri-dövlət və ictimai təşkilatlar səviyyəsində xarici ölkələrlə mədəni əlaqələrin qurulması işi ardıcıllıqla təşkil olunmur. Halbuki, erməni təcavüzünə məruz qaldığımız bir dövrdə işğal altında olan torpaqlarımızı qaytarmaq və müstəqilliyimizi əbədiləşdirmək naminə bütün ölkələrlə intensiv şəkildə mədəni əlaqələr qurmalı, ölkəmizə qarşı tətbiq olunan irticanın mahiyyətini geniş dünya ictimaiyyətinin diqqətinə lazımi şəkildə çatdırmalıyıq.

Heç kəsə sirr deyil ki, müasir şəraitdə informasiya müharibəsi daha böyük təsir gücünə malikdir. Millət, xalq, dövlət haqqında mənfi və ya müsbət fikirlərin formalaşması informasiyanın gücündən çox asılıdır. Elə buna görə də vaxtilə rus şovinizminə arxalanan Ermənistan dövləti bütün Rusiya informasiya vasitələrini Azərbaycana qarşı yönəltməyə nail olmuşdu. Ermənistan Azərbaycana etdiyi təcavüzü danır, Dağlıq Qarabağda baş verən qanlı hadisələri bu yerdə yaşayan və sayı 100 mindən artıq olmayan ermənilərin "azadlıq mübarizəsi" kimi təqdim edirdi. Öz tarixi yurdlarından didərgin salınmış bir milyondan artıq soydaşlarımızın, qətlə yetirilmiş minlərlə günahsız vətəndaşlarımızın acınacaqlı və faciəli həyatı "demokratiya", "insan haqları" kimi şüarlar söyləyənləri narahat etməmişdir. Baş verən bu olaylar xalqımızın tarixi-dramatik yaşamlarıdır və tətbiqi kulturologiyaya daxil olan bədii forma və metodlardan istifadə etməklə həmin tarixi anlar dramatikləşdirilərək, bədii təcəssümləşdirmələr aparılaraq bu gün bütün dünya ictimaiyyətinə çatdırıla bilər. Ədəbi-bədii kompozisiya yolu ilə müxtəlif mövzularda mədəni kütləvi tədbirlər keçirməklə tarixi faktları üzə çıxarıb, real həqiqətləri dünya xalqlarına təbliğ etmək olar.

Göründüyü kimi müqayisəli kulturologiyanın mövzu dairəsi çox genişdir. Məhz ictimai həyatın rəngarəngliyindən əmələ gələn geniş mövzu məkanı müxtəlif sosial qrupdan və təbəqələrdən olan insanların mədəni asudə vaxtlarının səmərəli keçməsi, onların beynəlxalq informasiya məkanına daxil olması üçün geniş imkanlar açır. Müqayisəli kulturologiya insanlar arasında sosial və mədəni təklənmənin aradan qaldırılmasına ayrı-ayn vasitələrlə kömək edir. Nəinki böyüklərin, eləcə də uşaq və gənclərin bir-biri ilə ünsiyyətə girməsi üçün mədəniyyət müəssisələri ən əlverişli fəaliyyət məkanıdır.

Kulturologiya insana, şəxsiyyətə məxsus olan mədəni fəaliyyəti mənalandıran, onu sosiallaşdıran yaradıcı bir elm sahəsidir. Bu sahə həm təbliğat, həm də təşviqat imkanlarına malik olmaqla dövlətin və bütövlükdə cəmiyyətin həyatında aparıcı rol oynayır. Kulturologiya hər bir şəxsin mədəni həyata qatılması mexanizmini işləyib hazırlayır, əmək prosesini stimullaşdırır. Bunun nəticəsində isə, dünyagörüşü formalaşır, əxlaq və davranış normaları mövcud ictimai quruluşun real həyat prinsiplərinə uyğunlaşdırılır.

III minilliyin əvvəlində bəşər cəmiyyəti inkişafının yalnız planetimizdə mövcud olan mədəniyyətlərin qarşılıqlı uyğunluğu və zənginləşməsi nəticəsində mümkünlüyü ideyası vüsət alır. Buradan isə beynəlxalq təcrübəni hərtərəfli təhlil etmək, onun uğurlarını və səhvlərini təsnifləşdirmək, ümumbəşər və özünəməxsus cəhətlərini üzə çıxarmaq və nəhayət, sürətlə dəyişən şəraitdə inkişaf edən respublikamızın mədəni təcrübəsinə tətbiq etmək zərurəti meydana çıxır.

Müasir sivilizasiyanın tələblərinə uyğun olaraq mədəni və mənəvi böhranı uğurla dəf etmək, iqtisadi, siyasi və millətlərarası münasibətlərin həllinə uyğunlaşdırmaq, mədəniyyətin bütün fəaliyyət sahələrində, o cümlədən istirahətinin təşkili sahəsində insana göstərdiyi təsirin aramsızlığını təmin etmək problemi cəmiyyət üçün mühüm, təhlilə ehtiyacı olan başlıca problemlərdən birinə çevrilir.

Cəmiyyətdə təşəkkül tapmış rekreativ asudə vaxt imkanları ilə ondan istifadə olunması gerçəkliyi arasında olan ziddiyyəti aradan qaldırmaq üçün bu sahədə nəhəng təcrübə qazanmış ABŞ, Kanada, Fransa, İspaniya, Böyük Britaniya, Misir, Çin, Tailand və s. xarici ölkələrdə mədəni asudə vaxtın təşkili üsullarının öyrənilməsi və tətbiqi böyük əhəmiyyət kəsb edə bilər.

Hətta ötəri təhlil göstərir ki, həmin ölkələrdə elmi-texniki tərəqqi, ictimai inkişaf əhəmiyyətli dərəcədə məhsuldar qüvvələri maddi istehsalat sahəsindən məişət və asudə vaxt sahəsinə yönəltməyə qadir olmuşdur.

Həmin ölkələrin əmək fəaliyyəti ilə məşğul olan əhalinin yalnız 8-15 %-i istehsalatda tətbiq olunan yüksək texnologiyalar sayəsində cəmiyyətin artan maddi tələbatını təmin edir, istirahət və əyləncə üçün olduqca zəngin baza formalaşdırır. Bunun sayəsində ictimai-mədəni sahəyə, şəxsiyyətin harmonik inkişafı üçün şəraitin yaradılmasına qayğı göstərmək imkanları daha da artır.

Hazırda mədəni fəaliyyətin rekreativ inkişaf imkanlardan səmərəli istifadə başlıca milli məsələlərin həllində dövlətin aparıcı istiqamətlərindən birinə çevrilib. Cəmiyyətin sərvəti çıxarılan neftin həcmi ilə deyil, asudə vaxtın səviyyəsi və keyfiyyəti, mədəniyyətə, elmə, təhsilə yönəldilən kapital qoyuluşunun həcmi ilə ölçülür. Sosiologiya, pedaqogika, psixologiya, kulturologiya, iqtisad elmlərində aparılan

kompleks tədqiqatlar bir çox xarici dövlətlərin mədəni asudə vaxtın təşkili istiqamətində fəaliyyəti elmi cəhətdən əsaslandırdı, müsbət nəticələr qazanmağa yardım etdi. Bu təcrübə müvəffəqiyyətlə Azərbaycanda da tətbiq edilə bilər. Lakin bunun üçün müxtəlif ölkələrdə ictimai asudə vaxtın təşkilinin məzmun və formaları haqqında gerçək məlumatları öyrənib ümumiləşdirmək zərurəti meydana çıxır. İnsanların asudə vaxtının bədii-emosional vasitələrlə müşayiət olunmasının tarixini qədim adət və ənənələrin yarandığı və təşəkkül tapdığı dövrlərlə əlaqələndirmək lazımdır. İnsanlar bütün təbiət hadisələri haqqında fövqəltəbii ideyalar, baxışlar yaradarkən bədii-emosional münasibətlərini də gizlədə bilməmiş, təbiətə və cəmiyyətə kütləvi şəkildə təsir etmə ənənələrini yaratmışlar. Bu ənənələr təkamül etdikcə asudə vaxt mədəniyyətini də formalaşdırmış, onu bədii estetik və başqa yaradıcılıq tələbatının ödənilməsi həddinə çatdırmışdır. Keçirilən mərasimin, bayramın dini ideoloji məzmunundan asılı olmayaraq insanlar bu aksiyaları yerinə yetirərkən əylənmiş, mənəvi rahatlıq tapmışlar. Adət və mərasimlər onları bir anlıq da olsa öz bədii emosional vasitələrinin təsiri ilə fiziki, zehni iş qayğılarından uzaqlaşdırmış, dincəlmək, əylənmək, şənlənmək, müstəqil yaradıcılıq proseslərinə qoşulmaq kimi ənənəvi asudə vaxt xüsusiyyətlərinin formalaşmasına təminat yaratmışlar. Tarixin müxtəlif dövrlərində dünya alimləri asudə vaxt mədəniyyətinin əsas momentlərini təhlil etmiş, onun bədii-emosional sahələrini "oyun vəziyyəti" kimi anlatmağa çalışmışlar. Platon oyun kosmosundan danışmış, İ. Kant estetik “oyun vəziyyəti” nəzəriyyəsindən söz açmışdır. Şillerə görə isə insan yalnız oynadığı zaman insan hesab olunur. O da tarixin ilk mərhələsində yaranmış asudə vaxt mədəniyyətini “oyun mədəniyyəti” və bu mədəniyyəti insani münasibətlərin əsas komponentlərindən biri kimi qiymətləndirir. Y. Heyzinq isə bütövlükdə mənəvi mədəniyyəti “oynayan insanın məhsulu” hesab edir. O, oyun xüsusiyyətlərinin poeziyada, miflərdə, mərasimlərdə təzahür etdiyini göstərir. Onun fikrincə, misteriyalar, bayramlar, karnavallar, festivallar, tamaşalar və s. əsasən oyun xüsusiyyətləri üzərində qurulur.

Yuxarıda adı çəkilən alimlərin fikirlərindən belə çıxır ki, asudə vaxtın mədəniliyi onun bədii emosional vasitələrindən çox asılı olmuşdur. insanlar oyun xarakterli hərəkət və vərdişlərini əsasən bayram və mərasimlərdə, karnavallarda, ailə və məişət ənənələrində tətbiq etmişlər. Eyni zamanda oyun mədəniyyəti uşaq və yeniyetmələrin hərtərəfli tərbiyə mühitini yaratmışdır. Onların hərəkət və fəaliyyətlərindəki boşluğu müxtəlif məna və məzmunla doldurulmuşdur. Ənənəvi olaraq formalaşan asudə vaxt mədəniyyəti oyunlar üzərində təşəkkül tapmış, insanların hərəkət və düşüncələrini səmərəlilik prinsiplərinə uyğun olaraq tənzimləmək funksiyasını yerinə yetirmişdir.

Rus pedaqoqu Y. A. Komenski haqlı olaraq qeyd etmişdir ki, “külək olmadan od yanmadığı kimi, oyun, məşq, hərəkət olmadan da uşaq böyüyüb inkişaf edə bilməz. Oyun, hərəkət bir növ işdir, fəaliyyətdir”.

Azərbaycanda əməli fəaliyyətlə hədsiz məşğul olan adamlar istirahət edəndə belə deyirlər: “Ömürdən vaxt oğurlamışam”. Bu deyimin arxasında adətən həyatın ləzzəti, yüksək həzz məqamı dayanır. Bəs indiki mürəkkəb dünyada, stressin insan ruhunu şirin-şirin gəmirdiyi get-gəllər zamanında ”Ömürdən vaxtı necə oğurlamaq olar?” Bu sual işgüzar münasibətlər üzərində təməli qurulan sivilizasiyalı ölkələri zaman-zaman düşündürüb.

Azərbaycanın tanınmış alimi M. H. Təhmasib də şəxsiyyətin formalaşmasında, hər bir fərdin fiziki və mənəvi cəhətdən inkişaf etməsində oyun mədəniyyətinin əhəmiyyətinə xüsusi diqqət yetirmişdir. Onun fikrincə, oyun da insan ömrü qədər çox qədim tarixə malikdir. Oyun tarixin hər bir dövründə insan həyatını zənginləşdirən sosial vasitələrdən biri olmuşdur. O, həm bədənin müxtəlif əzalarını hərəkət etdirmiş, həm də hər bir insanın həyat fəaliyyətinin son anına qədər onun bütün ömrünü addım-addım izləmişdir.

Oyunun insan həyatındakı mənəvi hökmranlığı müasir dövr üçün daha aktualdır. Çünki müasir insanın həyat tərzi mənəvi inkişafın səviyyəsindən, onun asudə vaxt mədəniyyəti mühitindən çox asılıdır.

Tarixən, ənənəvi olaraq formalaşan asudə vaxt mədəniyyəti elə bir sərvətdir ki, hər kəs ondan öz zövqünə, mənəvi tələbatına uyğun şəkildə istifadə edir. Burada insanın ictimai faydalı əməyə şüurlu hazırlığı, bədii-estetik xarakterli mənəvi keyfiyyətləri, intellekti, dünyaya, cəmiyyətə münasibətləri və s. özünü qabarıq şəkildə büruzə verir.

"Asudə vaxt ümumi vaxt büdcəsinin mütləq işlərdən azad edilmiş elə bir sərvətidir ki, həmin müddətdə şəxsiyyət öz fiziki, mənəvi vəziyyətini və mədəni səviyyəsini nəzərə almaqla özünə uyğun hərəkətlər variantı seçir. Bu həm də istirahət, yorğunluğu aradan qaldıran fiziki, psixi və intellektual qüvvələri bərpa edən sosial şərtlərlə müəyyənləşdirilmiş psixi-fizioloji prosesdir.

Lakin dünya miqyasında “mədəni asudə vaxt” anlayışının bir-birindən fərqlənən izahı mövcuddur. Keçmiş sovet kulturologiyasına əsaslanaraq demək olar ki, “asudə vaxt insanın işdən sonra, fizioloji və məişət tələbatlarının ödənilməsinədək (yemək, yuxu və s.), ailə və ictimai işlərin yerinə yetirilməsindən sonra qalan vaxta deyilir”. Azərbaycanda indi də mövcud olan bu tərif ABŞ, Fransa, İngiltərə və sair ölkələrdəki “mədəni asudə vaxt” anlayışının şərhindən əsaslı şəkildə fərqlənir. Məsələn, ABŞ-da “mədəni

asudə vaxt" mövcud şüurun vəziyyətini, onun cəmiyyətə münasibətini və məqsədini əks etdirən ali insan fəaliyyəti kimi başa düşülür. İngiltərədə isə "mədəni asudə vaxt" insanları psixi stresslərdən azad edən bir vasitə kimi dərk olunur. Fransızların baxışlarına görə isə "mədəni asudə vaxt" insanın gündəlik fəaliyyəti prosesində itirilmiş qüvvələrin yenidən bərpa olunması vasitəsi kimi anlaşılır.

Əslində "mədəni asudə vaxt" sözünün hərfi mənası latın sözü olan "Libere" sözündən götürülmüş, "sərbəst olmaq" mənasında başa düşülmüşdür. İngilislər isə bu sözü "mədəni asudə vaxt" kimi tələffüz etmişlər. Fəaliyyətdə mədəni asudə vaxt "qanundan azad olmuş qayda" kimi anlaşılmışdır. Yəni ingilislər asudə vaxtı müstəqil, azad fəaliyyətin təzahürü, realizə sahəsi kimi qiymətləndirmişlər. Yunanıstanda da mədəni asudə vaxt təzyiqdən azad fəaliyyətin bir forması kimi qəbul olunur.

Ümumiyyətlə, dünyanın müxtəlif ölkələrinin mədəni asudə vaxt fəaliyyətinə olan münasibəti mahiyyət etibarı ilə bir-birindən fərqlənir. Bu ölkələrin çoxu mədəni asudə vaxt fəaliyyətinin mədəni əhəmiyyətini yüksək qiymətləndirir, onun dövlət tərəfindən maliyyələşdirilməsinə şərait yaradır. Məsələn, Amerika Birləşmiş Ştatlarında dövlət departamenti mədəni asudə vaxtın təşkili üçün ildə 240 milyon $ miqdarında vəsait ayırır. Bu vəsaitin hamısı kütlələrin istirahət və əyləncəsinin təşkili üzrə işlərə sərf olunur. İngiltərə dövlət departamenti mədəni asudə vaxt tədbirləri üçün 190 milyon funt sterlinq, Fransa isə 230 milyon frank pul ayırmışdır.

Təbii ki, adı çəkilən ölkələrdə kütləvi xalq bayramlarının, oyun və əyləncələrin təşkilinə xüsusi qayğı göstərilir. Bayram və əlamətdar günlərin bədii emosional vasitələrinin təşkili, onların teatrlaşdırılması işi xüsusi olaraq yaradılmış mədəni asudə vaxt klublarına və mərkəzlərinə həvalə olunur. Məsələn, İngiltərənin "Lordlar", "Smokinq" kimi mədəni asudə vaxt klubları elitar təbəqənin istirahət və əyləncəsini təşkil etmək üçün planlı şəkildə məzmunlu təşkilati işlər görürlər. Onlar istirahət və əyləncənin səmərəli olması üçün müxtəlif yaş qrupları üzrə bölgülər aparır, hər yaş qrupunun mədəni-sosial tələblərini əvvəlcədən proqnozlaşdırırlar. Kiçik yaş qrupları üçün müxtəlif əyləncəli oyunlar, multiplikasiya filmləri və s. müəyyənləşdirirlər. Həmin diferensial yanaşma üsulundan böyüklərin mədəni asudə vaxtının səmərəli keçirilməsi üçün də istifadə olunur.

Ən maraqlısı odur ki, bütün mədəni asudə vaxt mərkəzləri müasir texniki vasitələrlə təchiz edilir. Mədəni asudə vaxt mərkəzlərinin texniki vasitələrinin alınması və onların realizə olunması işinin maliyyə məsələlərini xüsusi təşkilatlar və sosial institutlar yerinə yetirir.

Milli ənənə və mentalitet mədəni asudə vaxtın keçirilməsi prosesinə və məzmununa da təsir göstərir. Dünya miqyasında aparılan müşahidələr və elmi xarakterli sosioloji tədqiqatlar asudə vaxtın təşkilinin ənənələrə və milli mentalitetə söykəndiyini bir daha sübut edir. Məsələn, aparılan sosioloji tədqiqatlar zamanı aydın olmuşdur ki, fransız və ya danimarkalı vətəndaşlar özlərinin asudə-vaxtlarını daha çox kafe və barlarda keçirirlər. Braziliyalılar, meksikalılar, argentinalılar isə futbolla məşğul olur, karnavallarda iştirak etməyi sevirlər. Ərəblər, yaxud pakistanlılar öz evlərində tətbiqi yaradıcılıqla məşğul olmağı daha çox sevirlər. Milyonlarla dindarlar isə kilsələrdə, məscidlərdə, sinaqoqlarda və başqa dini ibadət yerlərində keçirilən mərasimlərdə iştirak etməyə daha çox üstünlük verirlər. Azərbaycanlıların bir hissəsi isə çayxanalarda yaxınları ilə ünsiyyətə girməyə üstünlük verirlər.

Lakin ABŞ, İngiltərə, Kanada və başqa inkişaf etmiş kapitalist ölkələrində mədəni asudə vaxt ənənələri özünü daha əhatəli şəkildə büruzə verir. Bu ölkələrdə dini mərasimlərə də diqqət yetirilir, kafelərə və idman oyunlarına qatılmaq marağı da güclüdür. Minlərlə gənc tətbiqi incəsənət yaradıcılığı ilə də məşğul olurlar. Bu ölkələrin mədəni asudə vaxt mərkəzlərinin elmi-texniki əhatə dairəsi bütün maraqların ödənilməsinə imkan yaradır.

Deməli, hər bir ölkənin elmi-texniki inkişaf səviyyəsi, sosial və mənəvi inkişafı mədəni asudə vaxt mədəniyyətinin inkişafına birbaşa təsir edir, onun ənənəvi fəaliyyət istiqamətlərini müəyyənləşdirir.

Adı çəkilən ölkələrdə asudə vaxt mədəniyyətinin rəngarəngliyi onlardakı demokratik mühitin, iqtisadi şəraitin başqa yerlərdən daha fərqli olmasından da asılıdır. Digər tərəfdən inkişaf etmiş bu ölkələrə dünyanın hər yerindən insanların daha fəal olan kateqoriyalarının emiqrasiyası mövcuddur. Onların ənənələri, mədəniyyətləri, sosial fəaliyyətləri hesabına inkişaf etmiş ölkələrdə rəngarəng asudə vaxt mədəniyyəti təşəkkül tapmışdır.

Amerika Birləşmiş Ştatlarında, yaxud Kanadada milli mədəniyyətlərarası inteqrasiya prosesləri azad mədəni asudə vaxt fəaliyyəti üçün əlverişli şərait yaratmışdır. Belə ki, bu gün mənəvi tələbatın bütün tələblərinin ödənilməsi hər bir fərdə öz biliyini artırmaq, həvəskar birliklərdə yaradıcılıqla məşğul olmaq, milli bədii-estetik irsin öyrənilməsi istiqamətində fəaliyyət göstərmək şəraiti yaradır. Eyni zamanda mədəni asudə vaxt mərkəzlərində insanlar incəsənət əsərləri ilə tanış olur, idman bölmələrində sağlamlıq prosesini yaşayır, maraqlı görüşlərin iştirakçılarına çevrilirlər.

Adı çəkilən inkişaf etmiş demokratik ölkələrində aşağıdakı istiqamətlərdə fəaliyyət göstərən mədəni asudə vaxt sferası formalaşmışdır:

Milli mədəniyyət parkları, təbii-tarixi əhəmiyyətli istirahət zonaları, meşələr və s. mənzərəli əyləncə guşələri yaradılıb;

Xüsusi qurğularla təchiz olunmuş istirahət bazaları, idman və əyləncə kompleksləri bir çox mədəni asudə vaxtın səmərəli təşkilinə dair işlər görür. Həmin asudə vaxt mərkəzləri aşağıdakılardır:

- idman-tamaşa müəssisələri, idman-konsert kompleksləri, basketbol, beysbol, futbol, xokkey əraziləri, stadionlar, idman klubları, maşın yarışları təşkil olunan motodromlar və s. idman tamaşa müəssisələri kompleksinə daxildir.

İdmanla daha fəal şəkildə məşğuliyyət bazaları: Çimərliklər, qayıqlar olan stansiyalar, buz üzərində oyun obyektləri, üzgüçülük bölmələri, güləş, karate, dzüdo zalları və s. həmin baza kompleksinə aiddirlər.



AMERİKA PENSİONERLƏRİ KLUBU

Rekreativ əyləncə mərkəzləri əsasən bağları, şəhər parklarını, uşaq əyləncə meydanlarını, zooparkları, attraksionların məşğul olduqları evləri və şəhərcikləri, gülüş otaqlarını, kompüter mərkəzlərini və s. əhatə edir.

3. Bu ölkələrdə idman komplekslərindən başqa mədəni asudə vaxt yaradıcılıq mərkəzləri və digər mədəniyyət müəssisələri də vardır, sirklər, estrada konsert mərkəzləri və s. fəaliyyət göstərir.[redacted] Təqaüdçülərin, peşəkarların, gənclərin, dindarların, ailələrin və s. sosial təbəqələrin mədəni asudə vaxtını təşkil edən klublar hər bir fərdə diferensial şəkildə yanaşmaqla mənəvi tələbatları ödəmək üçün konkret işlər görürlər. Bu tələbatları ödəmək üçün diskoklublar, xor, xoreoqrafiya, bədii yaradıcılıq mərkəzləri və studiyaları fəaliyyət göstərir.

Ümumi maraqları olan insan birliklərinin mədəni asudə vaxt fəaliyyətlərini tənzim etmək və səmərəli etmək üçün həvəskar yaradıcılıq birlikləri təşkil olunur.

Fəaliyyətdə olan mədəni asudə vaxt mərkəzlərinin nəzdində kitabxanalar, oxu zalları, musiqili-maarifçilik salonları, lektoriyalar, məsləhət-informasiya mərkəzləri və s. yaradılır.

4. Asudə vaxtın səmərəli təşkilində mehmanxana-turist müəssisələri də maraqlı iş ənənələrinə malikdirlər. Bu müəssisələr sırasına otelləri, turist komplekslərini, ekskursiya mərkəzlərini, dəniz səyahətlərini təşkil edən istirahət bazalarını və əyləncə mərkəzlərini, turist qatarlarını və s. aid etmək olar. İnkişaf etmiş kapitalist ölkələrində mədəni asudə vaxtın turizm forması XX əsrin 60-cı illərindən daha güclü təşəkkül tapmağa başlamışdır. Müasir dövrdə isə həmin turizm asudə vaxt forması artıq əksər insanların mədəniyyət normasına çevrilmişdir. Amerika, İngiltərə, Kanada, Avstraliya və başqa inkişaf etmiş dövlətlər həmişə turizmin inkişafı üçün böyük məbləğdə vəsait ayırmışlar. Məsələn, İngiltərədə nəşr olunan "Ekonomist" jurnalında verilən məlumata görə 1959-cu ildə bu ölkədə turizmin inkişafı üçün 310 milyon funt sterlinq, 1979-cu ildə 5.9 milyard funt sterlinq, 1989-cu ildə 22.7 milyard funt sterlinq məbləğində pul ayrılmışdır. Göründüyü kimi, ildən-ilə turizmin inkişafı üçün dövlət tərəfindən nəzərdə tutulan vəsaitin miqdarı artırılmışdır.

Ümumiyyətlə, mədəni asudə vaxtın təşkili məsələsi inkişaf etmiş ölkələrdə insanın mənəvi fəaliyyət azadlığına təminat yaradan amil kimi qiymətləndirilir. Vaxtilə sabiq ABŞ prezidenti Bill Klinton özünün növbəti seçki kampaniyasında mədəni asudə vaxtın ənənələrinin əhəmiyyətindən bəhs edən geniş proqramla çıxış etmişdir. O, uşaq və yeniyetmələrin, əlillərin, qocaların və başqa sosial qrupların asudə vaxt sferasının inkişafı üçün dövlət təminatının yaradılmasının vacibliyindən danışmışdır.

ABŞ-da, Böyük Britaniyada və başqa ingilis dilli ölkələrdə mədəni asudə vaxtın tərbiyə potensialından daha səmərəli istifadə olunması üçün son on ildə xüsusi ənənəvi sistem formalaşmışdır. Həmin sistemin ictimai və dövlət tələbləri aşağıdakı vəzifələr üzrə müəyyənləşdirilmişdir:

- Milli mədəniyyətin ən qiymətli nümunələrinin dövlət tərəfindən mühafizə olunması, ənənəvi xalq yaradıcılığının qorunması və inkişaf etdirilməsi;
- Mədəni asudə vaxt infrastrukturlarının funksional fəaliyyətinə dövlət tərəfindən təminat yaradılması;
- Əhalinin asudə vaxtının təşkili üçün müəssisələr, təşkilatlar, ictimai və sosial institutlar tərəfindən vergi imtiyazların müəyyənləşdirilməsi;
- Uşaq və yeniyetmələrin, gənclərin, eyni zamanda yaşlı nəslin bədii-estetik tələbatını ödəyə biləcək, hər bir sosial qrupun mənəvi tərbiyəsinə təminat yaradacaq bir-birinə alternativ olan müxtəlif proqramların hazırlanması.

Maraqlıdır ki, əhalinin mədəni istirahətinin təşkili məsələsi ABŞ-da, İngiltərədə, Kanadada, CAR-da, Avstraliyada, Yeni Zelandiyada dövlət siyasətinin tərkib hissəsi kimi qiymətləndirilir. Məsələn, bu məqsədlə 1981-ci ildən 1993-cü ilə qədər ABŞ-da 44 dəfə milli, ictimai, dövlət əhəmiyyətli mədəniyyət proqramları hazırlanmışdır. Həmin proqramlarda nəzərdə tutulanlar əsasən aşağıdakılardan ibarətdir:

- uşaqların, qocaların və əlillərin asudə vaxt infrastrukturunun nəzərə çarpacaq dərəcədə artırılması;
- təhsil müəssisələrinin, parkların, muzeylərin, teatrların, filarmoniyaların və başqa konsert müəssisələrinin tərbiyəvi-pedaqoji məqsədlər daşıyan mədəni asudə vaxt fəaliyyət formalarının istiqamətlərinin müəyyənləşdirilməsi;
- əhalinin müxtəlif sosial qruplarının asudə vaxtlarının səmərəliliyinə təminat yaradan mehmanxana komplekslərindən, stadionlardan, tennis otaq və meydançalarından, çimərliklərdən, sağlamlıq mərkəzlərindən və başqa əyləncə müəssisələrindən istifadə olunmasının formaları;
- görkəmli alim və təcrübəli mədəniyyət xadimlərinin mədəni asudə vaxtın təşkilinin elmi əsaslarla hazırlanmasına, bu sahə üzrə peşəkar mütəxəssislərin yetişdirilməsinə cəlb edilməsi.

Göstərilən məzmunlu proqramın realizə olunması üçün dövlət sənaye və tikinti korporasiyalarını, bankları, fermerlər birliklərini, dini icmaları, elmi assosiasiyaları, müəllimləri, həkimləri, incəsənət xadimlərini bu əhəmiyyətli işin ümumi şəkildə icrasına cəlb edir. Proqramın həyata keçirilməsində mədəniyyət müəssisələri, idman cəmiyyətləri, yardım cəmiyyətləri və təşkilatları, varlı şəxslər və s. yaxından iştirak edirlər. əslində qeyd olunan ictimai təşkilatlar mədəni asudə vaxt xidmətinin xüsusi sektorlar vasitəsi ilə inkişaf etməsinə təminat yaradırlar. Mədəniyyət müəssisələrinin fəaliyyət göstərən xüsusi sektorları gənclərin asudə vaxtını təşkil etmək üçün öhdəliklər götürür, bu sahəyə aid hazırlanmış dövlət proqramlarının realizə olunmasına yaxından yardım edirlər. Məsələn, Böyük Britaniyada xüsusi sektorlara aid olan mədəniyyət müəssisələrinin tərbiyəedici və maarifləndirici fəaliyyəti əvvəlcədən dəqiq olaraq proqramlaşdırılır. Ölkə əhalisinin gəlirinin 30 %-i asudə vaxt fəaliyyətinin müxtəlif formalarının təşkilinə və onun əyləncə xarakterli mallarının, əşyalarının alınmasına sərf olunur. Burada aparılan sosioloji tədqiqatlara görə son 20 ildə özəl sektorda mədəni asudə vaxt xidməti 36 faiz artmışdır. Bu da onu göstərir ki, özəl mədəniyyət mərkəzləri həm özləri mədəni asudə vaxt xidmətindən bəhrələnir, həm də asudə vaxtın hərtərəfli səmərəliliyinə təminat yaradırlar. Bu baxımdan İngiltərədə fəaliyyət göstərən gecə klubları xüsusi əhəmiyyət kəsb edir.

Müasir ingilis gənclərinin mədəni asudə vaxtının təşkilində diskotekaların da rolu çox böyükdür. Diskotekaların demək olar ki, əksəriyyəti özəl sektora aiddir. Məsələn, Tele incəsənət evinin elitar diskotekasını Frans Raux adlı şəxs idarə edir. Gənclərin asudə vaxtlarında onların istirahət və əyləncələrinin səmərəli təşkilində Frans Rauxun böyük təcrübəsi vardır.

Maraqlıdır ki, insanlarda mədəni asudə vaxt mərkəzlərinə getmək, onun proqramlarının fəal iştirakçısı olmaq çox zaman adət xarakteri daşıyır. Təbii ki, bu adətləri onlarda əsasən mədəni asudə vaxt mərkəzləri özləri yaradır. Azərbaycan tədqiqatçı alimlərindən biri olan Mobil Aslanlı çox haqlı olaraq demişdir ki, "adətlər insanın elə iş hərəkətlərinə deyilir ki, bunlar insanın ehtiyacına, tələbatına çevrilmiş olur. Müəyyən şəraitdə insan bu iş və hərəkətləri icra etmədən dura bilmir, icra etmədikdə insanda daxili bir narahatlıq əmələ gəlir. Ona görə də insan adət etdiyi işi nə cür olursa-olsun yerinə yetirməyə çalışır".

Təbii ki, söhbət mənəvi-əxlaqi keyfiyyətləri inkişaf etdirən adətlərdən gedir. Belə keyfiyyətlərin formalaşması isə mədəni asudə vaxt mərkəzlərinin insanlara təqdim etdikləri işin məzmun və məqsədindən daha çox asılıdır. Məlumdur ki, mədəni vərdişlər insanların bir-biri ilə münasibətlərini tənzimləyən əxlaq normalarının xüsusiyyətlərindən çox asılıdır. əxlaq normalarının xüsusiyyətlərini isə ictimai münasibətlər, əlaqələr müəyyən edir. Bu baxımdan asudə vaxt mərkəzləri bütün fərdi keyfiyyətləri, o cümlədən şəxsi əxlaqi xüsusiyyətləri də üzə çıxarmaq imkanına malikdir. Çünki mədəni asudə vaxt mərkəzlərində heç bir fərd ictimai nəzarətdən və münasibətdən kənarda qalmır. Hamı daima bir-birinin diqqət obyektinə çevrilir. Hər bir fərd diqqət obyekti olduğunu özü də hiss edir. Elə buna görə də o ictimai əhatədə özünün ən yaxşı xüsusiyyətlərini nümayiş etdirməyə çalışır. Nəticə etibarı ilə bu nümayiş etdirmə vərdişə, əxlaq normasına və ənənəvi mədəni davranışa çevrilir.

Professor M. Muradxanov uşaqları həyatdakı mədəni davranışlarına görə 3 qrupa bölmüşdür:

- Düzgün davranış haqqında aydın anlayışı olanlar, ona uyğun və düzgün hərəkət edənlər;
- Düzgün davranış haqqında anlayışı olduğu halda bu anlayışa əks hərəkət edənlər;
- Düzgün hərəkət haqqında anlayışı olmayan və düzgün hərəkət etməyənlər.

Onun fikrincə, bunlardan birincisinin əxlaqi biliyi artıq əqidəyə çevrilmişdir. İkincisinin isə kifayət qədər əxlaqi təcrübəsi yoxdur. Üçüncüsünün isə həm əxlaqi tərbiyəsi, həm də düzgün əqidəsi və təcrübəsi yoxdur.

Bu qrup bölgüsü mədəni asudə vaxt mərkəzləri üçün də diferensial olan maraqlı həyat faktorudur. Həmin faktora uyğun olaraq mədəni asudə vaxt mərkəzlərində fərdi xüsusiyyətlərin nəzərə alınması metodiki iş ənənələrindən birinə çevrilmişdir. Maraqlıdır ki, dünyanın hər yerində fərdi yanaşma

üsullarına, diferensial metodlara daha çox üstünlük verilir. Fərdin ictimai ünsiyyət mühiti onu dəyişməyə, daha əxlaqlı olmağa məcbur edir. Məsələn, insan tək qalanda daha çox özünü dərk etməyə çalışır, çoxluğun mənəvi mühitində isə ictimailəşərək, onu bilavasitə "daxilən sıxan" qeyri-əxlaqi normalara qarşı çıxır. Fərd şəxsiyyət kimi özünün nəyə qadir olduğunu nümayiş etdirmək imkanı əldə edir və mənən müstəqilləşir. Məhz ABŞ-ın, İngiltərənin, Kanadanın və başqa inkişaf etmiş dövlətlərin asudə vaxt mərkəzlərində bu keyfiyyətlərin formalaşmasına daha çox üstünlük verilir. Burada həmçinin gənclərin özfəaliyyətinin mahiyyətini sadələşdirməyə çalışırlar. Mədəni asudə vaxtın səmərəli olması üçün onların özləri tərəfindən təminat yaradılmasına və idarə olunmasına cəhd edirlər. Onlar insanların mədəni asudə vaxt fəaliyyətini heç də siyasətləşdirmirlər. əksinə olaraq, insanı mənən sərbəstləşdirən əyləncə elementlərinə daha çox üstünlük verirlər. Son illərdə İngiltərənin bir çox bankları və korporasiyaları ölkədə incəsənət və mədəniyyətin səviyyəsini yüksəltmək üçün ayrı-ayrı mədəniyyət müəssisələrini maliyyələşdirmək ənənələrinə qoşulmuşlar. Mədəniyyətin inkişafına göstərilən bu qayğını milli maraqların təminatı kimi qiymətləndirirlər.

# II FƏSİL

# İQTİSADİ İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ MƏDƏNİ FƏALİYYƏTİN TƏŞKİLİ

## *2.1. Xarici ölkələrdə istirahət və əyləncənin təşkilinin elmi əsasları*

İqtisadi inkişaf etmiş ölkələrdə asudə vaxtın mədəni təşkili ilə təkcə mədəniyyət müəssisələri deyil, həm də məktəblər, elmi müəssisələr, ekologiya təşkilatları da məşğul olurlar. Çünki bu ölkələrdəki ənənələr milli və dövlət maraqları əsasında inkişaf edir. Təbii ki, ilk növbədə asudə vaxtın səmərəliliyi prinsipləri dövlət maraqlarına əsaslanır. Belə ki, asudə vaxt mərkəzlərində aşkar olunan istedadlı uşaq və yeniyetmələr ölkənin gələcək intellektual potensialı kimi qiymətləndirilir və onlara xüsusi qayğı göstərilir.

Mədəni asudə vaxtın hər bir fərdin şəxsi potensialını üzə çıxaran bir vasitə olduğunu rus alimi V. D. Ponomaryov da xüsusi olaraq qeyd etmişdir. Onun fikrincə hər bir əyləncəli oyun forması ayrı-ayrı şəxslər arasında mədəni ünsiyyət yaratmaqla yanaşı, adamların fərdi sosial-mədəni potensialını aşkar edir. Mədəni asudə vaxt ərzində yaranan ünsiyyət insanlararası əlaqəni intensivləşdirməklə yanaşı, fərdi intellektual səviyyəsi, mənəvi-əxlaqi keyfiyyəti, bədii-estetik zövqü, əqli-fiziki inkişafı təmin edən əsas vasitəyə çevrilir. Bu baxımdan ABŞ-da yaradılmış "Disneylend" parkının böyük iş təcrübəsi və mədəni asudə vaxt ənənələri vardır.

Disneylend parkı hələ 1955-ci ildən fəaliyyətə başlamış, həmin ildən indiyə qədər fantastik əyləncə şəhərciyinə çevrilmişdir. Artıq həmin parkın əyləncəli oyunlarının Mikki Maus, Ördək, Donald Dak, Pluto, Bembi, Alisa kimi fantastik qəhrəmanları dünya uşaqlarının dilinin əzbəri olmuşdur. çünki bu əyləncəli oyunlar həm də cizgi filmi şəklində dünyanın hər yerinə yayılmışdır.

İngiltərə məktəblərində müxtəlif məzmunlu dərnəklər fəaliyyət göstərir. Məsələn, bu ölkənin cənub şərqində yerləşən Midlendin məktəblərində çoxlu rəqs dərnəkləri mövcuddur. Burada müəllimlər uşaqlarla məşğələləri onların yaş xüsusiyyətlərinə uyğun olaraq təşkil edirlər. Kiçik yaşlı uşaqlarda ritm duyğusunun inkişaf etdirilməsi üçün onlarla pambıq üzərində rəqs etmək üsulundan istifadə edirlər. Böyük yaşlı uşaqların isə rəqs məşğələləri zamanı tərəf müqabilləri tez-tez dəyişdirilir. Bununla da onların müxtəlif xarakterli adamlarla ünsiyyətə girmək potensialı genişlənir, həm də rəqsin mürəkkəb proseslərini dəf etmək ənənəsi formalaşır. Həmçinin rəqs dərnəkləri uşaqlarda mövcud olan daxili gərginliyi tez bir zamanda aradan götürür və tədris prosesində müxtəlif fənlərin qavranılmasını asanlaşdırır. Məhz mədəni asudə vaxtın bütün müəssisələrdə səmərəli təşkili həmişə müsbət keyfiyyət sonluğu ilə nəticələnmişdir. Buna görə də İngiltərədə mədəni asudə vaxtın təşkili işi ardıcıllıq, sistemlilik, prinsipiallıq, baxımından nümunəvi şəkildə qurularaq dünyanın hər yerində kulturoloqların diqqətini cəlb edir.

Adət və ənənəyə, tarixi, milli hadisələrə üstünlük verilməsi baxımından Fransanın mədəni asudə vaxt mərkəzlərinin işi xüsusi olaraq fərqlənir. Məsələn, Fransa burjua inqilabının ildönümünün kütləvi şəkildə bayram edilməsi uzun bir tarixə malikdir. Dünyada ilk dəfə olaraq burjua inqilabının ildönümünün teatrlaşdırılması kütləvi bayramlara yeni forma və məzmun gətirmişdir. Həmin bayram 1789-cu il dekabr ayının 27-dən qeyd olunmağa başlamış və ənənəvi olaraq indiyə qədər o milli qvardiyanın təşkil olunduğu gün kimi davam edir.

Bastiliyanın alınması münasibətilə 1790-cı ildən keçirilən "Federasiya bayramı" isə Fransanın Mars düzənliyində keçirilir və minlərlə insanı özündə birləşdirir. Maraqlıdır ki, həmin hadisədən böyük bir tarix keçməsinə baxmayaraq Fransanın mədəni asudə vaxt təşkilatları bu hadisədən milli birliyə təminat yaradan bir vasitə kimi istifadə edirlər. İlk gündə olduğu kimi indi də bayram keçirilən ərazidə, bədii tərtibatda "Millət", "Qanun", "Konstitusiya" sözləri yazılmış şüarlara təsadüf edilir. Bayramın təntənəli mərasim anının daha çox diqqəti cəlb edən məqamı əsgərlərin təntənəli şəkildə andiçmə mərasimidir. Bu zaman silahlardan yaylım atəşi açılır, musiqi sədaları altında Fransanın bayraqları başlar üzərinə qaldırılır. Marşlar səslənir və təntənəli mahnılar ifa olunur .

Fransada belə tədbirlərin ictimai-siyasi əhəmiyyəti nəzərə alınaraq onlara dövlət səviyyəsində qayğı göstərilir və bu iş üçün kifayət qədər maliyyə vəsaiti ayrılır. Bayramlar keçirilərkən yüz minlərlə əhali onun əsas iştirakçılarına çevrilir.

Bayramların keçirilməsi prosesinə yüksək peşəkarlıq qabiliyyətinə malik olan tərtibatçı rəssamlar, rejissorlar, bəstəkarlar, ssenariçilər cəlb olunur. Dövlət əhəmiyyəti olan belə bayramlarda monumental

dekorasiyalardan, canlı bədii tərtibatdan, döyüş texnikasından, musiqidən, teatr maskalarından və s. ifadə vasitələrindən istifadə edilir.

Misallardan göründüyü kimi, fransızlar mədəni asudə vaxtın siyasi motivlərinə də üstünlük verir. Həm xalqın tarixi ənənələrə sədaqət prinsipi qorunub saxlanılır, həm də insanların əyləncəli mənəvi tələbatları ödənilir. Kütlələrə çoxlu bayramlar keçirmək imkanı yaradılmaqla yanaşı, milli intellektin, xarakterin formalaşmasına, cəmiyyətin bütün üzvlərinin mənən zənginləşməsinə qayğı göstərilir. Məsələn, "Ali varlıq" bayramında Parisin bütün küçələri gül-çiçəklə bəzənir, bütün şəhər əhalisi səhər tezdən bayram şənliklərinə dəvət olunur. çağırış təbilçilərin və kilsə zənglərinin köməyi ilə yerinə yetirilir. əhali musiqi sədaları altında Tyuilri bağına, oradan isə Mars çölünə doğru hərəkət edir. 2400 nəfərdən ibarət olan qarışıq xor dəstəsi Mars çölündə müqəddəs andın sözlərini oxuyurlar. Andın əsas ideyasını təşkil edən "Zalımları məhv etməli" sözləri xor tərəfindən üç dəfə təkrar olunur. Bundan sonra yüz minlərlə insanlar orkestrin müşayiəti ilə ənənəvi olan "Bərabərlik", "Qardaşlıq" mahnılarını ifa edirlər. Bu emosional vasitələrlə xalqın həyata, xoşbəxt gələcəyə olan ümidi artır.

Fransa asudəvaxtşünasları milli adət və ənənələrlə, tarixi bayram və mərasimlərlə yanaşı, dünyada mövcud olan əyləncə mərkəzlərinin qabaqcıl iş təcrübəsindən də məharətlə istifadə etməyi bacarırlar. Məsələn, fransızlar hələ 1986-cı ildən ABŞ-da yaradılmış əyləncə mərkəzi "Disneylendin" iş təcrübəsindən istifadə etməyə başlamışlar. Elə həmin ildə Parisin meri burada da "Disneylend" kimi əyləncə mərkəzinin tikinti planını təsdiq etmiş, şəhərin şərq hissəsində "Avrodisneylend" adlı nəhəng əyləncə kompleksinin inşa edilməsi üçün ABŞ-dakı "Uolt Disney" şirkəti ilə müqavilə bağlamışdır.

Parisin yaxınlığında yaradılmış "Metropolis" adlı əyləncə mərkəzi də mədəni asudə vaxtın müasir tələblərinə cavab verə bilən yeni tipli əyləncə kompleksidir. İndi belə komplekslər ölkənin hər yerində fəaliyyət göstərir. Fransa xalqının istirahət və əyləncəsi üçün kompakt şərait yaradır. Dövlət tərəfindən yaranan bu əyləncə mərkəzləri sistemi başlıca olaraq üç əsas məsələni həll edir:

və



AVRODİSNEYLEND

Baxımsız və ekologiyaya zərər yetirə biləcək yerlər yararlı hala salınır. Onlar parklara başqa əyləncə mərkəzlərinə çevrilir. Abadlaşdırılmış bu yerlərdə əyləncə və istirahətin təmiz ekoloji mühiti formalaşdırılır.

Yaradılmış mədəniyyət və istirahət parklarında insanların asudə vaxt məşğuliyyəti, hərtərəfli, kompleks əyləncələrin şəraitinin yaradılması üçün ardıcıl işlər aparılır. Xüsusilə, ekoloji təmizliyə malik olan təbiət qoynunda əhalinin istirahət və əyləncəsi üçün müxtəlif forma və metodlardan istifadə edilir.

Mədəni asudə vaxt fəaliyyəti zamanı uşaq və yeniyetmələr maarifləndirilir və təhsil prosesi üçün yardımçı vasitələrin təşkilinə xüsusi diqqət yetirilir.



AVRODİSNEYLEND

Fransada mədəniyyət və istirahət parkları məzmun etibarı ilə çox rəngarəngdir. Onların arasında beynəlxalq miqyaslı gül sərgiləri keçirən, uşaq və yeniyetmələrdə təbiətə böyük maraq oyadan, onların estetik zövqlərini təbiətə məxsus olan ecazkar gözəlliklərlə inkişaf etdirən istirahət parkları da vardır. Parisdəki "Florali" parkı məhz öz təbii gözəlliyinə və fəaliyyət istiqamətinə görə bütün parklardan fərqlənir. Park başdan-ayağa gül vadisindən ibarətdir. Gözəlliyi insanları heyrətə gətirən bu parkda təbiəti sevənlər, bağbanlar klubları və dərnəkləri yaradılmışdır. Xüsusilə, burada uşaqlara təbiət haqqında geniş məlumatlar verilir. Uşaqlar müxtəlif biliklərə yiyələnməklə yanaşı, güllərin, çiçəklərin becərilməsi texnologiyasını da öyrənirlər. Həmçinin bu parkda sağlamlıq-kurort kompleksi də fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, Fransada bu tipli komplekslərin sayı 100-dən çoxdur.

Mədəni asudə vaxtın təşkili sahəsində Fransa muzeylərinin də rolu çox böyükdür. Burada irili-xırdalı 6 mindən artıq muzey fəaliyyət göstərir. Onların arasında Luvr muzeyinin xüsusi iş təcrübəsi və şöhrəti vardır. 250 mindən artıq eksponatı olan bu muzey vasitəsilə fransızlar dünya mədəniyyəti və incəsənəti nümunələri ilə yaxından tanış olur, tarixi biliklərə yiyələnirlər.

Eyni zamanda muzeylər uşaq və yeniyetmələrin istedad və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində də səmərəli işlər görür. Dünya muzeylərinin demək olar ki, əksəriyyətində müxtəlif yaş qrupları üçün dərnək və birliklər fəaliyyət göstərir. Ümumiyyətlə, xarici ölkələrin mədəni asudə vaxt mərkəzlərində uşaq və yeniyetmələrin özfəaliyyət yaradıcılığının təşkili dövlət və ictimaiyyət tərəfindən həmişə müdafiə olunmuş və maliyyələşdirilmişdir.



**BÖYÜK BRİTANİYA. ÇELSİDƏ GÜL-ÖİÇƏK FESTİVALI**

Amerika alimi Con R. Kelli mədəni asudə vaxtın əhəmiyyətini, onun insanın mənəvi aləminə müdaxiləsini yüksək qiymətləndirərək bu sahədə ABŞ-da çox böyük işlər görüldüyünü qeyd etmişdir. O yazmışdır: “Asudə vaxt ərzində insanlara Amerikada daha səmərəli xidmət göstərmək üçün çox işlər görülmüşdür. Asudə vaxtın böyük imkanlarının və potensialının dövlətin və cəmiyyətin fəaliyyətinə tətbiq olunması çox vacibdir. Lakin asudə vaxt sferasının zənginləşdirilməsi işi iqtisadiyyatın və hətta təhsil sisteminin inkişaf etdirilməsindən daha çətindir. Məhz mədəni asudə vaxtın tələblərini yerinə yetirmək üçün dövlətin ictimaiyyətlə birgə ardıcıl iş aparması tələb olunur”.

ABŞ-da mədəni asudə vaxtın təşkilinə ölkənin mədəniyyət sahəsindəki siyasətinin tərkib hissəsi kimi baxılır. Mədəni asudə vaxt insanlar arasında sosial bərabərliyi tənzimləyən, cəmiyyət və dövlət daxilində sabitlik yaradan amil kimi qiymətləndirilir. Asudə vaxt insanların sosial-mədəni fəaliyyətini daima ictimailəşdirir, hər bir fərdi fəallaşdırmaqla onu yaradıcı şəxsiyyətə çevirir. Yaradıcı şəxsiyyətin əsas bəhrəsini isə ilk növbədə cəmiyyət və dövlət qazanır. Buna görə də dövlət istedadlı adamların incəsənət, elm və texnika, idman və s. sahələrdə özfəaliyyət yaradıcılığı ilə məşğul olmaları üçün bütün mədəni asudə vaxt mərkəzlərində şərait yaradır. Beləliklə də, bütün bölgələrin, qəsəbə və kəndlərin müxtəlif sosial qrupları üçün maraqlara uyğun olan özfəaliyyət yaradıcılığı mühiti təşkil olunur.

Dövlət səviyyəsində istedadlı adamların özfəaliyyət yaradıcılığı məqsədli şəkildə əlaqələndirilir və qiymətləndirilir. Özfəaliyyət yaradıcılığı ilə məşğul olan uşaq və yeniyetmələrə yüksəlmək, dövlət, incəsənət, elm xadimləri kimi yetişmək mühiti formalaşdırılır. Ən istedadlı gənclər həm dövlət, həm də ictimaiyyətin varlı iş adamları tərəfindən qayğı ilə əhatə olunur. Onların ən istedadlılarına xüsusi təqaüdlər ayrılır, ali məktəblərə daxil olduqdan sonra isə bu istedadların bütün təhsil və məişət xərcləri ödənilir. Həm dövlət, həm də ictimaiyyət özfəaliyyətdə aşkarlanmış istedadları milli-intellektual sərvətlər kimi qiymətləndirir.

Asudə vaxt təkcə bədii-estetik tərbiyənin mühiti kimi nəzərdə tutulmur, o həm də elmi-texniki yaradıcılığın sferası kimi başa düşülür. Məsələn, ABŞ-ın Nyu-York şəhərindəki texnika muzeyində onlarla həvəskar dərnək və birliklər fəaliyyət göstərir. Bu dərnək və birliklərdə fəaliyyət göstərən uşaq və yeniyetmələr mexanizatorluğu, konstruktorluğu, müxtəlif texniki vasitələri idarə etməyi öyrənir, özlərinin fantaziyalarına uyğun olan yeni layihələr hazırlayırlar. Onlara ölkənin ən tanınmış alim və texnikləri rəhbərlik edirlər. Digər tərəfdən həmin istedadlı uşaqlar ayrı-ayrı görkəmli alimlərin rəhbərliyi altında müxtəlif simpozium və konfranslarda iştirak etmək üçün çıxış və məruzələr hazırlayırlar.

Dərnək və birliklərdə fəaliyyət göstərən uşaq və yeniyetmələrin yaradıcılığına həsr olunan sərgilər, müsabiqələr, yarışlar, ənənəvi hal almışdır. Bu tədbirlər zamanı ən istedadlı uşaqlara müxtəlif mükafatlar təqdim olunur, onlar pulla həvəsləndirilirlər.

Keçmiş SSRİ məkanında da özfəaliyyət yaradıcılığına xüsusi diqqət yetirilirdi. Xüsusilə, Baltikyanı ölkələrdə fəaliyyət göstərən kənd klublarında da müxtəlif özfəaliyyət kollektivləri yaradılırdı. Rusiya, Ukrayna mədəniyyət müəssisələrində də mədəni asudə vaxtın təşkili prosesində özfəaliyyət yaradıcılığı ilə məşğuliyyətə üstünlük verilirdi. Lakin Azərbaycanda, Tacikistanda, Türkmənistanda və Qırğızıstanda hər yüz kluba təxminən bir özfəaliyyət kollektivi düşürdü. Özfəaliyyət kollektivləri əsasən şəhər və qəsəbələrdə, rayon mərkəzlərində təşkil olunurdu. ən çox bədii özfəaliyyətə üstünlük verilirdi. Müxtəlif bayram və mərasimlərdə bədii özfəaliyyət kollektivlərinin baxış müsabiqələri keçirilir, onların qaliblərinə həmkarlar təşkilatlarının diplomları təqdim olunurdu.

Müasir dövrdə isə sovet imperiyasının dağılması ilə əlaqədar olaraq müstəqillik əldə etmiş ölkələrdə özfəaliyyət kollektivlərinin sayı nəzərə çarpacaq dərəcədə azalmışdır. Əvvəllər mövcud olan sistemin qəflətən dağılması özfəaliyyət kollektivlərinə rəhbərliyi maliyyə imkanlarından məhrum etmişdir. Bu vəziyyəti nəzərə alan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi milli dekorativ və tətbiqi sənətkarlığın inkişaf etdirilməsi üçün yeni şirnikləndirici, maddi maraq yaradan optimal metodlardan istifadə edir. Məsələn, 2000-ci ilin iyul ayından başlayaraq həmin nazirlik “Kaspian Trans

Co İnk" Şirkəti ilə birlikdə xalça, oyma, döymə, tikmə və musiqi alətləri bölmələri üzrə mərhələli baxış-müsabiqələr keçirmişdir. Baxış müsabiqəyə Azərbaycanın 52 rayonundan 569 müəllifin 7342 əl işi təqdim olunmuşdu.

Ən maraqlı cəhət baxış müsabiqəsinin maddi maraqlar üzərində qurulması olmuşdur. Müsabiqənin hər bölməsi üzrə 2000 ABŞ $ məbləğində I mükafat, 1500 ABŞ $ həcmində II mükafat, 1000 ABŞ $ məbləğində III mükafat və 200 $ həcmində həvəsləndirici mükafat qaliblərə təqdim edilmişdir.

Bu fakt onu göstərir ki, artıq Azərbaycan asudəvaxtşünaslığı xarici ölkələrdə mövcud olan həvəsləndirmə təcrübəsindən istifadə etməklə həm xalq sənətkarlığının inkişaf etdirilməsi üçün zəmin yaradır, həm də müxtəlif qrup yaradıcı insanları, eləcə də kütlələri yeni ünsiyyət mədəniyyətinə cəlb edir. Keçirilən baxış müsabiqədə tamaşaçı kimi iştirak edən insanların da asudə vaxt büdcəsindən səmərəli istifadə etmək marağı artır. Tədbirlərin gedişi prosesində xüsusilə, uşaq və yeniyetmələrin özlərinin mənəvi tələbatlarını ödəmək imkanı yaranır. Onlarda külli miqdarda pul mükafatına layiq görülən qaliblərə qibtə hissi baş qaldırır. Qibtə hissi isə uşaqlarda öz istedad və bacarıqlarını sınamaq marağı oyadır. Hər bir yeniyetmə fərdin daxilində mədəni asudə vaxtı daha səmərəli keçirmək, yaradıcı proseslərin öncülü və qalibi olmaq istəyi artır. Bu prosesin iştirakçısı olan uşaq və yeniyetmə maddi və mənəvi sərvətləri düzgün qiymətləndirmək bacarığına yiyələnir.

Etiraf edək ki, respublikamızda inkişaf etmiş xarici ölkələrin mədəni asudə vaxt mərkəzlərinin iş təcrübəsindən hələ tam şəkildə istifadə etmək imkanı yaranmamışdır. Birinci, ona görə ki, xarici ölkələrin asudə vaxt mərkəzlərinin iş təcrübəsi indiyə qədər kulturoloq alimlərimiz tərəfindən lazım olan səviyyədə tədqiq edilməmişdir.

İkinci səbəb isə həmin təcrübənin bizə bəlli olan nümunələrini respublikamızın mədəni asudə vaxt mərkəzlərinin işinə tətbiq etmək üçün mövcud olan maddi-texniki çətinliklərin hələ aradan qaldırılmamağıdır. Məhz beynəlxalq təcrübənin öyrənilməməyi və ya onların tətbiqinə imkanların olmamağı mədəni asudə vaxt fəaliyyətində şablonçuluq yaradır.

Şablonçuluq hələ sovet asudəvaxtşünaslığında da geniş yayılmışdı. Bu da ölkənin beynəlxalq aləmdən ayrı düşməsi ilə əlaqədar idi. Hətta kütləvi bayramlar da şablon üsul və metodlarla teatrlaşdırılırdı. Kütləvi bayram tamaşaları rejissoru A. D. Jarkov yeni axtarışların vacibliyini qeyd edərək yazmışdır: "Hər dəfə yeni faktlar tapmaq, tamaşaçılara bilmədiklərini öyrətməyə kömək etmək vacibdir".

Gerçəkliyin bu və ya digər hadisələrinin təsvirini vermək çətin işdir. Lakin buna baxmayaraq, cəsarətlə eksperiment aparmaq lazımdır. Yoxsa ssenari müəllifləri şablonçuluqdan, gerçəkliyin əks etdirilməsinə stereotip yanaşmadan yaxa qurtara bilməzlər. Təəssüflər olsun ki, bunlar hələ klub müəssisələrində mövcuddur".

Asudə vaxtın daha səmərəli təşkil olunması təkcə mədəni mərkəzlərin işçilərini deyil, eləcə də bütün cəmiyyət üzvlərini düşündürməlidir. Həmçinin təhsil müəssisələri bu qlobal problemin düzgün həll olunması üçün beynəlxalq təcrübəyə əsaslanaraq şagirdlərin mədəni asudə vaxtının daha səmərəli keçməsi qayğısına qalmalıdırlar.

Əldə olunan mənbələrdən məlum olur ki, ABŞ-da və başqa iqtisadi inkişaf ölkələrində təhsil müəssisələrinin sosial vəzifələrinin genişləndirilməsinə xüsusi diqqət yetirilir. Mədəni asudə vaxt mədəniyyətindən daha səmərəli istifadə olunmasında məktəblərin rolu çox böyükdür. Xüsusilə, daha fəal uşaqların özlərinin təşkilatçılığından istifadə edərək məktəblər müxtəlif əyləncəli tədbirlər həyata keçirir, uşaqlarda asudə vaxt mədəniyyətinin formalaşmasına yardımçı olurlar. Təhsil sistemində mədəni asudə vaxt prosesinin iştirakçısı olan uşaqlarda aşağıdakı fərdi cəhətlər aktiv şəkildə inkişaf edir:

Uşaqlarda maddi və mənəvi mədəniyyət nümunələrini qiymətləndirmək və onların mühafizə olunmasına qayğı göstərmək vərdişləri aşılanır;

Mədəni asudə vaxt imkanlarından istifadə edərək uşaqlar təbiətin rəngarəngliklərini daha geniş mənada dərk edir, onun gözəlliklərini duyub mənən zənginləşirlər;

Özləri üçün daha münasib mədəni asudə vaxt fəaliyyəti forması seçmək qabiliyyətinə malik olurlar;

Mədəni asudə vaxt fəaliyyətinin səmərəsini və qiymətini şüurlu şəkildə dərk edir, onun fəal iştirakçısı olmağın mahiyyətini anlayırlar.

Sevindirici haldır ki, son dövrlərdə Azərbaycan pedaqoji elmində də, təhsil sistemində də asudə vaxtın səmərəli təşkilinin əhəmiyyətinə aid fikirlər söylənilir. Pedaqoq-alim Mobil Aslanlının fikrincə, "Asudə vaxtın səmərəli təşkili məktəblərin həyat fəaliyyətinin müəyyən növlərini həyata keçirmək üçün – istirahət etmək və təhsil prosesində sərf olunmuş enerjisini bərpa etmək, habelə ailədə və yoldaşlarla ünsiyyət etmək üçün, gündəlik həyat fəaliyyəti üçün mütləq olan fiziki və zehni qüvvə qabiliyyəti hərtərəfli inkişaf etdirmək üçün zəruri vaxt məkanıdır.

İnkişaf etmiş xarici ölkələrdə məktəblilərin asudə vaxtlarını ictimai sərvətə çevirmək üçün konkret əməli işlər görülür. Məsələn, Amerikada fəaliyyətdə olan mədəni asudə vaxt mərkəzlərinin çoxunda məktəbli uşaqlar üçün təbiətsevərlər klubları yaradılmışdır. Klubun üzvləri yaşadığı ərazilərin ekoloji

problemləri ilə tanış olur, onların aradan qaldırılması üçün bir sıra əməli işlər görürlər. Uşaqların parklara, meşələrə, dəniz və göl kənarına səyahətlərini və gəzintilərini təşkil etməklə həm onların təbiət haqqında – gördükləri ağaclar, bitkilər, heyvanat aləmi və s. haqqında bilgilərini artırır, həm də ekologiyanın tullantılardan təmizlənməsində, çirklənmənin qarşısının alınmasında onlardan bir güc kimi istifadə edirlər.

Uşaqlar ərazilərdən topladıqları dəmir qırıntılarını, şüşə qab tullantılarını və s. materialları müəyyən məntəqələrə sataraq fəaliyyət göstərdikləri klub və dərnəklərin büdcəsini yaradırlar. Yaradılan büdcədən istifadə edərək dünya ölkələrinə səyahət etmək imkanları da əldə edirlər.

Təbii ki, belə bir fəaliyyət formasını Azərbaycanın asudə vaxt mərkəzlərində də yaratmaq mümkündür. Bunun üçün mədəni asudə vaxt mərkəzləri məktəb və ailə ilə əlaqələrini genişləndirməli, uşaqların səmərəli asudə vaxt fəaliyyətinə cəlb olunması üçün bütün imkanlardan istifadə etməlidirlər.

## *2.2. Mədəni fəaliyyət strategiyasında muzey və digər mədəniyyət, istirahət və əyləncə mərkəzlərinin rolu*

Uşaq və yeniyetmələrin mədəni asudə vaxtının səmərəli təşkilində muzeylərin də geniş fəaliyyət ənənələri, tarixi təcrübəsi vardır. Heç kəsə sirr deyil ki, dünyanın hər yerində mədəniyyət müəssisəsi kimi muzeylər təlim tərbiyə funksiyasının həyata keçirilməsində, tarix, təbiət, cəmiyyət və başqa reallıqlar haqqında bilgilərin həm yayılmasında, həm də mənimsənilməsində böyük rol oynayır. Bu sahədə ABŞ muzeylərinin iş təcrübəsinə daha çox diqqət yetirmək lazımdır. ABŞ muzeylərində uşaq və yeniyetmələrlə aparılan işin sahələri çox genişdir. YUNESKO-nun məlumatına görə iqtisadi inkişafına görə dünyanın ən qabaqcıl super dövləti olan ABŞ-da 30 mindən çox muzey fəaliyyət göstərir. Bunlar həm dövlət, həm də özəl muzeylərdən ibarətdirlər. Profilindən asılı olmayaraq buradakı bütün muzeylər ölkənin təhsil müəssisələri ilə qarşılıqlı əlaqələr yaradırlar. Gündəlik fəaliyyətlərini əks etdirən cədvəl əsasında uşaq və yeniyetmələrlə elmi-kütləvi və bədii-emosional tədbirlər keçirirlər. Hər bir muzeyin profil xüsusiyyətlərinə uyğun olaraq klub və birliklər yaradılır. Bu klub və birliklərdə uşaqlar özlərinin istedad və bacarıqlarını inkişaf etdirmək imkanı əldə edirlər. Məsələn, ABŞ-ın Bruklen şəhərindəki Təbiət Tarixi Akademiyasının Muzeyi uşaqların asudə vaxtının səmərəli təşkili istiqamətində diqqəti cəlb edən mədəni ənənələrə malikdir. Muzey hələ 1899-cu ildə Təbiət Tarixi Akademiyasına hədiyyə şəklində verilən parkda yaradılmışdır. Parkın iki mərtəbəli binasında Bruklen muzeyinin uşaq şöbəsi fəaliyyət göstərir. Burada etnoqrafiyaya, tarixə, coğrafiyaya, təbiətşünaslıq sahəsinə marağı olan uşaqlar üçün klub və birliklər yaradılmışdır.

Boston şəhərində yerləşən uşaq bədii mərkəzi də böyük muzeylərin fond materiallarından istifadə edərək məktəblərdə tez-tez səyyar sərgilər keçirirlər. Bu sərgilərdə müxtəlif rəssamların nağıllara çəkdikləri illüstrasiyalar nümayiş etdirilir. Peşəkar rəssamların işləri ilə yanaşı rəssamlığa maraq göstərən uşaq və yeniyetmələrin yaradıcılığına da sərgilərdə xüsusi yer ayrılır.

ABŞ muzeylərinin nəzdində uşaq birliklərinin yaradılması ənənəvi tarixə malikdir. Burada muzeylər mədəniyyət müəssisəsi kimi uşaqların asudə vaxt balansını əvvəlcədən proqramlaşdırır və onu səmərəli yaradıcılıq, məşğuliyyət prosesinə çevirə bilirlər. Hətta Berlingem və Montqomeri kimi xüsusi muzeylər də mədəni asudə vaxt mərkəzlərinin funksiyasına daxil olan bütün xidmətləri göstərməyə çalışırlar. Həmin muzeylərin əməkdaşları da öz ölkələrinin gələcək intellektual təminatını, yaradıcı potensialını uşaq və yeniyetmələrin hərtərəfli biliyə və bacarığa yiyələnmələri ilə əlaqələndirirlər.

ABŞ muzeylərinin çoxunda həm uşaqlar, həm də böyüklər üçün mədəniyyət və incəsənətə dair silsilə məşğələlər təşkil olunur. Muzeylərdə uşaq xoru, rəqs və təsviri incəsənət dərnəkləri, xalq folklorunu öyrənən və təbliğ edən birliklər və s. fəaliyyət göstərir.

ABŞ-ın Boston şəhərindəki elm tipli muzeydə uşaqlarla aparılan iş üç yaş mərhələsi üzrə müəyyənləşdirilir. 4-9 yaşlarında olan uşaqlarla aparılan "Elmi macəralar saatı" proqramı əyləncəli vasitələrlə uşaqların müxtəlif bilgilərə yiyələnməsinə şərait yaradır. Astronomiya, tarix və mexanika sahələri ilə tanışlıq macəralar şəklində dramatikləşdirilir və buna görə də uşaqlar üçün mövzunun məzmununu anlamaq çətin olmur.

10-16 yaşlı məktəblilərlə aparılan iş uşaqların maraqları və istedadlarına uyğun şəkildə qurulur. Müəllimlər tərəfindən seçilmiş istedadlı uşaqlar müxtəlif elm sahəsində təcrübələr keçir, konfranslarda çıxışlar etmək üçün məruzələr hazırlayırlar. Muzey əməkdaşları onların maraq dairələrinə uyğun olaraq məsləhətlər verir, müxtəlif tarixi materiallarla tanışlıqlarına kömək edirlər.

Muzeydə uşaqlarla aparılan işin üçüncü mərhələsi "Elmin üfüqləri" adlanır, ABŞ-ın tanınmış görkəmli alimləri ilə uşaqların görüşləri, məsləhətləşmələri, məşğələləri və s. tədbirlər keçirilir.

Çikaqodakı Təbiətşünaslıq Tarixi muzeyində də uşaqların yaş xüsusiyyətlərinə uyğun olaraq işlər aparılır.

Bir çox muzeylərdə "Muzeyin könüllü dostları" cəmiyyətləri də fəaliyyət göstərir. Məsələn, Mançester şəhərindəki elm və texnika muzeyində həmin klubun üzvləri eksponatların qorunub mühafizə olunmasında yaxından iştirak edirlər.

Muzeylərin pedaqoji-tərbiyəvi fəaliyyətinin təşkili Yaponiyada da çox yaxşı qurulmuşdur. Məsələn, Tokio şəhərindəki Asiya mədəni mərkəzi 1978-ci ildən bəri muzeylərin eksponatlarının kütləvi şəkildə təbliği üçün audiovizual komplektlər hazırlayır. Hər komplekt bələdçi kitabçası ilə birlikdə rəngli slaydlardan, məlumatverici maqnitofon lentindən ibarətdir. Belə dəstlərdən biri "Asiya Sakit okean ölkələrinin muzeyləri" toplusu adlanır. Həmin toplu 240 rəngli slayddan, ingilis dilində səslənən və 1 saat 30 dəqiqə davam edən musiqi tərtibatı olan bələdçi-maqnitofon lentindən ibarətdir. Bu vasitələrlə müxtəlif muzeylərin eksponatları haqqında məlumatlar verilir, hər bir adamı öz mədəni asudə vaxtını keçirmək üçün seçim qarşısında qoyur. Yuxarıda qeyd olunan xidmət sahəsi muzey haqqında xüsusi informasiya mərkəzi rolunu oynayır. Təbii ki, belə mərkəzlərin yaradılması bizim ölkədə də vaxtını muzeylərdə keçirmək istəyənlərə marşrut seçmək imkanı verə bilər.

"Müxtəlif obyektlərin daxil olduğu muzey birliklərində xüsusi informasiya mərkəzlərinin yaradılması məqsədəuyğundur. Elə burada tamaşaçının ekspozisiyanı və abidəni qavraması üçün bütün hazırlıq məsələləri həll oluna bilər. Tamaşaçı bu cür mərkəzdə muzey haqqında filmə baxar, baxış üçün əvvəldən daha əlverişli marşrut müəyyənləşdirər, məlumat ədəbiyyatı və şifahi məlumat ala bilər".

Azərbaycan muzeyşünaslığının tarixi təcrübəsinə istinad etsək, görərik ki, hələ ötən əsrin 70-ci illərinin sonundan mədəni asudə vaxtın səmərəli təşkili amilinə bizim muzeylərdə də xüsusi əhəmiyyət verilmişdir.

Xüsusilə, gənclərin istək və maraqlarını, sosial-psixoloji xüsusiyyətlərini, fəal işə, müstəqil yaradıcılığa münasibətlərini nəzərə alan tarix və diyarşünaslıq muzeyləri mədəni-kütləvi işin müxtəlif formalarından istifadə etmişlər. Gəncləri fəal yaradıcılığa, tədqiqat işinə, axtarışlara yönəldən dərnəklər, müsabiqələr, maraq klubları və s. təşkil olunmuşdur. əldə olunan məlumata görə Dövlət Tarix Muzeyi hər il məktəblilər üçün 16 dərnək (tarix, arxeologiya və bədii) təşkil etmiş, eyni zamanda muzeydə "İlk insan cəmiyyətinin tarixi", "Skiflərin və sarmatların arxeologiyası", "XVII əsr mədəniyyəti və incəsənəti" və s. mövzularda konfranslar keçirilmişdir. Burada bir neçə il "Qırmızı qərənfil" klubu fəaliyyət göstərmiş, onların köməyi ilə "əmək himni" adı altında məşğələlər təşkil olunmuşdur. Hər bir məşğələ üçün muzey tematik sərgi hazırlamış, bu sərgi sonralar tədris müəssisələrində, zavodlarda, hərbi hissələrdə, respublikanın bir çox rayonlarında da nümayiş etdirilmişdir. Tarix muzeyi tərəfindən təşkil olunan tədbirlər zamanı tamaşaçıların müəyyən sosial-demoqrafik qruplarının yaş, peşə, təhsil xüsusiyyətləri, yaşayış yerlərinin milli-etnik, ənənəvi cəhətləri nəzərə alınmışdır.

İndi də bəzi muzeylərimiz öz işlərini orta və ali təhsil müəssisələri, veteranlar şurası, turist təşkilatları, kitabxanalar, mədəniyyət evləri və başqa asudə vaxt mərkəzləri ilə birgə qururlar. Muzeylər bu təşkilatlarla birlikdə geniş miqyaslı, rəngarəng kütləvi tədbirlər hazırlayır və həyata keçirirlər.

Müasir şəraitdə asudə vaxtdan səmərəli istifadə edilməsi mənəvi tərbiyənin mühüm amilidir. İnsanların mənəvi tərbiyəsi, şəxsiyyətin fəal həyat mövqeyinin formalaşması tam bir sıra obyektiv və subyektiv şərait və amillərin, bütün həyat tərzinin, ictimai münasibətlərin mahiyyətindən irəli gəlir. Belə ki, asudə vaxt təkcə istirahət deyil, həm də hər bir adamın inkişafı, müxtəlif peşə və vərdişlərə yiyələnməsi üçün reallıqdır.

Hazırda asudə vaxt mədəniyyəti dünyanın hər yerində mənəvi zənginləşmə, biliklərə və vərdişlərə yiyələnmə, əylənmə və istirahət etmə amili kimi qiymətləndirilir. Məhz asudə-vaxt mərkəzləri daima müxtəlif sosial-mədəni hadisələr yaratmaqla insanları özünün fəaliyyətinə cəlb edir.

Ümumiyyətlə, mədəni asudə vaxtın sosial probleminə aid olan üç əsas cəhəti xüsusi olaraq qeyd etmək lazımdır:

Birinci cəhət asudə vaxt reallığını yaradan konkret ictimai və şəxsi şəraitin mövcudluğudur. İctimai və fərdi həyatın müxtəlif mərhələlərində asudə vaxtın miqdarı da müxtəlif ola bilər. Məlumdur ki, bəzən həyat şəraiti asudə vaxtın azalmasına və hətta onun sıxışdırılıb aradan çıxmasına səbəb olur və ya minimum həddə enir. Asudə vaxtın bu qeyri ahəngdarlığı ondan məqsədli şəkildə istifadə olunmasında müəyyən çətinliklər yaradır. Buna baxmayaraq hər bir şəxsin həm maddi, həm də mənəvi niyyətlərini duyub ona münasib olan asudə vaxt fəaliyyətini hərəkətə gətirmək və inkişaf etdirmək mümkündür. Məhz hər bir fərdə uyğun olan əlverişli münasibətləri yaratmaqla onları stimullaşdırmaq, səmərəli ictimai-mədəni fəaliyyətə cəlb etmək vasitələrini aramaq lazımdır. Bu məqsədlə də beynəlxalq miqyaslı mədəni asudə vaxt ənənələrinə, dünyanın qabaqcıl mədəniyyət mərkəzlərinin təcrübəsinə istinad etmək olar.

İkinci cəhət, mədəni asudə vaxtın məkan sistemi ilə, onun rəngarəng formaları ilə bağlıdır. Belə ki, mədəniyyət müəssisələrinin binası, onun yerləşdiyi yer, maddi-texniki, bədii-mənəvi imkanları mədəni

asudə vaxtın real mühitidir. Bu mühit nə qədər mədəni, cazibədardırsa, onun imkanlar diapazonu da bir o qədər genişdir. Belə bir mühitin məkanında mədəni asudə vaxtın keyfiyyət fərqlərinin rəngarəngliklərini də yaratmaq çətin deyildir. çünki mühit və şərait müxtəlif formalı asudə vaxt məşğuliyyətləri yaratmaq imkanı verir.

Üçüncü cəhət, asudə vaxtın mədəni təşkilinə şəxsiyyətin fərdi, emosional münasibətlərini, onun mədəni səviyyəsini, intellektuallığını aid etmək olar. Daha doğrusu, mövcud mədəni mühitdən asılı olmayaraq fərdi xarakterlə, mentalitetlə, qabiliyyətlə və insani amillərlə bağlı olan davranış normaları, ünsiyyət və fəaliyyət maraqları və s. vardır. Mədəni mühitdə yaşamaq və mədəni sərvətlərin əhatəsində olmaq hər bir adam üçün mümkündür. Lakin bu mühitdən və sərvətlərdən hamı eyni dərəcədə bəhrələnə bilmir. Bəziləri bu mühitin daxilində miskin və fəaliyyətsiz insan kimi görünür. Bəziləri isə özlərinin asudə vaxtlarından israfçılıqla istifadə edir və çox zaman etik normalar həddini də aşır. Mədəni cəhətdən daha çox inkişaf etmiş adam isə öz asudə vaxtının qədrini bilir və ondan səmərəli şəkildə istifadə etməyi bacarır. Belə şəxsiyyətlər asudə vaxtdan bəhrələnməyin mahiyyətini şüurlu şəkildə anlayır, ondan həm fiziki, həm də zehni inkişafı üçün istifadə edirlər.

ASUDƏ VAXTIN KEÇİRİLMƏ FORMALARI
İŞTİRAK ETMƏ DƏRƏCƏSİ

| | həmişə | təsadüfi | Məhdud |
|---|---|---|---|
| Yemək | 54 | 30 | 16 |
| Televizora baxış | 41 | 34 | 25 |
| Radioya qulaq asmaq | 40 | 34 | 26 |
| Kitab oxumaq | 39 | 27 | 34 |
| Evdə musiqiyə qulaq asmaq | 39 | 37 | 24 |
| Evin ətrafında işləmək | 36 | 36 | 28 |
| İctimai fəallıq | 25 | 41 | 34 |
| Seksual fəallıq | 25 | 41 | 34 |
| Kilsə və ya klub fəaliyyəti | 23 | 20 | 57 |
| Evdən kənar fəaliyyət | 21 | 26 | 53 |
| Hobbi | 20 | 20 | 60 |
| İdman | 19 | 22 | 59 |
| Əlavə pul qazanmaq | 17 | 21 | 62 |
| Təhsili davam etdirmək | 15 | 16 | 69 |
| Evin səliqəsi ilə məşğul olmaq | 15 | 44 | 41 |
| Qısa müddətli yuxu | 14 | 27 | 59 |
| Heç nə etməmək | 13 | 24 | 63 |
| İdman oyunlarına tamaşa | 13 | 25 | 62 |
| Kart və başqa oyunlar oynamaq | 12 | 26 | 62 |
| Könüllü işlə məşğuliyyət | 11 | 18 | 71 |
| Bədii yaradıcılıq | 9 | 11 | 80 |
| Kinoya getmək | 8 | 31 | 61 |
| Musiqi alətlərində çalmaq | 7 | 8 | 85 |
| Teatra, musiqili və ya balet tamaşalarına getmək | 6 | 23 | 71 |
| Diskotekaya getmək | 5 | 9 | 86 |
| Siyasi fəaliyyət | 4 | 11 | 85 |
| Əyləncəli oyunlar | 3 | 9 | 89 |

Lakin şəxsiyyətin yüksək mədəniyyətə yiyələnməsi prosesi mədəniyyət müəssisələrinin fəaliyyətindən də çox asılıdır. Mədəniyyət müəssisələri insanların asudə vaxt balansından istifadə edib onların mənən zənginləşməsinə, intellektual səviyyəyə yüksəlməsinə yardımçı olurlar.

Tədqiqatçıların fikrincə, Azərbaycanda ictimai quruluşun dəyişməsi son illər asudə vaxtın səmərəlilik anlayışında da müəyyən problemlər yaradıb. “Belə ki, istehsalın olmamağı, bir çox müəssisələrin işləməməyi, əhalinin asudə vaxtının təşkilini də çətinləşdirib. Cəmiyyətdə kütləvi işsizliyin olması iş vaxtı ilə işdən sonrakı vaxt arasındakı sərhədi götürür, vaxtı mənasızlaşdırır”. Bəzi tədqiqatçıların fikrincə, məhz buna görə də cəmiyyətdə asudə vaxt anlayışı gözdən düşür. Heç bir məşğuliyyətə malik olmayan insanlar əsas vaxtlarını əmək birjaları qarşısında iş axtarmağa sərf edir, yaxud vaxtı öldürmək xətrinə televizora baxırlar. Belə təbiətli mədəni asudə vaxtda şəxsiyyətin zənginləşməsinə təsir edə bilən, nəzərə çarpan səmərə baş vermir.

Qeyd edək ki, dünyanın hər yerində mədəni asudə vaxtdan bəhrələnmək dərəcəsi bütün fərdlər üçün bərabər deyildir. Hər bir fərdin özünəməxsus olan sosial fəaliyyət imkanları vardır. Məhz buna görə də hər bir fərd özünün sosial-iqtisadi vəziyyətinə uyğun olan asudə vaxt formaları ilə məşğul olmağı seçir Bu mənzərəni daha dəqiq görmək üçün ABŞ-ın Harris Syurvey adlı xidmət mərkəzinin apardığı bir

tədqiqatın göstəricilərinə diqqət yetirək. Bu göstəricidə insan fəaliyyətinin daha geniş sahələri qeyd olunur və əhalinin həmin sahələr üzrə vaxt bölgüsü dərəcəsi müəyyənləşdirilir:

Aparılan bu sosioloji tədqiqat zamanı insanların asudə vaxtlarının daha çox öz evlərində və ya evlərinə yaxın olan ərazilərdə keçirmələri aşkar edilmişdir. Lakin boş vaxtın mədəni asudə vaxt mərkəzlərində keçirilməsinin dərəcəsi heç vaxt aşağı düşməmişdir. əksinə olaraq, ildən-ilə artmışdır. Xüsusilə, teatrlara, balet tamaşalarına, konsertlərə baxanların sayı çoxalmışdır. əsasən ABŞ-ın yaşlı nəsli arasında aparılan sosioloji tədqiqatlara görə tamaşaya baxanların göstəricisi 1986 – 1987-ci illərdə 34.2 faiz, 1987-1988-ci illərdə 35.4 faiz, 1989-cu ildə 35.5 faiz, 1990-cı ildə isə 35.7 faiz olmuşdur.

Özəl videotexnika çox sürətlə artmışdır. əgər 1984-cü ildə əhalinin 38 faizi videotexnikadan istifadə etmək imkanına malik olmuşsa, 1989-cu ildə bu faiz 64-ə qalxmışdır. Televiziya texnikasına sahib olmaq dərəcəsi isə 98-ə yüksəlmişdir. Bu faktlar bir daha sübut edir ki, dünyanın inkişaf etmiş ölkələrində boş vaxtını səmərəli keçirilənlərin sayının artması əsasən mədəni asudə vaxt formalarının rəngarəngliyi ilə əlaqədardır.

Lakin kulturologiya sahəsində peşəkar kadrların hazırlanması məsələsi həmişə bu ölkələrdə problem olaraq qalır. Sosial-mədəni fəaliyyətlə əsasən filosoflar, müəllimlər, həkimlər, psixoloqlar, sosioloqlar, iqtisadçılar, incəsənət xadimləri və başqa sənət adamları məşğul olurlar. Onlar mədəni asudə vaxt tədbirlərinin təşkilatçıları olmaq üçün universitetlər və kolleclər nəzdində yaradılan bir illik təkmilləşmə kursu keçirlər. Bu baxımdan Azərbaycan Respublikası mədəniyyət sahəsi üzrə xüsusi təhsil müəssisələrinə malik olmaqla ən inkişaf etmiş ölkələrdən öndədir. Respublikamızda kulturologiya, mədəni asudə vaxt sahəsi üzrə mütəxəssis hazırlayan həm ali tədris müəssisəsi, həm də texnikum fəaliyyət göstərir. Ancaq cəmiyyətdə yaranan çətinliklər həmin təhsil müəssisələrinin yetişdirdikləri kadrların təşkilatçılıq potensialını üzə çıxarmaq imkanı vermir. Ali və ya orta ixtisas təhsilli mədəniyyət işçiləri iqtisadi çatışmazlıqların girovuna çevrilməmək üçün çox zaman öz peşələrindən imtina etməyə məcbur olurlar.

Əgər gələcəkdə Azərbaycan dövləti mədəni asudə vaxtın təşkili üzrə beynəlxalq əlaqələr yarada bilsə, həm ölkəmizdə hazırlanan peşəkar mütəxəssislərin dünya miqyasında fəaliyyət göstərməsi üçün şərait yaranar, həm də mədəniyyətlərin koordinasiyası prosesi daha geniş miqyasda baş verər. Bu əlaqələrdən Azərbaycan dövləti ilə yanaşı başqa ölkələr də bəhrələnə bilər. Hər halda asudə vaxtın daha səmərəli təşkili məsələsi bütün ölkələr üçün problem olaraq qalır. Asudə vaxtın funksiyaları çox geniş sahəni əhatə etdiyindən onun mahiyyətinə və əhəmiyyətinə də müxtəlif aspektlərdən yanaşılır.

Bəzən asudə vaxtı "sərbəst vaxt", "istirahət anı" kimi də qiymətləndirənlər vardır. əslində sərbəst vaxt asudə vaxtın zamanıdır, onun həyatda olan müddət ölçüsüdür. Sərbəst vaxtın mədəni asudə vaxt aləmini isə onun məkanındakı mühit formalaşdırır. "Buna görə də biz sərbəst vaxtdan bəhs edərkən diqqətimizi heç də sərbəst vaxt büdcəsi məsələləri üzərində deyil, əksinə olaraq diqqətimizi həmin vaxt ərzində müəyyən mənəvi praktik fəaliyyət üzərində, onun strukturu üzərində cəmləşdiririk".

Sərbəst vaxt sistemində asudə vaxt mədəni-mənəvi əyləncə, istirahət, yaradıcılıq və s. fəaliyyət anlarını stimullaşdıran kateqoriya kimi nəzərə çarpır. Səmərəli bəhrələnmə amili isə asudə vaxtın əsas kateqoriyasını xarakterizə edir, onun təbiətini aşkarlayır. Məhz bu amil vaxtın strukturunun yaradıcı, xeyirli meyarı kimi nəzərə çarpır. Bu meyara insanın mənəvi aləmini gözəlləşdirən, onu zehni, fiziki və ictimai inkişafa sövq edən fəaliyyət növləri nəzərdə tutulur. Bu fəaliyyətlərin səmərəliliyi isə maraqların dərəcəsindən və asudə vaxt məkanının mühitindən asılıdır.

Gənclərin və bütün sosial qrupların maraqlarının müxtəlifliyini nəzərə alaraq deyə bilərik ki, mədəni asudə vaxt fəaliyyətinin rəngarəng formalarını yaratmadan bütün fərdlərin tələblərini ödəmək mümkün deyildir. çünki hər bir fərdin öz maraq dairəsi və mənəvi tələbatı var. Mədəni asudə vaxt mərkəzləri ardıcıllıqla aparılan sosioloji tədqiqatlara əsaslanaraq hər bir fərdin maraq və mənəvi tələbatını öyrənməlidir. Yalnız aparılan sosioloji tədqiqatlara uyğun olaraq fərdin hər birinin asudə vaxtının səmərəli olmasına təminat yaratmaq mümkündür.

Əvvəllər sosioloji, pedaqoji, sosial-psixoloji tədqiqatlar aparmaq üçün həm mədəniyyət müəssisələrinin ştatda olan işçilərindən, həm də fəallarından istifadə olunmuşdur. Onların vasitəsilə tamaşaçılar arasında sorğular keçirilir, əhalinin müxtəlif qruplarının mədəni asudə vaxt fəaliyyəti üzərində müşahidələr aparılırdı.

Aparılan tədqiqatlar göstərir ki, yaş və sosial qrupundan asılı olmayaraq bütün insanlar ünsiyyət vasitələrindən istifadə etməyə böyük üstünlük vermişlər. İnsanlar arasında ünsiyyətə, qarşılıqlı anlaşmaya, birgə həyəcan keçirməyə, müəyyən yaxınlığa meyl çox güclü olmuşdur.

Şəxsiyyətlər arası ünsiyyət olmadıqda asudə vaxtı yadda qalan mədəni hadisəyə çevirmək mümkün deyildir. Buna görə də insanlarda olan ünsiyyətə meyllilik mədəni asudə vaxt fəaliyyətini stimullaşdırır, onun əhəmiyyətini artırır. Asudə vaxt ərzində bir-biri ilə ünsiyyətdə olan insanların mənəviyyatında, davranışında, düşüncəsində müsbət mənada yeni sosial dəyişikliklər baş verir. Hər bir fərd ictimailəşir,

sosial yaradıcılıq fəaliyyətinə qoşularaq həm öz həyatında, həm də ictimai həyatda yeni keyfiyyət məkanına qədəm qoyur.

Qeyd edək ki, mədəniyyətin funksionallaşması, onun mənəvi-estetik potensialının inkişaf etdirilməsi müasir kulturologiyanın qarşısında duran başlıca vəzifələrdən biridir.

Əvvəllər mədəniyyət sahəsi üzrə mütəxəssislərin hazırlığında elmi-nəzəri əsaslardan daha çox təzadlı təcrübələrə və kommunist partiyasının bir çox qətnamə və sərəncamlarına istinad edilirdi. Bu gün isə mədəni-maarif sistemindən kulturologiya sahəsinə keçid mücərrədliyi və reallıqlara uyğun gəlməyən təzadlı mövqeləri aradan qaldırmağa imkan yaradır.

Müasir kulturologiya beynəlxalq təcrübədən bəhrələnməklə yanaşı, nəzəri və empirik düşüncə tərzinə, mədəniyyət tarixinin ən inkişaf etmiş nümunələrinə əsaslanır. Kulturologiya elmi mədəniyyətin obyektiv və subyektiv dəyərlərini dərindən dərk etməyə, milli mədəniyyətlərin ümumbəşəri əsaslarını və özünəməxsusluğunu açmağa, xalq yaradıcılığı nailiyyətlərini zənginləşdirməyə və onları mühafizə etməyə, gündəlik həyat fəaliyyətinə estetik məna gətirməyə imkan verir.

Hazırda fundamental kulturologiyaya istinad etməklə mədəni asudə vaxtın təşkilini aşağıdakı istiqamətlər üzrə qurmaq zəruridir:

- regional mədəni proqramların işlənməsi və həyata keçirilməsi;
- asudə vaxtın sosial-mədəni təşkili;
- asudə vaxtın universal mərkəzlərinin fəaliyyətinin təşkili;
- turizm əsasında asudə vaxtın təşkili və metodikası;
- incəsənət vasitələri ilə asudə vaxtın təşkili;
- bədii-kütləvi tamaşalar, mərasimlər, ayinlər və əyləncəli oyunlar vasitəsilə asudə vaxtın təşkili;
- uşaq və yeniyetmələrlə sosial-mədəni fəaliyyətin təşkili;
- ailənin asudə vaxtının təşkili;
- sosial yaradıcılığın pedaqoji və psixoloji cəhətlərinin öyrənilməsi;
- mənəvi və texniki yaradıcılığa olan sosial təminatın ödənilməsi və s.

Kulturologiyanın qarşısında duran bu vəzifələrin həyata keçirilməsi mədəniyyət sahələrində çalışan mütəxəssislərin peşəkarlığından və onların nəzəri yetkinliyindən çox asılıdır.

Mədəni-sosial fəaliyyətin əsas təşkilatçıları olan mütəxəssislər əhalinin müxtəlif təbəqələrinin sosial-mədəni tələbatlarının dərindən öyrənilməsi üçün əldə olunan nəticələrə uyğun olaraq mədəni asudə vaxt fəaliyyəti proqramı hazırlamalıdırlar. Eyni zamanda mədəni-sosial fəaliyyətin iqtisadi mexanizmini dəqiqləşdirməlidirlər. Mədəni asudə vaxt xidmətinin yeni özəl strukturlarının yaradılmasının müasir dövr üçün vacibliyini nəzərə alaraq ABŞ-ın, İngiltərənin, Fransanın, Yaponiyanın, Almaniyanın və başqa inkişaf etmiş ölkələrin mədəniyyət müəssisələrinin iş təcrübəsindən bəhrələnməlidirlər.

Son onilliklərdə Böyük Britaniya, ABŞ, Fransa, Türkiyə və s. ölkələrdə külli miqdarda asudə vaxtın təşkilinin təbiətini və xüsusiyyətini təhlil edən elmi tədqiqat əsərləri işıq üzü görmüşdür. Bu əsərlərdə göstərilir ki, keçən əsrin 60-80-ci illərində iqtisadi inkişafın nailiyyətləri həmin ölkələrdə insanlar üçün mədəni və asudə vaxt fəaliyyətini təmin edən kifayət qədər şaxəli sistem yaratmaq imkanı qazandırır. Dünya mədəniyyətinin memarlıq, tikinti, dizayn, kompyuter texnikası və İKT sahəsində nailiyyətləri bu sistemin əsasını təşkil edir. İctimai, ailə və fərdi asudə vaxtın təşkili təbiət imkanlarına, milli parklara, çimərliklərə, mehmanxanalara arxalanır, təşəkkül tapmış mədəni ənənələrdən, folklordan, ədəbiyyat, teatr, musiqi, xoreoqrafiya, təsviri sənətdən geniş istifadə edir. Qərbi Avropa, ABŞ, Kanada, Yaponiya, Sakit Okean bölgəsi ölkələrində mədəni və asudə vaxtın təşkili və maddi bazalarının yaradılmasında əhəmiyyətli dəyişikliklər baş verib, ənənəvi milli mədəniyyətin qorunub saxlanması və inkişafı zəminində sistemli fəaliyyət təşəkkül tapıb. Uşaqların, yeniyetmələrin, gənclərin mənəvi-estetik tərbiyəsi, asudə vaxtın təşkilinin qabaqcıl formaları, habelə yaşlı nəsil üçün sosial əhəmiyyət kəsb edən iş üsulları bütövlükdə özünü doğrulda bildi.

## *2.3. Xarici ölkələrdə mədəni fəaliyyətin təşkilinin inkişaf mərhələləri*



ABŞ-da KOMPYUTER OYUNLARI ZALI

ABŞ, Böyük Britaniya, Fransa, İtaliya və s. inkişaf etmiş ölkələrdə məqsədyönlü dövlət siyasəti, bir sıra elmi və ictimai təşkilatların fəallığı mədəni fəaliyyətin və asudə vaxtın təşkilinin inkişafına güclü təsir göstərir. Dünyanın onlarla ölkəsində asudə vaxtın təşkili üzrə nazirliklər və komitələr, asudə vaxt və idman nazirlikləri və komitələri, turizm nazirlikləri və komitələri, mədəniyyət və turizm nazirlikləri və komitələri fəaliyyət göstərir. 50-yə yaxın

ölkədə asudə vaxt akademiyaları yaradılıb. ABŞ, Kanada, Yeni Zelandiyanın asudə vaxt akademiyaları ən nüfuzlu təşkilatlardan sayılır. Qərbi Avropa, ABŞ və digər ölkələrdə, pedaqogika, səhiyyə, psixologiya, kulturologiya, menecment və sosial təminat sahələrini əhatə edən olduqca mürəkkəb istiqamət üzrə peşəkar mütəxəssislər ordusu əhalinin müxtəlif qruplarının asudə vaxtlarını səmərəli keçirməsi üçün əlverişli şərait yaradılması zəminində çalışırlar. XX əsrin sonu - XXI əsrin əvvəlində inkişaf etmiş ölkələrdə asudə vaxtın təşkili nəhəng maddi-texniki bazaya dayaqlanır. Buraya mehmanxanalar, turizm kompleksləri, milli parklar, stadionlar, çimərliklər, gəzinti gəmiləri, idman əyləncə müəssisələri, rekreasiya düşərgələri, muzeylər, teatrlar, rəqs meydançaları, kazino, zoopark və akvariumlar, təqaüdçü klubları, uşaq kompyuter oyunları müəssisələri, “Disneylendlər”, İnternet və digər təsisatlar daxildir. Sənaye ailə və fərdi istirahət üçün ağlasığmaz çeşiddə məmulat istehsal edir. Fərdi kompyuterlər, kino-tele-video cihazlar, demək olar ki, hər ailəyə daxil olmuş, İnternet-şəbəkə planeti hörümçək toru kimi bürümüşdür.

Sosial təminat işçiləri, sosial pedaqoqlar, animasiya, relaksasiya mütəxəssisləri, dövlət, bələdiyyə orqanları, ictimai təşkilatlar, dini qurumlar, sosial təsisatlar adından uşaqların estetik tərbiyəsini təşkil edir və müxtəlif əhali qruplarının səmərəli asudə vaxtının təşkilinə yardım göstərirlər.

İnkişaf etmiş ölkələrdə ictimai və elmi-texniki tərəqqi özünəməxsus asudə vaxt cəmiyyəti yaratdı. Burada insanlar gərgin əmək fəaliyyətinin bəhrəsindən istifadə edərək asudə vaxtlarını səmərəli və rəngarəng istirahətə, fiziki, psixi, zehni qüvvələrin bərpasına həsr edirlər, idmanla məşğul olur, mədəni-yaradıcı fəaliyyətin müxtəlif formalarına qoşulurlar. Lakin bütün bunlar heç də öz-özünə əmələ gəlməyib, bəşəriyyətin çoxəsrlik təkamülünün nəticəsidir.

Səmərəli istirahət cəmiyyətlərinin mənşəyini qədim tarixi dövrlərdə, Qədim Şərq, Antik dünyada, İntibah dövründə, Amerika aborigenlərinin qədim ənənələrində, İslam, xristianlıq, yəhudi təriqətlərində axtarmaq lazımdır. Onların fəlsəfə, sosiologiya psixologiya, pedaqogika, antropologiya, fiziologiya, təbabət kimi insan haqqında elmlərlə əlaqəsi şəksizdir. Sivilizasiya təkamül etdikcə insan daha çox öz asudə vaxtının sahibinə çevrilir, onu dəyərləndirməyə qadir olur, ondan dərrakəli istifadə etmək məqsədi ilə müəyyən bacarığa yiyələnir.

Çin, Hindistan, Yaxın Şərq ölkələrinin tarixini əks etdirən müxtəlif sənədlərdə asudə vaxt mənəvi həyatın tərkib hissəsi, rekreasiya vasitəsi kimi qavranılmasının şahidi oluruq. Antik dünya ədəbiyyatında asudə vaxtın məzmunu, forması və təyinatı haqqında müəyyən dərəcədə sistemli yanaşmaya Platon, Epikur və Aristotelin nəzəriyyələrində rast gəlirik. Məsələn, Platon iddia edirdi ki, asudə vaxt dövlət fəaliyyətinin tərkib hissəsidir. İnsanın cəmiyyətdə tutduğu mövqedən asılı olaraq onun asudə vaxtının məzmunu, forması və vaxtı müəyyən edilir. İncəsənət, bayramlar, idman, habelə asudə vaxt və bütün ünsiyyət formaları dövlət tərəfindən tənzimlənir. Asudə vaxt tamamilə doldurulur, onun hədər yerə sərf olunmasına yol verilmir. Əslində Platon nəzəriyyəsi vətəndaşı asudə vaxtdan məhrum edir, çünki asudə vaxtı dövlət tərəfindən tənzimlənən insan öz istirahətini şəxsi zövqünə görə qurmaq hüququnu itirir.

Aristotelin baxışları Platon nəzəriyyəsi ilə ziddiyyət təşkil edir. Aristotel azad doğulmuş (kölədən fərqli olaraq) insanın azad tərbiyəsinə, şəxsiyyətin yaradıcı imkanlarının sərbəst təzahür etməsinə üstünlük verir.

Aristotel asudə vaxtı “Yüksək asudə vaxt” kimi müəyyən edir. Çünki onun çərçivəsində polis (şəhər-dövlət) vətəndaşının gerçək dəyərləndirilməsi baş verir. Uzun müddətli və mürəkkəb tərbiyə prosesi həyat fəaliyyətinin bütün sahələrində davam edir, öz zirvəsinə isə yalnız “yüksək asudə vaxtda” yetişir. Demokratik dövlətdə təsərrüfatçılıq, ticarət, elmi və inzibati fəaliyyət yüksək asudə vaxtın təşkili üçün şərait yaradan vasitələr kimi müəyyən edilir. Əgər dövlət qulluğu, ictimai-siyasi, peşəkar əmək fəaliyyətində insan davranışı müəyyən öhdəlik, tabeçilik və digər hüdudlarla tənzimlənirsə, sərbəst vaxtın keçirilməsi fərdin şəxsi zövqünə, maraqlarına və tələbatına uyğun qurulur, yalnız bu fəaliyyətdə o, bacarıqlarından asılı olaraq özünü şəxsiyyət kimi realizə edə bilir.

Asudə vaxt problemi Demokritin, Sokratın və antik dövrün digər mütəfəkkirlərinin fəlsəfi baxışlarında öz əksini tapır, lakin asudə vaxtın təbiətinin ən dolğun və əsaslı açıqlamasını Epikur verir. Filosof asudə vaxtı “qorxu və təhlükələrdən, ictimai və dövlət işlərindən uzaqlaşma, mənəvi inkişaf, cismani və mənəvi zövq duyğusu üçün şərt ” kimi müəyyən edir.

Antik dünya tənəzzülə uğradıqdan sonra Avropa, Şimali Afrika, Yaxın və Orta Şərqdə asudə vaxt lüzumsuz veyllik kimi qəbul edilir, onun dəyəri inkar edilir, asudə vaxtı “idrak və harmoniya bayramı” kimi anlayanlar fiziki və mənəvi təqibə məruz qalırlar.

Orta əsrlərdə Avropada xristianlığın hökm sürdüyü dövrdə asudə vaxta ikili münasibət müşahidə olunur. Bu isə katolik kilsəsinin ümumiyyətlə zaman kateqoriyasını insanın bu dünyada ömrünə və əbədiyyətə qovuşmasına ayırması səbəbindən irəli gəlir. Asudə vaxt bir tərəfdən veyllik kimi təfsir edilir, digər tərəfdən insanı məişətin xırdaçılığı, keşməkeşi, cəmiyyətin məşrutluğu üzərində yüksəldən ali seyrçilik kimi nəzərdən keçirilir.

Bəşəriyyətin mövcud olduğu bir neçə minillik ərzində asudə vaxt əsasən cəmiyyətin varlı və kübar təbəqələrinin imtiyazlarından biri olub. Bu gün asudə vaxt ictimai vəziyyətdən asılı olmayaraq hər bir insanın həyat fəaliyyətinin tərkib hissəsidir. Asudə vaxt hüququ XX əsr mədəniyyətinin əsaslı, mühüm nailiyyətlərindəndir.

Müxtəlif dünya xalqlarının adət və ənənələri, özünəməxsusluğu və digər əlamətləri mühüm dərəcədə asudə vaxtın keçirilməsi xüsusiyyətində birləşir. Fransız və Danimarkalının asudə vaxtı kafedə keçir. Braziliyalı, Meksikalı, Argentinalının futbol və karnavalla bağlılığı şəksizdir. Ərəb və Pakistanlı tətbiqi sənətlə məşğul olurlar.

Milyardlarla insan dindar bayram və istirahət günlərini kostyol, kilsə, məscid və digər ibadətgahlarda keçirir. ABŞ, Böyük Britaniya, Kanada kimi inkişaf etmiş varlı ölkələrdə asudə vaxtın keçirilməsi xüsusiyyətlərini hər hansı bir cədvəldə təsnifləşdirmək demək olar ki, mümkün deyil, burada ibadətə də yer ayrılır, kafe və idman oyunlarına da diqqət yetirilir, tətbiqi sənətlə məşğuliyyət də sonuncu yerdə deyil. Bundan başqa yüzlərlə rəngarəng mədəni fəaliyyət növləri ilə məşğul olurlar. Asudə vaxtdan istifadənin yüksək səviyyəsi cəmiyyətin zənginliyinə, onun yüksək elmi-texniki, ictimai və mənəvi qüdrətinə dəlalət edir.

Asudə vaxtın və mədəni işin təşkilinin müasir Amerika modeli bir sıra mühüm amillərlə səciyyələnir.

Bir neçə yüz illik ərzində müxtəlif xalqların ən fəal nümayəndələrinin (passiv insanlar doğma məskənlərini atıb okeanı keçməyə, naməlum uzaq diyara köçməyə cürət etmirdilər) yeni qitəyə axını davam etmişdi. Gəlmələr buraya öz adət və ənənələrini, mədəniyyətlərini gətirdilər.

Bu mədəniyyətlərin birləşməsi nadir, yeni ictimai-mədəni qurumun əsasını qoydu. Orta əsrlərin cəhaləti ilə əlaqəsi olmayan, azad cəmiyyətin ilk növbədə şəxsiyyət azadlığına söykəndiyini təsbit edən müddəalar sürətlə inkişaf etdi. Nəticədə özünəməxsus, nadir amerikalı mentaliteti yarandı. Hər bir amerikalı tamamilə əmindir ki, dövlət və cəmiyyət onu və istənilən Amerikalı vətəndaşını azad və xoşbəxt etmək üçün qurulub. ABŞ və Kanadada qəbul edilmiş təlim-tərbiyə sistemi uşaqlarda sərbəstlik, müstəqillik duyğusu yaradır. Məhz bu duyğu amerikalının asudə vaxtı rekreasiya, həvəskar yaradıcılıq, estetik zövq, təbiət, incəsənət, idman, maraqlı insanlarla ünsiyyət tələbatının ödənilməsi üçün vasitə kimi qavramasına yardım edir.

Digər tərəfdən, müasir dövrün elmi-texniki nailiyyətlərinə əsaslanan mədəni asudə vaxt sahəsinin infrastrukturu aşağıda adları çəkilən tərkib hissələrindən ibarətdir:

- Dövlətin, ştatların, dairələrin və bələdiyyələrin rekreasiya fondunu təşkil edən milli parklar və meşələr, təbiət mənzərələri, tarixi yerlər;
- xüsusi istirahət, idman və əyləncə bazaları o cümlədən idman-konsert müəssisələri, basketbol, beysbol, futbol, xokkey stadionları, idman klubları;
- aktiv idman növləri bazaları, o cümlədən çimərliklər, qayıq-avarçəkmə stansiyaları;
- buz meydançaları, üzgüçülük hovuzları, karate, dzüdo zalları;
- rekreasiya-əyləncə müəssisələri, o cümlədən şəhər bağça və parkları, uşaq meydançaları, zooparklar, attraksion mərkəzləri, gülüş evləri və parkları, kompyuter oyunları mərkəzləri və s.
- mədəniyyət və yaradıcılıq mərkəzləri, o cümlədən teatrlar, filarmoniyalar, konsert zalları, estrada mərkəzləri, kinoteatrlar, videosalonlar, sirklər, holoqrafiya mərkəzləri və s.
- təqaüdçülər klubları, müxtəlif əhali qrupları üçün nəzərdə tutulmuş klublar, rəqs zalları və klubları, xor, xoreoqrafiya, təsviri sənət məktəbləri, studiyaları, mərkəzləri;
- insanları maraq dairələri və müəyyən yaradıcılıq növləri üzrə birləşdirən klublar;
- ibadət müəssisələri, dini - mədəni kompleks və birliklər;
- kitabxanalar, qiraət zalları, musiqi salonları, mühazirə zalları, məsləhət-informasiya mərkəzləri, kompyuter və kino-video informasiyası mübadiləsi mərkəzləri;
- mehmanxana-turizm müəssisələri - otellər, motellər, turizm kompleksləri, treyler parkları, kempinqlər, idman - rekreasiya düşərgələri, suda istirahət-əyləncə bazaları, ekskursiya qatarları və s.
- kurort mərkəzləri, sanatoriyalar, idman-məşq, rekreasiya-oyun müəssisələri, trenajor zalları və s.
- mədəni məişət tipli istirahət-əyləncə müəssisələri, o cümlədən, restoranlar, milli mətbəxlər, kafe və barlar, varyete, kabare, gecə klubları, kazino, rəqs zalları və s.
- internet-kafe və internet-klublar.



KOMPYUTER OYUNLARI ZALI

Adları çəkilən müəssisə və qurumlar müasir Amerika istirahət əyləncə modelinin heç də tam mənzərəsini əks etdirmir. Təkcə İnternetin III minilliyin əvvəlində nə dərəcədə insan həyatına müdaxilə etdiyini anlaya bilsək, asudə vaxt anlayışının nə dərəcədə dəyişdiyini anlaya bilərik. Yüz milyonlarla veb-səhifələr,

milyonlarla bloqlar, çatlar insanların, ilk növbədə gənc nəslin mənəvi varlığına hakim kəsilib. Yer kürəsini hörümçək toru tək bürüyən şəbəkədə müxtəlif tipli informasiya ağlasığmaz həcmdə ağlasığmaz sürətlə hərəkət edir.

Müəyyən narahatlıqları olan bəzi amerikalı seçicilər həmişə seçkili dövlət məmurları ilə, xüsusilə prezidentlə, senatorlar və konqresmenlərlə birbaşa təmasda olmağa çalışırlar. Onlar istər öz ştatlarında, istərsə də öz rayonlarında olsun, həmin dövlət məmuruna əvvəllər məktub yazır, teleqram göndərir, telefonla zəng vurur və yaxud şəxsən onun qəbuluna gedirdilər. Ancaq son bir neçə ildə yeni kommunikasiya mediumu səhnəyə çıxmış və seçicilərə qeyri-adi bir güc - öz dünyalarında nələr baş verdiyini dərhal öyrənmək, bu hadisələri anında dəyərləndirmək və xoşlarına gəlməyən şeyləri dəyişdirmək üçün işləmək gücü vermişdir. Bu medium İnternetdən, “World Wide Web”, “Information Superhighway” saytlarından ibarətdir. Adı nə olursa-olsun, bu medium Amerikada siyasət düşüncəsini sürətlə həmişəlik dəyişdirməkdədir.

İnternet, “biz ondan bu məqsədlə istifadə etmək yolunu seçdiyimiz təqdirdə kollektiv fəaliyyət üçün çox güclü bir alət” ola bilər, siyasət fəalı Ed Şvartz özünün “Net aktivliyi: Vətəndaşlar İnternetdən necə istifadə edir” adlı kitabında yazır: «O, son 50 il ərzində inkişaf etdirilən siyasi mütəşəkkillik üçün ən qüdrətli və hər bir vətəndaşın istifadə edə biləcəyi bir alətə çevrilməmək potensialına malikdir... İcma fəaliyyətlərinin, bır qayda olaraq, daha çox ehtiyac duyduğu şey həm dövlət idarələri, həm də spesifik proqramlar eləcə də siyasi sistemin necə işlədiyi barədə dolğun informasiyalardır”.

Bir-birindən minlərlə kilometr aralıda yaşayan və başqa heç cür bir-birini tanımaq imkanı heç vaxt olmayan oxşar maraqlara malik kişi və qadınların “virtual icmaları” indi İnternetdə bir araya gəlir. Çox vaxt bu insanlar bir-biri ilə şəxsən görüşə bilməsələr də, onları daha çox narahat edən məsələlər barədə uzun müddət apardıqları davamlı, ağıllı söhbətlər vasitəsilə bir-birini yaxşı tanıyırlar.

Başqa bir əsaslı dəyişiklik, insanların dövlət orqanları, onların yeritdikləri siyasətlər və digər vacib məsələlər haqqında əvvəllər əldə edə bilmədikləri və yaxud çoxunun əldə etməkdə çətinlik çəkdikləri informasiyalara İnternet vasitəsilə asan və tez yol tapmaları ilə bağlıdır.

Məsələn, “EnviroLink” ətraf mühit məsələlərinə həsr olunmuş veb saytıdır. İcma təşkilatları bu saytdan istixanaların qaz emissiyaları, zərərli tullantılar və toksik kimyəvi maddələr kimi narahatlıq doğuran məsələlər barədə spesifik faktlar götürə bilərlər. Keçmişdə bu qruplar həmin məsələlər barədə yalnız ümumi şəkildə söhbət etməklə kifayətlənməli olurdular. İndi isə “EnviroLink” onlar barədə ən müfəssəl mənbə materiallarını əldə etməyə imkan verir. Sayt maraq mövzuları üzrə sadalanan təhsil resurslarına, dövlət idarələrinə, ətraf mühiti mühafizə təşkilatlarına və nəşrlərinə yol tapmaq imkanı təmin edir. “EnviroLink” həmçinin, spesifik ətraf mühiti mühafizə məsələləri ilə bağlı əlaqə yaratmaq istədiyiniz müvafiq şəxslərin adlarını və e-mail ünvanlarını təmin etməklə bilavasitə necə hərəkət etmək lazım gəldiyi barədə informasiyalar və tövsiyələr təklif edir və buna istifadəçilərin müzakirələrə qoşulmaq və öz ideyalarını paylaşmaq üçün yararlana biləcəkləri “çat otaqları” da daxildir.

Yerli səviyyədə çalışan fəallar İnterneti praktik cəhətdən çox faydalı hesab edirlər. Bunlar öz qonşuluqlarında və icmalarında vəziyyəti yaxşılaşdırmaq üçün siyasətlə məşğul olan adamlardır. Onlar blok təmizliyi, tullantıların təkrar emalı, cinayətə nəzarət qrupları və yaşlıların savadlandırılması proqramları təşkil edirlər.

Bu insanların İnternetdə istifadə etdikləri saytlardan biri də “Neighborhoods Online” saytıdır; Şvartz tərəfindən yaradılan bu veb saytı Birləşmiş Ştatlar miqyasında qonşuluq aktivliyini gücləndirmək üçündür. Təşkilatçılar, qeyri-hökumət təşkilatlarının ştatlı işçiləri, seçkili məmurlar, jurnalistlər, kollec müəllimləri, tələbələr və adi insanlar da daxil olmaqla, hər gün yüzlərlə adam qonşuluq problemlərini çözməyin yeni yollarını axtarmaq üçün bu sayta müraciət edirlər. İşin hələ lap başlanğıcından məlum oldu ki, icma inkişafı məsələləri ilə məşğul olan hər bir korporasiya, qonşuluq üzrə məsləhət komitəsi, yaşlıların savadlandırılması proqramı, iş treninqi agentliyi və humanitar xidmət provayderi artıq bu xəttə qoşulub və yaxud ona necə qoşulmağı aydınlaşdırmağa çalışır.

Asudə vaxtın təşkili sahəsində fəaliyyət göstərən ictimai qurumlar ailə asudə vaxtının təşkilinin yalnız cüzi hissəsini əhatə edir. İndi hər evə qədəm qoymuş radio-video-kino texnikası, ev hovuzları və bağçaları, gəzinti qayıqları, hətta hava şarlarında uçuşlar, kompyuter texnikası ailə əyləncə və istirahət sisteminin bazasını təşkil edir.

Nəhayət, turizm də mədəni işin təşkilinin başlıca amillərindən biridir. Orta təbəqədən olan amerikalı, təqaüdçülər də daxil olmaqla demək olar ki, hər il Avropa, Cənubi-Şərqi Asiya, Yaxın Şərq və digər yerlərə səyahət etmək, Latın Amerikası çimərliklərində



**HAVA ŞARINDA GƏZİNTİ**

istirahət etmək, okean səyahətlərinə çıxmaq iqtidarındadırlar.

ABŞ, Kanada, Böyük Britaniya, Yaponiya və başqa inkişaf etmiş ölkələrdə asudə vaxtın səmərəli təşkili üçün kifayət qədər əlverişli şərait yaradılıb. İqtisadi və ictimai tərəqqinin yüksəlişi nəticəsində asudə vaxtın əhəmiyyəti artır, maddi zənginlik, mədəni-mənəvi fəaliyyətin zənginliyinə gətirib çıxarır.

Böyük Britaniya bu sahədə bir çox göstəricilərə görə ABŞ-dan geri qalsa da, aparıcı mövqelərdən birini tutur. Asudə vaxtın təşkili sənayesi ölkə iqtisadiyyatında xüsusi yer tutur. Vətəndaşların gəlirlərinin 40%-i asudə vaxt fəaliyyətinə və asudə vaxt üçün nəzərdə tutulmuş mallara xərclənir. Asudə vaxt təşkili bazarının ən çevik sahələrindən biri gənclər üçün nəzərdə tutulan mallar və xidmətlər satışıdır. Buraya geyim, kosmetika, tele-video-audio, kompyuter cihazlarının və disklərinin satışı, gənclər üçün dükan, kafe, diskoteka, konsert-idman qurğuları, asudə vaxt-əyləncə kompleksləri, internet-klub və internet-kafelər daxildir.

Rekreasiya xidmətləri bazarı uğrunda yaranmış fəal rəqabət rekreasiya sənayesinin mehmanxana biznesi kimi gəlirli sahəsinə güclü kapital axını cəlb edir. Burada otel və motellərin mövsüm xüsusiyyəti ilə bağlı olan yeni xidmət növləri meydana gəlir. Asudə vaxt təşkili mütəxəssisləri təkcə yay mövsümündə deyil, mövsümlərarası dövrlərdə də otel nömrələrinə tələbatı saxlamaq üçün sağlamlıq klubları və idman kompleksləri təşkil edir, uik-endlərin keçirilməsi proqramları təklif edirlər.

Digər tərəfdən, mədəni işin təşkili sahəsində istehsal və iaşə kütləvilik xüsusiyyəti aldığından təklif olunan mədəniyyət modellərində yeksənəklik prosesi də güclənir. İnsanlara təklif edilən mənəvi əhəmiyyətli dərəcədə "kütləvi mədəniyyət" məmulatına çevrilir. Eyni zamanda orkestr, opera və dram kimi iqtisadi cəhətdən gəlirli olmayan milli mədəniyyət və incəsənət növlərinin banklar və nəhəng şirkətlər tərəfindən maliyyələşdirilməsi halları rəğbət doğurur. Əks halda asudə vaxt təşkili bazarında yüksək incəsənətin rəqabətə tab gətirməsi mümkün olmazdı.

Əhalinin rekeasiya xidmətinə olan tələbatını özəl sektorla yanaşı bir sıra dövlət qurumları tərəfindən də ödənilir. ABŞ-da əhalinin kütləvi istirahəti üçün ərazilər, rekreasiya təyinatlı ayrı-ayrı obyektlərin yaradılması, istirahətin planlaşdırılması sahəsində tədqiqatlar dövlətin ixtiyarındadır. Rəsmi idarəetmə orqanları yerlərdə teatr, küçə festivalları, səyyar sərgilər, kitabxanalar və s. kimi mədəni iş, asudə vaxt təşkili və rekreasiya fəaliyyətini qismən maliyyələşdirir.

ABŞ və Böyük Britaniyada, habelə bir çox inkişaf etmiş ölkələrin təhsil sistemində əhəmiyyətli dəyişikliklər baş verir. İnsanın bütün ömrü boyu fasiləsiz təhsil almağı üçün şərait yaradılıb. Saysız-hesabsız kurslar, mədəni iş və rekreasiya sahəsində əməli bacarıq verən ictimai məktəblər fəaliyyət göstərir.

Yaşlı nəslin asudə vaxtının təşkilinə xüsusi münasibət, sivilizasiyasının təqaüdçülərə göstərdiyi qayğı cəmiyyətdə humanizmin yüksək səviyyəsinə dəlalət edir. Digər tərəfdən yaşlı insanların asudə vaxt təşkilinin yüksək səviyyəsi orta nəsil və xüsusilə gənclər üçün müvafiq estafet rolunu oynayır, yəni dövlət və cəmiyyət növbəti nəsillər üçün nümunə olacaq modellər formalaşdırır.

İngilis tədqiqatçıları qeyd edirlər ki, insanın asudə vaxt fəaliyyətində iştirakı onun istehsalatda tutduğu mövqeyi ilə müəyyənləşir. Bu sahədə aşağı pillələrdə olan qruplar-fəhlələr, kiçik məmurlar, taleyi hələ müəyyənləşməmiş insanlar. Yəni gənclər və nəhayət, istehsalatdan kənarda qalmış şəxslər, yəni təqaüdçülər, işsizlər və evdar qadınlar asudə vaxtlarının təşkilində müəyyən məhdudiyyətlərlə üzləşməli olurlar. Məsələn, yüksək üzvlük haqqı ödənişi ilə bağlı olan qolf klublarında üzvlük ilə az təminatlı vətəndaşların yerli futbol klubunda iştirakı tamamilə fərqli ictimai mövqe göstəriciləridir. İctimai mövqe asudə vaxt üslubunu müəyyənləşdirir.

ABŞ-da, digər inkişaf etmiş ölkələrdə ailənin gəlir səviyyəsi asudə vaxtın keçirilməsinə təsir edən mühüm amildir. Aşağı gəlirli ailələrin üzvləri gəlirləri yüksək olan ailələrə nisbətən velosiped və at çapmaq idmanı ilə 2 dəfə, üzgüçülük ilə 2.5 dəfə az məşğul olur, 3 dəfə az kempinqlərdə istirahət edirlər. Qış idman növləri, kino-video çəkilişi kimi bahalı istirahət növləri onların imkanları xaricindədir. Belə ailələrdə balıq ovu, təbiət qoynunda yeyib-içmək, seyrə çıxmaq və bu kimi böyük xərc tələb etməyən istirahət növləri nüfuz qazanıb.

Asudə vaxtın keçirilməsi də müəyyən yer tutur. İnsanın öz qayğısına qalması - yuxu, qidalanma, gigiyena və kosmetika məşğuliyyəti, evdarlıq, məişət işləri, uşaqların tərbiyəsi, mütaliə, tele-video-audio verilişləri, kompyuterdə iş, internet və s. insana evdə asudə vaxtını olduqca dolğun keçirmək imkanı yaradır.

Bəzi hallarda bu və ya digər asudə vaxt fəaliyyəti növünü təsnifləşdirməkdə çətinliklə üzləşirik. Məsələn, ev şəraitində toxuculuq və dərzilik, habelə təmir işlərini mədəni fəaliyyət növü kimi, həm də ailə büdcəsinə əlavə gəlir gətirmək kimi dəyərləndirmək olar.

Asudə vaxtın keçirilməsinin tədqiqatı qadın və kişinin asudə vaxt fəaliyyətləri arasında əhəmiyyətli fərqin mövcudluğunu üzə çıxarır.

Qadınların asudə vaxt və mədəni fəaliyyət prosesində iştirakı dərəcəsi kişilərə nisbətən daha aşağıdır. Qadınlar ev şəraitində toxuma və tikmə işlərinə daha çox üstünlük verirlər. Kişilər bağçılıq və müxtəlif yaradıcılıq fəaliyyəti ilə məşğul olurlar. Bütövlükdə qadınların asudə vaxt fəaliyyətində iştirakı üçün vaxtları daha azdır. Fəaliyyət növləri çeşidi daha məhduddur. Məsələn, ABŞ, Böyük Britaniya, Skandinaviya ölkələrində idmanla məşğul olan kişilərin sayı qadınların sayından 1.1-2 dəfə çoxdur.

Demoqrafik dəyişikliklər bu prosesə əhəmiyyətli təsir göstərir. Ailədə cəmi 1-2 uşaq olan kiçik ailələrin xüsusi çəkisi artdığından tam iş günü işləyən qadınların sayı da çoxalmışdır. İşləyən qadınlar ev işlərinə daha az vaxt sərf edir, maliyyə cəhətdən müstəqil olmağa çalışırlar. İşləyən qadınların asudə vaxt fəaliyyəti kişilərin mədəni və asudə vaxt fəaliyyəti ilə daha asanlıqla müqayisə oluna bilər.

Asudə vaxtın təşkilin Amerika modeli ilk növbədə sağlamlığın qorunması məqsədinə dayaqlanır. Sağlamlığın möhkəmləndirilməsi istiqaməti ingilislərin asudə vaxt təşkilində də əhəmiyyətli rol oynayır.

Bu ölkələrdə olduqca inkişaf etmiş çox şaxəli dövlət şəbəkəsi asudə vaxt və mədəni işin təşkilini müvəffəqiyyətlə həyata keçirir.

Mərkəzi (Federal) dövlət orqanlarından tutmuş yerlərdə fəaliyyət göstərən bələdiyyələrə qədər idarəetmə orqanları könüllü idman cəmiyyətlərinə maliyyə yardımı edir. Onları zəruri idman avadanlığı ilə təchiz edir. Mərkəzi (Federal) səviyyədə İdman və rekreasiya üzrə Mərkəzi Şura və yerlərdə uyğun bölgə şuraları, həmin istiqamətdə fəaliyyət göstərən ictimai təşkilatlar böyük nüfuza malikdir. Mərkəzi və yerli idman mərkəzləri, idman klubları və cəmiyyətləri örtülü idman zalları, idman sağlamlıq bazaları həmin dövlət, bələdiyyə və ictimai orqanlar tərəfindən idarə olunur. Özəl sektora məxsus idman sağlamlıq mərkəzləri və bazaları nəzərə alınsa idman sağlamlıq xidmətinin kütləvi səciyyə daşıdığının şahidi oluruq. Qeyd etmək lazımdır ki, ABŞ, Böyük Britaniya, Kanada, İtaliya və digər inkişaf etmiş ölkələrdə aztəminatlı ailələrin mədəni tələbatını ödəməyə qadir olan, nisbətən ucuz başa gələn asudə vaxt fəaliyyəti növləri xidmət bazarının əhəmiyyətli hissəsini təşkil edir. Eyni zamanda böyük xərc tələb edən elitar tipli qapalı idman-əyləncə klublar şəbəkəsi varlı ailələrin mədəni əyləncə-idman tələbatını uğurla təmin edir.

Böyük Britaniyada bəzi yerli idarəetmə orqanları məktəblilərin iştirakı ilə müntəzəm bədii festivallar keçirir. Minlərlə həvəskar dram cəmiyyətləri, peşəkar və həvəskar teatr kollektivləri səhnədə tamaşalar verməklə yanaşı yerlərdə mədəni həyatın canlanmasında fəal iştirak edir, bədii-mədəni mərkəzlər rolunu oynayırlar. Həmin sıraya həvəskar xor kollektivləri, gənclərdən ibarət orkestrlər, bədii klublar və s. daxildir.

Asudə vaxt fəaliyyətinin əhəmiyyətli hissəsi saysız-hesabsız teleproqramların ailəvi seyrinin payına düşür.

Əhalinin müxtəlif qrupları üçün nəzərdə tutulan layihələr çeşidi olduqca rəngarəngdir. XXI əsrdə mobil telefon əlaqəsinin və internetin kütləvi hal alması tamaşaçılarla teleproqramlar arasında birbaşa ünsiyyəti ağlasığmaz dərəcədə asanlaşdırılıb. Reklam sifarişləri uğrunda mübarizə aparan teleproqramlar reytinq cədvəlində yüksək yerlərə sahib olmağa, tamaşaçıların sayını artırmağa çalışır. Realiti-şou tipli verilişlər buna parlaq misal ola bilər. Lakin insanların saatlarla teleekran və ya monitor qarısında oturaq həyat keçirməsinin sağlamlığa təsiri haqqında müxtəlif səviyyələrdə gedən mübahisələr illərlə səngimək bilmir.

Mədəni işin və asudə vaxtın təşkili tərkibinə görə olduqca mürəkkəb təzahür olduğundan müasir dövrdə fəlsəfi, sosioloji, psixoloji, pedaqoji, iqtisadi tədqiqatların mühüm obyektinə çevrilib, buradan ona sistemli yanaşma zərurəti irəli gəlir.

Xarici ölkələrdə asudə vaxt probleminə kompleks yanaşma probleminə kifayət qədər elmi tədqiqatlar həsr olunub. Bu baxımdan Azərbaycanda günün tələblərinə uyğun olaraq uyğun yanaşmanın işlənib hazırlanması əhəmiyyətli vəzifələrdən biridir. Odur ki, xarici ölkələrin bu sahədə topladığı təcrübənin öyrənilməsi və yerli adət və ənənələrin qorunub saxlanılması şərti ilə tətbiqi mühüm amilə çevrilir.

Asudə vaxt təşkilinin kompleks səciyyəli təzahür olduğunu nəzərə alsaq, onun nəzəri kompleks modelinin yaradılması problemi ilə üzləşməli oluruq. Belə modelin çoxcəhətli tərkib hissələrini nəzərdən keçirək:

- Psixoloji amil. Seçim, zövq müstəqilliyi duyğusu, maraqlar, tələbat;
- Təhsil amili. Zehni tələbat, biliklərə yiyələnmə;
- İctimai amil. Başqa insanlarla münasibətləri yaxşılaşdırmaq meyli;
- Rekreasiya amili. Gərginlik və stress vəziyyətin dəf edilməsi;
- Fizioloji amil. Sağlamlıq, gümrahlıq, zahiri görünüşə qulluq. Gözəl əhval-ruhiyyə;
- Estetik amil. İncəsənətə, tərtibata, ətraf mühitə münasibət.

Belə yanaşma vəhdət kimi dərk edilən asudə vaxt fəaliyyətinin göstəricilərinə dayaqlanır, ayrı-ayrı davranış təzahürlərini nəzərə almaq iqtidarında deyil. Asudə vaxt fəaliyyətinə digər yanaşmada müxtəlif

davranış təzahürlərinin təhlili daha çox diqqət mərkəzində olur. Bu baxımdan asudə vaxt modelinin psixoloji cəhəti böyük maraq doğurur. Həmin istiqamət asudə vaxt fəaliyyəti ilə məşğul olan şəxslərin duyğu, hiss və həyəcanlarını təhlil edir. Bu halda asudə vaxt fəaliyyəti daha çox onu əks etdirən duyğu və həyəcan istilahları ilə müəyyənləşir.

Psixoloji təhlil müxtəlif mədəni fəaliyyət növlərində uyğun əhəmiyyət kəsb etdiyindən bilavasitə qeydə alınan faktı kompleks təhlil etmək imkanı yaradır. Bu isə adı çəkilən yanaşmanın üstün cəhətidir.

Asudə vaxt fəaliyyəti iştirakçılarının duyğu və həyəcanlarının göstəricilərinə dayaqlanan sistemli model aşağıdakı tərkib hissələrindən ibarətdir:

- azadlıq duyğusu, fəaliyyət seçimində müstəqillik duyğusu. Bu eyni zamanda asudə vaxt fəaliyyətinin zəruri şərtidir;
- məmnuniyyət duyğusu;
- məqsədə çatmaq duyğusu;
- sevimli fəaliyyət növünə "qapılmağa" hazırlıq duyğusu, həmin fəaliyyətə qovuşmaq, gözləmə intizarı ilə bağlı həyəcan dərəcəsi və s.

Asudə vaxt fəaliyyəti modelində sosioloji amil əhəmiyyətli yer tutur. Sosioloji modeldə ilk növbədə gerçək imkanlar və ya həyat tərzi kimi ictimai vəziyyəti əks etdirən göstəricilər təhlil edilir. İctimai vəziyyətdən asılı olaraq maliyyə imkanları, bacarıq və biliklərə yiyələnmə, maraqların üzə çıxması, iş və ya ictimai vəziyyətin durumu ilə bağlı intizar, mədəni-mənəvi dəyərlər və s. uyğun dəyişikliyə məruz qalır, fərdin seçim və meylini müəyyənləşdirir.

Əgər psixoloji model yalnız müstəqillik duyğusunun təhlilinə meyllidirsə, sosioloji model müstəqilliyi hər hansı duyğu və ya münasibətdən daha üstün hesab edir. Bir sıra tədqiqatlarda asudə vaxt fəaliyyətinin başlıca meyarı nisbi azadlıq hesab edilir. Onu gerçək əmək fəaliyyətindən fərqləndirən amil növbəti göstəricidir. Bu meyarlar əsasında dörd sahəni əhatə edən model meydana gəlir:

- sırf asudə vaxt - əməyin icbari xüsusiyyətindən tamamilə fərqli olan fəaliyyət növü;
- nisbi asudə vaxt - əməyə oxşar, lakin müstəqil surətdə seçilmiş fəaliyyət növü;
- könüllü asudə vaxt - ictimai mövqe intizarı ilə şərtləndirilən ictimai fəaliyyət növü;
- icbari ictimai fəaliyyət. Asudə vaxt fəaliyyəti kimi eyniləşdirilə bilməz, çünki asudə vaxt təşkili sahəsində istismar formasından başqa bir şey deyil.

Asudə vaxt fəaliyyəti modeli dolğun, çoxcəhətli və daima hərəkətdə olan təzahürdür. O, hüdudlarının şəffaflığı, ilkin göstəricilərinin çevikliyi və ictimai-iqtisadi, milli-mədəni, əxlaqi-hüquqi, mənəvi estetik, bu və digər dövlət və cəmiyyətin digər inkişaf amillərindən təbii asılılığı ilə fərqlənir. İngilis və amerikalının, braziliyalı və türkün asudə vaxt fəaliyyəti təşkilində daban-dabana zidd olan əlamətləri görmək çətin deyil. Lakin asudə vaxt fəaliyyətində qarşıya qoyulan məqsəd, zəngin maddi baza, mədəni işin təşkilinin məzmunu və formaları kifayət qədər oxşar olduğundan asudə vaxt modellərinin uyğunluğundan danışmağa əsas verir.

Qərbin inkişaf etmiş və Şərqin inkişafda olan ölkələrində mədəni iş və asudə vaxt fəaliyyəti modelləri aşağıdakı amillərə dayaqlanır:

- cəmiyyətin azadlığı fərdin azadlığı əsasında qurulur;
- sağlam həyat tərzi. İdmanla məşğuliyyət müsbət meyl kimi dəyərləndirilir;
- geridə qalmış ölkələrdən fərqli olaraq məhsuldar qüvvələrin maddi istehsalatdan məişət və asudə vaxt sahəsinə yerdəyişməsi prosesi daha surətlə həyata keçir.

Eyni zamanda bu ölkələrin mədəni asudə vaxt təşkilində həmin sahənin infrastrukturu sürətli inkişaf dərəcəsi ilə səciyyələnir:

- rekreasiya sənayesi sahəsində mehmanxana biznesi inkişaf edir;
- asudə vaxt fəaliyyəti infrastrukturu gənclər üçün xüsusi mağaza və kafelər, diskoteka, idman və konsert zalları, asudə vaxt fəaliyyəti kompleksləri, internet-bar və internet-kafe kimi obyektlərlə zənginləşir;
- asudə vaxt fəaliyyəti bazarı geyim satışı və sifarişi, kosmetika, idman, audio-video, kino-tele avadanlığı, kompyuter, CD, VSD, DVD satışı və informasiya mübadiləsi kimi yeni-yeni sahələri əhatə edir.

Əhalinin istirahəti üçün göstərilən xidmətlərin böyük hissəsi özəl sektor əhatə edir, lakin bir çox inkişaf etmiş və inkişafda olan ölkələrin qanunvericiliyinə görə özəl, dövlət və ictimai təşkilatlar tərəfindən maliyyələşdirilən mədəniyyət təşkilatları təqaüdçülər, məktəbli və gənclər, sağlamlıq imkanları məhdud olan şəxslər qarşısında müəyyən öhdəlikləri həyata keçirməyə borcludur. Asudə vaxt təşkili müəssisələrinin ümummilli, bölgə və yerli mədəniyyət layihələrinə cəlb edilməsi son illərdə daha geniş yer alır. Asudə vaxt sənayesi bir çox qabaqcıl ölkələrin iqtisadiyyatında əhəmiyyətli mövqeyə malikdir. Məsələn, Böyük Britaniya vətəndaşları gəlirlərinin 40 %-ni asudə vaxt fəaliyyətinin müxtəlif formalarına, asudə vaxt xidmətləri və mallarının alınmasına sərf edirlər. Son illərdə bu sahədə güclü təmərküzləşmə

meylləri müşahidə olunur. İri şirkətlər bu sahədə təklif olunan xidmət və mal istehsalının böyük hissəsini əhatə etməklə yanaşı asudə vaxtla bağlı tələbata təsir etməyə çalışır. Hazırda mədəni işin təşkili reklamı ilə məşğul olan qurumlar ənənəvi kütləvi informasiya vasitələrindən (qəzet və jurnallar, radio və TV) istifadə etməklə yanaşı kütləvi surətdə internet şəbəkəsinə müdaxilə edirlər. Elmi-texniki tərəqqi istənilən müştəriyə evdən çıxmadan istənilən xidməti və ya malı qısa müddətdə sifariş etmək və xidmət və malın dəyərini dərhal ödəmək imkanı yaradıb. Milyonlarla saytlar asudə vaxt fəaliyyəti bazarının fəal iştirakçısına çevrilib. İnternet şəbəkəsi asudə vaxt fəaliyyəti bazarının əhəmiyyətli hissəsinə çevirməklə yanaşı tezliklə həmin bazarda hegemon mövqe tutmaq iqtidarındadır.

İnternet bazarda təklif olunan xidmətlərin çeşidini dəfələrlə artırmağa müvəffəq olub. Mobil telefon əlaqəsi xidmət sahəsinin asudə vaxt bazarının olduqca fəal iştirakçısı olduğu da şübhə doğurmur. Asudə vaxt fəaliyyətinin adı çəkilən yeni sahələri ilk növbədə gəncləri əhatə edir. İnternet və mobil telefon əlaqəsi sistemlərinin gənc nəslə göstərdiyi təsirin sürəti çox yüksək olduğundan həmin təsirin tədqiqatçılar tərəfindən öyrənilməsi, dövlət orqanları və ictimai qurumların gənclər üçün mədəni işin təşkilində uyğun tövsiyələrə reaksiya verməsi problemləri hələ qabaqdadır. İnkişaf etmiş ölkələrdə gənclər üçün asudə vaxt xidməti və mədəni layihələrin tətbiqi ənənəvi sahələri əhatə edir. Burada orta və ali məktəblərin rolu danılmazdır, kifayət qədər peşəkar məktəb müəllimləri asudə vaxt fəaliyyətinin təşkilini də nəzərdə tutan orta məktəb tədris proqramını icra etməklə uşaqları idman, musiqi, xor, teatr sənəti kimi asudə vaxt layihələrinə cəlb edirlər.

ABŞ, Böyük Britaniya, İtaliya və digər inkişaf etmiş ölkələrdə uşaq və gənclərin asudə vaxtının təşkilində milli parklar müstəsna rol oynayır. Parkların rekreasiya sahəsində tutuğu mövqe onları mədəni iş və asudə vaxt fəaliyyətinin təşkilində təşkilati-metodik mərkəzlərə çevirir. Oyun meydançaları, üzgüçülük hovuzları, istirahət düşərgələrinin salınması üçün yararlı ərazilər parkları uşaq və gənclər üçün cazibədar rekreasiya məkanına çevirir. Son illərdə məktəb və parkların bu istiqamətdə qüvvə və imkanlarını birləşdirilməsi gözəl nəticələr verir. Kulturologiya mütəxəssislərinin işləyib hazırladığı, aşağıda adları çəkilən asudə vaxt fəaliyyəti növləri gənc nəslin təhsil və rekreasiya prosesində uğurla tətbiq edilir:

- mütaliə. Burada bədii əsərlərin və onların bağışladığı təəssüratın dəyərləndirilməsi daxildir. Bu fəaliyyət ilk növbədə kitabxanalarla bağlıdır. Kitabxanalar həm də birgə oxu, ədəbi diskussiyalar, oxucu konfransları keçirir.
- Musiqi, incəsənət. Bu fəaliyyət növü musiqi, təsviri sənət, memarlıq, tətbiqi sənət və s. qavranılması yolu ilə estetik tərbiyəni həyata keçirir, musiqi, xor, sənət dərnəkləri və klubları, orkestr və ansamblların təşkilində öz ifadəsini tapır;
- Yaradıcılıq fəaliyyəti. Bu fəaliyyət növünə evlərin daxili tərtibatı, tətbiqi-dekorativ sənət işləri, taxta, karton, gildən əl işləri, texniki sənət növləri, müxtəlif cihazlar, alətlər, kimyəvi maddələrlə işləmək bacarığı və ixtiraçılıq fəaliyyəti daxildir;
- Milli müasir rəqslər, xoreoqrafiya. Bu təhsil növü uşaq və yeniyetmələrdə hərəkət ritmikası və plastikasını inkişaf etdirir;
- Teatr sənəti dram dərnəklərinin təşkilindən, həvəskar tamaşaların, konsertlərin, müxtəlif şou proqramlarının keçirilməsindən ibarətdir;
- Müxtəlif oyunlar və idman oyunları. Buraya futbol, voleybol, basketbol, xokkey, ot üzərində xokkey, beysbol, qolf, üzgüçülük, qılınc təlimi, çimərlik voleybolu, tennis, pinq-ponq və onlarla digər idman növləri daxildir. ABŞ məktəblərində hər hansı idman klubunun idmançılarını stadionlarda öz xoreoqrafik çıxışı ilə ruhlandıran dəstək qruplarının fəaliyyəti müstəqil idman növünə çevrilib. ABŞ-da dəstək qruplarının ştat, bölgə və milli birincilikləri böyük nüfuz qazanıb.
- Təbiətdə asudə vaxt fəaliyyəti. Buraya bağçılıq, yay düşərgələrinin salınması, təbiət qoynunda - meşə və parklarda, dağ yamaclarında, çay və göl sahillərində piyada gəzintilərin, gül-çiçək sərgilərinin təşkili daxildir.
- Səyahətlər və naməlum guşələrlə tanışlıq. Bu fəaliyyət növü xüsusilə istirahət günlərində, tətillər dövründə geniş yayılıb. Bu vaxt ərazinin coğrafiyası, tarixi iqtisadiyyatı, adət və ənənələri öyrənilir.
- Ekstremal idman növlərinə alpinizm, akvalanqla üzgüçülük, dağ çaylarında qayıq sürmək, körpülərdən qaytanla tullanmaq, paraşüt idmanı, dayvinq və s. daxildir.
- Asudə vaxt fəaliyyətinin ünsiyyət forması. Burada əyləncə gecələri, görüşlər, söhbətlər, yuxarı sinif şagirdləri üçün zehni oyunlar silsiləsi, müxtəlif festivallar nəzərdə tutulur.

İnternet şəbəkəsi və mobil telefonlar vasitəsilə ünsiyyət formaları son bir neçə ildə xüsusi nüfuz qazanıb. Bu fəaliyyət növləri yeni olduğundan olduqca az tədqiq olunub. Gənclərin internet-forum, çat və bloqlarda iştirakı həndəsi artan silsilə sürəti ilə yayılmaqda davam edir.

XXI əsrdə foto-audio-video sahələrinin rəqəmsal texnologiyalara keçidi nəticəsində kompyuter və mobil telefon qurğularının kütləvi hal alması, informasiya mübadiləsi müasir dünyanın gerçəklikləridir.

Foto-video çəkilişinin mobil telefon cihazları vasitəsilə asanlıqla həyata keçirilməsi, müxtəlif kompyuter proqramlarının köməyi ilə foto-video faylların emalı, fotoprinterlərdə çapı, nümayişi, şəbəkələr vasitəsilə ötürülməsi milyonlarla gənci foto-video rejissoru səviyyəsinə qaldırdı, yaradıcılıq qabiliyyətinə təkan vermiş oldu.

## *2.4. Mədəni fəaliyyətin təşkilində beynəlxalq və regional proqramların əhəmiyyəti*

İnkişaf etmiş ölkələrin asudə vaxt fəaliyyəti sahəsində əldə etdikləri təcrübənin öyrənilməsi və tətbiqində dövlətlərarası beynəlxalq qurumların fəaliyyəti təqdirəlayiqdir. Avropa Şurası yanında Mədəniyyət üzrə informasiya və tədqiqat mərkəzləri birliyi qitədə mədəni iş və asudə vaxt fəaliyyətinin təşkili sahəsində yaratdığı məlumat bazasının işi əvəzedilməzdir.

Birlik hər bir Avropa dövlətində mədəniyyət, elm, təhsil, maarif, idman, ictimai təşkilat və müəssisələrində əhalinin ictimai-mədəni həyatın müxtəlif sahələrində iştirakı haqqında topladığı sosioloji məlumatları ümumiləşdirir, sahənin inkişafı haqqında proqnozlar işləyib hazırlayır, onları üzv dövlətlərin ixtiyarına verir, dövlətlər arasında informasiya və təcrübə mübadiləsini təşkil edir, bu məqsədlə kulturologiya forumları, konfransları keçirir.

BMT-nin təhsil, elm və mədəniyyət sahələri üzrə istiqamətlərini həyata keçirən YUNESKO kimi beynəlxalq təşkilatı xüsusi qeyd etmək lazımdır. Təşkilat xalqlar arasında ünsiyyət, informasiya mübadiləsi, incəsənət, elm, mədəniyyət və turizm sahələrində gördüyü işlər, işləyib hazırladığı proqnozlar, beynəlxalq və regional layihələr sayəsində bütün dünyada böyük nüfuz qazanıb.

YUNESKO diqqətini ilk növbədə gənclərə yönəldir. 1946-cı ildən başlayaraq təşkilat gənclərə dair mədəni siyasəti müəyyən edən beynəlxalq layihələrin işlənib hazırlanması ilə məşğul olur. 1985-ci ildə YUNESKO gənclər problemləri üzrə Ümumdünya konqresi, "gənclər, təhsil, əmək" mövzusunda "dəyirmi masa" keçirmişdi. Gənclər problemlərinin həllində Ümumdünya Uşaq fondu və başqa nüfuzlu təşkilatlar yaxından iştirak edir.

Gənclər üçün mədəni iş və asudə vaxt fəaliyyətinin təşkili siyasəti cəmiyyətin, müxtəlif ictimai qrupların bəşəriyyətin gələcəyi olan, əhalinin özünəməxsus böyük demoqrafik hissəsini təşkil edən gənclərə olan münasibətini əks etdirir.

Bu münasibətlər dairəsi gənclərin ictimai statusunu, habelə onların iqtisadi, hüquqi vəziyyətini, həyat tərzi və keyfiyyətini müəyyən edir, gənclərin təhsil, əmək və sahibkarlıq, mədəni asudə vaxt və sosial müdafiə sahələrində maraq və tələbatını təmin etmək üçün müəyyən tədbirlər həyata keçirir.

Gənclərin müstəqil inkişafına yönəlmiş qanunverici aktların, dövlət və bölgə proqramlarının qəbul edilməsi, proqram, layihə və tədbirlərin maliyyələşdirilməsi, dövlət orqanları, ictimai təşkilat və özəl fondların bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, müxtəlif ictimai qruplardan olan gənclərin rekreasiya və asudə vaxt fəaliyyəti sahəsində bərabər imkanlar yaradılması gənclər üçün mədəni asudə vaxt fəaliyyətinin təşkili siyasətinin başlıca vəzifələridir. Lakin bu gün mədəni asudə vaxt sahəsi üçün hər hansı siyasi istiqaməti müəyyən etmək, maraqlı və çoxşaxəli proqramlar işləyib hazırlamaq kifayət deyil. Bu həcmli işləri həyata keçirən mütəxəssislər hazırlamaq zərurətini inkişaf etmiş və inkişafda olan ölkələr çox erkən dərk etmişdilər. ABŞ və Avropa ölkələrində belə mütəxəssislərin hazırlanması üçün uyğun təhsil sistemi yaradılmış, bu fəaliyyət növünün xüsusiyyətləri, forma və üsulları, təşkili və maliyyələşdirilməsi qaydaları müəyyənləşdirilmiş, uyğun tədris proqramlarını realizə edən, kadr probleminin həllində mühüm rol oynayan təhsil ocaqları meydana gəlmişdir.

1968-ci ildə Vaşinqtonda "Asudə vaxt fəaliyyəti üzrə peşəkar kadrların hazırlanması" mövzusunda konfrans keçirilmişdi. Konfrans tədris müəssisələrinə qəbul qaydalarını, tədris planlarının məzmununu, əməli təcrübə formalarını nəzərdən keçirərək tövsiyələrini işləyib hazırladı.

1964-cü ildə Avstraliyada asudə vaxt təşkili sahəsində diplom verən ilk kurslar fəaliyyətə başladı.

Britaniya universitetlərində, digər ixtisaslaşdırılmış tədris müəssisələrində asudə vaxt fəaliyyəti mütəxəssisləri hazırlayan peşəkar kurslar şəbəkəsi fəaliyyət göstərir. Fransada mədəni iş və asudə vaxtın təşkili mütəxəssislərinin hazırlığı sahəsinə Mədəniyyət nazirliyinin tədqiqat və inkişaf perspektivləri Departamenti rəhbərlik edir. Fransada kadrların hazırlanması 4 istiqamətdə həyata keçirilir:

- mədəniyyət sahəsi (kitabxanalar, muzeylər, asudə vaxt müəssisələri, incəsənət) üçün kadrların hazırlanması;
- yerli və dövlət orqanları səviyyəsində inzibatçı və rəhbər kadrların hazırlanması;
- idarəçilik və dövlət qulluğu təmayüllü məktəblərdə mədəni iş inzibatçılığı ixtisaslarının tədrisi;
- humanitar təmayüllü universitetlərində 1-2 illik ixtisasartırma kurslarının təşkili. Bu kursları bitirənlər magistr dərəcəsinə layiq görülürlər.

Avropada ixtisasartırma və yeni ixtisasa yiyələnmə kimi iki tədris növü geniş yayılıb. Məsələn, mədəniyyət müəssisələri üçün inzibatçı, məsul işçi, rəhbər hazırlayan Paris ticarət məktəbinin məzunları müvafiq proqram üzrə uyğun biliklərə yiyələnir, eyni zamanda əməli təcrübə bacarığı əldə edirlər.

1985-ci ildən başlayaraq Paris Ticarət Sənaye Palatası nəzdində fəaliyyət göstərən Menecerlər məktəbi III kursdan başlayaraq tələbələrini mədəniyyət və kommunikasiya sahəsi menecmenti üzrə ixtisaslaşdırır, habelə mədəniyyət sahəsinə rəhbərlik edən kadrlar üçün qısamüddətli ixtisasartırma kursları təşkil edir. Mədəniyyət menecerləri Ali məktəbi, Milli audiovizual institutu, Milli idarəetmə məktəbi mədəniyyət işinin təşkili və asudə vaxt fəaliyyəti sahəsi üçün təhsil sahəsində zəngin təcrübəyə malikdir.

Almaniya Federativ Respublikasının ali məktəblərində mədəni asudə vaxt fəaliyyəti üzrə ixtisaslaşmış proqram və kurslar tədris olunur. Hamburq musiqi tərbiyəsi və tətbiqi sənət Ali məktəbində mədəniyyət sahəsi menecmenti kursları peşəkar mütəxəssislər hazırlayır. Almaniya birləşdikdən sonra ölkənin bütün şəhərlərində uşaqların asudə vaxtının təşkili ixtisası üzrə asudə vaxt müəllimləri hazırlanır.

İsveçdə mədəniyyət sahəsi mütəxəssislərinin hazırlığı "mədəni kommunikasiya" müddəasına dayaqlanır. Bu halda incəsənət əsərlərinin geniş kütlələrə yaxınlaşması, insanların sənət əsərləri yaradıcılığında fəal iştirakı ön plana çəkilir. Müxtəlif mədəni tədbirlərin keçirilməsi, geniş əhali kütlələrinin marağını müəyyən sənət növlərinə yönəldilməsi, dövlət, ictimai təşkilat və özəl fondlar tərəfindən ayrılan maliyyə yardımlarından səmərəli istifadə mədəniyyət və asudə vaxt fəaliyyəti mütəxəssisinin başlıca vəzifəsidir. Kadrların hazırlığı inzibati-təşkilati və fəaliyyət pedaqogikası kimi iki başlıca istiqamətdə həyata keçirilir. Məsələn, kino, televiziya, radio və teatr prodüserləri hazırlayan məktəb ilk növbədə bədii, iqtisadi, texniki ehtiyatların əlaqələndirilməsinə, teatr inzibatçılığı, mədəni tədbirlərin planlaşdırılması, marketinqi, reklamı və s. istiqamətlərə diqqət yetirir. Milli ali məktəblərdə estetika, musiqi, teatr sənəti, incəsənət proqramlarına böyük yer ayrılır, mədəniyyət psixologiyası, sosiologiyası, pedaqogikası, mədəni tədbirlərin təşkili üzrə nəzəri və tətbiqi biliklər verilir. Təhsili başa vuran mütəxəssislər - mədəni-rekreasiya tədbirləri təşkilatçıları, ritmika və rəqs müəllimləri, xor, musiqi, bədii, təsviri sənət, teatr sənəti dərnəkləri rəhbərləri vəzifələrində çalışırlar.

Mədəni asudə vaxt fəaliyyəti və turizm xidmət sahəsi mütəxəssisləri, insanlar arasında ünsiyyət, o cümlədən beynəlxalq ünsiyyət prosesinin iştirakçıları kimi sosiologiya, psixologiya, pedaqogika elmləri, müxtəlif millətlərin milli xüsusiyyətləri və mentaliteti haqqında zəruri biliklərə malik olmalıdırlar. Müxtəlif millətlərdən olan insanların maraqları üst-üstə düşəndə. əməkdaşlıq şəraitində milli xasiyyətlər arasında fərqlər o qədər də nəzərə çarpmır. Lakin münaqişə, mübahisə baş verdikdə, belə fərqlər mühüm əhəmiyyət kəsb edir.

Çoxəsrlik tarixi dövr ərzində müəyyən insanlar birliyi daxilində baş verən ünsiyyət prosesində formalaşmış, əldə edilmiş birgə xüsusiyyətlər milli xasiyyət kimi başa düşülür. Bu, xalqın ətraf dünyaya münasibəti forması, təşəkkül tapmış davranış və əxlaq qaydalarıdır. Milli xasiyyət etnik birliyin sabit psixi əlamətlərinin cəmi, müəyyən tarixi mədəni mühitdə, davranış və ünsiyyət üslubunda kök salmış ictimai enerji zənginliyidir.

Mental durum insanın dünya haqqında, habelə onun dünyada öz yeri haqqında təsəvvürlərinin əsasını təşkil edən təsvirlər sistemidir. Mentalitet bu və ya digər tarixi dövrdə etnik birliyə xas olan özünəməxsus dünyagörüşünü müəyyən edir. Mentalitet fərdi və ya ictimai qrupu müəyyən surətdə düşünməyə, hərəkət etməyə, duymağa və dünyanı qavramağa sövq edən kollektiv şüurun təhtəlşüur səviyyəsidir. Müxtəlif xalqların mentalitetləri ictimai vəhdət münasibəti və ictimai qurumun dəyərləndirilməsinə, hüquq və adət haqqında təsəvvürlərinə, əməyə, mülkiyyətə, var-dövlətə, yoxsulluğa münasibətinə, Kainatda insanın tutduğu yeri təyin etməsinə, zaman və məkanı təfsir etməsinə, təbiətə münasibətinə, gerçək və xəyali aləmə münasibətinə görə fərqlənir. Mədəni asudə vaxt fəaliyyəti və turizm xidməti sahəsinin əməkdaşları müxtəlif millətlərdən olan insanlara münasibətlərində onların milli xüsusiyyətlərinə bələd olmalıdırlar. Mədəni asudə vaxt fəlsəfi problemdir; antik Yunan və Qədim Şərq filosoflarından üzü bəri insan və onun tarixdə mövqeyi zaman-zaman bütün dahi mütəfəkkirləri və filosofları Aristotel, Platon, Sokrat, Epikur, Kant, Feyerbax, Heykel, İbn Sina, Bəymənyar, Xaqani, Nizami, Tusi, Nəsimi, Xətai və b. düşündürmüş və problemin əməli həlli yollarını axtarmağa sövq etmişdir. Bu gün mədəni asudə vaxtın təşkili isə təkcə elmi problem yox, həm də dövlət problemi, hətta deyərdik ki, milli və dünyəvi bir problemdir. Belə bir məşhur fikir var: "Sağlam bədəndə sağlam ruh ola bilər". Zəngin mədəniyyətimizlə çox fəxr etsək də keçmişimizə layiq gələcək –mədəni cəmiyyət yaratmaq, biz ziyalıların tarixi vəzifəsidir. Onu da deyək ki, xarici ölkələrin və o cümlədən İngiltərə və Fransanın mədəni asudə vaxt müəssisələrinin fəaliyyəti dövrün müasir elmi ədəbiyyatlarında çox az işıqlandırılmışdır. Bunun vacibliyi isə bizim hər birimiz üçün bu gün aydın görünməkdədir.

Bu gün Azərbaycanda yüksəlişdə olan iqtisadi inkişaf ölkə həyatının digər sahələrinə də güclü təsirini göstərir. Mədəni həyatda, incəsənətdə canlanma duyulur. Ölkə vətəndaşlarının maddi rifahı

gündən-günə yaxşılaşmağa doğru gedir, insanlar sabaha daha inamla baxırlar. Neft sənayesinin dirçəlməsi, xammal neftin satışından büdcəyə daxil olan gəlirlər, qeyri-neft sahələrində iqtisadi göstəricilərin yüksəlməsi, yüz minlərlə yeni iş yerlərinin açılması hər bir ailənin büdcəsinə müsbət təsirini göstərir. İnsanların elmə, təhsilə, mədəniyyətə, informasiya-kommunikasiya texnologiyalarına olan marağı günü gündən güclənməkdə davam edir. Eyni zamanda aydındır ki, bazar iqtisadiyyatı şəraiti insandan gərgin əmək sərf etməyi, bütün bilik və bacarığını verməyi tələb edir. Şübhəsiz, gərgin iş günü, iş həftəsindən sonra insanın rekreasiyaya güclü ehtiyacı olur. Bu zaman insan mənəvi qidanı mədəniyyətdə tapır, onun asudə vaxtının, istirahətinin maraqlı keçməsi, istehsalatda sərf etdiyi qüvvələrinin bərpası xüsusi əhəmiyyət kəsb edir. Maddi rifahın yaxşılaşması ailə büdcəsindən asudə vaxt fəaliyyətinə müəyyən məbləğ ayırmağa imkan yaradır.

Bu gün Azərbaycanda turizm, o cümlədən beynəlxalq turizm sahəsi diqqət mərkəzindədir. Turizm insan kütləsini özündə birləşdirən bir sahə olduğu üçün burada insanların mədəni ünsiyyətinin və onların maarifləndirilməsinin də böyük ictimai-siyasi və kulturoloji əhəmiyyəti vardır. Turizm təkcə insanların səyahətlərinin təşkilinə, onların mənəvi həzzinə xidmət etmir, eyni zamanda turizm insanları müxtəlif bilgilərlə maarifləndirmək, onların dünyagörüşlərini inkişaf etdirmək funksiyalarını yerinə yetirir. Bu gün turizmin təşkili prosesini kulturoloji proseslərdən ayrı təsəvvür etmək düzgün deyildir. Turizmin təşkili əslində hər bir fərdin asudə vaxtının mədəni təşkili forması kimi nəzərə çarpır. İnsanlar yalnız özlərinin asudə vaxtlarında turist səfərlərinə çıxır, bu və ya digər formada istirahət və əyləncənin əsas iştirakçıları olurlar. Tətbiqi kulturologiya elmi turizmə kulturologiyanın böyük bir sahəsi və asudə vaxt şəraitində sosial-mədəni fəaliyyətin bir növü kimi yanaşır. Onun da tərbiyəvi əhəmiyyəti birbaşa olaraq aşağıdakılardan asılıdır:

- turist-ekskursiya işinin istiqaməti və nəzəri-ideoloji səviyyəsi müasir tələblərə nə dərəcədə cavab verir?
- səyahət və ekskursiyalar zamanı kütlələrin sosial-mədəni fəaliyyətinin təşkilində istifadə olunan formalar hansı pedaqoji yanaşma və metodlarla təmin olunur?
- bu fəaliyyət nəticəsində insanların əldə etdikləri yeni bilik və bacarıqlar gələcəkdə onlara lazım ola bilərmi?
- səyahət və ekskursiyalar zamanı şəxsiyyətin sosial özünüdərketmə, kollektivçilik hissinin möhkəmlənməsi, ictimai fəallığın artması, istedadların üzə çıxarılması müasir tələblərə cavab verirmi?

Turizmin təşkili asudə vaxtın səmərəli keçirilməsi prinsipinə əsaslanır. Belə ki, asudə vaxt ərzində turistlər tarix və mədəniyyət abidələri ilə, təbiətlə tanış olmaqla yanaşı bir sıra mədəni-kütləvi tədbirlərin də iştirakçılarına çevrilirlər. Bu fəaliyyət prosesində hər bir turistin fərdi qabiliyyət və bacarığından istifadə edilərək istirahət və əyləncənin kütləviliyinin təminatına şərait yaradılır. Bu prosesdə hər bir fərdin dünyagörüşünün formalaşması üçün müxtəlif istirahət və əyləncə vasitələrindən istifadə olunur. Müxtəlif sahələri özündə əks etdirən maraqlı viktorinalar, sual-cavab gecələri, digər düşündürücü intellektual oyunlar keçirməklə turizmin məzmunu maraqlı proqramlarla zənginləşir, həm də maarifləndirici, pedaqoji-tərbiyəvi proseslər baş verir. Turizm iştirakçıları onların hər birinə lazım ola biləcək yeni biliklərə yiyələnirlər. Lakin biliklərə yiyələnmə prosesi təhsil prosesindən fərqli olaraq şən-emosional bir vəziyyətdə baş verir. Biliklərə yiyələnmə prosesi əyləncələrlə müşayiət olunur.

Mədəni-maarifləndirmə prosesi həm də insanlar arasında ünsiyyət yaratmaq vasitəsinə çevrilir. Bu ünsiyyət rəsmiyyətdən uzaq olan əyləncəli əlaqələr zəminində baş verir və bu proses insanlar arasında mədəni əlaqələri dostluq, tanışlıq mərhələsinə çatdırır. Təbii ki, ictimai əlaqələrin genişlənməsi bir növ mədəni ünsiyyətin özünü qloballaşdırır, ayrı-ayrı fərdlər arasında dünyəvi münasibətlər formalaşdırır. Bu pedaqoji proses etnik və milli zəmində dünyanın müxtəlif yerlərində baş verən separatizmin, beynəlxalq terrorizmin qarşısının alınmasına da mədəni-siyasi zəmin yaradır.

Azərbaycanın turizm profilli ölkəyə çevrilməsi və dünya arenasında öz sözünü deməsi üçün böyük potensialı vardır. Zəngin təbii sərvətləri, qədim tarixi və memarlıq abidələri, özünəməxsus mentaliteti, əlverişli ictimai coğrafi mövqeyi, Xəzərin sahil zonaları turizmin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Bu halda bizi belə bir sual düşündürə bilər: Bu qədər təbii sərvətləri olan ölkəni inkişaf etmiş turist ölkəsinə çevirmək üçün nə çatmır?

İlk öncə, Azərbaycanın bu sahədə düzgün siyasəti, strategiyası olmalıdır. Məlumdur ki, turizm milli maraqların və iqtisadi inkişafın əsas istiqamətlərindən biridir. Hər bir Azərbaycan vətəndaşı bu gün tam əmin olmalıdır ki, turizm insanın sosial-iqtisadi problemlərini həll etməyə qadirdir. Turizm həmçinin cəmiyyətdə gedən polyarizasiya-qütbləşmə və təbəqələşmə prosesinin də qarşısını alır. Bu sahə milli gəlirin əhali arasında bərabər bölünməsinə də müəyyən şərait yaradır.

Aydın məsələdir ki, turizm iqtisadiyyatla qarşılıqlı əlaqədədir. İlk növbədə turizmin infrastrukturu formalaşmalıdır. Bu, iqtisadiyyatın başqa sahələrinin də inkişaf etməsi üçün zəmin yaradır. Dövlətin turizmin idarə edilməsində götürdüyü istiqamət turizmin bazar münasibətləri şəraitində özü-özünü

maliyyələşdirməsi üçün imkan yaradır. Bunu reallaşdırmaq üçün dövlət özünün müxtəlif dövlət və yerli icra hakimiyyəti orqanlarının turizmin işinə qarışmadan turoperatorların - turist məhsulunu hazırlayanların sayının artmasına şərait yaradır. Turoperator və turagentliklərin hüquqları qanunla qorunur. Azərbaycan hökuməti ölkədə turizmi inkişaf etdirmək üçün xüsusi layihələr işləyib hazırlayır. Təbii ki, mütəşəkkil və düzgün turizm siyasətinin formalaşması və bunun uğurlu surətdə həyata keçirilməsi heç də asan məsələ deyil. Çünki bu məsələdə, ölkənin yalnız turizm resurslarının və potensial imkanlarının olması hər şeyi həll etmir. Kifayət qədər turizm resurslarına malik olan ölkəmizin beynəlxalq aləmdə turizm regionu kimi tanınması üçün isə turizm sahəsində dövlət siyasəti beynəlxalq standartlara uyğunlaşmalıdır. Bu sektorun inkişafı üçün siyasi, iqtisadi və sosial-mədəni imkanların yalnız son illərdə yarandığını nəzərə alsaq, gələcəkdə Azərbaycanda turizmin perspektivlərinə nikbin baxmaq olar.

Milli turist siyasətinin əsas mahiyyəti ölkədə turist bazarının formalaşmasıdır. Bazara çıxarılan məhsul orijinal və rəqabətli olmalıdır. Mehmanxana və nəqliyyat qiymətləri turistlərin maliyyə imkanlarına və zövqünə uyğun gələn turist məhsulunun qiymətinin bir hissəsidir. Burada turist məhsulunu yaratmaq arzusu və təşəbbüsü regionlarda əmələ gəlir. Riskə gedərək təşəbbüs göstərən şəxslər öz sərmayəsini sərf edərək turist müəssisəsi açır, alıcıların imkanını nəzərə alaraq turist məhsulu yaradır, onu münasib qiymətlərlə satır, gəlir götürür və götürdüyü gəlirin bir hissəsini yenidən öz biznesinin genişləndirilməsinə sərf edir. Lakin qoyulan sərmayə turizm infrastrukturunun sürətlə inkişaf etdirmək üçün çox azdır. Beynəlxalq Bank və başqa təşkilatlar Azərbaycanda yolların və körpülərin salınmasına, tarixi mədəniyyət abidələrinin bərpasına maliyyə yardımı göstərir.

Ölkəmizin turizm sektorunda müşahidə edilən dəyişikliklər qısa bir zaman müddətində öz təsirini turizm sahəsinə də göstərmişdir. Bu sahədəki təhsil qurumlarının sayı getdikcə artmaqdadır. Artıq bu gün ali təhsil müəssisələrində turizm ixtisasları üzrə peşəkar kadr hazırlığı işinə ciddi fikir verilir. Bu sahədə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Turizm İnstitutunun rolunu xüsusi qeyd etmək olar. Ölkəmizdə turizmin inkişaf etməsi üçün ixtisaslı kadrların hazırlanmasında ADMİU-nun Kulturologiya fakultəsinin Tətbiqi kulturologiya kafedrasının elmi və pedaqoji nailiyyətləri böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə Mədəniyyət və Turizm Nazirliyinin xidmətlərini də xüsusi qeyd etmək lazımdır.

Turizm asudə vaxtın daha mənalı keçməsi üçün əhəmiyyətli olmaqla yanaşı həm də ölkənin milli gəlirinin artmasına mühüm təsir göstərən əlverişli bir sahədir. Bildiyimiz kimi dövlətlərarası işgüzar münasibətlərin formalaşmasında, millətlər və xalqların bir-birinə yaxınlaşmasında turizm işinin düzgün təşkili çox böyük siyasi əhəmiyyət kəsb edir. Turizm həm dövlət siyasətində, həm də onun iqtisadi potensialının artırılmasında mühüm yer tutur. Azərbaycanın turizm üçün əlverişli coğrafi şəraiti, müxtəlif iqlim qurşaqlarının, zəngin heyvanat aləminin, dənizinin və dənizsahili qumluqların, qədim mədəni tarixi irsin, milli ənənələrin, zəngin milli mətbəxin olması diqqəti cəlb edən amillərdir.

«Böyük İpək Yolu»nun Azərbaycan ərazisindən keçməsi ölkəmizin dünyaya inteqrasiya olunmasına təkan verir. Çindən gəlib Azərbaycan ərazisindən keçən «Böyük İpək Yolu»nun (e. ə. II əsrdə kəşf olunub) yenidən bərpası başqa ölkələrin də beynəlxalq turizm bazarında iştirak etməsinə əlverişli şərait yaradır.

Respublikanın təhsil ocaqlarında mədəniyyət və turizm xidmət sahələri üçün mütəxəssislərin hazırlanması da əhəmiyyətli vəzifədir. Bu işdə inkişaf etmiş ölkələrin zəngin təcrübəsindən istifadə etmək zəruridir.

# III FƏSİL
# XARİCİ ÖLKƏLƏRDƏ MƏDƏNİ FƏALİYYƏTİN TƏŞKİLİ

## 3.1. *AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI*

| | |
|---|---|
| Rəsmi adı | Amerika Birləşmiş Ştatları, NATO üzvü, BMT Təhlükəsizlik şurasının daimi üzvü |
| Paytaxtı | Vaşinqton |
| İri şəhərləri | Nyu-York, Los-Anceles, Çikaqo, Hyuston, Filadelfiya |
| Ərazisi | 9518330 $km^2$. Ərazisinə Samoa, Şimali Marian adaları, Palay, Puerto-Riko, Vircin adaları daxildir |
| İqlimi | Kəskin temperatur və yağıntı dəyişikliyi |
| Pul vahidi | Dollar |
| Əhalisi | 290 mln |
| Etnik tərkibi | Ağdərililər-68.5 %, afro-amerikalılar-13 %, ispan dilli-13 %, Asiya mənşəli-4 %, aboriqenlər-1.5 % |
| Rəsmi dil | İngilis dili |
| Din | Protestantlar (cənub baptistləri, metodistlər və yepiskop kilsəsi tərəfdarları) - 56 %; katoliklər -27 %; yəhudilər -2 %; müsəlmanlar -2%; başqaları-13 % |
| Dövlət başçısı | Prezident. Ölkəni Vaşinqtondan idarə edir. |
| Qanunverici orqan | Senatdan və nümayəndələr palatasından ibarət olan iki palatalı konqres |
| Hökumət | 50 ştatı və Kolumbiya federal dairəsini idarə edən federal hökumət |
| KİV | Ümummilli telekanallar-ABS, CBS, NBS, CNN. Yerli, kabel və peyk telekanallarının sayı 1600-dən çoxdur. Radiostansiyaların sayı 10000- dən çox, 1500-dən çox gündəlik qəzet |
| Elektrik gərginliyi | 110 volt (60 hers) |
| Telefon | Ölkə kodu 1. Çıxış kodu 011 |
| TV/Video | NTSC sistemi. Çıxış kodu 011 |

Amerika xalqı millət kimi XVII əsrin sonunda təşəkkül tapmışdır. Onun özəyini ingilislər, irlandlar, şotlandlar təşkil etmişdi, sonradan, isveçli, alman, fransız, ispanlar və başqa millətlərin nümayəndələri ilə qaynayıb qatışdılar.

İngilislər buraya öz dillərini, həyat tərzi və mədəniyyətlərinin bir çox cizgilərini gətirdilər. Amerikalıların millət kimi formalaşması prosesi hələ tam başa çatmayıb. Avropa, Asiya, Afrika, Latın Amerikasının müxtəlif ölkələrindən olan mühacirlərin vərəsələri müxtəlif assimilyasiya mərhələsi yaşayırlar, onların arasında olan fərqlər bəzən qabarıq şəkildə nəzərə çarpır.

Amerika torpağında ilk ingilis kolonistlərinin məskən saldığı yer indiki Virciniya ştatı ərazisində yerləşirdi. Torpaqlarından qovulmuş ingilis kəndliləri, əsarətdən qaçan irlandlar, xristian kilsəsinin təqibinə məruz qalmış ingilis puritanları, alman və çex protestantları, fransız qugenotları buraya pənah gətirmişdilər. Gəlmələr arasında qanun tərəfindən təqib olunan cinayətkar ünsürlər, katorqa işgəncəsinə məhkum olunmuşlar, borc boyunduruğundan qaçanlar da kifayət qədər idi.

Amerikaya köçüb gələnlər ucsuz-bucaqsız boş torpaqlarda yeni həyata başlamağı arzulayırdılar. Azadlıq və bərabərlik haqqında Amerika amalı məhz belə yarandı.

Müasir Amerika 50 ştatdan ibarətdir. Lakin Alyaska və Havay adaları nəzərə alınmasa ölkənin ərazisini adətən şərti olaraq 7 bölgəyə ayırırlar. Orta Qərb bölgəsi Atlantik okeana yaxındır. Neft mədənlərinin yerləşdiyi Cənubi Qərb bölgəsi ölkənin mərkəzi hissəsində yerləşir, Uzaq Qərb bölgəsi isə Atlantik və Sakit okean arasındakı ərazidə, yerləşir. Yeni İngiltərə bölgəsi Şimal Şərqdə yerləşir. Buraya Men, Vermont, Nyu-hempşir, Massaçuset, Konnektikut, Rod-Aylend ştatları daxildir. Bu yerlərdə ingilislər, irlandlar, valliyalılar, şotlandların vərəsələri məskunlaşmışdılar.



AZADLIQ HEYKƏLİ

Orta Atlantika Ştatlarına Nyu-York, Pensilvaniya, Nyu-Cersi, Delaver, Merilend ştatları, Kolumbiya Federal dairəsi daxildir. Orta Qərb bölgəsi Minnesota, Viskonsin, İllinoys, İndiana, Ohayo, Miçiqan və b. ştatlardan ibarətdir. Cənub bölgəsinə Missisipi, Alabama, Virciniya, Florida, Corciya, Şimali və Cənubi Karolina daxildir. Sakit okean sahilyanı bölgəsi Kaliforniya, Oreqon, Vaşinqton ştatlarını birləşdirir, qalan ştatlar uzaq Qərb bölgəsinə daxildir.

Amerikaya gələn mühacirlərin 5 nəhəng axını müxtəlif dövrləri əhatə edir.

Amerika xalqının yaranmasında irlandlar, italyanlar, zəncilər, slavyanlar, yəhudilər, hollandlar, isveçlilər, yunanlar və onlarla başqa millətlərin nümayəndəsi iştirak etmişdi. Amerikanı "ilahi torpaq", müstəsna diyar adlandıran Amerika kilsə xadimlərinin də bu işdə fəal rolu olmuşdu.

Bu gün ABŞ iqtisadi və hərbi cəhətdən dünyanın ən qüdrətli dövlətidir.

Qismən nəhəng Manhattan adasında yerləşən Nyu-York dünyanın maliyyə mərkəzi sayılır. Vaxtı ilə ölkənin ilk paytaxtı olub. Nyu-Yorkda ağ, qara, sarı dərili amerikalılara rast gəlmək, ingilis, ispan, çin, italyan, yəhudi, Ukrayna dillərində danışanlara təsadüf etmək olar. Çin şəhərciyi, zənci məhəllələri, hind dükanları şəbəkəsi burada adi haldır.

Təməli 1791-ci ildə qoyulmuş Vaşinqton Potomak çayı vadisində, Federal Kolumbiya dairəsində yerləşir. İlk ABŞ prezidentinin adını daşıyır. 1800-cü ildən ABŞ-ın paytaxtıdır. Prezident iqamətgahı olan Ağ ev, ABŞ Konqresinin fəaliyyət göstərdiyi Kapitoli kompleksi, federal idarələr, Pentaqon, dünyada ən böyük kitabxana olan Konqres Kitabxanası, Milli Elmlər Akademiyası, dünya şöhrətli Vaşinqton universitetləri, ABŞ Milli Muzeyi, Milli Hava Uçuşları və kosmonavtika muzeyi, Milli İncəsənət Qalereyası burada yerləşir. Əhalisinin əksəriyyəti dövlət qulluğunda, ticarət, xidmət və maliyyə sahələrində çalışır. Vaşinqton ölkənin inzibati-siyasi mərkəzidir. Şəhərətrafı ərazilərdə isə mədəniyyət və istirahət, habelə poliqrafiya və hərbi sənaye müəssisələri yerləşir.

ABŞ-ın geniş düzənlikləri boyu uzanan Uzaq Qərb bölgəsinin Cənubi Dakota ştatı kovboylar məskənidir. Ondan qərbdə Vayominq ştatı yerləşir. Əsrarəngiz və füsunkar mənzərələr, dağlar və dərələr, yaşıl düzənliklər, sıldırım qayalar nəzəri cəlb edir. Yelloyston milli parkı burada yerləşir. Vayominqi qaynar qeyzerlər və "göz yaşı" kimi şəffaf suyu olan göllər diyarı adlandırırlar. İnsanlar səmimiliyi və sadəliyi ilə seçilirlər.

Amerika hindularının 80 %, yapon mənşəli amerikalıların 80 % və Çin mənşəli amerikalıların 60 % Qərbdə yaşayır. İspan dilində danışan amerikalıların böyük əksəriyyəti Qərb bölgəsinin cənub sərhədlərində yaşayır. Qərb sakinləri əməksevərliyi, müstəqilliyi, mərdliyi və təmkini ilə seçilirlər.

Qərb bölgəsinin ən məşhur ştatı Kaliforniyadır. Syerra-Nevada dağlarını səhra, düzənlik və şam ağacı meşəlikləri əvəz edir. Sakit okeanın qızılı qumsal sahilləri, dərin aşıb-daşan çaylar, çay vadilərində məhsuldar torpaqlar Kaliforniya təbiətinin inciləridir.

Kaliforniya bu gün nəhəng sənaye, mailiyə, turizm, kino biznesi mərkəzidir. ABŞ-ın kino iqamətgahı Hollivud burada yerləşir. San-Fransisko, Los-Anceles kimi nəhəng meqapolislər turistləri dünyanın hər yerindən özünə cəlb edir. Milyonçu biznesmenlər, tanınmış siyasətçilər və kino ulduzlarının zəngin villaları Santa-Barbara, Beverli-Hilz kimi bahalı kurort şəhərciklərində yerləşir.

Amerikalılar istirahətə böyük əhəmiyyət verirlər. Şəhərətrafı parklarda konsertlər, səyyar sərgilər, idman oyunları təşkil olunur. Qolf, basketbol, tennis, Amerika futbolu, ən adi kross qaçışı amerikalılarının sevimli idman növləridir. Amerikalılar gərgin işləməyi, işdən sonra isə əylənməyi yaxşı bacarırlar. Barda, restoranda istirahət etmək, idman, çimərlik, ailəvi gəzinti, ictimai işlərdə iştirak başlıca asudə vaxt fəaliyyəti növləridir.

Amerika mətbəxi sadə və doyumlu yeməklərlə fərqlənir. Amerika mətbəxi əsasən konveyer üsulu ilə qida məhsulları istehsalı, konserv və soyuducular dövründə formalaşıb. Yalnız Cənub və Qərb bölgələri olduqca zəngin mətbəxlərini qoruyub saxlaya biliblər.

Cənub donuz ətindən saysız-hesabsız xörəkləri ilə tanınır. Yeni Orleanda fransız mənşəli kreolların mətbəxi balıq, ət, düyü, meyvə və tərəvəzdən hazırlanan xörəkləri böyük şöhrət qazanıb.

Gəlmələr yeni vətənlərinə özləri ilə milli xörək növlərini də gətirmişdilər. Alman kolbasaları, italyan pizzası, Çin xörəkləri, Meksikanın qarğıdalı unudan hazırlanmış istiotlu yaymaları, Ukrayna borşu, rus arağı yeni qitədə kök salmış oldu.

Spirtli içkilərdən kokteyllərə üstünlük verirlər. Son onilliklərdə yüngül, alkoqolu aşağı olan və alkoqolsuz içkilər daha geniş yayılıb.

Yüksək kalorili xörəklərlə qidalanan amerikalıların əhəmiyyətli hissəsi köklük və artıq bədən çəkisindən əziyyət çəkir. Odur ki, pəhriz saxlamaq mədəniyyətinə amerikalılar xüsusi diqqət yetirirlər. Arıqlamaq sanki ayrıca bir idman növünə çevrilib. Pəhriz saxlayanlara xidmət edən, onlar üçün uyğun qida növləri, dərman vasitələri, masaj cihazları istehsal edən bütöv sənaye sahəsi meydana gəlib.

ABŞ etnoqrafik cəhətdən dünyanın ən rəngarəng ölkələrindən biridir. Amerikalılar öz vətənpərvərlikləri ilə seçilirlər. Dövlət bayrağına, dövlət himninə, dövlət gerbinə böyük məhəbbət bəsləyirlər.

Amerikalıların ABŞ Konstitusiyasına bəslədikləri hörmət heç bir meyarla ölçülə bilməz. ABŞ Konstitusiyası özünü ölkənin ən ali Qanunu adlandırır. Məhkəmələr həmin müddəanı bu mənada şərh edirlər ki, ştat konstitusiyaları və ya ştat qanunvericiləri, yaxud ölkə Konqresi tərəfindən qəbul edilən qanunlar federal Konstitusiya müddəaları ilə ziddiyyət təşkil etdikləri halda heç bir qüvvəyə malik

olmurlar. Ali Məhkəmənin iki əsrlik fəaliyyəti dövründə çıxardığı qərarlar Konstitusiyanın aliliyi ilə bağlı bu doktrinanı daha da dəqiqləşdirmiş və möhkəmləndirmişdir.

Mütləq səlahiyyət Amerika xalqına məxsusdur, yalnız o, istədiyi təqdirdə Konstitusiyanı yaxşılaşdırmaq və yaxud yenisini tərtib etmək məqsədilə - bu isə, ən azı, nəzəri cəhətdən mümkündür - ölkənin əsas qanununu dəyişdirə bilər. Ancaq xalq öz səlahiyyətini birbaşa həyata keçirmir. (), gündəlik idarəçilik işlərini həm seçilən, həm də təyin edilən dövlət məmurlarına həvalə edir.

Qəbul olunduğu vaxtdan bəri Konstitusiyaya bir sıra əlavələr və dəyişikliklər edilsə də, onun əsas prinsipləri bu gün də 1789-cu ildə olduğu kimi qalır.

Amerikada məskunlaşanların əksəriyyətini dini və siyasi təzyiqlərdən, eləcə də köhnə dünyanın fərdi qabiliyyət və işgüzarlığı lazımınca diqqətə almayan ağır iqtisadi şərtlərindən yaxa qurtarmaq üçün öz vətənlərini tərk etmiş avropalılar təşkil edirdi. Bu insanlar fərdi azadlığa xüsusi önəm verir və həmin azadlıqları məhdudlaşdıra biləcək hər cür şeyə, xüsusilə dövlət hakimiyyətinə şübhə ilə yanaşırdılar.

Yeni yaranan xalqın tərkibcə müxtəlifliyi də birləşmə üçün ciddi əngəl törədirdi. 18-ci əsrdə Konstitusiyanın öz mərkəzi hökumətini seçmək və ona nəzarət etmək səlahiyyəti verdiyi insanlar mənşəcə müxtəlif olduqları qədər həm də müxtəlif inancları və maraqları təmsil edirdilər. Onların çoxu İngiltərədən gəlmiş olsa da, burada İsveç, Norveç, Fransa, Hollandiya, Prussiya, Polşa və bir çox digər ölkələrdən çıxmış mühacirlər də vardı. Bu adamların dini inancları da müxtəlif idi və bir çox hallarda onlar bu inanclarına ciddi riayət edirdilər. Onların arasında anqlikanlar, Roma katolikləri, kalvinistlər, qugenotlar, lüteranlar, kvakerlər və yəhudilər vardı. İqtisadi və sosial baxımdan amerikalılar iri torpaq sahibləri olan aristokratlardan tutmuş Afrikadan gətirilən kölələrə və borc əvəzinə işləyən müqaviləli xidmətçilərə qədər sıralanırdı. Amma ölkənin özəyini orta təbəqə - fermerlər, ticarətçilər, mexaniklər, dənizçilər, gəmiqayıranlar, toxucular, dülgərlər, və bir çox digər peşə sahibləri təşkil edirdi.

Amerikalılar Britaniya taxt-tacından azad olmaq düşüncəsi də daxil olmaqla, bütün məsələlərdə çox geniş spektrdə fərqli baxışlara malik idilər.

Ötən iki əsr ərzində Amerika əhalisinin təikibcə rəngarəngliyi xeyli artsa da, ölkənin birliyi mahiyyət etibarı ilə daha da möhkəmlənmişdir. XIX əsr boyu və XX əsrin əvvəllərində saysız-hesabsız mühacir axınları baş vermiş və bu insanlar öz bacarıq və qabiliyyətləri, habelə mədəni irsləri ilə böyüməkdə olan xalqın daha da zənginləşməsinə xidmət etmişlər. İlk mühacirlər şərqdə Appalaçi dağlarını keçərək Missisipi vadisində və qitənin mərkəzində yerləşən Böyük düzənliklərdə məskunlaşmış, sonra isə Qayalı dağları aşaraq Sakit okean sahillərinə çatmışdılar, İlk kolonistlər tərəfindən Atlantik okeanın sahilyanı ərazilərinin qərbində 4500 kilometrlik bir sahə məskunlaşdırılmışdı. Məskunlaşmış ərazilər genişləndikcə bu ərazilərin ağac materialları ilə zəngin ibtidai meşələr, kömür, mis, dəmir filizi və neft yataqları, bol su ehtiyatları və münbit torpaqlar kimi böyük təbii ehtiyatlara malik olduğu daha aydın üzə çıxırdı.

Yeni ölkənin zənginlikləri özünəməxsus fərqlilik növü doğurmuşdu. Xüsusi regional və kommersiya maraqlarına malik qruplar meydana çıxmışdı. Şərq sahilindəki gəmi sahibləri azad ticarəti müdafiə edirdilər. Orta qərb manufakturaçıları böyüməkdə olan ABŞ bazarında öz mövqelərini qoruyub saxlamaq üçün ixrac rüsumları qoyulmasının tərəfdarı idilər. Fermerlər yükdaşıma qiymətlərinin aşağı, çoxişlənən malların qiymətlərinin isə yüksək olmasını istəyirdilər; dəyirmançılar və çörəkbişirənlər taxıl məhsullarının qiymətlərinin aşağı salınmasına çalışır, dəmiryolçular isə yükdaşıma qiymətlərinin mümkün qədər yüksək olmasına can atırdılar. Nyu-York bankirləri, cənubun pambıq becərənləri, Texas heyvandarları, Oreqonun meşə sənayeçiləri iqtisadi məsələlər və iqtisadiyyatın tənzimlənməsində dövlətin rolu barədə çox fərqli görüşlərə malik idilər.

Bu bir-birindən tamamilə fərqli maraqları bir araya gətirmək, onlar üçün ümumi zəmin yaratmaq və eyni zamanda bütün insanların fundamental hüquqlarını müdafiə etmək Konstitusiyanın və onun əsasında yaradılan dövlətin daimi işinə çevrildi.

Xeyli zəif inkişaf etmiş iqtisadi şərtlər daxilində 4 milyon insanın idarə olunması ilə bağlı problemlər bugünkü dövlət sisteminin mürəkkəbliyi ilə müqayisədə bəlkə də çox asan görünə bilər.

Amerikalılar yalan danışmağı heç xoşlamırlar. Yalan danışmaqda ittiham edilən şəxsin karyerasına ömürlük ziyan dəyə bilər. Ona görə də kifayət qədər onlar öz ünsiyyət və davranış mədəniyyətinə xüsusi diqqət yetirirlər.

Amerikalılar uşaqlıqdan müstəqil və azadsevərdirlər. Yalnız özlərinə arxalanmağa adət ediblər. Onlar yarışmağı sevir, nailiyyətləri, rekordları qiymətləndirməyi bacarırlar.

Valideynlərinə münasibətdə uşaqlar ifrat dərəcədə müstəqildirlər. Cib xərci qazanmaq məqsədi ilə gündə bir neçə saat işləməyə həmişə hazırdırlar. Bu minvalla gənc amerikalılar uşaq yaşlarından Amerika həyat tərzinə cəlb edilirlər.

Saat qurşaqları 4 saat qurşağını əhatə edir. Alyaska və Havay adaları daha 2 saat qurşağını əhatə edir.

İlk immiqrantlar Avropa və dünyanın digər guşələrindən özləri ilə gətirdikləri mədəni dəyərlərlə yaşayırdılar. XIX əsr dönüş nöqtəsi oldu. Müxtəlif mədəniyyətlərin qovuşması özünəməxsus nadir Amerika mədəniyyətini dünyaya bəxş etdi. Amerika incəsənəti öz demokratik ənənələri ilə məşhurdur.

Opera və filarmoniyanı ziyarət etmək ucuz başa gəlmir. Lakin həmin tamaşalara açıq havada və ya eksperimental teatrlarda da baxmaq olar.

Amerika dramaturgiyası Artur Miller, Yucin Onil, Tenneci Uilyams, Eduard Olbi, Devid Memet, Oqast Uilson kimi dünya şöhrətli müəlliflərlə tanınır.

Özəl xeyriyyə cəmiyyətlərinin yardımı sayəsində Amerika şəhərlərinin əksəriyyətində simfonik orkestrlər, bəzilərində hətta opera kollektivləri fəaliyyət göstərir. Tanınmış bəstəkarlar arasında Corc Gerşvin və Aaron Koplendi göstərmək olar.

İncəsənət, elm, iri kapital, sahibkar işgüzarlığı istedadlarının qovuşması Hollivud kino sənayesi kimi nəhəng təzahürü meydana gətirib. Amerika kino sənəti artıq 80 ildir ki, insanların hissiyyatına hakim kəsilib. Müasir dünyada kino insanın daxili aləminin formalaşmasına təsir edən ən qüdrətli vasitələrdən birinə çevrilib.


NYU-YORK METROPOLİTEN MUZEYİ

Nyu-york Metropoliten
Bədii muzeyi.

Nadir incəsənət nümunələrinin saxlanıldığı və nümayiş etdirildiyi dünyanın ən böyük muzeylərindən biri də Nyu-Yorkun Metropoliten Bədii muzeyidir. Faktiki olaraq bir neçə muzeyi birləşdirən bu muzey, hazırda öz sürətli inkişafını danam etdirir. Burada demək olar si, bütün dünya sivilizasiyası nümayiş etdirilir: XIII-XX əsrlər çox gözəl Avropa rəngkarlığı nümunələri; qədim Misir tabutları, b.e. əvvəl I əsrə aid Pompey yazıları; XV-XIX əsrlər Avropa interyerləri, qədim yunan qablarının kolleksiyaları; qədim və orta əsrlər Şərq incəsənətinin çox nadir toplantıları; Avropa orta əsr sənətkarlığı nümunələrindən ibarət xüsusi filial, Afrika, qədim Amerika xalqları incəsənəti nümunələri; çox gözəl silah kolleksiyaları; ən nümunəvi ABŞ incəsənəti kolleksiyaları və s. B.e. əvvəl IV minillikdən başlayaraq bizim eraya, eləcə də bu günlərədək dünya incəsənəti tarixinin belə geniş miqyasda nümayişi, bu planda Metropoliten muzeyini dünyanın ən nadir, zəngin muzeylərindən birinə çevirmişdir.

Metropoliten muzeyi ABŞ-ın ən qədim muzeylərindən biridir. Muzeyin inkişafı ilə əlaqədar çoxlu bərpa işləri aparılmış, bina bir neçə dəfə yenidən qurulmuşdur. Beləliklə, muzeyin yeni binaları qurulur, köhnə otaqlar yenidən tikilir, getdikcə müasir prinsiplərə cavab verə biləcək şəklə salınır.

Muzey şəhər hakimiyyəti tərəfindən ayrılan sahəni çoxdan layiqincə zinətləndirmişdir. Mərkəzi parkda yerləşən bu muzeylə bərabər, orada heykəltəraşlıq abidələri, yay teatrı vardır. Bununla belə Metropoliten muzeyi Nyu-Yorkun böyük mədəniyyət mərkəzlərindən biri hesab olunur. Qeyd etmək lazımdır ki, bu muzeyə başqa muzeylər - bir az cənubda, iki məhəllə uzaqlıqda Frik muzeyi, bir az şimal tərəfdə isə Uitni və Solomon Huqqenheym muzeyləri qonşuluq edirlər.

Metropoliten muzeyi Amerika kontinentində ilk bədii muzeylərdən biri olmaq etibarilə 1870-ci ildə yaradılmışdır. Bu muzeylə bərabər həmin ildə Bostonda Təsviri İncəsənət Muzeyi və Vaşinqtonda Korkoran qalereyası yaradılmışdır.

Amerika Birləşmiş Ştatlarında vətəndaş müharibəsi (1861-1865) qurtardıqdan sonra ölkə sürətli inkişafı davam etdirmək üçün dünya arenasında siyasi və iqtisadi münasibətlərdə üstünlük qazanmağa səy göstərirdi. 1860-cı illərin sonu, 1870-ci illər ölkənin bu böyük şəhəri çoxlu kapital qoyuluşuna məruz qaldı və dəmiryolu, bank sahəsində sürətli inkişafa başladı. Şəhərin mədəni həyatı isə hələlik böhran içərisində idi. 1370-ci ildə Nyu-Yorkda bir neçə xüsusi rəsm qalereyası var idi ki, bunlardan ancaq biri-dəmiryolu maqnatı Çon Teylor Çonstona məxsus (Metropoliten muzeyinin ilk prezidenti) qalereya kütlənin üzünə açıq idi. Həftənin cümə günləri muzey öz otaqlarını xalqın üzünə açırdı.

Metropoliten muzeyinin ən görkəmli bölmələrindən biri dünyada məşhur olan Qədim Misir incəsənəti toplusudur. Bu bölmənin yaradılması XIX əsrin sonlarına təsadüf edir. 1906-cı ildən etibarən muzeyin xüsusi arxeoloji ekspedisiyası Misirdə, əvvəlcə Liştdə, sonralar isə Laxukda tədqiqat işləri aparmağa başladı.

1976-cı ildə Qədim Misir ekspozisiyasının birinci hissəsinin açılışı oldu. Burada bizim eradan əvvəl III minilliyə aid nümunələr və Qədim Misir memarlığından bəhs edən eksponatlar çox maraqlıdır. Doğrudur, onlar Misir fironlarının məşhur ehramları kimi nəhəng olmasa da, dünya şöhrətli Misir memarlığı haqqında geniş fikir yaradır.

Qədim Misir incəsənəti toplantıları bölməsində ən qiymətli hissə-Orta və Yeni çarlıqlar dövrü abidələri nümunələridir. 1920-ci ilin sonlarında Deyr el-Bəhridən muzeyə gətirilmiş Xatşepsut abidəsi Yeni çarlıq dövrünün sənət nümunəsidir (b. e. əvvəl 1580-1085-ci illər). Orada külli miqdarda belə abidə nümunələri aşkar edilmiş, lakin yalnız 14-ü Metropoliten muzeyinə gətirilmişdir. Bizim eradan əvvəl VIII-VII əsrlər İran incəsənəti nümunələri, bizim eradan əvvəl II minilliyə aid Həmədan Elam çarının bürüncdən hazırlanmış baş hissəsi, bizim eradan əvvəl IV əsrə aid Sasani çarının baş hissəsi, VII əsrə aid II Şapur əsəri və başqa incilər şedevrlər sırasındadır.

Birinci mərtəbənin cənub hissəsi antik şöbə adlanır. Burada antik heykəltəraşlıq nümunələri nümayiş etdirilir. Şöbədə həmçinin Qədim Kipr heykəltəraşlıq əsərləri böyük maraq doğurur.

1978-1979-cu illərdə bərpa edilmiş ikinci mərtəbədəki zallarda antik dövrün xırda, qiymətli zinətləri – bürüncdən, şüşədən, keramikadan ayrı-ayrı dövrlərdə Yunanıstanda yüksək sənətkarlıqla hazırlanmış eksponatlar ekspozisiyanı bəzəyir. Ekspozisiyanın ən qədim eksponatları - Egey dünyası incəsənəti əsərləridir. Bunların arasında bizim eradan əvvəl III-II minilliyin Kiklad adalarının xırda heykəltəraşlıq nümunələri maraqlıdır. Əsasən qab kolleksiyası tez nəzərə çarpır ki, bu da antik qab sənətkarlığı nümunəsi olmaq etibarilə bizim eradan əvvəl II və I minilliklərin nadir nümunələridir. Qədim yunan keramika sənətkarlığının inkişafı müxtəlif tarixi dövrlərdə müxtəlif səviyyələrdə olmuşdur ki, nümunələr bir neçə şedevr olmaqla, metropoliten muzeyini bəzəyir. Bu cür çox nadir eksponatlardan biri də bizim eradan əvvəl 515-ci ilə məxsus qabdır. Qabın kənarları ilə çox böyük ustalıqla çəkilmiş rəsmlər tez diqqəti cəlb edir. Bu rəsmdə Zevsin oğlu Sarpedantın ölümcül yaralanması səhnəsi çox incə işlənmişdir, çox həyati çəkilmişdir. Sarpedantın yaralanmış yerindən qırmızı cizgilərlə qanın sızması göstərilir.

Muzeydə qədim Roma heykəltəraşlığı, orta əsr Avropa incəsənəti nümunələri, Bizans sənəti, Kipr sənətkarlığı, orta əsr İspaniya və Fransa incəsənəti, Flamand sənətkarlığı nümunələri ilə bərabər, Yaxın və Orta Şərq, Şimali Afrika, Hindistanın orta əsrlər sənətkarlığı nümunələri nümayiş etdirilir. Muzeydə İslam incəsənəti şöbəsi daha zəngin və daha zövqlə tərtib edilmişdir. Çox incə və sənətkarlıqla, gözəl ornamentlərlə müxtəlif əsrlərdə bəzədilən daş, ağac, şüşə, xalça və başqa nümunələr yaradıcıların böyük marağına səbəb olmuşdur. İsfahan incəsənəti nümunələri, türk xalçaları, Təbriz xalçalarının çox gözəl növləri Metropoliten muzeyində nümayiş etdirilir.

Ən maraqlısı isə İslam incəsənəti bölməsində nümayiş etdirilən, tədqiqatçı marağına səbəb olan çox zəngin Şərq əlyazmaları toplusudur. Burada IX-X əsrlərə aid fars əlyazmaları nümunələri, o cümlədən yüksək şəkildə miniatürlərlə və illüstrasiyalarla bəzədilmiş Firdovsinin "Şahnamə" əsəri də saxlanılır.

Uzaq Şərq incəsənəti şöbəsində Çin, Yaponiya ölkələrində müxtəlif dövrlərdəki sənət nümunələri əhəmiyyətli yer tutur. Metropoliten muzeyinin şəkil qalereyasında qorunub saxlanılan çoxsaylı, bədii cəhətdən zəngin, dünyada tanınmış əsərlərin nümayişi dünya incəsənətinə böyük hədiyyədir. Amerika Birləşmiş Ştatlarında Azərbaycan sənətkarlığı nümunələri

Azərbaycan sənətkarlarının əl işlərinə xüsusilə Amerika Birləşmiş Ştatlarında daha çox təsadüf edilir. Hazırda ABŞ-ın Vaşinqton, Nyu-York, Los-Anceles, Filadelfiya, Hyuston, San-Fransisko, Klivlend, Detroyt, Boston və başqa şəhərlərindəki muzey, bədii qalereya və şəxsi kolleksiyalarında yüzlərlə xalq ustadlarımızın nadir əsərləri vardır. Burada saxlanılan sənət nümunələrinin əksəriyyətini xalça, parça, bədii metal nə saxsı kolleksiyaları təşkil edir.

Ən qədim Azərbaycan metal sənəti nümunəsi hazırda ABŞ-ın Nyu-York şəhərindəki Metropoliten və San-Fransisko şəhərindəki Asiya incəsənəti muzeyindədir.

Metropoliten muzeyində saxlanılan bədii metal sənəti əsərləri içərisində ən maraqlısı Urmiya gölü ətrafında Zibiyə mahalından tapılmış e.ə. əvvəl VIII-VII əsrlərə aid zərgərlik nümunələridir. Bu nümunələr içərisində qızıldan düzəldilmiş bir bilərzik öz bədii xüsusiyyətinə görə çox maraqlıdır. Üç min illik tarixi olan bu gözəl sənət əsəri üzərində real xüsusiyyət daşıyan bir neçə təsvirlər vardır. Onlar bilərziyin iki uc hissələrində və yan üst tərəfində verilmiş şir təsvirlərindən ibarətdir. Qarşı-qarşıya durub elə bil ki, sıçrayıb bir-birini parçalamaq istəyən bu şir fiqurları həm dəqiq işlənməsi, həm də dinamikası ilə diqqəti cəlb edir.

Orta əsrlərə aid Azərbaycan metal sənəti nümunələri ABŞ muzeylərində xüsusilə çoxdur. Bunlara Nyu-Yorkda Piyerpont Morqanın şəxsi kolleksiyasında saxlanılan XII-XIII əsrlərə aid Naxçıvanda düzəldilmiş bürünc qabı, cənab Hararinin şəxsi kolleksiyasında saxlanılan 703-cü il hicri tarixli (yəni 1304-cü il) və üzərində "Olcayt Xudavəndə" sözləri yazılmış bürünc qabı və yenə həmin kolleksiyada saxlanılan istirlabı, Klivlend incəsənət muzeyində saxlanılan zəngin ornamental bəzəkli XII əsrə aid bürünc qabı və başqa nümunələri aid etmək olar. Bürünc istirlabın üzərində onun nə vaxt, kim tərəfindən kimin uçun düzəldildiyini göstərən yazılar vardır. Astronomiyada istifadə edilən bu cihazın üzərindəki yazılardan məlum olur ki, o, 1486-cı ildə məşhur Şirvan ustası Şükürüllah Müxlis tərəfindən hazırlanmışdır. Çihazın üzəri, xüsusən onun qulp hissəsi çox zərif və bədii ornamentlə bəzədilmişdir.

Burada tətbiq olunan ornamentlər içərisində xüsusilə şaxələnmiş çox yarpaqlı nelufər gülü və qıvrımdal geniş yer tutur.

Istirlabın arxa tərəfi bədii cəhətdən ön tərəfə nisbətən az maraqlıdır. Onun qulpa yaxın yuxarı hissəsində şaquli və üfüqi istiqamətdə astronomik bölgülər çəkilmişdir.

Hazırda ABŞ-da yurdumuzun əsas sənət mərkəzlərində toxunmuş minlərlə xovlu və xovsuz, ornamental və süjetli əla növlü xalça sənəti nümunələrimiz vardır. Ən qədim Azərbaycan xalçaları Nyu-Yorkun Metropoliten muzeyində nümayiş etdirilir. Belə xalçalardan birincisi XVI əsrdə Ərdəbildə toxunmuşdur. Eni 178 sm, uzunu isə 333 sm olan bu xalçanın ara sahəsində ot yeyən heyvanlarla yırtıcı heyvanların mübarizəsi səhnəsi təsvir edilmişdir. Bunların içərisində şir, pələng, qurd, maral təsvirləri xüsusən həyati verilmişdir.

Xalçada şirlə pələng böyük bir xallı maralı parçalayan, o biri heyvanlar isə elə bil ki, dairə qurub bu hadisəni izləyən vəziyyətdə təsvir edilmişdir. Bu faciəli səhnə təbiətin güllü-çiçəkli qoynunda baş vermişdir. Xalça üzərində verilmiş gül-çiçək rəsmləri xüsusi bir gözəllik yaradır.

"Namazlıq" adlanan ikinci xalça birincidən həcm etibarilə kiçikdir. Eni 107 sm, uzunu 161 sm olan bu xalçanın ara sahəsində mehrab tağını andıran böyük bir bəzək elementi verilmişdir. Bu bəzəklərin arasında gül-çiçək naxışları və bulud rəsmləri vardır. Bu bulud rəsmlərinin ortasında verilmiş nəbati bəzək elementi öz forması və məzmununa görə məscidlərdəki qəndilləri xatırladır. Bu xalça həm də öz zərif toxunuşu ilə də diqqəti cəlb edir. Xalçanın toxunuşunda külli miqdarda qızıl-gümüş saplardan istifadə olunmuşdur.

ABŞ-da XVIII-XIX əsrlərdə Qarabağda, Qazaxda, Qubada, Bakıda və Şamaxıda toxunmuş xalçalarımız xüsusilə çoxdur. Bu sənət nümunələrinin əksəriyyəti Kolumbiyadakı Tekstil muzeyində, Filadelfiyadakı Pensilvaniya muzeyində, Nyu-york, Vaşinqton, Çilaqo, San-Fransisko və s. şəhərlərdə şəxsi kolleksiyalarda saxlanılır.

## *3.2. BÖYÜK BRİTANİYA*

Böyük Britaniya ingilis, şotland, valliyalıların və başqalarının vətənidir. İngilis milləti qədim İberiya qəbilələrinin hind-Avropa mənşəli kelt, anql, saks, friz, yut qəbilələri və sonralar frank-normandlar ilə qaynayıb qarışmasından əmələ gəlib. Hazırda Böyük Britaniyada 45 mln ingilis, 5 mln şotland, 1 mln valliyalı, 0.3 mln Olster irlandı yaşayır. Həmin millətlərin nümayəndələri müxtəlif dövrlərdə ABŞ, Kanada, Avstraliya və Yeni Zelandiyaya mühacirətə getmişlər. İngilislər olduqca qürurlu millətdir. İngilisə elə gəlir ki, onun vətənində hər şey başqalarına nisbətən daha əla qurulub. Bəzən o, xariciyə yuxarıdan aşağı, həqarətlə baxır.

İngilislər var-dövlətə ehtiramla yanaşırlar. Pul qazanmaq bacarığı ifrat dərəcədə yüksək qiymətləndirilir. Eyni zamanda ingilis heç də xəsis deyil. O, evinin abadlığına, ailəsinin rahatlığına zəruri miqdarda pul sərf etməyə qadirdir.

İngilislər səyahət etməyi, yeni təəssürat əldə etməyi xoşlayırlar, lakin ziyarət etdikləri ölkələrdə yerli əhali ilə yaxınlaşmağa meylli deyillər.

Hər bir ingilis öz evini bir növ müqəddəs sayır və başqalarının ailə ocağına hörmətlə yanaşır. Ev şəraitində o, digər həyat qayğılarını sanki özündən kənarlaşdırır. Məsələn, amerikalı evində dincələndə belə biznesi, tərəfdaşları və s. haqqında düşünə bilər. İngilis üçün belə vəziyyət mümkün deyil.

İngilis gündəlik qidalanma prosesinə olduqca laqeyddir. Odur ki, ingilis mətbəxi anlayışını nəzərdən keçirmək yersiz olar.

İngilislərin asudə vaxtla əlaqədar maraq dairəsi olduqca genişdir. Müxtəlif əşyalardan ibarət kolleksiya yığanlar, bağçılıqla məşğul olanlar, ev heyvanları saxlayanlar saysız-hesabsızdır.

İngiltərədə hökm sürən mülayim iqlim ingilislərə il boyu uğurla bağçılıqla məşğul olmaq imkanı yaradır. İngilislər gül-çiçək, meyvə-tərəvəz yetişdirir, landşaft dizaynı sənəti məşğuliyyətindən həzz alırlar.

Ev heyvanları və ev quşlarına göstərilən yüksək qayğı heç nə ilə ölçülə bilməz. Ölkədə il boyu it, pişik sərgiləri, festivalları keçirilir. İngiltərəyə ilk dəfə səfər etmiş qonağı it və pişiklərə verilən sərbəstlik yalnız heyrətləndirə bilər.

İngilislərin rəyincə bir çox xalqlar, məsələn italyanlar heyvanlara qarşı qəddar, öz uşaqlarına qarşı isə həddən artıq rəhmdildirlər. İtalyanlar isə ingilisləri uşaqlarına qaşı ifrat tələbkarlıqda günahlandırırlar.



LONDON

İngilislər uşaqların tərbiyəsində sərt tələbkarlığa üstünlük verirlər. Britaniyada elə hesab edirlər ki, uşaqların cəzalandırılması valideynlərin hüquq və vəzifəsidir. Uşaqları əhatə edən nizam-intizam mühiti qədim adət-ənənəyə dayaqlanır.

Şotlandiya, Uels və Şimali İrlandiya, İngiltərə ilə zahiri oxşarlıqlarına baxmayaraq milli xüsusiyyətlərinə, mədəniyyətlərinə görə ondan köklü surətdə seçilir.

Şotlandiya, Britaniya ərazisinin üçdə birini tutur, lakin burada Böyük Britaniya əhalisinin yalnız 12 %-i yaşayır.

Şotlandiyanın paytaxtı Edinburq şərq sahil zolağında, digər iri şəhər olan Qlazqo isə qərb sahil zolağında yerləşir. Aberdin və Dandi iri sənaye şəhərləridir. Şotlandiyanın məşhur yeri Lox-Ness gölüdür. Rəvayətə görə bu göl Nessi əjdahasının məskənidir. Əsrlər boyu Lox-Ness gölünün sirri amilləri, yazıçıları, kino biznes xadimlərini, sadə insanları rahat qoymur.

800 illik tarixi olan qədim Edinburq qəsri ölkənin digər möcüzəli yeri sayılır. Şotlandlar ifrat dərəcədə qürurlu, adət-ənənələrə sadiq insanlardırlar. Britaniya imperiyasının yaranmasına təkan vermiş müstəmləkəçilik fəaliyyətinin əsasını məhz şotlandlar qoymuşdular. Şotlandiya əsrlər boyu Böyük Britaniya üçün peşəkar kadrlar mənbəyi olmuşdur.



**EDİNBURQ QƏSRİ**

Adlı-sanlı şotlandlar arasında məşhur yazıçı Valter Skott (1777-1832), şair Robert Berns (1759-1796), roman ustadı Tobiyas Smollet, filosoflar Devid Yum, Adam Smit, Tomas Karlayl, "Piter Pen" və "Möhtəşəm Kreyton" əsərlərinin müəllifi Ceyms Larri, "Möcüzələr adası" romanının müəllifi Robert Lyuis Stivenson, "Qarri Potter" silsiləsinin müəllifi C. Roylinq, Amerika kino ulduzu, Ceyms Bond rolunun ifaçılarından biri, "Oskar" mükafatı laureatı Şon Konneri və onlarla başqalarını göstərmək olar.

Hələ qədim Misir və qədim Roma musiqiçilərinə məlum olan tuluq zurnası əsrlər boyu və indinin özündə də Şotlandiyanın milli musiqi aləti kimi şöhrət tapmışdır. O, ölkənin mühüm rəmzlərindən biri sayılır. Tuluq zurnaçılarının ilk müsabiqəsi 1781-ci ildə keçirilmişdi. *Tartan* və onun elementlərindən biri olan *kilt* milli şotland geyimləri, habelə şotland viskisi belə rəmzlər sırasındadır.

Şotland milli mətbəxi çeşid zənginliyi ilə fərqlənmir. Arpa yarmasından sıyıq, arpa unundan kökə, arpa həlimində bişirilən içalat geniş yayılmış milli xörəklərdir.

Şotland təhsil sistemi quruluşuna, məktəb şəbəkəsinin təşkilinə, tədris planlarının çeşidinə, imtahanlar sisteminə görə fərqlənir. Orta və ali məktəblərdə oxuyan tələbələrin xüsusi çəkisi Britaniya adalarının digər bölgələrinə nisbətən daha yüksəkdir. Şotland tələbələrinə göstərilən yüksək maliyyə dəstəyi onlara universitetlərdə təhsillərini davam etdirmək imkanı yaradır.

Qədim romalıların Britaniyanı tərk edib getməsindən xeyli əvvəl Uelsdə müstəqil kelt qəbilələri yaşayırdı. XI əsrdə normanlar İngiltərəni işğal etdilər. Sərhədlərini müstəqil Uels knyazlarının döyüşçülərindən qorumağa çalışan ingilislər tədricən bu knyazlıqları özlərinə tabe edə bildilər.



**LONDON. BÖYÜK BEN.**
**Dünya şöhrətli tarixi abidə**

1282-ci ildə kral I Eduard son Valliya knyazı Llivelini döyüşdə məğlub edərək, Uelsi tamamilə zəbt etdi. Ölkənin strateji məntəqələrində hərbi qalalar tikildi. 1536 və 1542-ci illərdə ölkələrin birliyi haqqında qanunverici Aktlar qəbul olundu, İngiltərə və Uelsin inzibati, siyasi və hüquq təsisatları bir araya gətirildi.

Valliya-gel dili kelt dillərinə aiddir və irland dilinə yaxındır. Hazırda dil tədricən tənəzzülə uğrayır. Yalnız 60 min nəfər onu öz doğma dili adlandıra bilər. Onların əksəriyyəti Hebrid adalarında və Skay adasında yaşayır.

Uelsin əsrarəngiz təbiəti, qədim tarixi və mədəniyyəti yazıçıları, musiqiçiləri, rəssamları, tətbiqi sənət ustalarını, kino biznes xadimlərini daim özünə cəlb edir. Uelsdə hər il keçirilən aystedvodlar - valliyalı müğənni, musiqiçi və şair festivalları böyük şöhrət qazanıb.

2000-ci ildən başlayaraq gel dili bəzi Uels məktəblərində uğurla tədris olunur. Gel dilində efirə çıxan milli televiziya proqramlarının

sayı artır. Uels Milli məclisinin deputatları qanunvericilik fəaliyyətində həm ingilis, həm də doğma dillərindən istifadə edirlər.

Dünya şöhrətli şair Tomas Dilan, müğənnilər Tom Cons, Şirli Bassi, Brin Tirfol, kino ulduzları Riçard Barton, Entoni Hopkins və Ketrin Zeta Cons Uels mənşəli sənətkarlardırlar.

Uelsdə şüşə üfürmə sənəti, qiymətli ağac növlərindən mebel istehsalı, toxuculuq, dulusçuluq və digər tətbiqi sənət növləri olduqca inkişaf edib. Teatr kompleksi, eləcə də yerli həvəskar teatrlar, dəniz kurortlarında estrada kollektivləri, Pantomima teatrı fəaliyyət göstərir.

Təntənəli, yüksək estetik tərtibatda hazırlanmış dövlət tədbirləri britaniyalı və xarici qonaqlar üçün əsrarəngiz tamaşaya çevrilir. Parlament sessiyasının rəsmi açılışı belə möhtəşəm tədbirlərdəndir. İngiltərə kraliçası gözəl at faytonunda parlamentə təşrif buyurur və lordlar palatasında taxt kürsüsündən nitq söyləyir. Rəsmi dövlət geyimi geymiş lordlar, ali dövlət məmurları, hakimlər, orden və medallarını taxmış hərbiçilər, icmalar palatasının üzvləri diqqətlə nitqi dinləyirlər. Hər il iyun ayının ikinci şənbəsi kraliçanın ad günü dövlət bayramı kimi qeyd olunur. Ali baş komandan olan kraliça dövlət bayraqlarının qaldırılmasına rəhbərlik edir, atlı qvardiyanın paradını qəbul edir.

Ali məhkəmənin növbəti sessiyasının açılışı eyni qaydada gözəl tamaşaya çevrilir. Dəbdəbəli parad mundiri geymiş atlı qvardiyanın müşayiəti ilə kraliça Ədliyyə sarayına təşrif buyurur. Hakim mantiyasına bürünmüş hakimlərin Londonun mərkəzi küçələri ilə Ədliyyə sarayına təntənəli yürüşü unudulmaz təəssürat bağışlayır.

London dünya əhəmiyyətli incəsənət mərkəzidir. Milli qalereya, Kral incəsənət akademiyası, Teyt qalereyası, Britaniya Muzeyi, Viktoriya və Albert Muzeyi, Elmlər Muzeyi, Madam Tüssonun mum fiqurlar muzeyi məşhur incəsənət mərkəzləridir. Kral opera teatrı, Palladium, 40-dan çox başqa teatrlar şöhrət tapmış mədəniyyət ocaqlarıdır.

Askot ippodromu atlı yarış həvəskarlarını qəbul edir. Burada kübar cəmiyyətin nümayəndələri və moda sənətkarları yığışırlar. Qadınlar geyimlərini nümayiş etdirirlər. "Lordz" stadionunda kriket yarışları, Henlidə Kral avar çəkənlər Reqatası minlərlə tamaşaçını özünə cəlb edir.

Böyük Britaniya futbolun vətənidir. Nəhəng futbol sənayesi dünya şöhrətli futbol komandaları, gözəl stadionlar, azarkeşlər klubları, milyonlarla azarkeşlərin tələbatının ödənilməsinə xidmət edir. "Arsenal", "Mançestr Yunayted", "Çelsi", "Liverpul" kimi zəngin klublar hətta London fond birjasının siyahısında belə nüfuzlu mövqe tutur. Son onillikdə stadionlara kütləvi xuliqanlıq dalğası gətirmiş futbol fanatlarına qarşı dövlət səviyyəsində görülmüş sərt tədbirlər öz bəhrəsini verdi. İndi tamaşaçılar arasında qadınlara və ailələrə rast gəlmək adi haldır.



BÖYÜK BRİTANİYA. ÇELSİDƏ GÜL-ÇİÇƏK FESTİVALI

Britaniyada külli miqdarda ictimai və özəl parklar, bağlar, gəzinti yerləri fəaliyyət göstərir.

Britaniyada məzuniyyət 20 iş gününü əhatə edir. Adətən yay məzuniyyətinə iki həftə ayırırlar. Milad və Yeni ilin qeyd edilməsi də iki həftəyə qədər uzanır.

Britaniyalılar mədəni ənənənin tərkib hissəsi olan monarxiyanın tərəfdarları qalmaqda davam edirlər. *BBC* dünyanın ən hörmətli teleradio şirkəti sayılır, millət öz dərrakəsi, hövsələsi və namuskarlığı ilə fərqlənir, hökumət isə öz növbəsində ictimai quruluşun insanlara səmərəli xidmətini təşkil etməyə çalışır.

XIX əsrin 70-ci illərində Avropaya gələn turistlərin böyük hissəsini ingilislər təşkil edirdi. XIX əsrin 60-cı illərindən başlayaraq İngiltərə və ABŞ arasında turizm inkişaf etməyə başlayır. İngiltərədən ABŞ-a, ABŞ-dan İngiltərəyə səyahətlərin təşkilində də T. Kukun əməyi əvəzedilməz idi. 1817-ci ildə Tomas Kuk ilk dövr-aləm səyahətini həyata keçirdi. Dəmir yol və gəmiçilik şirkətləri, mehmanxana və restoran sahibləri arasında müqavilələr bağlanır, tələbat diqqətlə öyrənilir, səyahət marşrutları və yerləşdirmə proqramları tərtib olunurdu. Tomas Kukun təşəbbüsünə digər şirkətlər də qoşuldu. Böyük Britaniyanın turist sənayesinin yüksəlişi, turizmin inkişafı əhalinin sayından (58.8 mln) deyil, onun tərkibində və dincəlmək ənənələrində baş verən dəyişikliklərdən asılı idi.

Britaniyalılar ikinci dünya müharibəsindən sonra fəal şəkildə səyahət etməyə başladılar. 70-80-ci illərdə iqtisadi tənəzzüllə əlaqədar səyahətlərin miqdarı əhəmiyyətli dərəcədə azaldı, yalnız 80-ci illərin ortalarında səyahətlərin ümumi miqdarı 70-ci illərin səviyyəsini xeyli üstələdi. Bu müddətdə ölkədaxili turizmlə beynəlxalq turizm arasındakı nisbət olduqca dəyişildi. 1987-ci ildə daxili bazarın tutumu öz böhran həddinə çatdı. Lakin eyni zamanda həmin dövrdə britaniyalıların dənizyanı kurortlarda keçirdiyi ənənəvi iki həftəlik məzuniyyətlərinin sayı 14 % azaldı, habelə özəl özünəxidmət sahəsində istirahətin nüfuzu artdı. Yalnız işgüzar turizm 1978-ci ilədək 17 mln-dan 1980-ci ildə 20 mln-a qədər artdı, halbuki

ölkədaxili turizm sahəsi böhran keçirirdi. Kurort bölgələrində qonaq evlərinə tələbatın aşağı düşməsi mehmanxana sahiblərini biznes-turizm üçün nəzərdə tutulmuş mehmanxanaları iş günlərində ahıllar evi və s. kimi istifadəyə verməyə vadar etdi.

Britaniyalılar əvvəlki kimi məzuniyyətlərini Fransa, İspaniya, İtaliya, Yunanıstan, Kipr, Portuqaliya, Tunis və Türkiyənin ən yaxşı kurortlarında keçirirlər. 70-ci illərdən başlayaraq britaniyalıların xaricə səyahətlərinin sayı Britaniyaya gələn qonaqların sayını üstələyir. Britaniyanın xarici turizmində Şimali Amerikaya səyahətlər əhəmiyyətli yer tutur (43 %), bu da dollarla funt sterlinq arasında məzənnənin düşüb qalxmasından asılı olur.

Yay mövsümündə britaniyalıları ən çox cəlb edən Amerikanın Mayami kurortudur. İlin başqa vaxtlarında turistlərin sayı dostları və qohumları ilə görüşə gələnlərin sayəsində artır. Britaniyalılar həmçinin xüsusi turlar üzrə Tailand, Sinqapur, Hindistan və Karib dənizi ölkələri kimi ekzotik ölkələrə uzaq səyahətlərə çıxırlar.

XX əsrin 70-ci illərində Böyük Britaniyaya gələn turistlərin miqdarı neft böhranına baxmayaraq durmadan artır və 1979-cu ildə yüksək həddə çatır (12.5 mln nəfər). Lakin 80-ci ilin əvvəlində azaldı, 1981-ci ildə - 11.4 mln qonaq təşkil etdi. Bundan sonra bu göstərici yüksələrək 1992-ci ildə 18.1 mln nəfər təşkil etdi. Sonrakı illərdə isə gələnlərin sayı durmadan artırdı. Bunu iqtisadiyyatda hökm sürən sabitlik, iqtisadi yüksəlişlə izah etmək olar. Xarici turizmdən gələn gəlirin də burada rolu az deyildi. 1995-ci ildə xarici qonaqların sayı 24 mln nəfər təşkil etdi, 1997-ci ildə bu rəqəm 26 mln-a qədər artdı. 1998-ci ildə Böyük Britaniyada beynəlxalq turizmdən götürülən gəlir 6 % artdı, yəni 1997-ci ildə götürülən 20.6 mlrd $-lıq gəlir müqabilində 1998-ci ildə götürülən gəlir 21.3 mlrd $ oldu. Xarici qonaqlardan götürülən gəlirə görə İngiltərə dünyada qətiyyətlə 5-ci yerdə gedir. 1990, 1995 və 1998-ci illərdə xarici turizmdən mədaxil üzrə onun reytinq göstəriciləri nisbətən aşağı səviyyədə qalır.



VİKTORİYA VƏ ALBERT MUZEYİ

Böyük Britaniyaya turistlər müxtəlif məqsədlərlə gəlirlər. Birinci yerdə məzuniyyətdir (43 %), ondan sonra işgüzar səfərlər (21 %), qohum və dostlarla görüş (21 %) gəlir. Qonaqların 50 %-i Avropa Birliyindən gəlir. Onlardan 40 %-i məzuniyyətə, 26 %-i işgüzar səfərə gəlir. Digər böyük xarici turist qrupu Şimali Amerikadan gələnlərdən formalaşır. Xarici turistlərin əsas hissəsini biznes-turistlər təşkil edir. Onlar əsasən böyük şəhərlərə, xüsusilə Londona üz tuturlar. Londonun payına ölkəyə gələnlərin 49 %-i, mədaxilin 63 %-i düşür. Hər il Londona 10 mln turist gəlir. Külli miqdarda xarici qonaq Temza vadisinə, Şotlandiyaya, Cersi-Uayt Men kurort adalarına və s. səfər edir. Turistlər İngiltərə krallarının tacqoyma mərasimləri keçirilən Vestminster abbatlığını, İ. Nyuton, Ç. Darvin və digər görkəmli şəxslərin dəfn olunduğu müqəddəs Pyotr qəbiristanlığını, Parlament binasını, Londonun Tauer zindanını, Bukingem sarayında təntənəli qarovul dəyişməsi mərasimini, Britaniya, Viktoriya və Albert muzeylərini və s. ziyarət edirlər. Londonda külli miqdarda gözəl tarixi meydanlar, parklar, abidələr və qəsrlər var. Vindzor sarayında Rubens, Leonardo da Vinçi, Rafael, Mikelancelo və digər görkəmli sənətkarların gözəl əsərlərinin əsli qorunub saxlanır. Bu sarayın yaxınlığında varlı ailələr üçün (təməli 1440-cı ildə qoyulmuş) İton kolleci yerləşir. İngiltərədə qədim adət və ənənələr bu günə qədər qorunub saxlanır.

Böyük Britaniya Birləşmiş Krallığı İngiltərə (paytaxtı London), Uels (Kardif), Şotlandiya (Edinburq), Şimali İrlandiya (Olster) kimi 4 hissədən ibarətdir. Birləşmiş Krallığın yaranma günü milli bayram kimi iyun ayının 1-də geniş qeyd edilir.

Şotlandiyanın iqlimi digər əyalətlərdən fərqlənir, Skandinaviya ölkələrinin iqlimini xatırladır. Ərazisinin böyük hissəsini dağlar təşkil edir. Gözəl təbiəti İsveçrə təbiətinə oxşayır. Şotlandiyanın adət və ənənələri özünəməxsusluğu ilə seçilir. Burada çoxlu turizm mərkəzləri var. Edinburq, Qlazqo, Aberdin, Pert kimi şəhərlər öz qədim tarixi, memarlıq abidələri, təbiətinin gözəlliyi ilə turistləri cəlb edir. Damfis şəhərində görkəmli Şotlandiya şairi Robert Bentli yaşamış və dəfn edilmişdir. Şimali İrlandiya müstəqil İrlandiyada turizmin inkişafına əhəmiyyətli yardım edib, indi də edir. Son dövrlərdə İrlandiyanın Şimal və Cənub hissələri arasında olan qarşıdurma və silahlı münaqişə turizm sahəsində qarşılıqlı əməkdaşlıqla əvəzlənərək hər iki tərəfə fayda gətirir. Hərbi münaqişəyə son qoyulduqdan sonra 1998-ci ildə İrlandiya respublikasına 6.1 mln turist səfər etmişdi (o cümlədən Böyük Britaniyanın digər əyalətlərindən), 1998-ci ildə İrlandiya beynəlxalq turizmdən 3.2 mlrd $ gəlir götürmüşdü. Əyalətlər üzrə turist axınları belə paylanırdı: ölkənin qərbi (İrlandiya) - 25 %, cənub-şərqi (London) – 12 %, Uels – 12 %, (Şimali Şotlandiya) – 11 %. Hər il 20 mln turist ölkə daxilində səfərə çıxır. Eyni zamanda britaniyalılar səyahət

sevən millətdir. Onların çoxu məzuniyyətini İspaniyada, Fransada, Yunanıstanda və Türkiyədə keçirir. Hər il 10-12 mln insan ölkəni tərk edir, 26-27 mln xarici qonaq gəlir. Böyük Britaniyada üst-üstə sutkada 1.1 mln qonağın yerləşdirilməsi üçün yer mövcud-dur. Britaniyaya səfərlərin artımını nəqliyyat xərclərinin azalması, turistlərin sosial tərkibinin genişlənməsi və yeni turizm mərkəzlərinin yaradılması ilə izah etmək olar.

Xaricə səfər edən britaniyalıların 75 %-i istirahətə, 12-13 %-i başqa məqsədlərlə gedir. Son illərdə britaniyalıların xarici turlarının müddəti orta hesabla 16 gün təşkil edirdi. Xaricə gedən britaniyalıların turizm xərcləri 1997-ci ildə - 27.7, 1998-ci ildə - 32.2 və 1999-cu ildə - 35.6 mlrd $ təşkil etmişdi. Hazırda isə bu rəqəm 60 mlrd $-ı ötüb.

### *3.3. FRANSA*

| | |
|---|---|
| **Rəsmi adı** | **Fransa Respublikası** |
| **Paytaxtı** | **Paris. Əhalisi 9.8 mln nəfər** |
| **Dövlət idarəçiliyi forması** | **Unitar Respublika. Prezident üsul-idarəsi.** |
| **Qanunverici orqan** | **Milli məclis və Senatdan ibarət iki palatalı parlament** |
| **İri şəhərləri** | **Lion, Marsel, Lill, Tuluza, Bordo** |
| **Ərazisi** | **543965 km$^2$** |
| **Əhalisi** | **63.8 mln nəfər (2007)** |
| **İqlimi** | **Mülayim** |
| **Dövlət dili** | **Fransız dili** |
| **Pul vahidi** | **Avro** |
| **Etnik tərkibi** | **Fransızlar-86 %, azsaylı millət olan basklar, Avropa İttifaqından və Şimali Afrikadan immiqrantlar-14%** |
| **Din** | **katoliklər-90 %, müsəlmanlar-5%, protestantlar-2 %, yəhudilər -1%, qalanlar -2%.** |
| **İnzibati ərazi quruluşu** | **90 departamenti birləşdirən 22 əyalət, ölkə xaricində 4 ərazi vahidi birliyi, 2 departament və 2 ərazi** |

Fransa Rusiyadan sonra Avropanın ən böyük ölkəsidir. Əhalinin 75 %-i şəhərlərdə, 25 %-i kənd yerində yaşayır. Ölkə ərazisi şimal-şərqdə alçaq təpəliklər və mərkəzi düzənlikdən cənub təpəlikləri və Aralıq dənizi sahillərinə qədər, Şərqdə Alp dağlarından qərbdə Atlantik okeana və cənub-qərbdə Pireney dağlarına qədər uzanır.

Martinika, Qvadelupa, Fransa Qvianası və Reyunyon adası ölkə ərazisindən xaricdə yerləşən departamentlərdir. Hind okeanında Mayotta adaları, Sakit okeanda Yeni Kaledoniya, Uollis, Futuna adaları və Fransa Polineziyası, Antarktidada ərazilər və Kanada sahilləri yaxınlığında Sen-Pyer və Mikelon ölkədən kənarda yerləşən ərazilərdir. Vaxtı ilə əzəmətli Fransa müstəmləkə imperiyasından yalnız bu torpaqlar qalıb. Fransa Əlcəzair, Tunis, Mərakeş, Seneqal, Kamerun, Vyetnam və Laos kimi sabiq müstəmləkələri ilə sıx əlaqə saxlayır.

Fransanı Böyük Britaniyadan La-Manş körfəzi ayırır. Fransa Almaniya, İspaniya, İsveçrə, İtaliya, Lüksemburq və Belçika ilə həmsərhəddir. Avropanın ən hündür zirvəsi Monblan (4867 m) Fransada yerləşir.

Fransa Avropa Birliyi və NATO blokunun üzvü, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür.

Fransızlar diribaş, hazırcavab və zarafatcıl insanlardırlar. Fransız həvəslə xasiyyətinin müsbət cəhətlərini nümayiş etdirməyə çalışır. Diskussiyaya girməyə, öz nöqteyi-nəzərində israrlı olmağa çalışır.

Fransız modası, fransız kosmetikası əslində həyat tərzidir.

Bəzən fransızları şovinizmdə günahlandırırlar, başqa millətlərə yuxarıdan aşağı baxmaqda ittiham edirlər, əslində bu ifratçılıq dərəcəsinə qaldırılmış vətənpərvərlikdən başqa bir şey deyil.

Hər bir fransız ana dilinə dərin ehtiramla yanaşır. Hələ XIII Lyudovikin vaxtında baş nazir kardinal Rişelye Fransa Akademiyasını təsis etmiş, ona fransız dili qaydalarını işləyib hazırlamağı, dili kənar təsir və dialektizmlərdən təmizləməyi tapşırmışdı.

Dilin saflığı məsələsi bu gün də gündəmdədir. Fransa Akademiyası dilin qorunması sahəsində fəal işləyir, informasiya texnologiyaları, kulinariya və kütləvi informasiya vasitələri sahələrində alınma sözlərlə mübarizə aparır.

1994-cü ildə qəbul edilmiş Qanuna əsasən ərzaq adları, etiketlər, reklam materialları və təlimatlar ancaq fransız dilində ola bilər. Radiostansiyaların repertuarında fransız musiqisi ümumi həcmin 40 %-dən az ola bilməz, Fransa telekanallarında filmlərin 60 %-i Avropa mənşəli, onların 40 %-i isə Fransa filmləri olmalıdır. Qanunu pozanlara qarşı şiddətli cərimələr sistemi tətbiq edilir.

Fransa mədəniyyətinin yaranma tarixini X əsrlə, Böyük Karl imperiyasının süqutu, habelə Qərbi Frank dövlətinin yaranması ilə bağlayırlar. Həmin dövrlərdə Fransada müəyyən ədəbi janr nümunələri

meydana gəlir. IX əsrdə məşhur filosof Skot Eriugen Fransa fəlsəfi fikrinin yaradıcısı olur. X əsrin sonunda yunan-Roma incəsənətinin təsiri Fransa memarlıq sənətinin inkişafına təkan verir, kilsə və imarətlər "Roman" adlanan üslubda inşa edilir. Tikililər öz sərt görünüşü ilə seçilirdi. Möhtəşəm Kluni abbatlığı (910) və Sen-Filber (979-1019) kilsəsini nümunə gətirmək olar.

Orta əsrlər naqqaşlığı və heykəltəraşlığı əsasən kilsə tərtibatı ənənələri ruhunda formalaşır. Kilsə və monastırlar müqəddəslərin əksləri ilə bəzədilir. Şifahi xalq ədəbiyyatında isə "Roland haqqında nəğmələr" adlı epos tipli əsərlər üstünlük təşkil edir. Qəhrəman sərkərdədən bəhs edən bu əsər sonralar bütün Fransa mədəniyyətinin formalaşmasında əvəzolunmaz rol oynamışdı. Roland haqqında epos bir çox Avropa xalqlarının mədəniyyətlərinin inkişafına böyük təsir göstərmişdi. XI əsrdə qəhrəmanlıq ideologiyasının əvəzinə səhnəyə cəngavərlik ideologiyası gəlir. Daha çox lirik və poetik məzmunla ifadə olunan bu janrda Bertran de Borna (1140-1215), Bernard de Bentadot, Arnaut Danielin əsərləri böyük şöhrət qazanmışdı. XII əsrin sonlarında şəhərlərin böyüməsi nəticəsində şəhər ədəbiyyatı meydana gəlir. Qilyom de Loris və Jan de Monun "Roza haqqında romanı" həmin sıradandır. Fransada ədəbiyyat və memarlıqla yanaşı dram yaradıcılığı da inkişaf edir. Dini mövzuları əhatə edən dram əsərləri daha çox yayılmışdı, "Müqəddəs Nikolay haqqında" dramını (1200) misal gətirmək olar. Əsrin ortalarında isə realizm üslubu cizgilərini özündə əks etdirən "Roben və Marion haqqında rəvayət" kimi pyeslər meydana gəlir. XII əsrdə Parisdə ilk universitet yaranır. Sonralar onun adını Sorbonna qoyurlar. XII-XIV əsrlərdə Tuluza, Qrenobl və Doledə yaranan universitetlər bir çox ədəbi janrların formalaşmasına təkan vermişdi. XII əsrdə memarlıqda yeni üslub formalaşır. "Roman" üslubundan fərqli olaraq qotik adlanan bu üslubda tikilən binaların pəncərələri daha geniş və hündür idi. Orta əsrlərdə qotik üslub Avropanın aparıcı memarlıq üslublarından birinə çevrilir. Paris yaxınlığında Sen-Deni abbatlığı (1137-1144), Lann şəhər kilsəsi (1160-1215) və Paris Notr-Dam kilsəsi (1163-1257) erkən qotik yaradıcılığı nümunələridir. Qotik üslubda yüksəldilən binaları bəzəyən heykəltəraşlıq nümunələri də üslubun təsirinə məruz qalır.

Qonşu dövlətlərin mədəniyyəti də Fransa mədəniyyətinin inkişafına öz təsirini göstərmişdi. Möhtəşəm, nəfis Luara qəsrləri, Versal və Fontenblo saray komplekslərinin quruculuğunda İntibah dövrü italyan rəssamları və memarlarının təsiri duyulur. İntibah dövrü eyni zamanda fəlsəfi təfəkkürün formalaşmasında da böyük rol oynayır. Humanist prinsiplərə əsaslanan Rable (1494-1553), Viyyon (1431-1463), Ronsar (1524-1585), Monten (1533-1592) yaradıcılığı buna parlaq misaldır. Gözəlliyin tərənnümü olan İntibah dövrü fəlsəfəsi bütün Avropada geniş yayılmışdı.

Limburq qardaşları (1416-1434), Slüter (1406) və Ver (1380-1439) kimi sənətkarların yaradıcılığında miniatür əsərlər daha gözəl və nəfis alınır, mehrab rəsmlərində insan cizgiləri daha dəqiq verilir, əsərlərdə realizm üslubu ünsürləri daha çox gözə çarpır.



VERSAL

XV əsrdə Fuke, Şarandon və Fromantın təsiri altında realizm daha çox yer alır. XVI əsrdə antik və italyan intibahının təsiri altında Fransa intibahının yeni sahələri inkişaf edir. Opera musiqi yaradıcılığının aparıcı janrına çevrilir. İtalyan operasından fərqli olaraq o dövrün məşhur fransız bəstəkarları Ramo, Dandriye və Kuperenin operalarında vokal ifaya nisbətən məzmuna daha çox üstünlük verilir.

XVIII əsrdə təsviri sənətdə, Buşe, Natye, Drue kimi rəssamların, Lemuan kimi heykəltəraşların yaradıcılığında rokoko üslubu inkişaf edir. XIX əsrdə baş vermiş Böyük Fransa inqilabı Şatobrian (1768-1848), madam de Stal (1766-1817), Nadye (1780-1844), Lamartin (1790-1869), Viktor Hüqo (1802-1885), Aleksandr Düma (1802-1870), Jorj Sand (1804-1876) kimi görkəmli ədiblərin yaradıcılığına böyük təsir göstərir. XIX əsrin sonu - XX əsrin əvvəli Fransa təsviri sənətinin çiçəklənmə dövrüdür. Fransada neoimpessionizm, sürrealizm, postmodernizm, realizm və başqa janrlar inkişaf edir. Fransada yaşayıb yaratmış Pol Sezann (1839-1906), Vinsent van Qoq (1853-1890), Pol Qogen (1848-1903), Pablo Pikasso (1881-1973), Moris Utrillo (1883-1955), Raul Düfi (1877-1953) kimi görkəmli rəssamların yaradıcılığı ölkəyə dünya şöhrəti gətirir. Fransa mədəniyyəti dünya mədəniyyətinə yüksək dərəcədə təsir göstərmişdir.

Fransada mədəni asudə vaxtın, istirahət və əyləncənin təşkili hazırda Avropa ölkələrindən fərqli olaraq, məzmun etibarilə yeni mahiyyət kəsb edir və müsbət nümunə kimi ictimaiyyətin diqqət mərkəzində dayanır. Bu baxımdan Fransa burjua inqilabının kütləvi şəkildə teatrlaşdırılmış bayramlarının keçirilməsi mədəni asudə vaxtın səmərəli və məzmunlu təşkilində mühüm əhəmiyyətə malikdir. Belə ki, bu bayramlar tarixilik və varislik baxımından Fransa xalqının milli və dini xüsusiyyətlərini, adət ənənələrini parlaq şəkildə özündə əks etdirir.

Fransada belə tədbirlərə dövlət səviyyəsində xüsusi qayğı göstərilir, bu iş üçün böyük məbləğdə maliyyə vəsaiti ayrılır. Bu tədbirlərin keçirilməsində yüz minlərlə əhali böyük ruh yüksəkliyi ilə, həm də xoş əhval-ruhiyə ilə iştirak edir. Adətən belə bayramlarda tamaşaçı - iştirakçı ayrılığı olmur. Yüksək peşəkarlıq qabiliyyətinə malik tərtibatçı rəssamlar, rejissorlar, bəstəkarlar və ssenaristlər bayramların keçirilməsi və təşkilində fəal surətdə iştirak edir, tədbirin effektini və təsir gücünü artırırlar. Onu da qeyd etmək lazımdır ki, belə bayramlarda nəhəng dekorlaşdırılmış canlı qruplardan, hərbi texnikadan, döyüş arabalarından, inqilabi marş və mahnılar ifa edən orkestrlərdən, həmçinin müxtəlif cür teatr maskalarından geniş və lazımınca istifadə olunur. Bu bayramlar əsasən burjuaziya və xalqın feodalizm quruluşunun qalıqları ilə, inqilabi mübarizənin əsas inkişaf mərhələlərini özündə nümayiş etdirir. Fransanın Paris, Versal və digər şəhərlərində keçirilən ”Federasiyalar bayramı”, “Bayraqlar günü”, “İdrak bayramı” və s. bayramlarda Fransa milli bayram libasına bürünür. Bu bayramlar xalqın yaddaşında uzun müddətə həkk olunur. Məsələn, “Federasiyalar bayramı” Mars çölündə keçirilir və Bastiliyanın alınmasının ildönümünə həsr edilir. Mars çölündə 83 departamentin nümayəndələri zəfər paltarlarında iştirak edirlər. Çıxış etmək üçün tribunalar qurulur.

“Konstitusiya” sözləri həkk olunan qədim barelyeflərlə bəzədilmiş geniş pilləli, əzəmətli “Vətən mehrabı” abidəsi ucaldılır. Abidələrin önündə andiçmə mərasimi keçirilir və az sonra isə milli geyimdə olan qoşun bölmələri silahlardan atəş açır, şeypurlar və təbillər səslənir, topların gurultulu atəşi aləmə səs salır, bayraqlar yüksəklərə qaldırılır.

Fransada ən yaxşı təşkil edilən kütləvi bayramlardan biri də “Ali varlıq” bayramıdır. Bu bayramda Paris şəhəri başdan-başa gül-çiçək dənizinə qərq olunur. Parisin bütün evləri yaşıl budaqlara, gül-çiçəyə və üç rəngli lentlərə bürünür və səhər tezdən saat $5^{00}$-da təbilçilər Paris xalqını bayrama çağırırlar. Təbillərdən sonra bütün kilsələrdə zənglər çalınır və saat $8^{00}$-də yürüşün başlanmasına işarə verən ilk top atəşi açılır, bütün bayram iştirakçıları Tyuilri bağının xiyabanları boyunca hərəkət etməyə başlayırlar. Bağın hovuz istiqamətində isə əvvəlcədən nəzərdə tutulan, təxminən 2400 nümayəndəni əhatə edən uşaqlar, gənclər və qocalardan ibarət qarışıq xor dəstəsi öz yerini tutur. Az sonra hovuzun yanında müvəqqəti örtüklə örtülü heykəl hamının diqqətini özünə cəlb edir. Robespyerin nitqindən sonra xalq, “Ali varlıq” himnini oxuyur və rəhbərin işarəsinə uyğun olaraq minlərlə səs orkestrin və xorun səsinə qovuşur. Bundan sonra heykəlin örtüyü yandırılır və alovlar içərisindən müdrikliyin parlaq heykəli öz əzəmətli baxışı ilə tamaşaçıların diqqətini özünə cəlb edir.

Beləliklə, Robespyerin nitqinin ikinci hissəsi başlayır. Bu proloqun ardınca isə bayramın əsas hissəsi - Mars çölünə yürüş, təntənəli andiçmə mərasimi və mitinq başlayır. Təbil sədaları altında bütün hissələr Tyuilri bağından Mars çölünə doğru hərəkət edir, 48 bölmədən ibarət Konvent üzvləri - vəkillər şurasının üzvləri nümayişin ortası ilə hərəkət etməyə başlayırlar. Az sonra onlar içərisində ruh və bədən üçün zəruri əşyalar olan qırmızı arabanı əhatəyə alırlar. Konvent üzvləri Mars çölündə ucaldılmış nəhəng qurğunun zirvəsinə doğru hərəkət etməyə başlayırlar. Sonra 2400 nəfərdən ibarət qarışıq xor dəstəsi Mars çölündə müqəddəs andın sözlərindən ibarət olan himn oxuyurlar. Üç dəfə təkrar olaraq “zalımları məhv etməli” andı səslənir və bunun ardınca yüz minlərlə adam orkestrin sədaları altında neçə min illər həsrətində olduqları “Bərabərlik”, “Qardaşlıq” mahnılarını oxuyurlar. Qeyd etmək lazımdır ki, hazırda Fransa burjua inqilabının teatrlaşdırılmış şəkildə nümayişi və bayramların qeyd edilməsi, Fransada maddi mədəniyyət abidələrinin və memarlığın inkişafında güclü təkana səbəb olur. Fransa burjua inqilabı bayramlarının teatrlaşdırılmasının əhəmiyyəti ondadır ki, onlar parlaq inqilabi xarakter daşıyır və xalqın müasir həyatda ümidlə yaşamasına inam hissi oyadır. Eyni zamanda bu bayramlar əsl həqiqi inqilabi ruhda keçirilərək yeni tipli bayramların başlanğıcını qoyur.

Hazırda Fransada mədəniyyət və istirahət parkları da əhalinin istirahət və əyləncəsi üçün əsas sahələr hesab olunur. Burada dövlət park sistemi başlıca üç əsas məsələni həll edir:

1. Diqqətəlayiq və baxımlı yerlərin mühafizəsi.
2. Təbiət qoynunda insanların istirahət və əyləncəsinin təşkili.
3. Təhsil.

Fransada şəhər parkları əsasən üç tipə bölünürlər: mini parklar, qonşu parklar, ictimai parklar. Mini parklar bütün yaş qruplarına aid olan adamlara, xüsusilə də azyaşlı uşaqlara xidmət göstərmək üçün salınıb. Bu meydançalar oyunlar keçirmək üçün böyük bir bağı xatırladır. Burada təchiz olunmuş uşaq şəhərciyi, voleybol, böyük tennis və s. üçün meydançalar qurulur. Bu meydançalar 1 akrdan 4 akra qədər olan ərazini əhatə edir (1 akr = 0.4 h = 4000 $m^2$)

Şəhərin siması üçün ən vacib parklardan biri də qonşu parklar hesab olunur. Bu parklarda yaş qrupundan asılı olmayaraq bütün adamlar öz istirahət və əyləncələrini təmin edir, sərbəst olaraq gəzinti marşrutlarını müəyyənləşdirirlər. Parkda yarış keçirmək üçün meydançalar, müxtəlif idman növləri və eləcə də üzgüçülük üçün hovuzlar, attraksionlar rahat istirahət məqsədi üçün yaradılmışdır. Bu parklar sahəsi 4 akrdan 6 akra qədər olan ərazini əhatə edir.



PARİS. AVRODİSNEYLEND

Fransada ictimai parklar da böyük xalq kütləsini özünə cəlb edir və hazırda populyarlıq baxımından əhəmiyyətlidir. Burada adamlara oyun meydançaları, üzgüçülük sahələri, velosiped və gəzinti üçün xüsusi yolların olması sağlam istirahət və əyləncənin təşkilinə şərait yaradır. Oyunlar üçün nəzərdə tutulmuş meydançalarda qolf, futbol və s. idman oyunları və müxtəlif spesifik məşğələlər keçirilir. Bu parkda istirahət üçün yaradılmış şəraitlə bərabər maşın dayanacaqları üçün kompleks şərait yaradılmışdır. Belə parklar 15-20 akr ərazini əhatə edir.

Hazırda Fransada böyük əraziləri əhatə edən nəhəng parklar da mövcuddur. Belə parklardan biri də Avrodisneylend attraksionlar parkıdır. Bu park əhalinin mədəni istirahətinin təşkilində mühüm əhəmiyyətə malikdir.

Qərbi Avropanın ən böyük parklarından biri hesab olunan Meqapolis attraksionlar parkı kütləvi tədbirlərin keçirilməsi baxımından da diqqəti cəlb edir. Belə ki, bu parkın ərazisində olan attraksionlar fransız nağılları və əfsanələr aləmi ilə bağlıdır ki, uşaqlar və böyüklər arasında böyük nüfuz qazanmışdır. Bu park uşaqların və yeniyetmələrin mədəni asudə vaxtının məzmunlu təşkilində böyük əhəmiyyət kəsb edir. Parisin Tramdle qəsəbəsində iri gül formasında idman parkı salınmışdır ki, simvolik olaraq bu "gülün ləçəkləri"ndə çoxlu idman və oyun meydançaları rəmzi olaraq əks olunub. Parisdəki Florali parkı da çox maraqlı parklardan hesab olunur. Onu da deyək ki, bu park beynəlxalq gül sərgisinin keçirilməsi ilə əlaqədar olaraq açılmışdır. Parkın baş bölgəsi gül vadisidir. Onun estetik gözəlliyi və bədii təsiri insanları heyrətə gətirir və onlarda estetik qabiliyyətləri formalaşdırır. Parkda təbiəti sevənlər, bağbanlıq dərnəkləri, kiçik yaşlı məktəblilər üçün təbiətin öyrənilməsi və mühafizəsi üzrə müxtəlif dərnəklər fəaliyyət göstərir. Park uşaqlarda təbiətə qayğı münasibətini formalaşdırır. Bu parkda sağlamlıq kurort kompleksi də fəaliyyətdədir.



PARİS. LUVR

Hazırda Fransada 100-dən çox idman-sağlamlıq kompleksləri fəaliyyət göstərir. Onu da qeyd edək ki, kütlələrin asudə vaxtının təşkilində Fransa muzeyləri əsas fəaliyyət mərkəzlərindən hesab olunur. Fransada irili-xırdalı 6 mindən çox muzey fəaliyyət göstərir ki, bu isə Fransanın tarixi keçmişinin gənclərə aşılanmasında, onlarda tarixi mədəniyyət abidələrinə marağın daha da artmasına əsas vasitə hesab edilir. Məhz bu muzeylərdən biri də Fransanın Luvr muzeyidir. Luvr dünyada məşhur olan əzəmətli gözəl saray və muzey kompleksidir. XII əsrin axırı, XIII əsrin əvvəllərində yadelli basqınlardan qorunmaq məqsədi ilə Site adasının Şimal Qərbində bir qala tikilir. XIV əsrdə həmin qala öz hərbi funksiyasını itirir və bunun nəticəsində şəhər ətrafında müdafiə xarakterli qala divarları ucaldılır. Orta əsrlərin tikinti nümunəsi olan bu qala təəssüf ki, bu günə qədər qalmamışdır. Fransız intibahının xarakterik abidəsi olan bu qalanın bütün mərtəbələri memarlıq baxımından yüksək ustalıqla tikilmiş, gözəl heykəl və barelyeflərlə bəzədilmiş və ən gözəl ansambllarından biri hesab olunur.



LUVR MUZEYİ

Luvr sarayında Kariatid salonu və Apollon qalereyası daha maraqlıdır. Sarayın Lesko hissəsinə birləşən Kariatid salonu (XVI əsr) Luvrun ən qədim salonu hesab edilir. Salon öz adını Jan Qujonun dörd Kariatid işindən götürülmüşdür. Onlara tamaşa edəndə antik nümunələrin intibah Fransası üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu dərk edirsən.

Hazırda Luvr kolleksiyalarının sayı 250 mindən artıqdır. Cəsarətlə qeyd etmək olar ki, dünyanın ən məşhur muzeyləri arasında yalnız Luvr Qərbi Avropa və Şərq incəsənətinin inkişafı altında dolğun məlumatlarla zəngin olan yeganə muzeydir. Burada aşağıdakı şöbələr fəaliyyət göstərir:

1. Rəngkarlıq;
2. Qədim Misir;
3. Qədim Şərq;
4. Yunanıstan və Roma;

5. Heykəltəraşlıq (orta əsrlərdən XIX əsrə qədər);
6. Tətbiqi sənət.

Bundan başqa muzeydə rəsm və incəsənət kabineti də fəaliyyət göstərir. Bir çox dünya muzeylərində olduğu kimi Luvr ekspozisiyasında da xronoloji prinsip və milli sənətkarlıq məktəbləri nəzərə alınmışdır.

Fransada hazırda İmpressionizm muzeyi və s. də fəaliyyət dairəsi ilə geniş tamaşaçı diqqətini özünə cəlb edir. Bu muzey 1947-ci ildə açılmışdır. Fransada hazırda bir çox muzeylər fəaliyyət göstərir. Belə muzeylər içərisində Rodan muzeyi, Vurdel atelyesi, Müasir milli incəsənət muzeyi dünya incəsənəti nümunələrinin təbliğində əhəmiyyətli rol oynayır. Bu muzeylərdə fransız tamaşaçıları həm də Azərbaycan sənətkarlığı nümunələri ilə tanış olurlar. Belə ki, buradakı Azərbaycan sənətkarlıq nümunələri içərisində toxuculuq sənəti nümunələri xüsusi yer tutur. Şamaxı, Şəki, Gəncə, Naxçıvan, və Təbriz kimi şəhərlərdə toxunmuş yüzlərlə keyfiyyətli parçlarımız bu muzey və şəxsi kolleksiyalarda saxlanılır. Bunların içərisində XVI-XVII əsrlərə aid olan süjetli xalçalarımız xüsusi yer tutur. Məsələn, görkəmli fransız sənətşünası Qaston Mijon özünün "Müsəlman incəsənəti" kitabında bu parçaların gözəlliyinə məftun olduğunu etiraf edərək oradakı bəzəkləri belə qiymətləndirmişdir: "Onlar elə bil, "Min bir gecə" nağıllarına çəkilmiş illüstrasiyalardır".

Parisin dekorativ sənətlər muzeyində nümayiş etdirilən XVI əsrdə Təbriz toxucuları tərəfindən hazırlanmış ipək parça böyük maraq doğurur. Bu parçanın al-qırmızı yerliyi üzərində "qızılbaşlara" məxsus paltar geymiş gənc atlı təsvir edilmişdir. Atlı öz kəməndi ilə bir nəfəri darta-darta hara isə aparır. Əsir düşmüş həmin şəxsin geyimi, başındakı araqçını, mil-mil xalatı və etnik tipi onun Orta Asiya xalqlarına mənsub olduğunu bildirir. Bu parça əvvəllər İstanbulda əntiq mallar alverçisi M. Kələkyanda olmuş, sonra o, parçanı bir neçə hissəyə bölərək müxtəlif şəxslərə satmışdır. Hazırda bu parçanın bir hissəsi Kiyevdə Şərq və Qərb incəsənəti muzeyində, bir hissəsi isə Moskvadakı Şərq xalqları incəsənəti muzeyindədir. Fransada saxlanılan bədii parçalarımızın süjetlərinin Azərbaycanın tarixi ədəbi irsi, folkloru ilə sıx bağlı olduğunu Parisdə cənab Luvinin şəxsi kolleksiyasında saxlanılan məxmər əyani şəkildə təsdiq edir. Məxmərin üzərində böyük bir daşın iki əllə yuxarı qaldıraraq ağaca tərəf yaxınlaşan əjdaha üzərinə atmaq istəyən bir gəncin təsviri verilmişdir. Məxmərin üzərindəki bu süjet eyni ilə Moskvada Kremlin Silah palatasında saxlanılan parçadakı və Türkiyənin İzmir şəhərindəki Arxeoloji muzeydə nümayiş etdirilən vazadakı süjeti təkrar edir.

Azərbaycanın həm bədii, həm də texnoloji cəhətdən ən dəyərli xalçaları hazırda Parisin Dekorativ sənətlər və Luvr muzeyindədir. Beləliklə, Fransanın muzeyləri bu gün dünya sənətkarlığı nümunələri ilə zəngin olmaqla, tamaşaçı ünsiyyətini yaradır, əhalinin mədəni asudə vaxtının təşkili işində əhəmiyyətli rol oynayır.

Hazırda Fransa Avropanın ən inkişaf etmiş ölkəsi kimi ali təhsil sistemi üzrə Avropa İttifaqına daxil olmuşdur və bu çərçivədə fəaliyyət göstərir. Bu İttifaqa eyni zamanda başqa dövlətlər kimi Azərbaycan da müstəqil bir dövlət kimi daxil olmuşdur. Bu təhsil proqramı 1996-cı il dekabrın 1-dən fəaliyyətə başlayır. Proqramın adı "TEMRUS TACİS" adlanır. Bu proqramda başqa dövlətlər kimi Azərbaycan da təhsil sistemində Avropa çərçivəsində öz milli təhsil konsepsiyası ilə çıxış edir. Bu isə hazırda müstəqillik əldə etmiş respublikamız üçün mühüm əhəmiyyətə malikdir. TEMRUS TACİS proqramının əsas məqsəd və vəzifələri aşağıdakı kimidir:

- iştirakçı ölkələrdə ali təhsilin keyfiyyətini yüksəldilməsi, təkmilləşdirilməsi və yeni inkişaf prinsipləri əsasında qurulması;
- Avropa İttifaqı çərçivəsində olan ölkələrin ali təhsil müəssisələrinin köməyi ilə təhsil proqramlarının əlaqələndirilməsi;
- TEMRUS aşağıdakı istiqamətlərlə də mərkəzləşdirilmişdir;
- Təhsil proqramlarının yenidən işlənməsi və fənlərin konkret əsaslarda dəqiqləşdirilməsi;
- Ali təhsil müəssisələrində yeni islahatlar aparılması və elmi əsaslarda idarə edilməsi;
- iqtisadiyyatın yeni sahələri üzrə hazırlıq işlərinin aparılması.

TEMRUS proqramının "Menecment və biznes" bölməsində "Turizm və mədəni asudə vaxt" sahəsi əsas istiqamətlərdən biri götürülür. Beləliklə, belə bir nəticəyə gəlmək olur ki, Fransa Avropanın ən inkişaf etmiş mədəni dövlətlərindən biri kimi dünya mədəniyyətində özünəməxsus yer tutmaqla, Avropa İttifaqı çərçivəsində TEMRUS təhsil proqramına qoşulmaqla dünya elmi və mədəniyyətin inkişafına güclü təkan verir. Bu problem təkcə fransızları deyil, bütün bəşəriyyətin qarşısında duran başlıca məqsəddir. Çünki gələcəyin cəmiyyəti - mədəni asudə vaxtda istirahət və əyləncəyə, eyni zamanda təhsilə doğru yönəldilmiş bir cəmiyyət olacaqdır.

Fransa uzun müddətdir ki, Avropada, habelə dünyada turist gəlişlərinə görə ön mövqedə durur. Lakin birinciliyə aparan yol çətin və ağır olmuşdur. Keçən əsrin 60-cı illərindən ölkədə turizmin inkişafı proqramı işlənib hazırlanmış və plana görə Fransa hökuməti ölkənin işgüzar adamları ilə birgə

Akvitaniyada kənd məskənlərinin və turizmin inkişafı planını qəbul etmişdir. Plan əsasında burada sahil zonası 16 əsas sektora bölünmüş, onlardan doqquzunda turizm sahəsinin inkişaf etdirilməsi, yəni çimərliklər, göllər-də istirahət zonaları, idmanın su növləri üçün yaşayış yerlərinin tikilməsi nəzərdə tutulmuşdu. Yaşıl zolaqlar adlanan digər 7 zonada coğrafi landşaftı, ölkənin yerli təbiətini qoruyub saxlamaq nəzərdə tutulurdu. Plana görə Arkaşon, Biarits kimi artıq mövcud olan kurortlar qorunub saxlanılmalı, Lakano kimi məskənlər genişləndirilməli, Moliyets kimi yeni kurortlar tikilməli idi. Yeni yaşayış yerlərinin planlaşdırılması və tikintisi ölkədaxili turizmin tələbatını təmin etmək məqsədi güdürdü. 1982-ci ilə qədər ölkənin yerləşdirilmə yerlərinin 28%-i istirahət düşərgələrində yerləşirdi. Mehmanxana və qonaq evlərinin payına onların 13 %-i düşürdü, 46 %-i isə "ikinci dərəcəli evlər" adlanan müəssisələrin payını təşkil edirdi. Layihə həyata keçdikcə, hətta iqtisadi tənəzzül illərində belə turizm sürətlə inkişaf etməyə başladı. 80-ci illərdə "Lyuks" tipli mehmanxanalar ƏDV-nin artması ucbatından qiymətləri qaldırmaq, yaxud yüksək kateqoriyadan imtina etmək məcburiyyətində qaldı. Bu da məhz bu kateqoriyadan olan mehmanxanalara gələn xarici turistlərin sayını azaltdı. Lakin hökumət tezliklə vəziyyəti düzəltmək üçün turizm sahəsində ƏDV-ni aşağı saldı.

Hazırda Fransada bütün sahələrdə ƏDV 22% təşkil edirsə, turizm sahəsində 12 faizdən çox deyil, bu da həmin sahədə işgüzarlığın inkişafına yardım edir.

Langedok-Russilyon sahil zolağı XX əsrin 60-cı illərinə qədər istirahət və turizm üçün əlverişli bölgə hesab edilmirdi. 1964-cü ildə Fransa hökuməti turizm sektorunun inkişafını təsdiq etmək məqsədi ilə bölgənin inkişaf proqrammı işləyib hazırladı. Proqrama görə turizm məskənlərini sürətli avtomobil yolları ilə birləşdirən yolların tikintisi nəzərdə tutulmuşdu.

Şimal kurortları qrupu tarixi Ajua-Morte şəhərin-dən qərbə və cənuba 20 km uzanan qumsal dəniz sahili ərazisində yerləşir. 1990-cı ildə bölgədə turizmin inkişafı üçün nəzərdə tutulmuş vəsaitin 24%-i onun inkişafına ayrılmışdı. Əvvəllər tikilmiş kurortlardan turistlər Sarnon və Palava kurortlarına daha çox üstünlük verirlər. Kamarq və La-Qrand-Mot kurortları isə bu yaxınlarda istifadəyə verilib.

Məşhur yaxta klubuna malik olan La-Qrand-Mot böyük kurortdur. Ümumi "TU" adı ilə tanınan digər kurortlar qrupu 30 km uzanan sahil zolağında yerləşir. O, Set, Meze, Marsel kimi nisbətən qədim kurortlardan və yeni Kap d'Anq kurortundan ibarətdir. "Tu" gölündə su idman növləri inkişaf edib. Bölgədə mövcud olan yerləşdirmə yerlərinin 25 %-i bu kurortlar qrupuna məxsusdur. Ondan sonra Valras-Qrussan, Lüka-Barkares qrupu (bölgənin yerləşdirilmə yerlərinin 2 %-i və Barkares şəhəri yaxınlığında gözəl yaxta klubu) və Kane-Ajeles qrupu (bölgə yerləşdirilmə yerlərinin 13 %-i) və qrupun mərkəzi kurortu Sensipriyen (yaxta klubu) gəlir. Bölgə iqtisadiyyatı üçün turizmin əhəmiyyətini dərk edən Fransa hökuməti riskə gedərək avtomobil yolu şəbəkələrinin inkişafına böyük sərmayə vəsaiti yatırtdı, halbuki belə sərmayələr heç də həmişə səmərə vermir. Sürətli avtomobil yollarının tikintisi özünü doğrultdu, yerli və xarici turist axınlarının sürətli artımına təkan verdi. Langedok-Russilyon bölgəsi əsasən ölkədaxili turistlərə xidmət edir. 1986-cı ildə qonaqların 88 %-i fransızlar təşkil etmişdi. 1992-ci ildə daxili bazarın tur/günlərinin ümumi sayından 54 mln-u bölgənin payına düşürdü. Fransa bazarı digər ölkələrin daxili bazarından fərqlənir. Fransızların cüzi hissəsi (18 %-i) xaricdə istirahət etməyə üstünlük verir. Burada məzuniyyət və tətil mövsümləri üst-üstə düşərək dəqiq çərçivə ilə (iyul, avqust) məhdudlaşır. Qısa Milad bayramı və qış tətillərində, pasxada turist bazarında xüsusi canlanma yaranır. Fransızların əksəriyyəti (81 %) avtomobil səyahətlərini seçir. Şəhər əhalisi təbiətin qoynunda, kənd yerlərində istirahət etməyə can atır. Odur ki, Fransada kənd turizminin inkişafına böyük diqqət yetirilir. Bu məqsədlə füsunkar təbiət qoynunda yüzlərlə istirahət düşərgələri salınıb, yay mövsümündə buralar ağzına qədər dolu olur. Qış mövsümündə mehmanxanalara tələbat qismən aşağı olur.

Fransızların 50 %-i yay məzuniyyətini sahil zolağında, 25 %-i kənd yerində keçirir. 17 %-i dağlıq kurortlara üstünlük verir. Qışda mənzərə dəyişir: dəniz kənarında fransızların 17 %-i, kənd yerində 28 %-i, bağlarda isə 40 %-i istirahət edir. Xarici səyahətlərə gəldikdə, fransızların yalnız 5 %-i paketurlara və 6 %-i avtonəqliyyat səyahətlərinə üstünlük verir. Yay mövsümündə İspaniya və İtaliyaya səyahətlər böyük rəğbət qazanıb (yay səyahətlərinin 40 %-i). 1991-ci ildə İspaniya Fransadan 8 mln, İtaliya isə 7.3 mln turist qəbul etmişdi. Son dövrlərdə fransızlar ABŞ, Asiya, Karib dənizinin Fransız adaları və Fransa Polineziyasına uzaq səyahətlərə çıxırlar. 1986-cı ildə qonaqların sayı 29 mln-dan 70 mln-a qədər artmışdı. Fransaya gələn qonaqların əksəriyyəti (25 %) Almaniyadandır. Ondan sonra Böyük Britaniya, Belçika, İsveçrə, Niderland, İspaniya və b. gəlir.

Fransaya gələn turistlər Fransa Rivyerası mehmanxanalarında (mehmanxanalarda 35 mln tur/gün), Paris-də (15.5 mln tur/gün), Alp dağlarında, Akvitaniyada (mehmanxana və turist düşərgələrində 6 mln tur/gün) və Langedok-Russilyonda (mehmanxana və turist düşərgələrində 6 mln tur/gün) istirahət etməyə üstünlük verirlər.

Fransada turizmin dövlət tərəfindən tənzimlənməsi bölgələrin iqtisadi inkişafına yönəlib, bu məqsədlə kənd məskənlərinin inkişafı üçün böyük işlər görülür. Yay mövsümündə bu yerlərdə istirahət

müddətinin uzadılması üçün tədbirlər nəzərdə tutulub. Bölgələrin müstəqil siyasət yürütməsi Fransa turizmi üçün səciyyəvidir. Fransa hökuməti təşəbbüsün aşağılardan gəlməsi, bölgələrin iqtisadiyyatının inkişafı istiqamətində böyük işlər görüb. Turizm sahəsində ən bacarıqlı mütəxəssislər turizmi inkişaf etdirmək üçün bölgələrə göndərilir. Fransanın dünyada ən çox ziyarət olunan ölkə olması təsadüfi deyil. Avropada istirahət edən, əsasən Avropadan gələn qonaqların beşdə birini Fransa qəbul edir. Ən güclü turist mübadiləsi Almaniya, Böyük Britaniya ölkələri ilə gedir. Fransanın əsrarəngiz təbiəti, təkrarı olmayan memarlığı, tarixi şəhərləri, dünya şöhrətli mədəniyyəti, dəbdə olan malları, gözəl yeməkləri və şərabları onu turistlər üçün olduqca cazibədar edir. Fransanın Alp dağları, alçaq dağ silsilələri, dağlıq yaylaları, 3 mln km məsafədə uzanan dəniz sahilləri, geniş düzənlikləri qüdrətli turizm resurslarıdır. Qonaqların əksəriyyətini Fransaya Aralıq dənizinin qumsal sahilləri, mavi körfəzləri, kölgəli meşələr, ölkənin incəsənətinə və mədəniyyətinə olan maraq cəlb edir. Ölkənin siyasi, mədəni mərkəzi olan Parisi ziyarət etmək hər bir insanın arzusudur. Nəhəng, nəfis Parisin heç bir başqa şəhərlərlə oxşarlığı yoxdur. O, insanları bütün dünyadan özünə çəkir. Bəxti gətirib Parisdə olmaq imkanını qazanan insan ömür boyu burada keçirdiyi günləri unutmur. Azadlıq pərəstişkarı olan istedadlı fransız xalqı öz bacarığı və sülhsevərliyi sayəsində Fransa və Paris haqqında dünya turistləri üçün heyrətamiz, qeyri-adi parlaq təsəvvür yarada bilmişdir. Turist ziyarəti üçün qapıları həmişə açıq olan Parisin çoxsaylı abidələri arasında ən məşhuru 1889-cu ildə tikilmiş Eyfel qülləsidir. Bu gün mühəndis Eyfelin portreti 200 franklıq pul əsginasını bənzəyir. Eyfel qülləsini (hündürlüyü 318 m) birləşmiş Avropanın təcəssümü hesab edirlər. 1996-cı ildə qülləni 5.5 mln qonaq ziyarət etmişdi (25 mln frank gəlir).



**PARİS. EYFEL QÜLLƏSİ**

Parisin digər diqqətəlayiq yeri Luvrdur. Bu gün Luvr dünyanın ən böyük muzeyi, klassik incəsənət məbədidir. 1996-cı ildə Luvru 4.7 mln insan ziyarət etmişdi. Elm və texnika şəhəri olan La-Vilyet (1996-cı il-də 3.9 mln qonaq), fransız saray memarlığının şah əsəri Versal (2.9 mln qonaq), impressionistlərin əsərləri toplusu cəmlənmiş D'Orse muzeyi (2.1 mln qonaq) və başqaları qonaqların xüsusi rəğbətini qazanıb.

Fransa Rivyerası ölkənin cənubunda yerləşir. Eni 20 km, uzunluğu 230 km olan ensiz zolaq Şərqdə İtaliya sərhədindən qərbə Tulon şəhərinə qədər uzanır. Fransızlar onu Lazur sahili adlandırırlar. Turistlər buraya həm istirahət etmək, həm də mədəni həyatda fəal iştirak etmək üçün gəlirlər. Burada Nitsa və Kann şəhərində hər il dünyanın hər tərəfindən gələn kino ulduzlarının iştirakı ilə kinofestivallar keçirilir.

Son dövrlərdə Fransanın xaricdən gələn turist bazarlarında əhəmiyyətli dəyişikliklər baş verir. Şengen sazişi qüvvəyə mindikdən və birləşmiş Avropa ölkələri arasında viza rejimi ləğv edildikdən sonra Fransaya qısamüddətli səyahətlərin miqdarı artmış, uzunmüddətli səyahətlərin xüsusi çəkisi azalmışdır. Fransanın turizmdən götürdüyü gəlirin ABŞ-ın götürdüyü gəlirdən iki dəfə aşağı olmasını bununla izah etmək olar. Halbuki, Fransaya gələn qonaqların sayı ABŞ-a gələn turistlərin sayından az qala iki dəfə çox idi. Məsələn, 1998-ci ildə Fransa ölkəyə gələn 70 mln turistdən 29.7 mln $, ABŞ isə 47 mln turistdən 74.24 mln $ gəlir götürmüşdü. Əsasən qonşu ölkələrdən olan avropalılar istirahət günlərini Fransada keçirir, məzuniyyətə isə başqa ölkələrə gedirlər. 1997-ci ildə Fransada 242 mln, İspaniyada isə 350 mln turist gecələməsi qeydə alınmışdı. Buna baxmayaraq, Fransa bu gün əvvəlki kimi dünyada ən cazibədar turizm mərkəzi hesab edilir. 2000-ci ildə Fransaya 76 mln turist gəlmişdi, lakin o, get-gedə uzunmüddətli istirahət yeri cazibəsini itirir, çünki İspaniya, İtaliya, Türkiyə və Kipr kimi Aralıq dənizyanı ölkələrlə müqayisədə Fransada istirahət baha başa gəlir.

Qeyd etmək lazımdır ki, hazırda Fransa turizmin təşkilinə görə Avropa ölkələrindən ən öndə gedən dövlətlərdən biri hesab olunur. Bu ölkənin beynəlxalq və ölkədaxili turizm təcrübəsi müsbət nümunə kimi müstəqil Azərbaycan Respublikası üçün də böyük maraq doğurur.

## *3.4. ALMANİYA FEDERATİV RESPUBLİKASI*

| | |
|---|---|
| **Rəsmi adı** | **Almaniya Federativ Respublikası** |
| **Paytaxtı** | **Berlin** |
| **Əhalisi** | **82.5 mln nəfər** |
| **Ərazisi** | **357 min km$^2$** |
| **Dövlət quruluşu** | **Federativ Respublika** |
| **Əyalətlər** | **Şlesviq-Holsteyn, Rheinland-Pfalz, Saarland, Türingen, Brandenburq, Bremen, Şimali Reyn-Vestfalya (Nordrhein-Westfalen), Aşağı Saksonya (Niedersachsen), Meklenburq-Vorpommern, Hessen, Hamburg, Sachsen-Anhalt, Saksonya (Sachsen), Bavariya (Bayern), Baden-Vürttemberq, Berlin** |
| **Dövlət başçısı** | **Federal prezident** |
| **Hökumət başçısı** | **Federal kansler** |
| **Ali qanunverici orqan** | **Bundestaq** |
| **Əyalətlər palatası** | **Bundesrat** |
| **Pul vahidi** | **Avro** |

Almaniya Federativ Respublikası (qısaca Almaniya) Qərbi Avropada dövlətdir. Şimalda Danimarka, Şimal və Baltik dənizləri, cənubda Avstriya və İsveçrə, şərqdə Polşa və Çexiya, qərbdə Niderland, Lüksemburq, Belçika, Fransa ilə həmsərhəddir. Avropada əhalisinin sayına görə Rusiyadan sonra ikinci dövlətdir. 16 əyalətdən ibarət federativ respublikadır. II Dünya müharibəsindən sonra Şərqi Almaniya və Qərbi Almaniya olaraq ikiyə bölünmüş ölkə 1990-cı ildə təkrar birləşmişdir. Paytaxtı Berlin şəhəridir. Dövlət başçısı federal prezidentdir. Ölkəni parlamentin (bundestaq) formalaşdırdığı hökumət idarə edir. Hökumətə federal kansler (baş nazir) rəhbərlik edir. Dövlət dili alman dilidir. Almaniya Avropa Birliyinin qurucu ölkələrindəndir və 82 milyondan çox olan əhalisi ilə Avropa Birliyinin ən böyük və nüfuzlu ölkəsidir.

Qədimdə müasir Almaniyanın tarixi ərazilərində şərqdən gəlmiş kelt və german qəbilələri məskunlaşmışdı. Arxeoloji araşdırmalar german qəbilələrinin Cənubi Skandinaviya və Şimali Almaniyadan cənuba, qərbə və şərqə yayılaraq Baltikyanı, İran və slavyan qəbilələri ilə təmasda olduqlarına dəlalət edir. E.ə. IV-V əsrlərdə german qəbilələri Roma İmperiyasının tərkibinə qatılırlar. Roma İmperiyasının tənəzzülü germanlar arasında separatçılıq meyllərini gücləndirir. Ardı-arası kəsilməyən üsyanlar Qərbi Roma İmperiyasının süqutunu qaçılmaz edir. Roma sərkərdəsi Publius Quinctilius Varus germanlar üzərinə hərbi yürüşə çıxır. Romalıların savaş üsullarını mənimsəmiş german qəbilələri torpaqlarının müdafiəsinə qalxırlar. Cheruscan (German) lideri Arminius Varus üzərində zəfər çalır. VI-VIII əsrlərdə alman, frank, bavar, saks, friz, türinq və b. german qəbilələri ittifaqları Frank dövlətinin tərkibinə daxil edilir. 843-cü ildə Frank dövlətinin parçalanması nəticəsində Şərqi Frank dövləti yaranır. X əsrdə onun təməlində erkən Almaniya feodal krallığı meydana gəlir. German Ottolar sülaləsindən (919-1024) olan I Otto Şimali və Mərkəzi İtaliyanı işğal etdikdən sonra 962-ci ildə Saksonya, Bavariya, Suabiya, Türingiya, Lotaringiya və Frankonyia hersoqlarını bir araya gətirib Müqəddəs Roma German İmperiyasının (843-1806) yarandığını elan edir. Salian sülaləsinin (1024-1125) hökmranlığı dövründə Burqundiya torpaqları da krallığa qatılır, lakin bir müddət sonra dövlət İtaliya və Burqundiyadakı mövqelərini itirir. Hohenştaufen sülaləsinin hökmranlığı dövründə slavyan və Baltikyanı millətlərin ərazilərinin bir hissəsi krallıq tərəfindən zəbt edilir. Şimali alman şəhərləri Şimali Avropanın ən zəngin şəhərləri sırasına daxil olur. İdarəetmə forması təkmilləşir. İmperator 7 knyaz tərəfindən seçilir. XV əsrdən başlayaraq imperatorlar yalnız Avstriyanın Habsburq sülaləsindən seçilir.

1517-ci ildə Martin Lüter (1483-1546), Vittenberqdə katolik kilsəsinə 95 sorğu ünvanlayır. Katolisizmin təməl müddəalarını alt-üst edən həmin tezislər Protestant Reformasiya kilsəsinin əsasını qoyur. Lüteran Kilsəsinin yaranması bir çox əyalətlər tərəfindən dəstəklənir. Knyazlıqlar Reformasiyadan öz maraqları üçün istifadə etdilər. 1524-26-cı illərdə baş verən kəndli üsyanları, katolik-protestant qarşıdurması 30 il davam edən müharibə (1618-48) ilə nəticələnir. Bu savaş alman ölkəsini olduqca zəiflədir. Almaniya ayrı-ayrı knyazlıqlara parçalanır. Vestfaliya barışığı savaşa son qoyur. 1740-cı illərdə Prusiya Krallığı və Avstriya Almaniyada iki qüdrətli dövlətə çevrilir. XVIII əsrin sonu, XIX əsrin əvvəlində bu dövlətlər Avropanı bürüyən inqilab dalğalarının yatırılmasında fəal iştirak edir və I Napoleon tərəfindən məğlub edilirlər. 1806-cı ildə Müqəddəs Roma German İmperiyası Napoleon Fransasının qurbanı oldu. Napoleon müharibələrindən sonra Avropanın yenidən qurulması, sülh və sabitliyin bərqərar olması məqsədi ilə çağırılmış Vyana Konqresinin (1814-15) qərarı ilə Alman konfederasiyası yaradıldı. Qurumda aparıcı mövqe Avstriyaya məxsus idi. 1848-49-cu illərdə baş vermiş burjua inqilabı məğlub oldu. 1866-cı il Prussiya-Avstriya müharibəsində Prussiya zəfər çaldı. Şimali Almaniya konfederasiyası yaradıldı. 1870-71-ci illərin Fransa-Prussiya müharibəsində qalib gəlmiş

Prussiyanın başçılığı ilə Alman İmperiyası (Reyx) quruldu (1871). Bu işdə Hohenzollern sülaləsindən olan I Vilhelm və Alman İmperiyasının ilk reyxkansleri Otto fon Şönhauzen Bismarkın (1815-1898) rolu əvəzsiz idi. Avstriya yeni dövlət qurumundan kənarda qaldı. Avropada bir tərəfdən Fransa, Böyük Britaniya və Rusiyadan ibarət Üçlər ittifaqının yaranması müqabilində Alman İmperiyası Avstriya-Macarıstan İmperiyası ilə ittifaqa girdi. Almaniya Afrikanın bölüşdürülməsi haqqında Avropa ölkələri arasında gedən danışıqlara qatıldı, nəticədə Berlin Konfransının qərarına görə Şərqi Afrika, Şimal-Qərbi Afrika, Toqo və Kamerun Almaniyanın payına düşdü. XIX əsrin 80-90-cı illərində Almaniya Afrikada geniş ərazilər işğal etdi. Afrikanın bölüşdürülməsi uğrunda mübarizə I Dünya Savaşına təkan verdi.

1914-cü ildə Avstriya ershersoqu Ferdinandın serb terrorçuları tərəfindən qətlə yetirilməsi I Dünya Savaşının başlanmasına səbəb oldu. Almaniya Avstriyanı Serbiyaya qarşı savaşa təhrik etdi, öz növbəsində Serbiyanı müdafiə edən Rusiyaya, daha sonra Fransaya müharibə elan etdi. 4 il davam edən savaşa 38 dövlət cəlb olunmuşdu, döyüşlərdə 29 mln insan iştirak itdi, 10 mln nəfər həlak oldu. Almaniya I Dünya Savaşında məğlub oldu. 1918-ci il noyabr hadisələri Alman İmperiyasına son qoydu. II Vilhelm taxtdan imtina etdi. 1919-cu ildə Versal sülh müqaviləsi savaşa xətm verdi. 1919-20 illər Paris sülh konfransı qalib dövlətlər koalisiyası ilə məğlub olmuş dövlətlər arasında sülh müqaviləsinin şərtlərini müəyyən etdi.

1919-cu ildə Veymarda təsis məclisi konstitusiya qəbul edərək parlament respublikasının yaranmasını rəsmiləşdirdi. 1933-cü ildə nasional-sosialist alman işçi partiyasının seçkilərdə qalib gəlməsi, Adolf Hitlerin kansler vəzifəsinə təyin olunması ilə Veymar respublikasının mövcudluğuna son qoyuldu. III reyx adlanan Almaniyada faşist diktaturası quruldu.

Hitler "Böyük Almaniya" xülyasını gerçəkləşdirmək qərarında idi. O, 1936-cı ildə Böyük Britaniyanın baş naziri Nevil Çemberlenin passiv mövqe tutmasından istifadə edərək Reyn bölgəsini zəbt etdi. İki cəbhədə savaşa atılmağın təhlükəli olduğunu anlayan işğalçı SSRİ ilə Molotov-Ribbentrop sazişini imzaladı. 1939-cu ildə Almaniya Polşaya hücum etdi. Polşanın müttəfiqləri İngiltərə və Fransa Almaniyaya müharibə elan etmək məcburiyyətində qaldılar. Beləliklə II Dünya Savaşı başlandı. İki il ərzində Almaniya, demək olar ki, bütün Avropanı işğal etdi. 1941-ci il iyunun 22-də Hitler ruslarla bağladığı sazişi pozaraq SSRİ-yə hücum etdi. Uzaq Şərqdə Yaponiya Amerika Birləşmiş Ştatların Pirl Harborda yerləşən hərbi-dəniz və hərbi hava qüvvələrinə basqın etdi.

Stalinqrad döyüşü müharibənin gedişində dönüş yaratdı. 1945-ci ilin may ayında Almaniya təslim oldu. Mayın 8-də Qızıl Ordu Berlinə girdi. Almaniya üzərində zəfər çalan 4 qalib dövlət - ABŞ, Böyük Britaniya, Fransa və SSRİ ölkənin ərazisini 4 işğal bölgəsinə ayıraraq qoşunlarını yerləşdirdilər.

Faşist rejiminin törətdiyi soyqırımı 11 mln insanın, o cümlədən 6 mln yəhudi və 3 mln polyakın həyatına son qoydu. 10 mln alman əsgəri və mülki əhali rejimin qurbanı oldu.

1949-cu il mayın 23-də Fransa, Amerika Birləşmiş Ştatları və İngiltərə işğal bölgələrini birləşdirərək Almaniya Federativ Respublikasını qurdular. 1949-cu il oktyabr ayının 7-də isə Sovetlər Birliyi öz işğal bölgəsində Almaniya Demokratik Respublikasını yaratdı.


BERLİN ANTİK MUZEYİ

Qərbi Almaniyada liberal parlament tipli respublika quruldu. Fransa, Amerika Birləşmiş Ştatları və İngiltərə ilə iş birliyi bazar iqtisadiyyatına keçmək imkanı yaratdı. Keçən əsrin 50-ci illərindən başlayaraq iqtisadiyyatı daim yüksəlişdə idi. 1955-ci ildə NATO-ya qatıldı. 1958-ci ildə Avropa İqtisadi Birliyinin qurucuları arasında yer aldı. Sovetlər Birliyinin siyasi təsir dairəsinə düşən Şərqi Almaniyanın iqtisadiyyatı nisbətən geri qalırdı. Az sonra Şərqi Almaniya da iqtisadi baxımdan qismən gücləndi. Lakin Qərbi Almaniyada hökm sürən siyasi sərbəstliyi və güclü iqtisadi durum qibtə ilə seyr edən bir çox Şərqi Almaniya vətəndaşı qərbə üz tutdu. 1961-ci ildə inşa edilən Berlin divarı vasitəsi ilə Şərqi Almaniyadan Qərbi Almaniyaya qaçışlar durduruldu. Berlin divarı Soyuq savaşın təcəssümü oldu. 1989-cu ilin yazında almanların Şərqi Almaniyadan Qərbi Almaniyaya qaçması kütləvi hal aldı. Bu, ölkənin birləşməsini sürətləndirdi. Nəhayət iki ölkə birləşdi. Paytaxt Berlin oldu. Birləşmədən sonra Almaniya NATO və Avropa Birliyi daxilində olduqca əhəmiyyətli rol oynamağa başladı.

Almaniya dövlət quruluşuna görə konstitusiyalı federativ respublikadır. Dövlət respublikaçılıq, demokratiya, federalizm, hüquq dövləti və sosial dövlət kimi beş təməl üzərində qurulub. Dövlət başçısı təmsilçilik hüquqlarına malik olan, iki beş illik müddətə seçilən federal prezidentdir. Ölkənin ali qanunverici orqanı Bundestaqdır (Federal Məclis). Tərkibinə alman xalqını təmsil edən, dörd ildən bir

seçilən 614 federal millət vəkili daxildir. Seçki sistemi birbaşa və nisbi təmsil sistemlərinin qarışığıdır. Federal Məclis seçkilərdə qalib gəlmiş siyasi partiyanın liderini Federal kansler vəzifəsinə təyin edir və federal nazirlərdən (Bundesminister) ibarət Federal hökumətin (Bundesregierung) tərkibini təsdiq edir. Almaniya Federativ Respublikasının 16 əyalətini təmsil edən Federal orqan Bundesrat adlanır.



BERLİN. ANTİK TOPLANTILAR MUZEYİ



DREZDEN RƏSM QALEREYASI

Almaniya Avropa və dünya mədəniyyətinin əsas mərkəzlərindən hesab olunur. Alman xalqı bəşəriyyətə bir çox görkəmli incəsənət xadimi, musiqiçi, alim, filosof bəxş etmişdir. Almaniya ərazisində çoxlu sayda qədim tarixə malik olan qəsrlər, qotik üslubda tikilmiş kilsələr, dəbdəbəli saraylar qorunub saxlanır. Almaniya muzeyləri bütün dünyada məşhurdur. Təkcə Berlin şəhərində 175-ə yaxın muzey fəaliyyət göstərir. Perqament muzeyi, Misir muzeyi, Rəsm qalereyası, Milli qalereya və İslam muzeyi YUNESKO-nun Ümumdünya İrs siyahısına daxil edilmişdir. Bu muzeylər dünyanın ən böyük muzey komplekslərindən biri sayılan Berlin muzeylər kompleksinin tərkib hissələridir. Perqament muzeyi ən qədim muzeylərdən biridir. Burada əsasən şərq incəsənətinin nümunələri - VIII əsrə aid İordaniya incəsənəti ənənələrini özündə əks etdirən xəttatlıq nümunələri saxlanılır. Şarlttenburq qəsrində XVII əsrdən qalmış 7-dən çox muzey və qalereya fəaliyyət göstərir. Burada 3300 il bundan əvvəl yaşamış kraliça Nefertitinin büstü saxlanılan qədim Misir şöbəsi fəaliyyət göstərir. İslam muzeyində İslam mədəniyyətinə aid məşhur eksponatlar nümayiş etdirilir, məşhur İştar qapısı, Suriya, Babil, Assuriya, Şərqi Anadolu mədəniyyətinin nümunələri qorunub saxlanır. Berlin muzeyi paytaxtın mərkəzində yerləşir və turistlərin ən çox baş çəkdiyi məkan hesab olunur. 2006-cı ilin payızında Berlində məşhur Bizans mədəniyyətinin nümunələri nümayiş etdirilmişdi. Almaniyanın görkəmli muzeylərindən biri də alman fotoqrafı Helmut Nyutonun adını daşıyır. Muzeydə məşhur fotoqrafın 1000-dən artıq sənət əsəri qorunub saxlanılır. Muzey fotoqrafın yaşayıb-yaratdığı binada yerləşir. Ölkənin çoxsaylı muzeyləri içərisində Eyzenanda Martin Lütsün və İ.S.Baxın evi, Bonnda Lüdviq Van Bethovenin ev-muzeyi, Haydelbeq malikanəsində XIII əsr əczaçı muzeyi, Frankrutda Götenin muzeyi, Ştadeldə gözəl rəsm əsərləri, bədii sənət, ibtidai və qədim tarixi eksponatlar kolleksiyası saxlanılan incəsənət institutu və b. fəaliyyət göstərir.

Maynstda mərkəzi Roma-Alman muzeyi, ilk kitab nəşriyyatı olan Quttenburq muzeyi, Maqdeburqda Mədəniyyət tarixi muzeyi, XV əsr Albrextsburq malikanəsində muzey, Müqəddəs Anna adlanan incəsənət və mədəniyyət tarixi muzeyi, Nyurnberqdə sənət, oyuncaq muzeyi, Alman Milli muzeyi, Kölndə Varlof-Rixard Lyudviq rəsm qalereyası və başqaları Almaniya mədəniyyət tarixinin zəngin səhifələridir. Dünyanın ən böyük elm və texnika muzeyi Münhendəki Alman muzeyidir. Qədim rəsm əsərləri saxlanılan yer (rinaqotika) Rubensin ən böyük və zəngin kolleksiyası ilə məşhurdur. Almaniyada qədim evlərin daxil olduğu açıq səma altındakı Hamburq Mənzərə muzeyi görkəmli memarlıq abidələri kompleksidir.

Almaniyanın bütün şəhərlərində qotik üslubda tikilən kilsələrə və abidələrə rast gəlmək olar. Bunların sırasına Uilmada yerləşən hündürlüyü 160 m-dən artıq daş qülləsi olan XIV əsr qotik məbədini, Bonnda Porrelsdorf iqamətgahını, Kölndə 1248-ci ildə qotik üslubunda tikilmiş məbədi göstərmək olar. Əhalinin ən çox baş çəkdiyi kilsələrdən biri məşhur Müqəddəs Maykl kilsəsidir. Hündürlüyü 132 m olan və daxilində 453 pilləkən yerləşən bu kilsənin bəzədilməsində çoxlu sayda dini rəsmlərdən, ikonalardan, simvolik heykəllərdən istifadə olunmuşdu. Strasburq və Köln kilsələri qotik üslubda tikilmiş XII-XV əsrlərə aid görkəmli memarlıq



DREZDEN OPERA TEATRI

abidələridir. Bremendə XI əsr roman-qotik üslubda tikilmiş Müqəddəs Pyotr məbədində yaşı 500 ildən çox olan mumiyalar saxlanılır. Leypsiqdən bir qədər aralı Kölndə Şura binasında yerləşən möhtəşəm heykəl məşhur "Xalqlar savaşı" şərəfinə ucaldılmışdı. Münhendə Bavariya krallarının şərəfinə salınan bağ evləri alman memarlığının gözəl nümunələridir. Haydelberqdə 1386-cı ildə tikilmiş ən qədim alman universiteti, bir sıra məşhur duellərin şahidi olmuş "Qırmızı öküz" abidəsi, onun yaxınlığında 30.000 litrə yaxın tutumu olan nəhəng pivə çəlləyi ən məşhur, adlı-sanlı məkanlardan hesab olunur. Cənubi Almaniyada da pivə istehsalı haqqında təsəvvür yarada biləcək ekskursiyalar keçirilən, 5.5 min adam yerləşə bilən "Levenbroykeller", "Mathezer Bir Ştadt", "Hovbrayxaus", "Platse" pivə zalları fəaliyyət göstərir. Maqdeburqda Mərkəzi Şuranın qarşısındakı meydanda "Maqdeburq atlısı" adlandırılan heykəl Almaniya heykəltəraşlığının ən gözəl nümunəsi hesab olunur. Berlin darvazaları, alman tarixinə aid foto sərgisi, Reyxstaq binası, XVII-XIX əsrlər barokko və klassisizm üslubunda inşa edilmiş ansamblları Almaniyanın görkəmli tarixi abidələridir. Dünya şöhrəti məşhur Drezden qalereyasında qədim silah və farfor nümunələri kolleksiyaları, fizika-riyaziyyat alətləri kolleksiyaları qorunub saxlanılır.



**DREZDEN RƏSM QALEREYASI**

Almaniyada təsviri incəsənət güclü inkişaf etmişdi. Albrext Dürer (1471-1528), Lukas Kranax (1472-1553), və b. yaradıcılığı Almaniyaya dünya şöhrəti gətirmişdir. Alman İntibahı dövründə yaşayıb yaratmış Fişer heykəltəraşlar ailəsinin başçısı Peter Fişerin (1460-1529) əsərlərində qotik üslubla naturanın dəqiqliklə öyrənilməsin uyğunluğu, insanın daxili aləminə maraq duyulur.

Hamburq və Münhen Almaniyanın qədim şəhərlərindəndir. Hamburqun saysız-hesabsız gözəl parklar və bağları şəhərinin görkəminə xüsusi məlahət gətirir. Almanlar Hamburqu çox vaxt "yaşıl şəhər" adlandırırlar. Alman mədəniyyətinin əsas incəsənət toplularının qorunub saxlandığı məşhur Konsthalle incəsənət qalereyası məhz Hamburqda yerləşir. Hamburq eyni zamanda alman teatr sənəti mərkəzidir. Şmidts Fivoli teatrı, Hamburq opera və Balet teatrı, Müqəddəs Paul teatrı, Milli teatr görkəmli mədəniyyət ocaqlarıdır. Teatrın təqribən bir əsrdən çox yaşı var. Hamburqun məşhur tarixi məkanlarından biri də Fraunkirde-Frier adlı qədim şəhərin qalıqlarıdır. XVIII əsrə aid bu memarlıq abidəsi müdafiə məqsədi ilə tikilmişdi. Qədim şəhərdən yalnız qala qapıları qorunub saxlanıb.

Qədim şəhərlərdən biri də Münhen şəhəridir. Şəhər Almaniyanın incəsənət mərkəzi hesab olunur. Qədim Münhen şəhəri təpələr arasında yerləşirdi. XV əsrə aid qotik kilsələrin əksəriyyəti Münhendə cəmləşmişdi. Münhenin istirahət məkanlarından olan Hofbraunhaus adlı pivə zalıdır ki, burada hər gün təqribən 10 min litrə yaxın pivə içilir. 1972-ci il Olimpiya Oyunları Münhen Olimpiya Mərkəzində keçirilmişdi. Alman şəhərləri öz təmizliyi, rahatlığı ilə fərqlənir və planetin müxtəlif guşələrindən turistləri özünə cəlb edir.

Almaniyanı fəlsəfə, ədəbiyyat, musiqi və mistika ölkəsi adlandırmaq olar. Almaniyanı klassik musiqinin beşiyi adlandırsaq yanılmarıq. İohan Sebastyan Bax (1685-1750), Lüdviq van Bethoven (1770-1827), Rixard Vaqner (1813-1883), Avstriya mənşəli Frans Şubert (1797-1828), Robert Şuman (1810-1856), Avstriya mənşəli İohan Ştraus (1804-49) dünya musiqisini fəth etmiş dahi alman bəstəkarlarıdır. Almaniyanın bütün şəhərlərində instrumental və kamera orkestrləri var. Təkcə Berlin Filarmoniya sarayında 8 böyük simfonik orkestr fəaliyyət göstərir. Fridrix adına əzəmətli Opera Evində (Royal Opera Haus) Avstriya mənşəli dahi Volfhanq Amadey Mosartın (1756-1791), habelə klassik və müasir musiqi əsərləri səsləndirilir. Ölkədə 75-ə yaxın böyük musiqi festivalları keçirilir. Hər il Bayrot şəhərində Vaqner musiqi festivalı keçirilir.

Almanlar dünya ədəbiyyatına məşhur "Tristan və İzolda", "Nibeluqların nəğməsi", "Səfehlərin tərifi" kimi dünya şöhrətli əsərlər bəxş etmişlər. Almaniyada İohan Fridrix Şiller (1759-1805), İohan Volfhanq Göte (1749-1832), Yakob (1785-1863) və Vilhelm (1786-1859) Qrimm qardaşları, Ernst Teodor Amadey Hofman (1779-1822), Bertold Brext (1898-1956), Erix Mariya Remark (1898-1970) və b. məşhur sənətkarlar yaşayıb yaratmışlar.

Alman xalqı öz ata-babalarından qalmış adət-ənənələrinə sadiq qalmaqla yanaşı onları yaşatmağa böyük önəm verirlər. Bayramlarda qədim milli geyimlərdən geniş istifadə edilir. Bir çox bayramlarda bir neçə əsr əvvəl yazılmış pyeslər ənənəvi olaraq səhnələşdirilir. Almanlar səyahət etməyi çox sevirlər, ilk növbədə ekzotik ölkələrə səfərə çıxmağa üstünlük verirlər. Onlar bir qayda olaraq səyahətlərinin şəkillərini toplayır və bütün məlumatları dərinliklərinə qədər öyrənirlər. Almanlar çox diqqətli və alicənabdırlar. Öz əlləri ilə hazırladıqları işləri bir-birilərinə hədiyyə etməyi çox xoşlayırlar. Ailədə adət-

ənənələrə hörmətlə yanaşırlar. Ailədə xüsusi günlər bayram kimi qeyd edilir. Almanlar hər şeyi yerli-yerində və qanunauyğun şəkildə həyata keçirirlər. Onlar alman dilinə xüsusi hörmət bəsləyir, nitq səlisliyinə xüsusi diqqət yetirir, qrammatik səhvləri yolverilməz xəta hesab edirlər. Almanlar təhsilə, elmə xüsusi diqqət yetirirlər. Ölkədə vahid dövlət təhsil sistemi mövcuddur.

Səyahətə çıxan almanlar otellərdə, mehmanxana tipli yaşayış və özünəxidmət sahəsində yerləşdirmə yerlərində qalmağa üstünlük verirlər. Mehmanxana nömrələrinin böyük hissəsi Şərqi Almaniyada, Bavariyada cəmləşmişdir. 1990-cı illərdə Şərqi Almaniyada beynəlxalq meyarlara uyğun olan otellərin çatışmazlığı duyulurdu. Odur ki, beynəlxalq turizm layiqincə inkişaf edə bilmirdi. Almaniyanın birləşməsinə qədər Qərbi Almaniyaya müxtəlif məqsədli səfərlər azlıq təşkil edirdi. Xarici qonaqların çoxu dostlarının ziyarətə gələnlər idi. ABŞ-dan və Böyük Britaniyadan gələnlər xüsusi ilə çox idi. Bu da NATO qoşunlarının ölkə ərazisində yerləşdirilməsi ilə əlaqədar idi. Böyük Britaniya, Fransa, İsveçrə və Yaponiya kimi ölkələrdən işgüzar məqsədlə gələnlərin sayı xüsusilə yüksək idi. Hannover, Hamburq, Düsseldorf, Ştutqart, Münhen və digər şəhərlərdə keçirilən çoxsaylı beynəlxalq ticarət sərgiləri, konfranslar əhəmiyyətli rol oynayırdı. Müharibədən sonrakı dövrdə Almaniya Avropanın turist axınlarına inteqrasiya olunmuşdu. Lakin 90-cı illərin əvvəllərində iqtisadiyyatda baş verən müəyyən durğunluq xarici səfərlərin sayını azaltdı. Eyni zamanda Qərbi Alaniyada xarici səfərlərin azalması ölkənin şərqində baş verən artımla tarazlanırdı. Bu gün Almaniya öz qüdrətli iqtisadiyyatı sayəsində dünyada əhəmiyyətli turizm bazarı kimi qalmaqda davam edir. Yeni turizm mərkəzləri olan Ahen, Visbaden, Bayrot şəhərləri, Şvarçvald dağlarında yerləşən Baden-Baden ölkənin şərqi və qərbi arasında cərəyan edən turist axınları qarşısında yeni imkanlar açır. Turistləri ən çox cəlb edən məkanlardan biri də Hamburqda "Qırmızı fənərlər" rayondur. Buraya ayda 30 min nəfər səyahətə gəlir. Avropanın ən böyük zoopark və botanika bağları Kölndə və Berlində yerləşir. Almaniyada bir sıra maraqlı bayramlar və festivallar keçirilir. Xomeldə yay fəslində hər bazar günü günorta şəhərin siçanlardan xilas olması şərəfinə bayram keçirilir. Turistlərin böyük marağına səbəb olan bu tədbirdə bayram iştirakçıları tütək çalaraq əylənirlər.

Almaniyada Oktoberfest dünya şöhrətli Münhen pivə festivalı, Leypsiqdə beynəlxalq sənədli filmlər kinofestivalı, Erfurtda beynəlxalq güllər sərgisi, müxtəlif şəhərlərdə çoxsaylı yarmarka və auksionlar keçirilir.

Almanlar istirahət vaxtlarını müxtəlif şəkildə keçirirlər. Bəziləri əyləncəyə, səyahət etməyə, bəziləri isə idmanla məşğul olmağa üstünlük verirlər. Onlar daha çox atletika, futbol, tennis, bir sıra qış idman növləri ilə məşğul olmağı sevirlər. Ən məşhur idman növü isə futboldur. Almaniya ilk növbədə qış idman növləri üzrə ixtisaslaşmışdır. Ölkədə qış turizmi yüksək inkişaf etmişdir.

Ölkənin cənubunda yerləşən "Qara meşədə" tünd küknar ağacları bitir. Bu ərazidə minerallarla zəngin bulaqlar ətrafında məşhur kurort mərkəzləri salınıb.

Almanlar öz uşaqlarının istirahət və əyləncəsini səmərəli təşkil etmək üçün ölkədə müxtəlif uşaq parkları, klubları təşkil etmişlər. Bu cür maraqlı məkanlardan biri ümumi uzunluğu 5 km olan, 450 qatardan ibarət Avropada ən uzun "Mini Uonderland" dəmiryol attraksionudur. Ölkədə əhalinin asudə vaxt və istirahətinin səmərəli və əyləncəli keçməsi üçün hər cür şərait yaradılıb.

Avropanın ən qüdrətli dövlətlərindən olan Almaniya ilə Azərbaycan arasında beynəlxalq əlaqələrin qurulması qədim dövrlərə təsadüf edir. Bu münasibətlər müxtəlif dövrlərdə müxtəlif cür təzahür etmişdir. İlk tarixi fakt 1473-cü ilə aiddir. Həmin dövrdə Azərbaycanda mövcud olan Ağqoyunlu dövləti Avropanın bir sıra dövlətləri ilə, ilk növbədə Almaniya ilə əlaqələrin yaradılmasına geniş yer ayırırdı. 1473-cü ildə Ağqoyunlu hökmdarı Uzun Həsən Almaniya imperatoruna məktubla müraciət edir. İlk alman elçiləri olan Stefan Kakan və Georq Faktandern iki dövlət arasında beynəlxalq münasibətlərin yaradılmasında böyük rol oynamışdılar.

Almaniyada Azərbaycan mədəniyyətinin, onun incəsənətinin bir sıra nümunələri qorunub saxlanılır. 1815-ci ildə alman tədqiqatçısı Fridrix Dits "Kitabi-Dədə-Qorqud" dastanını üzə çıxarmış və tədqiq etmişdi. Bu günün özündə dastanın əlyazmalarından biri Drezden kitabxanasında saxlanılır. Həmin əlyazma 12 boy və 1 müqəddimədən ibarətdir. Sonrakı dövrlərdə almanların Azərbaycana miqrasiya etməsi heç də təəccüb doğurmur.

Almaniya-Azərbaycan diplomatik münasibətlərində Elşleqerdə oxumuş, sonralar isə Leypsiq universitetində dərs demiş XVII əsrin alman alimi və diplomatı, fəlsəfə magistri Adam Olearinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Sonralar Qolşteyn hersoqunun sarayında xidmət etmiş A. Oleari Şlezviq-Qolşteyn səfirliyinin tərkibində 1636-1638-ci illərdə o dövrdə Səfəvilər tərəfindən idarə olunan Azərbaycan türklərinin imperiyasında olmuşdur. 1643-cü ildə o, öz səyahətlərini qələmə almışdı. Olduqca dəyərli məlumatlarla zəngin olan bu səfər təəssüratları 1647-ci ildə alman dilində nəşr edilmiş və bir çox Avropa dillərinə tərcümə edilərək çap olunmuşdur. 1636-cı ildə səfirlik heyətini gətirən gəmi indiki Xaçmaz sahillərində yerləşən Niyazabad kəndinə yan alır. Almanlar 1636-cı ilin noyabrında Niyazabadı

tərk edərək Şamaxıya yola düşürlər. A. Oleari yolüstü dərədə yerləşən Taxousi kəndini təsvir edir, yazır ki, "qəşəng evlərdən tikilmişdir". A. Oleari Barmaq (Beşbarmaq) dağında olan erkən orta əsrlər dövrünün müdafiə sədlərini, bu dağın ətəyində köhnə karvansaranı təsvir etmişdi. A. Oleari yazırdı: "Dağda olan köhnə xarabalıqlardan" və divar qalıqlarından belə nəticəyə gəlmək olar ki, burada gözəl tikili və müdafiə səddi var idi". Karvansaranın divarında A. Oleari tarix üçün böyük əhəmiyyət kəsb edən kitabə aşkar etmişdi. Bu yazı indiyə kimi Azərbaycan Respublikasında orta əsr yəhudi epiqrafikasının yeganə abidəsidir.

Alman səyyahı, təbiətşünas və həkim Engelbert Kempfer Bakının rəmzini araşdırmaqla yanaşı, XVII əsrin sonunda şəhərin mədəni, sosial-iqtisadi, tarixi, neft və duz mədənlərini, Abşeronda yanar qazların çıxması, habelə etnoqrafiya və memarlıq haqqında 1712-ci ildə latın dilində kitab nəşr etdirmişdir. 1683-cü ilə E. Kempfer Bakı kəndlərində üzüm, qovun, əncir, alma, nar kimi meyvələrin yetişdirilməsindən xəbər verir. E. Kempfer Balaxanıdakı neft mədənlərini gəzmiş, neftin nizamsız halda qazılmış, dərinliyi təxminən 80 metr olan dar quyulardan dəri tuluqlarda əllə çıxarıldığını təsvir etmişdir. Çox neft verən quyuları daşla hörgüləyib quyunun dövrəsində iki atlı dolamaçarx vasitəsi ilə çıxarırdılar. Çıxarılan neft ətrafı hörülmüş və dərin qazılmış quyularda saxlanılırdı. Həmin quyulara girib-çıxmaq üçün pilləkənlərdən istifadə olunurdu. E. Kempfer Bakının Ramana, Binəqədi və Suraxanı kəndlərində də neftin çıxarılmasını seyr etmişdir. E. Kempfer şəhər ticarətinə dair qeydlər etmiş, Bakının üç darvazasından limana gedən yolu, habelə Rusiya, Dağıstan, Çərkəzistan, Özbəkistan və İrandan gələn gəmilər üçün rahat dayanacaq olan Bakı buxtasını təsvir etmişdi. E. Kempferin Bakının varlı və yoxsul məhəllələri barədə qeydləri böyük maraq doğurur.

Neft sənayesinin inkişafı ilə əlaqədar Azərbaycanda bir sıra alman şirkətləri fəaliyyətə başlayır. Bunlardan ən məşhuru "Siemens" şirkəti idi. Azərbaycanda ilk kapitalist müəssisələrinin yaranmasına "Siemens" şirkəti təkan vermişdi. Azərbaycanda mədəniyyət və tarixi abidələrinin tədqiqini ilk dəfə almanlar həyata keçirirlər.

Almanlar eyni zamanda Azərbaycan ədəbiyyatı ilə yaxından maraqlanırdılar. Mirzə Şəfi Vazeh yaradıcılığının müəyyən dövrünün tədqiqatı maraqlı faktlar aşkar etmişdir. 1840-cı ildə Mirzə Şəfi Tiflisə köçür. Tiflisdə o, tanınmış yazıçı Mirzə Fətəli Axundovun köməyi ilə Tiflis qəza məktəbinə fars, ərəb, türk dilləri müəllimi vəzifəsinə təyin olunur. Tiflis dövrü şairin həyatında mənalı, zəngin dövr olmuşdur. O, burada bir çox xalqların qabaqcıl fikirli ziyalıları ilə görüşüb tanış olur. Mirzə Şəfinin tanışları arasında Almaniyadan gəlmiş Fridrix Martin fon Bondenşted də var idi. O, Mirzə Şəfinin 1844-cü ildə Tiflisdə təşkil etdiyi "Divani-hikmət" adlı ədəbi məclisində fəal iştirak edirdi. Alman şərqşünası şairdən Şərq poeziyasının özünəməxsus çalarlarını, poetikasını öyrənirdi. Çox keçmir ki, Mirzə Şəfi ilə Bodenştedtin tanışlığı dostluğa çevrilir. Dostuna ürəkdən inanan şair şeirlərini Bodenştedtə oxuyur. Bodenştedt vətəni Almaniyaya qayıdarkən şairin əlyazma halında olan məcmuəsini ondan alıb almancaya tərcümə etmək məqsədi ilə özü ilə aparır. Bodenştedt apardığı şeirlərin bir qismini həvəslə tərcümə edib özünün yol qeydləri olan "Şərqdə min bir gün" əsərində vermişdi. Bodenştedt əsərə Mirzə Şəfi ilə keçirdiyi xoş günlər haqqında xatirələrini də daxil etmişdi. O, bu şeirlərin yaranması tarixini alman oxucularına belə təqdim etmişdi: "Hörmətli oxucum, bu şeirlərin əksəriyyəti mənim gözlərim önündə yarandığı üçün mən bunların orijinalına xələl gətirmədən alman donunda vermişəm". Oxucuların rəğbətini qazanmış Mirzə Şəfinin şeirləri Almaniyada geniş yayılır. Oxucuların xahişi ilə Bodenştedt şairin şeirlərini 1851-ci ildə "Mirzə Şəfinin nəğmələri" başlığı altında ayrıca kitabça halında çap etdirir. Az sonra bu şeirlər kitabçasının şöhrəti Avropaya yayılır. Mirzə Şəfi şeirlərinin belə geniş yayılmasını görən F. Bodenştedt Mirzə Şəfinin onun öhdəsində olan bir qism şeirlərini də tərcümə edib özünün zəif şeirləri ilə birlikdə "Mirzə Şəfi nəğmələri" başlığı altında bir neçə kitabça çap etdirir.

Mirzə Şəfinin şeirlərinin özünəməxsus koloritli, lirikliyi fonunda Bodenştedt şeirlərinin zəifliyi gözə çarpmamışdır. Mirzə Şəfinin şeirləri ilə özünün də şeirlərinin dünya şöhrəti qazandığını güman edən F. Bodenştedtin qəlbində müəllimi, dostu Mirzə Şəfiyə qibtə hissi baş qaldırır. O, 1870-ci ildə Mirzə Şəfinin növbəti kitabçasını hazırlayarkən bu və əvvəl çap etdiyi "Mirzə Şəfi nəğmələri" başlığı altında verilən şeirlərin özünə məxsusluğu barəsində mətbuatda çıxış edir. O, məqalədə "Mirzə Şəfi" adını öz ədəbi təxəllüsü kimi qələmə verir. Beləliklə Bodenştedt öz müəlliminin dünya şöhrətinə kölgə salmış olur. Alimlərimizin tədqiqatları nəticəsində sübut olunmuşdur ki, alman dilinə tərcümə olunmuş Mirzə Şəfi şeirləri öz şərq koloriti, məna tutumu, lirikası və s. ilə Azərbaycanın klassik poeziya ənənələri ilə sıx bağlıdır. Mirzə Şəfi şeirlərində Azərbaycanın feodal-patriarxal həyat tərzinin ziddiyyətlərini, yeni həyata doğru qabaqcıl meyllərini əks etdirmişdir. Mirzə Şəfi öz əsərlərində həyatın gözəlliklərinə sanki bir varlıq kimi səcdə edir. O, həyatın gözəlliklərinin kor-koranə deyil, düzgün dərk edilməsinin tərəfdarı idi və bu cür də təbliğ edirdi. Gözəllik aşiqi olan şairin yaradıcılığı elə bu səbəbdən də klassik ədəbiyyat tarixində özünəməxsus yer tutur.

"Mirzə Şəfinin nəğmələri" operettası ilk dəfə 1881-ci il noyabrın 5-də Berlin "Fridrix Vilhelm" teatrında göstərilmişdir. Həmin operettanın məzmunu barədə İohannes Şolts özünün "Operetta haqqında sorğusunda" bəhs edir. Əsərin yeganə nüsxəsi Avstriya Milli kitabxanasında qorunub saxlanır.

Mirzə Şəfinin dahi sənətkar kimi Almaniyada tanınmasında, şeirlərinin sevilə-sevilə oxunmasında azərbaycanlı qələm dostu ilə təmasda olmuş məşhur alman şairi, tərcüməçisi və mütəfəkkiri Fridrix Bodenştedtin əməyi danılmazdır. Lakin sonralar 1873-cü ildə onun Vazehin əsərlərini öz şəxsi adına çıxarması, və Vazehi inkar etməsi, onları özünün yaradıcılıq nümunələri kimi çap etdirməsi məhz tədqiqatçılarımızın səyi nəticəsində aşkarlanmışdır.

Azərbaycan müstəqillik və suverenlik əldə etdikdən sonra Almaniya-Azərbaycan əməkdaşlığının yeni dövrü başlandı. Almaniya və Azərbaycan hökumətləri tərəfindən iqtisadiyyatın sənaye, mədəniyyət, elm sahələri üzrə qarşılıqlı münasibətləri, dostluğu gün-gündən güclənir. Azərbaycan diasporunun fəaliyyətində yüksəliş duyulur. İki ölkə arasında ikitərəfli münasibətlər, mədəni və ədəbi əlaqələrin inkişafı xalqlarımızın bir-birini başa düşməsinə, qarşılıqlı marağına, mənəvi təmasına şərait yaradır. Belə ki, 2008-ci ildə Almaniyada keçirilən "Azərbaycan mədəniyyət ili" məhz qarşılıqlı dostluq münasibətlərinin yeni bir mərhələsi hesab edilir.

Hazırda Almaniyada Azərbaycan xalça sənətkarlığı nümunələri nümayiş etdirilir. Son 20-25 il ərzində Almaniyada dərc olunmuş xalça sənətkarlığına aid kitab və tədqiqat işlərinin 70-80 faizinin Azərbaycan xalçalarına həsr edildiyini görərik. Bu ədəbiyyatlarda alman xarakterinə xas olan bir dəqiqliklə xalçalarımızın bədii və texnoloji xüsusiyyətləri, onların toxunduğu yer və s. haqda ətraflı məlumatlar verilir. Y. Letenmayerin və U. Şulmanın 1960-70-ci illər arasında Münhendə dərc etdirdiyi Şərq və Qafqaz xalçaları" adlı əsərləri buna misaldır.

Hazırda Almaniyanın Bonn, Hamburq, Münhen, Köln, Düsseldorf, Frankfrut-Mayn, Manheym və s. şəhərlərində yerləşən muzey, əntiq mallar mağazalarında və şəxsi kolleksiyalarda minlərlə Azərbaycan xalça sənətkarlığı nümunələri saxlanılır. Bura xovlu və xovsuz xalça nümunələri aiddir.

Nadir xalça nümunələrindən 1600-cü ildə Qarabağda toxunan və Münhendə nümayiş etdirilən, uzunu 0.95 sm, eni 0.72 sm ölçülü xalça öz orijinallığı ilə başqalarından fərqlənir. Bu sənət nümunəsinin üzərində XVI-XVII əsrlərdə Təbriz xalçalarında tez-tez təsadüf olunan süjet, yəni "ovçuluq" səhnəsi vardır.

Xalçanın enli ara sahəsi və üç haşiyəli yeləni vardır. Buradakı ara sahə xüsusilə maraqlıdır. Ara sahədə hündür sərv ağacı, bu ağacın ətrafında isə simmetriya əsasında yerləşdirilmiş iki "qızılbaş" zadəganı təsvirləri vardır. Ornamental kətəbə arasına alınmış bu təsvirlərdən xeyli aralı, xalçanın yuxarı və aşağı yan hissələrində dörd dəfə eyni ilə təkrar olunan at belində vüqarda oturmuş bir gənc, onun da sağ və sol tərəfində elə bil ki, sıçramağa hazırlaşan vəziyyətdə dayanmış pələng təsvirləri verilmişdir.

Orijinallıq baxımından Münhendə əntiq mallar mağazasında saxlanılan XVIII əsrə aid Qazax xalçası da əksər nümunələr kimi üç haşiyəli yelən və enli ara sahədən ibarətdir. Bu xalçanın uzunluğu 235 sm, eni isə 168 sm-dir. Xalçanın al qırmızı yerliyində, ardıcıl olaraq təkrarən rəngli yeddi göy sxematik xonça yerləşdirilmişdir. Azərbaycan dekorativ-tətbiqi sənət tarixinin demək olar ki, bütün mərhələlərində bu bəzək həmişə səma cisimlərinin şahı" sayılan günəşi təmsil etmişdir. Hazırda dünya muzeylərində bu tip bəzək və kompozisiyalı xalçalarımıza çox az-az təsadüf edilir. Hələlik eynilə bu tip Qazax xalçasına Amerikanın Pensilvaniya muzeyində rast gəlinir.

Almaniya 1998-ci ildə 16.5 mln qonaq qəbul etmişdi. Bunu AFR-də olan bahalıq və milli valyutanın yüksək məzənnəsi ilə izah etmək olar. Buna baxmayaraq AFR-nın turizmdən əldə etdiyi gəlir (18.8 mlrd $) Avstriyanın gəlirindən xeyli çox idi. 1990-cı ildə tur/günlərin sayı 255 mln-a çatmışdı, bunlardan 86 % ölkədaxili turizmin payına düşürdü. Lakin son dövrdə daxili turizmin artımı xaricə səfər edənlərin hesabına zəifləyir. Bunu isə almanların adam başına düşən gəlirin artması ilə izah etmək olar.

Almanlar otellərdə və mehmanxana tipli digər yaşayış yerlərində qalmağa üstünlük verirlər. Bu yaxınlara qədər özünəxidmət sahəsində yerləşdirmə yerləri də müəyyən nüfuza malik idi. Onların böyük hissəsi Şərqi Almaniyada, Bavariyada cəmləşmişdi. 1990-cı illərdə Şərqi Almaniyada beynəlxalq meyarlara uyğun olan otellərin çatışmazlığı duyulurdu. Odur ki, beynəlxalq turizm layiqincə inkişaf edə bilmirdi.

Almaniyanın birləşməsinə qədər Qərbi Almaniya, buraya müxtəlif məqsədlərlə gələn külli miqdarda turist qəbul edirdi. Bu halda istirahət məqsədli səfərlər azlıq təşkil edirdi. Xarici qonaqların çoxu dostlarını, qohumlarını ziyarətə gələnlər idi. ABŞ-dan, Böyük Britaniyadan gələnlər xüsusilə çox idi. Bu da NATO qoşunlarının ölkə ərazisində yerləşməsi ilə əlaqədardır. Böyük Britaniya, Fransa, İsveçrə və Yaponiya kimi işgüzar məqsədlərlə gələnlərin də sayı xüsusilə yüksək idi. Hannover, Hamburq, Düsseldorf, Ştutqart, Münhen və digər şəhərlərdə keçirilən çoxsaylı beynəlxalq ticarət sərgiləri, konfranslar əhəmiyyətli rol oynayırdı.

Almaniya vahid federativ dövlət şəklində birləşdik-dən sonra keçmiş ADR-ın iqtisadiyyatına, o cümlədən turizmin inkişafına yüz *mlrd* sərmayə qoydu. Son dövrlərdə Almaniyada xaricə səfərlərin miqdarı durmadan artır, bu da əhalinin adam başına düşən *gəlirinin* artmasına dəlalət edir. 1997-ci ildə adam başına düşən illik gəlir 201 min $ təşkil etmişdi.

Almaniya Alp dağları, Fransa, Aralıq dənizinə gedən yolların kəsişdiyi yerdə yerləşir. Odur ki, ölkə ərazisindən hətta gecələmədən xeyli tranzit turist keçir. Şərqi Avropadan, xüsusilə qonşu Polşadan çoxlu qonaq bir günlük alış - veriş səfərinə gəlir.

Amerikalılardan sonra almanlar məzuniyyət dövründə bədxərcliyi ilə fərqlənən turistlərdəndir. 1991-ci ildə bütün dünya turistlərinin ümumi xərclərinin 13 %-i onların payına düşürdü. Bir çox Avropa ölkələrinin turizm bazarı alman bazarı ilə sıx bağlıdır. Almanlar məzuniyyətə çıxanda Aralıq dənizi sahillərini istirahət üçün ən əlverişli yer hesab edirlər.

Keçən əsrin 80-cı illərinin sonunda almanlar İspaniyada dincəlməyə üstünlük verirdi, İtaliya isə ölkədə ekoloji şəraitin pisləşməsi səbəbindən nüfuzunu itirməyə başlamışdı. 1985-1989-cu illərdə alman turistlərinin İtaliyaya axını 20 %, İsveçrə, Avstriya kimi digər ölkələrə səyahətləri 18.4 %, Skandinaviya ölkələrinə isə - yalnız 5.1 % azalmışdı.

Almaniyanın birləşməsi, keçmiş Yuqoslaviyanın dağılması, «Səhrada fırtına» əməliyyatı və digər siyasi hadisələr, habelə 1990-1991-ci illərdə iqtisadi böhran alman turizmini zəiflətdi. 1991-ci ildən sonra İspaniya, Portuqaliya, Türkiyə və Kipr kimi ölkələrə səfərlər artdı, halbuki, 1990-91-ci illərin böhranı dövründə də onların artımı yüksək idi. Valyuta məzənnələrindəki fərq daim dəyişsə də uzaq səfərlərin çoxu ABŞ-ın payına düşürdü. Uzaq Şərq alman bazarı üçün ikinci yeri tutur. Yaponiya, Sinqapur, Tailand, Honkonq kimi ölkələrdə biznes-turizm xüsusilə gur inkişaf edir. Maldiv adaları, Şri-Lanka, Keniya və başqaları almanlar üçün digər uzaq turizm mərkəzləridir.

1990-cı ilə qədər Almaniyanın qərb və şərq hissələri müxtəlif turizm zonaları kimi fəaliyyət göstərirdi. Şərqi Almaniyanın turizm bazarı yaxşı təşkil olunmuşdu. Əgər sosializm düşərgəsinin digər ölkələri ilə turist mübadiləsi nəzərə alınmasa, onun beynəlxalq turizm bazarı çox məhdud idi. 1990-cı ildə Şərq almanlarının yalnız 25 %-i xaricə gedə bilirdi. 1991-ci ildə bu rəqəm artıq 45 % təşkil etmişdi.

Müharibədən sonrakı dövrdə Qərbi Almaniya Qərbi Avropanın turist axınlarına inteqrasiya olunmuşdu. Lakin 90-cı illərin əvvəlində iqtisadiyyatda baş verən müəyyən durğunluq xarici səfərlərin sayını azaltdı. Eyni zamanda Qərbi Almaniyada xarici səfərlərin azalması ölkənin şərqində baş verən artımla tarazlanırdı.

Bu gün Almaniya öz qüdrətli iqtisadiyyatı sayəsində dünyada ən əhəmiyyətli turizm bazarı kimi qalmaqda davam edir. Ölkənin şərqi və qərbi arasında cərəyan edən turist axınları qarşısında açılan imkanlar gələcəkdə Avropa ölkələri üçün yeni turizm modeli yaratmağa qadirdir.

## *3.5. RUSİYA FEDERASİYASI*

| | |
|---|---|
| **Rəsmi adı** | **Rusiya Federasiyası** |
| **Ərazisi** | **17075.2 km$^2$** |
| **Əhalisi** | **144526278 nəfər (2003)** |
| **Paytaxtı** | **Moskva** |
| **Coğrafi koordinatları** | **60° Şm.e., 100° Ş.u.** |
| **Sahil xəttinin uzunluğu** | **37653 km** |
| **Etnik tərkibi** | **Ruslar-81 %, tatarlar-3.8 %, ukraynalılar-3 %, çuvaşlar-1.2 %, başqırdlar-0.8 %, moldavanlar-0.7 %, başqaları-8.1%** |
| **Din** | **Pravoslav dini, İslam dini və b.** |
| **Dövlət dili** | **Rus dili** |
| **İdarəetmə forması** | **Federasiya** |
| **İnzibati ərazi bölgüsü** | **49 vilayət, 21 respublika, 1 muxtar dairə, 6 ölkə, 2 federal şəhər, 1 muxtar vilayət** |
| **İqlim** | **Avropa hissəsində cənubda düzənlik və mülayim iqlimdən şimalda qütb şaxtalı iqlimə qədər. Qış mövsümü Qara dəniz sahillərində sərin, Sibir ərazisində sərt şaxtalı keçir. Yay mövsümü şimalda sərin, cənubda isti keçir.** |
| **Relyefi** | **Uraldan qərbə düzənlik və alçaq yüksəkliklər Sibirdə geniş iynəyarpaqlı meşələr, cənub sərhədləri boyu dağlıq ərazilər** |
| **Dövlət bayrağı** | **Yuxarısında-ağ, ortasında-mavi, aşağısında-qırmızı olan üç eyni ölçüdə zolaqlardan ibarət bayraq** |
| **Milli bayram** | **Müstəqillik günü, 12 iyun (1990-cı ildən)** |
| **Konstitusiya** | **12 dekabr 1993-cü il** |
| **Pul vahidi** | **Rubl** |

Rus mədəniyyətini ümumdünya mədəniyyəti axarında anlamaq daha düzgün olar. Məsələn, Oneqa gölündə aşkar edilmiş paleolit və mezolit dövrü tapıntıları göl ətrafında yaşayan qəbilələrlə şimal german qəbilələri arasında olan mədəni yaxınlıqdan xəbər verir. Yəni qədim rus mədəniyyəti təkcə şərqi slavyan adət-ənənələrinin əsasında yaranmayıb. L .N. Qumilyov və V. O. Klüçevski digər etnosların (məsələn, karel-fin qəbilələrinin) da folklor və tətbiqi sənətinin rus mədəniyyətinə təsirindən yazırlar.

Rusiya ümum Avropa mədəniyyəti dairəsindən heç vaxt kənarda qalmayıb. Avropa həmişə bu heyrətamiz şərq dövlətinə böyük maraq göstərib. Katolisizm və protestantizm təriqətləri mütəmadi olaraq rus millətini öz təsir əhatəsinə cəlb etməyə çalışıblar.

XVII əsr dramaturqları Kalderon və Lope de Veqa pyeslərində rus motivlərinə müraciət ediblər. İngiltərə kraliçası Böyük Yelizaveta XVI əsrdə Rusiyaya ekspedisiya göndərir, İvan Qroznı ilə uzun müddət yazışır. Bundan başqa Bizans dövlətinin mənəvi ruhu ilə orta əsrlər rus mücahidliyi arasında bağlılıq aşkar edirik, İtaliya intibahı Moskva Kremlinin, Qranovitaya Palatasının, Uspenie məbəd divarlarının qədim memarlıq sirlərini açır. Rusiya kitab çapı, saat, araq və s. kimi ixtiraları qəbul edir, Avropa ədəbiyyatı ilə maraqlanır, təbiətinə yad olan katolik savad və biliklərindən də kənarda qalmır. I Pyotrun "qəribləşdirmə" siyasəti Avropa ilə mədəni mübadiləni sürətləndirir. Avropa sivilizasiyası ilə sıx ünsiyyət ölkənin uyğun mədəni inkişafına təkan verir. Bəzən Rusiya mədəniyyətinin müəyyən təzahürləri Avropa mədəniyyəti istiqamətləri ilə paralel inkişaf edir, bəziləri geri qalır, bəziləri hətta qabaqlayır. Rusiyada ilk kütləvi kunstkamera, kütləvi kitabxana, Elmlər Akademiyası uyğun Avropa təsisatlarının ön cərgəsində meydana gəlir.

Rusiya Avropa bədii cərəyanlarının üslub qaydalarının təsiri altına düşür, eyni zamanda onları öz milli mədəni ənənələrinə uyğunlaşdırır. XVIII əsrin ikinci yarısından başlayaraq Rusiya yüksək dərəcədə Avropa mədəniyyətinə inteqrasiya olunur, hətta bir çox sahələrdə Finlandiya, Norveç, Danimarka, İsveç kimi Skandinaviya ölkələrini geridə qoyur.

XVIII əsrin ikinci yarısından Rusiya mədəniyyəti sivilizasiyası Avropa mədəniyyəti çərçivəsində müstəqil inkişaf yoluna qədəm qoyur. Bu baxımdan bir çox mədəni proseslər paralel inkişaf edir və vahid nəzəri müddəalara dayaqlanır. Məsələn XIX əsrin birinci yarısında rus romantizmində ənənəvi memarlıq üslubuna (saxta Bizans üslubu), təsviri sənətdə ekzotik, tarixi mövzulara, mənzərələrə meyl müşahidə olunur. Rus ədəbiyyatında romantizm gur təzahür edir (Jukovski, Puşkin, Lermontov və b.).

Milli tarixə romantizm mövqelərindən baxış Rusiyada slavyanofil hərəkatının meydana gəlməsinə səbəb olur. Oxşar cərəyanlara Avropa ölkələrində də rast gəlirik (İsveçdə "Qotlar ittifaqı", Finlandiyada finnofil mədəni cərəyanı və b.) XIX əsrin birinci yarısında Avropada hökm sürən akademik istiqamət əsrin ortalarında tədricən tükənib hakim mövqelərdən məhrum olur. Peterburqda "14-lərin qiyamı" və səyyar rəssamların əsərlərinin sərgilərinin təşkili, Parisdə 1874-cü ildə impressionizm rəsmlərin ilk sərgisi buna parlaq misal ola bilər.

Gerçəklikdə Avropa mədəniyyətində inteqrasiya meylləri milli ənənəvi formalar vasitəsi ilə həyata keçir. Rusiya Avropa mədəniyyətini mənimsəyir, lakin onda təzahür edən ümum Avropa prosesləri sırf ənənəvi-milli formaya düşür, bu isə gedən proseslərin özünəməxsusluğunu müəyyən edir. Pravoslav dini və onun təsiri altında formalaşmış milli xasiyyət, milli yaradıcılıq, milli tarix və ötən əsrlərdən gələn milli mədəni irs də mühüm rol oynayır. XVIII əsr rus mədəniyyətində Avropa inteqrasiyası və ənənəvi milli meyllər bir-birinə qovuşur. Belə ki, rus mədəniyyətində Qərbi Avropa amilini milli ənənədən ayırmaq mümkün deyil. Eyni zamanda Avropa mədəniyyəti zəminində inkişaf etmiş Rusiya milli mədəniyyətinin özünəməxsusluğunu xüsusi qeyd etmək zəruridir.

Ruslar min ildən artıqdır ki, etnos kimi formalaşıblar. Etnoqraflar rus milli xasiyyəti, ənənəvi mədəniyyəti və məişətinə külli sayda tədqiqat əsərləri həsr ediblər. XIX əsrdə rus xalqının psixoloji portretini təhlil edən bir sıra tədqiqatlar meydana gəlib.

P. İ. Kovalevski "Rus mədəniyyətinin psixologiyası" əsərində skif, sarmat və qədim slavyanların etnik tarixinə əsaslanaraq rus slavyan xasiyyətinin formalaşmasından yazır. N. M. Berdyayev "Rusiyanın taleyi" tədqiqatında rus xasiyyətinin və Rusiya dövlətçiliyinin təbiətini, qarşılıqlı münasibət və təsirini təhlil edir.

H.O. Losski dini fərdiyyətçilik nöqteyi-nəzərdən "rus xalqının ruh düsturunu üzə çıxarmağa çalışır. P. Sorokin rus milli xasiyyətinin başlıca əlamətlərinin fəlsəfi-sosioloji təhlilinin əsasını qoyur. D. Pibodi rus milli xasiyyətinin stereotipləri əsasında psixosemantik təhlil keçirir. Z. V. Sikeviç milli xasiyyəti milli özünüdərk duyğusunun özəyi kimi müəyyən edir. Y. Bromley, M. Qromıko, L. Rumilyov, L. Drobijeva, B. Kozlov, İ. Kon, A. Kuzmin, D. S. Lixaçov, S. Savoskul, A. Susokolov, V. Tişkov və başqaları rus etnosu psixikasının tədqiqinə dair əhəmiyyətli yazılarla çıxış edirlər.

E. Fromm, M. Mid, D. Rismen, C. Qorer, E. Erikson kimi xarici tədqiqatçılar da əsərlərində həmin problemə əhəmiyyətli yer ayırmışlar. Tarixi, iqtisadi və siyasi inkişafının bir çox xüsusiyyətlərinə, dini,

mədəni, dil, miqrasiya amillərinin göstərdiyi təsirə görə bir çox millət və xalqlar, etnik və etnoqrafik qruplar arasında təsərrüfatçılıq, mədəni və milli psixoloji oxşarlıqlar mövcuddur.

Kiyev Rusiyası rus, Ukrayna və belorus xalqlarının formalaşmasının əsasını qoyub. Rus torpaqları tarix boyu şərq, cənub və qərb istiqamətlərindən çoxsaylı işğallara məruz qalıb. Düşmənlərlə şiddətli döyüşlərdə öz müstəqilliyini müdafiədə döyüş şücaətini nümayiş etdirən ruslarda vətənə sədaqət, məhəbbət duyğusu güclü inkişaf edib. Hətta düşmənlər etiraf edir ki, rus xalqı dəlicəsinə cəsurdur, rus döyüşçüsü əsir düşməkdənsə ölümə üstünlük verir.

Ukraynalılar işə can yandıran, səliqəli, işgüzar, azadsevər insanlardır, çeviklik və zarafatçılığı ilə seçilirlər.

Uzun əsrlər boyu beloruslar saysız-hesabsız işğalçılarla üzləşmiş, hər dəfə həyatı yenidən qurmağa, torpaqları dağıntılardan qaldırmağa, şəhər və kəndləri yenidən bərpa etməyə məcbur olmuşlar. İnadçılıq, səbat bu xalqın başlıca xüsusiyyətlərindəndir. Beloruslar əməksevərlik, təvazökarlıq, nizam-intizama hörmətlə fərqlənirlər.

Rusiyanın böyük və kiçik tarixi şəhərlərində, bəzən hətta kənd və qəsəbələrində külli miqdarda tarixi memarlıq abidələrinə təsadüf etmək olar. Belə zəngin tarixə malik məskənlər tədqiqatçıların, şair və yazıçıların, memar və rəssamların, habelə turistlərin diqqətini daim cəlb edib. Moskvadan şimal-şərq istiqamətində uzanan "Rusiyanın Qızıl dairəsi" turist marşrutu ölkənin ən qədim tarixi şəhərlərini əhatə edir. Keçən əsrin 70-ci illərindən fəaliyyət göstərir.

## "RUSİYANIN QIZIL DAİRƏSİ" TURİST MARŞRUTU




Rusiyanın böyük və kiçik tarixi şəhərlərində, bəzən hətta kənd və qəsəbələrində külli miqdarda tarixi memarlıq abidələrinə təsadüf etmək olar. Belə zəngin tarixə malik məskənlər tədqiqatçıların, şair və yazıçıların, memar və rəssamların, habelə turistlərin diqqətini daim cəlb edib. Moskvadan şimal-şərq istiqamətində uzanan, keçən əsrin 70-ci illərindən fəaliyyət göstərən "Rusiyanın Qızıl dairəsi" turist marşrutu ölkənin ən qədim tarixi şəhərlərini əhatə edir.

### *Sergiyev Posad*

"Qızıl dairə" üzrə turist marşrutunda Rusiyanın paytaxtı Moskva şəhəri başlanğıc nöqtə hesab edilir. Troitsk-Sergi ziyarətgahı ilə vəhdət təşkil edən Sergiyev Posad şəhəri Moskvaya ən yaxın məntəqədir. Onu həm də Rusiya Vatikanı adlandırırlar. Moskva vilayəti ərazisində yerləşir.




Təməli 1742-ci ildə qoyulub. Əhalisi 114 min nəfərdir. Sovet vaxtı şəhər Zaqorsk adlanırdı. Sergiyev Posad "Qızıl dairənin" mirvarisi sayılır. Şəhər Rusiya bölgələrini paytaxtla birləşdirən nəqliyyat arteriyalarının üzərində əlverişli mövqe tutub. Şəhərdə elektronika və məişət texnikası sənayesi inkişaf edir. Rusiya Silahlı qüvvələrinin mərkəzi Aviasiya bazası burada yerləşir.

Sergiyev Posadın başlıca tarixi, mədəni, dini abidəsi Troitse-Sergi məbədidir. Troitse-Sergi monastırını sonradan rus pravoslav kilsəsi tərəfindən müqəddəs elan olunan Sergi Radonejski (1321-1391) təsis edib. Sergi Radonejski knyaz Dmitri Donskoyun yaxın adamı idi, knyazın rus torpaqlarını birləşdirmək və xalqı monqol-tatar əsarətinə qarşı mübarizəyə qaldırmaq siyasətini müdafiə edirdi. Kulikov döyüşü ərəfəsində Dmitri Donskoyu və birləşmiş rus drujinalarını ruhlandırmış, xeyir-dua vermişdi.

### *Pereslavl-Zalesski*

Pereslavl-Zalesski şəhəri Moskvadan 10 km aralı Pleşşeyev gölünün sahilində, Yaroslav vilayətinin ərazisində yerləşir. Əhalisinin sayı cəmi 43 min nəfərdir. Əsası 1152-ci ildə böyük knyaz Yuri Dolqoruki tərəfindən qoyulub. Əsrarəngiz təbiətə malikdir. Pleşşeyev gölü və Trubej çayı sahillərində turizm zonaları sürətlə inkişaf edir.

Pereslavl-Zalesski Rostov-Suzdal knyazlığının müdafiə sistemində hərbi istehkam rolunu oynayırdı. XIV əsrin əvvəlində Moskva knyazlığı qüdrətli dövlətə çevrilir. Monqollar tərəfindən dağıdılmış Pereslav-Zalesski Moskva knyazlığının tabeçiliyinə keçir. XVII əsrdə məhz Pleşşeyev gölündə rus donanmasının təməli qoyulur. I Pyotr Veskov kəndi yaxınlığındakı tərsanədə ilk gəmilərini suya salır.




Müasir Pereslav-Zalesski mədəniyyət abidələri xəzinəsidir. Abidələrin qorunması üçün 1788-ci ildə Pereslavsk milli parkı yaradılıb. XIV-XVII əsrlərə aid dörd monastır kompleksi şəhərin tarixi görkəminə xüsusi məlahət verir.

Şəhərdə kimya, texniki tekstil sənayesi inkişaf edib.

***Böyük Rostov***

Böyük Rostov Rusiyanın ən qədim şəhərlərindən biridir. Salnamələrdə onun adı ilk dəfə 862-ci ildə çəkilir. Yaroslav vilayətində Nero gölü sahilində yerləşir. Əhalisi 34 min nəfərdir. Böyük Rostov zəngin rus milli mədəniyyəti abidələrinin qorunduğu şəhər-muzeydir.

Rostovda bu gün 12 sənaye müəssisəsi fəaliyyət göstərir. Məşhur “Rostov minası” fabriki məhz Rostovda yerləşir.




Qədimdə Nero çayı sahillərində müxtəlif qəbilələr - uqro-finlər, merlər yaşayırdı. IX əsrin sonunda Oka və Volqa çayları arasındakı vadiyə slavyan-kriviçlər və novqorodlular gəlirlər. İlk müstəqil Rostov knyazlığının knyazı Yuri Dolqoruki olub. Onun vaxtında knyazlıq genişlənir, şəhər Böyük Rostov adlanmağa başlayır. Rostov Kremlində Yaroslavl-Rostov memarlıq-təsviri sənət muzey-qoruğu fəaliyyət göstərir. Rostovda ilk muzey 1883-cü ildə yaranmışdı. İlk əvvəl nadir kilsə əşyaları muzeyi kimi təsis edilən muzey sovet dövründə diyarşünaslıq muzeyinə çevrilir. Onun əsas eksponatları - XV əsr ikonaları əsasən Samuil zalında nümayiş etdirilir. Eksponatlar arasında külli miqdarda qədim məişət əşyalarına, hərbi geyimə, ağac üzərində oyma, heykəltəraşlıq və s. əşyalara təsadüf etmək olar. Bütün əşyalar yüksək bədii zövqlə işlənib və qədim rus sənətkarlarının yüksək zövq və məharətindən xəbər verir. Kremldə yerləşən kilsələr ansamblı müəyyən saatlarda turistlərin ziyarəti üçün qapılarını açır.

***Uqliç***

Uqliç şəhəri Yaroslav vilayətində Volqa sahilində yerləşir. Liman şəhəridir. Qədim tarixə malikdir. Təməli 937-ci ildə qoyulub. Əhalisi 37 min nəfərdir.

Sovet dövründə su elektrik stansiyasının və zavodların inşası şəhərin görkəmini dəyişmişdi. Eyni zamanda zəngin tarixi abidələr olan məbədlər, monastırlar dağıdılmış, bədii və tarixi incəsənət əsərləri məhv edilmişdi. 1950-80-cı illərdə görülən bərpa işləri qismən də olsa bir çox abidələri gələcək nəsillər üçün qoruyub saxlamağa imkan yaratdı.




Uqliç haqqında ilk yazılı məlumat İpatyev Salnaməsində 1148-ci il tarixində qeydə alınır. Salnamə Kiyev, Smolensk, Novqorod knyazlarının Yuri Dolqorukinin üzərinə yürüşə çıxdıqları haqqında xəbər verir. 1207-ci ildə Rostov-Suzdal knyazlığının tərkibində Uqliçin də adı çəkilir. Uqliç ixtiraçı Kalaşnikov, akademik Oparinin vətənidir.

Volqa sahilində yüksəklikdə yerləşən Kreml Uqliçin qədim mərkəzidir. Keçən əsrin əvvəlində Kremldə park salınıb. Uqliçin bizim dövrə qədər qorunub saxlanılmış ən qədim abidəsi knyaz Böyük Andreyin Daş Palatasıdır. Bina divarları kərpic və

rəngli yonulma daşlardan ibarət naxışla bəzədilmişdir. Daş Palata Böyük Andreyin sarayı və Cpas-Preobrajensk məbədi ilə ansambl təşkil edir. 1653-cü ildə Şahzadə Dmitrinin qətlə yetirildiyi yerdə kilsə inşa edilmişdir. Divarları qırmızı boya ilə rənglənmiş və ağ haşiyə ilə çərçivələnmişdir. 1628-ci ildə Kremldə Uspenye kilsəsinin təməli qoyulmuşdur. Onu əsrarəngiz kilsə adlandırırlar. Üç möhtəşəm günbəz kilsəyə xüsusi gözəllik gətirir. Voskresensk monastırının yanında, Volqa sahilində İoann Predteçanın mövludu kilsəsi ucalır. Bu, XVII əsr memarlığının gözəl nümunəsidir. Uqliçin tarixi hissəsində külli miqdarda XVII əsrə aid mülki təyinatlı binalar qorunub saxlanılıb.

***Rıbinsk***

Tarixdə “burlaklar məskənlərinin ticarət paytaxtı” kimi tanınan Rıbinsk Yaroslav vilayətində, Şeksna çayının Volqa ilə qovuşduğu yerdə yerləşir. 1946-cı ildən 1989-cu ilə qədər şəhərin adını dörd dəfə dəyişmişdilər. Nəhayət tarixi adını özünə qaytardılar.

Təməli 1071-ci ildə qoyulub. Əhalisi 217 min nəfərdir. Rıbinskin füsunkar mənzərələrini seyr edərkən rus səyyar rəssamların əsərləri sanki göz önündə canlanır. Rıbinsk indiyə qədər qədim tacirlər




şəhəri görkəmini qoruyub saxlayır.

Rıbinsk balıqçı məskəni kimi XII əsrdən məlumdur. 1777-ci ildə şəhər statusu almışdır. Keçən əsrin 30-cu illərində Rıbinsk iri sənaye şəhərinə çevrilir. Hələ 20-ci illərdə şəhərdə ilk təyyarə mühərrikləri istehsal edilir. 1934-cü ildə aviasiya institutunun ilk məzunları istehsalata vəsiqə alırlar. Bu gün Rıbinsk Aviasiya texnoloji akademiyası aparıcı ali məktəblərdən biridir.

Hazırda Rıbinsk şəhərində maşınqayırma və energetika sahələri uğurla inkişaf edir. Rıbinsk nəhəng Volqa limanıdır. Volqa-Baltika sistemi yaradılandan sonra onun əhəmiyyəti daha da artıb.

İldən-ilə turist teploxodlarının da sayı artır. Turistləri ilk növbədə çay vağzalı yanında yerləşən tarix-təsviri sənət muzeyinə ekskursiyaya dəvət edirlər. Tarix bölməsində qədim məskənlərdən bəhs edən eksponatlar nümayiş etdirilir. Rəsm qalereyasında Şişkin, Kramskoy, Repin, Ayvazovski kimi görkəmli rus rəssamlarının əsərləri sərgilənir.

1811-ci ildə rus klassisizmi üslubunda tikilmiş çay vağzalının binası diqqəti cəlb edir. Barokko üslubunda inşa edilmiş məbədin zəng qülləsi XVIII əsrə aiddir. XIX əsrə aid olan sabiq Pereslavtsev mülkünün tavanları gözəl rəsmlərlə bəzədilib. Burada kitabxana yerləşir. Şəhərin tarixi guşəsində XIX əsr-XX əsrin əvvəli üçün səciyyəvi olan konstruktivizm memarlıq üslubunda inşa edilmiş tacir mülkləri nəzərə çarpır. Rıbinsk fizioloq Uxtomski, şair Surikov, rəssam Sokolovun vətənidir.

***Yaroslavl***

Yaroslavl Yaroslav vilayətinin inzibati mərkəzidir. Güman ki, 1010-cu ildə salınıb, adı ilk dəfə 1071-ci ildə çəkilir. “Qızıl dairənin” ən iri şəhərlərindəndir. Əhalisi 605 min nəfərdir. 1750-ci ildə təsis olunmuş F. Volkov ad. qədim rus teatrı burada yerləşir.




Şəhərin tarixi hissəsi Volqa və Kotorosl çaylarının qovuşduğu yerdə yerləşir. Görkəmli rus şairləri Nikolay Nekrasov, vokal ifa ustadı Leonid Sobinov, hindşünas Gerasim Lebedev, etnoqraf M. Çulkov, pedaqoq Konstantin Uşinski, kosmonavt qadın Valentina Tereşkovanın adı Yaroslavl ilə bağlıdır. Şəhərin futbol, xokkey, voleybol komandaları idman nailiyyətləri ilə bütün ölkədə tanınıb.

Bu gün Yaroslavl Rusiyanın iri sənaye və mədəniyyət mərkəzlərindən biridir. Şəhər mühüm avtomobil, dəmiryolu və çay nəqliyyatı arteriyalarının kəsişdiyi yerdə əlverişli mövqe tutub.

Lakin Yaroslavl ilk növbədə mədəniyyət abidələri xəzinəsi kimi şöhrət tapıb. Böyük Rostovun hüdudlarının qorunması üçün knyaz Yaroslav tərəfindən inşa edilib. 1218-ci ilə qədər Rostov-Suzdal knyazlığının, sonra Yaroslavl knyazlığının tərkibində olub. O dövrdə daş malikanələr və kilsələr tikilir, Spas monastırının təməli qoyulur. Batı xanın yürüşü şəhərin inkişafına son qoyur. Yaroslavlılar Aleksandr Nevskinin Buz döyüşündə və Dmitri Donskoyun Kulikov savaşında iştirak etmişdilər. 1463-cü ildə Yaroslavl Moskva dövlətinin tərkibinə daxil olur. Sonrakı əsrlərdə şəhərin ticarət əhəmiyyəti daha da artır, çünki Volqa çayının aşağı axarından Qərbi Avropaya gedən ticarət yolları burada kəsişirdi. Yaroslavl sənətkarları nəfis gümüş və mis qablar istehsalında böyük məharət nümayiş etdirirdilər.

***Kostroma***

Qar qızın vətəni




Moskvadan 330 km aralı şimal-şərqdə Kostroma düzündə, Volqanın hər iki sahilində qədim Kostroma şəhəri yerləşir. Qədim sənədlərdə adı ilk dəfə 1152-ci ildə çəkilir. 1719-cu ildə şəhər statusu alır. Əhalisi 276 min nəfərdir. 2006-cı ildə Kostroma rəsmi olaraq Qar qızın vətəni elan olunub. Tədqiqatçılar hesab edirlər ki, şəhərin adı fin-uqor dilində "kostrum"- qala sözündən götürülüb. Digər fərziyyəyə görə qədim rus bayramı "maslenitsaya" oxşar "kostroma" mərasimi bu yerlərdə keçirilirmiş. Şəhərin tarixi abidələri ilə bağlı çoxlu rəvayət mövcuddur. Məsələn rəvayətlərdən birində Kostroma torpaqlarından keçən tatar məmuru Çet Mirzənin xəstələndiyindən bəhs edilir. Guya Müqəddəs Məryəm və övliya Filip ölüm yatağına düşmüş Çet Mirzənin yuxusuna girirlər. Bundan sonra şəfqət tapmış Çet Mirzə minnətdarlıq hissi ilə xristianlığı qəbul edir və bu yerlərdə çox məşhur olan İpatyev monastırının təməlini qoyur.

1152-ci ildə knyaz Dolqoruki Volqanın Kostroma çayı ilə qovuşduğu yerdə qala tikir. 1213-cü ildə Kostroma Rostov knyazı Konstantin tərəfindən, 1238-ci ildə monqol-tatarlar tərəfindən yandırılır. 1236-cı ildə müstəqil knyazlıq olur. XIV əsrin ortalarında Moskva knyazlığının tərkibinə daxil olur. XVI əsrdə güclü ticarət və sənət mərkəzinə çevrilir.

Həmin dövrdən külli miqdarda memarlıq abidələri qalmışdır. XIX əsrin əvvəlində Kostroma mühüm sənaye şəhəri olur.

Tarix-memarlıq muzey qoruğu şəhərin qərb hissəsində, İpatyev monastırı ərazisində yerləşir. Böyük tarixi dəyərə malik İpatyev monastırı qədim memarlıq abidələri ansamblıdır. Monastır ərazisi Qədim şəhər və Yeni şəhər adlanan iki hissədən ibarətdir.

XVI əsrin sonunda İnatyev monastırı 13 min desyatin (1 desyatin = 1.092 ha) əkin torpaqlarına malik idi, tabeçiliyində 400 kənd mövcud idi. Qədim şəhər düzgün beşbucaqlı şəklindədir. Şəhər divarları üzərində Qızıl, Kvadrat, Su, Barıt və Şimal-qərb qüllələri ucalır. 1767-ci ildə II Yekaterinanın gəlişi ərəfəsində şimal divarında Yekaterina darvazası qurulub. Yeni şəhər divarları üzərində Cənub-qərb qülləsi və Yaşıl qüllə yüksəlir. Yaşıl qüllənin zirvəsini yaşıl kirəmitlə örtülü günbəz bəzəyir. Monastır mülklərindən Troitsk məbədi xüsusi maraq doğurur. Kubşəkilli tikili ənənəvi beş günbəzli başlıqla tamamlanır.

Məbəd üç tərəfdən ikimərtəbəli dəhlizlə əhatə olunub. Məbədin daxili divarları gözəl ornamentlə bəzədilib. Taxta lövhələr üzərində işlənmiş ikonalar toplusu XVII-XVIII əsrlərə aiddir. Troitsk məbədinin qərb divarı yanında üçmərtəbəli Zəng qülləsi ucalır. Məbədinin şimal divarına bitişik 1649-cu ilə aid günbəzli dördmərtəbəli qüllə monastırın memarlıq ansamblını tamamlayır. Monastırın mülki binaları da diqqətəlayiqdir. Arxiyerey körpüsü ərazinin şimal-şərqində yerləşir. Korpusun mərkəzində Xrisanf və Darya kilsəsi ucalır. XVII-XVIII əsrlər üslubunda inşa edilmiş rahiblər korpusunda bu gün monastırın tarix şöbəsi yerləşir.

Yeni şəhərin ərazisində sabiq Əlillər evinin binası, 1955-ci ildə Spas-Veji kəndindən buraya köçürülmüş Preobrajeniye kilsəsi və Jarki kəndindən köçürülmüş taxta hamamlar qrupu yerləşir. Bu tikililər Ağac memarlığı muzeyinin tərkib hissələridir. Muzeyin digər eksponatları İpatyev monastırı yaxınlığındakı Trudovaya sloboda adlanan qəsəbədə yerləşir.

Kostroma vilayət təsviri sənət muzeyində XVI-XVIII əsrlərdə yaşayıb-yaratmış ikona rəssamları və heykəltəraşlarının işləri nümayiş etdirilir. Çernetsov qardaşları, Şişkin, Repin, Paxitonov, Pimonenko, Yaroşenko kimi XIX-XX əsrlərin görkəmli sənətkarlarının əsərləri də burada saxlanır.

Kostromada qədim rus memarlığının digər nümunələri də olduqca maraqlıdır. Onların arasında ən əhəmiyyətliləri sabiq Boqoyavleniye monastırı kompleksi və Debra üzərində Voskresenie kilsəsidir. Boqoyavleniye monastırı dörd sütunlu kubşəkilli beş günbəzli tikilidir. Binanın şərq tərəfinə mehrabın üç

apsidası (apsida - kilsə divarlarında yarımqövs şəkilli çıxıntı) bitişir. Voskreseniye kilsəsi 1652-ci ildə XVII əsr memarlığı üçün səciyyəvi olan üslubda tikilib. Dörd sütunlu kvadrat binanı üç tərəfdən dəhlizlər əhatə edir, onlar öz növbəsində şərq divarında iki əlavə mehrab tikililəri ilə tamamlanır.

İnqilab və Sovet meydanlarında yerləşən Ticarət sıraları da böyük şöhrət tapıb. Böyük Un məmulatı sırası və Qırmızı sıra 1789-93-cü illərdə Vladimir memarı Kellerin layihəsi əsasında memar Vorotilov tərəfindən inşa edilib.

Müasir Kostroma sənaye və mədəniyyət mərkəzidir. Burada ağac emalı sənayesi və metallurgiya inkişaf edib, kətan məmulat istehsal edilir. Şəhərdə universitet, ali hərbi məktəb, kənd təsərrüfatı akademiyası, texnologiya institutu, dini məktəb fəaliyyət göstərir. Eyni zamanda Kostroma qədim tacirlər şəhəri görkəmini qoruyub saxlayır.

***İvanovo***

Rusiya Mançesteri

İvanovo şəhərini "Ərlik qızlar şəhəri", "İlk fəhlə deputatları soveti şəhəri", "Rus Mançesteri" adlandırılar. Uvod çayı üzərində yerləşən şəhərin bünövrəsi 1871-ci ildə qoyulub, lakin İvanovo kəndi haqqında ilk yazılı məlumatlar 1561-ci ilə aiddir.




Şəhər dörd inzibati rayona bölünür. Hazırda əhalisinin sayı 418 min nəfərdir. "Qızıl dairənin" tarixi şəhərlərinə nisbətən gənc olmasına baxmayaraq, İvanovoda kifayət qədər müxtəlif dövrlərə aid olan memarlıq kompleksləri mövcuddur. Gözəl imarətlər və toxuculuq fabrikinin korpusları şəhərin memarlıq görkəmini müəyyən edir. Belə qəribə uyğunluq İvanovo şəhərinin özünəməxsus üslubudur.

1561-ci ildə İvan Qroznı İvanovo kəndini ikinci arvadının qardaşları Çerkasov knyazlarına bağışlayır. XVII əsrin əvvəlində İvanovonu Polşa işğalçıları zəbt edirlər. XVII əsrdə kənddə tətbiqi sənət sürətlə inkişaf edir, toxuculuq istehsalı artır, parçaların boyanması və emalı sənəti dirçəlir.

Təhkimçilik hüququ ləğv edildikdən sonra İvanovo kapitalizm inkişafı yoluna qədəm qoyur.

Vilayət Diyarşünaslıq muzeyi İvanovo şəhərinin başlıca mədəniyyət iqamətgahıdır. Muzeydə vilayətin təbiəti, qədim dövrlərdən bu günə qədər tarixi haqqında külli miqdarda eksponatlar toplanıb. Müxtəlif təsvirlərdə işlənmiş parçalar kolleksiyası 1 mln eksponatdan ibarətdir. Qədim Misir, Yunanıstan, Roma, Çin incəsənəti sərgisi, qədim çap məmulatı nümunələri toplusu böyük maraq doğurur.

Təsviri sənət muzeyi də diqqətəlayiqdir. Burada Tropinin, Perov, Surikov, Serov, Nesterov kimi görkəmli rus rəssamlarının əsərləri nümayiş etdirilir. Palex və Xoluy miniatürləri kolleksiyası olduqca məşhurdur. Birinci deputatlar Soveti ev-muzeyində külli miqdarda materiallar və sənədlər toplanıb. İvanovo memarlıq abidələri sırasında Uspenie kilsəsi xüsusi yer tutur. O, XVII əsrin əvvəlində Uvod çayının sağ sahili yüksəkliyində Pokrov monastırında tikilib. 1813-cü ildə onu Uspeniye qəbiristanlığına, 1904-cü ildə isə sabiq posad ərazisinə köçürürlər. Bir qədər sonra tikilinin fasadı və quruluşunda müəyyən dəyişikliklər edilir. Uspenie kilsəsi Palex, Xoluy və Mstera sənətkarlarının əzəmətli təsvirləri ilə bəzədilib.

İvanovo maşınqayırma, tekstil və yüngül sənaye mərkəzidir. Onu çit parça diyarının paytaxtı adlandırırlar. İvanovo ölkənin tekstil mərkəzi olduğundan "rus Mançesteri" kimi də tanınır. Şəhərdə Şimal və Cənub aeroportları fəaliyyət göstərir. İnqilabi keçmişi ilə tanınan İvanovo eyni zamanda bədii ənənələrinin zənginliyi ilə məşhurdur.

1971-ci ildə İvanovo 100 illik yubileyini qeyd etmişdi.

İvanovo inqilabi ənənələr, ilk fəhlə deputatları Soveti, vətəndaş müharibəsi qəhrəmanları şəhəri kimi ad çıxarıb. Şəhərin xatirə yerləri, muzeylər, sənaye obyektləri turistlərin diqqətini daima cəlb edir.

***Suzdal***

Mədəni irs xəzinəsi

Suzdal "Qızıl dairənin" ən miniatür məntəqəsidir. Əhalisi cəmi 11 min nəfərdir. Vladimir vilayətində Nerli çayının qolu Kamenka çayı sahilində yerləşir. Məlumat kitabçalarında deyilir ki,



Suzdal 999-cu ilə qədər salınıb. Şəhər kimi ilk dəfə adı 1778-ci ildə çəkilir.

Hər il Suzdalda keçirilən Maslenitsa bayramı əzəmətli tamaşaya çevrilir. Küçə gəzintisi və milli rəqslər, milli rus oyunları minlərlə turisti bayram şənliyinə cəlb edir. Qədim milli reseptlər əsasında baldan hazırlanan medovuxa içkisi Suzdala şöhrət gətirib.

Tarixi mədəni abidələrin miqdarına, qədim görkəminin qorunub saxlanılmağına görə Suzdalın tayı-bərabəri yoxdur. Cəmi 9 $km^2$ ərazidə 300-dən çox XII-XIX əsrə aid tarixi dini və mülki memarlıq abidəsi qorunub saxlanır.

Hazırda Suzdal iri turist mərkəzidir. Milli irsin qorunub saxlanılmasına və turizmin inkişafına görə 1974-cü ildə dövlət, 1982-ci ildə isə beynəlxalq mükafata layiq görülüb. 1992-ci ildə Suzdal Kremli, Pokrov və Spas Yefimyev monastırları, Kidekşada isə Boris və Qleb kilsəsi kimi memarlıq ansamblları YUNESKO Ümumdünya İrs siyahısına daxil edilib.

Suzdal Böyük Rostov və Muromla yanaşı Rusiyanın ən qədim şəhərlərindəndir. Müxtəlif dövrlərdə knyazlıq paytaxtı, rus milli dövlətçilik və mədəniyyətinin formalaşdığı mərkəz, yeparxiya iqamətgahı olub. Yüksək inkişaf etmiş sənət növləri və ticarət mərkəzi kimi şöhrət tapıb. Hazırda şəhər-muzey kimi tanınır. Qədim Kreml, 5 monastır ansamblı, 30 posad kilsəsi, XVII-XVIII əsrlərə aid 14 zəng qülləsi, XVIII-XIX əsrlərə aid onlarla imarət qədim tarixin əyani səhifələridir. Suzdalı "Qızıl dairənin" mirvarisi adlandırırlar. Külli sayda gözəl saxlanılmış tarixi abidələr, şəhərin qədim görkəmi, nadir eksponatların sərgiləndiyi muzeylər, sənaye müəssisələrinin yoxluğu, nəhayət, ibtidai təbiət mənzərələri qədim rus tarixi və mədəniyyəti həvəskarlarını dünyanın bütün yerlərindən Suzdala cəlb edir.

Şəhərin ən qədim hissəsi olan Suzdal Kremli Kamenka çayı üzərində yüksəlir. Kreml ansamblına qədim qala istehkamları, kilsələr, məbədə bitişik arxiyerey imarəti daxildir. Qədim ağ əhəng daşı memarlığı üslubunda (Suzdal üslubu) tikilmiş Spas-Preobrajeniye kilsəsi monastırın əsas məbədidir. Əzəməti və sərt cizgiləri ilə seçilən bina məşhur ikona sənətkarı Quri Nikitinin başçılıq etdiyi Kostroma sənətkarları arteli tərəfindən nəfis freskalarla bəzədilib. Nikitin vaxtı ilə Moskva Kremli, Yaroslavl, Kostroma, Rostov məbədlərini bəzəyən təsvirlərin müəllifi olub. Bərpa edildikdən sonra yaraşıqlı xalı kimi məbəd divarlarını bəzəyən freskalar öz gözəlliyi ilə ziyarətçiləri heyran edir.

Pokrov monastırının təməli 1364-cü ildə qoyulub, lakin memarlıq ansamblı kimi XVI əsrdə tamamlanıb. Həmin dövrdə monastır sabiq çariça və adlı-sanlı boyar arvadlarının sürgün məskəninə çevrilir. Monastır zirzəmisindəki qəbirlər ömürlük sürgünə məhkum qadınların qəmgin taleyinin şahididir. Monastır indi də fəaliyyətdədir. Məbəd, əlillər evi, təsərrüfat tikililəri monastırda yaşayan və ibadət edən rahiblərin ixtiyarındadır. Dağılıb uçulmuş yaşayış evlərinin yerində tikilmiş hücrələrdə Suzdal turist kompleksinin mehmanxana nömrələri yerləşir.

Posad mülkü XVIII əsrə aid daş memarlığının nadir abidəsidir. Binanın daxili interyeri bərpa olunub. Mülkün ekspozisiyası I Pyotra qədər olan dövrdə yaşayan Suzdal sakinlərinin həyat tərzi ilə, məişət əşyaları ilə tanış olmağa imkan verir. Cökə qabığından düzəldilmiş qutular, səbətlər, yaraşıqlı miz, sandıq, səcdəgah guşəsində ikonalar, divar ləmələri, skamyalar, bütün dünyada məşhur rus sobası və onlarla qədim məişət əşyaları nadir tarixi eksponatlardır. Ağac memarlığı və kəndli məişəti muzeyi XVIII-XIX əsrlərdə Vladimir vilayətinin kənd sakinlərinin tikinti və məişət mədəniyyətlərindən bəhs edir.

Muzey qədim taxta evlərin cərgələndiyi küçələri olan özünəməxsus kənd kimi qurulub. Səcdəgah, kənd kənarında təsərrüfat binaları, rus hamamı, dəyirman, quş damı, tövlələr muzeyin başlıca eksponatlarıdır.

Aleksandr monastırının əsasını rəvayətə görə knyaz Aleksandr Nevski qoyub. Dövrümüzə qədər qorunub saxlanmış Voznesenie kilsəsi, zəng qülləsi XVII əsrin axırında tikilib. XVIII əsrin 60-cı illərində monastırın fəaliyyətinə xitam verilir. Hazırda monastır ansamblı "Suzdal bərpa işləri" səhmdar cəmiyyətinin istifadəsinə verilib.

Rizopolojenie monastırının təməli 1207-ci ildə qoyulub. Çerniqov knyazı Mixail Vsevolodoviçin qızı rahibə Yefrosinyanın (1227-1274) xeyriyyəçilik fəaliyyəti sayəsində Rizopolojenie monastırı ölkə miqyasında şöhrət tapıb.

XVII əsrin ortalarına aid, Rizopolojenie kilsəsi, XIX əsrin əvvəllərində tikilmiş, hündürlüyü 72 m olan zəng qülləsi, Suzdal sənətkarları İvan Mamin, İvan Qryaznov və Andrey Şmakovun şah əsəri sayılan günbəzli Müqəddəs darvaza (XVII əsr) Rizopolojenie monastırının əsas tikililəridir.




***Vladimir***. Beynəlxalq turizm mərkəzi

Rusiyanın ən qədim şəhərlərindən biri olan Vladimir iri turizm mərkəzidir. Əhalisi 310 min nəfərdir. Klyazma çayının

sol sahilində yerləşir. Eyni adlı vilayətin inzibati mərkəzidir. Vladimir 990-cı ildə salınıb.

124.6 km$^2$ sahəsi olan ərazidə yerləşir. Bir çox görkəmli rus xadimlərinin adı Vladimirlə bağlıdır. Vladimir admiral Lazarev, fizik Stoletov, bəstəkar Taneyev, ixtiraçı Jukovskinin vətənidir. Vaxtı ilə Valdimir Vladimir-Suzdal knyazlığının paytaxtı, rus mitropolitlərinin iqamətgahı olub. Moskva knyazlığının yüksəlişindən sonra tədricən siyasi əhəmiyyətini itirib.

Vladimirdə maşınqayırma, kimya və elektrotexnika sənayesi inkişaf etmişdir. Sənaye şəhəri olduğuna baxmayaraq dünyanın bütün yerlərindən turistlər Vladimirin bəyaz daş məbədlərinə tamaşaya gəlir. Şəhərin möhtəşəm qədim görkəmi, məbəd qüllələrindən ətrafa yayılan ahəngdar zəng səsləri, çiçəklənən albalı ağaclarının ətri, sakit küçələr, tarixi landşaftın sehri, zəngin mədəni irs qonaqları valeh edir. Ecazkar təbiət qoynunda külli miqdarda gəzinti yerləri də Vladimirin beynəlxalq turizm mərkəzinə çevrilməsində böyük rol oynayıb.

1108-ci ildə Kiyev knyazı Vladimir Monomax slavyan məskəni olan yerdə, Klyazma çayının sol sahili yüksəkliyində onun adını daşıyacaq şəhərinin əsasını qoyur. Kiyev dövlətinin süqutundan sonra onun şimal-şərq ərazilərində Rostov-Suzdal knyazlığı meydana gəlir. Vladimir Monomaxın şəhəri knyazlığın mühüm müdafiə istehkamı məntəqəsi olur. Monomax vəfat etdikdən sonra onun oğlu, yeni Rostov- Suzdal knyazı Yuri Dolqoruki şəhərdə daş məbəd və yeni knyaz imarətgahı tikdirir. Yurini taxtda əvəz etmiş Andrey Boqolyubski knyazlığın paytaxtını Vladimirə köçürür. Şəhərdə böyük tikinti işləri vüsət alır. 1238-ci ildə knyazlığa hücum edən Batı xanın qoşunları fevralın əvvəlində Vladimiri mühasirəyə alır. Monqol əsarəti illərində Vladimirlilər işğalçılara qarşı mübarizəni davam etdirirlər. Vladimir drujinaları Aleksandr Nevskinin almanlar və isveçlilərlə döyüşlərində də iştirak etmişdilər. Görkəmli sərkərdə 10 il Vladimir knyazı olub. 1263-cü ildə Qızıl ordudan qayıdarkən vəfat edən Aleksandr Nevski Vladimirdə, Vozneseniye monastırında təntənəli surətdə torpağa tapşırılır.

***Yuryev-Polski***

Yuryev-Polski Moskvadan cəmi beş yaş cavandır. Təməli 1152-ci ildə tanınmış sərkərdə knyaz Yuri Dolqoruki tərəfindən qoyulub. Hazırda Vladimir vilayətində rayon mərkəzidir.




1778-ci ildə şəhər statusu alıb. Klayzma çayının qolu olan Kolokşa çayının sahilində yerləşir. Əhalisi 20 min nəfərdir. Adının birinci hissəsi Dolqorukinin adı ilə bağlıdır. İkinci hissəsi çöl anlayışı verir.

Yuryev-Polski şəhərində inşa edilmiş bütün binalar 1152-ci ilə aid torpaq istehkamları çevrəsi üzərində yerləşir. Şəhər Vladimir-Suzdal knyazlığının şimal-şərq sərhədlərini və ətraf düzənlikləri qoruyan gözətçi qala istehkamları kimi nəzərdə tutulmuşdu. Şəhərdə külli miqdarda memarlıq abidələri qorunub saxlanılıb. Kiçik əyalət şəhərləri üçün səciyyəvi olan özünəməxsus dinc həyat tərzi, zamanın aram, həzin axarı, çöllərin ucsuz-bucaqsız genişliyi gəlmələrdə qeyri-adi təəssürat yaradır.

Yuryev-Polski əslində aqrar şəhərcikdir. Rayonda atçılıq və ətlik-südlük heyvandarlıq inkişaf edib.

Şəhərin qədim guşəsi şərq, cənub və qərb istiqamətlərində təbii su maneələri yaradan Kolokşa və Qza çaylarının qovuşduğu ərazidə yerləşir. Onu düzgün çevrə şəkilli, uzunluğu 2 km olan torpaq istehkamlar əhatə edir. İstehkamlar üzərində Moskva, Vladimir və Pereslavl-Zalesski istiqamətlərinə açılan üç darvazalı qala divarları yüksəlirmiş. Bu divarlar şəhər kremlini təşkil edirdi. 1152-1212-ci illərdə Yuryev-Polski Vladimir-Suzdal knyazlığının tərkibində olur.

Həmin dövrlərdə o dəfələrlə yerli knyazların arasında daxili müharibələr meydanına çevrilir, az sonra monqol-tatar qoşunlarının basqınlarına məruz qalır.

Tarixi abidələr arasında III Vsevolodun oğlu Svyatoslavın knyazlığı dövründə 1230-1234-cü illərdə tikiliş Geogiyev məbədi xüsusi ilə diqqətəlayiqdir. Kilsə ilkin görkəmini qoruya bilməyib. XV əsrdə yanğın zamanı tavanı uçub, divarları zədələnib. 1472-ci ildə Vasili Yermolinin rəhbərliyi altında Moskva memarları kilsəni bərpa edirlər. Onun görkəmi xeyli dəyişir.

Qədimdə tikili daha uca idi, tavan örtüyü dəbilqə şəkilli günbəzlə tamamlanırdı. Bayır divarları yerdən günbəz örtüyünə qədər ağ daş üzərində oyulmuş mələk və müqəddəslərin təsvirləri, habelə şir, quş, kentavr təsvirləri ilə bəzədilmişdi. Divarların bərpa hörgüsündə təsvirlər oyulmuş daşlar artıq müəyyən qayda üzrə düzülmədi. Həmin daşların bəziləri sonralar inşa olunmuş tikililər söküləndə aşkar edildi. Hazırda bu daşlar Geogi məbədinin içərisində saxlanılır. Cənub fasadını “Mirab”, “Çarmıxa çəkilmə”, “Müqəddəs Məryəm örtüyü” kompozisiyaları, narteks zalının yuxarı hissəsini isə Deisus kompozisiyası bəzəyirdi. Yüksək relyef texnikasında işlənmiş ayrı-ayrı təsvir və fiqurların divarlardakı

boş sahələr və qorelyeflər ətrafındakı fonu əhatə edən nəfis xalı ornamenti ilə vəhdət təşkil etməsi Georgi məbədinin dekorativ sistemində əhəmiyyətli texniki və bədii yenilik idi. Şimal və qərb narteks fasadlarında yüksək relyef texnikasında daş üzərində oyulmuş təsvirlərin səthi bitki ornamenti ilə uyğunluğu buna parlaq nümunədir. Bu gün Georgi məbədi çox da böyük olmayan dörd sütunlu kvadrat binadır. Şərq divarında 3 yarımdairəvi apsidalarla və qalan tərəflərdən 3 narteks artırmaları ilə tamamlanır. Günbəzlə örtülüdür. Görkəminə və inşa üslubuna görə Suzdaldakı Rojdestvo kilsəsinə çox yaxındır.

Yuryev-Polski şəhərində digər maraq doğuran memarlıq-tarixi ansambl sabiq Arxangel monastırının tikililəridir. O da qədim torpaq istehkamlar hüdudlarında yerləşir. Əsası XIII əsrin əvvəlində knyaz Svyatoslav Vsevolodoviç tərəfindən qoyulub, lakin həmin dövr tikililərindən əsər-əlamət qalmayıb. 1238-ci ildə Batı xanın ordusu monastırı yerlə yeksan edir. Monastırın digər tikililəri arasında darvaza və darvaza üstü İoan Boqoslov kilsəsini qeyd etmək olar. Kilsə 1670-ci ildə XVII əsr üçün səciyyəvi olan Moskva barokko üslubunda tikilib. XVII əsrin birinci yarısına aid Moskva abidələrini xatırladır. Günbəzli zəng qülləsi, Ziyafət palatası və ona bitişik Znameniye kilsəsi də diqqətəlayiqdir. Lakin kilsədə sonradan aparılan yenidənqurma işləri onun görkəminə xələl gətirmişdi.

Taxtadan tikilmiş Pokrov və Georgi kilsələri də monastır ərazisində yerləşir. Keçmiş arximandrit iqamətgahında diyarşünaslıq muzeyi yerləşir. Onun ekspozisiyası şəhərin qədim tarixindən, Yuryev-Polski sakinlərinin inqilab hərəkatlarında iştirakından bəhs edir. Təsviri sənət şöbəsində XVI-XVII əsr rus ikona təsvirçilərinin, Qərbi Avropa və rus rəssamlarının əsərləri nümayiş etdirilir.

## *MOSKVA. RUS MƏDƏNİYYƏTİ VƏ SİVİLİZASİYASININ "BEL SÜTUNU"*

"Qızıl dairə" səyahətinin əsas hissəsi Yuryev-Polski şəhərində başa çatır. Buradan yol Moskvaya aparır. Qəhrəman şəhər Moskva Rusiya və Avropanın ən iri şəhəridir, mühüm nəqliyyat qovşağı, habelə ölkənin siyasi, iqtisadi, mədəni və elmi mərkəzidir. İlk dəfə adı 1147-ci ildə çəkilir. Şəhər Avropanın mərkəzi hissəsində, Moskva çayının hər iki sahili üzərində ucalır. Şəhər ərazisindən onlarla irili-xırdalı digər çaylar da axır. 2006-cı ilin statistik məlumatlarına əsasən şəhərin ərazisi 1081 $km^2$ təşkil edir. Dəniz səviyyəsindən 180 m yüksəkdədir. Moskva bol yaşıllığı olan şəhərdir. Şəhər hüdudlarında İzmaylovo parkı, Nəbatat bağı, Neskuçnı bağı, Bitsev meşə parkı, Losinı adasında yerləşən Milli təbiət parkı kimi onlarla meşə və park zonaları mövcuddur. Əhalisi 10.5 mln nəfərdir. Moskva sözünün mənşəyi haqqında bir neçə fərziyyə var. Güman edirlər ki, fin-uqor dilindən gələn söz "rütubətli, bataqlıq yer" anlamı verir. Digər variantda həmçinin fin-uqor dilindən götürülmə söz "mız, həşərat" bildirir. Şəhərin qədim adlarından biri "Moskov" sözü xarici dillərin transkripsiyasında "Moscow", "Moscu" kimi işarə edilir. Moskvanın adı saysız-hesabsız görkəmli tarixi şəxsiyyətlərin adı ilə bağlıdır. Dmitri Donskoy, Böyük Pyotr, İvan Krılov, Aleksandr Qriboedov, Aleksandr Puşkin, Nikolay Qoqol, Mixail Lermontov, Vladimir Vısotski, Boris Pasternak - bu siyahıda adlar sonsuzluğa qədər sadalana bilər. 1997-ci ildə Moskva böyük dəbdəbə ilə 850 illik yubileyini qeyd etdi. Şəhərin nəhəng ərazisi 10 inzibati dairəyə bölünür. Onlardan hər biri öz növbəsində bələdiyyə rayonlarına ayrılır. Moskvada cəmi 124 bələdiyyə rayonu mövcuddur. Beynəlxalq tədqiqatlar Moskvanın dünyada ən bahalı şəhər olduğunu qeyd edirlər. Əhalisinin sayına görə Avropa şəhərləri siyahısında ön sıradadır.



MOSKVA KREMLİ

Moskva Rusiyanın qüdrətli iqtisadi mərkəzidir. İqtisadiyyatın maşınqayırma, o cümlədən energetika maşınqayırması, cihaz, dəzgah və gəmiqayırma sahələri, kimya, yüngül, poliqrafiya sənayesi güclü inkişaf etmişdir. Hər gün şəhərə minlərlə turist gəlir, odur ki, şəhərdə Domodedovo, Şeremetyevo, Vnukovo və Bıkovo kimi 4 nəhəng hava limanı, 9 dəmir yol vağzalı fəaliyyət göstərir.

Arxeoloji qazıntılar sübut edir ki, hələ neolit dövründə (e.ə. VIII-III minilliklər) bu ərazilərdə insan məskənləri mövcud olub. XII əsrdə Moskva Vladimir-Suzdal knyazlığının ucqar şəhərlərindən biri sayılırdı. 1237-1238-ci illərdə monqol-tatarlar şəhəri yandırıb yerlə yeksan etmişdilər.

Moskva yenidən tikildi, çox da böyük olmayan knyazlığın paytaxtı oldu. Rusiyanın qədim knyazlıqlarının tənəzzülü şəraitində Moskvanın birdən-birə sürətlə yüksəlməsinin səbəbləri hələ də tədqiqatçılar üçün mübahisə mövzusudur. Bəziləri bunu şəhərin əlverişli mövqeyi, digərləri Moskva

knyazlarının şəxsi keyfiyyətləri ilə izah etməyə çalışırlar. Artıq XIV-XV əsrlərdə Moskva Tver knyazlığı ilə kəskin rəqabətdə qalib çıxaraq Rusiyanı birləşdirən mərkəzə və monqol-tatar əsarəti ilə mübarizənin təşkilatçısına çevrilir. Moskvada ümumrus qoşunu formalaşır və 1380-cı ildə Kulikov çölündə işğalçıları məğlub edir. Sonrakı dövrlərdə monqol-tatarların basqınlarına dəfələrlə məruz qalsa da, çoxsaylı əhalisi olan iri ticarət və sənət mərkəzinə çevrilir. Əsrin sonunda III İvan özünü bütün Rusiyanın hökmdarı elan edir. Moskva mərkəzləşdirilmiş rus dövlətinin paytaxtı olur.

Moskva XVI əsrdə ərazisinə və əhalisinin sayına görə bir çox Avropa paytaxtlarını geridə qoyur. O dövrdə indiki Sadovoye koltso şəhərin hüdudları sayılırdı. Nikolskaya, İlyinka, Varvarka kimi küçələr o dövrdə yaranmışdı.

***Moskva muzeyləri***

***Tretyakov dövlət qalereyası***



TRETYAKOV QALEREYASI

Dövlət Tretyakov qalereyası Rusiyanın milli təsviri sənət muzeyi və dünyanın ən nüfuzlu muzeylərindən biridir. Qalereya Moskva taciri və tekstil fabrikantı Pavel Tretyakov tərəfindən yaradılıb və onun adını daşıyır. 1892-ci ildə Tretyakov 1800 əsərdən ibarət kolleksiyasını Moskvaya bağışlayır. Qalereya şəhər muzeyi olur.

1918-ci ildə bolşeviklər tərəfindən milliləşdirilir. Sovet dövründə eksponatların sayı bir sıra bağlanmış muzeylərin və milliləşdirilmiş özəl kolleksiyaların fondlarının, habelə xaricdə yaşayan rusların hədiyyə etdikləri əsərlərin hesabına 100 minə çatır. Qalereyanın 62 zalında X əsr - XX əsrin əvvəlinə aid rus incəsənətinin inkişafının bütün dövrlərini əhatə edən əsərlər nümayiş etdirilir. XVIII əsr - XX əsrin əvvəli incəsənət əsərləri ekspozisiyasında təqdim edilən portretlərdə Rusiya dövlət, elm və mədəniyyət xadimləri əks olunub. XX əsr rus incəsənəti əsərlərinin sərgilənməsi üçün Krım səddində Qalereyanın digər binası tikilib.

***V. İ. Vernadski adına dövlət geologiya muzeyi***



V.İ.VERNADSKİ ad. DÖVLƏT GEOLOGİYA MUZEYİNDƏ

V. İ. Vernadski adına dövlət geologiya muzeyində dağ süxurları və ibtidai sürünənlər kolleksiyası vasitəsi ilə Yer kürəsinin 5 mlrd illik tarixindən bəhs olunur.

***Tsaritsino qoruq-muzeyi***

Tsaritsino qoruq-muzeyi 1984-cü ildə təsis edilib. Tarix memarlıq qoruq muzeyi və mənzərə parkı, mədəni asudə vaxt bədii muzeyi onun tərkib hissələridir. Opera binası da həmin tərkibə daxildir. Burada Moskva musiqi kollektivləri və ifaçılarının konsertləri keçirilir.

***Dövlət Darvin muzeyi***

Darvin dövlət muzeyi 1907-ci ildə gənc zooloq Aleksandr Kots tərəfindən təsis edilib. Keçən əsrin əvvəllərində yeganə təkamül muzeyi idi. Bu gün Avropanın ən iri təbiət elmləri muzeyi sayılır. Ekspozisiyası təkamül nəzəriyyəsinin təşəkkülündən, Yer üzərində həyat formalarının müxtəlifliyindən, dəyişkənlik və irsilik, təbii seçmə və təbiətdə mövcudluq uğrunda mübarizədən bəhs edir. Aberrativ forma növləri kolleksiyası, albinos və melanist nümunələri kolleksiyası, nəsli kəsilmiş köpək balıqlarının dişləri kolleksiyası, nadir kitablar, animalist incəsənət kolleksiyası muzeyin ekspozisiyasını təşkil edir.



DÖVLƏT DARVİN MUZEYİ

***A.S. Puşkin dövlət muzeyi***

Muzeydə A. S. Puşkinə məxsus əşyalar, şairin əlyazmaları yaşayıb-yaratdığı dövrdə nəşr edilmiş əsərləri, portretlər, Puşkin mövzusunda təsviri sənət əsərləri, şairin avtoqrafları olan kitab kolleksiyası və s. nümayiş etdirilir.

***Dövlət Şərq xalqları incəsənəti muzeyi***



ŞƏRQ XALQLARI İNCƏSƏNƏTİ MUZEYİ

Moskvanın mərkəzində, Nikitski bulvarı, 12A ünvanda yerləşən bina XIX əsrin əvvəli rus klassisizmi üslubunda inşa edilmiş gözəl memarlıq abidəsidir. Şərq xalqları incəsənəti muzeyi bu binada yerləşir. 1810-32-ci illərdə Rusiyada yaşayıb-yaratmış görkəmli İtaliya memarı Domeniko Jilyardinin layihəsi üzrə tikilib. 1918-ci ildən fəaliyyət göstərən muzey hazırda Rusiyanın aparıcı mədəni-maarif mərkəzi və zəngin mədəni irs obyektidir. Muzeyin sabiq müqəddəs İlya kilsəsində yerləşən digər binasında muzey fondları, kitabxana, bərpa emalatxanaları işləyir.

Orta Asiya, Qafqaz, Zaqafqaziya ölkələri, Qazaxıstan, Buryatiya, Uzaq və Yaxın Şərq, Afrika incəsənəti muzeyin fond və ekspozisiyalarında tam dolğunluğu ilə öz əksini tapıb.

***Keramika Dövlət muzeyi və XVII əsr Kuskovo malikanəsi***

Keramika dövlət muzeyi və XVII əsr Kuskovo malikanəsi XVIII əsr təsvir mədəniyyətinin nadir abidəsidir. Şeremetyev qraf nəslinin yay iqamətgahı dəbdəbəli qonaq qəbulu, səhnələşdirilmiş izdihamlı ziyafətlər, bayram və gəzintilər üçün nəzərdə tutulmuşdu. Kompleksin bizim dövrə qədər qorunub saxlanmış nadir memarlıq abidələri sırasında saray, köşk, Böyük Daş Oranjereya, qədim kilsə kimi tikililəri göstərmək olar. Səliqə ilə qulluq edilən fransız parkında qoyulmuş mərmər heykəllər, hovuzlar qeyri-adi köşklər nəzəri oxşayır.



KERAMİKA MUZEYİ VƏ KUSKOVO MALİKANƏSİ

1919-cu ildən dövlət muzeyidir, 1938-ci ildə Keramika muzeyi ilə birləşdirilir, belə ki, antik dövrdən indiyə qədər müxtəlif ölkələrə aid şüşə və keramika sənət əsərləri kolleksiyalarına malik olur.

Fondlarında 30 mindən çox rus və xarici ölkə sənətkarlarının incəsənət əsərləri saxlanır. XVIII əsrdən başlayaraq manufakturalarının istehsal etdiyi rus farforu kolleksiyaları muzeyin fəxridir.

Yayda sarayın rəqs zalında rus və xarici ifaçılarının iştirakı ilə konsert və festivallar keçirilir.

***A. S. Puşkin adına dövlət təsviri sənət muzeyi***

Rusiyada ən dolğun təsviri sənət kolleksiyası A. S. Puşkin adına dövlət təsviri sənət muzeyində toplanmışdır. Qədimdən bu günə qədər dövrləri əhatə edir. 1912-ci ildən fəaliyyət göstərir. İ.V. Svetayev başda olmaqla Moskva universiteti professorlarının təşəbbüsü ilə ictimai vəsait hesabına yaradılıb. 1985-ci ildə Muzeyin nəzdində elmi şöbə hüququnda özəl kolleksiyalar muzeyi, 1996-cı ildə muzeyin yeni şöbəsi - Bədii Tədris muzeyi açılıb. Rusiya humanitar dövlət universitetinin binasında yerləşir. Muzeyin daha bir şöbəsi - Svyatoslav Rixterin Xatirə mənzili 1998-ci ildə açılıb.



A.S.PUŞKİN ad. TƏSVİRİ SƏNƏT MUZEYİ

Muzeydə 560 min təsviri sənət, heykəltəraşlıq, qrafika, tətbiqi sənət əsərləri, arxeologiya və numizmatika abidələri, bədii fotoşəkillər kolleksiyası saxlanılır.

***Moskva Kremli. Tarix-mədəniyyət qoruq-muzeyi***

Moskva Kremli Tarix-mədəniyyət qoruq-muzeyi 1991-ci ildə Moskva Kremli dövlət muzeyləri əsasında yaradılıb. O, Moskvanın mərkəzində Moskva Kremli ərazisində yerləşir. Onun tərkibinə XV əsrin sonu - XX əsrə aid əzəmətli memarlıq abidə ansamblları daxildir.

Uspenie, Arxanqel, Rizopolojeniye kilsələri, XVII əsr Patriarx Palataları və ona bitişik On iki Apostol kilsəsi, Böyük İvan qülləsi və Dövlət Yaraq Palatası muzey-qoruğun möhtəşəm eksponatlarıdır.



MOSKVA KREMLİ. SPASK QÜLLƏSİ

Blaqoveşşenie kilsəsinin zirzəmisində Kremlin arxeologiyasına dair xüsusi ekspozisiya fəaliyyət göstərir. Muzeyin yerləşdiyi binalar müxtəlif dövrlər və memarlıq məktəblərinə aid nadir memarlıq abidələridir, görkəmli memarlar və bənnalar tərəfindən inşa edilib, XVI əsr - XIX əsrin birinci yarısına aid olan gözəl interyerlərini qoruyub saxlayıb.

***Dövlət tarix muzeyi***



RUSİYA DÖVLƏT TARİX MUZEYİ

Muzey kolleksiyalarının formalaşmasında Rusiya elmi ictimaiyyətinin, habelə ayrı-ayrı kolleksiyaçıların birgə fəaliyyəti olub. Burada qədim dövrlərə aid arxeologiya abidələri, numizmatika kolleksiyası, əlyazmalar toplusu, qədim kitab çapı nümunələri, təsviri sənət abidələri, rus və Qərbi Avropa döyüş və ov silahları kolleksiyası, dəmirçilik məmulatı, tunc və mis tökmə əşyalar, qədim elmi cihazlar, şüşə və saxsı istehsalı məmulatı, müxtəlif növ tekstil nümunələri, bütün Rusiya bölgələrini əhatə edən milli geyim kolleksiyası, rus malikanə mebeli toplusu nümayiş etdirilir.

***Dövlət ədəbiyyat muzeyi***

Muzey Moskva və Moskva vilayətində fəaliyyət göstərən 12 filialdan ibarətdir. Muzey fondlarında nadir kitablar, əlyazmalar, yazıçıların rəsmləri, təsviri sənət əsərləri, nadir fotoşəkillər toplanıb. Sayı 1mln-dan çox olan eksponatlar klassik və müasir dövr rus ədəbiyyatı tarixini əks etdirir.



DÖVLƏT ƏDƏBİYYAT MUZEYİ

***Aleksandrov***

Aleksandrov qədim rus şəhəridir. XIV əsrdə Aleksandrova Sloboda kimi tanınan məskən "Qızıl dairənin" mərkəzində yerləşir. 1778-ci ildən Vladimir vilayətinin tərkibindədir.



RUSİYANIN QIZIL DAİRƏSİ. ALEKSANDROV

XVI əsrin ikinci yarısında İvan Qroznı Aleksandrovu öz iqamətgahı, boyarlarla mübarizə aparan "opriçninanın" mərkəzi edir. Aleksandrov əslində 20 il rus dövlətinin siyasi mərkəzi rolunu yerinə yetirir. Aleksandrovda ilk rus mətbəələrindən biri fəaliyyətə başlayıb. 1578-ci ildə "Psaltır" ("Zəbur kitabı") məhz Aleksandrov mətbəəsində çap edilib.

Müasir Aleksandrovda ilk sovet televizorları istehsal edilib. İqtisadi çətinliklərə baxmayaraq şəhərdə indi də "Rekord" televizorları buraxılır. Yüngül sənaye müəssisələri işləyir.

Hər il yüz minlərlə turist nadir, gözəl qorunub saxlanmış saray-məbəd kompleksinə tamaşa etməyə gəlir. Şəhərin heç bir abidəsi əzəmətli Aleksandrov Kremli ilə müqayisə oluna bilməz. Müxtəlif əsrlərə aid olan Kreml tikililəri bir-birini tamamlayaraq vahid Kreml ansamblında birləşir. XVII əsr ansamblı olan Uspeniye monastırı uca qala divarları ilə əhatə olunub. Qədim Troitsk kilsəsinin (1513) bəyaz divarları günəş şüaları altında par-par parıldayır. Monastırda yerləşən "Aleksandrova Sloboda" muzeyində çar iqamətgahı abidələri qorunub saxlanır.

***Qus-Xrustalnı***

Qus-Xrustalnı şəhərinin tarixi XVIII əsrin ortalarında başlanır. 1756-cı ildə Meşşera meşələrinin əsrarəngiz gözəlliyinə valeh olan Oryol taciri Akim Maltsov "Moskva quberniyasının Volodimir mahalında" büllur fabriki inşa edir. Rusiya şüşə üfürmə sənayesinin gur inkişafı məhz həmin fabrikin fəaliyyətindən başlanır. Bədii mədəniyyətin nadir təzahürü olan şüşə üfürmə sənəti ustadları tezliklə bütün Avropada tanınırlar. Qus-Xrustalnı ilk növbədə Maltsovlarin adını daşıyan, təkrarı olmayan Büllur muzeyi ilə məşhurdur. 1983-cü ilin may ayında Georgi məbədində yerləşən bədii şüşə muzeyi ilk tamaşaçılarını qəbul etmişdi. Məbədin səliqə ilə bərpa edilmiş interyeri və gözəl büllur kolleksiyası bir-birini təbii surətdə tamamlayır, tamaşaçıda dəbdəbə, bayram əhval-ruhiyyəsi yaradır.


RUSİYANIN QIZIL DAİRƏSİ. QUS-XRUSTALNI

***Kalyazin***

Kalyazin qədim Tver şəhəridir, Volqa çayının sahilində yerləşir. Müasir Kalyazinin ərazisində ilk qədim məskən olan "Jabnya üzərində Nikola" kəndinin adına rus salnamələrində təsadüf edirik. XII əsrin sonunda, Jabnya çayı üzərində yaranır. Kalyazin diyarı qədim tarixi-mədəni irsə malikdir. M. Y. Saltıkov-Şedrin Kalyazin mahalının Spas-Uqol kəndində anadan olub.

Kalyazin tarix, elm, mədəniyyət, təhsil xadimlərini həmişə özünə cəlb edib. İ. Krılov, D. Fonvizin, V. Jukovski, A. Ostrovski, N. Rerix dəfələrlə Kalyazini ziyarət etmiş, qədim mədəni irsdən ilhamlanmış, müxtəlif dövrlərdə burada yaşayıb-yaratmışlar.


RUSİYANIN QIZIL DAİRƏSİ. KALYAZİN

Hazırda şəhərin əhalisi 15.8 min nəfərdir. Şəhərdə Kalyazin diyarşünaslıq muzeyi fəaliyyət göstərir. 1920-ci ildə yaranıb. Sabiq Troitsk monastırında yerləşir. Təbiətşünaslıq; arxeologiya; Kalyazin Troitsk monastırının tarixi; XVIIII əsr interyeri; 1917-1930-cu illər; 1930-cu illərdə Kalyazin rayonunun inkişafı; 1941-1945-ci illər Böyük Vətən müharibəsi dövrü; 1945-1960-cı illər dövrü ekspozisiyalarında 1500-dən çox arxeologiya və etnoqrafiya, təsviri sənət, ikona təsvirləri, qrafika, ağac və sümük üzərində oyma, numizmatika və b. əşyalar nümayiş etdirilir.

Kalyazində mədəniyyət və turizmə böyük diqqət yetirilir. "Kalyazin krujevası", "Tver Atlantidası" adı altında mədəni irsin inkişafı layihələri həyata keçirilir.

***Plyos***

1410-cu ildə knyaz I Vasili Moskva və Volqaboyu şəhərlərinə gedən yolları qorumaq üçün Volqa çayı üzərində Plyos hərbi istehkamını inşa edir. Lakin şəhərin tarixi bundan da qədimdir. Rəvayətə görə burada əvvəllər Çuvil şəhəri yerləşirmiş. Plyos ətrafında aparılan qazıntılar qədim sivilizasiya məskəni aşkar edir. Burada IX-XIII əsrlərə aid saxsı qab qırıqları, dəmir baltalar, oraqlar, müxtəlif zinət əşyaları tapılıb. Çuvil Batı xan qoşunları tərəfindən yerlə yeksan edilir.


RUSİYANIN QIZIL DAİRƏSİ. PLYOS

Strateji cəhətdən Plyos çox əlverişli mövqe tutur. Şəhər sıldırım sahil yüksəkliyi üzərində tikilmişdi, düşmən qoşunlarının yaxınlaşdığını uzaqdan görmək olurdu. Şəhəri iki yandan sıldırım dərələr qoruyurdu. Taxtadan inşa olunmuş qalanın ətrafında əlavə olaraq iki dərin xəndək qazılmışdı.

Plyos şəhəri İvanovo vilayətində, əsrarəngiz təbiət qoynunda yerləşir. Bu yerlər əyalətdə istirahət üçün gözəl məkandır. Plyosda "Plyos" və "Rus " pansionatları turistləri qəbul edir. İqlim kurortu kimi ad çıxarıb.

Plyosda Uspenie kilsəsi (XVIII əsr), Voskresenie, Troitsk kilsələri (XIX əsrin əvvəli) kimi tarixi abidələr şəhərin qədim görkəminə xüsusi gözəllik gətirir. İ. İ. Levitanın ev-muzeyi, rəsm qalereyası nadir təsvir əsərlərini nümayiş etdirir. Plyos dövlət tarix-memarlıq və bədii muzey-qoruğu zəngin memarlıq-landşaft eksponatlarına malikdir. Levitanın xatirə ev-muzeyi rəssamın 1888-1889-cu illərdə yaşayıb-

yaratdığı binada yerləşir. Mənzərə muzeyi 1997-ci ildə açılıb. Tacir Qroşev və Podqornının sabiq imarətində yerləşir. Ekspozisiyası rus və sovet mənzərə sənətinin müxtəlif istiqamətlərindən bəhs edir. Milli və tətbiqi sənət sərgisi sabiq qızlar gimnaziyasının binasında yerləşir. Ekspozisiyası Palex və Xoluy lak miniatürləri kolleksiyasından ibarətdir.

***Boqolyubovo***




Boqolyubovo Vladimir vilayətində şəhər tipli qəsəbədir. Knyaz Andrey Boqolyubskinin iqamətgahı kimi əsası 1158-ci ildə qoyulub. Monqol-tatar qoşunları tərəfindən yerlə yeksan edilib. Bəyaz qəsrin hərbi istehkamların, torpaq istehkam və xəndəklərin qalıqları, pilləli qüllənin bir hissəsi qalıb. Qazıntılar vaxtı kilsə qalıqları da aşkar edilib. Müqəddəs Məryəm kilsəsinin (1158-65) qalıqları üzərində mərtəbəli kilsə (1751, barokko) tikilib. Darvaza üstü Uspeniye zəng qüllə-kilsəsi və hücrələr XIX əsrdə tikilib. 1866-cı ildə memar K. A. Ton tərəfindən hazırlanmış layihə əsasında Bizans-rus üslubunda Müqəddəs Məryəm ikonası kilsəsi tikilib. Boqolyubovdan 1.5 km aralı Nerli çayı üzərində Pokrov kilsəsi (1165) ucalır. Boqolyubovun tarixi abidələri Vladimir-Suzdal tarixi-bədii və memarlıq muzey-qoruğunun tərkib hissələridir.

***Qoroxovets***



Qoroxovets Vladimirdən 150 km şərqdə Volqa və Oka çaylararası ərazidə, Klyazma çayının sağ sahilində yerləşir. Şəhərdə gəmiqayırma və qaldırıcı kran texnikası istehsal edilir.

Nikola monastırı, Blaqoveşşeniye kilsəsi, Sreteniye monastırı, Yerşov imarəti, tacir Şiryayevlərin mülkü, Oparin mülkü, Znamenie monastırı (XVII-XVIII əsrlər), Kanonnikov mülkü Qoroxovetsin məşhur memarlıq abidələridir. Abidələr Vladimir-Suzdal tarixi-bədii və memarlıq muzey-qoruğunun tərkib hissələridir.

Qoroxovets haqqında ilk yazılı məlumat 1239-cu ilə aiddir.

***Kidekşa***



Kidekşa kəndi Vladimir vilayətində, Suzdaldan 4 km aralı Nerli çayı üzərində yerləşir. Kidekşada XII-XVIII əsrə aid memarlıq ansamblı qorunub saxlanılıb. Şimal-şərq Rusiyasında ilk bəyaz divarlı, Vladimir-Suzdal memarlığının erkən dövrünə aid Boris və Qleb kilsəsi (1152. XVIII əsrdə yenidənqurma işləri aparılıb, XII əsrə aid freskalarla bəzədilib), kubşəkilli, bir günbəzli üç apsidalı kilsə (qalaya bənzər görkəmi ilə Novqorod və Pskov tikililərini xatırladır), habelə Müqəddəs Darvaza (XVII əsrin sonu - XVIII əvvəli), Stefan kilsəsi (1780), günbəzli qüllə (XVIII əsr) kimi Suzdal memarlıq üslubunda tikilmiş qədim abidə kompleksləri görkəmli memarlıq abidələridir.

Qleb və Boris kilsəsi Vladimir və Suzdal bəyaz daş abidələri ilə yanaşı 1992-ci ildən YUNESKO ümumdünya layihəsinin tərkib hissəsidir.

Rusiyanın tarixi-mədəni palitrasında Sankt-Peterburq olduqca əhəmiyyətli mövqeyə malikdir.

***Sankt-Peterburq***

Sankt-Peterburqun təməli 1703-cü ilin may ayının 16-da qoyulub.

Şimal müharibəsində İsveç üzərində qələbənin şərəfinə Neva çayı deltasının ən geniş yerində olan Dovşan adasında Petropavlovsk qalasının tikintisi başlanır. Bu tikinti şəhərin inşasına təkan verir. 1710-cu ildə paytaxt rəsmi olaraq Moskvadan Sankt-Peterburqa köçürülür, 1712-ci ildə çar ailəsi və bütün hökumət orqanları yeni paytaxta köçür.

Şəhərin baş planı layihəsinin müəllifi memar Domeniko Trezini idi. İmperator Yay sarayı və Aleksandr Nevski məbədi onun layihəsi əsasında tikilmişdi. Sonralar fransız memarı Y. B. Leblon baş planı təkmilləşdirir və yenidən işləyir. Həmin dövrdə Menşikov Sarayı və Kunstkamera inşa edilir.

1725-ci ildə I Pyotr vəfat edir. Şəhərin inkişafında qısa müddətli durğunluq baş verir. I Pyotr islahatı əleyhdarları hətta paytaxtın Moskvaya köçürülməsinə nail olurlar. Lakin 1730-cu ildə Anna İoannovnanın taxta çıxması ilə Sankt-Peterburqa paytaxt statusu qaytarılır. İmperatriçə Pyotr siyasətini davam etdirir, şəhər yenidən inkişaf etməyə başlayır.

1741-ci ildə taxta Yelizaveta çıxır. Həmin dövrdə rus barokko üslubu inkişaf edir, Qış Sarayı və Smolnı monastırı (memar Rastrelli), Nikola dəniz məbədi (memar Çevakinski) tikilir.

II Yekaterina (1762-1796) Böyük Pyotr islahatlarının başlıca davamçısı hesab olunur. Yüksək biliklərə malik imperatriçənin fəlsəfi təfəkkürü o dövrün Rusiya qanunvericiliyinə və ölkənin siyasi kursuna güclü təsir göstərir.

Yekaterinanın hakimiyyəti illərində yeni klassisizm üslubu hökm sürür. Həmin dövrdə İncəsənət Akademiyası (memar Felten), Qonaq sarayı (memar Valen de la Mot), Mərmər saray (Memar Rinaldi), Köhnə Ermitaj (memar Felten), Tavriya Sarayı (memar Starov), Fontanka çayı sahilində Yusupov Sarayı, Smolnı institutu, Narva zəfər darvazası (memar Kvarnegi), Admirallıq binası (memar Zaxarov), Fond birjası (memar Toma de Tomon), Qazan kilsəsi (memar Voronixin) tikilir. İmperator I Pavelin dövründə (1796-1801) şəhər mərkəzinin və şəhər ətrafı ərazilərin yenidənqurma işləri davam etdirilir.




ERMİTAJ. QIŞ SARAYI

I Nikolay dövründə Sankt-Peterburqun görkəmində kapitalizm dövrü üçün səciyyəvi olan çalarlar meydana gəlir.

Şəhərin mərkəzində fərdi binaların tikintisi vüsət alır. İsaak meydanında Mariya Sarayı, Nikolayev Sarayı (memar Ştakenşneyder) və b. binalar tikilir. Şəhərin Petroqrad hissəsinin tikintisinə başçılıq edən Ştakenşneyder şəhərin memarlıq görkəminin bütövlüyü qaydalarına riayət edir.

III Aleksandr hakimiyyəti dövründə (1881-1894) də həmin istiqamət davam etdirilirdi. 1860-70-ci illərin burjua iqtisadi islahatları kapitalizmin inkişafını sürətləndirsə də Rusiyanı feodalizmin keçmiş qalıqlarından tam azad edə bilmədi. Hərbi məğlubiyyətlər və ictimai ziddiyyətlərin dərinləşməsi 1905-1907-ci illərin üsyanları ilə nəticələndi.

1914-cü ildə I Dünya müharibəsinin başlanması ilə şəhər Petroqrad adlandırıldı. I Dünya müharibəsi Rusiya mütləqiyyətinin taleyini həll etmiş oldu.

1917-ci il Oktyabr çevrilişi ölkədə siyasi sistemi dəyişdi, bu da vətəndaş müharibəsi və iqtisadiyyatın dağılması ilə nəticələndi.

1918-ci ildə paytaxt yenidən Moskvaya köçürülür.

1924-ci ildə Leninin vəfatından sonra şəhəri Leninqrad adlandırırlar. 30-40-cı illərdə Avtovo, Moskva Prospekti və Malaya Oxta kimi yeni rayonlar tikilir. Böyük Vətən müharibəsi illərində Leninqrad əhalisi 900 gün blokada şəraitində yaşayır. Blokada dövründə şəhərin memarlıq abidələrinə ciddi ziyan dəyir, şəhərətrafı abidələr isə məhv olur. Müharibədən sonra başlamış bərpa işləri 60-cı illərə qədər davam edir. 60-80-cı illərdə şəhər Fin körfəzi istiqamətində xeyli genişlənir. 1991-ci ildə şəhərin ilk adı özünə qaytarılır. 1994-cü ildə Sankt-Peterburqda Xoşməramlı oyunlar keçirilir. Dəniz limanı və beynəlxalq aeroport yenidən qurulur. Avropanın başlıca iqtisadi, siyasi və mədəni mərkəzlərindən biri olan Sankt-Peterburq əvvəlki kimi Rusiyanın Şimal paytaxtı sayılır. Rusiya Federasiyasının ali federal təsisatlarından olan Konstitusiya Məhkəməsi Moskvadan Sankt-Peterburqa köçürülüb.

YUNESKO-nun qərarı ilə şəhərə dünya mədəniyyəti abidəsi statusu verilib. 2003-cü ildə Sankt-Peterburqun 300 illik yubileyinin bayram edilməsi ərəfəsində şəhər infrastrukturunun inkişafı və təkmilləşməsi istiqamətində uzunmüddətli layihələr həyata keçirildi. Dəbdəbəli bayram şənlikləri şəhərin dirçəlməsinə, mədəni mühitin yaxşılaşmasına və şəhər resurslarının daha səmərəli istifadəsinə təkan vermişdi.

Mənzərəli şəhərətrafı ərazilərdə zəngin çar iqamətgahları yerləşir. Valehedici saray-park ansamblları XVIII-XIX əsr Rusiya imperiyasından qalmış memarlıq inciləridir.

Qatçina şəhəri Sankt-Peterburqdan 45 km aralı, Qatçinka çayı, Gümüş göl, xırda göllər, meşələr əhatəsində, əsrarəngiz təbiətin qoynunda yerləşir.

Puşkin (Tsarskoe Selo) şəhəri Sankt-Peterburqdan cənubda yerləşir. Çevrilişə qədər çar ailəsinin əsas yay iqamətgahı olub. Şəhərin başlıca memarlıq abidəsi Yekaterina sarayıdır.

Pavlovsk Sankt-Peterburqdan 26 km aralı cənubda yerləşir. XVIII əsrin sonu, XIX əsrin əvvəlində I Pavel və ailəsinin əsas yay iqamətgahı olub Saray-park ansamblının yaranmasında Kameron, Brenna, Kvarnegi, Voronixin və Rossi kimi görkəmli memarlar iştirak edib.



**PETERQOF**

Peterqof XVIII-XIX əsrlər bədii rus mədəniyyətinin görkəmli abidəsidir. Saraylar, parklar və memarlıq ansamblları Peterqofa dünya şöhrəti gətirib. Əsası I Pyotr tərəfindən qoyub. Peterqof ən zəngin və nəfis çap iqamətgahı olub.

Lomonosov-Oraniyenbaum dövlət muzey-qoruğudur, onun saray-park ansamblları Sankt-Peterburq sakinləri və turistlər üçün cazibədar yerlədir. Oraniyenbaumda Böyük Saray və Çin Sarayı xüsusi maraq doğuran memarlıq abidələridir.

Sankt-Peterburqu bəzən Şimal Venesiyası adlandırırlar. Neva deltasında adalarda yerləşən şəhər ərazilərini mürəkkəb körpülər sistemi birləşdirir. Şəhər körpüləri görkəmli memarlıq və mühəndis təfəkkürü abidələridir.

Sankt-Peterburqda 100-dən çox teatr, 200 muzey fəaliyyət göstərir.

Admirallıq binası erkən klassisizm üslubunda tikilib. Neva prospekti, Vozneseniye prospekti və Qoroxovaya küçələrinin kəsişdiyi yerdə yerləşir. Admirallığın damında ucalan qızılı mil şəhərin ən hündür yerlərindən biridir. Binanı bəzəyən gəmi Sankt-Peterbirqun rəmzinə çevrilib.

İncəsənət meydanını əhatə edən bütün binaların fasadlarının incəsənətə aidiyyəti var. Memar Rossi tərəfindən inşa edilmiş Mixaylov sarayı meydan memarlıq ansamblının mərkəzində ucalır.

Senat (sonradan Dekabristlər meydanı) meydanında qoyulmuş Tunc atlı heykəli şəhərin təməlini qoyan I Pyotra həsr edilib. Şəhər rəmzlərindən biri, rus və dünya mədəniyyətinin nadir sənət əsəridir.

Çesmen kilsəsi 1770-ci il Çesma yaxınlığında rus donanmasının türk donanması üzərində zəfəri şərəfinə tikilib.

İsaaki kilsəsi klassisizm üslubunda memar Oqüst Monferanın layihəsi əsasında tikilib. Onun qızılı günbəzi şəhərin istənilən nöqtəsindən görünür.

Qazan kilsəsi XIX əsrin əvvəlinin gözəl memarlıq abidəsidir. Andrey Voronixinin layihəsi üzrə tikilib. Qazan Müqəddəs Məryəm ikonası burada saxlanılır.

Aleksandr Nevski monastırı şəhərin ən əzəmətli, monumental memarlıq ansambllarından biridir. O, Nevski prospektinin axırında Nevski meydanı və Dövrə kanalı arasında, Monastırka çayının Nevaya töküldüyü yerdə yerləşir. Memar Starovun inşa etdiyi Troistk kilsəsi ansamblın özəyini təşkil edir.

Mixaylov qəsri Sankt-Peterburqun ən sirli tikililərindən biri sayılır. I Pavel məhz burada qətlə yetirilmişdi.

I Pyotrun Yay bağı və Yay sarayı Peterburqda ilk memarlıq ansamblıdır. 1704-cü ildə imperatorun şəxsi planı əsasında tikilib. Burada Zemtsov, Miketti, Leblon kimi məşhur memarlar işləyiblər. Xiyabanlarında Avropanın hər yerindən gətirilmiş mərmər heykəllər qoyulub.



**SANKT-PETERBURQ. SMOLNI MONASTIR ANSAMBLI**

Avropada bənzəri olmayan Vasili adası oxu memarlıq ansamblı Sankt-Peterburqun rəmzlərindən biridir. Buradan Petropavlovsk qalasına, Admirallığa, İsaaki məbədinə və Saray sahil meydanında yerləşən Ermitaja gözəl mənzərə açılır. Rostr (gəmi burnu ilə tamamlanan) sütunları Rusiyanın və Sankt-Peterburqun dəniz şöhrətini tərənnüm edir.

Smolnı kilsəsi Smolnı ansamblının əsas tərkib hissəsidir. Burada qədim rus memarlığının Avropa memarlıq üslubu ilə ahəngdar uyğunluğu müşahidə olunur. Memar Kvarnegi tərəfindən inşa edilmiş kübar qızlar üçün Smolnı institutu məbəddən cənubda yerləşir.

Petropavlovck qalası Sankt-Peterburqun memarlıq kompozisiyasının özəyini təşkil edir. Uca qülləli Petropavlovsk kilsəsi qalanın ərazisində yerləşir.

Saray meydanı Sankt-Peterburqun baş meydanıdır. Burada bayram konsertləri, mitinqlər, festivallar keçirilir. Dünyanın ən gözəl memarlıq ansambllarından biri sayılır.



DÖVLƏT ERMİTAJI

Sankt-Peterbruq kafedra məscidi Avropada ən iri məscidlərdən biridir. Burada eyni zamanda 5000 dindar ibadət edə bilər. Məscid bu gün də fəaliyyət göstərir.

Dövlət Rus muzeyi Sankt-Peterburqda 1895-ci ildə imperator II Nikolayın fərmanı ilə təsis edilib. İlk rus təsviri sənəti muzeyidir. 1992-ci ildə RF Prezidentinin fərmanı ilə xüsusi dəyərə malik Rusiya xalqları mədəni irsi obyektləri siyahısına daxil edilib.

Muzey əvvəlcə Mixaylov sarayında yerləşirdi. İlk ekspozisiyası İmperator saraylarından, Ermitaj və İncəsənət Akademiyasından götürülmüş 1880 təsviri sənət, heykəltəraşlıq, qrafika və qədim rus incəsənəti əsərlərindən təşkil olunmuşdu. Bu gün muzey Mixaylov sarayı, Stroqanov sarayı, Mərmər saray, Mixaylov qəsri, I Pyotrun Yay sarayı və I Pyotrun evi kimi XVIII-XIX əsrlərə aid memarlıq abidələri binalarında yerləşir.



DÖVLƏT ERMİTAJI

Dövlət Ermitajı dünyanın ən iri muzeylərindən biridir. Ekspozisiyası 350-dən çox zalda nümayiş etdirilir. Sarayın dəbdəbəli interyeri əhəmiyyətinə görə ekspozisiyadan heç də geri qalmır.

Muzeydə antik dövr, Qərbi Avropa, ibtidai mədəniyyət, rus mədəniyyəti, "Qızıl xəzinə", numizmatika şöbələri fəaliyyət göstərir. Ermitajın zallarında mütəmadi olaraq dünyanın ən iri muzeylərindən gətirilən təsviri sənət əsərləri kolleksiyaları nümayiş etdirilir.

Ermitaj kompleksi Qış sarayı, kiçik Ermitaj, böyük (Qədim) Ermitaj teatrı, Yeni Ermitaj binalarında yerləşir. Ermitajın əsas girişi Saray meydanı tərəfdən Qış sarayının Baş həyətindədir.

Rusiyaya gələn qonaqların 80.8 % bu 10 ölkənin payına düşür. Bu ölkələr arasında Ukrayna 1996-cı ildə olduğu kimi birinci yerdə gedir. Ümumi turist axınının 41.8%-i onun payına düşür.

Reytinq üzrə ikinci yerdə Polşa durur. Polşadan gələnlərin sayı hər il üçdə bir qədər əsasən alış-veriş məqsədli səfərlərin hesabına artır. Lakin işgüzar, şəxsi, tranzit məqsədli səfərlərin də artımı müşahidə olunur. Litvadan gələn qonaqların da sayı artır. Reytinq cədvəlində ölkə səkkizinci yerdən beşinci yerə qalxıb.

İşgüzar səfərlərin azalması səbəbindən Finlandiyadan turist axını 254.2 min nəfər azalıb, nəqliyyat xidməti üzrə səfərlərin sayı isə demək olar ki, iki dəfə artıb. Bu isə Rusiya ilə əmtəə mübadiləsinin artımına dəlalət edir.

Rusiyada yeni iqtisadi böhran dalğası, Çeçenistan müharibəsi ilə əlaqədar gələn qonaqların sayı əhəmiyyətli dərəcədə azalmışdı. Müharibənin başlanmasına qədər Rusiyanın ümumdünya turizm gəlirlərində payı 1.6 %-ə gəlib çatmışdı.

Rusiyalıların uzaq xaricə səfərlərinin əsas məqsədi alış-veriş turlarıdır. Əslində bu, «məkik ticarəti» adlanan alver məqsədli səfər növüdür. Rəsmi dildə «xarici ticarətlə məşğul olan hüquqi şəxslər üçün icbari gəlir vergisi ödəmədən sonrakı satış məqsədi ilə fiziki şəxslər tərəfindən istehlak mallarının idxalı» adlanır.

Alverçi turistlərə qarşı müəyyən məhdudiyyətlər tətbiq edilsə də, bu fəaliyyət növü əvvəlki kimi yüksək qazanc gətirən iş hesab edilir.

Alver məqsədli turizm növü ilə yüz minlərlə insan, əsasən, bir çox fabrik və zavodun fəaliyyətinin dayandırması ucbatından əvvəlki iş yerindən məhrum olmuş peşəkar mütəxəssislər, diplomlu mühəndislər və texniki işçilər məşğul olur. 1993-cü ildə onlardan hər biri xaricə hər gedişdə 3000-5000 $ məbləğində mal idxal edərək, Rusiya istehlak bazarının əmtəə təchizinə yardım edirdilər. Rusiya alverçiləri əsasən Çin, Türkiyə, Finlandiya, Polşaya səfər edir. Çinə gələn Rusiya vətəndaşlarının sayı durmadan artır. Turizm sənədləşməsində rəsmiyyətçiliyin sadələşməsi, sərhədyanı zolaqlarda azad ticarət zonalarının yaradılması qrup turizminin genişlənməsinə səbəb oldu. Novosibirsk, İrkutsk, Bratsk, Xabarovsk və Vladivostok sakinləri Çinə səfər edən Rusiya turistlərinin əsas hissəsini təşkil edir. Onların səyahət coğrafiyası başlıca olaraq Çinin şimal rayonları - Xeymutsyan, Laonun, Girin və Sinszyan əyalətləri, Uyğur muxtar rayonu ilə məhdudlaşır. Çinə gələn rus turistlərindən 60 %-i məhz bu bölgələrə səfər edir. Son dövrdə bu turizm istiqamətində böyük dəyişikliklər baş verir. Alış-veriş turları əvvəlki kimi üstünlük təşkil etsə də, ekskursiya məqsədli turlara (Pekin-Şanxay istiqaməti, Çinlə tanışlıq səyahəti), xüsusilə Moskva bazarında tələbat artır.

Alverçi turistlər Yunanıstan, İtaliya, Misirə də səfər edirlər. Onlara Sinqapur, Syanqan (Honkonq), Hindistan, Tailand, Cənubi Koreya və Pakistan istiqamətlərində də rast gəlmək olar. Birləşmiş Ərəb Əmirliklərində müxtəlif çeşidli ucuz əmtəə bolluğu alverçi turistləri cəlb edir. Alverçilər artıq üç günlük alış-veriş turları ilə kifayətlənmir. Onlar dincəlməyə vaxt ayırırlar. İndi belə səfərlər üç deyil, yeddi gün davam edir. Səfərlərin dövriyyə tezliyi də artır. İndi ayda iki-üç dəfə səfərə gedirlər.

Alış-veriş turları ilə yanaşı Rusiya vətəndaşları dəniz sahillərinə dincəlməyə də gedir. Kipr, Malta, Türkiyə, İspaniya, Bolqarıstan, Tunis, Mərakeş, Fransa və Tailanda bir-iki həftəlik səfərlər Rusiya turistləri üçün əlverişli istirahət növüdür. 1998-ci ildə baş vermiş iqtisadi böhranla əlaqədar Rusiya turistlərinin xaricə səfərlərinin miqdarı azaldı. Rusiyaya turist axınına gəldikdə, Qərb ölkələrində Rusiya haqqında yüksək risk ölkəsi kimi mənfi rəyin formalaşması, terror aktları, davam edən Çeçenistan müharibəsi onun qarşısında müəyyən maneələr qoyur, bu da tükənməz valyuta mənbəyi olan beynəlxalq turizmin inkişafı üçün problemlər yaradır. Rusiya hökuməti isə ölkə barədə yayılan mənfi rəyi yumşaltmaq üçün zəruri reklama vəsait ayırmırdı. Müasir dövrdə isə Rusiya Federasiyası turizmin inkişafını beynəlxalq səviyyəyə çatdırmaq üçün müəyyən tədbirlər həyata keçirir və yeni yollar arayır. Bu baxımdan Rusiya – Azərbaycan turizm əlaqələri günü-gündən özünün yeni bir inkişaf mərhələsinə qədəm qoyur.

## *SKANDİNAVİYA XALQLARI*

Skandinaviya xalqlarına Hind-Avropa dilləri ailəsinin german qrupunun şimal yarımqrupu dillərində danışan isveçlilər, danimarkalılar, norveçlilər, islandlar və farerlilər daxildir. Skandinaviya yarımadasının qərbində norveçlilər, Yutlandiya yarımadasında və 500-ə yaxın adalarda danimarkalılar, Farer adalarında farerlilər, İslandiya adasında islandlar yaşayırlar.

Bütün Skandinaviya xalqları təxminən eyni vaxtda, X-XI əsrlərdə katolik dinini qəbul etmişlər.

Norveç - axar sular daşlıqlar və meşələr məskənidir. Holfstrim axını buranın sərt şimal iqliminə mülayimlik gətirir. Qışda limanlar buz bağlamır, cənub bitkilərinin yetişdirilməsi heç də qəribə görünmür, adalarda il boyu, hətta qar örtüyünün altında da yaşıl otlar bitir.

Hər halda Norveçi kurort adlandırmaq çətindir. Ölkənin qərb sahili dünyada ən yağışlı yer sayılır.

Ölkədə, ən çox paytaxt Osloda nüfuzlu tarixi şəxsiyyətlərə külli miqdarda əzəmətli heykəllər qoyulub. Heykəllər sayəsində ölkənin tarixi və heykəltəraşlıq üslubu ilə tanış olmaq mümkündür. Osloda bir neçə yüz heykəl qoyulmuş parkın dünyada analoqu yoxdur. “Doğum”, “Əcəl”, “Ana”, “Məhəbbət”, Şənlik”, “Ayrılıq”, “Dostluq”, ”Mübarizə”, Həyəcan”, və onlarla insan həyatının ehtiraslarını, xeyir-şərini əks etdirən heykəllərin müəllifi Vigelandır. 30 il fasiləsiz işləyib yaradan heykəltəraşa norveçlilər böyük məhəbbət bəsləyir, eyni zamanda zarafatdan da qalmırlar: “Yaxşı ki vaxtında ölüb getdi, yoxsa Osloda heykəl əlindən ayaq qoymağa yer qalmazdı”.

Norveçlilər demək olar ki, çörək yemirlər. Süfrədə onu kartof əvəz edir. Bu adət əsrlər boyu formalaşıb. Ət xörəkləri çeşidi də zəngin deyil. Pendir növləri isə saysız-hesabsızdır. Bunu mürəbbələrə də aid etmək olar.

Norveçdə ayaq xizəyi sürmək geniş yayılıb. İstirahət günləri Osloda seyrəklik hiss olunur. Əhalinin dörddə biri ayağına xizək keçirib şəhər ətrafına axışır. Bir günlük yürüş üçün 50-60 km məsafə adi hal hesab olunur. Hava şəraiti korlandıqda yürüşə çıxmış hər norveçli ölkənin hər bir ucqar guşəsində qurulmuş minlərlə komada sığınacaq, şam, ocaq qalamaq üçün odun və kibrit tapa bilər.

Ölkə ərazisinin dörddə birini meşələr, beşdə birini göllər zəbt edib, tarlaların payına ərazinin yalnız 2.5 %-i düşür, dağlar və qayalar ərazinin qalan hissənə səpələnib.

Torpaqlar məhsuldar olmasa da, mənzərəlidir. Böyük və kiçik göllərin sayı 200000-ə çatır. Norveç fiordlar ölkəsidir. Fiord-dənizin quruya müdaxilə edib yaratdığı körfəzdir. Göl suları şirindir, körfəz suları isə iki laydan ibarətdir-alt laydakı su ağır dəniz suyudur, üst layı isə dağ sellərinin gətirdiyi sular təşkil edir. Norveç fiordlarının əksəriyyəti gəmiçilik üçün yararlıdır. Ən böyük fiord olan Soqne-fiordun uzunluğu 204 km-dir.

İstər paytaxt Osloda, istər kiçik balıqçı qəsəbəsində yaşayan norveçli dağlarda da bir ev inşa etməyə çalışır. Bəzən qalmaqallı həyatdan ayrılıb təbiətin qoynuna sığınmaq xüsusiyyəti norveçlilər üçün olduqca səciyyəvidir.

Şair Vigelman, dramaturqlar Byornson və İbsen, səyahətçilər Nansen və Amundsen, bəstəkar Qriq, heykəltəraş Vigellan, dəniz dərinliklərinin tədqiqatçısı Tur Heyerdal Norveçə dünya şöhrəti gətirmişlər.

İSVEÇ

Avropanın şimal ölkəsi olan İsveç Skandinaviya yarımadasının şərq və cənubunda yerləşir. Ölkənin Şimal qərbində Skandinav dağları ucalır.

İsveçdə konstitusiyalı monarxiya üsul-idarəsi hökm sürür. Kral simvolik hakimiyyətə malikdir. Hökuməti qanunverici orqan olan riksdaq formalaşdırır.

## *3.6. İRAN İSLAM RESPUBLİKASI*

| | |
|---|---|
| **Rəsmi adı** | **İran İslam Respublikası (Cəmhuri-ye Eslami-ye İran)** |
| **Rəsmi dil** | **Fars dili** |
| **Paytaxtı** | **Tehran** |
| **Dövlət başçısı** | **Prezident** |
| **Parlament** | **Məclis** |
| **Ərazisi** | **1.648.195 $km^2$. Dünyada 17-ci yer** |
| **Əhalinin sayı** | **69.018.924 nəfər. Dünyada 18-ci yer** |
| **Əhalinin etnik tərkibi** | **Farslar-41 %, azərbaycanlılar-34 %, kürdlər-7 %, ərəblər-3 %, lurlar-2 %, gilan və mazandaranlılar-8 %, türkmənlər-2 %, əfqanlar-2.5 %, bəluclar-2.4 %, bəxtiyaıılər-1.7 %, qaşqaylar-1.3 %, əfşarlar-1.2 %, xorasan türkləri-1.1 %, ermənilər-0.5 %, xəzərlər-0.5 %, şahsevənlər-0.5 %, çaramaykilər-0.4 %, gürcülər-0.4 %, assurlar-0.3%. Ölkə ərazisində habelə qaraçılar, qacarlar, yezidlər, taciklər, qarapapaqlar, kəngərlilər, teymurtaşlar, brahmilər, yəhudilər və b. yaşayır.** |
| **Pul vahidi** | **Riyal** |
| **Coğrafi koordinatları** | **32° 29' 46. 54° 17' 42** |
| | **İranın ostanları Buşəhr, Cənubi Xorasan, Çahar-Mahal və Bəxtiyari, Ərdəbil, Fars, Gilan, Gülüstan, Həmədan, Hörmüzgan, İlani, İsfahan, Kirman, Kirmanşah, Kohgiluyə, Buyer Əhməd, Kürdüstan, Luristan, Mazandaran, Mərkəzi, Qəzvin, Qərbi Azərbaycan, Quni, Razavi, Xorasan, Simnan, Sistan və Bəlucistan, Şərqi Azərbaycan, Şimali Xorasan, Tehran, Xuzistan, Yəzd, Zəncan** |

İran İslam Respublikası Qərbi Asiyada dövlətdir. Şimalda Ermənistan (35 km), Azərbaycan (611 km) və Türkmənistanla (992 km), şərqdə Əfqanıstan (936 km) və Pakistanla (909 km), qərbdə İraq (1458 km) və Türkiyə (499 km) ilə həmsərhəddir.

Şimaldan Xəzər dənizi ilə, Cənubdan İran və Oman körfəzləri ilə əhatə olunmuşdur. Ərazisi 28 ostana bölünmüşdür. Ostanlara rəhbərliyi Daxili İşlər naziri tərəfindən təyin edilən general-qubernatorlar edir. Ostanlar öz növbəsində şəhristanlara bölünür. Şəhristanların tərkibinə şəhərlər və digər ərazilər daxildirlər. Şəhristana rəhbərlik edən məmurlar bir qismi təyin olunur, bir qismi seçilir.

Ali hakimiyyət Dini liderə və İcraedici Şuraya məxsusdur. Qanunverici hakimiyyəti Məclis təmsil edir. Müasir İran respublika (prezident və parlamentin seçilməsi) üsul idarəçiliyinin və teokratik hakimiyyətlə uyğunluğu formasının təzahürüdür. 1979-cu il və ondan sonra qəbul olunmuş Konstitusiyaya əsasən həyatın bütün təbəqələrinin təməlini İslam prinsipləri təşkil edir, odur ki, ölkəni din xadimləri - üləmalar idarə edirlər. Ali dini hakim (ömürlük seçilir) ölkədə qeyri-məhdud hakimiyyətə malikdir. Dini rəhbər daxili və xarici məsələlər üzrə ən adil hakim hesab olunur. Ali dini rəhbər həmçinin orduya rəhbər təyin etmə, müharibə və ya sülh elan etmə kimi səlahiyyətlərə malikdir.

İran ərazisində məskunlaşma Alt paleolit dövrünə aid edilir. E.ə. III minilliyinin əvvəllərində İranın cənubi-qərbində ilk sinifli cəmiyyətlər meydana gəlmiş, əvvəlcə ayrı-ayrı şəhər-dövlətlər yaranmış, sonralar Elat və e.ə. III minilliyin II yarısında Lullubilərin erkən quldarlıq dövlətləri mövcud olmuşdur. E.ə. təqribən 2200-ci ildə Kutilər Şumer və Akkadı müvəqqəti zəbt etmiş, XVIII-XVI əsrlərdə isə Kaşilər Babilistanı ələ keçirərək e.ə. XIII əsrin sonuna qədər burada hökmranlıq etmişlər. E.ə. II minilliyin sonunda İran ərazisinə Hind-İran dillərində danışan Hind-Avropa tayfalarının İran qrupundan olan ari (müasir İranın adı buradandır; qədim İran dilində “aquapat-arilər ölkəsi” və ya padşahlığı deməkdir) tayfaları gələrək qərbi və mərkəzi rayonlarda məskunlaşdı. İndiki İranın Xuzistan və Luristan ərazisini əhatə edən vilayətlərlə yanaşı e. ə. VII əsrə qədər İranın əsas əkinçilik rayonlarında sinifli cəmiyyətlər meydana gəlmişdi.

Midiyanın tabeliyində olan pars (parsa, pars, müasir fars sözü buradandır) padşahlığı ilə müharibə (e. ə. 553-550-ci illər) nəticəsində hakimiyyət Əhəmənilər (Haxamanişlər) sülaləsinin əlinə keçdi. VI əsrin sonunda II Kir (Kuş) və onun varislərinin işğalları nəticəsində Əhəmənilər dövlətinin sərhədi Hind çayından Egey dənizinə və Kiçik Qafqaz dağlarından Nil çayına qədər genişləndi. Əhəmənilər dövləti I Daranın hakimiyyəti dövründə (e. ə. 521-485-ci illər) daha da qüvvətləndi. Ticarət yolları üzərində hökmranlıq, qərb ilə şərq arasında gedən mübarizə Əhmənilər dövlətini Yunanıstanla uzun sürən müharibələrə sövq etmişdi. E.ə. 330-cu ildə Makedoniyalı İsgəndər İranı işğal etdi.

1380-1393-cü illərdə Teymur İranı işğal etdi. Onun ölümündən sonra İran Teymurilər və Qaraqoyunlu dövləti arasında bölüşdürüldü. 1468-ci ildə (Muş döyüşü) Qaraqoyunlu dövlətini Ağqoyunlu dövləti əvəz etdi. Qızılbaşlara arxalanan İsmayıl Səfəvi xalq kütlələrinin ümumi narazılığından və daxili çəkişmələrindən istifadə edərək Azərbaycanda hakimiyyətini möhkəmləndirdi.

Ağqoyunlu dövlətinə son qoyuldu. 1501-ci ildə o, Təbrizə daxil olaraq özünü Şah I İsmayıl elan etdi. 1502-ci ildə isə şiəliyi dövlət dini elan etdi. 1510-cu ilə qədər bütün İran səfəvilərin hakimiyyəti altına düşdü. 1514-cü ildə Səfəvilər İraq, Kürdüstan və Cənubi Qafqaz uğrunda Osmanlı İmperiyası ilə uzun sürən müharibələr aparmışlar. XVI əsrin axırlarına qədər Səfəvilər dövləti ilk növbədə Azərbaycan dövləti idi. Lakin sonralar dövlət idarəçiliyində hakim mövqe tədricən farsların əlinə keçdi. Qızılbaşların siyasi dayaqları zəiflədi.

1709-1722-ci illərdə üsyan etmiş əfqan tayfaları Səfəvilərin paytaxtı İsfahanı ələ keçirdilər. Əfqan xanlıqlarının qısamüddətli hökmranlığı əleyhinə xalq hərəkatları baş qaldırdı. Əfqanlar əleyhinə mübarizəyə və Osmanlı türklərin ölkədən qovulmasına başçılıq edən Nadir xan Əfşar böyük feodal imperiyası yaratdı. Lakin o öldürüldükdən sonra (1747) bu dövlət süqut etdi. Kərim xan Zəndin hakimiyyəti dövrü (1760-1779) istisna olmaqla İranın XVIII əsr tarixi fasiləsiz feodal çəkişmələri ilə səciyyələnir. Zəndilərlə Qacarların uzun sürən müharibəsi Qacarlar sülaləsinin (1796-1925) hakimiyyətə gəlməsi ilə başa çatdı. 1795-1797-ci illərdə Ağa Məhəmməd Şah Qacarın başçılıq etdiyi İran ordusunun Cənubi Qafqaza (o cümlədən Qarabağa) basqınları böyük dağıntılara və qırğınlara səbəb oldu. XVIII əsrin axırları, XIX əsrin əvvəlləri Böyük Britaniya, Rusiya və Fransanın İranı əsarət altına almaq cəhdləri, İranla bir sıra Avropa dövlətləri arasında qeyri-bərabər müqavilələr imzalanması ilə nəticələndi.

Rusiya-İran müharibələri nəticəsində İran Cənubi Qafqaz torpaqlarını tabeçiliyində olan Rusiya İmperiyasına güzəştə getməyə məcbur oldu (Gülüstan, Türkmənçay müqavilələri).

XIX əsrin sonlarından İranda başlayan sənayeləşmə və 1905-1911 İran Konstitusiya İnqilabı Qacarları daha da zəiflətdi. 1921-ci ildə elitar hərbi süvari briqadanın rəhbəri Rza Xan (sonradan Rza Şah) İngiltərə və digər Avropa dövlətlərinin dəstəyi ilə Qacarları devirdi. 1925-ci ildə Məclis onu ilk Pəhləvi hökmdarı kimi tanıdı. Rza şahın dövründə fars millətçiliyi ifrat dərəcəyə çatmışdı. Eyni zamanda genişmiqyaslı islahatlar aparıldı, sənaye inkişaf etməyə başladı, yeni dəmiryolları çəkildi, fars dilində milli təhsil sistemi təşəkkül tapdı.

Şahın xarici siyasəti Qərb meylli olsa da, onun keçən əsrin 1960-cı illərində müstəqil siyasət aparmaq istəyi Qərb ölkələrini narahat etməyə başladı. Tezliklə qərbdə onu avtoritar idarəetmədə, insan haqlarını pozmaqda ittiham etdilər. Eyni zamanda mühacirətdə olan Ruhullah Musəvi Xomeyni İran daxilində şah rejiminə müxalif qüvvələri birləşdirməyə nail oldu. Şah əleyhinə nümayişlər ölkə ərazisini bürüdü. İran mücahidləri və İran fədailəri təşkilatlarına SSRİ, Fələstin Azadlıq Təşkilatı və radikal ərəb rejimləri dəstək verirdilər. İqtisadiyyat tənəzzülə uğramışdı. İran ordusunun neytral mövqe tutması Pəhləvi sülaləsinin taleyini həll etdi. İslam inqilabı qələbə çaldı.

İrana qayıtmış Xomeyni dini və siyasi rəhbər kimi qarşılandı. 1979-cu il aprelin 1-də ölkə İran İslam Respublikası elan edildi, az sonra Xomeyni ömürlük lider elan edildi.

Amerika Birləşmiş Ştatlarında "11 sentyabr" terror aktından sonra İranın nüvə texnologiyalarını inkişaf etdirmək niyyəti onu Amerika Birləşmiş Ştatlarının düşmənləri sırasına saldı. Amerika Birləşmiş Ştatlarının "nəzarəti altında "Fridom Hous" (Freedom House)," Soros Fondu" (Soros Foundation) və digər təşkilatlar İrandakı separatçı qrupları maliyyələşdirir.

2003-cü ildə yerli idarəetmə orqanlarına və 2004-cü ilin fevral-may aylarında Məclisə seçkilərdə mühafizəkarlar qalib gəldilər. İran İraqdakı NATO əleyhinə olan qüvvələrə dəstək verməyə başladı. İranda davam edən mühafizəkar-islahatçılar mübarizəsində keçmiş prezident Rəfsəncaninin reytinqi qalxdı. Onu sağ mərkəzçi qüvvələr dəstəkləyirdi. 2005-ci ildə Məclisə keçirilən seçkilərdə mühafizəkarlar əksər yerləri tutdular. İranda keçirilən son 17 iyun 2005-ci il tarixli prezident seçkilərinin ilkin mərhələsində Rəfsəncani qələbə çalsa da, ikinci turda gözlənilmədən Tehranın keçmiş meri, qatı mühafizəkar Mahmud Əhmədinecad seçici səslərinin 62 %-ni qazanıb qalib gəldi. Əhmədinecad İslam inqilabı ideallarını bərpa etməyi, hakimiyyəti rüşvətxorlardan təmizləməyi, ölkədə İslam prinsiplərinə uyğun sosializm qurmağı söz verir. Amerika Birləşmiş Ştatları və İsrail seçkilərin nəticələrini tanımadıqlarını bəyan etdilər.



**TEHRAN**

İran əhalisinin əksər hissəsi şimal və qərb rayonlarda yaşayır.

Əhalinin 51%-i şəhər əhalisidir. Ən böyük şəhər Tehrandır. Tehranın əhalisi 1926-1986-cı illərdə 210 min nəfərdən 6.5 milyona çatmışdır. 1960-cı illərin əvvəllərindən başlayaraq urbanizasiya prosesi daha da sürətlənmişdir. Hazırda Tehranda 15 milyon əhali yaşayır.

Əhalinin əksəriyyəti etnik mənşəyinə görə midiyalılara (İranda məskunlaşmış ari tayfalarının nümayəndələrin) yaxındır. Ərəb Xilafətinin bu regionlardan çəkilməsindən sonra bu ərazilərə gəlmiş türk-monqol tayfaları mərkəzi, qərbi və bir neçə şimal bölgəsində əhalinin etnik mənşəyinə təsir etmişlər. Hazırda bu ərazilərdə yaşayan farslarda, kürdlərdə, lurlarda, bəxtiyarilərdə, mazandaranlılarda və talışlarda ari-İran etnik mənşəyi üstünlük təşkil edir. Şimalda yaşayan xalqlarda (Xəzər sahili istisna olmaqla) türk cizgiləri özünü kəskin büruzə verir.

Ölkə ərazisində 30-a yaxın xalq yaşayır. Əhalinin 98 %-i müsəlmandır. Onlardan 90 %-i şiə təriqətinə məxsusdur. Şiələrin 85 %-i imamilərdir (İsnə Əşəriyyə), qalanları İsmaillilər və Əli-ilahi şiə təriqətlərinə mənsubdurlar. Ölkə əhalisinin 9 % sünnidir (əksərən kürdlər). Xristianlardan Qriqorian (ermənilər), Nestorian (assurlar), Roma-katolik, habelə anqlikan və başqa protestant kilsələrinin nümayəndələri mövcuddur. Ölkədə həmçinin bəhailiyə, yəhudi dini və zərdüştlüyə mənsub insanlar da mövcuddur.

Əhalinin 58 %-i İran dilləri qrupuna aid dillərdə, 25 %-dən çoxu isə türk dilləri ailəsinə mənsub dillərdə danışır.

İran yüksək inkişaf etmiş aqrar-sənaye ölkəsidir. Ölkə ərazisində neft emalı və neft-kimya müəssisələri fəaliyyət göstərir. Təbii sərvətlərdən neft, qaz, kömür, mis, dəmir, marqanes və sink-qurğuşun filizləri istehsal edilir. Ölkədə həmçinin maşınqayırma və poladəritmə, qida və tekstil sənayeləri inkişaf etmişdir. Xalçaların kustar üsulla istehsalı geniş yayılmışdır. Buğda, arpa, paxla, pambıq, şəkər çuğunduru və şəkər qamışı, tütün, çay, fındıq, püstə geniş becərilir. Əhali qoyun, keçi, iribuynuzlu mal-qara, dəvə saxlayır.


TEHRAN

İran əsasən xam neft və neft məhsulları, metal filizi, kənd təsərrüfatı məhsullarını ixrac edir.

Xaricdən ölkəyə ağır maşınqayırma və kimya sənayesi avadanlığı, avtomobil, dəmir, polad, tekstil malları, kağız idxal olunur.

İran ilk növbədə Türkiyə, BƏƏ, Almaniya, Böyük Britaniya, İtaliya, Yaponiya ilə ticarət edir.

İran dünya təbii qaz ehtiyatının 16 %-ə malikdir. Əsas qaz yataqları Fars körfəzi şelfində, habelə ölkənin şimali-şərqində yerləşir.

2010-cu ilədək qaz hasilatının ildə 290 mlrd $m^3$ həcminə çatacağı gözlənilir. Hazırda qaz əsasən Türkiyəyə ixrac edilir. Şimali-Fars qaz yatağından çıxarılan qazın qaz emalı zavodlarına nəqli üçün ötürücü borular inşa edilir.

İran konstitusiyasına görə milli neft hasil edən müəssisələrin səhmlərinin xarici şirkətlərə satılması və ya onlara neft hasil etməyə icazə verilməsi qadağandır. Neft yataqları kəşfiyyatını İran Milli Neft Şirkəti aparır. 1990-cı illərin sonlarından başlayaraq neft sektoruna xarici sərmayəçilər cəlb olundu. Onlar "kompensasiya edilmiş kontraktlar" əsasında hasil edilmiş neftin bir hissəsini əldə edirlər, müqavilə müddəti bitdikdən sonra yataqları İran Milli Neft Şirkətinin nəzarətinə verirlər.

### *3.7. TAİLAND*

**Ərazisi: 514 min kv km (dünyada 49-cu yer).**
**Əhalisi: 63 mln nəfər (dünyada 19-cu yer - 2000).**
**Paytaxtı: Banqkok (9 mln nəfər -2000).**
**Dövlət dili: tay dili.**
**Din: buddizm.**
**Milli pul vahidi: bat.**

Tailand əcnəbilərin əksəriyyəti üçün Şərqin ən ekzotik ölkələrindən biridir. İlk baxışda paytaxt şəhəri olan Banqkok digər iri müasir şəhərlərə oxşasa da, onun sakinləri ilə təmasda olduqdan sonra əsaslı fərq xüsusiyyətləri meydana çıxır.

Tayların davranışı bəzən adamı heyrətə gətirir. Taylarla ünsiyyətə girmək heç də asan iş deyil. Bəzən onlarda duyulan passivlik, qeyri müəyyənlik xarici qonağı əsəbiləşdirə bilər. Əslində, bu, tayların dünyagörüşü, təriqətləri, mədəniyyəti və adət-ənənələri ilə bağlıdır.

Taylar ictimai tarazlığa nail olmaq üçün böyük qüvvə sərf etmiş və bu istiqamətdə böyük uğurlar qazanmışlar. Onlar mübahisələrdən çəkinməyə, münaqişəli vəziyyətdən qaçmağa çalışırlar. Tay hər zaman gülümsəməyə hazırdır, çətin vəziyyətdə bu, onun köməyinə çatır. Simasındakı təbəssüm eyni zamanda daxili hiss-həyəcanı gizlətməyə kömək edir.



BANQKOK

İkinci dünya müharibəsinə qədər Tailand Siam adlanırdı. Ölkə cənub-qərbi Asiyanın göbəyində, Hind, Çin və Malakka yarımadalarında yerləşir. Tailand heç vaxt müstəmləkə əsarətində olmamışdır, bu amil taylarda qürur hissi doğurur. XIX əsrdə Tailandı İngiltərə və Fransa işğal etməyə cəhd etmiş, ancaq Tailand müstəqilliyini qoruyub saxlaya bilmişdi.

Siam sözü tərcümədə "gözəl" anlayışı bildirir. Həqiqətən, Tailand dünyanın ən ecazkar guşələrindən biridir. Məhsuldar torpaqları, əlverişli iqlimi olan ölkə qalay, qızıl, dəmir, filiz, marqanes, volfram kimi mineral ehtiyatları ilə zəngindir.

| | |
|---|---|
| **XI əsr** | **Siam tay xalqlarının Khmer imperiyasının Tyaunxray çayı vadisində məskunlaşması** |
| **1240** | **Müstəqil Sukhothay tay krallığının yaraması** |
| **1275-1298** | **Kral Rama Khanhenin hökmranlığı** |
| **1296** | **Çiyenqmayda Lanna krallılığın yaranması** |
| **1350** | **Ayutqhay krallılığının yaranması** |
| **1432** | **Ayutqhay krallığı tərəfindən Khmer Anqkor şəhərinin işğalı** |
| **1516** | **Ayutqhay krallılığın Portuqaliya ilə müqavilə bağlaması** |
| **1548** | **Bİrmalıların Tailandda basqını** |
| **1558** | **Birmalıların Lannonanı yenidən işğal etməsi** |
| **1598** | **Ayutqhay kralının Lannanı birmalılardan azad etməsi** |
| **XVIII əsr** | **Çinlilər, yaponlar və avropalılarla ticarətin kral hakimiyyəti inhisarına götürülməsi** |
| **1604** | **Ayutqhayda Hollandiya ticarət gəmiləri donanmasının yaradılması** |
| **1612** | **Ayutqhayda ingilis ticarət gəmiləri donanmasının yaradılması** |
| **1615** | **Lannanın Birma tərəfindən işğal edilməsi** |
| **1656** | **Kral Harayın taxta çıxması** |
| **1662** | **İlk fransız missionerlərinin Tailanda gəlişi** |
| **1684** | **Tailandda Fransa səfirliyinin açılışı** |
| **1688** | **Kral Harayın vəfatı. Avropalı hərbi müşavirlərin və missionerlərin Siamdan qovulması, Qərbdən təcrid olunma siyasəti** |
| **1767** | **Birmalıların Ayuqthayı qarət etməsi** |
| **1782** | **Kral I Ramanın taxta çıxması. Paytaxtın Banqkoka köçürülməsi** |
| **1821** | **İngiltərənin Ost-hind şirkətinin ölkə ilə ticarət əlaqələri qurması** |
| **1824-51** | **Avropa diplomat missionerlərinin Siama Laos kralının Siama qayıdışı** |
| **1827** | **Laos kralının Siama müdaxiləsi. Düşmənin ölkədən qovulması** |
| **1851-68** | **Kral Monqkutun hökmranlığı. Ölkənin hakimiyyət quruluşu, ədliyyə sistemi və ordu islahatında avropalıların iştirakı** |
| **1855** | **İngilis-Siam ticarət əlaqələrinin qurulması** |
| **1856** | **Xarici ticarət sahəsində dövlət inhisarına son qoyulması** |
| **1868-1910** | **Kral Çulalonqkonun taxta çıxması. Siam düyü idxalçısına çevrilir. Dəmir yolları salınır** |
| **1893** | **Siam Laosu Fransaya təslim edir** |
| **1909** | **Siam 4 malay ştatını böyük Britaniyaya təslim edir.** |
| **1932** | **Mütləq monarxiyaya son qoyulur. VII Rama ölkəyə konstitusiya qəbul etdirir.** |
| **1935** | **VII Rama hakimiyyətdən gedir. Kral Amanda taxta çıxır.** |
| **1939** | **Ölkə Tailand adlandırılır** |
| **1941** | **Ölkəyə yaponların müdaxiləsi** |
| **1945** | **Yaponlar ölkəni tərk edir** |
| **1946** | **Kral Anandanın vəfatı. Kral Pyuminhon taxta çıxır.** |
| **1947** | **Hərbi çevriliş** |
| **1955** | **Siyasi partiyalar qanuni fəaliyyətə başlayır. Söz azadlığı təsbit olunur.** |
| **1957** | **Hərbi çevriliş. Hərbi diktatura** |
| **1963** | **Hərbi diktator Sarit vəfat edir. Than Kuttukaron baş nazir seçilir.** |
| **1967-74** | **Tailand Vyetnam müharibəsində ABŞ-a dəstək verir** |
| **1968** | **Yeni konstitusiyanın qəbulu** |
| **1971** | **Konstitusiyanın qəbulu** |
| **1971** | **Hərbi hökumətin tələbə nümayişləri nəticəsində istefaya getməsi** |
| **1975** | **Laos, Kamboca və Şimali Vyetnamda kommunist istefaya getməsi** |
| **1976** | **Hərbi vəziyyət elan edilir. Tələbə çıxışları yatırılır** |
| **1977** | **Hərbi İnqilab Şurası çevriliş nəticəsində hakimiyyətə gəlir** |
| **1980** | **Koalisyon hökumət qurulur. Siyasi və iqtisadi sabitlik yaranır** |

| | |
|---|---|
| **1991** | **Hərbi çevriliş. Mülki hökumət formalaşdırılır** |
| **1992** | **Ümummilli seçkilər. General Kragirayun özünü baş nazir elan edir. Ümummilli nümayişlər. Kralın müdaxiləsi nəticəsində general siyasi səhnədən gedir.** |
| **1997** | **İqtisadi böhran. Yeni konstitusiyanın qəbulu** |
| **2000** | **Taksin Şinavatra baş nazir olur.** |

Tailandda kənd təsərrüfatı yüksək inkişaf edib, düyü istehsalına görə ölkə dünyada 3-cü yer tutur. Eyni zamanda Tailand "Asiya bəbirləri" adı altında tanınmış yeni sənaye ölkələri (Tayvan, Sinqapur, Malayziya, Cənubi Koreya) sırasına daxil olmuşdur. Ölkədə kompyuter proqram təminatı, elektronika sahələri yüksək sürətlə inkişaf edir.

Banqkokda 9 mln əhali yaşayır. Şəhəri başdan-başa yarıb keçən kanallar ona xüsusi gözəllik verir. Bəzən Banqkoku Şərq Venesiyası adlandırırlar. 250 mln insan kanal sahillərində lövbər salmış qayıqlarda yaşayırlar.



KRAL SARAYI

Tailandın dövlət dini buddizmdir, onun ölkə mədəniyyətinə, adət-ənənələrinə təsiri olduqca yüksəkdir. Sayı 400-dən çox olan Banqkok məbədləri şəhərə dünya şöhrəti gətirmişlər. Onlardan ən məşhuru, 1785-ci ildə tikilmiş Zümrüdlü Budda məbədi kral sarayı memarlıq ansamblının tərkib hissəsidir. Məbədin mərkəzində 50 m hündürlüyü olan yaşıl-mavi yaşmadan çapılmış Budda heykəli ölkənin çiçəklənməsi rəmzidir. Tailand məbədlərinin əksəriyyətində asılmış zınqırovlar yel əsəndə sanki nəğmə oxuyur. Hər səhər narıncı əba geymiş, başları qırxıq rahiblər nəzir yığmağa yollanırlar. Buddizm ənənəsinə uyğun olaraq rahiblər ibadət edir, uşaqlara buddizm fəlsəfəsi öyrədir, yas və müxtəlif dini mərasimlərdə iştirak edirlər.



Buddizm 2500 il əvvəl Hindistanda yaranıb. Təriqətin banisi Hind şahzadəsi Hayutama idi, sonradan onu Budda adlandırırdılar.

Hər bir cavan tay bir müddət (azı 7 gün) monastırda yaşamalıdır, yalnız bundan sona o, cəmiyyətin tam hüquqlu üzvü sayılır və ailə qurmağa layiq olur. Taylar məbədləri müqəddəs sayılan şanagüllə çiçəkləri ilə bəzəyir, buraya uzun ömür rəmzi olan çanaqlı bağa gətirir, məbədləri nefrit daşından düzəldilmiş bəzək əşyaları ilə bəzəyirlər.

Tailandda taylardan savayı messu, lahu, lava, meo, karin və s. kimi 30-dan çox azsaylı millətlər də yaşayır. Kənd yerlərində tay evləri divarları bambukdan olan, torpaq döşəməsinin ortasında ocaq qurulan evlərdən ibarətdir.

Taylar fillərə, xüsusilə bəyaz fillərə böyük ehtiramla yanaşırlar. Qədimdə dövlət bayrağında bəyaz fil təsvir edilmişdi. Hazırda bəyaz filə nadir hallarda rast gəlmək olar, onu 1972-ci ildə Beynəlxalq qızıl kitaba daxil etmişlər.



Hər il Tailandda əzəmətli fil bayramı keçirilir. Bayram Banqkokdan 450 km kənarda yerləşən Surin şəhərində baş verir. Qonaqlar üçün bu, heyrətamiz tamaşadır. Fillərin iştirakı ilə müxtəlif yarışlar keçirilir. Mavi mundir geyinmiş tay döyüşçülərinin idarə etdiyi savaş fillərin paradı əcnəbi işğalçılara qarşı mübarizələrini tərənnüm edir.

Tailandda müxtəlif milli bayramların qeyd edilməsi səhnələşdirilmiş tamaşaya çevrilir. Yeni il bayramı bütün yoldan keçənləri suya basmaq kimi qəribə adətlə müşahidə olunur. Suda üzən Şanagüllə çiçəyi festivalı, Makha Burca (Bədr gecəsi ibadət) bayramı, İlk Şırım bayramı gözəl təəssürat bağışlayır. İlk Şırım bayramı ən nüfuzlu bayramlardan biridir. Adətən may ayında keçirilir. Rəvayətə

görə hələ Budda dövründə təsis olunub. XIII əsrdən başlayaraq saray mərasimləri sırasına daxil edilib. Əzəmətli yürüşə kral özü də başçılıq edirmiş, torpaqda ilk şırımı kotanla baş nazir açırmış. Bu gün bu şanlı vəzifəni kralın təyin etdiyi "Şum rəisi" ifa edir. Bayram yürüşü önündə müqəddəs qızılı kotana qoşulmuş, çiçəklərlə bəzədilmiş kəl cütü gedir. Brahmanlar himn oxuyur, şeypur çalır, təbii vururlar. Onların ardınca qızıl və gümüş məcməyidə düyü aparan 4 qız gedir.

İlk şırım açıldıqdan sonra kəllərin qabağına düyü, lobya, qarğıdalı və s. kimi 7 növ bitki düzürlər. Kəllərin seçimi, həmin bitkinin bu mövsümdə bol məhsul gətirəcəyinə işarə olur. Mərasimin sonunda "şum rəisi" torpağa çəltik səpələyir, bu zaman iştirakçılar heç olmasa bircə çəltik olsa havada tutmağa çalışırlar, müqəddəs çəltik ələ keçirə tay özünü bəxtəvər hesab edir.

Tailand bayramlarında milli rəqs - "khon" geniş ifa olunur. Nanq - kölgə teatrı tamaşaları qoyulur, milli musiqi alətlərində melodiyalar çalınır.




Bayramlarda xoruz döyüşdürülür, öküz döyüşləri keçirilir, tay boksçuları öz məharətlərini nümayiş etdirirlər.

Tailandda hava həmişə isti keçir. Qışda gecə havanın hərarəti 10° C-dən aşağı düşmür, may ayında, yağış mövsümünə az qalmış havanın hərarəti 40° C-ə çatır.

Tailand məbədlərində Buddanın saysız-hesabsız heykəlləri qoyulur.

Heykəlləri əhəngdaşından, kvarsdan, nefritdən, tuncdan, habelə qum. əhəng, çəltik qabığı və bitki yapışqanı qarışığından düzəldirlər. Heykəllərə zərvərəq çəkilir, onları qiymətli daş-qaş, sədəflə bəzəyir, rəngli mina ilə örtürlər. Tay məbədləri ibadət mərkəzi, pavilyon, qalereyalar və kitabxanadan ibarət olur.


TAİLANDDA TOY MƏRASİMİ

Məbəd kompleksini hündür hasar əhatə edir. Məbəd divarlarında Buddanın həyatından səhnələr təsvir olunur. Tay təsviri sənətində müəyyən qaydalara riayət olunur. Boyalar, duruşlar dəqiq ştamplara uyğun olmalıdır. Baş qəhrəmanlar digər personajlara nisbətən daha iri təsvir olunur. Təsvirlərdə Khon kölgələr teatrından götürülmüş 64 duruş kompozisiyasından istifadə olunur. Bayramlarda hər yerdə parça üzərində çəkilmiş təsvirlər asılır. Bu ənənə mənşəyinə görə Tibetdə yaranmışdır. Təsviri sənətdə təbii boyalardan istifadə edirlər. Tailandda Çin təsvir sənətindən götürülmüş lak və qızılı boya ilə işlənmiş təsvirlər də geniş vüsət almışdır.

Hanq kölgələr teatrı teatr sənəti və dini mərasim arasında keçid mərhələsidir. Tay daima ruhlar dünyası ilə təmas qurmağa can atır, burada teatrın kölgə personajları onun köməyinə gəlir. Personaj fiqurları inək gönündən doğranır, onlara boya çəkilir, konturları qara boya ilə haşiyələnir, şüvülə keçirilir. Artistlər şüvülləri hərəkətə gətirdikdə müqəddəs ekran qarşısında fiqurlar sanki canlanırlar. Ekranın yuxarı hissəsi qara qüvvələrdən qoruyan həmaillərlə bəzədilir, ekranın arxasında səhnəni işıqlandıran məşəllər yanır.

Hanq teatrını adətən toy və yas mərasiminə dəvət edirlər.

Tay mətbəxi formasına görə Çin mətbəxini xatırladır, çünki burada taamları xırda-xırda doğrayırlar. Məzmununa görə isə bu, Hind mətbəxidir. Xörəklərə çoxlu istiot və digər ədviyyat növləri qatılır.

Tailand bayramları

| | |
|---|---|
| **1 yanvar** | **Yeni il** |
| **Yanvarın sonu-fevralın əvvəli** | **Çin təqvimi ilə Yeni il** |
| **Fevral** | **Maho Buca bayramı** |
| **6 aprel** | **Çakri sülaləsi günü** |
| **13-15 aprel** | **Sonqkhran-ənənəvi Tay yeni ili** |
| **14 aprel** | **Ailə günü** |
| **1 may** | **Əmək günü** |
| | **5 may Tacqoyma bayramı. 1950-ci ildə kral Phyuminhonun taxta çıxması münasibəti ilə rəsmi mərasim kimi təsis edilib.** |
| **6 may** | **İlk Şırım bayramı** |
| **May** | **Visakha Buca bayramı** |
| **İyul** | **Asanha Buca bayramı** |

| | |
|---|---|
| **İyul** | **Khay nhansa bayramı. Buddizmdə pəhriz saxlanma ənənəsi** |
| **12 avqust** | **Kraliçanın anadan olan günü** |
| **Oktyabr** | **Kathin bayramı** |
| **23 oktyabr** | **Çulalonqkon günü. V Ramanın şərəfinə qeyd edilən bayram** |
| | **Noyabr Loy Krathonq. Ümummilli bayramı olmasa da, ən gözəl mənzərəli bayramlardan biridir.** |
| **Noyabr** | **Fillər bayramı. Tailandın Surin mahalında keçirilir.** |
| **5 dekabr** | **Kralın anadan olan günü** |
| **10 dekabr** | **Konstitusiya günü** |
| **31 dekabr** | **Yeni il axşamı** |

Tay davranış qaydalarına görə tövsiyə olunur:



- yaxın ünsiyyətə girməkdən çəkinmək;
- nəzakətli olmaq;
- səliqəli və ciddi geyinmək;
- həmsöhbəti tərifləmək;
- soyuqqanlı olmaq;
- rahiblərə və krala ehtiram göstərmək;
- astadan və səlis danışmaq;
- evə və məbədə daxil olanda ayaqqabıları çıxarmaq.

Qadağandır:
- acıdil olmaq;
- şikayətlənmək, tənqid etmək;
- ayağı ayağın üstünə aşırıb oturmaq;
- danışanda əl-qol atmaq;
- əsəbiləşmək, hirslənmək;
- barmaqla göstərmək;
- ayaqla işarə etmək
- qışqırmaq
- insanın başına toxumaq.

İdman. Tay boksu (mıay thay). Bu boks növü beynəlxalq boksa nisbətən daha sərt, hətta qəddar görünə bilər. Burada yumruqlardan başqa ayaq zərbələrinə də icazə verilir. İdmançılar arasında travmatizm hallarını azaltmaq üçün oyun qaydalarında zəruri dəyişikliklər edilib, qadağan olunmuş zərbələrin siyahısı müəyyənləşdirilib.

Krabonq. Ənənəvi özünümüdafiə döyüş növüdür. Qızlar da iştirak edə bilər.

Balıq döyüşləri. Tailanda xüsusi döyüş balıqları yetişdirilir. Döyüş balıqları “rəqibinə” altı saat ardıcıl hücum edə bilər. Döyüşü tərk edən balıq məğlub hesab olunur. Tailandda o cümlədən xoruz döyüşləri də keçirilir.

Öküz döyüşləri. Korridadan fərqli olaraq burada nə matador, nə də toreador var. Öküzlər sadəcə olaraq bir-biri ilə döyüşür.

Takro. Bu oyunun başlıca qaydası əllər istisna olmaqla topu bədənin istənilən əzası ilə tutub saxlamaqdır.



Tailand krallığı Hind-Cin yarımadasının Cənub-Qərb hissəsində və Malakka yarımadasının şimalında yerləşir. Ərazisi 514 min kv km, əhalisi 63 mln nəfərdir. Əhalinin yarısını taylar təşkil edir. Digər yarısı lao, çinli, malayziyalı, kxemlər və s. millətlərin nümayəndələrindən ibarətdir. Rəsmi dövlət dili tay dilidir. Əsas dini təriqət - buddizmdir.

Tailand dövlətinin paytaxtı müxtəlif mədəniyyətlərin qovuşduğu, əhalisi 9 mln olan Banqkok şəhəridir. Tailand qısa müddətdə iqtisadi geriliyi dəf edərək, iqtisadiyyatını surətlə inkişaf etdirən yeni sənaye ölkələri sırasında gedir. Son 20 il ərzində məhsulun illik artımı 7-8 % təşkil edir. Kompüter, hesablayıcı texnika, avtomobil, kimya, yüngül sənaye məmulatlarının, ehtiyat hissələrinin və zərgərlik əşyalarının ixracında əhəmiyyətli artım müşahidə olunur.

Milli gəlirin formalaşmasında, maliyyə tarazlığının əldə edilməsində beynəlxalq turizmin böyük payı var. 1998-ci ildə Tailanda 7.72 mln qonaq gəlmişdi, onların 82 %-i bölgədaxili turistlər idi.

Ölkə iqtisadiyyatının uğurlu yüksəlişi işgüzar turizmin inkişafına təkan verdi, qısa müddətdə ölkədə müasir dəbdəbəli otellər və əyləncə ocaqları tikildi. Cənub sahil zolağında yeni çimərlik şəbəkəsinin

salınması və ölkənin şimalına mədəniyyət abidələri ilə tanışlıq məqsədi daşıyan ekskursiyaların təşkili yeni turizm istiqamətlərinin açılmasına imkan verdi.

Ölkədə əyləncə turizmi geniş vüsət alıb. Tailand bölgədə turizmin surətlə inkişaf etdiyi on ölkə sırasına daxil olub. 2001-ci ildə iqtisadi artım 4.8 % həddində proqnozlaşdırılmışdı, turizmin ixracda mühüm yer tutdu. Onun artımı 17 % həddində gözlənilirdi. 1998-ci il Asiya-Sakit okean bölgəsi üçün ağır il olmuşdu. Bölgənin, demək olar ki, bütün ölkələrinə qonaq gələn turistlərin sayı azalmışdı. Tailand hökumətinin həyata keçirdiyi tədbirlər (reklamın gücləndirilməsi, turizm xidmətlərinin qiymətlərinin aşağı salınması, qonaqlar üçün viza rejiminin ləğv edilməsi, xidmət keyfiyyətinin yüksəlməsi) sayəsində turizm sahəsinə ziyan dəymədi.



YERALTI "RUHLAR MAĞARASI"

Banqkokun mərkəzində milli Eksport mərkəzi tikildi. O, Tailandın müasir memarlıq rəmzidir. Burada beynəlxalq simpoziumlar, turizmə həsr olunmuş yarmarka və sərgilər keçirilir. 2001-ci ildə ixrac olunan mal və xidmətlərin dəyəri 77 mlrd $ təşkil etmişdi, bu məbləğin 15 %-i beynəlxalq turizmin payına düşürdü.

Turizm müəssisələrinin tikintisi üçün uzunmüddətli, qeyri-məhdud həcmdə kredit ayıran bank sistemi turizm sənayesinin surətli inkişafına yardım göstərir. EXİM BANK adlanan ixtisaslaşmış bank yaradılıb, o, turizm sahəsində sərmayə qoyuluşu üzrə layihələr işləyib hazırlayır və xaricdəki sərmayəçilərə xidmət edir. Tailand müstəmləkəçilərin ayaq basmadığı yeganə dövlətdir. Taylar gənc millətdir, turistlərə xeyirxah münasibəti ilə fərqlənir.



Banqkok dünyanın ən gözəl şəhərlərindən biridir. Onu Asiya-Sakit okean bölgəsinin Venesiyası adlandırırlar. Qədim buddizm məbədləri öz əzəmətini qoruyub saxlayıb. Budda surəti ən məşhur suvenir sayılır. Lakin onun ölkədən çıxarılmasına qadağa qoyulub.

Tay milli mətbəxi adamı heyran edir, xörəklərin hazırlanmasında meyvə-tərəvəzdən geniş istifadə edilir. Xörəklərin gözəl tərtibatı sənət əsərini xatırladır. Dəbdəbəli dükanlarda satılan mallar çeşidi ilə fərqlənir.

Tailandda il boyu hava isti keçir. İstilik dərəcəsi +22º C-dən aşağı düşmür. Havanın ən yüksək hərarəti +32º C təşkil edir. Taylar salamlaşanda əl verməyi xoşlamırlar, əllərini sinələrində çarpazlayırlar.

Tailandda nəqliyyatın bütün növləri inkişaf edib. Güclü dəniz donanması vasitəsi ilə idxal-ixrac əməliyyatları həyata keçirilir. Dəniz gəmilərindən həm də turistlərin daşınmasında istifadə olunur. Banqkok beynəlxalq aeroportu dünyanın bir çox şəhəri ilə hava xətti rabitəsi yaradıb. Şəhərlərdə üçtəkərli tok-tokina nəqliyyat növü şöhrət tapıb. Tailandda müntəzəm olaraq festivallar, milli bayramlar təşkil olunur. Burada milli rəqs və musiqi ilə də tanış olmaq mümkündür.



Taylar təbiəti çox sevirlər. Banqkok yaxınlığında, 26 hektar ərazidə tropik bitkilər yetişdirilən Milli park salınıb. Rahat otel və restoranları sıx yaşıllıq əhatə edir. Son dövrdə bir neçə belə turizm mərkəzi inşa edilib. Venesiyada olduğu kimi, binaların pəncərəsi altında dənizin dalğalanması belə mərkəzləri füsunkar istirahət guşəsinə çevirir. Turizm mərkəzlərinin quruculuğunda tətbiq olunmuş fantastik, orijinal ideyaların ucu-bucağı görünmür. Hər yerdə idmanın müxtəlif növləri ilə məşğul olmaq mümkündür. Ekzotik təbiət, yemək və malların ucuzluğu, çimərliklərdə istirahət, əyləncə və ekskursiyaların böyük çeşidi qonaqları dünyanın hər yerindən Tailanda cəlb edir. Xaricə səfərlər zəif inkişaf edib, ona görə də taylar əsasən bölgə ölkələrinə səfərə çıxırlar.

## 3.8. YAPONİYA

**Ərazisi: 377.7 min kv km (dünyada 60-cı yer).**
**Əhalisi: 128 mln nəfər (dünyada 10-cu yer - 2000).**
**Paytaxtı: Tokio (12 mln nəfər -2000).**
**Dövlət dili: yapon dili.**
**Din: sintoizm.**
**Milli pul vahidi: yena.**

Yaponiyanı qədim dövrlərindən gündoğan ölkə adlandırırlar. Ölkənin paytaxtı Tokio şəhəridir. Avropalılar Portuqaliya dənizçilərinin sayəsində bu ölkə ilə tanış olublar. Yaponiyanı tabe etmək məqsədi güdən Portuqaliya müstəmləkəçiləri ilk əvvəl ticarət əlaqələrini inkişaf etdirməkdən və katolik dinini yerli əhaliyə təlqin etməkdən başlamışdılar.



TOKİO

Lakin tezliklə müdrikliyi, uzaqgörənliyi və mərdliyi ilə şöhrət tapmış Yaponiya imperatoru Teyqo aşkar etdi ki, uzaq Portuqaliyadan təşrif buyurmuş missionerlər dini fəaliyyətdən çox yapon qızılı toplamaqla məşğuldurlar. O, missionerləri ölkəsindən çıxarmaq qərarı verdi. Yaponiyadan qovulmuş avropalılar qisas almaq üçün yaponları riyakar, satqın millət kimi qələmə verməyə başladılar. Lakin yapon xalqı ilə tanışlıq belə şayiələri təkzib etmək imkanı yaratdı.

Yaponlar əməksevər, səliqəli, qənaətcil, nəzakətli, intizamlı, ənənələrə sadiq, təmkinli insanlardırlar. Yapon uşaqlıqdan şəxsi istəklərini, xasiyyətinin güclü cəhətlərini gizli saxlamağa çalışır. Yaponlar insanlar arasında qarşılıqlı asılılıq amilini başlıca ünsiyyət modeli hesab edirlər. Fərdiyyətçiliyi isə soyuq, quru, insan təbiətinə yad olan meyar sayırlar.

Yaponlarda özünü tənqid güclü inkişaf edib. Xətaya yol vermiş yapon, səmimiyyətlə səhvini boynuna alır, etdiyini təhlil edir və qısa müddətdə vəziyyəti yoluna qoymağa çalışır. Bu əlamət bütün millətə xas olduğundan "yapon möcüzəsi" adı qazanıb.

Ölkə adalarda, qitə məskənlərindən nisbətən uzaqlarda yerləşdiyindən əsrlər boyu adət-ənənələrini qoruyub saxlamağa bilmişdir. Buddizmin təsviri Yaponiyaya ilk dəfə 552-ci ildə gəlir çatmışdır. Buddizm Sutra nümunələri yaponlar üçün ilk yazı iyeroqlifləri dərsliyi olur və yaponları Şərqin ən qədim sivilizasiyaları sırasına daxil edir.

Yapon torpağında buddizm ilk növbədə kübar dairələrin təriqəti kimi kök saldı, tədricən sıravi insanların da ənənələrinə uyğunlaşdırıldı. Yaponlar əslində buddizmin yalnız zahiri cəhətlərini, ilk növbədə varlığın gəldi-gedər olması fəlsəfəsinə yiyələnmişdilər. Bu müddəa təbii fəlakətlərlə daima üzləşən ada-dövlət sakinlərinin dünyagörüşü ilə təbii şəkildə uzlaşırdı.

Yaponlar üçün əsil milli təriqət sinto tanrıların yolu təriqəti idi. Onlar hesab edirdilər ki, dünya hər bir cisim - dağ, vulkan, şanagüllə çiçəyi, göy qurşağı canlı ruha malikdir. Kodzini adlanan müqəddəs sinto kitabı çoxsaylı yapon rəvayətlərdən tərtib edilib. Lakin kitabda heç bir davranış qaydaları, əxlaq normaları, hər hansı konkret tövsiyə yoxdur. Sinto təriqətinin öz konkret etik nəzəriyyəsi olmadığından, onu xristianlıq, İslam və ya buddizmlə müqayisə etmək çətindir.

İbtidai sinto təriqəti təbiəti ilahiləşdirməkdən başqa bir şey deyil. Məhz sinto fəlsəfəsi yaponlarda təbiət gözəlliklərinə məhəbbət tərbiyə edirdi. Sinto dindardan hər gün dua etməyi tələb etmir, məbəd mərasimlərində iştirak etmək və ayinlərin ifasına görə nəzir vermək kifayət edir.



"NO" TEATRI

Sinto ilə buddizm arasında azacıq da olsa oxşarlıq yoxdur. Bir tərəfdən əcdadlara səcdə edən və təbiəti ilahiləşdirən ibtidai din, digər tərəfdən dolğun təşəkkül tapmış fəlsəfi nəzəriyyə. Bu təriqətlər arasında amansız mübarizə, həlledilməz ziddiyyət olduğunu güman etmək olardı. Lakin Avropa tarixi boyu aramsız davam edən dini müharibələr yapon xasiyyəti üçün ağlasığmazdır. Bu iki təriqət arasında ittifaqa bənzər münasibətlər sistemi təşəkkül tapıb. Kənd yerlərində sinto və buddizm məbədlərinin yanaşı tikilməsi ənənə halı alıb - hesab edirlər ki, sinto tanrıları Buddanın heykəlini yerli qara qüvvələrdən daha yaxşı qoruya bilirlər.

Yaponiya yaşıl, bəzən od püskürən dağlar, mavi dəniz körfəzləri, əsrarəngiz mənzərələr ölkəsidir. Rütubətli hava landşaftların boya çalarlarını sanki yumşaldır, mülayimləşdirir. Yaponlar parlaq, ziddiyyətli təzahürlərdən kənar olmağa üstünlük verirlər.

Avropalılar belə hesab edirlər ki, yapon mədəniyyəti xırda, vecsiz şeylər mədəniyyətidir. Yaponlar hər hansı xırda bir əşyanın gözəlliyindən həzz almağı xoşlayırlar. Ahıl yaponlar arasında çoxlu sayda çiçək yetişdirənlər, kolleksiya toplayanlar, həvəskar rəssamlar var.



"NO" TEATRI

Yaponiyada incəsənəti həqiqi və tətbiqi sahələrə ayırmırlar. Burada gözəlliyi məqsədəuyğunluqla eyniləşdirirlər, istənilən məişət əşyası, gözəl sənət əsəri olmaqla yanaşı tətbiqi səciyyə daşıya bilər. Yapon mədəniyyətinin ən görkəmli, ən böyük və geniş yayılmış qollarından biri teatr sənətidir. Yaponiyada rəqs, dram və musiqi qeyri-adi şəkildə qovuşaraq səhnə sənəti şəklində təzahür edir. Müasir dövrdə yapon mədəniyyətinin bu sahəsinin ən mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, kökləri ilə qədim dövrlərlə bağlı olan bədii janrlarla yanaşı yaşayaraq inkişaf etdirilir.

Yapon teatr sənətinin ənənəvi növləri sırasında: Buqaku - imperator sarayının rəqs və musiqisi, No dramı və Köqen - komediyanın bir növü; Bunraku - kukla teatrı, Kabuki, Sinqeki - yeni teatr, Müzikl qeyd olunmalıdır. Bu teatr növlərinin hər biri özünəməxsus xüsusiyyətlərə, tarixi inkişaf yoluna, əsrlər boyu yaranan və qərarlaşan ənənələrə malikdir.

Dünyanın digər ölkələrində olduğu kimi, yapon mədəniyyətində də tarixən ictimai təbəqələşmə müşahidə olunur və incəsənət kübar təbəqənin və xalq kütlələrinin maraqlarını təmin edən növlərə bölünür. Kübar təbəqənin zövqünü oxşayan incəsənət növü Buqaku idisə, xalq teatr sənəti sanqaku ilə təmsil olunurdu ki, bu da kütləvi tamaşaların müxtəlif növlərini - komik səhnələr və hekayətləri, komik mimləri, xalq mahnı və rəqslərini, akrobatların, sehrbazların və jonqlyorların çıxışlarını, kukla tamaşalarını əhatə edirdi.

Xalq arasında çox sevilən tamaşa növlərindən biri də saruqaku idi ki, bu da dini bayramlarda ibadətgahlara axışan insanların qarşısında oynanılırdı. Tədricən geniş tamaşaçı kütləsi cəlb edən bu tamaşaları ifa edən peşəkar aktyorlardan ibarət çoxlu truppalar meydana gəldi. Onlardan çoxu böyük məbədlərin və monastırların başçıları tərəfindən himayə olunmağa başladı. Belə ki, buddizmə və sintoizmə məxsus dini bayramlarda daha çox insan kütləsini məbədlərə cəlb etmək üçün dəvət olunmuş truppalar tərəfindən saruqaku tamaşaları göstərilirdi. Hətta bəzi varlı monastırlarda daimi truppalar yaranmışdı.



"KABUKİ" TEATRI

Sonrakı dövrlərdə yapon teatrının tarixi inkişaf prosesində saruqaku teatrına kübar və xalq tamaşalarından götürülmüş elementlərin daxil edilməsi sayəsində onun yönümü dəyişmiş, yeni tamaşa formaları yaranmışdır.

Ənənəvi yapon teatrın bir növü də No teatr tamaşalardır. Yaponiyanın qədim teatr ənənələrindən yetişən No teatrının əsası XIV əsrdə o dövrün ən görkəmli teatr xadimləri, aktyor, yazıçı, müəllim və teatr nəzəriyyəçiləri olan Kanami (1333-1384) və Dzeami (1363-1443) tərəfindən qoyulmuşdu.

Kanaminin İqa şəhərində yaratdığı "Kan-dze-dza" teatrı yapon teatrı tarixində yeni səhifə açmışdır. Onun əvvəlki dövrlərin meydan teatrının və mərasim rəqslərinin nailiyyətlərindən istifadə edərək səhnələşdirdiyi tamaşalar geniş xalq kütlələrinə ünvanlanmışdı. Həmin tamaşalar həm paytaxtda, həm də əyalətlərdə çox məşhurlaşdı və sevildi.

Kanamidən sonra onun işini davam etdirən oğlu Dzeami isə tamaşaları daha çox kübar təbəqənin zövqünə uyğunlaşdırırdı ki, bu da No teatr ənənələrinin formalaşmasında həlledici məqam oldu. Onun tamaşaları yüksək hərbi təbəqə və imperator tərəfindən çox bəyənilirdi. No teatrının dini-mistik və romantik ruhu bu təbəqənin zövqünə uyğun idi. Musiqi və rəqslərlə müşayiət olunan No dramları və

tamaşaların ayrılmaz hissəsi olan komik xarakterli intermediyalar - köqenlər yüksək dərəcədə inkişaf etdirilirdi.

No teatrının inkişaf yolu heç də həmişə hamar olmamışdır. Yapon tarixinin müəyyən mərhələlərində bu sənət növünün durğunluq məqamları da, yüksəliş dövrləri də olmuşdur. Zaman keçdikcə, No teatrı təntənəli mərasimlərin mühüm tərkib hissəsinə çevrilmişdir. Hər il No teatr festivalının keçirilməsi isə ənənə halını almışdır.

No teatrının yapon mədəniyyətində kök salmasının, Yaponiyanın ənənəvi teatr sənətinin ən geniş yayılmış, ciddi klassik formasına çevrilməsinin, şübhəsiz ki, özünəməxsus səbəbləri vardır. Bu teatrın ümumi ruhu insanlar arasında sülh və əmin-amanlıq ideyalarını təbliğ edən qədim Şərq fəlsəfəsinin müddəaları ilə çulğaşmışdı.



YAPONİYA QRAVYURA SƏNƏTİ NÜMUNƏLƏRİ

Eyni zamanda, Şərq mədəniyyətinin ənənələrinin daşıyıcısı olan No teatrının qorunması və nəsildən-nəslə ötürülməsi hakim dairələr tərəfindən xüsusi fərmanlarla tənzim olunur və həyata keçirilirdi. Belə ki, XVII əsrdə xüsusi təsis olunmuş iyemoto sistemi mövcud idi. Tanınmış ustad sənətkarlardan təyin olunan iyemoto No teatr məktəbinin başçısı vəzifəsini daşıyırdı və onun ətrafında bir növ aktyorlar və musiqiçilər gildiyası formalaşırdı. Bu ənənə bu gün də saxlanmışdır. Hazırda Yaponiyada min nəfərə yaxın sənətkarı özündə cəmləşdirən No teatrı aktyorlarının və musiqiçilərinin Assosiasiyası fəaliyyət göstərir.

No teatr sənətinin təkamülü boyu bir sıra ənənəvi məktəblər yaranmışdır ki, onlardan beşi müasir dövrdə də mövcuddur: Kandze, Komparu, Xosö, Kenqo, Kita kimi məktəblər No teatrının sabit ənənələrini - əsas ideya və məzmunu, tamaşanın forma və üslub xüsusiyyətlərini, səhnə quruluşunu, aktyor və musiqiçilərin tərkibini, personajlarını, rollarda iştirak edən aktyor bölgüsünü, maska və geyimlərini qoruyub saxlamışladır.



MÜASİR YAPON TƏSVİRİ SƏNƏTİ NÜMUNƏLƏRİ

Ənənəvi olaraq No teatrında bütün rolları (o cümlədən, qadın rollarını) kişi aktyorlar ifa edir. Səciyyəvi cəhətlərdən biri də aktyorların qrim və mimika əvəzinə maskalardan istifadə etməsidir, belə ki, No teatrında maska əsas ifadə vasitəsi hesab olunur. Eyni zamanda, aktyorların hərəkətləri, o cümlədən, rəqslər kanonlaşdırılmışdır. Məhdud saylı təmkinli və sadə hərəkətlər vasitəsilə maksimum səhnə effektinin əldə olunması No teatrının ənənələrindən biridir. Bütün bunlarla yanaşı, No teatr məktəbləri özünəməxsus cəhətləri, ifaçılıq üslubu və repertuar fərqlərinə görə bir-birindən seçilir.

No teatrının əsas estetik konsepsiyası öz təcəssümünü gerçəkliyin təsviri və onun daxili mənasının açılmasında, əsərin mətnində, rəqslərdə, musiqidə, vokal ifa və səhnə hərəkətlərində tapır. No teatrında dramaturgiya mühüm əhəmiyyətə malik olub, tərkib hissəsinə görə mürəkkəbdir. Teatrın repertuarına daxil olan pyeslər orta əsrlərə aid olub, əfsanələrə, tarixi faktlara və ədəbi əsərlərə əsaslanır.

Hazırda oynanılan No teatr tamaşaları ənənəvi olaraq, beş pyesdən və üç komik intermediyadan (bu zaman mətnin, personajların, maska və geyimlərin təkrarlanmamağı vacib şərtlərdən biridir) ibarətdir. Klassik proqram 5-6 saat davam edir.

Göründüyü kimi, Yapon mədəniyyətinin əsas cəhətlərindən biri olan ənənəvilik No teatrının timsalında bizim günlərdə də yaşadılaraq, bu sənətin gələcək nəsillərə ötürülməsində böyük rol oynayır.

Yapon mədəniyyətinin rəmzlərindən birinə çevrilmiş Kabuki teatrı da diqqətəlayiqdir. Kabuki teatrının tarixi XVI əsrin ikinci yarısından başlayır. Böyük bir təkamül yolu keçən bu teatr hazırda klassik kamillik zirvələrini fəth etmişdir. Bu gün də Kabuki teatrı yaponlar arasında geniş populyarlığa malik olmaqla yanaşı, dünya teatr aləmində də diqqətlə qarşılanır.

Kabuki teatrının özəl xüsusiyyətlərindən biri ondan ibarətdir ki, burada da bütün rollar kişi aktyorlar tərəfindən ifa olunur; onları "onnaqata" adlandırırlar. Xatırladaq ki, teatrın yarandığı ilk dövrlərdə səhnədə oynanılan tamaşalarda qadınlar çıxış edirdilər. Lakin əhalinin geniş təbəqələri arasında teatrın tamaşalarına artan marağı görən və ictimai əxlaqın pozulacağından narahat olan hökumət tərəfindən qadınların səhnəyə çıxmasını qadağan edən fərman verilir. Bu fərman yalnız 250 ildən sonra ləğv edilsə də, qadınlar səhnəyə qayıda bilmədilər. Çünki artıq Kabuki teatrında "onnaqata" sənəti kamil

səviyyəyə çatdırılmış və teatrın özünəməxsus siması, ənənələri formalaşmışdı. Ənənəvi olaraq, Kabuki teatrının aktyorları bu gün də kişilər olaraq qalır.

Kabuki teatrının ənənələri Yaponiyanın qədim tarixə malik olan teatr sənətinin nailiyyətləri üzərində yetişmişdir. Bunlardan No teatrının, Bunraku kukla teatrının təsiri xüsusilə böyük olmuşdur. Hətta bu gün də Kabuki teatrının repertuarında adı çəkilən teatrlarla bağlı ənənəvi əsərlər müəyyən yer tutur.

Hazırda teatrın repertuarına 300-ə yaxın tamaşa daxildir və mütəmadi olaraq yeni tamaşalarla zənginləşir. Kabuki teatrının tamaşalarını məzmununa və qəhrəmanların xarakterinə görə tarixi dram və ailə dramı kimi növə ayırmaq olar.

Kabuki teatrında aktyor sənətinə xüsusi diqqət yetirilir və əsrlər boyu formalaşmış aktyor oyunu üslubu bu sənətin əsas cəhətlərindən biridir. Aktyorlar ənənəvi, simvolik səhnə və rəqs hərəkətlərini dərindən mənimsəyərək, onları ifa etdiyi rolun təfsirinə uyğunlaşdırırlar. Bununla da aktyor obrazın daxili aləmini və gözəlliyini tamaşaçıya çatdırmağa çalışır. Bu teatrda aktyor oyununun daha bir xüsusiyyəti vokal ifaçılıq sənəti ilə bağlı olub, melodeklamasiya üslubuna yaxınlaşır. Musiqi də tamaşanın mühüm tərkib hissələrindəndir. Musiqi ilə müşayiət olunan hissələrdə aktyorun hərəkətləri rəqs ritmlərinə uyğunlaşdırılır.

Kabuki teatrında çox parlaq, rəngarəng, insanı həyəcanlandıran və riqqətə gətirən tamaşalar oynanılır. Bu baxımdan Kabuki teatrı bəlkə də dünyanın heç bir teatrı ilə müqayisəyə gələ bilməz. Teatr bilicilərinin qənaətinə görə, Kabuki teatrına məxsus dekorasiyalar, qrim və geyimlər ekzotik və rəngarəng xüsusiyyətlərinə görə seçilir.

Yaponiyada Kabuki teatr binaları ən müasir üslubda tikilməklə yanaşı, ənənəvi teatr üslubunu da qoruyub saxlayır ki, bu da yapon mədəniyyətinin səciyyəvi cəhətlərindən biri kimi diqqəti cəlb edir.

Dünya teatr tarixçiləri hesab edirlər ki, mövzu və məzmun dəyişsə də, qədim dram sənəti kamilləşərək, zamanın sınaqlarından çıxır. Ənənələr üzərində qurulmuş yapon teatr mədəniyyətinin ümumi mənzərəsi tədqiqatçıların bir fikrini təsdiq etməyə imkan verir. Həyatdakı dəyişikliklərə baxmayaraq, ənənəvi yapon teatr sənəti bu gün də yapon xalqı tərəfindən çox sevilir. Ənənəvi yapon teatrı eyni zamanda bütün dünyada tamaşaçıları heyrətə gətirir.

Əhalisi 128 mln nəfərdən çox olan Yaponiya Şərqi Asiyada, çoxsaylı xırda adaların əhatə etdiyi Hokkaydo, Honcü, Sikoku və Küsü kimi 4 iri ada ərazisində yerləşir. Onun paytaxtı Tokioda 12 mln insan yaşayır.

Yaponlar istirahət məqsədi ilə uzaq səfərə getməzdilər. 1964-cü ilə qədər dincəlmək və uzaq ölkələrlə tanış olmaq istəyən səyyahların sayı olduqca az idi. 1960-cı ilin sonundan başlayaraq Yaponiyada xaricə səyahətlərin sayı artmağa başladı və 1970-ci ildə 2.2 mln nəfərə çatdı. 80-cı illərin əvvəlinə qədər bu göstərici dəyişmədi. 1984-cü ildə bu rəqəm kəskin dəyişərək iki dəfə artdı və 4.6 mln nəfər təşkil etdi. Lakin bu rəqəmin özü də Yaponiya əhalisinin 4 %-dən azını təşkil edirdi. Həmin illər Yaponiya üçün iqtisadi yüksəliş illəri idi.

Yaponiya hökuməti ölkəyə xarici valyuta cəlb etmək məqsədi ilə xarici qonaqların sayını 10 mln nəfərə çatdırmaq vəzifəsini öz üzərinə götürdü.

1990-cı ildə ölkəyə 11 mln qonağın gəldiyi qeydə alındı, beləliklə qarşıya qoyulan vəzifə artıqlaması ilə yerinə yetirildi. Yapon turistlərinin xaricdə xərclədiyi vəsaitin də həcmi artmağa başladı (1987-ci ildə-10.76 mlrd $, 1992-ci ildə -35.4 mlrd $).

Yaponiya sakinləri əsasən ABŞ və Asiya-Sakit okean bölgəsinin Cənubi Koreya, Tailand, Malayziya, Sinqapur kimi ölkələrinə, habelə Çinin Honkonq əyalətinə səfərə gedirlər. Bu yerlərin hər biri Yaponiyadan ildə təqribən 1 mln qonaq qəbul edir. Bölgənin Avstraliya, Çin, Tayvan və Quam kimi ölkələrindən hər biri ildə 0.5 mln yapon turisti qəbul edir.



SAPPORODA QAR FESTİVALI

Yaponiya turistləri üçün digər ziyarət məkanı Avropadır. Fransaya hər il 1 mln-dan çox yapon turisti gəlir. Böyük Britaniya, Almaniya və İtaliya kimi Avropa ölkələrinin hər birini ildə 0.5 mln yapon turisti ziyarət edir.

1991-ci ildə Yaponiya hökuməti XXI əsrdə turizmin inkişafı planını həyata keçirməyə başladı. Proqram XXI əsrdə ölkədə beynəlxalq turizmin, Yaponiyaya və Yaponiyadan turist axınlarının artım inkişafını nəzərdə tuturdu. Hökumət turizmi yeni, daha müasir səviyyəyə qaldırmaq, daxili turizmi inkişaf etdirmək, ölkədən xaricə səfərlərin təşkilini təkmilləşdirmək, həm daxili, həm də xarici turistlərin müasir

tələbatlarını ödəmək məqsədi ilə bu sahədə yeni texnologiyaların, yeni istiqamətlərin tətbiqini nəzərdə tutan proqramlar hazırladı, turizm sahəsinin idarəçilik sistemində struktur dəyişiklərinə başladı.

Eyni zamanda Yaponiya, bir çox ölkələrin, o cümlədən Avstraliya, İndoneziya, Malayziya və Tailandın turizm sahəsi infrastrukturuna külli miqdarda sərmayə qoyur, bölgədə turizm inkişafı üzrə müştərək layihələrdə yaxından iştirak edir. Yaponiyanın özəl şirkətlərinin 15.6 %-i həmin ölkələrdə daşınmaz əmlak almağa sərmayə qoyur. Bu vəsaitin 25 %-i isə otel tikintisinə xərclənir.

Ölkəyə səfərlərin sayı Yaponiya milli pul vahidi iyenanın məzənnəsinin yüksək həddi səbəbindən geri qalırdı. Lakin 80 -cı illərdə Şərqi və Cənubi-Şərqi Asiyanın yeni sənaye ölkələrinin inkişafı nəticəsində qonaqların sayı artmağa başladı və 1992-ci ildə 3.58 mln nəfərə çatdı. Hazırda gələn qonaqların üçdə ikisi Asiya ölkələrindəndir, Tayvan və Cənubi Koreyadan gələnlərin sayı ABŞ-dan gələn turistlərin miqdarını üstələyib. Asiya ölkələri və ABŞ-dan olan turistlər Yaponiya adalarına dincəlməyə, məzuniyyətlərini keçirməyə gəlirlər. Avropadan əsasən biznes-turistlər gəlir. Yaponiya əyləncə sənayesi ABŞ əyləncə sənayesindən sonra ikinci yerdə gedir.

Yaponiya uzun müddətdir ki, xaricə gedən turistlərin sayına görə bölgədə birinci yerdə gedir. Buna səbəb Yaponiya əhalisinin adam başına düşən illik gəlirin bölgədə ən yüksək həddə çatmasıdır (30.000 $). Bölgədən səyahət edən turistlərin üçdə biri Yaponiyanın payına düşür. Yaponların 30 mln-u hər il xaricə səfər edir, bunların 60-80 %-i istirahət, əyləncə, alış-veriş, tarixi-mədəni abidələrlə tanışlıq və idman məşğələləri məqsədi güdür.

Yaponlar istirahət və əyləncəsini vətənlərində keçirməyə üstünlük verir. Onlar Çin, Syanqan, Cənubi Koreya, Sinqapur kimi yaxın məsafələrdə yerləşən turizm mərkəzlərinə səyahətə çıxırlar. Eyni zamanda Yaponiyanın bölgələrarası əlaqələri də möhkəmlənir. ABŞ-la qızğın turist mübadiləsi gedir. Lakin uzaq səfərlər, məsələn, Yaxın Şərq, Afrika və ya Cənubi Asiyaya səyahətlər əhalidə maraq doğurmur.

Ümumdünya Ticarət Təşkilatının məlumatlarına görə Yaponiyadan istiqamətlənən turist axınlarının əksər hissəsi Asiya-Sakit okean bölgəsi ölkələrinə yönəlir. Əhali arasında aparılan sosioloji sorğu Yaponiyada turizmin inkişafını ləngidən səbəbləri üzə çıxarmaq imkanını verdi. Yaponlar maddi imkanlarının məhdudluğundan və asudə vaxtın azlığından gileylənirlər. Şəxsi təhlükəsizliyin təmin olunmayacağından ehtiyat edirlər.

Hazırda yaponlar dövlət səviyyəsində turizmin təşkilinə böyük önəm verir və ondan daha çox faydalanmağa çalışırlar. Turizm biznesi ilə ölkəyə daha çox gəlir gətirməyə və beynəlxalq turizm əlaqələrinə xüsusi əhəmiyyət verirlər. Bu gün Yaponiya-Azərbaycan mədəni əlaqələri də milli mədəniyyətlərin bir-birinə inteqrasiya olunmasında böyük rol oynayır.



YAPONİYA MƏNZƏRƏLƏRİ

## 3.9. ÇİN XALQ RESPUBLİKASI

**Ərazisi: 9.6 mln kv km (dünyada 3-cü yer).**
**Əhalisi: 1.3 mld nəfər (dünyada 1-ci yer - 2000).**
**Paytaxtı: Pekin (16 mln nəfər -2000).**
**Dövlət dili: çin dili.**
**Din: konfusianlıq, daosizm, buddizm, islam.**
**Milli pul vahidi: yuan.**

Çinlilər ölkələrini Çjunqo (ortalıq dövlət) adlandırırlar. Vaxtı ilə onlar ölkələrini kainatın mərkəzi hesab edirdilər. Çinlilər özlərini qədim Han sülaləsi dövründən hanlar adlandırırdılar. Çin çoxmillətli dövlətdir, onun ərazisində 56 müxtəlif millət yaşayır.


PEKİN

Etnik çinlilər əhalinin 90 %- ni təşkil edirlər. Çinlilərin başlıca məşğuliyyəti suvarılma üsulu ilə çəltik yetişdirməkdir, onlar bu sahədə min illər ərzində nəhəng təcrübə toplamışlar. Bundan başqa soya, araxis kimi texniki bitkilər becərilir, Məşhur Çin çayı yetişdirilir, ipəkçilik geniş yayılıb.

Rəsmi dövlət kimi hutunhua dilidir. Bu dilə Pekin dialekti yaxındır. Digər dialektlər arasında elə təfavüt mövcuddur ki, bəzən müxtəlif bölgələrdən olan çinlilər bir-birlərini başa düşmürlər.

Cənub-şərqi Asiya, Amerika və Okeaniya ölkələrində 30 mln-dan çox Çin mühacirləri yaşayır. Onların əksəriyyəti Çin vətəndaşlığında qalır və əcdadlarının vətəni ilə sıx əlaqə saxlayır.

Əhalisinin sayına görə Çin dünyada 1-ci yeri tutur. Onun əhalisi 1.5 mlrd nəfərdir. Bu isə ölkədə iqtisadi və ictimai problemlər yaradır. 60-cı illərin ortalarından başlayaraq ölkədə ailənin planlaşdırılması dövlət proqramı həyata keçirilir.



Konfusianlıq, daosizm və buddizm kimi üç dini fəlsəfə sistemi Çin millətinin formalaşmasına böyük təsir edib. Konfusianlıq, şübhəsiz, üstünlük təşkil edir. Bu fəlsəfi nəzəriyyənin banisi məşhur Çin filosofu (e.ə. VI -V əsrlər) Kuntzı (Konfusi) olub.

Konfusianlığın əsasını əcdadlara səcdə təşkil edir. Hər Çin ailəsi həyatda üzləşdiyi problemləri həll etmək üçün mütəmadi olaraq əcdadların ruhuna müraciət etməlidir. Ailə başçısı ilin müəyyən günlərində əcdadların şərəfinə qurban kəsir, dua oxuyur.

Konfusinin təliminə görə əcdadların münasibətindən asılı olmayaraq mərasimlər öz-özlüyündə əhəmiyyət kəsb edir. Çin ailəsində münasibətlər Konfusinin müəyyən etdiyi 5 qayda əsasında cərəyan edir. "Daima valideynlərə ehtiram göstərmək; onlara ən ləziz yeməklər gətirmək; xəstələndikləri təqdirə kədərlənmək, vəfat etdikdə yas saxlamaq; onların ruhuna təntənəli surətdə qurbanlar vermək" övladlarının vəzifəsi sayılır.

Çin cəmiyyəti tabelilik qaydaları əsasında qurulur. Hər bir çinli atasına, rəisinə, məbəd rəhbərinə dərin ehtiramla yanaşır. Dövlətin, dinin, ailə hakimiyyətinin nüfuzu az qala müqəddəs sayılır. Burada o cümlədən Konfusinin təsiri duyulur. Konfusi öyrədir ki, göylərin buyruğuna görə hər bir insan həyatda onun üçün müəyyən olunmuş yeri tutur, həmin mövqedə ona həvalə edilmiş vəzifəni vicdanla yerinə yetirməlidir.


PAQODA

Bir çox çinlilər daosizm fəlsəfəsini qəbul edirlər. Daosizm e.ə. VI əsrdə yaşamış qədim çin filosofu Lao-Tszının nəzəriyyəsi əsasında meydana gəlmişdir. Kainatı idarə edən dao - ümumdünya və mütləq qanunu həmin fəlsəfənin başlıca müddəasıdır. Lao-tszı deyirdi: “İnsanı Yer idarə edir, Yerə göy rəhbərlik edir, göylər Daonun əlindədir, Dao öz-özlüyündədir”. Dao qanunlarına yiyələnən şəxs əbədiyyətə qovuşur. Daos təlimçiləri əbədiyyətə yetişmək üçün qidalanmada məhdudiyyət və xüsusi pəhriz, fiziki və nəfəsalma təlimləri işləyib hazırlamışdılar. Eyni zamanda daosizm nəzəri cəhətdən buddizmdən də ilhamlanırdı.


BÖYÜK ÇİN SƏDDİ

VII əsrdən başlayaraq Çində iri daos monastırları təşkil olunur. Bu məbədlər eyni zamanda seyrə qalma, fala baxma, cadu, əlkimya və astrologiya mərkəzləri kimi fəaliyyət göstərirdi.

I əsrdən başlayaraq Çində buddizm geniş yayılır. Məhz buddizm çinliləri əzab-əziyyətə tab gətirməyi təlqin edir.

Çin təriqətlərinin bir-birinə təsiri olduqca əhəmiyyətlidir. Çində müxtəlif təriqət daşıyıcıları, dindarlar arasında heç vaxt düşmənçilik olmayıb. Əksinə, çinlilərin əksəriyyəti özlərini hər üç dinə aid edirlər. Lakin aparıcı mövqe, şübhəsiz, konfusianlığa məxsusdur.

Yaşı 3000 ilə yaxın olan paytaxt Pekin açıq havada muzeyi xatırladır. Buddizm məbədləri, konfusianlıq səcdəgahları, imperator sarayı kompleksi, Tyananmın meydanı paytaxta xüsusi gözəllik gətirir. Tyananmın meydanı Pekinin ən gur guşəsidir. Burada Çinin digər əyalətlərindən gəlmiş çinlilərə, xarici qonaqlara rast gəlmək olar.

Səhər tezdən parklarda, meydanlarda, küçələrdə qədim Çin gimnastikası “tay tszityuan” həvəskarları işə getməzdən əvvəl məşq edirlər. Az sonra küçələr velosiped sürənlərin ixtiyarına keçir. Çin paytaxtında hər 100 ailəyə 150 velosiped düşür. Çinin bəzən “velosipedçilər imperiyası” adlandırılması heç də təsadüfi deyil.

Nəqliyyat vasitələrinin artımı, çoxsaylı müasir otellər və inzibati binalar, göydələnlər Pekinin ənənəvi görkəmini dəyişir. Lakin eyni zamanda Pekində gil qatışığından tikilmiş bir mərtəbəli evlərdən ibarət qədim məhəllələr mindən çoxdur.

Pekinin mərkəzində yerləşən Vanfutsin ticarət küçəsi xarici qonaqlar arasında şöhrət tapıb. Saat 18-də dövlət dükanları bağlanandan sonra burada xüsusi canlanma müşahidə olunur. Burada təmizliyə nəzarət edən briqadalara rast gəlmək olar. Çin səhiyyə sisteminin 150 min müfəttişi paytaxt küçələrinə çıxır, sanitar vəziyyəti yoxlayır, qaydaları pozanları cərimə edir.

Lyuçian küçəsi – rəssamlar, antikvarlar, şairlər məskənidir. Rəssamlar qədim texnologiyalar əsasında zərif, nəfis, incəsənət nümunələri yaradırlar.

Burada rəsmlərin yüksək keyfiyyətli reproduksiyaları yaradılır, qədim əlyazmalar, tarixi sənədlər üzərində bərpa işləri aparılır. Çin mətbəxi texnologiyalarında yüzlərlə xörəklər mövcuddur ki, donuz ətindən bişirilmiş xörək toyuq əti dadı, balıq xörək qoyun əti dadı, balıq xörək qoyun əti vermir.

Çin mətbəxi həm də ölkə tarixi, həmdə çinlilərin gündəlik məişəti ilə sıx bağlıdır.

Ay bədirlənəndə şirin düşbərə - yunsyao, ad günündə - uzun ömür rəmzi olan əriştə bişirirlər. Hər mövsümün öz xörəkləri, hər əyalətin öz mətbəxi var. Onlardan 5-i daha çox şöhrət tapıb:

-Kanton mətbəxi xörəkləri fantaziya cəhətdən olduqca zəngindir, həmişə xörəkləri təzə ərzaqdan hazırlanır;

- Sıçuan mətbəx ədviyyat bolluğu ilə seçilir;

- Futszyan mətbəxi ecazkar şorbalarla məşhurdur;


GİLDƏN (TERRAKOT) DÜZƏLDİLMİŞ DÖYÜŞÇÜ HEYKƏLLƏRİ



FENŞUY SƏNƏTİ NÜMUNƏSİ

- Şandun mətbəxi yengəc xörəkləri və sarımsaqdan bol istifadə olunması ilə fərqlənir;

- Xunan mətbəxi turşaşirin yeməklər və balıq xörəkləri ilə şöhrət tapıb.

Çində kulinariya sənəti kamillik dərəcəsinə qədər yüksəlib, məişətin, ənənənin və qədim Çin mədəniyyətinin əhəmiyyətli tərkib hissəsinə çevrilib.

Qədim dövrlərdən çinlilər qidaya səhhətin sağlamlığı vasitəsi kimi baxırlar. Çinlilər müxtəlif ot və bitkilərin öyrənilməsində, onların insan orqanizminə təsirinin tədqiqinə böyük qiymət verirlər. Çində ilk mətbəx kitabları 3500 il bundan əvvəl tərtib edilib. Çin mətbəxi çinlilər üçün qürur mənbəyidir. Onun 3500 illik tarixi ərzində nazir vəzifəsinə qədər yüksələn dahi aşpazlar, bişirdikləri dadsız yeməklərin ucbatından edam olunmuş aşpazlar az olmayıb.



ÇİNDƏ BUDDANIN HEYKƏLİ

Çin xalqının milli xasiyyəti əsrlər boyu formalaşıb, onun təşəkkül tapmasında konfusianlıq, demokratik ənənələrin yoxluğu, Tsin Şixuan hakimiyyəti dövrü, nəhayət, Mao Tse dun böyük təsir göstərib. Təmkinli, dözümlü, böyüklərə itaətli çinli obrazı son illərdə ilk növbədə Qərbin göstərdiyi təsirlər altında müəyyən dəyişikliklərə uğrayır.

Çinlilər sadə, aza qane olan insanlar kimi tanınırlar. Sıravi çinlilər hesab edirlər ki, səadət zahiri şəraitdən deyil, onların özlərindən asılıdır. Çinlilərin təfəkkür sistemi tətbiqi, lüzumsuz mürəkkəbləşmədən uzaq səciyyə daşıyır. Çinli bir qayda olaraq həyat və fəaliyyət üçün kifayət edən sadə zehni təsəvvürlərə üstünlük verir. O, mücərrəd anlayışlara nadir hallarda müraciət edir, onun təfəkkürü məntiq əyaniliyi ilə fərqlənir. Lakin bu, heç də çinli dərrakəsinin məhdudluğuna dəlalət etmir, özünəməxsusluğunu göstərir.

Çinlilər bacarıqlı, işgüzar insanlardırlar, hər şəraitdə məqsədlərinə çatmağa can atırlar.

Cənub-şərqi Asiya ölkələrinin əksəriyyətində topdan və pərakəndə satış ticarəti, habelə idxal-ixrac əməliyyatları Çin mühacirlərinin əlində cəmləşib. Malayziya və Sinqapur kapitallarının 30 %-i çinlilərə məxsusdur.

Malayziya məmurlarının 30 %-i Çin mənşəlidir.

Çinlilər arasında ünsiyyət formaları özünəməxsus səciyyə daşıyır. İki nəfər görüşəndə bir-birlərinə dərin ehtiram göstərirlər. Hər ikisi sanki hansının daha çox nəzakətli olması uğrunda rəqabət aparır. Çinlilər həmsöhbətin düz gözünün içinə baxmaqdan çəkinirlər, bu, düşmənçilik əlaməti sayılır.

Çin özünəməxsus, ekzotik ölkələrdən ən irisidir. Lakin Çinə səyahət müəyyən psixoloji gərginliklə müşayiət oluna bilər.

Qonaq özünü yüzlərlə, bəzən minlərlə baxışın mərkəzində hiss etməli olur. Çinlilər şən, qonaqpərvər, anlaqlı ev sahibləri olsalar da, qonaqlarla onların ünsiyyət haqqında təsəvvürləri əhəmiyyətli dərəcədə fərqli ola bilər.

Çin Asiya-Sakit okean bölgəsində turizm axınları formalaşdıran ən böyük ölkədir. Tayvan da nəzərə alınsa Çinə səfərlərin sayı bölgəyə səfərlərin sayının yarısını təşkil edir. Son dövrlərə qədər Çinə gələn turistlərin əksəriyyətini Makao, Tayvan və b. yerlərdən olan çinlilər təşkil edirdi (1990-cı ildə - 27.5 mln nəfər). Yaponiya, ABŞ, Böyük Britaniya, MDB və s. ölkələrdən gələnlərin sayı 1.7 mln nəfərdən çox olmurdu. Çində təşəkkül tapmış turizm modeli onun siyasi tarixi və adları çəkilən dövlətlərlə qarşılıqlı münasibətləri nəticəsində formalaşıb. Çin mədəniyyəti bəşəriyyətin ən qədim mədəniyyətlərindən biridir, lakin onun ən yeni tarixi 1840-cı ildən, Britaniya və digər Avropa ölkələri ilə müharibədən sonra başlayır.



Müharibə nəticəsində Honkonq Böyük Britaniyanın hökmranlığı altına düşdü, ticarət və maliyyə mərkəzi kimi inkişaf etməyə başladı. 1998-ci ildə Honkonq 99 il müddətinə Böyük Britaniyaya icarəyə verildi, Makao elə həmin dövrdə Portuqaliyanın müstəmləkəsinə çevrildi. XX əsrin birinci yarısında Çində siyasi səbatsızlıq hökm sürüdü. II Dünya müharibəsindən sonra baş vermiş vətəndaş müharibəsi 1949-cu ildə kommunistlərin qələbəsi ilə nəticələndi. Məğlub olmuş

Çin millətçiləri Tayvana qaçıb öz dövlətlərini yaratdılar. Növbəti illərdə Çin dəfələrlə itirdiyi əraziləri qaytarmağa cəhd edirdi. Belə cəhdlər və qonşu SSRİ dövləti ilə münasibətlərin soyuması Çini 60 - 70-ci illərdə beynəlxalq aləmdən təcrid etdi. Lakin 70-ci illərdə iqtisadi və siyasi islahatların nəticəsində ölkənin siyasəti əhəmiyyətli surətdə dəyişdi.

1978-ci ildə Çin uzun müddətli təcrid olunma vəziyyətindən çıxaraq «Açıq qapı» siyasəti yürütməyə başladı. Çin iqtisadiyyatında müasir islahatlar başladıqda ölkəyə kütləvi surətdə xarici qonaqlar gəlməyə başladı, 2 il ərzində onların sayı 500 min nəfər artdı. Turistlərin əksəriyyəti ölkənin qədim mədəniyyəti ilə maraqlanırdı. Siyasətdə baş verən dönüşün başlıca məqsədlərinin biri də ölkəyə xarici valyutanın cəlb edilməsi idi. 1983-1989-cu illərdə ölkəyə xarici valyuta daxil olmağa başladı.

1978-1988-ci illərdə Çində aparılan iqtisadi islahatlarla yanaşı qonşu dövlətlərlə qurulan münasibətlərdə əhəmiyyətli siyasi dönüş baş verdi. 1984-cü ildə Çin və Böyük Britaniya arasında Honkonqun müqəddəratını müəyyənləşdirən razılıq əldə olundu.

Müqaviləyə görə Honkonqun icarə müddəti bitən kimi, 1997-ci ilin iyulun 1-dən Honkonq adası onu əhatə edən 325 ada, materikin bir hissəsi, yəni bütün müstəmləkə Çinə qaytarıldı. Çinin tədricən dünyanın siyasi və iqtisadi sisteminə inteqrasiya olunması nəticəsində, Tayvan beynəlxalq aləmin ona verdiyi dəstəyi itirməyə başladı. Tayvan Çin ilə qarşılıqlı anlaşma siyasəti aparmağa məcbur oldu. 1987-ci ilə qədər bu dövlətlər arasında gediş-gəliş mümkün deyildi. Tayvan öz vətəndaşlarına Çində yaşayan qohum və dostlarına baş çəkməyə icazə verdikdən sonra belə səfərlər Honkonq vasitəsi ilə gerçəkləşə bildi. 1990-cı ildə Honkonqla Çin arasındakı sərhədi 20 mln nəfər keçmişdi, halbuki həmin il Honkonq əhalisinin sayı cəmi 5.8 mln nəfər idi.

Keçən əsrin 80-cı illərində Çində turizm surətlə inkişaf etməyə başladı, lakin onilliyin sonunda ölkənin turizm sənayesinin, turizm sahəsində idarəçiliyin və xidmət sahəsinin zəifliyi ucbatından nisbətən geriləди. Bu geriliyi aradan qaldırmaq üçün Çində xarici kapitalın cəlb edilməsi, orta və yüksək səviyyəli otellərin tikintisi vüsət aldı. Lakin bir çox otellər, ilk növbədə Pekin və Şanxayda salınmış müasir otellər 90-cı illərin əvvəlində yürütdükləri yanlış qiymət siyasətləri ucbatından maliyyə çətinlikləri ilə üzləşdi. Çinə səfər etmək arzusunda olan etnik çinlilərin vətən həsrəti duyğusundan vaxtında istifadə etməyi bacarmadılar. Turizm infrastrukturu, o cümlədən müasir aeroportların tikintisi də otellərin tikintisindən geri qalırdı, dəmir yolları şəbəkəsi zəif inkişaf etmişdi, xarici turistlər ondan istifadə etmirdilər.



QƏDİM ÇİN İNCƏSƏNƏTİ NÜMUNƏLƏRİ

1979-1988-ci illərdə Yaponiya, ABŞ, Böyük Britaniya və Avstraliya Çinə istiqamətlənən turist axınlarını formalaşdırırdı. 1989-cu ildə SSRİ-də yürüdülən yenidənqurma siyasəti bu ölkəyə Avstraliyanı üstələyərək Böyük Britaniya ilə yanaşı üçüncü-dördüncü yerləri bölüşdürmək imkanı verdi. SSRİ və Çin arasında ticarət və əmtəə mübadiləsi məqsədi ilə sərhədlərin açılması haqqında saziş də öz rolunu oynadı.

«Açıq qapı» siyasəti, Qərb ölkələrindən gələn qonaqlarla təmas nəticəsində tələbə təşkilatları ölkədə demokratik islahatlar tələbi ilə Pekin meydanlarında nümayiş keçirdilər. 1989-cu ilin iyun ayının 4-də Tyananmın meydanında tələbələrin çıxışları hökumət tərəfindən amansızcasına yatırıldı. Bu hadisələrdən sonra qərb ölkələrindən ilk növbədə ABŞ, Avstraliya, Cənubi-Şərqi Asiya və Avropadan olan turistlər Çini bir müddətdən boykot etməyə başladılar, lakin sonra yenə də Avropadan turist axınlarının hərəkəti bərpa olundu.

Çində yürüdülən siyasi və iqtisadi islahatlar ölkədaxili turizm bazarına müsbət təsir göstərdi. Artıq 1987-ci ildə ölkədə 290 mln ölkədaxili turist səfəri qeydə alınmışdı.



MÜASİR ÇİN İNCƏSƏNƏTİ

Çində siyasi təkamülə doğru baş vermiş dönüş ölkəni beynəlxalq turizm axınları formalaşdıran nəhəng turizm bazarına və dünyanın ən iri turizm mərkəzinə çevirdi. Aparılan islahatlar nəticəsində xaricilərin ziyarəti üçün açıq olan turizm ərazilərinin sayı kəskin surətdə artdı (1982-cı ildə 122 şəhər, 1986-cı ildə - 274 şəhər, 1990-cı ildə - 500 şəhərdən çox). Turizm resurslarının zənginliyi dünyanın hər yerindən qonaqları buraya cəlb edir. Başlıca tarixi abidələr şimal-şərq və mərkəzi əyalətlərdə cəmlənib,

qədim Çin mədəniyyəti bu yerlərdə yaranıb. Qərb və sahil zolağında yerləşən əyalətlər gözəl təbiətə malikdir. Ən çox əhalisi olan ölkədə formalaşan beynəlxalq turizm modeli bütövlükdə Şərqi Asiya və Sakit okean bölgəsində turizm modelinin yenidən qurulmasına təkan verdi.

1997-ci ildə Honkonq Çinin hakimiyyəti altına qaytarıldı, ölkədə «vahid ölkə, iki sistem» siyasəti yürüdülməyə başladı. Son yüzillikdə Honkonq iri liman, ticarət, maliyyə və turizm mərkəzi kimi inkişaf etmişdi, iqtisadiyyatın xarici valyuta gətirən sahələri arasında turizm üçüncü yerdə idi. Honkonq layiqincə Sakit okean bölgəsinin yeni sənaye ölkələri sırasına daxil olmuşdu.

Çinlə birləşənə qədər Honkonq onunla həmsərhəd olan Çinin Quandonq əyalətinə böyük sərmayələr qoyurdu, əyalətlə ticarət və istehsalat əlaqələri yaranmışdı. Bu iki bölgə arasında cərəyan edən gediş-gəliş olduqca yüksək səviyyəyə qalxmışdı.

Çinin daxili siyasətində və qonşu ölkələrə münasibətində dönüş baş verdikdən sonra Honkonqun da xarici turizm səfərləri modelində dəyişikliklər baş verdi. Bölgə, buraya gələn qonaqlarla yanaşı, Çinə gedən tranzit səyyahları da qəbul etməyə başladı. Honkonq Çinin özünəməxsus girişinə çevrildi.

Honkonq və Çin şəhərləri arasında müntəzəm reyslər yerinə yetirilir, Quancjou şəhərinə qədər uzanan müasir avtomobil və dəmir yolları salınıb. Honkonqa yönələn başlıca turist axınları Yaponiya, ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və Böyük Britaniyada formalaşır.

Honkonqda beynəlxalq turizm alış - veriş, gecə həyatı ilə bağlı əyləncələr, opera və teatr kimi Çin mədəniyyəti obyektlərinin, Ouşen-park akvarium, Sui sülaləsi dövrünə aid kənd kimi gəzməli yerlərin, at idmanı ilə bağlı qurğuların və hər keçirilən festivalları ziyarəti üzərində qurulub.

Honkonq eyni zamanda konfransların və yarmarkaların keçirildiyi beynəlxalq mərkəzdir. 1990-cı ildə qonaqların 18 -29 %-i məhz belə tədbirlərdə iştirak etmək məqsədi ilə Honkonqu ziyarət etmişdi. 80-cı illərdə Honkonq digər Asiya ölkələri üçün turist axınlarını formalaşdıran böyük mərkəz oldu. (1981-ci ildə - 1 mln, 1990-cı ildə - 2 mln nəfər). Honkonqlular əsasən qonşu ölkələrə qısa müddətə səfərə çıxırdılar. Honkonq sakinlərinin əksəriyyəti məzuniyyətini (90%) Tailandda keçirir, biznes məqsədi ilə Filippin (51%), İndoneziya (26%) və Yaponiyaya (20%) səfər edirlər.

Tyananmın meydanındakı hadisələrə qədər xaricə gedən Honkonq sakinlərinin 28% -i Çinə səfər etmişdi, 1989-cu ildə isə bu rəqəm 13%-ə endi.

Portuqaliyanın müstəmləkəsi olan digər Çin ərazisi Makao (Aomın) 1999-cu ildə Çinin hökmranlığı altına qaytarıldı. Tərkibinə Aomın yarımadası, Tay pa, Kolo Ane və s. adalar daxil olan Makao yarımadası Honkonq yaxınlığında Mirvari çayı zolağında yerləşir. Məsələn, 1992-ci ildə Makaoya gələn 7.85 mln nəfər qonaqdan 78.7 %-i Honkonqlu idi. Qonaqların yarısı burada öz məzuniyyətini keçirir, digər yarısı kazinoda qumar oynamağa gəlirdi.

Çin hazırda bütün dünya ölkələri üçün iqtisadi-mədəni əlaqələr və turizm menecmenti sahəsində əldə etdiyi nailiyyətlərinə görə böyük maraq doğuran turizm ölkəsi sayılır.

## 3.10. İTALİYA

| | |
|---|---|
| **Ərazisi** | **301.2 km$^2$** |
| **Əhali** | **56.78 mln (1998)** |
| **Paytaxtı** | **Roma (2.8 mln)** |
| | **Digər iri şəhərlər Milan-1.4 mln, Neapol-1.1 mln, Turin-1 mln, Genuya- 700 min, Palermo-700 min** |
| **Əhalinin etnik tərkibi** | **İtalyanlar-98 %, slovenlər, fransızlar, almanlar** |
| **Ən yüksək dağ zirvəsi** | **Monblan (4807 m)** |
| **Dövlət dili** | **İtalyan dili** |
| **Din** | **Katolisizm** |
| **Pul vahidi** | **avro** |
| **Dövlət quruluşu** | **Parlament respublikası, unitar dövlət** |
| **Dövlət başçısı** | |
| | **Parlamentin hər 2 palatasının birgə iclasında vilayət təmsilçilərinin iştirakı ilə 7 il müddətinə seçilən prezident** |
| | **Qanunverici orqanSenat (326 senator) və nümayəndələr palatası (630 deputat) kimi 2 palatadan ibarət, 5 il müddətinə seçilən Parlament** |
| **İnzibati-ərazi bölgüsü** | **8000 kommunanı 93 əyalətdə birləşdirən 20 vilayət** |
| **Milli bayramlar** | |
| | **Yeni il, Milad bayramı (25 dekabr), 2 iyun Respublika günü (1946)** |
| | **İxrac Maşınqayırma və nəqliyyat vasitələri, ayaqqabı, paltar, parça, zeytun yağı, meyvə, istehlak malları, kimyəvi preparatlar, boru-prokat və s.** |
| **İdxal** | **Meşə, qara metallurgiya malları, təbii qaz və s.** |

Avropanın cənubunda yerləşən İtaliya Apennin yarımadasını, Siciliya, Sardiniya və bir neçə xırda adaları əhatə edir. İtaliya ərazisində Vatikan və San-Marino kimi daha 2 kiçik dövlət yerləşir.

İtaliya şimalda İsveçrə və Avstriya, şimal-şərqdə Sloveniya, şimal-qərbdə Fransa ilə həmsərhəddir. Şərqdə Adriatik dənizi, qərbdə Liquriya və Piven, cənubda İon və Aralıq dənizləri ilə əhatə olunub.

İtalyanlar 100 min il əvvəl paleolit dövründə Apennin yarımadasında məskən salmışlar. E.ə. II minilliyin əvvəllərində latın tayfaları İtaliyaya daxil olub və e.ə. 753-cü ildə Romanın əsasini qoyublar. İtaliyanın bütün tarixi bu balaca şəhər-dövlət ilə bağlı idi. İtaliya əsasən dağlıq ölkədir. Ərazisinin $^4/_5$ hissəsini dağ və yüksəkliklər tutur. Qədim Romanın yüksək mədəniyyəti Romanın etnik tərkibini təşkil edən xalqların mədəniyyətinin etrusk və ellin mədəniyyətlərinə qovuşması nəticəsində meydana gəlmiş və inkişaf etmişdir. İtaliyanın müxtəlif rayonlarında aşkar edilmiş qədim bina qalıqları, məqbərələr etrusk mədəniyyəti haqda təsəvvür yaradır. E.ə. 509-cu ildə sonuncu Roma çarını devirən vətəndaşlar Romanı respublika elan etdilər və öz müstəqilliklərini bir neçə əsr qoruya bildilər. Dövlət təsisatlarının möhkəmlənməsi respublikaya e.ə. IV əsrdə yeni ərazilər istila etməyə imkan verdi. E.ə. III əsrdə Roma artıq Apennin yarımadası və Aralıq dənizində öz hökmranlığını təsbit etmişdi. E.ə. I əsrdə Sullanın diktaturası, Yuli Sezarın hökmranlığı respublika üsul-idarəsinə zərbə vurdu. E.ə. I əsrdə O. Avqustun vaxtında respublika üsul-idarəçiliyi süqut etdi və imperiya yarandı. Qədim Roma mədəniyyəti yunan mədəniyyətinin təsiri altında inkişaf etmişdir. Antik dövrün tarixçiləri Plutarx, Svetoni yazırdılar ki, yunan şəhərlərini işğal edən romalılar Romaya yüzlərlə heykəl və təsviri sənət əsəri gətirmiş, həmin sənət əsərləri ilə məbədləri, meydanları bəzəmişdilər. III əsrdə daxili ziddiyyətlərin güclənməsi imperiyanın süqutunu labüd etdi. 395-ci ildə Roma 2 yerə - Şərq və Qərb hissələrinə parçalandı. V əsrdə Qərbi Roma barbarlar tərəfindən işğal olundu və 476-ci ildə Qərbi Romanın mövcudluğuna son qoyuldu. Sonrakı əsrlər ostqotlar, bizanslılar, lanqobardlar mütəmadi şəkildə İtaliyaya basqınlar edirdilər. VIII əsrdə Fransa kralı I Karl İtalyanı işğal etdi və imperiyasına qatdı. IX əsrdə imperiya süqut etdi. 962-ci ildə İtaliya “Müqəddəs Roma imperiyasına” daxil oldu. XIV-XVI əsrlərdə şimali və orta İtaliyada erkən kapitalist münasibətləri yarandı. İtaliyanın onlarla yarımmüstəqil knyazlıqlara bölünməsi qonşu dövlətlərin işğalçılıq niyyətlərinin gerçəklənməsini asanlaşdırırdı. İtaliyanın Genuya və Venesiya kimi nisbətən güclü şəhər-dövlətləri ölkəni müdafiə etmək və birləşdirmək iqtidarında deyildi. Nəticədə XVI əsrdə demək olar bütün İtaliya İspaniyanın siyasi hakimiyyəti altına düşdü. 1701-1714-cü illərdə İspaniya mirası uğrunda gedən müharibələrdə Avstriya qalib çıxdı və İtaliyaya sahib oldu. hakimiyyət Qabsburqların XVIII əsrin sonu, XIX əsrin əvvəllərində İtaliya Napoleon hakimiyyətinin qurbanı olan ölkənin ərazisində Fransadan asılı olan dövlətlər yaradıldı. Napoleon Fransasının süqutundan sonra Vyana Konqresi (1814-1815) Sardiniya krallığında, hər iki Siciliya krallıqlarında, Modena, Lukka, Parma hersoqluqlarında mütləqiyyəti bərpa etdi. Lombardiya və Venesiya Avstriya imperiyasına qatıldı. XVIII əsrin ortalarında ölkədə müstəqillik və birləşmə uğrunda mübarizə gücləndi. 1848, 1859, 1866-cı illərdə İtaliyanın milli qəhrəmanı Cuzeppe Qaribaldinin (1807-1882) başçılıq etdiyi İtaliya milli-azadlıq hərəkatı ilə işğalçılar arasında qanlı çarpışmalar baş verdi. Pyemont nisbətən nüfuzlu krallıq hesab edilirdi. Bu krallıq 50-ci illərdə dövlətin birliyi uğrunda mübarizəyə başçılıq edirdi. 1860-cı ilin sonunda İtaliya Sardiniya krallığı ətrafında birləşdi və 1861-ci ildə İtaliya krallığı adlandırıldı. Nəhayət, 1870-ci ildə Romanın İtaliyaya qaytarılması ilə İtaliya dövlətinin birləşməsi prosesi başa çatdı.

İtaliyanın Avropada öz ərazilərini artırmaq arzusu onu I dünya müharibəsində Almaniyaya qarşı iştirak etməyə vadar etdi. 1922-ci ildə hakimiyyət Mussolininin faşist rejiminin əlinə keçdi. l940-cı ildə İtaliya II dünya müharibəsində Almaniyanın müttəfiqi oldu. İngiltərə-Amerika müttəfiqlərinin müdaxiləsi ölkəyə azadlıq və demokratiya gətirdi. 1946-cı il iyun ayının 2-də İtaliya respublika elan olundu. l957-ci ildə İtaliya böyük sənaye dövlətləri arasında mühüm yerlərdən birini tuturdu.

İtaliya hərbi obyektlərin yerləşməsi üçün əlverişli mövqe tutur. ABŞ və NATO-nun 10 hərbi-dəniz və 8 hərbi-hava qüvvələri bazaları burada yerləşir. Ölkə sərhədlərinin çox hissəsi dənizlə əhatə olunub. Alp dağları zonasında yerləşdiyindən burada vulkanik, seysmik, o cümlədən tektonik fəaliyyət yüksəkdir. Ərazisinin $^4/_5$ hissəsini dağ qırışları örtür. Monblan (4807 m), Monte-Bora (4684 m), Çervina (4478 m) ölkədə ən yüksək dağ zirvələridir. Alp dağlarında yerləşən Antro-Del-Kork mağarası (805 m) dünyanın ən dərin mağaralarından biridir. İtaliyada 70 böyük mağara vardır. Etna (3340 m), Stromboli (926 m) İtaliyanın ən məşhur vulkanlarıdır. Ən iri çay Po çayıdır. Po çayı qərbdən şərqə bütün Padon düzənliyi boyunca axır,



KOLİZEY

Adriatik dənizinə tökülür və delta əmələ gətirir. Po çayı Apennin yarımadasında nisbətən böyük çay olan Tibr və Arno kanal sistemi ilə birləşib. Tibr çayının üzərində Roma, Arno çayı üzərində Florensiya və Piza şəhərləri yerləşir. Göllərin əksəriyyəti Alp dağlarının ətəyindədir. Göllər tektonik mənşəlidir və gəmiçiliyə yararlıdır. Şimali İtaliyada subtropik, mülayim kontinental iqlim hökm sürür. Alp və Apennin yarımadası qərbdən gələn hava kütlələrinin qarşısını aldığı üçün Adriatik dənizindən gələn soyuq hava kütlələri iqlimə daha çox təsir edir. Alp dağlarında palıd, şabalıd, ağcaqayın, fıstıq və iynəyarpaqlı meşələr bitir. Əvvəllər Padon düzənliyində palıd meşələri, subasar otlaqlar yayılmışdı, hazırda onları mədəni bitkilər əvəz edir. Heyvanat aləminə əsasən dağlıq ərazilərdə təsadüf etmək olar. Əhalinin çox hissəsi italyanlardır (94 %), ancaq onlar özlərini ilk növbədə romalı, venesiyalı, siciliyalı hesab edirlər. Bu, İtaliyanın tarixi ilə bağlıdır. Regional müxtəliflik özünü xörəyin hazırlanmasından tutmuş yerli adətlərə qədər hər yerdə göstərir. İtaliya əhalisi italyan dilində danışır, amma şimalda fransız, alman və slovenlər kimi etnik qruplar da mövcuddur. Sardiniyada sardlar yaşayırlar. Onların dialekti qədim latın dilinə yaxındır. Şimali Afrikaya yaxın olan Siciliyanın özünəməxsus adət-ənənələri var.

Hazırda əhalinin əksəriyyəti şəhərlərdə yaşayır və əsasən sənaye və xidmət sahələrində məşğuldur. İtalyanlar mehriban, qonaqpərvər, sülhsevər millətdir. İtalyanlar idmana, xüsusən futbola, avtomobil və velosiped yarışlarına həvəs göstərirlər. Ölkədə qış idmanı, dağ turizmi yüksək inkişaf etmişdir. İtaliya şərabçılıq ölkəsidir. Toskana şərabı ən məşhur şərab sayılır. Hər əyalət özünəməxsus mətbəxi ilə fəxr edir. Pizza və spagetti dünyanın ən məşhur yeməkləridir.

Amfiteatr Roma ixtirasıdır. O, tribunalarla əhatə olunmuş ellips formalı meydandan ibarətdir. Burada qanlı qladiator döyüşləri keçirilir, yırtıcı heyvanların boğuşması nümayiş etdirilirdi.

Romada bir neçə amfiteatr var idi, lakin 64-cü ildə baş vermiş yanğından sonra yeni qurğuya ehtiyac duyulurdu. 69-cu ildə Roma imperatoru Vespasian yeni amfiteatrın tikilməsinə qərar verdi.

Yeni amfiteatr əvvəlcə Flavi amfiteatrı adlanırdı. VII əsrdən başlayaraq onu Kolizey adlandırırdılar.

Kolizeyin perimetri 500 m, hündürlüyü 48.5 m-dir. Kolizey əhəngdaşı, tuf və kərpicdən tikilib.

80-cı ildə onun təntənəli açılışında Vespasianın varisi Tut iştirak edirdi. Bu mərasimdə romalılar üçün 5000 yırtıcı heyvanın boğuşması tamaşasını nümayiş etdirilmişdi. Lakin tikinti hələ başa çatmamışdı. Amfiteatrın ən yüksək tribunası imperator Domisian dövründə tikilib başa çatdı.


PİZA. MAİLİ QÜLLƏ

Tikili çoxmərtəbəli tribunalar sistemindən ibarətdir. Mürəkkəb pilləkənlər sistemi tribunalara gediş-gəlişi asanlaşdırırdı. Tribunalar eyni zamanda 50000 tamaşaçı qəbul edə bilirdi. Vəhşi heyvanlar yeraltı keçidlər və qaldırıcı qurğular vasitəsi ilə birbaşa meydana çıxarılırdı.

Zəngin texniki təchizatına görə Kolizey öz dövrünü xeyli qabaqlamış qurğu hesab olunur.

Məşhur "maili" qüllə (1773-cü il) Piza şəhər kilsəsinin zəng qülləsi, gözəl memarlıq kompleksinin tərkib hissəsidir. Əgər bu qüllə başqa qüllələr kimi sərt şaquli vəziyyətdə olsa idi, yalnız memarlar və tarixçilər üçün maraqlı olardı. Lakin quruluşunda yol verilmiş xəta ona dünya şöhrəti gətirmiş oldu.

Qüllənin hündürlüyü 55 m-dir, üzərindəki lövhədən məlum olur ki, təməli 1174-cü ildə qoyulub. Piza təqvimi ümumi təqvimi ili qabaqladığından, qüllənin tikintisinin 1173-cü ilə aid olduğunu aşkar edirik. Qüllənin memarları Bonnano Pizano və Vilhelm İnnsburq idi, lakin qüllənin tikintisinin başa çatdığını görmək onların heç birinə nəsib olmadı.

Belə güman edirlər ki, qüllənin maili qurulması əvvəlcədən nəzərdə tutulmuşdu. Lakin bu, ağlabatan deyil. Bəlkə də memarlar özülün etibarlı olmadığından agah idi, odur ki, qurğuda mümkün maillik nəzərdə tutmuşdular.

Qüllənin üst meydançasına 294 pillə aparır. Qüllə silindr formasındadır, 8 səviyyədən ibarətdir. Onun orta 6 səviyyəsini gözəl dekorativ arkadalar bəzəyir. Naxışlarda Bizans və islam memarlıq ənənələrinin sintezi duyulur. Qüllə məscid minarəsini xatırladır.

1063-cü ildə pizalılar Palermo yaxınlığında baş vermiş dəniz savaşında ərəbləri məğlub edirlər. Qələbənin şərəfinə kilsənin bünövrəsi salınır. 100 il sonra kilsənin zəng qülləsinin tikintisi başlanır. Tikilinin memarlıq üslubu Roma-Piza üslubu adı altında şöhrət qazanır. Qüllənin bayır divarlarının ağ və qara mərmər örtüyü də islam memarlığı ahənginə dəlalət edir.

Məşhur Qalileo Qaliley Piza qülləsindən öz təcrübələri üçün istifadə edirmiş. Belə ki, qravitasiya qanunlarının kəşf edilməsində maili qüllənin özünəməxsus tətbiqi rolu olub.



VATİKAN MUZEYLƏRİ

İtaliyanı haqlı olaraq açıq havada muzey adlandırırlar. İtaliya şəhərlərini görkəmli memarlıq abidələri bəzəyir.

İtaliyanın paytaxtı Romanı "əbədi şəhər" adlandırırlar. E.ə. I əsrdən burada həyat heç vaxt səngiməyibdir. Roma xüsusilə intibah dövründə çiçəklənir. O, dünyanın ən gözəl şəhərlərindən sayılır. Əsrlər onun tarixi görkəmində silinməz izlər qoyub. Keçmişlə müasir dövrün canlı uyğunluğu şəhərə özünəməxsus gözəllik gətirir. Kolizey, Panteon, zəfər tağları, qədim hasar qalıqları, Forum memarlıq kompleksi kimi antik dövrə aid tarixi abidələr bütün dünyada məşhurdur.

İntibah dövründə Mikelancelo, Rafael, Bramante kimi dahi İtalyan sənətkarları Romada möhtəşəm tikililər inşa etmişlər. Şəhərin qədim hissəsində barokko üslubu üstünlük təşkil edir. XVII-XVIII əsrlərə aid saray və kilsə fasadları qədim meydanların bəzəyidir. Mərmər pilləkənlər, təkrarı olmayan fəvvarələr, müxtəlif heykəltəraşlıq abidələri 7 yüksəklik üzərində yerləşən şəhərin memarlıq görünüşünü tamamlayır.



VATİKANIN MƏRKƏZİ MEYDANI

Müqəddəs Pyotr kilsəsinin günbəzi Mikelancelo dühasının gözəl nümunəsidir. Dünyanın ən kiçik dövləti olan Vatikan Romanın bir neçə məhəlləsi hüdudlarında yerləşir.

Milan İtaliyanın qədim şəhərlərindən biridir. Qədimdə burada keltlər məskunlaşmışdılar. E.ə. III əsrdə romalılar şəhəri işğal edirlər. İntibah dövrü şəhərin görkəmində əhəmiyyətli iz qoymuşdur. Dahi Leonardo da Vinçinin "Gizli yığıncaq" əsəri Santa-Mariya-delle-Qrasiya kilsəsini bəzəyir. Sfortsa sarayı, imarətlər və kilsələr İntibah yaradıcılığı nümunələridir. Qotik memarlıq üslubunda tikilmiş Duomo kilsəsi şəhərin başlıca abidəsi sayılır. Onun inşası 450 il davam etmişdir.

"La-Skala" opera teatrı bütün dünyada məşhurdur.

Venesiya İtaliyanın ən gözəl şəhərlərindəndir. Adriatik dənizinin Venesiya körfəzində səpələnmiş 118 qumsal adalar üzərində yerləşir Şəhərin kanal sistemi üzərində salınmış saysız-hesabsız körpülər şəhər küçələrini birləşdirir.



BAZİLİKA

Tirren dənizi sahilyanı zolağında Fnomiçino və Lido-di-Roma dəniz kurortları, Adriatik dənizi sahillərində Pezaro, Fano, Ankona kurortları şöhrət tapmışdır.

Neapol ənənələr şəhəri, spagetti və pizza yeməklərinin vətənidir. Vezuvi vulkanı yaxınlığında yerləşir. Zəfər tağı, Kral muzeyi, Milli muzey şəhərin görkəmli abidələridir.

Sahil suları yaxınlığında öz gözəlliyi, habelə dərin mağaraları ilə məşhur olan Kapri adası yerləşir. 8-9 metrlik vulkanik süxurlar və kül altında gömülmüş Pompey şəhəri arxeoloji abidədir.

Sorrento, Pozitano, Ravello, Salerno, habelə Siciliyada Sirakuz kimi şəhərlər məşhur kurortlar sırasındadır.

Adriatik dənizi sahilyanı zolağında, Lombardiya əyalətində Ravennadan Ankonaya qədər Adriatik Rivyersı kurort zonası uzanır.

Florensiyanı şəhər-muzey adlandırırlar. İtalyan intibah dövrünün memarlıq abidələri, təsviri sənət nümunələri burada dolğun surətdə qorunub saxlanmışdır. Florensiyanın qədim dar məhəllələrində hələ də Dante dövrünün binaları mövcuddur. Florensiya İntibah dövrünün simvolu hesab olunur. Onun meydanları, sarayları Mikelancelo, Cotto, Brunelleski, Alberti, Donatello Giberti, Mazaçço, Uççello, Girlandayo, Pitti, Mediçi-Rikardi, Ruççelayi, Ufizzi kimi görkəmli sənətkarların təsvir və memarlıq əsərləri ilə bəzədilib. Dünya şöhrətli İtaliya muzeylərində Leonardo Da Vinci, Bottiçeli, Mikelancelo kimi məşhur italyan rəssamlarının əsərləri saxlanılır. Muzeylərdə etrusk mədəniyyətinin sənət nümunələrini görmək olar Kolizey, Panteon, Zəfər tağları, Forum, imperator Trayanın zəfər sütunu, Marsella teatrı Qədim Roma dövründən bu günə qədər gəlib çatmış tarixi memarlıq abidələridir. Orta əsr saray və

kilsələri öz gözəlliyi və əzəməti ilə diqqəti cəlb edir. XI-XIII əsrlərdə İtaliyada roman üslubu formalaşır. Bu dövrdə mozaikalı bazilikalar, qabarıq naxışlar, rəngli qüllələr meydana gəlir. XII əsrdə Veronada San-Zeno Macero kilsəsi tikilmişdi. XIII əsrdə Orta İtaliyada Bizans mədəniyyətinin əsası olan ikona təsvir sənəti inkişaf edir. XII-XIV əsrlərdə qotik memarlıq üslubu hökm sürür. Palasso, Vekkyo, Florensiya, Venesiya sarayları qotik üslubdadır. XV-XVI əsrlərdə Avropanın mədəni inkişafında mühüm mərhələ olan İntibah mədəniyyəti inkişaf etməyə başlayır. Həmin dövrdə F. Brunelski, L. B. Alberti, B. Rosselino kimi memarların, Donatello, Yakoba Dello Kverço, Andrea Dell Vekkyo, Mikelancelo, Benvenuto Çellini, Del Robia ailəsinin heykəltəraşları, Mazaçço, P. Uççello, Sandro Botiçelli, Rafael, Tisian, Leonardo da Vinçi və başqa təsviri sənət ustadlarının yaradıcılığı çiçəklənir.



BORGEZE QALEREYASI

Palermoda ərəb və Bizans memarlıq elementlərindən ibarət Roma tikilileri, kilsələr, saraylar XI-XVI əsrlərə aiddir. Sirakuzada e.ə. VI-V əsrlərə aid qədim yunan məbədlərinin qalıqları və e.ə. V əsrə aid teatr, Triyestdə Qədim Roma dövrünə aid qalıqlar və XIV əsrə aid Venesiya istehkamları, Berqamoda XII əsr Radcon sarayı, Moden və Parmada XI-XII əsrlərə aid hasarlar, Romada Palasso Del Arenq (XIII əsr), Livornoda XIV əsrə aid memarlıq abidələri, Aressoda XIII əsrə aid qotik saray və kilsələr, Ankonada imperator Trayanın zəfər tağı (XII əsr) və Roma hasarı (XI əsr) durur.

Siyena şəhəri daha çox orta əsrlər görünüşünə malikdir. Burada XIII-XV əsrlərə aid kilsələr, saraylar, XIII əsrə aid Palasso Publik adlanan tikili yüksəlir. Peruccada etrusk şəhər istehkamları, Ravendə Qall Plaçidinin mavzoleyi (V əsr), xristian bazilikaları, San-Vital və Teodor mavzoleyi (VI əsr), Genuyada XVI-XVII əsrlərə aid saray və imarətlər qorunub saxlanıb. Palermoda botanika bağı, yarmarkalar, San-Covani Del Ermita (1122-ci il) və Martorano kilsəsi (1143-cü il), XII əsrə aid qotik üslubda tikilmiş Palasso Red sarayı, Boloniyada roman və qotik üslublarda inşa edilmiş kilsələr, qalalar (XI-XII əsrlər), XIII-XV əsrlərə aid qotik üslubda saraylar, barokko və İntibah üslubunda saraylar, Milanda Santa Mariya Del Qrasiya monastırı (XV əsr), 4400 heykəldən ibarət qotik Duamo hasarı (XIV-XIX əsrlər), La-Skala opera teatrı, Mantuyada freskalarla bəzədilmiş San Corco qəsri, L. B. Alberti tərəfindən tikilmiş kilsələr, Neapol turizm mərkəzində xristian sərdabələri, qəsrlər (XII-XV əsrlər), qotik, İntibah, barokko üslubunda kilsə və saraylar, Veronada antik abidələr, V-XII əsrlərə aid roman kilsələri, XII-XIII əsrlərə aid qotik saraylar ziyarətçiləri nəfis məlahəti ilə valeh edir.

Venesiyanın San-Marko meydanında saray, kitabxana (XVI əsr), monastırlar gözəl memarlıq abidələridir. Florensiyada qədim botanika bağı, Santa-Mariya Del Fyore hasarı (XIII-XV əsrlər), Mediçi Bizardi sarayı və kilsələri durur. Turində qədim Roma teatrı, barokko üslubunda tikilmiş kilsə və saraylar, meydan və küçələr (XVII-XX əsrlər), Askizidə freskalarla bəzədilmiş San-Françesko kompleksi (1228-ci il) diqqəti cəlb edir. İtaliyada dünya musiqi mədəniyyəti inkişaf etmişdir. XI əsrdə yaşamış italyan rahibi Quida Daresso müasir not yazısının müəllifidir.



VENESİYADA SAN-MARKO MEYDANI

Tarantella, siciliana, barkarola məşhur italyan xalq nəğmələri və rəqsləridir. XVI-XVII əsrlərdə vokal sənəti, instrumental musiqi, opera, oratoriya, kantata inkişaf edir. Yakobo Peri (1561-1633), Culio Kaççini (1550-1618), Alessandro Skarlatti (1660-1725), Covanni Paiziyello (1740-1816), Luici Bokkerini (1743-1805), Domeniko Çimaroza, (1749-1801) Coakino Rossini, (1792-1868), Qaetano Doniçetti (1797-1848), Cuzeppe Verdi (1813-1901) Amilkare Ponkyelli (1834-1886), Rucero Leonkavallo (1857-1919), Cakomo Puççini (1858-1924) Pyetro Maskanyi (1863-1945), İtaliya opera sənətini inkişaf etdirirlər. Dahi Cuzeppe Verdi yaradıcılığı italyan opera sənətinin ən yüksək zirvəsidir.

Müasir turizmin formalaşmasında Roma imperiyasının əvəzedilməz rolu olmuşdur. İmperator Titin şərəfinə zəfər tağı (81-ci il), imperator Trayan zalı, Kolizey, Panteon, ictimai hamamlar, ilkin xristian sərdabələri, Kapitoli meydanları, Müqəddəs Pyotr kilsəsi (1506-1614), barokko üslubunda kilsələr, saraylar və digər tarixi mədəniyyət abidələri ekskursiya marşrutlarına xüsusi məzmun gətirir.

İtaliyada müasir turizm sənayesinin tarixi 100 illik dövrü əhatə edir. Bu vaxt ərzində ölkə dünyanın qabaqcıl turizm mərkəzlərindən birinə çevrilmişdir. 1991-ci ildə Aralıq dənizi bölgəsinə gələn turistlərin 36 %-i İtaliyanın payına düşürdü. 1983-cü ildə ölkədə turizmin inkişafı məqsədi ilə turizmin inkişafı və təkmilləşdirilməsi haqqında əsas qanun qəbul edildi. Qanunda bölgə səviyyəsində idarəetmə orqanı, iş qaydaları müəyyən edilir, ölkənin mehmanxana təsərrüfatının təsnifatı verilir, turizm və nəqliyyat agentlikləri birliklərinin fəaliyyət qaydaları şərtləndirilir, turizm sahəsində peşəkarların fəaliyyəti tənzimlənir, dövlət tərəfindən turizm sahəsinə dəstək tədbirləri müəyyən edilirdi. Yerli və xarici turistləri ilk növbədə İtaliyanın mədəni dəyərləri, dağları, gölləri kimi turizm resursları, habelə bu sahədə qonaqlara göstərilən yüksək xidmət mədəniyyəti cəlb edir. İtaliyada beynəlxalq turizm əsasən ölkənin şimalında cəmləşib. Xarici turist qəbuluna görə 1-ci yer Venesiya şəhərinə (20 %) məxsusdur. Ondan sonra Toskana (13 %) və Alto-Adica (13 %) gəlir. San-Remo qış kurortu beynəlxalq turizm mərkəzidir. Cənubi Tirolda 50-dən artıq qəsrlərdə otellər və muzeylər fəaliyyət göstərir.

Xarici turistlərin axını əsasən iyul-avqust aylarına təsadüf edir. Bu amil həm şəhərlər, həm sahilyanı kurortlar, həm də bütövlükdə qonaq qəbulu sahəsi üçün problemlər yaradır, çünki gecələmək üçün yaşayış fondu azlıq edir. Mehmanxana yerlərinin əksəriyyəti Trentino vilayətində (18.5 %) və Alto-Adicada (13 %) cəmləşib. Sənaye zonaları yaxınlığında turizm mərkəzlərinin yerləşdirilməsi kurortların ekoloji vəziyyətinə mənfi təsir edir. Hər il İtaliyanın mehmanxana və qonaq evlərində 60 milyon turist qalır, onların 35 %-ni xarici turistlər təşkil edir. Xarici və yerli turistlərin 85 %-i mehmanxanalarda qalır. İtaliyaya xarici turistlərinin əksəriyyəti Almaniya, Fransa, Avstriya, İsveçrə kimi qonşu ölkələrdən gəlir. Bu ölkələr arasında birincilik Almaniyaya məxsusdur. ABŞ, Yaponiya və başqa uzaq ölkələrdən olan turistlər İtaliyaya daha uzun müddətə gəlir və əsasən Roma, Florensiya və Venesiyanı ziyarət edirlər. İtaliyaya gələn turistlər ən çox şəhərlərdə (50 %) və dəniz sahillərində (25 %) istirahətə üstünlük verirlər.

Ölkədə beynəlxalq turizmin inkişafında Turizm üzrə Milli İdarə (ENİT) böyük rol oynayır. Onun bir çox ölkələrdə öz nümayəndəlikləri fəaliyyət göstərir. Beynəlxalq turizm bazarında şəraitin tədqiqi, reklam tədbirləri və ölkəyə xarici turist axınının genişləndirilməsi vəzifələri ENİT-in üzərinə düşür. İtalyanların cüzi hissəsi öz məzuniyyətlərini xaricdə keçirir. İtaliyanın turizm resurslarının çeşidi italyanlara öz istirahət tələbatlarını vətənlərində təmin etmək imkanı yaradır. Son dövrlərdə iqtisadiyyatın yüksəlişi, valyuta nəzarətinin sadələşdirilməsi xarici səyahətlərin inkişafına təkan vermişdi. Digər Aralıq dənizi ölkələri ilə turizm sahəsində rəqabət italyan kurortlarına düşən gərginliyi azaldır. Eyni zamanda İtaliyanın tarixi və mədəni abidələri hələ uzun müddət xarici turistləri cəlb edəcək. Odur ki, mədəni dəyərlərin qorunub saxlanılması, turizm mərkəzlərinə yönəlmiş axınların idarə olunması olduqca böyük əhəmiyyət kəsb edir.

## 3.11. HİNDİSTAN

| | |
|---|---|
| **Ərazisi** | **3287590 km$^2$. Dünyada 7-ci yer** |
| **Sahil xətti** | **7000 km** |
| **Ölkənin rəsmi adı** | **Hindistan. Qədim fars dilində *sindx* adlanan Hind çayının adından yaranmışdır. Mahabharatada təsvir edilmiş qədim Hind kralı Bhapatın sanskrit adı Hindistan konstitusiyasına görə ölkənin ikinci rəsmi adıdır.** |
| **Paytaxtı** | **Nyu-Dehli** |
| **İri şəhərləri** | **Kəlküttə-16 mln nəfər; Mubau (Bombey)-15 mln nəfər; Çennai (Mədrəs)-6 mln nəfər; Heydərabad-5 mln nəfər; Banqalor-4.5 mln nəfər; Əhmədabad-4 mln nəfər** |
| **İnzibati bölgü** | **28 ştat və 7 ittifaq bölgəsi** |
| **Əhalinin ümumi sayı** | **1129866154 (2007). Dünyada 2-ci yer** |
| **Əhalinin etnik tərkibi** | **İndo-ariyalılar-72%, dravidlər-25%, monqoloidlər və başqaları 3%** |
| **Rəsmi dil** | **14 rəsmi dil vardır. Əhalinin 30 % Hind dilində danışır. İngilis dili ölkənin siyasi və kommersiya dairələrində geniş istifadə olunan dildir.** |
| **Din** | **İnduistlər-81.3 %, müsəlmanlar-12 %, xristianlar-2.3 %, siqhlər-1.9 %, buddistlər, parslar-2.5 %** |
| **Müstəqillik günü** | **1947-ci il 26 yanvar** |
| **Milli bayram** | **15 avqust Respublika günü (1950)** |
| **Hakimiyyət forması** | **Federativ respublika** |
| **Dövlət başçısı** | **Prezident** |
| **Qanunverici orqan** | **Qanunverici hakimiyyət iki palatadan ibarət olan (Ştatlar Şurası ("Raca Sabha") və Xalq Palatası ("Lok Sabha") parlament tərəfindən həyata keçirilir. Ştatlar Şurası 250 nəfərdən ibarətdir və bunlardan 12-si Prezident tərəfindən təyin olunur. Qalan üzvlər isə ştatların qanunverici orqanlarının üzvləri tərəfindən 6 il müddətinə mütənasib sistem üzrə seçilir. Üzvlərin $^{1}/_{3}$ hissəsi 2 ildən bir yenidən seçilir. Parlamentin yuxarı palatasının sədri Hindistanın vitse-prezidentidir. Ştatlar Şurası daimi fəaliyyət göstərən orqandır və Prezident tərəfindən buraxıla bilməz.** |
| **Milli valyuta** | **Hind rupisi** |
| **Elektrik enerjisi istehsalı** | **547.2 milyard $^{kvt}/_{saat}$** |
| **Elektrik enerjisi istehlakı** | **510.1 milyard $^{kvt}/_{saat}$** |
| **İnflyasiya** | **4.2 %** |

Hindistan Respublikası Cənubi Asiyada Hindistan yarımadasının böyük hissəsini əhatə edən dövlətdir. Hindistan qərbdə Pakistanla, şimal-şərqdə Çin, Nepal və Butanla, şərqdə isə Banqladeş və Myanma ilə həmsərhəddir. Bundan başqa, Hindistan cənub-qərbdə Maldiv adaları ilə, cənubda Şri-Lanka ilə və cənub-şərqdə isə İndoneziya ilə dəniz sərhədlərinə malikdir. Mübahisəli Cammu və Kəşmir ştatları Əfqanıstanla həmsərhəddir.

Hindistan bir çox qədim mədəniyyətlərin beşiyi və mühüm tarixi ticarət yollarının mərkəzidir. Hindistanda induizm, buddizm, sikhizm, caynizm yaranmışdır.

XX əsrin ortalarınadək Hindistan Britaniya imperiyasının müstəmləkəsi idi. 1947-ci ildə müstəqillik qazanan ölkə xüsusilə son 20 ildə iqtisadi və hərbi sahədə böyük nailiyyətlər əldə etmişdir. Lakin əhalisinin 25 % (2002) yoxsulluq həddindən aşağıda yaşayır.

| | |
|---|---|
| **Sənaye istehsalının artımı** | **7.4 %** |
| **2004-cü ildə əmək qabiliyyətli əhalinin sayı** | **482.2 mln nəfər** |
| **İşsizlik** | **9.2 %** |
| **İxrac** | **69.18 milyard ABŞ $, o cümlədən - ABŞ-a - 20.3 %, Çinə - 6.3 %, İngiltərəyə - 5.2 %, Honkonqa - 4.7 %, Almaniyaya - 4.3 %.** |
| **İdxal** | **89.33 milyard ABŞ $, o cümlədən ABŞ-dan-6.7 %, Belçikadan-5.9 %, İngiltərədən-5 %, Çindən-4.5 %, Sinqapurdan - 4.2 %** |
| **Xarici borcu** | **117.2 milyard ABŞ $** |
| **Telefon xətlərinin sayı** | **48.917 milyon** |
| **Radiostansiyalar** | **AM-153, FM - 91, qısa dağalı - 68** |
| **Televiziya stansiyaları** | **562** |
| **İnternetdən istifadə** | **18.481 milyon nəfər** |
| **Dəmir yollarının uzunluğu** | **63140 km** |
| **Elektrikləşdirilmiş dəmir yollarının uzunluğu** | **15994 km** |
| **Avtomobil yollarının uzunluğu** | **2525989 km** |
| **Su yollarının uzunluğu** | **14 500 km** |
| **Aeroportlar** | **333** |

Hindli həyatı dinlə sıx bağlıdır. Demokratiyanın bərqərar olmasına baxmayaraq, Hindistanın mürəkkəb sosial-dini quruluşu başqa ölkələrdən fərqlidir. Faktiki olaraq bu quruluş 4000 ildir ki, mövcuddur və hücumlara, işğallara, Avropa müstəmləkəçiliyinə, siyasi sabitsizliyə və hərbi çevrilişlərə tab gətirmişdir. Sözsüz ki, dəyişikliklər baş verir, belə ki, müasir texnologiyalar Hindistanın həyatında möhkəm yer tutmuşdur. Lakin ölkənin kənd təsərrüfatı ilə məşğul olan bölgələrində həyat min illərdir ki, dəyişməz qalmışdır. Ancaq Hindistan mədəniyyətinin dözümlülüyü ona əhəmiyyətli dərəcədə təsir edən və ya onu dağıtmaq təhlükəsi gətirən hər təzahürü etinasızlıqla qarşılayır və dəf edir.

Hindistanın əsas dini olan induizmə əhalinin 80 %-i sitayiş edir. Allahların böyük məbədləri, çoxlu sayda müqəddəs kitabları və inancları olan induizmlə hər bir insan dünyaya gəlmə və yenidən yaranma (reinkarnasiya) zəncirini keçməklə ruhi qurtuluşa nail olur. Hər bir doğuşla insan ruhani dərkə daha yaxın, yaxud uzaq olur və burada həlledici faktor onun taleyidir. İnduizm puç, yaxud həqiqi inama; ölülərin yandırılmasına; kasta sisteminin qanun və qaydalarına əsaslanır. İnduizm elə bir dindir ki, onu qəbul etmək mümkün deyil, çünki induist doğulmayan induist ola bilməz.

E.ə. 500-cü ildə Hindistanın şimalında imperator Aşok tərəfindən qəbul edilən buddizm sonradan induizm daxilində həll olunur. İnduizm pərəstişkarları hesab edirlər ki, Budda Hind allahı Vişnanın bir təzahür formasıdır. İndi Hindistanda yalnız 6.6 milyon buddist vardır. Buddistlərin əsas müqəddəs məkanları sayılan Bodhqaya, Sarnath və Kuşinahar kimi ziyarətgahlar ölkənin şimalında yerləşir.

Cayna da induizmin bir qoludur. O da buddizm kimi təxminən eyni dövrdə və faktiki olaraq eyni səbəbdən yaranmışdır. 4.5 milyona qədər cayna dindarı Hindistanın əsasən qərb və cənub-qərbində yaşayır. Caynlar inanırlar ki, kainat sonsuzdur və ilahi qüvvə tərəfindən yaradılmamışdır. Onlar həmçinin ruhun xilasına da inanırlar.

Hindistanda 100 milyondan artıq müsəlman yaşayır. Bu İslam icması dünyada ən böyük müsəlman cəmiyyətidir. Qonşu Pakistan və Banqladeşdə də İslam əsas dindir. Müsəlmanlar Cammı və Kəşmirdə yaşayırlar. Memarlıq, incəsənət və xüsusilə mətbəxdə İslamın təsiri olduqca güclü duyulur. 18 milyon sikx Pəncabda yaşayır. Onların dini induizm və İslamın ən yaxşı xüsusiyyətlərini özündə birləşdirir. Quruluşuna görə bu təriqət induizmi xatırladır, lakin o, kasta bərabərsizliyi prinsiplərini rədd edir. Asmritsardakı Qızıl Məbəd sinkhlərin əsas müqəddəs səcdəgahıdır.

Britaniyalıların Hindistanı 50 il əvvəl tərk etmələrinə baxmayaraq, ingilis dili geniş şəkildə işlədilir. Konstitusiyaya görə 14 dil rəsmi statusa malikdir, lakin 1991-ci ildə siyahıya 1600 kiçik dillər və

dialektlər daxil edilmişdir. Dil ölkənin əsas siyasi problemi kimi qalmaqdadır, çünki inzibati sərhədlərin çoxu dil xüsusiyyətlərinə əsaslanaraq yaradılıb. Hind dilini milli dil statusunu qaldırmaq və ingilis dilinin təsir dairəsini məhdudlaşdırmaq üçün dövlət səviyyəsində əhəmiyyətli tədbirlər görülür. Hind dilinin ölkənin yalnız şimalında işlədilməsi, cənubda yayılmış dravid dilləri ilə ortaq köklərinin yoxluğu bu planın gerçəkləşməsinə mane olur. Ölkənin cənubunda çox az sayda insan Hind dilində danışır. Hindistanda cəmiyyətin ən yüksək təbəqəsi təhsil və biznes aləmində aparıcı rol oynayan ingilis dilindən istifadə edir.

Hindistan mədəniyyəti dinlə bağlıdır və ölkənin inancını əks etdirir. Hindistanda klassik Hind rəqsi, məbəd memarlığı və heykəltəraşlıq, Muqxal hərbi və şəhər memarlığı, miniatür rəssamlığı və əsrarəngiz Hind musiqisi kimi incəsənət növləri minilliklər boyu inkişaf yolu keçmişdir. Qərb musiqisi üslubu ruhunda tərbiyə almış şəxslərin Hind musiqisinə alışması müəyyən hazırlıq tələb edir.

Hindlilər kinonu sevirlər. Bombeydə yerləşən Hind kino sənayesi mərkəzi dünyanın ən böyük kino istehsalı mərkəzlərindən biridir. Burada ilk növbədə məhəbbət və zorakılıq mövzularında gözəl Hind musiqisi ilə müşayiət olunan melodramlar lentə alınır. Şəhər küçələrində asılmış rəngarəng afişalar yeni filmlər haqqında məlumatı əhaliyə çatdırır.

Hindlilərin hamılıqla vegetarian olması haqqında bilgi həqiqətə uyğun deyil. Vegetarianlıq qaydalarına yalnız ölkənin cənubunda (bir vaxtlar insanlar qidalarında ətdən istifadə edən arilərin və müsəlmanların təsirinə məruz qalmadıqları yerdə) və Qucarat icmasında ciddi riayət olunur. Şimaldan cənuba həm iqlim şəraiti, həm də tarixi proseslərlə şərtlənən ciddi dini variasiyalar mövcuddur. Şimalda ətdən tez-tez istifadə edilir və şimal mətbəxi daha çox Yaxın Şərq və Mərkəzi Asiya mətbəxini xatırladır. Burada ədviyyat Çili istiotunu daha çox üstələyir, düyüyə nisbətən dənli bitkilər və çörək daha çox yeyilir. Cənubda isə tez-tez düyü və vegetarian xörəkləri yeyirlər, ən çox yayılmış ədviyyat kerridir (sous, xörək şirəsi). Bundan başqa vegetarian xörəkləri üçün qab-qacaq istifadə edilmir və cənublular yeməyi yalnız sol əllə yeyirlər.



Tac-Mahal Hindistanda, Aqrada Cama çayı sahilində mavzoley kompleksidir. Moğol imperatoru Şah Cahanın əmri ilə doğuş vaxtı vəfat etmiş arvadı Mümtaz Mahalın xatirəsinə tikilmişdir. Sonralar Şah Cahanın özü də burada dəfn olunmuşdur. Mavzoleyin içərisində şah və onun arvadının qəbirləri yerləşir. Əslində onlar, yerin altında türbədə dəfn olunmuşlar. Tikinti təxminən 1630-1652 illərə aiddir. Tac Mahal platforma üzərində 74 metr hündürlüyündə 5 günbəzli, 4 minarəli tikilidir. Binaya fəvvarə və hovuzlu bağ bitişir. Divarları cilalanmış yarımşəffaf mərmərdən hörülmüşdür. Tikintidə firuzə, əqiq, malaxit və digər minerallardan istifadə edilmişdi. Kompleksin tikintisinə imperiyanın hər yerindən 20000 usta cəlb edilmişdi. Çayın əks sahilində qoşa bina tikilməli idi, lakin həmin tikinti başa çatdırılmadı.



Mavzoleyin memarlıq layihəsində çoxlu simvollar gizlədilmişdir. Məsələn, Tac Mahalı əhatə edən park kompleksinin giriş qapısının üzərində həkk olunmuş dindarlara müraciət Qurandan götürülmüş “Mənim cənnətimə daxil ol!” sətirləri ilə bitir. Əgər o dövrdə moğol dilində “cənnət” və “bağ” sözlərinin eyni cür yazıldığını nəzərə alsaq, onda Şah Cahanın cənnət qurmaq və öz sevgilisini onun ərazisində yerləşdirmək arzusunu başa düşmək olar.

Əsrlərlə induistlərin, müsəlmanların, buddistlərin, portuqalların, ingilislərin Hindistanda yaratdıqları gizlinlər dünyanı heyrətə gətirir O, daima əcaib aləmlə tanış olmaq arzusu ilə dünyanın hər bir yerindən gələn turistləri təəccübləndirməkdə davam edir. Dəniz və dağları, səhra və cəngəllikləri, soyuq və istini birləşdirən təbiət gözəllikləri adamı valeh edir. Makedoniyalı İsgəndərin “iddialarını” dəf edən fillər ölkəsinin bütün görməli yerlərini saymaqla qurtarmaq mümkün deyil. Müxtəlif təriqət qanunları təməlində yaradılmış Hindistan mədəniyyəti minilliklər boyu inkişaf yolu keçmişdir. Müasir dövrdə ölkənin turizm sənayesi gur inkişaf edir. Bu gün Hindistana gələn qonaqlar gözəl memarlıq inciləri ilə tanış olmaqla yanaşı, okeanın şəffaf sularında üzmək, dayvinqlə (dalğıc idman növü) məşğul olmaq, dəvə və fil belində cəngəlliklərə maraqlı safari səyahətinə çıxmaq

imkanı əldə edirlər. Hindistana səyahət turları çeşid müxtəlifliyi ilə seçilir. Ədviyyatın yetişdirildiyi plantasiyalara səyahət istənilən turist səfərlərinin mühüm tərkib hissəsidir. Ətirli tarlalara yol çox vaxt sıx cəngəlliklərdən keçir. Təbiət qoynuna ekskursiyalar zamanı turistlər Hindistanın valehedici heyvanat və bitki aləmi ilə tanış olurlar. Burada çoxillik ağacların budaqlarında yorulmadan yellənən, məzəli, çevik meymunlar Hindistana safari səyahətinə çıxmış turistlərin fotoaparatlarını qapıb əlçatmaz hündürlükdə olan yuvalarına qaçırmağa cəhd edirlər. Hind, Zanskar, Bizoniya çaylarına səyahət zamanı turistlər timsahlara maraqla tamaşa edir, sonra dəniz istirahətinə yollanırlar. Ölkəni 3 tərəfdən saysız-hesabsız abadlıq işləri görülmüş və ibtidai qumsal çimərliklər əhatə edir. Bura gərginlikdən qurtulmaq və həyat gücünü bərpa etmək üçün əla istirahət məkanıdır. Kovalama, Aquada, Palolem, Varqa, Kola Biç, Boqomolo, Dona Paula kimi gözəl çimərliklər, Aqat, Qrand, Piceon adaları dayvinqlə məşğul olmaq üçün ən əlverişli yerlərdir. Dayvinq həvəskarları ekzotik balıqları, habelə dənizdə batmış gəmiləri seyr edirlər Dəvə və ya fil belində "Çəhrayı şəhərə", Caypurdan Əmbər istehkam qalasına səyahət etmək heç də az maraq doğurmur. Piyada səyahət həvəskarları üçün Himalay dağ aşırımlarına ekskursiyalar təşkil olunur. Dünyanın bütün guşələrindən gələn alpinistlər cəsarətlə 6000 metrlik zirvələri fəth etməyə girişirlər. Ladaka gələn turistlər buddistlərin dini festivallarını öz gözləri ilə görə və hətta hiss edə bilirlər. Məşhur Qoa karnavalında iştirak etmək hər turistin arzusudur. Qonaqları hər yerdə induizm, İslam, buddizm ənənəsi hopmuş, portuqal, İngiltərə Viktoriyan koloriti ilə çulğalanmış Hind mədəniyyəti abidələri əhatə edir. Hampi şəhərinin 150 məbəd və abidələri, Ellor və Acantda müxtəlif dini cərəyanlara məxsus olan qaya dərinliklərində çapılmış çoxsaylı məbədlər, Ladoklari sıldırımının lap kənarında yüksələn monastır unudulmaz təəssürat bağışlayır. Turistlər dünyanın 8-ci möcüzəsi olan Hindistan mirvarisinə - Tac Mahala axışırlar. Burada pıçıltı ilə deyilən söz 16 saniyə ərzində güclənərək əks-səda verir.

Hindistan hökuməti qədim sarayların sahiblərinə mülklərini otellərə çevirməkdə yardım etmək fikrindədir. Bu, ölkəyə daha çox turist cəlb edə bilər.

Hindistanın abadlaşdırılmış mehmanxana sektoru təxminən 110 min nömrəyə malikdir. Mütəxəssislərin fikrincə bu göstərici Hindistan bazarının tələbatından 2 dəfə azdır.

## 3.12. İSRAİL DÖVLƏTİ


İSRAİL

**Ərazisi: 20.7 min kv km (dünyada 149-cu yer).**
**Əhalisi: 6 mln nəfər (dünyada 95-ci yer - 2007).**
**Paytaxtı: Qüds (0.5 mln nəfər -2007).**
**Dövlət dili: ivrit (Fələstin muxtariyyətində-ərəb dili).**
**Din: iudaizm (Fələstin muxtariyyətində-islam).**
**Milli pul vahidi: şekel.**

İsrail dövlətinin qısa tarixi dövrü əhatə edir, əhali tərkibi müxtəlif immiqrant ünsürlərindən təşkil olunub, odur ki. burada hər hansı dərəcədə vahid milli mədəniyyətin yarandığını iddia etmək hələ tezdir. Müxtəlif etnolinqvist şəraitdə inkişaf etmiş müxtəlif etnolinqvist yəhudi qruplarının yaratdığı bir neçə fərqli mədəni istiqamət inkişaf edir.

Hər xalqın milli xasiyyəti az və ya çox dərəcədə həmin xalqın tarixi ilə bağlıdır. Yəhudi milli xasiyyətinin xalqın tarixi keçmişi ilə sərt bağlılığı buna bariz nümunədir.

Müxtəlif milli mənşəli insanları birləşdirən yəhudi dini qədim və zəngin tarixə malikdir. Qədim Fələstin torpaqlarında e. ə. I minillikdə yaşayan əhali tarixi ənənəyə görə yəhudilər adlandırıldı. Əsrlər boyu assuriyalılar, bavilər, sonralar isə suriyalı və misirlilər qədim Fələstin torpaqlarını işğal etmişlər. I əsrin sonunda Roma legionları yəhudi dövlətini xüsusi qəddarlıqla zəbt etdilər.


QÜDS


TEL-ƏVİV

Ölkə paytaxtı Qüds qarət olundu və onun müqəddəs məbədləri dağıdıldı, yəhudilərə ölüm hökmü qorxusu altında şəhərin hüdudlarına daxil olmaq qadağan edildi.

Roma hökmdarları yəhudiləri itaətə gətirmək üçün yəhudi dininin kökünü kəsməyə qərar


VİFLEYEM

verdilər. Xüsusi fərmanla şabbat bayramı və digər yəhudi bayramları qadağan olundu, yəhudi məktəbləri bağlandı, yəhudi dini kitabları məhv edildi.

Yəhudilər dünyanın müxtəlif ölkələrinə yayıldılar, yerli dil və ənənələri qəbul etdilər, lakin dini və qismən mədəni mənsubiyyətlərini qoruyub saxlaya bildilər.

Qədim Roma dövlətinin süqutundan (476-cı il) Amerikanın kəşf olunmasına (1492-ci il) qədər keçən minillik, orta əsrlər adlanan tarixi dövr də yəhudi milləti üçün faciəli minillik oldu. Bu minillik 2 dövrə bölünür: birinci dövrdə yəhudi millətinin əsas kütləsi Şərqdə - Babilistanda, İranda, Ərəbistanda, Suriyada, Fələstində və Misirdə yaşayır. Az hissəsi ayrı-ayrı məskənlər şəklində İtaliya, İspaniya, Almaniya və Rusiya torpaqlarına səpələnir. Orta əsrlər dövrünün ikinci yarısı (XI - XV əsrlər) yəhudilərin kütləvi şəkildə Şərqdən Qərbə köçməsi ilə səciyyələnir.


NAZARET

Həmin dövrdə beynəlxalq ticarətin əhəmiyyətli hissəsi yəhudilərin əlində cəmləşmişdi. Avropada onlar tezliklə, hələ Roma imperiyası dövründən qalmış qədim yəhudi məskənlərinə sığındılar. Asiyadan Avropaya körpü rolunu ilk növbədə İspaniya oynayırdı. Ərəblər VIII əsrdə İspaniyanı işğal etdikdə şərq yəhudiləri asanlıqla bu ölkəyə sızırlar. Yüksək mədəniyyətə malik, çevik, bacarıqlı, əməksevər, qətiyyətli yəhudilər bir neçə əsr ərzində İspaniyanı Avropanın inkişaf etmiş, qabaqcıl ölkəsinə çevirdilər.



Avropada yəhudi işgüzar və maliyyə dairələrinin nüfuzu artırdıqca, yerli əhalinin onlara qarşı baş qaldıran paxıllıq və ədavəti də artmış oldu. Xristian kilsəsi də nifrətin artmasına kömək etdi. Avropanın bir çox ölkəsində müxtəlif dövrlərdə yəhudi qırğınları başlandı. Minlərlə yəhudi edam olundu, tonqallarda yandırıldı.

Yəhudi milləti şəhidlərini xüsusi ehtiramla yad edir.

Qərbi Avropada yalnız İtaliyada yəhudi qırğınları baş vermədi. Burada yəhudilərin vəziyyəti nisbətən yaxşı idi. Onlar ənənəvi olaraq istehsalçı və istehlakçı arasında vasitəçi rolunu oynayırdılar.



XV əsrin sonunda ispanlar Pireney yarımadasının cənubunda dövlət qurmuş ərəblərlə ölüm-dirim mübarizəsinə qalxmışdılar. Kral Ferdinand və kraliça İzabella ərəb hökmranlığına son qoymaq, yəhudiləri xristianlaşdırmaq, tabe olmayanları suda boğmaq siyasətini qarşılarına məqsəd qoymuşdular.

I Pyotr dövründə yəhudilər Polşa ilə sərhəd olan rus torpaqlarına köçməyə başlayırlar. Pyotr onlara dəymirdi, I Yekaterina isə yəhudilərin təqib edilməsi ilə nəticələnən fərman imzalamışdı.

1789-cu il Böyük fransız inqilabı bütün təbəqələrdən olan insanların “bərabərliyi, qardaşlığı və azadlığı” müddəasını elan etdi. Fransaya yenidən qayıtmış yəhudilər vətəndaş hüquqlarına sahib oldular. Almaniya, Avstriya və İtaliyanı bürüyən inqilab hərəkatları nəticəsində də yəhudilərə uyğun hüquqlar verildi.


MONFORT QALASI

Lakin XIX əsrin son rübündə antisemitizm adlanan yeni yəhudi təqibi hərəkatı baş qaldırdı. XX əsrdə "irqçilik nəzəriyyəsi" kimi insaniyyətə zidd siyasət yürüdən faşist Almaniyasında antisemitizm xüsusilə çiçəkləndi. 1938-ci ildə faşistlər yəhudi qırğınları təşkil etdilər. İkinci dünya müharibəsi illərində Almaniya və onun işğal etdiyi ölkələrdə 6 mln yəhudi məhv edildi.

Yəhudilərin hər hansı yad mühitə asanlıqla uyğunlaşması milli xasiyyətin tərkib hissəsidir. Eyni zamanda əsrlər boyu təqibə uğramaq təhlükəsi yəhudiləri öz icmalarına qapılmağa vadar edirdi. Ailə həyat axarlarının mərkəzi dairəsinə, övladlar isə varlığın mahiyyətinə çevrilirdi. Uşaqlar həyat rəmzi və qırılmaq təhlükəsi ilə üzləşən millətin gələcəyi sayılırdı.

İsraildə əhalinin böyük əksəriyyəti sabiq mühacirlər və onların vərəsələridir, odur ki, yəhudilər övladlarının yolunda hər şeyi qurban verməyə hazırdırlar. Uşaqların tərbiyəsi elə qurulub ki, hər biri özünü kainatın göbəyi hiss edir. Uşaqların birgə tərbiyə edildiyi kibuts adlanan icmada qətiyyət, birinci olmağa meyl, özünə inam kimi xassələr formalaşdırmağa çalışırlar.


TEL-ƏVİVDƏ FESTİVAL

Elm və mədəniyyət və incəsənətin bir çox sahələrində yəhudilərin zehni səviyyəsi olduqca yüksəkdir. Yəhudilərdə qəddarlığa az təsadüf edilir, qətl hadisəsi ümumiyyətlə nadir hallarda baş verir.

Müstəqil İsrail dövləti 1948-ci il may ayının 14-də təşkil olunmuşdur. İsrail dövlət quruluşuna görə parlament respublikasıdır.

İsrail nadir mədəni dəyərlərə malik ölkədir. Müasir İsrail dövlətinin yerləşdiyi ərazi həm yəhudilər, həm xristianlar, həm də müsəlmanlar üçün dini əhəmiyyət kəsb edir. Qüds xristian, islam, yəhudi dinlərinin şəhəri sayılır. İsrail alimlərinin fikrinə görə xarici turistlərin 20 %-i ölkəyə zəvvarlıq və ya digər dini məqsədlərlə gəlir. Ölkənin siyasi-inzibati mərkəzi sayılan Tel-Əviv Aralıq dənizi sahilində yerləşir. Şəhər müasir mədəniyyət abidələri ilə zəngindir. Onu gözəl çimərliklər əhatə edir. Son illərdə Qırmızı dəniz sahillərində yerləşən Eylat kurortunun nüfuzu əhəmiyyətli dərəcədə artıb. Lakin çimərlik turizmi mühüm rol oynasa da ölkə turizmində üstünlük təşkil etmir. Məsələn, 80-cı illərdə çimərlik həvəskarlarının miqdarı 300 mindən yuxarı qalxmırdı, bunlar da əsasən Skandinaviya ölkələri, Almaniyaya, İsveçrə və Niderlanddan gələn turistlər idi.

Qüds xristianlar üçün İsa peyğəmbərin dünyəvi həyatı ilə bağlılığına görə əhəmiyyət kəsb edir. Zəvvarlıq proqramlarında Milad kilsəsi başlıca ziyarət məntəqəsidir, o xristian aləminin ən müqəddəs yeri sayılır. Hər bir xristian dindarı bu məbədi ziyarət etmək, onun müqəddəs təbərrüklərinə - Qolqofa, xeyir-dua daşı və s. qarşısında diz çöküb dua etməyə can atır. Şəfa sağlamlıq turizmi səfər edənlərin sayında əhəmiyyətli yer tutur. Ölü və ya başqa cür desək Duzlu dəniz ərazisi termal sular, müalicəvi palçıq və xüsusi bio-meteoroloji mühit kimi təbii şəfaverici amillərin uyğunluğu ilə fərqlənir, belə müalicə insana faydalı təsir göstərir. Milyon il əvvəl Yer qabığının tərpənməsi nəticəsində Ölü dəniz okeandan ayrılmış, duz və mineral qatılığı yüksək, axarı olmayan gölə çevrilmişdir. Okean sularına nisbətən onun tərkibində brom - 80 dəfə, maqnium - 35 dəfə, duz -10 dəfə çoxdur. Suyun kimyəvi tərkibi orqanizmin cavanlaşmasına və enerji artımına kömək edir. Brom əsəb sistemini sakitləşdirir, maqnium - əhval-ruhiyyəni yüksəldir, dəriyə xüsusi təravət gətirir. Suyun yüksək sıxlığı hətta tamamilə üzməyi bacarmayan insanı batmağa qoymur, su səthində saxlayır. Dəniz ətrafı ərazidə hava saf, oksigenlə zəngindir. Ölü dənizin səviyyəsi okean səviyyəsindən 395 m aşağıdır. Bu səviyyədə atmosfer sıxlaşır və dəniz suyu buxarlandıqca



EYLAT



dəniz səthi üzərində buxar qatı yaradır, o isə ultra-qırmızı şüalanmanın qarşısını alan özünəməxsus süzgəc rolunu oynayır. Ölü dəniz sahillərində yanmaqdan ehtiyat etmədən qaralmaq mümkündür. 10 seans günəş vannası qəbul edənin səhhəti yaxşılaşır. Təsdiq olunub ki, Ölü dənizin havası ağ ciyəri, bronxları təmizləyir, əsəb sistemini sakitləşdirir. Astma və allergiyadan müalicə üçün Arad gözəl yerdir. Oksigen və bromla zəngin hava inhalyasiya effekti yaradır.

Eyn-Bokek rayonunda yerləşən "Mor" klinikasında dəri və dayaq-hərəkət sistemi xəstəliklərini müalicə edirlər. İsrail xarici qonaq qəbuluna görə ilk 40 ölkə siyahısına düşməyib. 2000-ci ildə turizmdən götürdüyü gəlirə görə 39-cu yerə keçib, halbuki, 1995-ci ildə 32-ci yerdə idi. Qeyd edək ki, İsraildə bahaçılıq hökm sürür, burada turistlərə çox pul vəsaiti xərcləmək lazım gəlir (müalicə - sağlamlıq istirahəti böyük vəsait tələb edir). İsraildə turizmin inkişafı heç də sabit səciyyə daşımır. Tez-tez baş verən bölgə münaqişələri bu ölkədə turizmin inkişafına öz mənfi təsirini göstərir.

## 3.13. MİSİR

**Ərazisi: 1 mln kv km (dünyada 29-cu yer).**
**Əhalisi: 67 mln nəfər (dünyada 15-ci yer - 2000).**
**Paytaxtı: Qahirə (15 mln nəfər -2000).**
**Dövlət dili: Ərəb dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Misir funtu.**



**QAHİRƏ**

Misir dünyada yeganə ölkədir ki, əhalisi əsrlər boyu bir çayın (Nil çayı) sahilində və ondan ayrılan arxlar ətrafında yaşayır. Misirdə Aralıq dənizi sahilyanı zolağı istisna olmaqla isti, quraqlıq iqlim hökm sürür.

Misirin paytaxtı Qahirə dünyanın 10 ən iri şəhəri sırasına daxildir. Burada Misir əhalisinin $^1/_5$-i yaşayır. Qahirə ziddiyyətlər şəhəridir. Beşulduzlu otellər və gözəl imarətlərlə yanaşı birmərtəbəli evlərdən ibarət kasıb məhəllələr şəhər kənarına qədər uzanıb gedir. Qahirə böyük bazarı xatırladır. Tacirlər mallarını tərifləyirlər. Qiymət üstündə gedən alver kənardan dava-dalaşı xatırladır. Həm alıcı, həm satıcı qışqırır, hər iki tərəf dediyində israr edir. Nəhayət sövdə baş tutur, razılığa gəlirlər.

Nil çaylağı ərazisində insan sıxlığı Niderlandda olduğundan iki dəfə yüksəkdir. Misirli daima insan kütləsi içərisində olmağa məhkumdur. Qonşuluqda isə yola getmək zəruridir. Odur ki, Misirlilər ifratçılıqdan çəkinir, ortaq məxrəcə gəlməyə çalışırlar. Onlar dünyada kompromis ustadları kimi ad çıxarmışlar.

Misir cəmiyyətini başdan ayağa qrup əlaqələri bürüyür. Belə əlaqələr qan qohumluğu, dini vəhdət, yerlilik, həmkarlıq yaxınlığı üzərində qurulur.

Qrupun qüdrəti insanları etik qaydalara riayət etməyə vadar edən ictimai rəyə əsaslanır.

Misirli təmkinliyi ilə fərqlənir. Hesab olunur ki, təmkinli insan ləyaqətini daha asan qoruyub saxlaya bilər. Eyni zamanda Misirli asanlıqla əsəbiləşib özündən çıxa bilər.

Misir sivilizasiyası kişilər cəmiyyətidir. Qadınlara münasibət adət-ənənə və şəriət qanunları ilə tənzimlənir. Qadının bədən və saçlarını örtməsi zəruri tələblər sırasındadır. Misirlilər özlərini dünyada, o, cümlədən ərəblər arasında ən üstün adamlar hesab edirlər. Onların əksəriyyəti üçün vətənləri "dünyanın" anası, dünya mədəniyyətinin mərkəzidir.

Misirdə ailə müqəddəs hesab olunur. Misirli ailəsini bütün nemətlərindən üstün tutur. Din xadimləri subaylığı din və cəmiyyət qarşısında günah sayırlar. Misir ailəsi əslində yalnız valideyn və övladları deyil, kişi nəslindən olan bütün qohumları birləşdirən qurumdur. Ailəyə ağsaqqal başçılıq edir. Ailəni qohumluq hissləri möhkəmləndirir.

Misirdə bəy və gəlin seçimi hüququ valideynlərə məxsusdur. Lakin müasir dövr cavanların rəyini də nəzərə almağı zəruri edir. Əmiqızı və xalaqızı kimi qohumlara evlənmək ənənəsi geniş yayılıb. Qız seçəndə ilk növbədə onun mənəvi saflığına, mənşəyinə, valideynlərinin cəmiyyətdə tutduğu mövqeyinə fikir verirlər.

Müsəlman İslam dinindən olmayan qadınla evlənə bilər. Lakin onun uşaqları müsəlman kimi tərbiyə almalıdırlar. Keçmişdə kafirə ərə gedən müsəlman qadını ölüm cəzası gözləyirdi. O vaxtdan qanunlar və adətlər dəyişib. Lakin bu gün də belə addım atmaq böyük cəsarət tələb edir, çünki qadın öz ailəsi ilə qohumluq əlaqələrini itirmiş olur.

Misirli üçün həyatın və nikahın mahiyyəti dünyaya övlad, ilk növbədə oğlan uşağı gətirməkdir. Ata varis arzusundadır, böyük ailəyə köməkçilər gərəkdir. Lakin qız uşağının dünyaya gəlməsi heç də faciə deyil, onu qayğı və sevgi ilə əhatə edirlər.

Evin xanımı adətən ailədən kənarda hər hansı ictimai mövqeyə malik deyil, ailədə isə ərinə tabedir. O bilir ki, əri sahibdir və ailəyə görə məsuliyyət daşıyır. Hətta böyük şəhərlərdə belə işləyən qadınların sayı məhduddur.

Şəriətə görə müsəlman 4 arvad saxlaya bilər. Lakin Misirdə bir qadınla evli olmaq qəbul olunub.

Ərəb ölkələrində İslam ənənələrinə böyük əhəmiyyət verilir. İslam aləmində əcnəbinin yerli qadına sual və ya xahişlə birbaşa müraciət etməsi qəbahət sayılır.

Misir dünyanın ən qədim mədəniyyət ocaqlarından biridir, odur ki, Misirli ölkənin tarixi ənənələrinə sadiq qalmağa çalışır. Misirlilər milli müstəqillik mövzusu məsələlərinə olduqca həssas yanaşırlar. Dövlətin daxili işlərinə qarışmaq sərtliklə rədd edilir. Lakin səmimiyyət, dostcasına münasibət, qonaqpərvərlik Misirli tərəfindən layiqincə qiymətləndirilir.



QAHİRƏ

Ərəb dünyası heç də həmcins deyil, müxtəlif ərəb dövlətləri nümayəndələrinə xas olan işgüzar üslub əhəmiyyətli dərəcədə fərqli ola bilər. Bu xalqlarda dosta, qonağa layiqli bəxşiş əta etmək ənənə halı alıb. Ərəblər yumor hissəsinə müsbət münasibət bəsləyir, işgüzar danışıqlara səmimiyyət mühiti gətirməyə çalışırlar.

Avropalılar sağ və sol əllər arasında fərq görmürlər. Lakin ərəb ölkələrində bu cəhətdən daha diqqətli olmaq gərəkdir. İslamda sol əl naməhrəm sayılır, odur ki, qonağa sol əllə pul uzatmaq və ya hədiyyə vermək tamamilə yolverilməzdir, hətta təhqir kimi qəbul edilə bilər.

Hazırda Misirin turizm imkanları haqqında bütün məlumatı İnternetdə, iki min səhifəlik xüsusi əldə etmək olar. Misir turizm Nazirliyi ehramlar ölkəsi, onun tarixi və əhəmiyyəti, görməli yerləri, mehmanxanaları, muzeyləri, turizm şirkətləri haqqında məlumatları bu daxil jurnala edib.

1998-ci ildə Misir beynəlxalq turizmdən 3.838 mlrd $ mənfəət götürüb. Ümumdünya turizm mənfəətində Misirin payı 0.9 % təşkil etmişdi. Mənfəət götürən 40 ölkə reytinq siyahısında Misir 27-ci yeri tutmuşdu. Lakin Misir beynəlxalq turizm sahəsində əldə etdiyi nailiyyətləri durmadan artırmağa çalışır. Misir muzeyi Qahirənin ən görkəmli abidələrindən biridir, burada 100 mindən çox eksponat toplanmışdır. Qeyd etmək lazımdır ki. 4 min il ərzində Qahirə 4 dəfə yerlə yeksan olunmuş və yenidən bərpa edilmişdir.



MİSİR EHRAMLARI

Misir muzeyində nümayiş etdirilən Tutanhamon sərvətləri nəyə desən dəyər. Muzey 1902-ci ildə açılıb, son yüz ildə demək olar ki, heç bir dəyişikliyə məruz qalmayıb. Muzey şəhərin mərkəzində yerləşir, bu da milyonlarla turistlər üçün müəyyən çətinliklər yaradır. Muzeyin yerləşdiyi mərkəzi şəhər meydanı nəqliyyat və piyadaların gur basırıq yaratdığı yerdir, bu da eksponatların qorunmasına mənfi təsir göstərir. Bundan başqa misirlilər mədəniyyətlərinin bütün sülalələri üzrə (yunan-Roma, xristian, ispan) tarixi dövrlərin əks olunduğu muzey yaratmaq arzusundadırlar. Hazırda hər dövr ayrıca muzeydə nümayiş etdirilir, yunan Roma dövrü muzeyi isə İsgəndəriyyə şəhərində yerləşir. Misir ehramları yanında yeni əzəmətli muzey yaradılması haqqında qərar qəbul olunub, burada fironlardan prezidentlərə qədər bütün Misir mədəniyyəti əks olunacaq.

Əbu Simbela məbədləri qədim Misir memarlığın inciləridir. Giza ehramları, Luksor məbədləri və məqbərələri ilə yanaşı onlar YUNESKO ümumdünya irsi siyahısına daxil edilib. Böyük Əbu-Simbela II Ramzez məbədi, onun arvadı Neferatoranın (Nefertiti) kiçik məbədi e. ə XIII əsrdə qayada çapılmışdır. Məbədləri Bayırdan əzəmətli heykəllər, içərisini gözəl rəngli relyeflər bəzəyir. Keçən əsrin 60-cı illərində hər iki məbədi Asuan su hövzəsinin sularından qorumaq məqsədi ilə daha yüksək yerə köçürdülər. Böyük Ramzes məbədinin nadir bir xüsusiyyəti var – ildə iki dəfə, oktyabrın 22-də və fevralın 22-də günəşin ilk şüaları məbədin 55 metrlik məsafədə uzanan girişindən ibadətgaha daxil olur və fironun daş simasını işıqlandırır. Məbəd köçürüləndə bu xüsusiyyəti qoruyub saxlaya bildilər. Bu, misirlilərin öz tarixi irsinə olan diqqətinə dəlalət edir. Misirin cənubunda, Sudanla sərhəddə yerləşən Əbu-Simbeldə həmişə kifayət

qədər turist olur. Oktyabrın 22-də və fevralın 22-də isə onların sayı qat-qat artır, şəhər sakinləri həmin günlər bayram edirlər.

Bayram Əbu-Simbelada «Səs və nur» tamaşası ilə tamamlanır. Giza ehramları, Luksor Karnak məbədi və Asuan yanında File adasında yerləşən məbədin qarşısında belə bayramlar çoxdan keçirilir. Əlvan boyalarla tərtib olunmuş, musiqi ilə müşayiət edilən bu tamaşalarda qədim Misir mədəniyyətinin tarixindən bəhs edilir. Belə günlər sözün əsl mənasında ümumxalq bayramına çevrilir.

Təəssüf ki, Misirdə ölkənin inkişafının ləngitməkdə maraqlı olan, terror aktları törədən qüvvələr də mövcuddur. 1998-ci ildə Giza ehramları yanında AFR-dən 22 nəfərdən ibarət turist qrupu terroristlər tərəfindən gülləbaran edildi.

1999-cu ildə Misirə uçan Boinq 77 təyyarəsi 10.000 metrlik hündürlükdən olan sularına qərq oldu, nəticədə turistlər və təyyarə ekipajı həlak oldu. Misir hökuməti terrorçularla amansız mübarizə aparır.

Terror aktları Misirə yönələn turist axınlarını qismən zəiflətsə də, turistlərin Misirin zəngin tarixi irsinə olan marağını səngidə bilmir.

Misir və Ərəb və digər müsəlman ölkələrinə beynəlxalq turizmin inkişafında böyük yardım göstərir. 1992-ci ildə MDB və ərəb dövlətləri ilə texniki əməkdaşlıq Fondu yaradılıb. Fond dövlət təşkilatıdır, ona xarici işlər naziri rəhbərlik edir.

Bazar iqtisadiyyatına keçid dövründə inkişaf edən ölkələrə texniki və maliyyə yardımı, kadrların hazırlanmasında kömək Fondun başlıca vəzifəsidir. 1992-ci ildən başlayaraq hal-hazırkı günə qədər Fond «Dünya turizm sistemi» mövzusunda tədris kursları təşkil edir. Bu kurslarda ixtisas artırma və kadr hazırlığı, habelə ixtisas artırma və kadr hazırlığı seminarlarında Azərbaycandan onlarla mütəxəssis, o cümlədən diplomatlar, bank, vergi, gömrük, ticarət və turizm işçiləri təhsil alırlar.

Fond MDB ölkələri və müsəlman dövlətlərindən olan mütəxəssislər üçün kurslar və seminarlar təşkil edir. Eyni zamanda Misir mütəxəssisləri həmin ölkələrdə təcrübə mübadiləsi aparırlar. Hazırda Misir-Azərbaycan mədəni əlaqələri özünün ən yüksək inkişaf mərhələsinə yaşayır.

## 3.14. BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ

| | |
|---|---|
| Rəsmi adı | Birləşmiş Ərəb Əmirlikləri (İmarat əl-Ərəbyə əl-Müttəhidə) |
| Paytaxtı | Abu-Dabi |
| Ərazisi | 83.6 min km$^2$ |
| Əhalisi | 3.3 mln nəfər |
| Dövlət quruluşu | Federasiya |
| Əmirliklər | Abu-Dabi, Şarca, Acman, Umm Əl-Qəyvəyn, Dubay, Əl-Fuceyrə, Ras əl-Hayma |
| Ali hakimiyyət orqanı | Əmirlik hökmdarları Ali Şurası |
| Dövlət başçısı | Ali Şura tərəfindən Əmirlik hökmdarları sırasından 5 il müddətinə seçilən prezident |
| Dövlət dili | Ərəb dili |
| Din | İslam |
| Ən böyük şəhəri | Dubay (1 mln nəfər) |
| Pul vahidi | Dirhəm |
| Dəniz limanları | Cəbəl Əli (Dubay), Rəşid (Dubay), Zeyd (Abu-Dabi), Hələd (Şarca) |

İslam tarixində VII-VIII əsrlər xilafətlər və köçəri tayfaların islamlaşdırılması dövrüdür. Bu dövrdə ticarət gur inkişaf edir, Dubay, Şərci, Əl-Fuceyr kimi ticarət mərkəzləri meydana gəlir. VIII-IX əsrlərdə Şərqi Ərəbistanda müxtəlif əmirlik və şeyx dövlət qurumlarından ibarət karmatlar dövləti mövcud olur, bu dövlət süqut etdikdən sonra həmin qurumlar Omandan asılı vəziyyətə düşür. XIV-XV əsrlərdə, monqollar fars körfəzi ərazilərini tabe etməyə çalışdıqları dövrdə Yeni Ormuz şeyxliyi bölgənin ən əhəmiyyətli və zəngin dövlətlərindən birinə çevrilir. XV əsrin axırlarında avropalılar Fars körfəzinə müdaxilə edirlər. XVI əsrin əvvəlində Portuqaliya Ormuzu, Bəhreyni və Culfarı işğal edir, bu əraziləri yüz il öz inhisarında saxlayır. XVII əsrdə İngiltərə Portuqaliyanı xeyli sıxışdıra bilir, ərəb donanması üzərində qələbə çalır, Şarcı və Umm əl-Qəyvəyni yerlə yeksan edir, İranın köməyi ilə mövqeyini möhkəmlədir. Ərəblərə qəbul etdirilmiş sazişdə "azad dəniz gəmiçiliyi" maddəsinə əsasən dəniz quldurluğuna son qoyulur, ingilis gəmilərinə pirat basqınları dayandırılır. Saziş əsasında Oman müstəmləkəsi yaranır. 1835-ci ildə dəniz sularında müvəqqəti sülh sazişi bağlanır, 1853-cü ildə bu saziş daimi sülh müqaviləsi ilə əvəzlənir.

1922-ci ildə ingilislər ərəb şeyxlərinin quruma neft kəşfiyyatı və çıxarılması sahəsində hüquqlarını məhdudlaşdırırlar. Ərəblər ilk növbədə mirvari ticarətindən götürdükləri gəlirlə kifayətlənməli olurlar. Lakin tədricən vəziyyət dəyişir. Keçən əsrin 50-ci illərində neftdən gələn gəlirlər Oman əmirliklərini uzun müddətli böhrandan çıxara bilir. 1964-cü ildə Ərəb dövlətləri Liqası ingilis protektoratının əleyhinə çıxaraq ərəb dövlətlərinin tam müstəqilliyi deklarasiyasını qəbul edir. 1968-ci ildə Böyük Britaniya qoşunlarını 1971-ci ilin sonuna qədər bölgədən çıxaracağını elan edir. 1971-ci ilin dekabrın 2-də Müqaviləli Oman dövlətinin (əslində İngiltərə müstəmləkəsinin) 6 Ərəb Əmirliyi - Abu-Dabi, Şarca, Acman, Umm Əl-Qəyvəyn, Dubay, Əl-Fuceyrə Birləşmiş Ərəb Əmirlikləri federasiyasında birləşir. 7-ci əmirlik - Ras əl-Hayma Federasiyaya 1972-ci ildə daxil olur. BƏƏ və İngiltərə arasında müqavilə bağlanır. Dünya bazarlarında xam neftin qiymətinin qalxması yeni yaranmış ölkənin gur iqtisadi inkişafına təkan verir.

Ərazisinə görə Birləşmiş Ərəb Əmirliklərinin ikinci əmirliyi olan Dubay Yaxın Şərqin aparıcı biznes və turizm mərkəzidir.

Dubay şəhəri eyni adlı əmiliyin paytaxtıdır, əmirlik əhalisinin böyük hissəsi burada yaşayır.

Dubayın yeni tarixi keçən əsrin 30-cu illərində başlayır. Yüz illər ərzində o, tacirlər məskəni kimi məşhur olub. 40-50-ci illərdə əmirliyin müasir infrastrukturunun əsası qoyulur. Dubay hökmdarları olan Əl-Məktum ailəsinin, ilk növbədə əmirliyin vəliəhdi şahzadə şeyx Məhəmməd ibn Rəşid Əl-Məktumun sayəsində Dubay iqtisadi inkişafının yeni mərhələsini yaşayır. Vəliəhdin süni Palma adaları, Dubay-Marina və onlarla digər analoqu olmayan əfsanəvi, bəzən ağlasığmaz layihələri Dubayın görkəmini tamamilə dəyişmiş və Əmirliyin XXI əsrdə çiçəklənməsinin təməlini qoymuşdur.

Hər il Dubaya on milyon turist gəlirdi. Sahil xəttinin uzunluğu isə cəmi 72 km idi. Bu, böyük sayda insanlar üçün kifayət deyildi. Şahzadə şeyx Məhəmməd ibn Rəşid Əl-Məktum dənizdə böyük ada yaratmaq qərarına gəldi. Ada palma şəklində olmalı idi. Bu, məhdud məkanda uzun sahil zolağı əldə etmək üçün ən münasib forma idi. Diametri 5.5 km olan adanın sahil zolağının uzunluğu 56 km olmalı idi, bu isə həmin həcmdə olan dairənin uzunluğundan 9 dəfə çoxdur. Palma şəkilli ada dəbdəbəli villalar, ticarət mərkəzləri və restoranlarla dolu olmalı idi. Palma ilə tuneli birləşdirən aypara şəkilli bənddə 22 otel ucaltmaq nəzərdə tutulmuşdu. Dənizdə belə hündür binaları polad və betondan da inşa etmək olardı, lakin şahzadə təbii materiallara üstünlük verdi. Palma şəkilli ada 94 qumla örtülməsi nəzərdə tutulmuşdu. Adanı dənizdən qoruyan bəndin qurulması üçün 5.5 mln $m^3$ həcmində daş süxurları sərf olunmalı idi. Bu həcmdə qum və daşla yer kürəsini hündürlüyü 20.5 m olan daş divarla əhatə etmək mümkün idi. Bu nəhəng, qeyri-adi layihəni həyata keçirmək üçün Dubaya Şimali Avropa və Hollandiyanın ən bacarıqlı mühəndisləri cəlb olundu. Hollandlar ölkə ərazisinin 35 %-ni təşkil edən torpağı dənizdən geri ala bilmişdilər. Mütəxəssislər arasında Honkonq aeroportu, Hollandiya ilə Şimal dənizi arasında divar, Sinqapur sənaye mərkəzi iri layihələrin icraçılarına da rast gəlmək olar. Mühəndislər Fars körfəzində Süni ada yaratmaq və onu dəniz dalğalarından qorumaq problemini həll etmək üçün fırtınaların gücü, dalğaların hündürlüyü və buzlaqların, habelə qlobal istiləşmənin təsiri haqqında toplanmış məlumatı təhlil etdilər. Xoşbəxtlikdən körfəzin ən dərin yeri 30 m, uzunluğu – 160 km-dir. Tədqiqat qrupu bu layihənin gerçəkləşməsi üçün Fars körfəzinin ideal yer olduğunu müəyyən etdi. Qoruyucu bəndin hündürlüyü – 3 m, uzunluğu isə 11.5 km olmalı idi. 2001-ci ilin avqust ayında inşaatçılar dənizə yollandılar. Lakin ABŞ-da 11 sentyabr terror aktı xəbəri dünya turizminə ağır zərbə vurdu. Dünya miqyasında səyahətlərə tələbat kəskin surətdə aşağı düşdü. Qorxu, vahimə duyğusu insanların təfəkkürünə hakim kəsilmişdi. Yağın Şərqə turist axını dərhal heç səviyyəsinə endi. Körfəzdə isə tikinti işləri artıq var qüvvəsi ilə gedirdi. Aylarla tədqiqat işləri və sərf olunmuş milyonlarla vəsait puç ola bilərdi. Sentyabr faciəsi ağlasığmaz dərəcədə təkəbbürlü layihəyə qarışıqlıq gətirdi. 1200 əcnəbi mühəndis həyatlarının təhlükəsizliyi üçün ehtiyat edirdi. Onlar hər an ölkəni tərk edə bilərdilər. Onlara avropalılar üçün olan otel və restoranlara hələlik getməməyi məsləhət görürdülər. Biznes iflic vəziyyətinə düşmüşdü. Çimərlik və restoranlara heç kim ayaq basmırdı. Dubayda belə sönük həyat mühiti 3 ay davam edir. Yağın Şərqin turizm sənayesi qara günlərini yaşayır. Lakin şahzadə siyasi iqlimindən asılı olmayaraq tikinti işlərini davam etdirməyi tələb edir. Neft ehtiyatları tükənmək üzrədir. Əmirliyi labüd tənəzzüldən yalnız neftdən gələn gəlirləri əvəz etməyə qadir olan turizm xilas edə bilər. Hərçənd hələ heç kim dənizdən qoparılmış torpaq sahəsində bu ölçü və formada tikili inşa etməyib.

2001-ci ilin noyabrında nəhəng İnşaat işləri davam etdirilir. Dənizdə belə gücə malik divarın ucaldılması üçün 15 yedək, 4 torpaqqazan maşın, 30 ağır yerüstü maşın və on gəmi-kran gecə-gündüz işləyir. Bəndi inşa edənlər ilk növbədə dənizin dibini qaldırmaqla məşğul olurlar. Birləşmiş Əmirliklərin 16 yerində daş çıxarma işləri başlayır. 15.5 km bənd üçün 5.5 mln *t* dağ süxuru lazımdır. Bu qədər tikinti daşından iki Misir ehramı tikmək olar. Dağlarda gecə-gündüz aparılan partlayışlar nəticəsində əldə edilən nəhəng daşlar bəndin özülünə tökülür. Hər bir daşın çəkisi 6 *t*-a qədərdir. Bu nəhəng daşlar süni adanı dənizin dağıdıcı qüvvəsindən qorumalıdır. Daşlar maşınlara, sahildə maşınlardan barjlara isə yüklənir və

suyun dibinə boşaldılır. Dalğıclar mütəmadi sualtı özülün möhkəmliyini yoxlayırlar. Daşlar suyun altında bir-birinə kip söykənməlidir, cüzi yerdəyişmə özüldə çatlar əmələ gətirə bilər, nəticədə dəniz dalğaları asanlıqla bəndi yuyub aparar. Bəndin təməli uğurla sınaqdan çığır.

2002-ci ilin yanvarında bəndin 4.5 km uzunluğunda olan hissəsi artıq hazırdır. İş icraçıların sevincinin həddi-hüdudu yoxdur. Onlar fantastik nailiyyət əldə etdikləri ilə fəxr edirlər. Lakin bu hələ başlanğıcdır. İnşaat işləri iki ildən sonra başa çatmalıdır. Tikinti işləri artıq 6 aydır davam edir. Qışın gəlməsi ilə 56 $^{km}/_{saat}$ sürətlə əsən külək güclü yağış, fırtına, boran gətirir, dənizi coşdurur. Nəhəng dalğalar gəmiləri, gəmi-kranları yırğalayır. Dənizdə işlər dayandırılır, çünki daşların və qumun özülə düzülməsi işi zərgər dəqiqliyi tələb edir, bunun üçün sakit hava şəraiti lazımdır. Qasırğa üç həftə davam edir.

Bənd 2002-ci ilin şiddətli fırtınalarına davam gətirir, lakin iş qrafiki pozulur. İnşaatı üç həftə ləngiyir. Odur ki, Palma şəkilli adanın inşası bəndin hazır olmasından əvvəl başlayır. Müdafiəsi olmayan süni adada inşaat aparmaq böyük riskdir. Ada üçün 94 mln $m^3$ qum tapmaq lazımdır. Bu həcmdə qumla bütün Manhattan adasını 1m hündürlükdə örtmək olar. Birləşmiş Əmirliklərin səhralarında dəryalar qədər qum var. Lakin səhra qumu çox narındır, çimərlik üçün yararlı deyil. Ada üçün yararlı qumu sahildən 10 km aralı dənizin dibində, aşkar edirlər. Qumun körfəzin dibindən çıxarılması əlavə üstünlükdür, o, inşaat yerinə daha tez, üç saat ərzində çatdırılır. Torpaqqazan maşın 5 $km^2$ ərazidə işləyir, dəniz dibini 1 m dərinlikdə qazır, 1 saat ərzində 80000 *t*-luq gəmi anbarını doldurur. Daha sonra qum boru vasitəsi ilə 10 $^{m}/_{saniyə}$ sürətlə lazımi yerə boşaldılır. Bu sürətlə cəmi 4 dəqiqə ərzində Olimpiya hovuzunu su ilə doldurmaq olar. Qrafikdən geri qalmamaq üçün inşaatçılar sutkada 24 saat işləyirlər. Ada tədricən qalxır. İnşaatçılar narahatçılıq hissi keçirilər. Görəsən inşa edilən süni adanın coğrafi koordinatları layihə göstəricilərinə uyğundurmu? Dubayın dünyada yeganə Yer kürəsinin süni peykinə çıxışı var. O elə böyükdür ki, Rusiya və Amerika hərbi peykləri ilə rəqabət aparmağa qadirdir. Yer səthindən 676 *km* hündürlükdə Yer kürəsini dövrə vuran "İkonus" peykindən alınmış fotoşəkillər adanın düzgün məkanda inşa edildiyini təsdiqləyir və layihə müəlliflərinin narahatçılığına son qoyur.

2002-ci ilin avqust ayında tikinti bir ilini başa vurur. Adanı yaradan inşaat qrupu qrafiki qabaqlayır. Bəndin 8 km-lik hissəsi yerində möhkəm dayanıb. Körfəzin mavi səthində palmanın 8 "budağı" görünməyə başlayır. Tikilinin sahil zolağı 56 km-dir. Peyk nəzarəti, müasir texnologiyalar inşaat işlərinin ifrat dəqiqliklə görülməsi üçün imkan yaradır. Çiyinlərində Ağır peyk ötürücüləri gəzdirən beş nəfərdən ibarət qrup hər gün adanı müəyyən marşrutlar üzrə dolaşır, peyklə informasiya mübadiləsi aparır, adanın koordinat şəbəkəsini yaradır, qumsal törəmənin hündürlüyünü və coğrafi mövqeyini qeydə alır. Belə ciddi nəzarət dəqiqliyi təmin etmək üçün olduqca zəruridir. Bu, çox ağır işdir . Yayda havanın hərarəti 48° C-yə qədər yüksəlir, nisbi rütubət 95 %-ə çatır. Lakin belə gərgin əmək öz bəhrəsini verir. Qum daşıyan gəmilər peykdən alınan informasiyaya uyğun olaraq qumu lazımi nöqtələrdə boşaldır.

Dünya bu fantastik layihənin gerçəkləşməsinin şahidi olur. Eyni zamanda Əmirlik itirilmiş etibarı tədricən qaytara bilir. Dubay 11 sentyabr hadisələrindən sonra yaxın Şərqdə ən sakit məkanlardan birinə çevrilir. Çimərliklər yenidən insanlarla dolmağa başlayır. Biznes dirçəlir. Şahzadənin tikintini davam etdirməklə bağlı riskli planı özünü doğruldur. Ada 2006-cı ilin sonuna qədər inşa edilməlidir. Ləkin çətin sınaqlar hələ qabaqdadır. Ada, üzərində yüksələcək çoxmərtəbəli tikililərin ağırlığına davamlı olmalıdır. Burada 120000 insan yaşayacaq. Onların təhlükəsizliyi özülün möhkəmliyindən asılıdır.

Adanın tədqiqat işləri başa çatmamış inşa edilməsi layihə mühəndislərini növbəti problemlə üzləşdirir. Dəniz suları adanın su hövzəsində zəruri tezliklə sirkulyasiya etmir. Qabarma və çəkilmələr sistem lazımi qədər yuyub təmizləmir. Təmiz su daxildə kifayət sürətlə hərəkət etmir. Suyun uzun zaman hərəkətsiz qalmaq təhlükəsi var. İnsanlar "cənnət adasında" mülkiyyət üçün milyonlar xərcləyiblər, burada bulanıq, yaşıl, üfunətli su olmamalıdır. Kompyuterdə yeni testlər aparılır. Məsələ öz həllini tapır. Bənddə iki ara yer çapmaq lazım gəlir. Bəndin hissələrini üzərində 4 zolaqdan ibarət avtomobil yolu olan iki körpü birləşdirir. Ekoloqlar hövzə daxilindəki suyu dəfələrlə yoxladıqdan sonra təhlükənin sovuşduğunu bildirirlər.

2003-cü ilin avqustunda bənd artıq hazırdır. Oktyabrda adanın tikintisi başa çatır. İlk mərhələ başa çatır. İndi yeni sahillərdə 4500 yaşayış binaları, otellər və ticarət mərkəzləri tikmək, turizm mərkəzi olacaq böyük şəhərin infrastrukturunu yaratmaq lazımdır. Qum təbəqəsinin sıxlaşdırmaq lazım gəlir. Qumun üzərində həcmli tikinti işləri aparmaq asan deyil. Dubayın seysmik zonada yerləşdiyi də nəzərə alınmalıdır. 2003-cü il dekabrın 26-da Fars körfəzinin şimal hissəsində, İranın Bəm şəhərində Rixter cədvəli ilə 6.6 bal gücündə zəlzələ baş verir. Zəlzələ şəhəri iflic hala salır. Bir neçə dəqiqə ərzində binaların 60 %-i yerlə yeksan olur. 43000 nəfər həlak olur, 20000 nəfər yaralanır, 60000 nəfər evsiz-eşiksiz qalır. Az sonra Fars körfəzinin digər hissəsində baş verən zəlzələ Dubayı lərzəyə gətirir. Əgər zəlzələnin episentri Dubay olsa idi, ada yox ola bilərdi.



**DUBAY. PALMA ADASI**

İnşaatçılar qum təbəqəsini 12 m dərinlikdə sıxlaşdırmaq qərarına gəlirlər. Onlar titrəyişli sıxlaşma texnologiyasına əl atırlar. 2004-cü ilin yanvarında 15 maşın süxurları sıxlaşdırmaq üçün gecə-gündüz işləyir. Bütün ada boyu virbo-zondlar 200-dən çox dəlik açır. Su və hava yüksək təzyiq altında zondu süxurların arasına itələyir. Dəliklər titrədilir, ətrafdakı süxurlar sıxlaşır, yer bərkiyir. Yuxarıya yeni qum layı çəkilir, proses təkrarlanır. Torpaq daş kimi bərkiyənə qədər bu görünməmiş əməliyyat 8 ay davam edir.

2004-cü ilin martında ada nəhəng tikinti meydanına çevrilir. Minlərlə yük maşını min tonlarla tikinti materiallarını, milyonlarla ton beton və metal konstruksiyaları adaya daşıyır, qaldırıcı kranlar gətirilir, 2000 mütəxəssis cəlb olunur. Hər gün 850 avtobus 40000 nəfər ən sağlam asiyalı fəhləni işə aparıb-gətirir. Onlar 48 ° C istidə iki on iki saatlıq növbədə işləyirlər. 51 podratçı bina, yol, kanal, ticarət mərkəzləri və su təmizləmə qurğuları inşa edilir, qaz və su kəmərləri, elektrik kabelləri çəkilir, rabitə və digər kommunikasiya şəbəkələri yaradılır. 2 il ərzində tam infrastrukturu yaradılmış bütöv bir şəhər salınır. ilkin plana görə Cumeyr adası 60000 nəfərlik əhalinin yaşaması üçün nəzərdə tutulmuşdu. Lakin 2004-cü ilin layihənin sahibləri insanların "cənnət adası" ideyasını bəyəndiklərini nəzərə alaraq layihənin göstəricilərini, müvafiq olaraq işin həcmini iki dəfə artırdılar. Palma adasının təqdimatında hələ layihədə olan evlər cəmi üç günə satılmışdı. Palmanın 17 "yarpağında" 1800-dən çox dəbdəbəli villa inşa edilməli idi. 60 $km^2$ sahədə 8000-dən artıq yaşayış evi, komplekslər, 220 ticarət mərkəzi və restoranlar var. Layihənin sahibləri bu rəqəmləri artırmaq, habelə palma şəkilli 36 mərtəbəli qüllə inşa etmək qərarına gəlirlər. Qüllədə dükanlar, restoranlar və 450 müasir mənzilin yerləşdirilməsi nəzərdə tutulub.

Dubay gözəl çimərlikləri ilə məşhurdur. Bəzi tədqiqatçılar güman edirdilər ki, süni ada sahilyanı zolaqda ekologiyaya mənfi təsir göstərəcək, sualtı aləmi məhv edəcək. Mütəmadi araşdırmalar bu ehtimalların əsassız olduğunu göstərdi. Dalğıclar hər 6 həftədən bir dənizin dibini müşahidə edir, balıq və mərcanların ekoloji dəyişikliklərə reaksiyasını öyrənirlər. Onlar aşkar edirlər ki, bənd balıqlar üçün sığınacağa çevrilib və dəniz heyvanlarının yeni növlərini buraya cəlb edir. Layihə rəhbərləri dünyada ən böyük süni sualtı qayalar tikmək qərarına gəlirlər. 2004-cü ilin iyun ayında insanları buraya cəlb etmək üçün dənizin dibinə iki qırıcı təyyarə batırırlar.

Cumeyr adasının təkmilləşdirilməsi davam edir. Layihənin uğurundan ruhlanan şeyx Məhəmməd ibn Rəşid Əl-Məktum daha iki süni ada - Palma Cəbəl Əli və Palma Deyra adalarını yaratmaq qərarına gəlir. Cəbəl Əli adasının diametri 8 km-dir. Adada 29 müasir otel və üzən evlər inşa edilir. Deyra adası daha böyükdür. Diametri 14 km olan Deyra adası 500000 insanın yaşaması üçün nəzərdə tutulub. Onun inşası üçün 1.5 mln $m^3$ əldə etmək lazım gəlir. Bu rəqəm Cumeyr adasının tikintisinə sərf olunan qumdan 15 dəfə çoxdur. Lakin şahzadə Məhəmməd ibn Rəşid Əl-Məktumun fantaziyasının həddi-hüdudu yox idi. O, daha ağlasığmaz niyyətə düşür. Yer üzündə Dubayı turistlər üçün ən cəlbedici məkana çevirmək məqsədi ilə şeyx sahildən 4 km aralı 300 yüzdən çox ada və adacıqlardan ibarət yeni dünya yaratmaq layihəsi üzərində işləyir. Bu, adi arxipelaq deyil, Yer kürəsinin qitələrinin ümumi təsvirinin əksi olmalıdır. Quru ərazilərin sahəsi 20000-80000 $km^2$ civarında planlaşdırılır. Bu layihənin gerçəkləşməsi üçün dənizdən böyük torpaq sahələri qopartmaq lazım gəlir. Arizona, Vayominq, Avstraliya, Fransa formasında olan adalar hətta satışa çıxardılır. Arxipelaq dənizin 7-9 km sahəsini əhatə edir. Arxipelaqın kosmosdan görünüşü Yer kürəsinin xəritəsini təkrarlamalıdır.

Bu layihələrin gerçəkləşməsi Dubayı hər il ziyarət edən turistlərin sayını 3 dəfə artıraraq 30 mln nəfərə çatdırmaq məqsədinə xidmət edir.

### *3.15. Dünyanın 7 möcüzəsi*

**I möcüzə. Misir ehramları və Sfinks**

Dünyanın 7 möcüzəsindən biri daşdan düzəldilmiş bu nəhəng tikililər - Misir fironlarının sərdabələri təqribən 5 min il əvvəl Qədim Misirdə yaradılmışdır. Fironların hakimiyyəti hədsiz-hüdudsuz idi, onları allahlara bərabər tuturdular. Möhtəşəm sərdabələr fironların ölümündən sonra da onların hakimiyyətinin əzəmətini xatırlatmalı idi. Ehramlardan ən böyüyü firon Xeopsun hökmü ilə ucaldılmışdır.




Onun hündürlüyü 146.6 metr olub, təqribən eramızdan əvvəl 28-ci əsrdə tikilmişdir. Misirin qızmar günəşi altında minlərlə qul daş alətlərlə (dəmir və tunc o dövrdə məlum deyildi) nəhəng qayaları sındırırdı. Sonra onlar bu qaya parçalarını kəndirlərlə dartıb tikinti yerinə aparırdılar. Ehramlar ucaldıqca onları daha yuxarı qaldırmaq lazım gəlirdi. Adları tarixdə qalmış ehram inşaatçıları aclıqdan və dözülməz zəhmətdən məhv olurdular. Firon Xefrenin ehramı ondan 2 metr alçaqdır. Bu fironu dağ boyda sərdabə qane etməmiş və o, sərdabənin yanına bütöv qayadan yonulmuş daş "keşikçi" qoymağı əmr etmişdir. "Keşikçi" insan başlı və aslan bədənlidir. O, Sfinks adlanır.

**II möcüzə. Semiramidanın asma bağları**



Dünyanın ikinci möcüzəsi olan Semiramidanın asma bağları Qədim şərqin böyük və zəngin şəhəri olan Babildə yerləşmişdi. Əfsanəyə görə bu bağlar Assuriya məlikəsi Semiramidanın əmri ilə yaradılmışdı. Əslində isə bu bağlar eramızdan əvvəl VIII əsrdə firon Navuxodonosorun əmri ilə salınmışdı. Fironun sarayı yerdən altımərtəbəli ev hündürlüyündə qaldırılmış süni meydançada tikilmişdi. Bu meydançada 6 cərgə pilləvarı terras (səki) qalxırdı. Kərpicdən tikilən sıra tağlar üzərində qurulmuş bu terraslardan hər birinin üstünə torpaq tökülmüş və bağ salınmışdı. Pilləvarı bağları əmələ gətirən bu terraslar yuxarıdakı sarayla birlikdə nəhəng bir dağa bənzəyirdi. Yüzlərlə qul gecə-gündüz dəri tuluqlar asılmış nəhəng çarxları fırladaraq, Fərat çayından asma bağlara su qaldırırdı.

**III möcüzə. Artemidanın Efes şəhərindəki məbədi**

Qədim yunan ilahəsi Artemidanın Kiçik Asiyanın Efes şəhərindəki məbədi dünyanın üçüncü möcüzəsi sayılırdı. Bu məbəd təxminən 120 ilə tikilmiş və eramızdan əvvəl təqribən 550-ci ildə hazır olmuşdu. Məbəd özünün gözəl naxışları və çoxlu qiymətli əşyaları ilə məşhur idi. Eramızdan əvvəl 356-cı ildə Herostrat adlı bir nəfər şöhrətlənmək istəyərək, məbədi yandırmışdı. Bundan sonra Herostratın adı mənasız barbarlıq rəmzi olmuşdur.

**IV möcüzə. Olimpiyadakı məbəddə Zevsin heykəli**



Yunanıstanın cənubunda, Olimpiya oyunlarının vətəni olan Olimpiyadakı məbəddə qədim yunanların baş allahı Zevsin heykəli vardı. Təxminən 2500 il bundan qabaq, eramızdan əvvəl V əsrdə dahi heykəltəraş Fidi tərəfindən yaradılmış bu heykəl dünyanın dördüncü möcüzə sayılır. Qızıldan, fil sümüyündən və qarağacdan düzəldilmiş, qiymətli daş-qaşlarla bəzədilmiş 14 metrlik nəhəng heykəl Zevsi taxtda oturmuş vəziyyətdə təsvir edirdi. Onun başında qızıldan düzəldilən zeytun budaqlarından hörülmüş çələng (bu, zəhmli allahın sülhsevər olmasına işarə idi) vardı. Zevsin başı, çiyinləri, qolları, sinəsi fil sümüyündən yonulmuşdu. Sol çiyninə saldığı bürüncəyi (plaşı), saçları və saqqalı isə qızıldan idi. Fidi Zevsə nəcib insan görkəmi vermişdi. Zevsin saqqalı və qıvrım saçlarla haşiyələnmiş sifəti təkcə ciddilik yox, həm də xeyirxahlıq təsiri bağışlayırdı.



**V möcüzə. Halikarnasda Mavsolun məqbərəsi**



V möcüzə Kiçik Asiyada Kariya padşahlığının paytaxtı Halikarnasda (Türkiyənin indiki Bodrum şəhəri) olmuşdur. Bu, Kariya padşahı Mavsol üçün onun dul arvadı Artemisiyanın eramızdan əvvəl IV əsrin ortalarında tikdirdiyi əzəmətli məqbərə idi. Üçmərtəbəli məqbərənin birinci səviyyəsini ağ mərmərdən relyef zolağı əhatə edirdi, ikinci yarus yaraşıqlı mərmər sütunlardan, üçüncü yarus isə ehram şəkilli mərmər damdan ibarət idi. İkinci Mavsol və Artemisiyanın mərmər heykəlləri olan dördatlı araba Halikarnas məqbərəsini tamamlayırdı (Mavsolun və Artemisiyanın heykəlləri, həmçinin məqbərənin digər bəzək şeyləri Londondakı Britaniya muzeyində saxlanılır). “Mavzoley” sözü Mavsolun adından yaranmışdır.



**VI möcüzə. Rodos nəhəngi**

E. ə. III əsrdə sərkərdə Demetri Rodos adasına hücum edir. Lakin Demetri azadlıqsevər rodosluları məğlub edə bilmədi. Adanın uğurlu müdafiəsi şərəfinə rodoslular adada dünyanın ən böyük heykəlini qoymağa qərara aldılar. Heykəltəraş Xarosun yaratdığı və “Rodos nəhəngi” adlanan bu heykəl altıncı möcüzə idi. Dənizdə şəhər darvazaları arasındakı bazar meydanında qoyulmuş 36 metrlik tunc heykəldə gənc oğlan təsvir olunmuşdu. Onun möhkəm ayaqları azacıq aralanmış, sağ əli gözlərinin üstünə qaldırılmışdı. Başında günəş şüalarının rəmzi olan tac vardır. Bu, günəş allahı Heliosun təsviri idi. Ada sakinləri onu öz himayəçisi sayırdılar.

**VII möcüzə. İsgəndəriyyədəki mayak**



E. ə. təqribən 280-ci ildə Nil çayının mənsəbindəki Faros adasında (İsgəndəriyyə şəhərinin kənarında) memar Knidli Sostrat qədim yunanının ən böyük mayakını tikmişdi. Dünyanın yeddinci “möcüzəsi” sayılan üçyaruslu bu qüllənin hündürlüyü 120 metrə çatır. Onun zirvəsindəki daş köşkdə gəmilərə yol göstərən tonqal yanırdı.

Nəhayət, Dubayda “Cumeyr Palma adası” dünyanın VIII möcüzəsi hesab olunur.

## *3.16. MALAYZİYA*

**Ərazisi: 336.4 min kv km (dünyada 64-cü yer).**
**Əhalisi: 22 mln nəfər (dünyada 46-cı yer - 2000).**
**Paytaxtı: Kuala-Lumpur (2 mln nəfər -2000).**
**Dövlət dili: malay dili.**
**Din: islam.**
**Milli pul vahidi: rinqqit (Malayziya dolları).**



Cənubi Çin dənizi Malayziyanı iki hissəyə ayırır. Ölkə ərazisi Malakka yarımadasında yerləşən qərb, Kalimantan (Borneo) adasının şimal-qərbində yerləşən şərq hissələrindən ibarətdir. Ölkədə qızmar, rütubətli tropik iqlim hökm sürür. Malayziya dağlıq ölkədir. Borneo adasının şərqində Kinabalu (4101) zirvəsi ucalır. Ölkə ərazisinin ¾ hissəsi həmişəyaşıl tropik bitkilərlə (15 mindən yuxarı bitki və ağac növləri) örtülüdür.

Sahilyanı ərazilərdə manqro meşələri, düzənlik və dağ yamaclarında meşələr bitir. Malayziyada palma ağacının müxtəlif növləri,

bambuk, manqo, ananas, və s. kimi tropik meyvə ağacları, səhləb çiçəyi geniş yayılıb. Heyvanat aləmi zəngindir.

Şərq sahilində, Trenqand ştatında nəhəng dəniz çanaqlı bağaları məskən salıb. Malayziyada çoxlu parklar və qoruqlar fəaliyyət göstərir.

Ölkədə külli miqdarda "çandi" məbədləri xarabalıqları mövcuddur, bu isə Malayziyanın qədimdə Şrivaçaya və Macanahita imperiyasına mənsub olduğuna dəlalət edir. Arxeoloji qoruq-park statusu almış Buçanq vadisində belə xarabalıqlar daha çoxdur.

XV əsrdə Malakka sultanlığının yüksəlişi müşahidə olunur. XVI əsrdə ölkə Portuqaliya müstəmləkəsi olur, 1641-ci ildə hollandların, XVIII əsrdə isə ingilislərin əlinə keçir. 1914-cü ildə ingilislər ölkəni tamamilə tabe edirlər. Həmin dövrdən ölkəni Malayya adlandırırlar. 1957-ci ildə Malakka yarımadasında müstəqil federasiya elan olunur, 1957-ci ildə adını dəyişərək Malayziya federasiyası adlanır. Borneo adalarındakı sabiq ingilis müstəmləkələri Sabah, Sayavak və Sinqapur onun tərkibinə daxil olur. 1965-ci ildə Sinqapur öz müstəqilliyini elan edərək federasiyadan çıxır.

Malayziya çoxmillətli dövlətdir. Malay, Dayak, İban, kadazan, senon və b. yerli millətlər federasiya əhalisinin 59 %-i təşkil edir. XIX əsrdə ingilis müstəmləkəçiləri qalay mədənləri və kauçuk plantasiyalarında işləmək üçün ölkəyə Çin və Hindistandan ucuz fəhlə qüvvəsi cəlb edirlər. Hazırda çinlilər əhalinin 26 % - ni, Cənubi Asiya ölkələrindən gəlmələr – 15 % -ni təşkil edirlər.

Malayziya 13 ştatdan ibarətdir, hər ştata irsi sülalələrdən olan hökmdarlar (sultan, racə) rəhbərlik edir. Hər 5 ildən bir bu hökmdarlar sırasından federasiyanın Ali hökmdarı seçilir. Dövlət dini İslamdır.

Lakin mütləqiyyət ölkənin inkişafı üçün maneə deyil. Malayziya mühüm iqtisadi göstəricilərə görə yeni sənaye ölkələri sırasına daxildir, mikroprosessor və kondisioner istehsalına görə dünyada 1-ci yerdə gedir. Malayziyada "Proton Saqa" milli avtomobili istehsal olunur, onu Avropaya və Rusiyaya ixrac edirlər. Malayziyanın bir çox sənaye sahələri ümumdünya əhəmiyyətlidir. Ölkə palma yağının istehsalına görə dünyada 1-ci, maye qaz və təbii kauçuk istehsalına görə 3-cü yerdə gedir.



MALAYZİYANIN FƏXRİ - "ƏKİZ QÜLLƏ" GÖYDƏLƏNİ

Ölkədə turizm güclü inkişaf edir. Hind okeanının inciləri olan Tinanq və Lanqkavi adaları, habelə tarixi Malakka şəhəri, milli park və qoruqlar başlıca turizm mərkəzləridir.

Ölkənin paytaxtı 1857-ci ildə salınmış Kuala-Lumpur şəhəridir. Şəhərin görkəmi XX əsrin sonundan sürətlə dəyişir. 1998-ci ildə burada Cənub-şərqi Asiyanın ən gözəl aeroportu sayılan beynəlxalq aeroportun açılışı olmuşdu. Hündürlüyü 452 m olan qoşa göydələnlər, telestansiya qülləsi şəhərinin yaraşığıdır. Eyni zamanda qədim tikililər də qorunub saxlanılır. Sultan sarayı, əzəmətli görüşünə görə heç də ondan geri qalmayan dəmiryol vağzalı, məscid minarəsi paytaxta xüsusi gözəllik verir. Şəhərin mərkəzində yerləşən Gülüstan parkı, parlament binası və Milli muzey turistləri özünə cəzb edir.

Cənubi Çin memarlıq üslubunda tikilmiş çinli məhəllələri az qala şəhərin mərkəzindədir. Bu guşə səs-küylü bazarlar, o cümlədən milli sənət məmulatları bazarı ilə məşhurdur. Şəhərin kənarında Hind məbədi yerləşir, zəvvarlar məbədə daxil olmaq üçün pilləkənlə 287 pillə qalxmalı olurlar.

Malayziya müstəqil siyasət yürüdür. Ölkədə ədəbiyyat və incəsənət dolğun inkişaf edir.

Lanqkavi adasında beynəlxalq incəsənət mərkəzi fəaliyyət göstərir, paytaxtda ildə 1-2 dəfə beynəlxalq poeziya festivalları keçirilir.

Ənənəvi mədəniyyət əsasən ölkənin şərqində qorunub saxlanılıb, burada vayanq kölgələr teatrları, banqsavah malay operası, qədim qasinq oyunu yarışları keçirilir, təntənəli malay toy mərasimi isə əfsanəvi tamaşa təsəvvürü yaradır.

Nikah mərasimi gəlinə baxışdan başlanır.

Qız təvazökarlıq, səmimiyyət, mehribanlıq kimi yüksək xassələrini nümayiş etdirməklə yanaşı xörək bişirmək, paltar tikmək, evi bəzəmək kimi bacarıqlarını



KUALA-LUMPUR

da göstərməlidir. Əgər qızı bəyənsələr, evlərinə elçi göndərirlər. Qızın ata-anası münasibətlərini bir neçə gündən sonra açıqlayırlar. Dərhal rədd cavabı vermək təhqir sayılır. Ani razılıq da adətdən kənardır. Cavab elçi vasitəsi ilə verilir. Qərar müsbət olsa cehizin qədəri və toyun günü müəyyən olunur. Rədd cavabını alan cavana yalnız qızı qaçırmaq və ya onun qapısına düşmək qalır. Çox vaxt valideynlər təslim olurlar, çünki adətə görə qapılarında "lövbər salmış" cavan oğlanı yedizdirib-içirtdirməlidirlər.



KUALA-LUMPUR

Toy ərəfəsində bəy və gəlinə xına yaxırlar, qızılı və gümüşü toy paltarları geyindirirlər. Üç pilləli taxtı xatırladan toy yatağını ipək, məxmər parçalar, kağız çiçəklər və xırda çıraqlarla bəzəyirlər. Gəlin təvazökarlıqla baxışlarının yerə dikib taxtdan solda əyləşərək bəyi gözləyir. Qohum və dostlarının müşayiəti ilə, sarı çətir altında bəy daxil olur. Təbillər çalınır, ərəb mahnıları ifa olunur.

Qonaqlar gəlinə toy hədiyyələri bağışlayırlar.

Gəlinin qohumları olan gənclər yalnız bəydən bəxşişlər aldıqdan sonra onu içəriyə buraxırlar. Toy yatağı yanında bəxşişi ondan qızlar, yataqda isə qızın anası tələb edir. Ana əsas toy ayinini ifa edir, mərasimə uyğun olaraq cavanların hər birinin ovcuna bir çimdik bişmiş zəfəranlı düyü qoyur. Sonra bəy və gəlin bir-birlərini birbaşa ovucdan yedirdirlər, bununla ömürlərinin sonuna qədər bir-birlərinin qayğısına qalacaqlarına vəd vermiş olurlar.

Əhalisi 1.7 mln nəfərdən çox olan, yaşıllığa bürünmüş ölkə paytaxtı Kuala-Lumpurda gecə-gündüz həyat qaynayır. Şimali Hindistandakı Moqul məscidinin layihəsi üzrə 1909-cu ildə inşa edilmiş Ceymi məscidi, malay ənənəsinə uyğun dam örtüyü ilə örtülmüş, girişinin hər iki cinahı əzəmətli mozaika ilə bəzədilmiş milli muzey paytaxtın memarlıq inciləridir. Kral sarayı əsrarəngiz memarlığı və nəfisliyi ilə seçilir. Kauçuk plantasiyalarına, botik, qalay məmulatı istehsal edən fabriklərə, əqrəb yetişdirən fermalara, şəhərətrafı ekskursiyalar təşkil olunur. Turistlər Botu mağaralarında ucaldılmış saysız-hesabsız Hind ilahələri fiqurlarını, maraqlı sərgi salonlarını görmək üçün 272 pillə dağa qalxırlar. Hündürlüyü 452 m olan 88 mərtəbəli iki göydələni birləşdirən, uzunluğu 58 m olan hava körpüsü şəhər möcüzələrindən biridir. Körpü göydələnlərin 41 və 42-ci mərtəbələri arasında tikilib. Mimalend istirahət parkı 300 akr-lıq sahədə yerləşir. Burada nəhəng hovuzda üzmək, qayıqda gəzmək, balıq tutmaq olar. Kölgəli guşələr gəl-gəl deyir. Zooparkda 200 növdə vəhşi heyvan, sürünənlər və balıqlar nümayiş etdirilir. Şəhər kənarında Səbanq çayı adlanan yerdə tamamilə su aləminə həsr edilmiş "Sanu Laqun" su parkı yerləşir. Lakin İlan Məbədinə səyahət ekzotik ekskursiyaların zirvəsi sayılır. Ətir saçan mehrabda saysız-hesabsız ilanlar qıvrılıb yatır. Onların əksəriyyətinin zəhər vəzisi çıxarılsa da, bu onları heç də təhlükəsiz etmir. Görünür ətirli maddələr onlara keyidici təsir göstərir. Geytinqdə, dəniz səviyyəsindən 2000 m yüksəklikdə tikilmiş Şri Maharnamanu Hind allahına həsr olunmuş məbədin möcüzəli, sirli təsiri heç bir turisti laqeyd qoymur. Təriqətin müqəddəs sirləri ziyarətçini duman kimi ağuşuna alır. Bu heyrətamiz ekskursiya bir gün davam edir. Geytinq dağlarda yeni istirahət ocağıdır. Malayziyada işləyən yeganə kazino burada yerləşir. Kuala-Lumpurdan 150 km aralı, 5000 illik tarixi olan, ölkənin keçmiş paytaxtı qədim Malakka şəhəri yerləşir. Lankavi adasının şimal-qərbində yerləşən Lankavi Telaqa Tuxuh (yeddi quyu) təbiətin möcüzəsidir. Yeddi quyu yeddi göl yaradan yeddi bulağın qovuşduğu şəlalədir. Gölləri əhatə edən insan ayağı dəyməmiş çəngəlliklər bu yerdə ecazkar təsəvvür yaradır.



Yerli rəvayətlərdə deyilir ki, bu göllərə sehrli pərilər çimməyə və əylənməyə uçub gəlir, hövsələsi olan hər kəs onları güdüb görə bilər. Bu şərəfə nail olanlardan hər birinin arzusu gerçəkləşir.

Turistlər dənizdə qısa səyahətdən sonra sehrli mağaraya daxil olurlar. Bu mağaralar haqqında əfsanələr gəzib dolaşır. Mağara divarlarında qədim yazılar həkk olunub, yazıların açıqlanması hələ qabaqdadır.



Lankavi adasında, Pantay Çelanqda, sualtı aləmlə tanış olmaq mümkündür. Burada sualtı aləmi 5 min növ dəniz, çay və göl heyvanları və balıqları təmsil edir. Dəniz yosunları və mərcan növlərinin sayı-hesabı yoxdur.

20 akr sahədə yerləşən timsah fermasında mindən çox timsah bəsləyirlər. Turistlərə «timsah attraksionlarının» tamaşaçısı olmaq təklif olunur.

Malayziyada hava bütün il boyu isti keçir, havanın orta illik hərarəti 25-28º C arasında dəyişir. Yağış mövsümü aprel-may və oktyabr-yanvar aylarına təsadüf edir.

Malayziyaya gələn qonaqların 30 %-i Yaponiya, Çin, Cənubi Koreya, Tayvan, Tailand, Sinqapur və başqa bölgədaxili ölkələrdən gələn qonaqlar təşkil edir.

Malayziya ən çox Sinqapur turist bazarından asılıdır. 2001-ci ildə ölkəyə gələn qonaqların 58.3 %-i məhz Sinqapurdan idi. Sinqapurdan sonra Tailand (9.3%), Yaponiya (7.1%) və Avropa ölkələri (7 %) gəlir. Çin və Tayvandan gələn qonaqların da sayı surətlə artır.

Yüksək iqtisadi inkişaf sayəsində ölkə sakinləri çoxlu səyahət etmək imkanı qazanıblar. Malayziya sakinləri ən çox Sinqapur, Tailand və İndoneziyaya istirahətə gedir və alış-veriş məqsədli səfərə çıxırlar. Bu isə yerli əhalinin rifahının yüksəlməsinə, habelə dövlət büdcəsinə xarici valyutanın mədaxilinə müsbət təsir edir.

## 3.17. İSPANİYA

| | |
|---|---|
| **Ərazisi** | **505.9 min kv km (dünyada 50-ci yer).** |
| **Əhalisi** | **40 mln nəfər (dünyada 28-ci yer-2000).** |
| **Paytaxtı** | **Madrid (4.1 mln nəfər -2000).** |
| **Dövlət dili** | **ispan dili.** |
| **Din** | **katolisizm.** |
| **Milli pul vahidi** | **ispan pesetası.** |

İspaniya krallığı Cənub-Qərbi Avropada dövlətdir. Ölkənin adı Finikiya dilində "İ-Şpanin" sözündən götürülüb, "dovşanlar sahili" bildirir.Pireney yarımadasının çox hissəsini, Aralıq dənizində Balear və Pitius adalarını, Atlantik okeanında Kanar adalarını əhatə edir. Sahəsi 504.8 min $km^2$, əhalisi 39.1 mln nəfərdir, 72 %-i ispanlar, həmçinin katalonlar, qalisiyalılar, basklardır. Rəsmi dil ispan dilidir. Milli pul vahidi ispan pesetasıdır. Əhalisinin 97 %-i katoliklərdir. İdarəetmə forması konstitusiyalı monarxiyadır. Dövlət başçısı kraldır. Qanunvericilik orqanı senat və Deputatlar konqresindən ibarət ikipalatalı parlamentdir (korteslər), paytaxtı Madrid şəhəridir.



MADRİD

Ölkədə Xalq partiyası (1976), İspaniya Sosialist Fəhlə partiyası (1879) İspaniya Kommunist partiyası (1920), Radikal sol partiya (1905) və daha 500-ə yaxın siyasi partiya fəaliyyət göstərir.

İspaniyanın ərazisi 50 mahalı əhatə edən Andaluziya, Araqon, Asturiliya, Balear adaları, Valensiya, Qalisiya, Kanar adaları, Kantabriya, Kastiliya, Lamança, Kastiliya-Leon, Kataloniya, La-rioxa, Madrid, Mursuya, Navarra, Basklar ölkəsi, Estrmadura kimi 17 vilayətdən ibarətdir.

Ölkə ərazisinin 65 %-dən çoxu dəniz səviyyəsindən 500 m yüksəkdə yerləşən ərazilərdə yaşayır. İspaniyanın ən yüksək dağ zirvəsi Syerra-Nevada silsiləsindəki Mulasen dağıdır (3478 m). Ölkənin mərkəzi hissəsini Meseta yaylası (hündürlüyü 600-l000 m) tutur. Ölkənin Şimal və Şimal-qərbində Pireney və Kantabriya dağları yüksəlir. İspaniya ərazisinin 10 %-i ovalıqlardır. Şimal və Şimal-qərbdə rütubətli, mülayim okean iqlimi, qalan rayonlarda subtropik Aralıq dənizi iqlimi hökm sürür. Orta temperatur yanvarda Meseta yaylasında 4-5° C-dən cənubda 23-29° C-yə qədər olur. İllik yağıntı 300-500

mm, dağlarda 1000 mm təşkil edir. Taxo, Duero, Qvadalvivir, Qvadiana ən iri çaylarıdır. Ərazisinin 10 %-ni meşələr tutur.

İspaniya portağal yığımına görə Avropada İtaliyadan sonra 2-ci yeri tutur. Ölkədə üzümçülük, tərəvəzçilik inkişaf edir, qarğıdalı, badam, xurma, şəkər, tütün, pambıq, mantar tədarükü və ixracı iqtisadiyyatda mühüm yer tutur. Ətlik-südlük heyvandarlıq, qoyunçuluq inkişaf etdirilir, korrida üçün döyüş kəlləri yetişdirilir.

Ayrı-ayrı əyalətlərin musiqisi bir-birindən fərqləndiyindən ispan musiqisi üçün ritm zənginliyi, rəqs formalarının müxtəlifliyi səciyyəvidir. İberlər, ərəblər, qaraçılar və b. İspaniyanın qədim mədəniyyəti və musiqisinin varisləridir. VIII-XV əsrlərdə İspaniyada hökmranlıq edən ərəblər və XV əsrdə ölkənin cənubuna köçən qaraçı tayfalarının sayəsində ispan musiqisində Şərq koloriti daha da güclənir.



İSPANİYA. KORRİDA

İspan musiqisi özünü ən çox Andaluziya flamenqo üslubunda göstərir. Burada mahnı oxumaq, gitarada çalmaq və rəqs etmək geniş yayılıb. XIX əsrdən başlayaraq bəstəkar yaradıcılığı vüsət alır. Məşhur ispan rejissorları L. Bımyel, X. A. Barden, aktyorlar X. Mistral, K. Montes, S. Montieli kino sənətini inkişaf etdirməyə başlayırlar.

İspaniyada külli miqdarda kitabxanalar, muzeylər, 39 universitet fəaliyyət göstərir. Ən qədim universitetlər Salamendə və Valyadoliddə yerləşir. Valyadolid universiteti 1346-cı ildə tikilmişdir.

Madriddə yerləşən Prado muzeyi, Milli Arxeologiya muzeyi, Rəsm qalereyası, XII əsrə aid Plaza kompleksi, barokko üslubunda tikilmiş El-Real San-Antonio de la Florida sarayları, San Xines və San İsidoro kilsələri, Fransisko Qoyanın əsərləri ilə bəzədilmiş de-Ermite kilsəsi böyük şöhrət qazanmışdır. Madriddə turistlərin böyük marağına səbəb olan hörmələrin, yelpiklərin dəzgah istehsalı təşkil olunub. Figerasda yerləşən Salvador Dali muzeyi, Jeronda fəaliyyət göstərən Arxeologiya muzeyi, Barselonadakı Dəniz muzeyi, "Rip" xristian muzeyləri xarici qonaqların diqqətini cəlb edir.



MADRİD. PRADO MUZEYİ

İspaniyada hər il külli miqdarda festivallar, yarmarkalar və karnavallar keçirilir. Hər il Valensiya şəhərində keçirilən əzəmətli və şən San-Xose karnavalı xüsusi şöhrət tapıb.

711-718-ci illərdə ərəblər İspaniyanın, demək olar ki, bütün ərazisini işğal edirlər. Rekonkista gedişində (718-1492) Arqon, Kastiliya və başqa kiçik ispan krallıqları yaranır, 1479-cu ildə Kastiliya-Araqon uniyasının yaranması ilə İspaniyanın vahid dövlət kimi birləşməsinin başlanğıcı qoyulur.

XVI əsrdə İspaniyada mütləqiyyət bərqərar olur. XVI əsrin əvvəllərində İspaniya müstəmləkə dövlətinə çevrilir. XVI-XVII əsrlərdə İngiltərə ilə müharibələrdə İspaniya dənizlər məmləkəti mövqeyini itirir. XVIII əsrin əvvəlində İspaniya taxt-tacına sahib olmaq üçün Avropa sülalələri arasında mübarizə İspaniya irsi uğrunda müharibəyə (1701-1714) gətirib çıxartdı. XIX əsrdə İspaniyanı inqilab dalğaları (1808-1814, 1820-1823, 1834-1843, 1854-1856, 1868-1874 illərdə) bürümüşdü. 1810-1826-cı illərdə İspaniyanın Latın Amerikasındakı müstəmləkələrinin əksəriyyəti istiqlaliyyət qazandı. 1923-cü ildə İspaniyada hərbi monarxiya diktaturası quruldu. 1931-ci il aprelin 14-də monarxiyanın devrilməsi İspaniya inqilabının (1931-39) başlanğıcını qoydu. İnqilabın gedişində İspaniya Kommunist partiyasının (1920-ci ildə təsis olunmuşdu), İspaniya sosialist fəhlə partiyasının (1879-cu ildə yaranmışdı) və s. iştirakı ilə Xalq Cəbhəsi yarandı. Vətəndaş müharibəsi general Frankonun faşist diktaturasının (1936-1939) qələbəsi ilə nəticələndi. 1947-ci ildə İspaniya krallıq elan olundu. 1955-ci il dekabrın 14-dən BMT-nin üzvüdür. 1975-ci ilin noyabrında Frankonun ölümündən sonra Burbonlar sülaləsindən olan kral Xuan Karlos taxta çıxdı. İspaniyada siyasi həyat demokratikləşdirilməyə üz qoydu, Milli Hərəkat Partiyası və digər partiyalar leqal fəaliyyətə başladılar. 1978-ci ilin dekabrında qüvvəyə minən yeni konstitusiya vahid dövlət çərçivəsində basklar ölkəsinin, Kataloniya, Andaluziya, Qalisiya, Asturiya, Valensiya, Kantabriya, Mursiya, Kastiliya-Mona, La-Rioxi, Kanar adaları, Araqon, Kastiliya-La-Manq, Navarra əyaləti, Madrid

şəhəri, Estremadura və Balear adalarının muxtariyyətini təsbit etdi. İspaniya 1977-ci ildə Avropa Şurasına, 1982-ci ildə NATO-ya, 1986-cı ildə Avropa Birliyinə üzv qəbul olundu.

İspaniya aqrar-sənaye ölkəsidir. Adambaşına düşən ümummilli gəlir 14030 $ təşkil edir. Daş kömür, civə, pirit çıxarılır. Maşınqayırma (o cümlədən avtomobilqayırma, gəmiqayırma və dəzgahqayırma, hesablama texnikası istehsalı) və metallurgiya, sement, toxuculuq, dəri ayaqqabı, tamlı məhsullar istehsalı sənayenin aparıcı sahələri sayılır. İspaniya zeytun yağının (ildə 400 min ton), şərab, meyvə-tərəvəz və balıq konservlərinin dünyada ən böyük istehsalçılarından və ixracatçılarından biridir.

İspaniyada keçirilən xüsusi bayramlardan biri də öküz döyüşləri olan korridadır. Korrida oyunlarının mərkəzi Sevilyadır.

Barselonada keçirilən kitab və qızılgül bayramları diqqəti cəlb edir, köhnə mebellərin yandırılması ənənəsi xarici qonaqların heyrətinə səbəb olur. Krallar şənliyi sayılan Kabalqata de Reyes bayramı yanvar ayına təsadüf edir. Üzüm yığımı münasibəti keçirilən Xeres-de La-Frontera bayramı ispanların sevimli bayramlarından biridir.

Xaricdən gələn turistlərin sayına görə İspaniya Fransadan sonra ikinci yeri tutur. Turizm üçün əlverişli şəraitə malik olan ölkə 1998-ci ildə 47 mln qonaq qəbul etmiş, hazırda dünyanın ən tanınmış turizm mərkəzlərindən birinə çevrilmişdir.

I və II dünya müharibələri illərində İspaniya turistləri cəlb etmirdi. Keçən əsrin 50-ci illərində avtomobilçi turistlərin ilk dalğası Fransadan Kosta-Brava sahillərinə gəldi. Sonra turizm surətlə inkişaf etməyə başladı. 1959-cu ildə turistlərin sayı 4.19 mln-a çatdı. İspaniya hökuməti turizmin inkişafı üçün müxtəlif tədbirlər gördü. Mehmanxana tikintisi üçün kreditlər ayrıldı. Dövlət və özəl şirkətlər tərəfindən kapital qoyuluşu nəticəsində mehmanxanaların sayı 10 il ərzində 3 dəfə artdı. İnşaatın surətli artımı iqtisadiyyatın digər sahələrinin inkişafına, ilk növbədə tikinti materiallarının istehsalına təkan verdi. 1959-cu ildə İspaniyanın pul vahidi devalvasiyaya uğradı. Nəticədə İtaliya və Fransa sahillərinə nisbətən İspaniya turizm üçün daha cazibədar mərkəzə çevrildi.

İspaniyaya turistlər əsasən Fransa, Almaniya, Niderland, İtaliyadan gəlirlər. 1982-1990-cı illərdə bu ölkələrdən turist axınları nisbətən azaldı, 1991-1992-ci illərdə yenidən artdı. Böyük Britaniya istisna təşkil edirdi. 1988-ci ildə Böyük Britaniyadan gələn turistlərin sayı 7.6 mln, 1991-ci ildə 6.1 mln nəfər təşkil etmişdi.

90-cı illərdə ingilislər İspaniyada öz turizm mərkəzlərinin yaradılmasına 1.9 mln funt sterlinq sərmayə qoydular. 1991-ci ildə 22.7 mln turist əsasən Aralıq dənizi sahillərində yerləşən mehmanxana və düşərgə şəhərciklərinin qonağı oldu. Elə həmin ildə 12.5 mln ispan turisti qeydə alınmışdı. Təkcə Valensiya əyaləti bütün ölkədaxili turistlərin 15.7 %-ni qəbul etmişdi. Ondan sonra Andaluziya və Kataloniya gəlirdi.

İspaniyada idman digər sahələr kimi dövlətin xüsusi maraq dairəsindədir. Müxtəlif idman növləri inkişaf etmiş və böyük nailiyyətlər əldə olunmuşdur. Futbol, tennis, voleybol, həndbol, basketbol, buz üzərində və otüstü xokkey, su polosu, dama, şahmat və s. idman növləri ölkədə böyük nüfuz qazanmışdır. Avropada, eləcə də dünyada çox məşhur idman növü sayılan futbol İspaniyada da geniş yayılmış populyar idman növlərindəndir. İspan futbol klubları və milli komanda beynəlxalq yarışların daimi iştirakçılarıdır.

İspaniyanı əcdadlar ölkəsi adlandırırlar. XV əsrdə Pireney yarımadasında mövcud olan feodal dövlətlər birləşir, həmin dövrdən ispan milləti formalaşmağa başlayır. İspan dili Hind - Avropa dilləri ailəsinə mənsubdur. İspan dillində təsadüf edilən yunan, latın, qədim german və ərəb sözləri ölkənin zəngin tarixi ilə bağlıdır.

XV-XVI əsrlərdə ispanlar Amerika torpaqlarında müstəmləkələr salırlar. Cənubi, Mərkəzi və Şimali Amerikada ispanlar yerli hindu qəbilələri, habelə zəncilərlə qarışır, tədricən bütün Latın Amerikası millətləri üçün etnik təməl rolunu oynayırlar (argentinalılar, venesuelalılar, kolumbiyalılar, çilililər və b.). İspan dili Braziliya istisna olmaqla, Cənubi Amerikada geniş yayılır. Hazırda ispan dilli xalqların əhalisinin ümumi sayı 300 mln təşkil edir.

İspanlar xasiyyətcə ciddi, nəzakətli, ünsiyyət üçün açıq insanlardır. Milli xasiyyətin təhlilində ölkənin zəngin tarixi nəzərə alınmalıdır. Ölkə dəfələrlə müxtəlif işğalçıların tapdağı olub. Hər işğalçı yeni paytaxtda varid olurdu. Roma dövründə Merida, vest-qotlar dövründə - Toledo, ərəblərin dövründə - Kordova, mavr hakimiyyəti dövründə Qranada paytaxt şəhəri olur. Hazırda İspaniyanın paytaxtı Madrid şəhəridir. Qədim ispan şəhərlərinin memarlığında Roma, qotik, İntibah, barokko üslubları bir-birini əvəz edir. VIII əsrdən başlayaraq güclü Mavritaniya təsiri yer alır.

İspaniya 17 əyalətdən ibarətdir. 10 əyalətin, o cümlədən Madridin daxil olduğu Mərkəzi İspaniya yüksəklikdə yerləşdiyindən iqlimi sərt keçir, torpaqları bağçılıq və üzümçülük üçün az yararlıdır.

Madrid qədim Kastiliya şəhəri, biznes və incəsənət mərkəzidir. Külli miqdarda muzeylər, tarixi abidələr, saraylar qədim dövrlərin güzgüsüdür.

Romantizm muzeyi, Lasaro Qardiano muzeyi, Prado incəsənət və heykəltəraşlıq muzeyi bütün dünyada məşhurdur. Görkəmli ispan sənətkarları El Qreko, Rivera, Surbaran, Velaskes, Qoyanın əsərləri, italyan sənətkarları Rafael, Tisiyanın əsərləri incəsənət muzeylərinin yaraşığıdır. Dahi Servantesə, habelə Kolumba həsr olunmuş abidələr paytaxta xüsusi gözəllik verir.

Madrid okean səviyyəsindən 630 m yüksəkdə Syerra-de-Qvadarrama dağlarının ətəyində yerləşir. Qamətli çinarların yüksəldiyi geniş şəhər xiyabanları gözəl abidələrlə bəzədilmiş yaraşıqlı meydanlarda kəsişir. Müxtəlif memarlıq üslubunda inşa edilmiş nəhəng binalar şəhərin qonaqlarını heyrətə gətirir.

Madrid yaxınlığında I Filipp tərəfindən salınmış əzəmətli Eskurial saray kompleksi ispan inkvizisiya tarixinə səhifə açır. İspaniya krallarının məqbərələri, kilsələr monastır kompleksinin tərkibinə daxildir.

Madriddən cənubda, dağlar ətəyində V əsrdə bütün Pireney yarımadasını işğal etmiş qədim vest-qotların paytaxtı olmuş Toledo şəhəri yerləşir. Müxtəlif mədəniyyət və sənətkarlıq üslubları arxeologiya və sənətşünaslıq mütəxəssislərini özünə cəlb edir.

Don Kixotun vətəni Lamança əyalətində bu günə qədər külli miqdarda yel dəyirmanları qorunub saxlanıb. Kiçik pəncərələri və dəmir şəbəkələri olan alçaq qədim binaların görkəmi ötmüş əsrlər ərzində cüzi olsa da dəyişməyib. Çaydaşı döşənmiş dar küçələr orta əsrlərin yadigarıdır. Zeytun yağı, şərab saxlamaq üçün konusşəkilli nəhəng saxsı qablar kimi məişət əşyaları minillik mədəniyyətdən xəbər verir.

Ölkənin şimal-şərqində Kataloniya əyaləti yerləşir. Burada yaşayan əhalinin dili ispan dilindən xeyli fərqlənir, halbuki o da mənşəyini latın dilindən götürür. Əyalətin paytaxtı Barselona İspaniyanın ikinci iri şəhəridir. Barselona liman şəhəridir, sənayesi güclü inkişaf etmişdir. Kataloniya meyvə bağları və üzümlüklər məskənidir.

Kataloniya muxtariyyət uğrunda 150 ildir ki, mübarizə aparır.

İspaniyanın Venusiya vilayəti əlverişli iqlim mühiti ilə fərqlənir. Bağçılıq mədəniyyəti səliqə və peşəkarlıq təcəssümüdür. Ölkənin ixrac etdiyi naringi məhsulun $^3/_4$-ü əyalətin payına düşür.

İspaniyanın Cənubunda Andaluziya əyaləti yerləşir. Ərəb mədəniyyətinin təsiri ən çox burada duyulur.

Vaxtı ilə katolik kilsəsi İslam memarlıq mədəniyyəti nümunələrini xüsusi qəddarlıqla məhv edirdi, lakin Kordova və Qranada şəhərlərində addımbaşı şərq üslubuna təsadüf etmək olar.

Qranada üzərində yüksələn Alqambra sarayı XIII əsrdə inşa edilib, onun zalları, qüllələri, həyətləri nəfis ərəb yazı naxışları ilə bəzədilib.

Qranada Syerra-Nevada dağ silsiləsinin ətəyində yerləşir. Hündürlüyü 3500 m-ə çatan dağ zirvələri daim qarla örtülür.

Kordovada yerləşən VIII əsrdən qalan məşhur məscid Mavritaniya üslubunun parlaq nümunəsidir. Külli miqdarda müxtəlif rəngli yaşma, mərmər, malaxit daş sütunlar onu əhatə edir. Qədimdə bu əsrarəngiz memarlıq abidəsi daha gözəl imiş, onu xristian məbədinə çevirməyə cəhd edən katolisizm fanatikləri eybəcər hala salmışdılar. Müsəlmanlar qovulduqdan sonra 8 sütun dağıdılmış, onların yerində latın xaçşəkilli katolik kilsəsi tikilmişdi. Kordova qədimdə ərəb elminin - təbabət, riyaziyyat, astronomiya, botanika mərkəzi idi.

Mavritaniya memarlıq üslubunun digər nümunəsi Sevilya şəhəridir. Şərq mədəniyyəti ruhunda salınmış şəhər bağlarında gözəl bitkilər becərilir. Şəhər binalarının bağ və bağçalarla ahəng uyğunluğu Andaluziyanın bütün şəhərləri üçün səciyyəvidir. Bağçalar sanki binaların davamıdır. Həyətlərdə mütləq fəvvarələr qurulur və gül-çiçək əkilir. Şəhərlərin qədim məhəllələri dar küçələrdən ibarətdir. Səliqəli bəyaz evlər yastı damları və gözəl eyvanları ilə diqqəti cəlb edir.

Sevilyanın qotik üslubda inşa edilmiş kilsəsində rəsm qalereyası fəaliyyət göstərir. Eyni zamanda burada Xristofor Kolumbun kəşfləri, Maqellan, Pissaro və Kortesin yürüşləri ilə bağlı müstəsna dəyərə malik coğrafi materiallar toplanıb. Sevilya Kolumbun həyatında əlamətdar rol oynayıb. 1493-cü ildə görkəmli dəniz səyyahını məhz burada təntənə ilə qarşılamışdılar; 5 ildən sonra məhz burada Kolumb kral Ferdinand və kraliça İzabellanın qarşısında əl-qolu qandallı dayanmışdı. Kolumb Madriddən şimalda yerləşən Valyadolid şəhərində torpağa tapşırılıb. Bu şəhərin tarixi sıx surətdə ispan inkvizisiyası, kral II Filipp və qaniçən Torkvemadanın adları ilə bağlıdır. Katolik dininin qatı təəssübkeşi olan II Filipp həm ölkədaxili müxalifəti, həm də bir sıra Avropa xalqlarının milli-azadlıq hərəkatlarını amansızlıqla yatırdırdı. İnsan inkvizisiyasının rəhbəri Torkvemada 16 il ərzində katolik kilsənin şərəfinə 8 min insanı kafir adı altında tonqallarda yandırmışdı. Onun təşəbbüsü ilə 1492-ci ildə yəhudilər İspaniyadan qovulmuşdular.

İspaniyanın şimal-qərbində Qalisiya əyaləti yerləşir. Burada qədim, ilk nəzərdə ibtidai, eyni zamanda oxşarı olmayan mədəniyyət bərqərar olub. Qalisiyalılar portuqallara yaxın roman dilli millətdir.

Qalisiya ilə yanaşı Asturiya vilayəti yerləşir. Burada daş dövrünün yadigarı olan mağara ibtidai insanların qədim məskəni olub. Mağara divarlarını ibtidai insanların yaradıcılığı olan, daş dövrü ibtidai

həyat təsvirləri bəzəyir. Alçaq tavanda heyvan ovu səhnələri təsvir olunub. İbtidai dövr rəssamları qaya rəsmlərini nəmişlikdən qorumaq üçün boyaları ərinmiş piydə hazırlayırdılar, bu səbəbdən qaya üstü əsərlər minilliklər ərzində öz təravətini qoruyub saxlayıb. Mağaranın 15 min il yaşı var.

Asturiyanın qonşuluğunda Baskoniya yerləşir. Baskların əcdadı qədim iberlər hesab edilir, qədimdə onlar bütün Pireney yarımadasını zəbt etmişdilər. Bask dili ispan dilindən köklü surətdə fərqlənir. Bəzi tədqiqatçılar bask dilinin hami-sami dillər ailəsinə aid edirlər.

Kosta Brava (Qayalı sahil), sahilyanı zolaqda Rosas, Palamos, Blanes, Mataro, Badalona kurortları, Kosta Dorado (Qızıl sahil) adlanan yerdə Tarrana, Sitji kurortları, Kosta del Asandr (Portağal çiçəyi sahili) zonasında Vinaros, Benikarlo, Benikasim, Oliva, Deniya kurortları, Kosta Blanka (Bəyaz sahil) zolağında Altea, Aneles, Mohakar kurortları fəaliyyət göstərir.

Qata burnundan Malyorka burnuna qədər uzanan sahilyanı zolaq da gözəl istirahət yeri sayılır. Kosta del Sol adlanan yerdə Terramolinos və Marbelya kurortları varlı turistləri özünə cəlb edir. Məhz Marbelya Avropa kübarları və kino ulduzlarının sevimli istirahət məkanıdır.

Balear adaları rahat qumsal çimərlikləri, mülayim iqlimi, zəngin yaşıllığı ilə seçilir. Məşhur Palma, Solyer, Alkudiya, Maon, İbis kurortları Kanar arxipelaqı adaları sanki mirvari boyunbağı kimi Atlantik okeanına səpələnib. Tenerif, Böyük Kanar, Lansarote, Homera, Fyerteventura və La Palma adaları, habelə ətraf akvatoriya Atlantik okeanda ən təmiz yer kimi məşhurdur. Məhz buna görə İspaniya kralı Xuan Karlosun iqamətgahı burada yerləşir.

İspaniya iqtisadiyyatında əhəmiyyətli rol oynayan turizm 60-cı illərin ortasında 500 min nəfərlik, 1975-ci ildə 1 mln nəfərlik yeni iş yerləri açılmasına, ölkəyə valyuta mədaxilinə səbəb oldu.

1975-ci ildə xarici mədaxildən gələn gəlirin 25%-i xarici turizmin payına düşürdü. Hökumət fəal sürətdə ölkənin turizm sahəsinə dəstək verirdi. Lakin turizmin sürətli, nəzarətsiz artımı ətraf mühitə ziyan gətirdi. Turizmin Aralıq dənizi sahillərində cəmlənməsi bu bölgəyə əhali axınının güclənməsinə səbəb oldu. Bu isə ölkədəki demoqrafik vəziyyətə öz mənfi təsirini göstərdi.

İspaniyaya gələn qonaqlar əsasən Fransa, Almaniya, Niderland, İtaliyadandır. 1982-1990-cı illərdə bu ölkələrdən turist axınları nisbətən azaldı, 1991-1992-ci illərdə yenidən artdı. Böyük Britaniya istisna təşkil edirdi. 1988-ci ildə Böyük Britaniyadan turistlərin sayı 7.6 mln, 1991-ci ildə 6.1 mln. nəfər təşkil etmişdi.

Bütün bunlar İspaniyanın köhnə kurortlarında ekoloji mühitin pisləşməsi, həyat keyfiyyətinin aşağı düşməsi problemi ilə izah edilə bilər. Ölkənin bir çox, xüsusilə Britaniya bazarı ilə əlaqədar kurort rayonlarında bu mənfi proseslərə cavab olaraq ətraf mühitin saflaşmasına xüsusi diqqət yetirməyə başladılar. Avtomobil nəqliyyatı hərəkəti azaldıldı, yeni parklar salındı, ağaclar əkildi, küçələr, çimərliklər təmizləndi, yeni istirahət zonaları tikildi. Turistlərin yerləşdirilməsi üçün yeni mehmanxana və pansionatlar tikildi, əyləncə və asudə vaxtın təşkili üçün tədbirlər həyata keçirildi.

Məsələn, Benidorm Salou, Torremolinos və Balear adaları kurortları yenidən quruldu. 1992-ci ildə Barselonada Olimpiya oyunları, Sevilyada isə "EKSPO-92" ümumdünya sərgisi keçirildi. Madrid Avropa mədəniyyəti şəhəri elan edildi, halbuki şəhər memarlığında Şərq ünsürləri də az deyildi. Bütün bunlar İspaniyanın dünyanın böyük turizm ölkəsi kimi tanınmasına xidmət edirdi. Milli mədəniyyət, korrida, il boyu ardı-arası kəsilməyən karnavallarla, alovlu ispan rəqsləri ilə müşayiət olunan bayramlar, ispan səmimiyyəti və qonaqpərvərliyi xarici turistləri cəlb etməkdə davam edir.

90-cı illərdə ingilislər İspaniyada öz turizm mərkəzlərinin yaradılmasına 1.9 mln funt sterlinq sərmayə qoydular. 70-ci və 80-ci illərdə İspaniyada fəal surətdə ölkədaxili turizm inkişaf etməyə başladı. Ölkə vətəndaşları sahilyanı kurortlara gəlməyə başladılar. 1991-ci ildə İspaniyanın ölkədaxili bazarında 22.7 mln turist mehman-xana və düşərgə şəhərciklərinin qonağı oldu, bunlar da əsasən Aralıq dənizi sahillərində yerləşir. Elə həmin ildə ölkədə 12.48 mln ispan turisti qeydə alındı. Yalnız Valensiya əyaləti bütövlükdə bütün ölkədaxili turistlərinin 15.7 %-ni qəbul etmişdi. Ondan sonra Andaluziya və Katatoniya gəlirdı.

İspaniyanın Aralıq dənizyanı kurortları yerli və xarici turistləri qəbul edir, lakin onlar daxili və beynəlxalq tələbatın üst-üstə düşdüyü Fransa və İtaliya kurortları kimi tam dolmur. Bunu İspaniya kurort bazarının digər Avropa ölkələri ilə müqayisədə kiçik olması ilə izah etmək olar.

İspaniyada xaricə səyahət sahəsi zəif inkişaf edib. Lakin qonşu ölkələrə gedən turistlərin sayı durmadan artır. Məsələn, Portuqaliyaya səyahətə gedənlərin sayı 1986-cı ildə 2.5 mln nəfərdən 4.1 mln nəfərə qədər artmışdı. Avropanın ucqar rayonlarında turizm nisbətən yavaş inkişaf edir. Məsələn, Yunanıstan, Mərakeş, Portuqaliya, Tunis, Türkiyə kimi nisbətən ucuz başa gələn səyahətlərə çıxan turistlərin sayı artaraq 57 % təşkil etmişdi. Fransa, İtaliya və Böyük Britaniya kimi nisbətən bahalı ölkələrə səyahətlərin artımı aşağıdır. Hava nəqliyyatından istifadə edən ispan turistlərinin sayı cəmi 7.5 % təşkil edir. Qonşu ölkələrə səyahətə gedənlərin 90 %-i avtomobil turizminə üstünlük verir. Uzaq uçuşlardan istifadə edənlərin 40.7 %-i Kanadaya, 44 %-i Yaponiyaya gedən biznes-turistlərdir.

## *3.18. TÜRKİYƏ CÜMHURİYYƏTİ*

| | |
|---|---|
| **Rəsmi adı** | **Türkiyə Cümhuriyyəti** |
| **Paytaxtı** | **Ankara** |
| **Əhalinin sayı** | **67803927** |
| **Ərazisi** | **783562 km$^2$** |
| **Rəsmi dil** | **Türk dili** |
| **Qanunverici orqan** | **Böyük Millət Məclisi** |
| **Dövlət başçısı** | **Prezident** |
| **Pul vahidi** | **Yeni Türk Lirəsi** |
| **Türkiyə şəhərləri** | **Adana, Adıyaman, Afyonqarahisar, Ağrı, Aqsaray, Amasya, Ankara, Antalya, Ardaxan, Artvin, Aydın, Balıkesir, Bartın, Batman, Bayburt, Biləcik, Bingöl, Bitlis, Bolu, Burdur, Bursa, Çanaqqala, Çanqırı, Çorum, Denizli, Diyarbəkir, Düzcə, Əlazığ, Ərzincan, Eskişəhr, Ədirnə, Ərzurum, Girəsun, Gümüşxanə, Hakkari, Hatay, İğdır, İsparta, İstanbul, İzmir, Qəhrəmənmaraş, Qarabük, Qaraman, Kastamonu, Kayseri, Qırıqqala, Qırqlareli, Qırşəhr, Kilis, Kocaeli, Konya, Kütahya, Malatya, Manisa, Mardin, Mərsin, Muğla, Muş, Novşəhr, Niğde, Ordu, Osmaniyə, Qars, Qaziantəb, Rizə, Sakarya, Samsun, Sürt, Sinop, Sivas, Şırnak, Tekirdağ, Tokat, Trabzon. Timceli, Şanlıurfa, Uşak, Van, Yalova, Yozgat, Zonquldak** |

Türkiyə Cümhuriyyəti Asiyanın cənub-qərbində, Qara dəniz və Aralıq dənizi arasında, Anadolu yarımadasında yerləşir. Ərazisi (daxili su hövzələri ilə birlikdə) 780580 km$^2$ təşkil edir.

Türkiyə şərqdən Gürcüstan, Ermənistan, Azərbaycan və İran, cənubdan İraq və Suriya, qərbdən Yunanıstan və Bolqarıstan ilə həmsərhəddir. Ölkənin Mərmərə, Egey, Aralıq və Qara dənizlərlə əhatə olunması dünya okeanına çıxış imkanı verir.

Ən uca dağı Ağrıdağ, ən böyük gölü Van gölüdür. Ən böyük çayı Qızılirmak (1.355 km), ən böyük adası Göyçəadadır. Ölkənin cənubunda Aralıq dənizi iqlimi hökm sürür.

Ölkə 7 bölgəyə və 81 vilayətə ayrılır.

Müasir Türkiyənin yerləşdiyi Anadolu yarımadası tarix boyu çoxlu sivilizasiyaların mərkəzi olmuşdur. Burada Osmanlı dövlətinin qurulmasından əvvəl Bizans İmperiyası mövcud olmuşdur. 1299-cu ildən başlanmış quruculuq işləri nəticəsində 1326-cı ildə mərkəzi Bursa olan Osmanlı dövləti qurulur. 1453-cü ildə isə Konstantinopol işğal olunur. Adı dəyişdirilərək İstanbul adlanan şəhər paytaxt elan edilir. Dünya tarixində Osmanlı imperiyası ən uzunömürlü (600 ildən çox) və ən böyük imperiyalarından (Osmanlı imperiyasının 3 qitədə əraziləri olmuşdur) biri hesab olunur.

XIX əsrin sonlarında imperiya tərkibində separatçılığın güclənməsi və Avropa ərazisində Osmanlıların vaxtaşırı məğlubiyyəti imperiyanı hədsiz zəiflədir. Zəifləməkdə olan imperiya Birinci dünya müharibəsini salamat başa vura bilmir. Osmanlı dövləti süqut edir. Qurtuluş illərində Türkiyə iqtisadiyyatı ağır vəziyyətdə idi. Sənaye yalnız İstanbul və İzmirdə mövcud idi. Təhsil sistemini yenidən qurmaq lazım gəlirdi.

Müharibədən sonrakı dövrdə Avropa dövlətləri Türkiyəni parçalayıb öz aralarında bölüşdürmək niyyətlərini hətta gizlətmirdilər. 1919-cu ildə yunanlar İzmirə daxil oldular. Bundan sonra Türkiyədə Mustafa Kamal Atatürkün rəhbərliyi altında başlayan milli-azadlıq hərəkatı tam miqyaslı müharibəyə çevrildi.

1923-cü il oktyabrın 29-da Türkiyə Respublika elan edildi.

Türkiyə Respublikasının rəsmi dövlət dili Türkiyə türkcəsidir. Əhalinin 79.8 %-i Türkiyə türkcəsində, 15 %-i kürd dilində (kürdlər), 4 %-i Azərbaycan dilində (azərbaycanlılar) danışır. Ədəbi türk dilinin əsasını İstanbul ləhcəsi təşkil edir, Anadolu əhalisi isə Azərbaycan türkçəsinə yaxın şivədə danışır. Türkiyə Respublikasında müxtəlif dini təriqətlər mövcud olsa da, əhalinin 99.9 %-i müsəlmandır, bunların 80 %-i sünni, 20 %-i isə şiə-Ələvi məzhəbinə aiddir.

**Dövlət bayramları**

| | |
|---|---|
| **Yeni il** | **1 Yanvar** |
| **Milli Müstəqillik və Uşaqlar bayramı** | **23 Aprel** |
| **Atatürkü anma, gənçlik və idman bayramı** | **19 May** |
| **Zəfər Bayramı** | **30 Avqust** |
| **Respublika Bayramı** | **29 Oktyabr** |
| **Ramazan bayramı (3 gün)** | |
| **Qurban bayramı (4 gün)** | |


İSTANBUL

Türkiyə bir dövlət olaraq şərqlə qərbin qovuşduğu nöqtədə yerləşdiyindən bölgədə iqtisadi, mədəni, beynəlxalq mərkəz rolunu oynayır. Türkiyə BMT, NATO, ATƏT, BƏM, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Birliyi kimi beynəlxalq təşkilatların üzvüdür. Türkiyə turizm sahəsində dünyada qabaqcıl yerlərdən birini tutur. Ötən illərin hesablamaları ölkəyə gələn turistlərin sayına görə Türkiyənin dünyada birinci yerə çıxdığına dəlalət edir.

Ölkədə turizmin qış turizmi, yay turizmi və tarixi-mədəni turizm kimi 3 əsas istiqaməti inkişaf etdirilir.

Qış turizmi ölkənin əsasən dağlıq ərazilərində inkişaf edir. Bursada Uludağ (2543 m), Boluda Qartalqaya (2400 m), Çankırıda İlqaz dağı (2587 m), Antalyada Saklikənd (2547 m), Adanada Aladağlar (3766 m), Kayseride Erciyes dağı (2917 m), Erzincanda Munzur dağı (3462 m), Rizedə Kaçkar dağı (3932 m), Ərzurumda Palantökən (3176 m), Qarsda Sarıqamış (2634 m), Bitlisdə Sübhan dağı (4053 m), Ağrıda Ağrıdağı (5137 m), Hakkarıda Cilodağları (4136 m) turizm zonaları fəaliyyət göstərir. Bu zonalarda Qrand Yazıcı, Qartal otel, Dədəman otel, Polad Erzurum oteli, Çamkar oteli və digər mehmanxanalar turistləri qəbul edir.


İSTANBUL

Yay və tarixi-mədəni turizm ölkənin bütün ərazilərində, ilk növbədə dənizyanı sahil zolaqlarında inkişaf edir. Həmin turizm zonaları Mərmərə, Egey, Aralıq dənizi, Mərkəzi Anadolu, Qara dəniz, Şərqi Anadolu və Cənub-şərqi Anadolu bölgələrini əhatə edir.

Mərmərə bölgəsi Avropa və Asiyanın birləşdiyi nöqtədə yerləşir. Buraya əsasən İstanbul və onun ətraf əraziləri daxildir (İstanbul, Bursa, İzmir). İstanbul müxtəlif sivilizasiyaların qovuşduğu dünya mərkəzlərindən biridir. Ankara paytaxt kimi Türkiyənin siyasi mərkəzi olsa da, İstanbul əhalisinin sayına, qüdrətli iqtisadiyyatına, habelə turist qəbuluna görə ölkənin ən əhəmiyyətli şəhəridir. Şəhər həm Avropa, həm də Asiya qitələrində yerləşir və 2 körpü vasitəsi ilə birləşir. İstanbul tarix boyu böyük İmperiyaların paytaxtı olduğundan qədim mədəniyyət mərkəzidir. Mərmərə dənizi və Qızıl Buynuz arasında, açıq havada fəaliyyət göstərən muzey özündə həm Roma, həm Bizans, həm də Osmanlı imperiyasının özəlliklərini qoruyub saxlayır. Topqapı sarayı vaxtı ilə Osmanlı imperiyasının əsas siyasi mərkəzlərindən biri olub. Yaşı 400 ildən artıq olan saray antik mənbələr xəzinəsidir. Sultan Əbdülməcid tərəfindən tikilmiş Dolmabahça sarayı hər biri 4.5 t ağırlıqda olan 56 sütundan ibarətdir. Musatafa Kamal Atatürk 1938-ci ildə bu sarayda vəfat etmişdir. Türkiyədə bir çox mədəniyyət abidələri vardır. Məhəmməd peyğəmbərin müqəddəs əmanətləri saxlanılan Topqapı sarayı muzeyi, Süleymaniyə Cami və Külliyəsi, Sultanəhməd Cami və Külliyəsi, Ayasofya Muzeyi, Kariyə Muzeyi, Müqəddəs Antoni Kilsəsi, Aşkenazi Sinaqoqu xarici qonaqların diqqətini cəlb edir. Bəylərbəyi sarayı, Ulduz sarayı, Kiçik su sarayı, İhlamur pavilyonu qədim dövrlərin tarixini canlandırır. Müqəddəs Sofiya Muzeyi, Arxeologiya Muzeyi, Müqəddəs İrina Muzeyi, Türk və İslam incəsənəti Muzeyi, Türk Xalça Muzeyi, Ərəbatan Sarayı Muzeyi, Türkiyə Hava Dəniz və Hərbi Muzeyləri, Atatürkün ev-muzeyi, Rəhmi Hoca Muzeyi, III Əhməd fəvvarəsi (1729), Bəyazid qalası (1828), Qalata qülləsi (1348), Rumeli hasarı (1452) və XII əsrə aid olan Qız qülləsi İstanbul ekskursiyaları üçün mühüm obyektlərdir.


TOPQAPI SARAYI

İstanbulda hər il iyun-iyul aylarında Beynəlxalq Mədəniyyət və İncəsənət festivalı, mart-aprel aylarında Beynəlxalq Kino Festivalı keçirilir. İncəsənətin müxtəlif sahələrinin nümayəndələri Camal Rəşid Rey zalında yığışırlar. Ölkənin ən böyük park attraksionu Bəylik düzündə, Atatürk limanına qədər olan ərazidə yerləşir. Ədirnə, İzmit, Bursa şəhərlərində Çanaqqala (1200 m), “Quş cənnəti” milli parkı,

Gelibolu abidə kompleksi, Bəhramqala (Afina məbədi), Troya atı (Çanaqqala) kimi bir-birindən gözəl qədim mədəniyyət nümunələri cəmlənmişdir.

Egey bölgəsi ən qədim məkanlardan biridir. İzmir Egey bölgəsinin əsas şəhəridir. Şəhər Homerin əsərlərində mədəniyyət və incəsənət mərkəzi kimi qeyd olunmuşdur. Bayraqlı ən qədim İzmir qəsəbəsidir (E.ə. 3000). Kültürpark İzmirin mərkəzində yerləşir. Bir çox Türkiyə festivalları məhz bu parkda keçirilir. Çeşmə İzmirin ən gözəl turizm zonasıdır. Mordoğan və Qaraburun dəniz sahili çimərlik zonası kimi tanınır. XVI əsrə aid olan Sultan Süleymanın karvansarası hazırda otel kimi fəaliyyət göstərir. Çeşmə 250-dən artıq termal yeraltı suları ilə tanınır, Türkiyənin əsas müalicəvi turizm zonasıdır. Sığacıq isə İzmirin əsas yaxta mərkəzidir. Sığacıqda qədim Teos şəhərinin qalıqlarına təsadüf etmək olar. Burada şərabçılıq allahı Dionisin və Apollonun heykəlləri ucalır. Foça və Gümüldür də İzmirin əsas turizm obyektlərindəndir. Berqama Türkiyənin, bəlkə də dünyanın qədim mədəniyyət və səhiyyə mərkəzidir. Berqamada təbabət allahı Akslepinin adını daşıyan qədim tibb mərkəzi, Afina və Troya üslubunda akropollar diqqəti cəlb edir.

Burada 200-dən artıq qədim əlyazma və kitablar saxlanılır. Regionda külli miqdarda qədim kilsə binaları qorunub saxlanıb. Dünyada ilk 7 kilsədən biri olan Hisar Cami Polikarp şəhidliyi, Muradiyyə kulliyəsi bölgənin çoxsaylı mədəniyyət abidələri sırasına daxildir. Bölgənin digər böyük mədəniyyət mərkəzi olan Dənizli şəhərində Süleyman Qanuninin anası Ayşə sultana həsr olunmuş Misir məcunu yerləşir. Qədim Lidiya krallığının paytaxtı olmuş Sardisdə III əsrə aid gimnaziya, Artemidanın abidəsi diqqəti cəlb edir. Qutahya şəhəri Türkiyə ənənələrinin qorunub saxlandığı yer kimi, Uşak şəhəri qədim xalçaçılıq sənəti və arxeologiya mərkəzi ilə tanınır. Bölgənin əsas turizm mərkəzi olan Bodrum şəhərində Muğla sualtı muzeyi yerləşir.

Aralıq dənizi bölgəsinin əsas turizm mərkəzi "yerdə cənnət" adını almış Antalya şəhəridir. Hər il yüzlərlə təyyarə müxtəlif ölkələrdən Antalya beynəlxalq hava limanına turist daşıyır. Lara və Koneyaltı çimərlikləri e.ə. II əsrdə Perqam hökmdarı II Attal tərəfindən salınmışdır. Manavqat və Kurşunlu şəlalələri, Kekova yaxta mərkəzi, Güllükdağ milli parkı və qədim Termos şəhərində daş dövrünə aid qəsəbə parkları çimərliklərin ərazisində yerləşir. Hər il aprel ayında Qərb sahilində yerləşən Kəmər şəhərində Kəmər karnavalı keçirilir. Kəmərin cənubunda olan Faselis şəhəri tarixi liman şəhəridir. Rəvayətə görə Santa Klaus (Nail Baba) Dəmirqala şəhərində yaşamış və vəfat etmişdir. Şəhərdə Santa Klaus muzeyi və eyni adlı kilsə fəaliyyət göstərir. Antalyada Yivli minarə, Apollon Məqbərəsi, Perqe şəhərinin qədim qalıqları, Alanyada səlcuq qalaları, Qizil Qüllə, Adanada Anavarzə şəhərinin qalıqları, Merində Kleopatranın qala qapıları, Qanli divanə abidəsi, Antakya Muzeyi mühüm ziyarət obyektləridir.

Mərkəzi Anadolu Bölgəsi qədim türklərin məskunlaşdığı ərazilərdən biridir. Ölkənin paytaxtı olan qədim abidələr məkanı Ankara burada yerləşir. 1953-cü ildə tikilmiş və muzey kimi istifadəyə verilmiş Türkiyə Cümhuriyyətinin banisi M. K. Atatürkün mavzoleyi (Anitkabır) paytaxtın başlıca abidələrindən biridir. Roma imperatoru Avqustun Qala Qapıları, Roma hamamı, teatr, Yulian sütunu, Aslanxana, Haci Bayram, Qocatəpə məscidləri, Samanbazari Sinaqoqu, Müqəddəs Pavel kilsəsi şəhərə xüsusi gözəllik gətirir. Beynəlxalq Əskişəhər festivalı, Beynəlxalq Yunus Əmrə Mədəniyyət və İncəsənət əsri bölgənin II mühüm şəhəri sayılan Əskişəhərdə keçirilir. Batdal Qazi Camisi, Cankır və İlqas Milli Parkı, Göy mədrəsə, Görəmə milli parkı, Haci Bektaş Vəli Kompleksi, Mövlana muzeyi, Ələddin Camisi, Karatay mədrəsəsi, Kurşunlu Cami, Dərəfakli kilsəsi burda yerləşir.

Ölkənin əsas iqtisadi və mədəni mərkəzlərindən biri olan Qara dəniz bölgəsi şimalda yerləşir. Sinop, Bolur, Tokat, Amasya kimi əsas şəhərlər bölgənin mühüm turizm mərkəzləridir. Ulu Cami, İzzət Mehmet Paşa Camisi, Atabəy Qazi Camisi, Şeyx Şəbani Vəli Qülləsi, Seyid Bilal türbəsi, Sultan II Bəyazid Cami və Türbəsi, Amasyada Merzifonu Ballica mağarası bölgənin möhtəşəm mədəniyyət abidələri sırasındadır. Bölgənin əsas turizm obyektləri Qara dəniz sahillərində və Kaçkar dağlarında yerləşir. Dağlıq zonada yerləşən Şərqi Anadolu bölgəsi 5 ölkə ilə həmsərhəddir. Bölgənin əsas mədəni mərkəzi olan Ərzurumda XII əsrə aid Mustafa Paşa məscidi, Ciftə Minarəli mədrəsə, Rüstəm Paşa karvansarası, Oltu kilsəsi, Əziziyə abidəsi, Ani Ruints kilsəsi, Məniçöhr camisi, İslak Paşa sarayı, Tərcan karvansarası, Güləlibəy məscidi yerləşir. Rusiya mədəniyyəti abidələrindən olan X əsrin yadigarı Müqəddəs 12 Apostol Kilsə və muzeyi Qafqazın qapısı kimi tanınan Qars şəhərində yerləşir. Sarıqamış məskəni rus çarı Nikolayın şərəfinə tikilmişdir. Müqəddəs sayılan Ağrıdağ eyni zamanda dağ turizmi mərkəzidir. Rəvayətə görə Nuhun gəmisi sular çəkiləndən sonra ilk dəfə buraya yan almışdır. Gözəl təbiəti olan Əliaziğ zonası göllər və çaylar məskənidir. Mımzur dərəsi milli parkı, Bingöl milli parkı, əsrarəngiz Van gölü əraziləri təbiət mənzərəsi həvəskarı olan turistləri özünə cəlb edir. Cənub-Şərqi Anadolu bölgəsi İraq və Suriya dövlətləri ilə həmsərhəddir. Boyacı camisi, Ökkeşiye türbəsi, Dülük Baba türbəsi, Əziz Yuhənna kilsəsi, Əziz Nerses kilsəsi Qaziantepe arxeologiya muzeyi, Yasəmən açıq hava muzeyi bölgənin əsas şəhərlərindən olan qədim Qaziantepe şəhərində yerləşir. Diyarbəkr qala qapıları Roma İmperatoru Konstantin dövründən qalıb. Böyük türk filosofu Ziya Göyalpın ev-muzeyi, Məryəm ana və Tomas kilsələri

Diyarbəkrdə fəaliyyət göstərir. İpək Yolunun üzərində yerləşən qədim Mardin şəhəri turizm zonası və mədəniyyət mərkəzidir. Qədim mədəniyyət abidələri olan Qazimiyyə Süryanın evi, Aznaur, Rabat, Moren, Zarzavan, Savur qəsrləri, Əbüllətif, Mələkmahmud, Qızıltəpə, Ulu məscidləri, Eminəddin kompleksi, Hz Məhəmməd(s) ayaq izi olan inanc yeri, Kasimiyyə mədrəsəsi, Dəyrül Zəfəran monastırı, Dəyrülmur monastırı, İlya, Yusif, Stefanoz kilsələri özünün zərgərlik sənəti ilə ad çıxarmış Midyatda yerləşir.

### *3.19. TÜRKSOY - türkdilli xalqların milli-mədəni mərkəzi kimi*

XX əsrin son onilliyində dünyada baş verən qlobal siyasi hadisələr nəticəsində sovet imperiyası dağıldı, uzun illər onun tərkibində yaşamağa məcbur olmuş xalqlar siyasi müstəqilliyini qazanaraq öz suveren dövlətlərini yaratdılar. Bu xalqların qarşısında milli-mənəvi dirçəliş yolunda, dünya xalqları ailəsində özünə layiq yer tutmaq üçün geniş üfüqlər açıldı.

Zəngin və qədim mədəni irsə sahib olan türk xalqları da tarixin bəxş etdiyi bu gözəl fürsətdən istifadə edərək milli-mədəni özünəqayıdış yolunda ciddi addımlar atmağa başladı. Eyni soya, dilə, tarixi və mədəni keçmişə, adət-ənənəyə malik olan xalqlarımızın mənəvi həyatında gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək məqsədi ilə həmin dövrdə TÜRKSOY Təşkilatının yaradılması bu yolda vaxtında atılmış faydalı bir addım oldu.

Bu tarixi hadisə ilə bağlı öncə onu söyləmək lazımdır ki, ölkələrimizin müstəqilliyə qovuşması, tarixi, mənşə, dil, din və mədəniyyət baxımından eyni kökdən olan xalqlarımızın yeni şəraitdə əlaqələrinin genişlənməsi və dərinləşməsi üçün hərtərəfli imkanlar açmışdır. İlk dəfə 1992-ci ilin oktyabrında Ankarada təşkil olunmuş türkdilli dövlətlərin başçılarının zirvə görüşü, ötən illər ərzində gözəl ənənəyə çevrilmişdir və qardaş xalqlarımız arasında dostluğun və sıx əməkdaşlığın möhkəmlənməsinə və inkişafına xidmət edir.

Azərbaycan və Türkiyə mədəni əlaqələrinin inkişafında 1992-ci ilin iyun ayında İstanbul şəhərində 6 ölkənin mədəniyyət nazirləri tərəfindən bünövrəsi qoyulan Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası (TÜRKSOY) mühüm rol oynayır. 1992-ci ilin dekabrında Bakı şəhərində bu təşkilata TÜRKSOY adı verilmişdir. TÜRKSOY-un Baş Direktorluğu 1993-cü ilin fevral ayından Ankarada fəaliyyət göstərir. TÜRKSOY-un Baş Direktorluğuna həmin illərdə Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuş Polad Bülbüloğlu seçilmişdir. TÜRKSOY-un rəsmi dili Anadolu türkcəsidir. 1993-cü ilin 12 iyulunda Almatı şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə tərəfindən TÜRKSOY-un yaranması haqqında Saziş imzalanmışdır. Türkiyə Respublikasının Parlamenti və Sazişə imza atan digər türkdilli dövlətlər TÜRKSOY-u rəsmi olaraq tanıdıqlarını elan etdilər. Sonralar Tatarıstan, Başqırdıstan, Şimali Kipr Türk Respublikası, Tuva və Xakasiya Daimi Şuraya daxil olmuşdur. Beləliklə, günü-gündən mədəni əlaqələrimiz də inkişaf etməkdə və genişlənməkdədir.

Beləliklə, təməli 1993-cü ildə qoyulan TÜRKSOY-un tutduğu əsas xətt dünyanın müxtəlif məkanlarında yaşayan türkdilli xalqların bir-birinin mədəniyyətini tanıması və bəhrələnməsidir. Daha doğrusu türk xalqlarının mədəni irsin öyrənilməsi, qorunması və təbliğində bir araya gəlməsidir. O vaxtdan TÜRKSOY bəşər sivilizasiyası xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi, Mahmud Qaşqarlı, Yusif Balasaqunlu, Uluqbəy, Yunis İmrə, Nəvai, Məxtumqulu, Abay irsi kimi nadir incilər vermiş türk xalqlarının mədəni inteqrasiyası, bu qədim və zəngin irsin araşdırılıb üzə çıxarılması, dünyada geniş təbliğ olunması, müxtəlif mədəni layihələrin gerçəkləşdirilməsində faydalı işlər görmüşdür. TÜRKSOY-un mədəni yönümü, digər beynəlxalq təşkilatlarla, xüsusilə YUNESKO ilə qurduğu əməkdaşlıq əlaqələri təqdirəlayiqdir.

Ötən illərdəki fəaliyyəti dövründə TÜRKSOY öz məqsədinə sadiq qalmışdır. Artıq xalqlarımızın əlaqələrinin inkişaf etdirilməsi, ortaq mədəni dəyərlər vasitəsilə onların arasında dostluq və qardaşlıq tellərinin möhkəmləndirilməsi işinə xidmət edən TÜRKSOY nüfuzlu beynəlxalq təşkilata çevrilmişdir. Təşkilat doqquz il ərzində türkdilli xalqların mədəniyyətinin inkişafı və beynəlxalq aləmdə təbliği sahəsində səmərəli fəaliyyəti ilə özünün məqsəd və məramını, perspektivlərini bütün dünyaya nümayiş etdirmişdir.

Dahi şəxsiyyətlərimizin, milli mədəniyyətimizin korifeylərinin, bəşər mədəniyyətinin inciləri sayılan milli eposlarımızın əlamətdar ildönümlərinin, xalqlarımızın həyatındakı mühüm və tarixi hadisələrin birlikdə bayram edilməsi artıq ənənə halını almışdır. Bu mənada zəngin mədəni dəyərlərimizlə bağlı birgə layihələrin, tədbirlərin, konkret işlərin bu təşkilat çərçivəsində gələcəkdə də hazırlanıb həyata keçirilməsi hərtərəfli əlaqələrimizi genişləndirmək baxımından xalqlarımız üçün böyük əhəmiyyətə malikdir.

TÜRKSOY-un indiyədək keçirilmiş toplantılarının nəticələri bir daha sübut edir ki, onun fəaliyyəti türkdilli xalqların dünya mədəniyyətinə inteqrasiya olmaq səylərini artırır, öz mənəvi dəyərlərini tanıtmalarına kömək edir. Müxtəlif ölkələrdə keçirilən mədəniyyət günləri, festivallar, beynəlxalq müsabiqələr, sərgilər, yubiley və xatirə gecələri bu istiqamətdə atılan addımlardır.

TÜRKSOY-un 2001-ci il yanvarın 16-17-də Bakıda keçirilmiş on beşinci toplantısında Azərbaycan Respublikasının Mədəniyyət naziri Polad Bülbüloğlunun çıxışında göstərilir ki, bu təşkilatın varlığı, "onun beynəlxalq nüfuzunun belə sürətlə artması təsdiq edir ki, dünyada mədəniyyətin və sənətin aça bilmədiyi qapı, toxunmadığı ürək yoxdur. Və mən inanıram ki, birgə olduğumuz müddətdə biz daha güclü olacağıq, Bakı görüşü isə ölkələrimizin və xalqlarımızın daha da birləşməsinə xidmət edəcəkdir. TÜRKSOY özünün modeli, uluslararası statusu, sadə və açıq strukturu, demokratik idarəetmə sistemi ilə heç bir təşkilata bənzəməyən, analoqu olmayan bir qurumdur".

"Manas" eposunun 1000, Əmir Teymurun 660, Məhəmməd Füzulinin 500, Abay Kunanbayevin 150 illiyinin, Qazaxıstanın yeni paytaxtı Astananın açılışının, türkdilli xalqların milli eposu, ümumi sərvəti olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunan yubiley mərasimlərinin birlikdə bayram edilməsi xalqlarımız, dövlətlərimiz arasında ikitərəfli münasibətlərin, mədəni inteqrasiyanın inkişafına əyani sübutdur.

Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Eyni zamanda həmin yubiley tədbirlərinin keçirilməsi onu da nümayiş etdirir ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Qaşqarinin, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlar təkcə bizim xalqlarımıza məxsus deyil. Onlar həm də bütün bəşəriyyətin mədəni sərvətidir.

Zirvə görüşlərinin, TÜRKSOY tədbirlərinin tarixi bir daha sübut edir ki, belə əhəmiyyətli toplantıların müntəzəm keçirilməsi xalqlarımızın siyasi, ictimai və mədəni həyatında çox böyük hadisələrdir. Mədəni əlaqələrin qurulması istiqamətində ən böyük uğur isə türk xalqları ilə ənənəvi münasibətlərin yaradılmasıdır. Bu da səbəbsiz deyil. Çünki hər bir ailənin gələcəyi, xoşbəxtliyi səmimiyyətə və məhəbbətə bağlı olduğu kimi, dünyanın da gələcəyi xalqların, millətlərin qarşılıqlı münasibətinə və əməkdaşlığına bağlıdır. Millətlərin öz soykökünə – dilinə, dininə, imanına, əcdadlarının adət-ənənəsinə qayıtdığı bir zamanda bu mehribanlığa və birliyə ehtiyac daha çox hiss olunur. Türkdilli xalqların birliyinin və əməkdaşlığının inkişafı üçün Türk Kültür və Sənətləri Ortaq Yönətimi – TÜRKSOY yarandığı gündən bu istiqamətdə səmərəli işlər görür.

1991-ci ildən Başqırdıstanın paytaxtı Ufada türkdilli xalqların iştirakı ilə beş ildən bir keçirilən "Tuqanlıq" (doğmalıq, qardaşlıq) adlı teatr festivalı bu baxımdan çox önəmli bir tədbirdir. Qeyd edək ki, ikinci dəfə – 1996-cı ildə Ufada keçirilən "Tuqanlıq" festivalında Azərbaycan "Yuğ" teatrı ilə təmsil edilmişdi.

2000-ci ilin may ayında isə Başqırdıstanın Ufa şəhərində TÜRKSOY Beynəlxalq Təşkilatının növbəti – XIV dönəm toplantısı keçirilmişdir. Ortaq mədəniyyətimizin, dilimizin, adət-ənənəmizin qorunub saxlanılmasına xidmət edən bu təşkilat türkdilli xalqlar arasında qardaşlıq və mədəni əməkdaşlıq körpüsü olduğunu bir daha sübut etmişdir. TÜRKSOY-un planlaşdırdığı tədbirlərdə Azərbaycan incəsənət ustaları da uğurla çıxış etmişlər.

Həmin vaxtda keçirilən "Tuqanlıq" Beynəlxalq Teatr Festivalında respublikamızı Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı N. Xəzrinin "Burla Xatun" tamaşası ilə təmsil etmiş və TÜRKSOY-un xüsusi mükafatını qazanmışdır. Rejissor Vaqif Əsədovun quruluş verdiyi bu tamaşadan əlavə, Başqırd tamaşaçıları festivalda türkdilli teatrların hazırladıqları daha 14 əsərin nümayişinə baxmışlar. Belə ki, Başqırdıstanın A. Mübarəkov adına Sibay Dövlət teatrı T. Qəniyevanın "Tamaris" adlı iki hissəli faciə, Qırğızıstan Respublikasının "Tunçuq" Gənclər Dram teatrı S. Rayev və N. Abdıqədirovun "Əsrə bərabər gün" (Ç. Aytmatov) əsəri əsasında yazdıqları "Tayamam" pyesi, Krım-tatar Musiqili Dram Teatrı V. Şekspirin "Maqbet", M. Auezov adına Qazaxıstan Dövlət Akademik Dram Teatrı K. Aşirin "Adamın oğlu Kain" əsəri, Türkiyənin Sivas Dövlət Teatrı O. Asan və D. Atayanın "Qərbdə intiqam" əsəri, M. Qafuri adına Başqırd Akademik Dram Teatrı M. Kərimin "Aygül diyarı", Tuvin Musiqili Dram Teatrı E. Mijitin "Sən kimsən, Südabə?" dramı, Mcakira adına Qaqauz Milli Teatrı A. Burakın "Mənbə" romantik dramı, K. Quliyev adına Balkar Dövlət Teatrı M. Olmezovun "Knyaginya Roşiyar" pyesi, Altay Respublikasının Dram Teatrı K. Noqiyevin "Sənin günəşin doğacaq" əsəri, Karacayev Respublikası Dram Teatrı M. Votcayevin "Tale və namus" dramatik poeması əsasında hazırladıqları tamaşalarla çıxış etmişlər. Hər bir tamaşanın ertəsi günü teatrşünasların, festival iştirakçılarının və tamaşaçıların iştirakı ilə tamaşaların geniş müzakirəsi keçirilmiş və təhlil edilmişdir. Festival günlərində, həmçinin, türk teatrının problemlərinə həsr olunmuş elmi konfrans keçirilmişdir. Konfransda sənətşünaslıq doktoru İnqilab Kərimov Azərbaycan

teatrının təşəkkülü və müasir problemləri ilə bağlı məruzə etmişdir.

"Tuqanlıq" festivalının uğurları Türk teatrlarının, türk mədəniyyət və incəsənət xadimlərinin gələcəkdə bir araya gələrək türk mədəniyyətinin tarixi şöhrətinin qaytarılması yolunda çarpışdıqlarını göstərməkdədir.

Azərbaycan Respublikası Prezidentinin türkdilli ölkələrin mədəniyyət nazirlərinin daimi şurasına ünvanladığı müraciətindən də bu təşkilata nə qədər əhəmiyyət verildiyi aydın görünür: "Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, TÜRKSOY-un qurucu ölkələrindən olan Azərbaycan Respublikası bu hərəkatın elə ilk günlərindən onun fəal iştirakçısı olmuşdur. TÜRKSOY-un məqsəd və vəzifələri müstəqil Azərbaycan dövlətinin mədəniyyət sahəsindəki strategiyasına tam uyğundur. Buna görə də biz TÜRKSOY-un fəaliyyətinə böyük əhəmiyyət verir və onu dəstəkləyirik".

Azərbaycan Respublikasının Prezidenti 2001-ci il yanvarın 16-da da Prezident sarayında TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul edərək bildirmişdir ki, "Bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarətdir". O, TÜRKSOY təşkilatının əhəmiyyətindən bəhs edərkən bunun iqtisadi və ticarət əlaqələrindən fərqinə də toxunmuş və demişdir ki, "Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin – bunların böyük tarixi və dərin kökləri vardır. Bizim ədəbiyyatımızı, musiqimizi, tarixi köklərimizi sübut edən əsərlərimiz – bunların hamısı təbiidir ki, çox böyük əhəmiyyətə malikdir. Məsələn, biz keçən il "Kitabi-Dədə Qorqudun" 1300 illik yubileyini keçirdik. Bütün türkdilli dövlətlərdən, təkcə türkdilli dövlətlərdən yox, bir çox ölkələrdən, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Biz "Kitabi-Dədə Qorqud" haqqında, demək olar ki, o bir il içərisində öyrəndiyimizin heç on faizini də bilmirdik. Amma indi "Kitabi-Dədə Qorqud" hamı üçün ulu babadır. Birisi Dədəm Qorqud deyir, biri Ata Qorqud deyir, digəri Dədə Qorqud deyir.

...Sizin gördüyünüz işlər xalqımız üçün ən dəyərli işlərdir. Bu təşkilat yaşayacaq, inkişaf edəcək və gələcək nəsillər üçün də çox yeni şeylər yaradacaqdır".

Azərbaycan Respublikasının Prezidentinin də iştirak etdiyi və türkdilli dövlətlərin başçılarının 26-27 aprel 2001-ci il tarixdə İstanbul şəhərində keçirilən VII Zirvə görüşündə, qədim və zəngin mədəniyyətə malik olan, bəşəriyyətə görkəmli şəxsiyyətlər bəxş etmiş türk dünyası xalqlarının bu sahədə əməkdaşlığının daha da genişləndirilməsinin vacibliyindən söhbət açan natiqlər bildirmişlər ki, bu, tarixən yaranmış bənzərsiz mədəni irsimizi indiki nəsillərə qaytarmaqla yanaşı, onu dünyaya daha da yaxından tanıtmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha nümayiş etdirmək baxımından son dərəcə önəmlidir. Bu sahədə TÜRKSOY təşkilatının gördüyü işlər və ümumən onun fəaliyyəti barədə də məlumat verilmişdir. Burada, Türkmənistan Prezidenti növbəti – VIII Zirvə görüşünün 2002-ci ildə Aşqabadda keçirilməsini təklif etmişdir. VIII Zirvə görüşündə elan edilmiş dövlət başçılarının bəyannaməsində mədəniyyət məsələləri də xüsusi yer tutmuşdur. 19 maddədən ibarət bəyannamənin 3-cü maddəsində deyilir: "Dövlət başçıları tarixi, dil və mədəni əlaqələrin möhkəmləndirilməsinə və bu istiqamətdə işin gücləndirilməsinə tərəfdar olduqlarını, TÜRKSOY-un təhsil və mədəniyyət sahəsində fəaliyyətinin müsbət töhfə verdiyini bildirmiş və bu təşkilatın fəaliyyətini bundan sonra da təşviq edəcəklərini vurğulamışlar".

2002-ci il iyulun 16-da TÜRKSOY-un 10 illiyi münasibətilə bu beynəlxalq təşkilatın İstanbulda 18-ci toplantısı keçirilmişdir. Toplantıda TÜRKSOY-un üzvü olan mədəniyyət nazirləri ilə yanaşı, Rusiya Federasiyası mədəniyyət nazirinin müavini, Rusiyanın Altay və Saxa (Yakutiya) respublikalarının mədəniyyət nazirləri, tanınmış yazıçılar və mədəniyyət xadimləri iştirak etmişlər. TÜRKSOY-un növbəti toplantısının əlaqələndiricisi, Türkiyə Respublikasının mədəniyyət naziri B. Suat Çağlayanın məruzəsindən sonra toplantıda iştirakçı ölkələrin mədəniyyət nazirləri çıxış etmişlər. Onlar ötən on il ərzində TÜRKSOY-un beynəlxalq aləmdə nüfuz qazanmasından, zəngin ümumtürk mədəniyyətinin təbliği sahəsində görülən işlərin əhəmiyyətindən danışmışlar.

Azərbaycanın mədəniyyət naziri, TÜRKSOY-un baş direktoru Polad Bülbüloğlu Azərbaycan Prezidentinin bu beynəlxalq təşkilatın fəaliyyətinə yüksək qiymət verdiyini bildirərək, onun ölkəmizlə səmərəli əməkdaşlığından danışmış, Məhəmməd Füzulinin 500 illik və "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin ölkəmizdə və YUNESKO tərəfindən Parisdə bayram edilməsində, habelə "Dədə Qorqud" ensiklopediyasının nəşrində TÜRKSOY-un fəal iştirak etdiyini vurğulamışdır. Həmin təntənəli gecədə çıxış edən Polad Bülbüloğlu təşkilatın keçdiyi yolu səciyyələndirərək, onun türkdilli xalqların milli mənəviyyatını yaşadan, dil və soy birliyini təmin edən, min illik mədəni zənginliyinə sahib çıxan və bu dəyərləri dünyaya tanıdan nüfuzlu təşkilata çevrildiyini bildirmişdir.

İyulun 17-də TÜRKSOY-un 18-ci toplantısı Ankara şəhərində davam etmiş, mədəniyyət nazirləri Mustafa Kamal Atatürkün məqbərəsini ziyarət etdikdən sonra TÜRKSOY-un binasının təməlinin qoyulması mərasimində iştirak etmişlər.

2002-ci il iyulun 16-da TÜRKSOY-un 10 illiyi münasibətilə bu beynəlxalq təşkilatın İstanbulda keçirilən 18-ci toplantısında, təşkilatın 19-cu toplantısının 2003-cü ilin yanvar ayında Azərbaycanda keçirilməsi qərara alınmışdır. Bu qərara uyğun olaraq 2003-cü il fevralın 5-də Bakı Muzey Mərkəzində TÜRKSOY Beynəlxalq Təşkilatı Daimi Şurasının növbəti 19-cu iclası keçirilmişdir. Türkdilli ölkələrin, o cümlədən 6 müstəqil dövlətin və Rusiya Federasiyasının subyekti olan 6 türkdilli respublikanın mədəniyyət nazirlərinin iştirak etdikləri həmin iclasda Türk Dünyasının mədəni inteqrasiyasında bu təşkilatın rolu dəyərləndirilmişdir.

Ötən müddət ərzində TÜRKSOY-un xətti ilə keçirilən çoxsaylı tədbirlərdə təşkilatın məqsəd və məramı daima diqqət mərkəzində olmuşdur. 2005-ci ilin avqustunda Rusiyanın Kazan şəhərində keçirilən 22-ci konfransda TÜRKSOY-un növbəti – 23-cü konfransının İstanbulda təşkil edilməsi qərara alınmışdır.

Bu tarixi-mədəni proseslər fonunda bir fakt özünü tam aydınlığı ilə büruzə verir ki, müasir dünyada mədəni inteqrasiya, qloballaşma geniş vüsət aldıqca Azərbaycan Respublikasının bu prosesdə oynadığı rol da getdikcə artır. Dünya dövlətləri, beynəlxalq təşkilatlarla ikitərəfli əlaqələr inkişaf etdirilir, qarşılıqlı razılaşmalar əldə edilir, mədəni əməkdaşlıq genişləndirilir. Xüsusilə də, Azərbaycanın Türkiyə və digər türk dövlətləri ilə münasibətlərində yeni keyfiyyət dəyişiklikləri müşahidə edilir. Bu dəyişikliklər özünü türkdilli dövlətlərin mədəni əməkdaşlığında daha qabarıqlığı ilə göstərir.

2001-ci ilin əvvəllərindən əlaqələrimiz daha da intensivləşmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il yanvarın 16-da Prezident sarayında TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonqlarla görüşdə çıxış etmişdir. O demişdir: "Bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarətdir. Çünki 70 illik Sovet hakimiyyəti dövründə, bundan da öncə, təəssüflər olsun ki, türkdilli ölkələrin bir-biri ilə əlaqələri ya zəif olubdur. Ya da olmayıbdır. Bəzən də Sovetlər İttifaqında yaşayan türkdilli xalqlar üçün qadağan olubdur. O vaxt Sovetlər İttifaqında belə bir anlayış mövcud idi ki, vahid sovet xalqı vardır. Bütün millətlər də var, ancaq vahid sovet xalqı da. Biz, məsələn, Mərkəzi Asiyada olan qardaşlarımızla daim əlaqədə idik. Biz həmişə bir-birimizlə rusca danışırdıq və tarixi keçmişimizi, mədəniyyətimizi, onların dərin köklərini heç vaxt araşdırmırdıq. Amma indi biz müstəqillik əldə edəndən sonra və Türkiyə Cümhuriyyəti də bu sahədə çıx dəyərli təşəbbüslərlə çıxış edəndən sonra Türkdilli Dövlətlər Birliyi yaranıbdır. Bu birliyin də, yenə də deyirəm, ən əsas özəklərindən biri TÜRKSOY təşkilatıdır.

Mən sizin gördüyünüz işləri yüksək qiymətləndirirəm. Arzu edirəm ki, bu işləri bundan sonra da davam etdirəsiniz. Çünki həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün hələ çox iş görmək lazımdır ki, bu itirilmiş dövrü, zamanı, onillikləri bərpa edək. Yəni onu bərpa etmək mümkün deyil. O dövrdə itirdiklərimizi indi qısa bir zamanda yaratmaq lazımdır.

Mən sizi təbrik edirəm və arzu edirəm ki, işlərinizi bu cür davam etdirəsiniz. Siz dövlət başçılarından daha zirəksiniz. Çünki biz, deyək ki, altı dəfə görüşmüşük. Amma siz on beş dəfə görüşmüşsünüz. Ancaq bu da təbiidir. Çünki dövlət başçılarının bir çox problemləri vardır. Onların ildə bir dəfə görüşməsi bəzən bəs edir. Bu görüşlərdə biz, təbiidir ki, mədəniyyət, elmi-tarixi keçmişimiz haqqında çox fikir mübadiləsi aparırıq. Amma eyni zamanda bu görüşlərin iqtisadi əməkdaşlıq tərəfi də vardır. Bu da çox əhəmiyyətlidir. Amma siz isə, bir də qeyd edirəm, bizim türkdilli xalqların ən incə və ən vacib işi ilə məşğulsunuz. Ticarət bu gün də, sabah da var. Bu, ola bilər ki, türkdilli, başqa dilli dövlətlə olsun – ticarət elə ticarətdir. Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin – bunların böyük tarixi və dərin kökləri vardır.

16 iyul 2002-ci il tarixində türkdilli ölkələrin mədəniyyət nazirlərinin daimi şurasına müraciət edən Heydər Əliyev demişdir: "Sizə – türkdilli ölkələrin mədəniyyət nazirlərinə və Beynəlxalq TÜRKSOY təşkilatının yaradılmasının 10 illik yubileyinə həsr olunmuş bütün mərasim iştirakçılarına səmimi salamlarımı yetirir, ölkələrimizin mədəni həyatındakı bu əlamətdar hadisə münasibəti ilə hamınızı Azərbaycan xalqı və dövləti adından ürəkdən təbrik edirəm. Keçən əsrin son on illiyində dünyada baş verən qlobal siyasi hadisələr nəticəsində sovet imperiyası dağıldı, uzun illər onun tərkibində yaşamağa məcbur olmuş xalqlar siyasi müstəqilliyini qazanaraq öz suveren dövlətlərini yaratdılar. Bu xalqların qarşısında milli-mənəvi dirçəliş yolunda, dünya xalqları ailəsində özünə layiq yer tutmaq üçün geniş üfüqlər açıldı. Zəngin və qədim mədəni irsə sahib olan türkdilli xalqlar da tarixin bəxş etdiyi bu gözəl fürsətdən istifadə edərək milli-mədəni özünəqayıdış yolunda ciddi addımlar atmağa başladı. Eyni

zamanda, soya, dilə tarixi və mədəni keçmişə, adət-ənənəyə malik olan xalqlarımızın mənəvi həyatında gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək məqsədi ilə həmin dövrdə TÜRKSOY Təşkilatının yaradılması bu yolda vaxtında atılmış faydalı bir addım oldu".

Azərbaycan Prezidenti müraciətində bunları da əlavə etmişdir ki, TÜRKSOY bəşər sivilizasiyası xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi, Mahmud Qaşqarlı, Yusif Balasaqunlu, Uluqbəy, Yunis İmrə, Nəvai, Məxtumqulu, Abay irsi kimi nadir incilər vermiş türkdilli xalqların mədəni inteqrasiyası, bu qədim zəngin irsin araşdırılıb üzə çıxarılması, dünyada geniş təbliğ olunması, müxtəlif mədəni layihələrin gerçəkləşdirilməsində faydalı işlər aparmışdır. TÜRKSOY-un mədəni yönümü digər beynəlxalq təşkilatlarla, xüsusilə YUNESKO ilə qurduğu əməkdaşlıq əlaqələri təqdirəlayiqdir. TÜRKSOY-un məqsəd və vəzifələri müstəqil Azərbaycan dövlətinin mədəniyyət sahəsindəki strategiyasına tam uyğundur. Buna görə də biz TÜRKSOY-un fəaliyyətinə böyük əhəmiyyət verir və onu dəstəkləyirik.

Heydər Əliyev 2003-cü il fevralın 6-da Prezident sarayında TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri Daimi Şurasının XIX toplantısının iştirakçılarını qəbul etmişdir. Dövlətimizin başçısı qonaqları səmimiyyətlə salamlayaraq, türkdilli dövlətlər birliyi təşəkkül tapdıqdan sonra yaranmış təşkilatlar sırasında TÜRKSY-u çox əhəmiyyətli qurum kimi səciyyələndirdi. Azərbaycan Prezidenti türkdilli dövlətlər və xalqlar arasında, ilk növbədə, mədəni əlaqələrin inkişafı zərurətindən söhbət açaraq dedi ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın, insani əlaqələrin inkişaf etdirilməsi vacib məsələdir. Ancaq bunların hamısının kökündə mədəniyyət, dil, bizim adət-ənənələrimiz durur. Bizi bir-birimizə bağlayan nədir? Bu, dilimizin eyni kökdən olmasıdır. Düzdür, bəziləri bir-birilərini başa düşmürlər. Amma biz dilimizə görə bir kökdən gəlmiş xalqlarıq. İkincisi, bizim müştərək mədəniyyətimiz, ənənələrimiz, müştərək mənəvi dəyərlərimizdir. Bunlar türkdilli xalqları həmişə, əsrlər boyu bir-biri ilə bağlayıb, birləşdirib, bir-biri ilə yaxınlaşdırıbdır.

Prezident Heydər Əliyev tarix boyu müxtəlif səbəblərdən, o cümlədən imperiyaların əsarətindən sıxıntı çəkən, bəzən inkişafdan qalan türk dillərinin hazırkı dövrdə təkmilləşməsi üçün geniş imkanlar olduğunu söylədi. Dövlətimizin başçısı TÜRKSOY təşkilatının xətti ilə bu istiqamətdə görülən işləri yüksək qiymətləndirdi. RF-nin subyektləri olan Tatarıstan, Başqırdıstan respublikalarının inkişaf perspektivlərinə toxundu, Tuva, Xakasiya, Altay respublikalarında yaşayan xalqların öz soy-kökünə qayıdışını da müstəqilliyin bəhrəsi kimi qiymətləndirdi, bu respublikalarla bağlı xatirələrini yada saldı.

Azərbaycanın mədəniyyət naziri, TÜRKSOY-un baş direktoru Polad Bülbüloğlu Prezident Heydər Əliyevə bu təşkilatın üzvləri adından müraciətlə dedi:

Hörmətli Prezidentimiz, bu təşkilatın başçısı kimi mən bütün həmkarlarım adından Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Biz dəfələrlə demişik ki, türkdilli dövlətlərin başçıları arasında TÜRKSOY-a Sizin xüsusi qayğınız vardır. Siz yeganə ölkə rəhbərisiniz ki, TÜRKSOY-un Bakıda keçirilən toplantısına gəldiniz və orada çıxış etdiniz. Sizin çıxışınız TÜRKSOY-un bütün sənədlərində bizim üçün proqram xarakterini indiyədək saxlayır.

Keçən il TÜRKSOY-un on illiyində Siz bizə təbrik məktubu göndərmişdiniz. Bu təbrik məktubunda da bizim fəaliyyətimizi çox yüksək dəyərləndirmisiniz. Buna görə Sizə öz dərin təşəkkürümüzü bildiririk.

Türkiyənin mədəniyyət naziri Hüseyn Çelik Bakıya indiki səfəri zamanı gördüyü müsbət yeniliklər və keçirdiyi görüşlər barədə məlumat verərək dedi ki, möhtərəm Prezident, Türkiyəni burada təmsil edən bütün nümayəndələrin zati-alinizə böyük minnətdarlığı vardır. Siz burada onları hədsiz mehribanlıqla qəbul etmisiniz, himayədarlıq göstərmisiniz. Mən onların adından Sizə təşəkkür etmək istəyirəm. TÜSİAB-ın təmsilçisi olan iş adamlarının da zati-alinizə belə minnətdarlığı vardır. Onların adından da Sizə təşəkkür etmək istəyirəm. Siz burada onlara qol-qanad vermisiniz. Əminəm ki, Sizin himayənizlə və bizim əzmimizlə ölkələrimiz arasında həm iqtisadi, həm də mədəni əlaqələr daha da inkişaf edəcəkdir (43, 7 fevral 2003-cü il, № 5).

2003-cü il fevralın 5-də Bakı Muzey Mərkəzində TÜRKSOY Beynəlxalq Təşkilatı Daimi Şurasının növbəti 19-cu iclası keçirilmişdir. İclasda türkdilli ölkələrin, o cümlədən 6 müstəqil dövlətin və Rusiya federasiyasının subyekti olan 6 türkdilli respublikanın mədəniyyət nazirləri iştirak etmişlər. Mədəniyyət nazirləri türkdilli xalqların mədəni inteqrasiyasında, bu qədim, zəngin irsin araşdırılıb üzə çıxarılmasında, dünyada geniş təbliğ olunmasında, müxtəlif mədəni layihələrin gerçəkləşməsində TÜRKSOY ilə qurduğu əməkdaşlıq əlaqələrindən danışdılar. Türkdilli xalqlar arasında mədəni əlaqələrin inkişafında göstərdikləri yüksək xidmətə görə xalq yazıçıları Elçinə və Anara TÜRKSOY Beynəlxalq Təşkilatının mükafatları təqdim olundu. TÜRKSOY-un Daimi Şurasının 19-cu iclası fevralın 6-da öz işini başa çatdırmışdır. Bu münasibətlə Muzey Mərkəzində türkdilli ölkələrin mədəniyyət nazirləri birgə bəyannamə imzalamışlar. İclasda mədəni irsin mühafizəsi haqqında YUNESKO-nun Beynəlxalq Konvensiyasının layihəsini dəstəkləmək məqsədəuyğun hesab edildi, türk dünyasının memarlıq abidələrinin qorunub saxlanması və

bərpası üçün TÜRKSOY yanında Beynəlxalq Əlaqələndirmə Mərkəzinin yaradılması barədə Azərbaycan Mədəniyyət Nazirliyinin təklifi qəbul olundu, 2003-cü il üçün TÜRKSOY Beynəlxalq mükafatının verilməsi haqqında elanın mətni bəyənildi.

2005-ci ilin 5 oktyabrında Ankarada TÜRKSOY-un toplantısı öz işinə başlamış və bu toplantıda TÜRKSOY-a daxil olan dövlətlərin mədəniyyət nazirləri qurumun gələn il İstanbulda keçiriləcək 23-cü konfransına hazırlıqla bağlı məsələləri müzakirə etmişlər. Xatırladaq ki, TÜRKSOY-un 22-ci konfransı 2005-ci ilin avqustunda Rusiyanın Kazan şəhərində keçirilib. TÜRKSOY-un toplantısı ilə eyni vaxtda Ankarada "Türkdilli xalqların əsərləri miniatür kitabda" adlı təşkil edilmiş sərgisində ölkəmizi Azərbaycan Miniatür Kitab Muzeyinin rəhbəri Zərifə Salahova təmsil etmişdir.

Türk kültür və sənətləri ortaq yönətimi (TÜRKSOY), Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə mədəniyyət nazirlərinin Almatıda 12 iyun 1993-cü il tarixində imzaladıqları anlaşma ilə rəsmi dil türkcə, mərkəzi Ankara olaraq qurulmuşdur. Almatı toplantısında hazır olan Başqırdıstan, Şimali Kipr Türk Cümhuriyyəti və Tatarıstan nazirləri də TÜRKSOY-a qatılmışlar.

Türklərin YUNESKO-su deyə biləcəyimiz və yeni bir quruluş olan TÜRKSOY-un məqsədlərini qısaca olaraq aşağıdakı kimi sistemləşdirə bilərik:

Türk dilində danışan ölkələr və topluluqlar arasında mədəni əlaqələrin inkişaf etdirilməsi; Türk mədəniyyətinin araşdırılması, tədqiqi, inkişaf etdirilməsi, qorunması və millətlərarası sahədə tanıdılması; Tarixi, siyasi və coğrafi şərtlərin və xarici amillərin səbəb olduğu mədəni fərqliləşmələrin ortadan qaldırılması; Türk mədəniyyətini başqa mədəniyyətlərin təsirindən qurtararaq, öz qaynaqlarına dayanan bir şəkildə öz mədəni dinamikasının hərəkətə keçirilməsi və yayğın olan digər yabançı mədəniyyətlərlə yarışacaq hala gətirilməsi; Geniş bir coğrafi ərazidə yaşayan türk dövlət və topluluqları arasında əlifba və dil birliyinin yaradılması; Dünya sivilizasiyasının formalaşmasında önəmli bir yer tutan türk mədəniyyətinin gələcək nəsillərə ötürülməsi; Türk mədəniyyəti, sənəti və digər mövzularda arxiv və sənədləşmə mərkəzi qurulmasıdır.

Beynəlxalq bir təşkilat olan TÜRKSOY, türk dövlət və topluluqlarına istiqamətlənmiş, yuxarıda açıqladığımız məqsədlərə uyğun, bütün mədəniyyət və sənət fəaliyyətlərində olmaq üzrə bu məqsədlə qurulmuş rəsmi qurum, vəqf, dərnək, kişi və quruluşlarla əməkdaşlıq etməkdədir.

TÜRKSOY üzv ölkələrinin mədəniyyət nazirləri Türk Dünyasında tarixi, mədəni və sənət sahələrində nələr edilə biləcəyi mövzusunda görüşmələr və bəzi qərarlar qəbil etmişlər. Bu qərarlar çərçivəsində – Ankarada 1993-cü ildə Türk Dünyası Yazarlar Birlikləri Toplantısı, 1994-cü ildə Ankarada möhtərəm Heydər Əliyevin də bu məqsədlə gəlib qatıldığı şair Füzulinin anadan olmasının 500 yubiley tədbirləri, 1994-cü ildə Qazaxıstanda Türk Dünyası Əl Sənətləri Sərgisi, 1994, 1995 və 1996-cı illərdə Şimali Kipr Türk Cümhuriyyətində TÜRKSOY Opera Günləri, 1993 və 1994-cü illərdə Türkmənistanda Aşıq Aydın Pir Festivalı və Türkiyədə 1995 və 1996-cı illərdə TÜRKSOY Novruz Şöləni fəaliyyətləri təşkil edilmişdir.

TÜRKSOY: Türk mədəniyyətinin ortaq dəyərlərini, insanlarını, ədəbi və fikri əsərlərini tanıtmaq məqsədilə də işlər görməkdədir. Qırğızların milli qəhrəmanı MANAS-ın 1000 illik yubileyi tədbirləri və silsilə "Manas dastanı" və məşhur qazax şairi Abayın 150 illik yubiley tədbirləri üçün də "ABAY" adlı əsərləri yayınlanmışdır. 1995-ci il ərzində: "Altaylardan Tuna Boyuna Türk Dünyasının Ortaq Motivləri", "Türkmən şeiri antologiyası", "Başqırd xalq dastanı URAL BATIR" və "Tükcə-Başqırdca danışıq kitabçası" adlı əsərlər yayınlanmışdır. Bundan başqa, iyun 1996-cı ilin sonuna qədər "Türk Cümhuriyyətləri memarlıq abidələri" və tatarların "İdige Dastanı" yayınlanmışdır. 1999-cu ilin sonunda Dədə Qorqud və Böyük Bulgar (Tatar) tarixi adlı əsərlər yayınlanacaqdır. Kitablarımız ümumiyyətlə, iki ləhcədə yayınlanmaqdadır. Türkiyə Cümhuriyyəti Kültür Bakanlığı (HAGEM) ilə birlikdə fəaliyyəti daha aktiv hala gətirmək üçün "Ana yurddan Ata yurda Türk Dünyası" adlı bir dərgi yayınlanmaqdadır. Bundan əlavə Türksoy təşkilatı Hayrettin İvginin redaktorluğunda "Türksoy" dərgisinin 4 sayını çıxarmışdır.

Türksoy 1993-cü il tarixində qurulmasına baxmayaraq bu fəaliyyətlərini çox az bir büdcə ilə bacarmışdır. Bu nailiyyətdə qurucu cümhuriyyətlərin dövlət başçıları Süleyman Dəmirəlin, Heydər Əliyevin, Nursultan Nazarbayevin, İslam Kərimovun, Əsgər Akayevin, Səfərmurad Türkmənbaşının və quruluşundan bu günə qədər Türksoyun başqanı Polad Bülbüloğlunun və Türksoy işçilərinin səyləri böyük olmuşdur.

7-8 may 1999-cu ildə Ankarada "Divan-i Lüğət-it Türk"ün yazılışının 925 illiyinə həsr olunmuş fəaliyyətlər və Bursada 5-23 iyunda TÜRKSOY üzvü ölkələrin rəssamlarının buluşması - yığıncağı düzənlənmişdir. 25-27 may 1999-cu il tarixləri arasında Bişkekdə türk dilində danışan ölkələrin mədəniyyət nazirlərinin toplantısı və Çingiz Aytmatovun 70 illik yubileyinin toplantısı keçirilmişdir.

7 iyun 1999-cu ildə Dədə Qorqudun 1300 illiyi Parisdə qeyd edilmişdir. 4-8 sentyabr 2000-ci ildə Türkiyə Cümhuriyyəti Türkiyə Şairlər Buluşması gerçəkləşdirilmişdir. 25-27 iyun 1999-cu il tarixində Türkiyə Cümhuriyyəti-də Türk Dilində Danışan Ölkələrin VI Opera Günləri keçirilmişdir. Tuğanlıq festivalı, Teatr festivalı, Şairlər Buluşması, Anma və Kutlama Günləri təşkil edilmişdir.

Türk Cümhuriyyətləri ilə Türkiyə Cümhuriyyəti arasındakı elmi-mədəni əlaqələrdən bəhs edərkən vurğulamaq lazımdır ki, tarixdə ilk dəfə 1552-ci ildən sonra Türkiyə (Anadolu türk xalqı) ilə Orta Asiya türkü arasında əlaqə körpüsü 1991-ci ildə qurulmuş, iqtisadi və siyasi anlamda əməkdaşlıq imkanları bundan sonra qarşılıqlı olaraq yaranmışdır. Gerçək olan budur ki, dilin mənşəyinin bir olması xalqların bir araya gətirilməsində diqqətdən kənarda qala bilməz. Türkiyənin bu beş türk cümhuriyyəti, xüsusilə isə Azərbaycan ilə dərin və köklü bir mədəniyyət bağları vardır.

Türk Dünyası dediyimiz, Türkiyə Cümhuriyyəti, Azərbaycan Respublikası, Qırğızıstan Respublikası, Özbəkistan Respublikası, Türkmənistan Respublikası, Qazaxıstan Respublikası Mədəniyyət Nazirləri İstanbul, Bakı, Almatı, Marmaris, Bişkek, Aşqabad, Ankara toplantıları ilə bir araya gələrək suverenlik, ərazi bütövlüyü, qarşılıqlı bərabərlik prinsiplərini rəhbər tutaraq, 12 iyul 1993-cü ildə Qazaxıstanın paytaxtında bir mədəniyyət müqaviləsi imzalamışlar. Bu anlaşma ilə də Türk Kültür və Sənətləri Ortaq Yönetimini (TÜRKSOY) qurmuşlar. Bu təşkilata Şimali Kipr Türk Cümhuriyyəti, Başqırdıstan Respublikası və Tatarıstan Respublikası Mədəniyyət Nazirləri də qatılmışdır.

Bu çalışmaların və mədəni birliyin nəticəsində TÜRKSOY-un rəsmi dili türkcə, yönətim mərkəzi də Ankara olaraq qəbul edilmişdir. Büdcəsi isə üzv ölkələrin qatqı payları ilə yaratdıqları bir fondda toplanmışdır. Yayın, tanıtma, anma, festival kimi fəaliyyətləri və bütün xərcləri bu fonddan ödənməkdədir.

TÜRKSOY-un quruluş məqsədi isə: Türkdilli ölkələr və topluluqlar arasında mədəni əlaqələri artırmaq, türk mədəniyyətini araşdırmaq, inkişaf etdirmək, qorumaq, bütün dünyaya tanıtmaq və dünya mədəniyyəti ilə qaynaşdırmaqdır. Bundan başqa geniş bir coğrafi bölgədə yaşayan türk dövlət və topluluqları üçün dil və əlifba birliyini təmin etmək, arxiv qurmaq və gələcək nəsillərə ötürməkdən ibarət olaraq müəyyənləşdirilmişdir.

TÜRKSOY-un başında TÜRKSOY-a üzv ölkələrin Mədəniyyət Nazirlərinin meydana gətirdiyi bir "Daimi Şura", bir "Dönəm Koordinatoru" və bir də "Daimi Şura" tərəfindən seçimlə təyin edilən, bütün işləri, çalışmaları və fəaliyyətləri idarə edən Ümumi Müdir olmaqdadır. Bu sahədə xüsusi xidmətləri olan Polad Bülbüloğlu bu haqda deyir ki, məhz ilk dəfə 1994-cü ildə TÜRKSOY Ümumi Müdirliyinə hörmətli mədəniyyət nazirlərinin səsverməsi ilə seçildim və çalışmalara başladım. Bu gündən sonra da Türk respublikaları və topluluqları arasındakı əlaqələr sürətli bir inkişaf və yüksəlmə göstərdi: Oktyabr 1995-ci ildə bütün üzv ölkələrin folklor dəstələrini Ankaraya və Çoruma gətirdik, anlamlı və uğurlu I TÜRKSOY Folklor Festivalını keçirdik, qardaşları tanışdırdıq və Asiya ilə Anadolunu qucaqlaşdırdıq. Bu arada yarmarkalar, teatr və opera günləri təşkil etdik, yazarlar birliklərini Ankarada topladıq. Sırasıyla Türkmənistanda Aşıq Pir Festivalı, Şimali Kipr Türk Cümhuriyyətində Opera Günləri, Başqırdıstanın paytaxtı Ufada, Rusiya Federasiyasının Mədəniyyət Nazirliyinin ilgi və katkılarını görərək, teatr gönləri təşkil etdik. Bu hadisə göstərdi ki, bölgədə yaşayan türklər dillərini və mədəniyyətlərini qorumaqda və inkişaf etdirməkdədir. Qazaxıstanda da Türk əl sənətləri sərgisini açdıq. Bundan əlavə türk mədəniyyətinin önəmli əsərlərinin nəşrini proqramımıza daxil etdik. Pulsuz olaraq paylanmaqda olan "Atayurddan Anayurda Türk Dünyası" adlı kültürəl bir dərgiyə də yayın həyatı verdik.

Mart 1996-cı ildə Ankarada türkdilli ölkələrin mədəniyyət nazirləri bütün bu çalışmalarla kifayətlənməyərək dünya mədəniyyəti ilə bütünləşmək niyyətlərini bəyan etdilər. Təhsil, elm və mədəniyyət yolu ilə beynəlxalq əməkdaşlığı artırmaq, sülh və əmin-amanlığın qorunmasına yardım məqsədilə, YUNESKO Genəl Müdiri Federiko Mayoru İstanbula dəvət edilmiş və YUNESKO-TÜRKSOY mədəni əməkdaşlıq sözləşməsi gerçəkləşdirilmişdir. Bunun nəticələri türk və dünya mətbuatında əks-səda oyatdı. Türk Cümhuriyyətləri ilə Türk topluluqları üçün bu əməkdaşlıq böyük bir uğur və mədəni qazanc oldu.

Aralarında güclü tarix, dil, mədəniyyət və din baği olan Türk Cümhuriyyətləri gələcəkdə barış, güvən, əməkdaşlıq mühiti qurmaları və keçmişi gələcəyə daşımaları əsas məqsəd saydı. Bildirildi ki, Türk Cümhuriyyətləri arasında olan bu dayanışma bizlərə təməldə dostluq, qardaşlıq, aydınlıq və mədəniyyət dolu günlər gətirəcəkdir. Bundan başqa TÜRKSOY-un türklərin ortaq keçmişinə, tarixinə, sənətinə, mədəniyyətinə və dilinə sahib çıxması, qoruması və inkişaf etdirməsi onun ən təbii haqqıdır və kimsə bundan başqa bir məna çıxarmamalıdır. Bütün bu çalışmalarımızla yanaşı TÜRKSOY-a tərəfdar olan Türkiyə Cümhuriyyətinin də kültürəl anlamda və Türk İşbirliyi və Kalkınma Ajansı (TİKA) vasitəsilə Avrasiyaya və TÜRKSOY üzvü olan ölkələrə böyük yardımlar etməkdə olduğu bilinməkdədir. Təşkilatçılar bütün dünyaya bəyan etdilər ki, TÜRKSOY-u qurmaqda məqsədimiz yüksək türk mədəniy-

yətinin varlığını və kimliyini qorumaq, dünya mədəniyyətləri ilə bütünləşdirmək və bu mədəniyyət silahı ilə bölgədə və dünyada sülhə yardımçı olmaqdır.

Nəinki Azərbaycan – Türkiyə elmi-mədəni əlaqələri, bütövlükdə Türk Dünyasının mədəni inteqrasiyası istiqamətində TÜRKSOY-un xüsusi rolu olmuşdur. 1993-cü ildən fəaliyyət göstərən təşkilat öz sıralarında tək müstəqil ölkələri deyil, eyni zamanda müşahidəçi qismində türk muxtar qurumlarını, Rusiya Federasiyasi tərkibində olan türk respublikalarını da birləşdirir. TÜRKSOY-un az müddət ərzində strukturlaşması, Türk Dünyasının mühüm tarixi əhəmiyyətli hadisələrini özündə əks etdirən olduqca zəngin bir təqvimin tərtib edilməsi, yarandığı vaxtdan 10 ildən çox vaxt keçməsinə baxmayaraq intensiv işləməsi mədəniyyət və incəsənət sahəsində bir çox uğurların təminatı olub. Ümumtürk dəyərlərinin qorunub saxlanması, tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, incəsənətin müxtəlif sahələrində birgə müsabiqələrin təşkili vahid Türk Dünyası ideyasını dünyanın nəzərinə çatdırır. TÜRKSOY-la YUNESKO arasında birgə əməkdaşlıq müqaviləsinin imzalanması təşkilatın beynəlxalq aləmdə nüfuzunu daha da artırıb. Təşkilatın yaradılması və fəaliyyət prinsipləri haqqında müqaviləyə müvafiq olaraq TÜRKSOY aşağıdakı mühüm funksiyaları bu gün də uğurla həyata keçirir: Türk ölkələri arasında mədəniyyət və incəsənət sahəsində əlaqələri daha da möhkəmləndirmək və inkişaf etdirmək üçün müxtəlif proqram və layihələr həyata keçirmək; Ümumi mənəvi dəyərləri, tarixi irsi, mədəniyyət və incəsənət əsərlərini, ənənəvi idman növlərini və xalq oyunlarını təbliğ etmək; Televiziya və radio proqramları, sənədli, video, kinofilmlər hazırlamaq, Türk dünyasının ən yaxşı mədəniyyət və incəsənət nailiyyətlərini populyarlaşdırmaq; İncəsənətin teatr, musiqi, opera və balet növlərində birgə festivalların, müsabiqələrin və başqa tədbirlərin keçirilməsi; Sərgilərin təşkil edilməsi, incəsənətin və heykəltəraşlığın inkişafına yönələn tədbirlərin həyata keçirilməsi; Davamlı olaraq çap məhsullarını nəşr etmək; Türk Dünyasının tarixində mühüm əhəmiyyət kəsb edən tarixi şəxsiyyətlərin, mədəniyyət, incəsənət, ədəbiyyat hadisələrinin xatırlanması üçün kütləvi tədbirlərin, yubileylərin keçirilməsi; TÜRKSOY-un məqsəd və vəzifələri çərçivəsində beynəlxalq elmi konfrans, simpozium, mübahisələrin təşkil olunması; Mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən başqa milli, beynəlxalq təşkilatlarla, ictimai strukturlar və hərəkatlarla əlaqələr saxlamaq, əməkdaşlıq üçün müxtəlif birgə tədbirləri reallaşdırmaq və s.

TÜRKSOY tərəfindən 1999-cu ildə görülən işlərin yekunu olaraq, həmçinin, gələcəkdə qarşıda duran vəzifələri özündə əks etdirən "XXI əsrə müraciət" qəbul olundu. Ankarada keçirilən Nazirlər Şurasının XIII yığıncağında qəbul olunmuş müraciət TÜRKSOY adından türk dövlətlərinin başçılarına, xalqlarına və hökumətlərinə ünvanlanmışdı. Müraciətdə aşağıdakılar bəyan edilirdi:

– Biz hamımız üçün əlverişli olan əlaqələrimizin intensivləşdirilməsinə təkan verəcək mühitin yaradılmasını, xalqlar arasında əməkdaşlığın, mədəni mübadilənin gücləndirilməsinin zəruriliyini dərk edirik. Bütün bunlar XX əsrin sonlarında başlanan qloballaşma prosesi, dünya miqyasında hərbi münaqişələr, terrorizm, iqtisadi böhran və təbii fəlakətlərin artdığı bir fonda baş verir;

– Yeddi il bundan öncə TÜRKSOY çərçivəsində fəaliyyətə başlayanda bizim məqsədimiz Avrasiyanın böyük etnoslarından biri olan türkdilli xalqların mədəniyyətini, tarixini birgə öyrənmək idi. Əminik ki, başladığımız işi XXI əsrdə uğurla davam etdirəcəyik;

– Dünya sivilizasiyasına öz töhfələrini verən türkdilli xalqların mədəniyyəti XXI əsrdə dünya mədəni irsinin mühüm komponentlərindən birinə çevriləcək;

– Müqavilə ("TÜRKSOY-un yaradılması və prinsipləri haqqında" müqavilə nəzərdə tutulur) subyektlərinin və türkdilli ölkələrin suverenliyinə böyük hörmətlə yanaşaraq, heç bir ölkənin siyasi oriyentasiyasına müdaxilə etmədən biz, dünyanın mədəni məkanında öz mədəni inteqrasiyamızı sürətləndirərək, XXI əsrdə Türk Dünyasının ümumi mədəni dəyərlərinin geniş təbliğinə nail olmalıyıq;

– TÜRKSOY-un məqsəd və ideyaları çərçivəsində beynəlxalq, regional və milli təşkilatlarla, hökumətlərlə, mədəniyyət, incəsənət sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları ilə əlaqələrin daha da inkişaf etdirilməsinə yönələn tədbirləri davam etdirəcəyik;

– Biz əminik ki, xalqlar və ölkələr arasında təzahür edən dözümsüzlük tendensiyasının yerini XXI əsrdə tolerantlıq və qarşılıqlı hörmət hissi tutacaqdır;

– Bu qiymətli dəyərləri həyata keçirmək üçün biz – türkdilli ölkələrin mədəniyyət nazirləri bütün səylərimizi davam etdirəcəyik;

– İnanırıq ki, XXI əsrdə türkdilli dövlətlərin başçıları TÜRKSOY-a öz ideyalarını reallaşdırmaq üçün yüksək səviyyədə yardımlarını davam etdirəcəklər.

Türkiyədə əsas beynəlxalq turizm mərkəzləri Egey və Aralıq dənizi sahillərində yerləşir. Onların sırasına İzmir, Antalya, Bodrum, Mərmərə, Çeşmə və b. daxildir.

Bu bölgələr istiqamətində salınmış gözəl yollar, yol istismar-xidmət sahələri, kempinq dayanacaqları və aerodromlar uzunmüddətli, maraqlı ekskursiya turları keçirmək, mehmanxana təsərrüfatı və müxtəlif nəqliyyat növlərindən səmərəli istifadə etmək imkanı yaradır.

Hazırda türk biznesmenlərini Qara dəniz sahillərinin imkanları cəlb edir, 1991-ci ildən burada otel və idman klubları inşa edilir. Türkiyə turizm nazirliyi Qara dənizdə yaxtalarda beynəlxalq reyslərin, Krım və Qafqaz bölgələri üzrə ekskursiya turlarının keçirilməsi məqsədi ilə Rusiya, Azərbaycan, Ukrayna və Gürcüstanın müvafiq qurumları ilə sıx əlaqə yaradır. Türk biznesmenləri qarşılıqlı əməkdaşlıq əsasında həmin dövlətlərin dənizyanı kurort bölgələrində beynəlxalq turizmin inkişafına sərmayə qoyuluşuna maraq göstərirlər.

Türkiyənin tarixi ənənələri, milli mətbəxi, şərq bazarları xarici alıcıların istənilən ehtiyacının ödənilməsinə şərait yaradır. Bununla bağlı alver məqsədi ilə ölkəyə gələn turistlərin ekskursiya turları proqramlarına türk bazarlarına və ticarət mərkəzlərinə səyahət də daxil edilir. Turizm başlıca olaraq Türkiyənin Şərqi Avropa ölkələri ilə qarşılıqlı iqtisadi əlaqələrinin möhkəmlənməsinə xidmət edir.

Ölkədaxili turizmin təşkili, türk vətəndaşlarının xarici səfərləri məsələsi Türkiyə turizm nazirliyi tərəfindən idarə olunur. Nazirliyin nəzdində turizm üzrə Məşvərət Şurası fəaliyyət göstərir. Şuranın tərkibinə daxili işlər, xarici işlər, maliyyə, ticarət, sənaye nazirliklərinin, Dövlət plan təşkilatının, Türkiyə ticarət və sənaye palatalarının nümayəndələri daxildir. Ölkə daxilində turizmin inkişafı üçün tədbirlərin, habelə turizm sahəsində siyasətin müəyyənləşdirilməsi üçün tövsiyələrin işlənib hazırlanması Məşvərət Şurasının öhdəsinə düşür.

Turizmin təşkil və idarə edilməsi məsələlərinin həlli əslində Turizm Nazirliyi nəzdində turizm məsələləri üzrə baş idarənin üzərinə düşür. Yerlərdə turizmin inkişafına yardım göstərmək məqsədi ilə turizm üzrə vilayət komitələri fəaliyyət göstərir. Onlar müxtəlif festivalların, konsert proqramlarının, sərgilərin, mühazirə, məruzə və söhbətlərin təşkili ilə məşğul olur, turistlərə xidmət edən otel, motel və kempinq tikintisi ilə məşğul olan özəl türk şirkətlərinə yardım göstərir, habelə ekskursiyalar təşkil edir.

Türkiyə turizm nazirliyi ölkə hüdudlarından kənarda böyük işlər görür. Nazirliyin nümayəndəlikləri Beyrut, Brüssel, Vyana, Frankfurt-Mayn, Kəraçi, London, Nyu-York, Paris, Roma, Stokholm, Tehran, Moskva və digər turizm mərkəzlərində fəaliyyət göstərir.

Ölkədə turistlərə xidməti çoxsaylı özəl türk, xarici şirkətlər, habelə nəhəng holdinqlər həyata keçirir. Son illərdə türk turizm firmaları və Rusiya Federasiyasının ixtisaslaşmış təşkilatları arasında əlaqələr canlanmışdır. Moskva, Sankt-Peterburq, Bakı, Tbilisiyə 800-1200 $ dəyərində 7-9 günlük turlar təşkil olunur. Bu gün Azərbaycanla Türkiyə arasında kulturoloji əlaqələr yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu işdə "Türksoyun", Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, habelə Atatürk Mərkəzinin xidmətləri əvəzsizdir.

### *3.20. YUNANISTAN*

**Ərazisi: 132 min kv km (dünyada 94-cü yer).**
**Əhalisi: 11 mln nəfər (dünyada 70-ci yer-2007).**
**Paytaxtı: Afina (3.5 mln nəfər -2007).**
**Dövlət dili: yunan dili.**
**Din: pravoslav.**
**Milli pul vahidi: drahma.**

Dünya kültürünün inkişafında qədim yunan adət və ənənələrinin öyrənilməsi hazırda mühüm əhəmiyyətə malikdir. Antik dövrdə Yunanıstanda çox allahlıq geniş yer tutduğuna görə yaranan miflərin və əsatirlərin əsas məzmunu da məhz elə allahlarla əlaqələndirilirdi. İnsanlaşdırılmış bu allahlar bayram əhval-ruhiyyəli xarakter daşıyırdı. Bu baxımdan Yunanıstanda od allahı, su allahı, məhəbbət, gözəllik, incəsənət, şərab allahı, işıq, müharibə və s. allahları tərənnüm edən miflər yaranmışdı.

Məsələn, Zevs yunanlarda bütün allahların və insanların baş allahı sayılırdı. Od allahı Prometey insanlara odu bəxş etdiyinə görə Zevs onu İda dağına zəncirləyir.

Lakin bütün bu allahlar arasında yunanların ən çox sevdikləri və şərəfinə kütləvi bayramlar təşkil etdikləri üzümçülük, şərab və məhsul allahı olan Dionisə etimad xüsusi əhəmiyyət kəsb edirdi. Buna görə də yunanlar Dionisin şərəfinə ildə 3 dəfə bayram keçirirdilər. Birinci bayram mart ayının axırı, aprel ayının əvvəlində təşkil edilir və "Dionisin böyük bayramı" adlanırdı. Yazın gəlişini tərənnüm edən bu bayramda əsasən şəhər adamları iştirak edirdilər. Həmin vaxtda Afinanın küçələri böyük izdihama və təntənəyə bürünürdü. İkinci bayram yanvar ayının sonu və fevral ayının əvvəlində keçirilən "Liney" bayramı idi. Üçüncü bayram isə "Dionisin kiçik bayramı" adlanırdı. O, dekabrın axırı, yanvar ayının əvvəllərində keçirilirdi. Bu bayram əsasən kənd yerlərində keçirilirdi. Dionis bayramları əsasən dövlət səviyyəsində təşkil edilirdi. Belə bayramlarda dövlət tərəfindən təyin olunmuş təşkilatçıya Arxont deyilirdi. Bayramın bütün məsuliyyəti Arxont üzərinə düşürdü. O, bütün xərcləri müəyyənləşdirir, tədbirin proqramını, repertuarını, iştirakçılarını müəyyən edirdi. Əlbəttə, belə bayramlarda bütün əhali iştirak edirdi. Arxont müasir təşkilatçı-rejissora bənzəyir, bütün hazırlıq işlərinə rəhbərlik edir, repertuarı

da özü müəyyənləşdirirdi. Tədbirin hazırlıq prosesində Arxont ayrı-ayrı qruplara xor başçıları - xoreqləri müəyyən edirdi. Xoreq tamaşanın müvəffəqiyyətli keçməsinə nəzarət edir, Arxont qarşısında məsuliyyət və şəxsi cavabdehlik daşıyırdı. Dionis bayramı bir növ azərbaycanlıların "Növruz" bayramına oxşayırdı. Bu bayramda keçi dərisi geymiş gənclər baharı tərənnüm edən Dionisin simasında bolluq arzulayan nəğmələr oxuyur, səhnələşdirilmiş oyunlar göstərir, rəqs edirdilər. Bu bayramlarda tragik nəğmələr – "traqos odalar" xüsusi yer tuturdu. Yunan mərasimlərində totemizm əlamətləri də geniş yer tuturdu. Məsələn, onlara görə hər allahın öz sevimli heyvanı var idi. Həmin heyvanı kəsməklə "allahın müqəddəs ruhuna" qovuşacaqlarını təsəvvür edirdilər. Buna görə də Dionisin sevimli heyvanı olan keçini qurban kəsirdilər. Keçi müqəddəs (totem) hesab olunduğu üçün onu ayrı vaxtlarda kəsmək olmazdı. O yalnız "Dionis bayramı" günü kəsilirdi. Qurban mərasimi tragik (faciəvi) nəğmələrlə müşayiət olunurdu. "Dionis bayramında" mövzusunu məişətdən götürülmüş, komik xarakter daşıyan xalq oyun və tamaşalarından da geniş istifadə edilirdi.

Qədim Yunanıstanda yaşıllıq allahı olan Demetranın adı ilə bağlı olan bayram da geniş yayılmışdı. Bu bayram Demetra haqqında yaranmış miflə əlaqələndirilirdi. Mifdə deyilir ki, Demetranın qızı Persefona çəmənlikdə çiçək toplayarkən yeraltı aləmin hökmdarı Aid (Pluton) onu götürüb qaçır və özünə arvad edir. Demetra qızının kim tərəfdən qaçırıldığını bilmir və onu on gün axtarır. Yalnız onuncu gün günəş allahı Hermes Demetraya qızının yerini xəbər verir. Bundan sonra qızının yerini bilib, ona xəbər verməyən baş allah Zevsə qarğışlar edərək Yerin torpağını qurudur. Bu vaxt Zevs Demetranın qızı Persefonanı özünə qaytarılmasını əmr edir. Onun əmrinə əsasən ilin üçdə iki hissəsini Persefona anasının yanında ola bilərdi. Bu münasibətlə Demetra yerə əkilən məhsulu göyərdir, bolluq yaradırdı. Buna görə də payızda məhsul yığılanda və ətraf aləm saralanda Persefonanın yeraltı aləmə keçməsi kimi təsəvvür olunur, yazda hər yan göyərdikdə isə onun yeraltı aləmdən qayıtdığı an kimi bayram edilirdi.

Afinalıların əsas bayramı Afina allahının şərəfinə təşkil olunan Panafiney oyunları idi. Bu bayram hər il qeyd olunur, dörd ildən bir xüsusi təntənə ilə keçirilirdi. Burada atlıların və piyadaların hərəkəti, güləş, qaçış, diskatma yarışları keçirilir, şairlər, musiqiçilər, müğənnilər çıxış edirdilər. Kütləvi rəqslərdə və idman oyunlarında əsasən silahlı oğlanlar, gənclər və kişilər iştirak edirdi.

Olimpiya oyunları Peloponnes vadisindəki Olimpdə keçirilirdi. İlk Olimliya oyunları e.ə. 776-cı ildə keçirilmişdi. Yunanlar əsas idman növləri üzrə 4 ildən bir keçirilən Olimpiya oyunlarında yarışırdılar. Yarışlar 5 gün davam edirdi. Dörd at qoşulmuş arabada yarış daha təhlükəli idi. 12 dəfə dövrə vurmaq lazım gəlirdi. Hakimlər qalib idmançıları zeytun ağacının budaqlarından düzəldilmiş çələnglə mükafatlandırırdılar. Olimpiya oyunlarında ancaq varlılar iştirak edə bilirdilər, çünki yoxsulların bu yarışa hazırlaşmaq imkanları olmurdu. Spartalı qadınlar istisna olmaqla qadınlar yarışlarda iştirak etmirdilər. Olimpiya oyunlarına on minlərlə adam gəlirdi. Buraya koloniyalardan da tamaşaçılar və iştirakçılar gəlirdilər. Olimpiya oyunları keçirilən dövrdə Yunanıstanda müharibələr dayandırılırdı. "Müqəddəs sülhü" pozanlar cərimə olunur və ciddi cəzalandırılırdı. Oyunlara bir neçə ay qalmış ölkənin hər yerinə carçılar göndərilir, şəhərlərdə, kəndlərdə, hətta həbsxanalarda olimpiyada oyunlarının başlanacağı vaxt elan olunurdu.

Olimp yunanlar üçün ən müqəddəs yer idi. Onun mərkəzində Zevs məbədi, bu məbəddə Zevsin nəhəng heykəli yerləşirdi. Bu heykəl dünyanın 7 möcüzəsindən biri sayılırdı. Yunanların il hesabı həmin ildən başlanırdı. Olimpiyada qalibi ölkədə ən hörmətli adam sayılırdı. Bu bayram idmanı, musiqini və poeziyanı özündə birləşdirilirdi. Eyni zamanda olimpiya oyunlarının qaliblərinin şərəfinə heykəltəraşlar (Fidi, Miron və b.) heykəllər qoyur, şairlər onların şərəfinə mədhiyyələr yazırdılar.

IV əsrdə (394-cü il) xristian dini Romada dövlət dini elan edildi. Romanın əsarəti altında olan Yunanıstanda Olimpiya oyunları qadağan olundu. 1896-cı ildə Fransanın ictimai xadimi baron Pyer de Kubertenin (1863-1937) təşəbbüsü ilə Olimpiya oyunlarının keçirilməsi bərpa edildi. İndi hər dörd ildən bir keçirilən Olimpiya oyunları bugünkü günə qədər xalqların sülh və dostluq ənənəsini davam etdirən bir tədbirə çevrilmişdir. Oyunların harada keçirilməsindən asılı olmayaraq onun məşəli Olimpdə günəşdən yandırılmış alovla yandırılır.

Yunan mədəniyyətinin müasir dövrümüz üçün misilsiz əhəmiyyəti var. Yunan əlifbası bir çox əlifbalar üçün əsas olmuş, yunanlar elmin inkişafında nailiyyətlər qazanmış, onların əsərləri müasir dövrdə əksər xalqların dillərinə tərcümə edilmiş, onların yaratdıqları heykəllər və tikililər sonrakı dövr üçün nümunə olmuşdur.

Quldarlıq demokratiyası azad yunanların elm və incəsənətlə məşğul olmasına şərait yaratdı və bu da dünyada elmin və incəsənətin tərəqqisinə təkan verdi. Yunanlar ellin mədəniyyətini yaratmaqla başqa xalqların da elm və mədəniyyətini mənimsəyirdilər.

Qədim Yunanıstan öz milli və dini xüsusiyyətləri ilə digər ölkələrdən seçilirdi. Belə ki, burada allahların şərəfinə müxtəlif xalq mərasimləri, dini ayinlər keçirilirdi. Əgər Yunanıstanda baş allah Zevs hesab olunurdusa, romalılarda baş allah Yupiter hesab olunurdu.

Hazırda Yunanıstan öz milli adət və ənənələri, tarixi mədəniyyət abidələri ilə dünya mədəniyyətində özünəməxsus yer tutur və yüksək pillələrdə dayanır. Bu gün dünyada turizmin təşkilinə görə də Yunanıstan böyük populyarlığa malikdir. Turizm ölkə iqtisadiyyatı üçün ən başlıca biznes mənbəyinə çevrilmişdir.

Qədim Ellada ölkəsi sayılan Yunanıstan uzun illər turizmin tarixi-mədəni istiqaməti üzrə ixtisaslaşmışdı. Odur ki, bu gün kütləvi turizm ölkə üçün nisbətən cavan sahə hesab edilir. Tarixi-mədəni turizm II dünya müharibəsindən sonrakı illərdə surətlə inkişaf edərək əsasən ABŞ-dan gələn turistləri özünə cəlb edirdi. Bu, 1967-ci ilə qədər davam etdi. Həmin il ölkədə hərbi çevriliş baş verdi. Qonşu Aralıq dənizi sahilyanı ölkələrinin turizm sahəsini sürətlə inkişaf etdirdiyi dövrdə hərbi xuntanın hökmranlığı Yunanıstanda turizmin inkişafını dayandırdı. 1974-cü ildə Yunanıstan yenidən demokratik inkişaf yoluna qədəm qoyduqdan sonra ölkədə, xüsusilə adalarda çimərlik turizmi gur inkişaf etməyə başladı. Ölkə kurortları Fransa, İspaniya və digər Aralıq dənizi ölkələrinin kurortları ilə rəqabətə girdi.


QƏDİM AFİNA ŞƏHƏRİ

Ötən əsrin 70-ci illərində turistlər Yunanıstana əsasən Böyük Britaniyadan və Almaniyadan gəlirdi. Lakin 80-ci illərdə Yunanıstan konkret bazarlardan asılılığa son qoymaq, turizmin kütləvi və digər növlərini inkişaf etdirmək üçün Avropanın müxtəlif ölkələrindən turistləri cəlb etməyə başladı. Ölkənin əlverişli coğrafi mövqeyi, iqtisadi-siyasi durumun sabitliyi buna yardım idi. Lakin Yunanıstanın turizm sənayesi hələ də kifayət qədər böyük deyildi, 1992-ci ildə cəmi 9.7 mln qonaq qəbul etmişdi.

Yunanıstan turizm sahəsi üçün başlıca turizm bazarı Böyük Britaniyadır. İki on illik ərzində 10 % genişlənib, 1992-ci ildə ümumi bazarın 22 %-i onun payına düşüb. Daha sonra Almaniya (19.9 %), İtaliya (6.4%), Hollandiya (5.6 %), Fransa (5.6 %) və başqaları gəlir. Britaniyalılar əsasən dincəlməyə gəlir (62 %) onlardan yalnız 3 %-i mədəni-tarixi abidələri seyr etmək həvəskarıdır. İspaniya, Yaponiya, İtaliya turistlərinin əksəriyyəti isə (müvafiq olaraq 41, 35 və 25 %) əksinə, mədəni-tarixi turizmə üstünlük verir. Odur ki, müxtəlif ölkələrdən gələn turistlərin ölkədə gəzinti istiqamətləri bir-birindən xeyli fərqlənir. Məsələn, ispanlar və amerikalılar antik tarixi, memarlıq və mədəniyyət abidələri ilə zəngin paytaxta, almanlar, isveçlilər, hollandlar isə adalara getməyə üstünlük verirlər. Yaş həddinə gəldikdə, mənşəyindən asılı olmayaraq gənc turistlər bir yerdə qərar tutmaqdan çəkinir, bacardıqca çox turizm mərkəzini ziyarət etmək, ölkənin çox hissəsini gəzib görməyə üstünlük verirlər. 1998-ci ildə Yunanıstana 9.9 mln turist gəlmişdi. Beynəlxalq turizmdən 4 mlrd $ gəlir daxil olmuşdu. Hər il Yunanıstana gələn qonaqların sayı Türkiyəyə gələnlərdən çox olsa da, Türkiyənin illik gəliri iki dəfə çox olur. Bu da Yunanıstan turizm sənayesinin Türkiyəyə nisbətən zəif inkişaf etdiyindən xəbər verir.

Adalarda dəniz istirahəti üçün zəruri şərait yaradılsa da, Yunanıstanın başlıca turizm məmulatı əvvəlki kimi onun zəngin tarixi, qədim mədəniyyəti və memarlıq abidələridir.

Afina demokratiyasının (e. ə. 443-429-cu illər) qələbəsi nəticəsində Afina dövlətinin yüksəliş dövrü Yunanıstanın çiçəklənmə dövrüdür. E. ə. IV əsrdə Makedoniyanın yüksəlişi baş verir. O, yunan dövlətlərinin müstəqilliyinə son qoyur. E. ə. 330-cu ildə Makedoniyalı İsgəndər İran Əhəməni imperiyasını darmadağın edir, onun qalıqları üzərində Balkan yarımadasından Hindistana qədər uzanan nəhəng dövlət qurur. E. ə. 323-cü ildə İsgəndərin vəfatından sonra imperiya ayrı-ayrı dövlətlərə parçalanır.


AKROPOL

E. ə. 146-cı ildə Yunanıstan qüdrətli Roma quldar dövlətinin tərkibinə daxil edilir. Yunanıstanda fəlsəfə, ədəbiyyat, incəsənət, memarlıq yüksək dərəcədə inkişaf etmişdi. Qədim Yunanıstanın böyük mütəfəkkirləri sırasında Heraklit, Demokrit, Sokrat, Platon, Aristoteli göstərmək olar. Homerin «İlliada» və «Odisseya» poemaları, Esxil, Sofokl, Evripidin tragediyaları, Safo, Alkeya, Anakreont, Pindar və digər lirik şairlərin dahi əsərləri kimi qədim yunan ədəbiyyatı incilərinin dünya mədəniyyəti üçün əvəzolunmaz əhəmiyyəti var. Afinada Parfenon, Erexteon məbədləri ilə birgə Akropol kompleksi

yaradılıb. Miron, Poliklet, Fidi, Skopas, Praksitel, Lisi kimi sənətkarlar bədii mükəmməlliyinə görə təkrarolunmaz memarlıq və heykəltəraşlıq nümunələri yaradıblar. Təsviri və dekorativ-tətbiqi sənət yüksək dərəcədə inkişaf etmişdi.

Dünyanın ən qədim şəhərlərindən biri olan Afina ölkənin iqtisadi və siyasi mərkəzidir. Afina əslində şəhər-muzeydir. Şəhərin hər yerindən əzəmətli antik Akropol kompleksinin xarabalıqları görünür. Akropol (Akro-yuxarı, polis-şəhər) hündürlüyü 156 m olan əhəngdaşı süxurlu təpəlikdə yerləşir. Akropol memarlıq kompleksi qədim yunan mədəniyyətinin çiçəklənmə dövrünün ən əzəmətli nailiyyətidir. Burada ilk şəhər tikililəri hələ antik demokratiya dövründə (e. ə. V əsr) salınmışdı. Perikl dövründə yenidən mərmər tikililərlə bəzədilmişdi.

Akropola giriş olan Propilen e. ə. V əsrdə Menesikl tərəfindən inşa edilmişdi. Bəzi memarlıq ünsürlərini nəzərə çarpdırmaq üçün elevsina mavi mərmərindən istifadə etmişdilər. Propilen mərkəzi sütunlar tağdan və iki cinah qafilədən ibarətdir.


**İLAHƏ AFİNANIN ALKİONEYLƏ DÖYÜŞÜ**

Propilendən 30 m aralı Akropolun başlıca tikilisi olan Parfenon məbədi yüksəlir. Parfenon e. ə. 447-432-ci illərdə Fidinin ümumi rəhbərliyi altında memar İktin və Kalikrat tərəfindən ilahə Afinanın şərəfinə tikilib. Parfenonun bütün görkəmində duyulan tarazlıq və ahəngdarlıq hissi qüsursuz gözəllik təsəvvürü yaradır. Parfenon Paros daşından sütunlarla əhatə olunmuş nəhəng düzbucaqlı binadır. Parfenon frontonları mərmər heykəllərlə bəzədilib. Parfenon heykəltəraşlıq ansamblı dünya incəsənətinin ən görkəmli əsərlərindən biridir, nadir bədii dəyəri və məntiqi dolğunluğu ilə fərqlənir. Bu sanki mərmərdə tərənnüm edilmiş əzəmətli poemadır, poemanın qəhrəmanı ilahə Afinaya mədhiyyədir. Məbədin içində Afinanın Fidi tərəfindən qızıldan və fil sümüyündən işlənmiş heykəli tamaşaçının diqqətini özünə cəlb edir.

Roma imperatoru Yustinianın dövründə Parfenonu xristian məbədinə çevirirlər. Səlib yürüşləri dövründə o, katolik məbədi olur. 1460-cı ildə isə türklər tərəfindən məscidə çevrilir. 1687-ci ildə türk qoşunlarına hücum edən venesiyalılar mərmi atəşi ilə Parfenonu zədələyirlər. Akropolda cəbbəxana yerləşdiyindən güclü partlayış nəticəsində Parfenon ağır zədələnir, daş örtüyü uçur. Zaman bu gözəl tikilini daha böyük dağıntılara məruz qoydu. Heykəllərin bir qismi məhv oldu, digər hissəsi London, Paris, Vyana muzeylərində məskunlaşdı. 1834-cü ildə tikilinin salamat qalmış hissələrini qoruyub saxlamaq üçün bərpa işləri başlandı. Açıq qəhvəyi mərmərdən tikilmiş sütunlar sanki şəffafdır. Akropolda qəhrəmanlıq ilahəsi Afina məbədi və eləcə də Erexteyon məbədi qorunub saxlanılır.

Gözəllik həmişə turistləri özünə cəlb edib və bundan sonra da cəlb edəcəkdir. Gözəllik insanları tərbiyə edir, yüksək əxlaqi hislər formalaşdırır.

Bu gün yunan xalqı məhz bu estetik dəyərlərə istinad edərək bəşəriyyəti daima bu gözəl hislərlə yaşamağa sövq edir.

# XÜLASƏ

"Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili" adlı fundamental dərslik Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin inkişafı ilə bağlı olaraq meydana gəlmişdir. Dərsliyin hazırlanması prosesində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professor və müəllim heyətinin apardığı tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. Dərslikdə keçmiş təcrübəyə müasirlik baxımından yanaşılmış, müxtəlif fəsil və bölmələr beynəlxalq tələblər əsasında işlənilmişdir.

"Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili" dərsliyinin mövzuları müəyyənləşdirilərkən müvafiq fənn proqramında nəzərdə tutulan spesifik xüsusiyyətlər nəzərə alınmış, beynəlxalq mədəni əlaqələr sahəsinin idarə olunması sistemindəki yeniliklər əsas amil kimi götürülmüşdür.

Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra mədəniyyət müəssisələrinin fəaliyyət istiqamətləri də yeniləşmiş, bütün idarəetmə sistemi bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılmışdır. Sözsüz ki, belə vəziyyətdə "Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili" dərsliyinin həyat gerçəkliklərinə uyğunlaşdırılması zərurəti meydana çıxmışdır. Beynəlxalq mədəni əlaqələr zamanın öz məhsuludur. Bu sahə sosial mədəni fəaliyyətə qoşulan konkret şəxsiyyətlə mənəvi həyatın inteqral təzahürü hesab olunan mədəniyyət arasında bir körpüdür. Bu körpü şəxsiyyətin yaradıcı potensialının maksimal inkişafının yeni metodları ilə formalaşaraq, onun şəxsi keyfiyyətləri və zəkasının zənginləşməsi ilə möhkəmlənir. Bu sahənin prinsipial xüsusiyyətlərindən ən başlıcası odur ki, o öz tədqiqində idealı yox, məhz müasir dünyanın obyektiv reallığını seçir və ümumbəşəri mənəvi dəyərlərə istinad edir. Beynəlxalq mədəni əlaqələr inkişaf etdikcə insana məxsus olan mənəvi keyfiyyətlər də daima formalaşmaqda davam edir. Mədəni inkişafın təsiri ilə insanlar intellektuallaşır, onların davranış və vərdişləri humanistləşir.

Beynəlxalq mədəni əlaqələr ünsiyyət mədəniyyətinin formalaşmasında, fiziki tərbiyənin, istirahət və əyləncənin təşkilində, şəxsiyyətin mənən zənginləşməsində, hər bir fərdin elmi biliklərə yiyələnməsində xüsusi əhəmiyyət kəsb edir. Mədəni fəaliyyətin təşkili təkcə fərdlərarası ünsiyyətin gerçəkləşməsində deyil, eyni zamanda beynəlxalq mədəni əlaqələrin və bəşəri münasibətlərin inkişaf etməsində böyük əhəmiyyətə malikdir. Bu gün mədəni fəaliyyətin təşkili istirahət və əyləncənin, asudə vaxtın mədəni təşkilinin vasitəsi kimi nəzərdən keçirilir. Təqdim olunan dərslikdə mədəni fəaliyyət istiqamətlərinin tədqiqinə geniş yer ayrılır, beynəlxalq mədəni əlaqələrin müasir mövqeyi konkret faktlar və elmi təhlillərlə şərh edilir.

Müasir mərhələdə beynəlxalq mədəni əlaqələrin genişlənməsi dövlətlərarası münasibətlərdə əsas prioritetlərdən biri hesab edilir. "Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili" dərsliyində bu özünəməxsus xüsusiyyətlər nəzərə alınmış, bu məqsədlə mədəniyyət və turizmin inkişafına müsbət təsir edə biləcək amillərə kompleks şəkildə yanaşılmışdır. Xarici ölkələrdə mədəni fəaliyyətin təşkilinə aid olan bir çox sahələr də dərslikdə öz əksini tapmışdır.

Fikrimizcə, beynəlxalq mədəni əlaqələrdə demokratik prinsiplərin bərqərar olması, XXI yüzillikdə daha geniş vüsət alacaq və dövlətlərarası münasibətlərdə, dövlət quruculuğunda, ölkənin idarə edilməsində başlıca prioritetlərdən biri olacaqdır. Qloballaşma və mədəni proseslərin dünyaya inteqrasiya olunduğu bir dövrdə dövlətlərarası münasibətlərdə beynəlxalq və regional proqram və layihələrin işlənib hazırlanmasına böyük ehtiyac vardır. Belə ki, bu gün mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın hüquqi əsasları və konsepsiyası işlənib hazırlanmalıdır.

## SUMMARY

The fundamental textbook named "The Formation of Civilized Activity in the Foreign Countries" has been appeared related with the improvement of Azerbaijan's international cultural relations. An important role play investigations conducted by professor and teacher staff of Azerbaijan State Culture and Art University in the process of making the textbook. In the textbook former practice is approached from the point of view of modernity, different chapters and sections have been worked out basing on international requires.

While determining the topics of the textbook "The Formation of Civilized Activity in the Foreign Countries", specific features have been taken into account in the corresponding subject program, innovations in the system of possessing the international relations sphere have been taken as a main factor.

It is known that, after Azerbaijan gained independence activity directions of cultural institutions have also been renewed, the whole controlling system has been fitted to market condition. Of course, in this case the necessity of the textbook "The Formation of Civilized Activity in the Foreign Countries" to fit the life realities. The international cultural relations is the yield of time. This sphere is a spiritual bridge between the concrete person joined to social – cultural activity with the culture considered as an integral reflection of spiritual life. This bridge is formed with the help of new methods of maximum improvement of the creative potentiality of a person, and is strengthened with his own qualities and the enrichment of his intellect. The main principal peculiarity of this science is that, in its investigation it chooses not the ideal, but the objective reality of modern world and supports the nation-wide spiritual values. While the international cultural relations is improving, spiritual qualities particular for a person are constantly formed. People are getting intellectual under the influence of cultural improvement, their behaviors and habits become humanist.

The international cultural relations play a special role in the formation of sociability culture, in the arrangement of physical training, relaxation and entertainment, in the owning of each individual the scientific knowledge. The formation of cultural activity plays an important role not only in realizing the contact between individuals, but also in the improvement of cultural relations and universal attitudes. Today, the formation of cultural activity is looked through as a means of cultural formations of the rest and entertainment, of the free time. A large sphere is given for the investigation of cultural activity directions in the introduced textbook, the modern position of international cultural relations is explained with concrete facts and scientific analyses.

In modern stage the enlargement of international cultural relations is considered one of priorities in the international attitudes. These specific qualities have been taken into account in the textbook "The Formation of Civilized Activity in the Foreign Countries", for this purpose factors influencing the improvement of civilization and tourism have been approached complexly. Many spheres concerning the formation of cultural activity foreign countries have also been reflected in the textbook.

To our mind, the establishment of democratic principles in the international cultural relations will give a wide scope in the third thousand years and will be one of the main priorities in the international relations, in the state building, in the management of the state. There is a great necessity for the preparing international and regional program and projects in international attitudes during the time when globalism and cultural processes integrate the world. So, today, legal bases and conceptions of international collaboration must be prepared in the field of civilization.

## ЗАКЛЮЧЕНИЕ

Необходимость в создании фундаментального учебника «Организация культурной деятельности в зарубежных странах» вызвана развитием международных культурных связей Азербайджана. В процессе подготовки учебника особое значение имели научные исследования, проведенные профессорско-преподавательским коллективом Азербайджанского государственного университета культуры и искусств. Учебник подготовлен в опоре на прошлый опыт, отдельные главы и разделы разработаны в соответствии с международными требованиями.

При определении тем учебника «Организация культурной деятельности в зарубежных странах» были учтены специфические особенности соответствующей учебной программы, основу которой составили новые направления в системе управления сферой международных культурных связей.

Известно, что после приобретения государственной независимости Азербайджаном были обновлены направления деятельности учреждений культуры, вся управленческая система была приведена в соответствие с условиями рыночной экономики. Безусловно, в этих условиях появилась насущная потребность в приведении учебника «Организация культурной деятельности в зарубежных странах» в соответствие с современными реалиями. Наука о туризме – это порождение времени. Эта сфера представляет собой некий мостик между вовлеченным в социально-культурную деятельность человеком и являющейся интегрирующим началом духовной жизни культурой. Этот мостик, формируясь на основе новых методов максимального развития творческого потенциала личности, укрепляется обогащением его личных качеств и интеллекта. Основной принципиальной особенностью этой науки является то, что объектом своих исследований она избирает не идеал, а объективные реалии современного мира и опирается на общечеловеческие духовные ценности. По мере развития международных культурных связей она оказывает свое положительное влияние на духовные качества человека. Под воздействием культурного развития люди становятся более интеллектуальными, гуманными в своем поведении и привычках, и в то же время их личное мировоззрение обогащается общечеловеческими ценностями.

Международные культурные связи имеют исключительное значение в деле формирования культуры общения, развития физического воспитания, духовного обогащения личности, овладения им научных знаний. Организация культурной деятельности не только способствует реализации межличностного общения, но и имеет большое значение в деле развития международных связей и общечеловеческих отношений. Сегодня организация культурной деятельности рассматривается как средство организации культурного досуга, отдыха и развлечений. В представленном учебнике большое место уделено исследованию направлений культурной деятельности, современные положение международных культурных связей подкрепляется конкретными фактами и результатами научных изысканий.

На современном этапе расширение международных культурных связей является одним из основных приоритетов в сфере межгосударственных отношений. В учебнике «Организация культурной деятельности в зарубежных странах» были учтены специфические особенности данной среды, в этих целях был проявлен комплексный подход к факторам, способствующим положительному развитию культуры и туризма. Целый ряд сфер, имеющих отношение к организации культурной деятельности в зарубежных странах, нашли свое отражение в данном учебнике.

На наш взгляд, углубление демократических принципов в сфере международных культурных связей получит дальнейшее развитие и станет одним из основных приоритетов в сфере межгосударственных отношений, государственном строительстве и управлении страной. В эпоху глобализации и интеграции культурных процессов имеется насущная необходимость в разработке и реализации международных и региональных программ и проектов, нацеленных на укрепление межгосударственных отношений. Следовательно, уже сегодня необходимо приступить к разработке юридической базы и научной концепции международного сотрудничества в области культуры.

## “Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili” fənni üzrə

# PROQRAM

III kursun V və VI semestri üzrə
(Cəmi 80 saat: 60 saat mühazirə, 20 saat seminar )

| № | | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1 | Fənnin predmeti və onun əsas vəzifələri | 2 s. | |
| 2 | Xarici ölkələrdə mədəni fəaliyyətinin təşkilinin kulturoloji mahiyyəti və onun ilkin şərtləri | 2 s. | |
| 3 | Azərbaycanın beynəlxalq mədəni əlaqələr sisteminə inteqrasiyası | 2 s. | 2 s. |
| 4 | Xarici ölkələrdə istirahət və əyləncənin təşkilinin elmi əsasları | 2 s. | |
| 5 | Beynəlxalq mədəni əlaqələr Azərbaycanın dövlətlərarası siyasətinin əsas prioritetlərindən biri kimi | 2 s. | 2 s. |
| 6 | İqtisadi inkişaf etmiş ölkələrdə mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 7 | Xarici ölkələrdə mədəni fəaliyyətin təşkilinin inkişaf mərhələləri | 2 s. | |
| 8 | Mədəni fəaliyyətin təşkilində beynəlxalq və regional proqramların əhəmiyyəti | 2 s. | |
| 9 | ABŞ-da mədəni fəaliyyətin təşkili | 2 s. | 2 s. |
| 10 | Çin Xalq Respublikasında mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 11 | Tailandda mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 12 | Almaniya Federativ Respublikasında mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 13 | Rusiya Federasiyasında mədəni fəaliyyətin təşkili | 2 s. | 2 s. |
| 14 | İran İslam Respublikasında mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 15 | Fransada mədəni fəaliyyətin təşkili | 2 s. | 2 s. |
| 16 | Yaponiyada mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 17 | Böyük Britaniyada mədəni fəaliyyətin təşkili | 2 s. | 2 s. |
| 18 | İtaliyada mədəni fəaliyyətin təşkili | 2 s. | 2 s. |
| 19 | Hindistanda mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 20 | İsraildə mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 21 | Misirdə mədəni fəaliyyətin təşkili | 2 s. | 2 s. |
| 22 | Birləşmiş Ərəb Əmirliklərində mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 23 | Malayziyada mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 24 | İspaniyada mədəni fəaliyyətin təşkili | 2 s. | |
| 25 | Türkiyədə mədəni fəaliyyətin təşkili | 2 s. | 2 s. |
| 26 | Yunanıstanda mədəni fəaliyyətin təşkili | 2 s. | 2 s. |
| 27 | TÜRKSOY - türkdilli xalqların milli-mədəni mərkəzi kimi | 2 s. | |
| 28 | Mədəni əlaqələrin formalaşmasında beynəlxalq təşkilatların rolu | 2 s. | |
| 29 | Azərbaycan sənətkarlıq nümunələri dünya muzeylərində | 2 s. | |
| 30 | Xarici ölkələrdə turizm işinin təşkili | 2 s. | |
| | CƏMİ: | 60 saat mühazirə | 20 saat seminar |

# ƏDƏBİYYAT

1. «Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər) » - Azərbaycan Respublikası Prezidentinin fərmanı, B., 11 fevral 2004.
2. Abbasbəyli A., Atmaca T. Müasir dövrdə Azərbaycan və Türkiyə münasibətləri, Dirçəliş XXI əsr, 1998, № 10.
3. Abdullayev M., Beynəlxalq münasibətlər tarixi, "Bakı", "Təhsil", ELM, 2003.
4. Ağayev R. Azərbaycanın beynəlxalq mədəni əlaqələri. Bakı, Mars-Print, 2003.
5. Almaniya-Azərbaycan əlaqələri. Bakı, Azərbaycan milli ensiklopediyası, B., 2000.
6. Apdin Əlizadə. Estetik mədəniyyətdə varislik. Təknur, Bakı, 2005.
7. Asya Hacıyeva. Beynəlxalq münasibətlər tarixi. BDU, Bakı, 2001.
8. Azərbaycan olduğu kimi. Bakı, 2002.
9. Azərbaycan regionları. Bakı, 2001.
10. Azərbaycan Respublikasının Konstitusiyası (12 noyabr 1995-ci il) Qanun, 2004.
11. Azərbaycan Respublikasının turizm haqqında Qanunu. B., Qanun, 2000.
12. Azərbaycanın tarixi abidələri. MEA,. Bakı, 1958.
13. Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev, I kitab, 1991-2001, Bakı, Qafqaz universiteti nəşri, 2002.
14. Beynəlxalq əlaqələr üzrə bələdçi. Bilik Nəşriyyatı, Bakı, 2005.
15. Bilalov B. Ə. Dünyada və Azərbaycanda gəlmə turizmin müasir durumu. «Dirçəliş XXI əsr» jurnalı.
16. Bilalov B. Ə., C. Məmmədov. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Mütərcim, Bakı, 2004.
17. Cabir Məmmədov, Sabir Rəhimov. Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti. Bakı, Qanun, 2000.
18. Əfəndiyev T. Azərbaycan Mədəniyyəti və İncəsənəti. İran, 2003.
19. Əfəndiyev T. Hüseyn Cavidin ideyalar aləmi. B., 1985.
20. Əfəndiyeva N. Qloballaşma çağında Azərbaycan mədəniyyətinin və mənəviyyatının problemləri, perspektivləri. B., 2000.
21. Əfəndiyeva N. Milli özünüdərk (Fikir tarixində milli özünübilmə gətirmiş paradiqmalar, ideyalar). B., 2003.
22. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində. B., 1980.
23. Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Ağrıdağ, Bakı, 2006.
24. Əmirxanov S. Hüseynov İ. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri. "Mars-print" NPF, 2008.
25. Hacıyev N.Ə. Dostluq və əməkdaşlıq telləri. B., 1985
26. Haqverdiyev T. Ş. Abidələr tarixin sirdaşıdır. Bakı, 1982.
27. Heydər Əliyev M.K.Atatürk haqqında. B., 2003.
28. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. B., 2005.
29. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ. B., 1998.
30. Hüseynov İ. ABŞ-da asudə vaxt. Bakı. 1994.
31. Hüseynov İ. Müqayisəli asudəvaxtşünaslıq. Bakı. 1993.
32. Hüseynov İ. Tətbiqi kulturologiya. Mars-Print, Bakı, 2004.
33. Hüseynov İ., Əfəndiyeva N. Turizmin əsasları. Bakı. 2007.
34. Hüseynov İlqar, Əmirxanov S. Kulturologiya və onun əsas istiqamətləri. Bakı, ADMİU, 1996.
35. Hüseynov İlqar. Adət və ənənələr mənəvi-əxlaqi dəyərlər kimi. Nərgiz, Bakı, 2000.
36. Hüseynov İlqar. Asudə vaxt mədəniyyətinin tərbiyə edilməsi sahəsində başlıca məqsəd və vəzifələr. Bakı, 2000.
37. Hüseynov İlqar. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti, Bakı, Mars-Print, 2002.
38. Hüseynov İlqar. Kulturologiya və onun əsas istiqamətləri, ADMİU, Bakı, 1996.
39. Hüseynov İlqar. Kulturologiyada tərbiyə prosesinin rolu. ADMİU, Bakı, 1996.
40. Hüseynova F. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). B., 2007
41. İ. Hüseynov. F. Abbasova. Ənənə və müasirlik. Bakı. 1996.
42. İbayev V. İslam Konfransı Təşkilatı. B.,1908.
43. Kərimov İ. Azərbaycan-Türkiyə teatr əlaqələri. B., 2000.
44. Kulturologiya (dərslik) Bakı, Mars-Print, 2003.
45. Qasımov M. Azərbaycan Respublikası dünya meridianlarında. B.,1993
46. Mahmudov Y. Azərbaycan diplomatiyası. B., 1996
47. Manafova M. Mədəniyyət tarixi və nəzəriyyəsi. B., 2006
48. Manafova M., Əfəndiyeva N. Beynəlxalq mədəni əlaqələr. Bakı, Sabah, 2008.
49. Mehdi N. «Çətin və dolaşıq durumların kulturologiyası». Qərb və Şərq mədəniyyətində virtual örtüyün "kosmoqoniyası". B., 2001
50. Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu. B., 2001.
51. Mədəniyyət dünyası. Elmi məqalələr toplusu, I-XIII buraxılışlar. 2001-2008, Bakı, ADMİU.
52. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu. Mədəniyyət qəz., 13 may, 1998-ci il.
53. Mədəniyyət tarixi və nəzəriyyəsi. Təbib, Bakı, 2006.

54. Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat. B., 2006.
55. Məmmədli N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. B., 2005
56. Məmmədov C. A. Sultanova M. V., Rəhimov S. N. Beynəlxalq turizmin coğrafiyası, Bakı, 2002.
57. Məmmədov Ə. Milli adət və ənənələr. Mars-Print, Bakı, 2000.
58. Məşhur rus səyyahı A. Nikitinin Azərbaycana səyahəti. B., 1954.
59. Muxtarova Ə. Heydər Əliyev və türk dünyası. Tarix və onun problemləri, B.,2003
60. Region Plus (analitik baxış) 10 aprel. Bakı, ATA Holdinq, 2006.
61. Rəcəbli N.M. BMT-nin ixtisaslaşmış qurumları. Bakı, 2003.
62. S.Sayadov. XX əsr: Azərbaycan və dünya. B., 2006
63. Sara xanım Aşurbəyli. Bakı şəhərinin tarixi, Əbilov, Zeynalov və oğulları, Bakı, 2006.
64. Sara xanım Aşurbəyli. Şirvanşahlar dövləti. Əbilov, Zeynalov və oğulları, Bakı, 2006.
65. Şükürov A. Qloballaşma, mif və tarix, Təknur, Bakı, 2005.
66. Şükürov A. Kulturologiya. Adiloğlu, Bakı, 2003.
67. Tağıyev Ə., Əliyev Q. Kulturologiya, Bakı, Təbib, 1997.
68. Vəliyev S. Qədimdən-qədim Azərbaycan. Bakı, 1995.
69. Yeni mədəni-maarif jurnalı, 2008, № 4-10.
70. Ziya Göyalp. Türkçülüyün əsasları. B., 1991.

# ЛИТЕРАТУРА


1. *www.museum.ru*
2. *www.petersburg-hotels.com/rus/guide/museums*
3. *www.thepalmae*
4. *www.zolotoe-kolco.ru*
5. Агеева Р.А. Страны и народы: Происхождение названий. М., 1990.
6. Аибин А.В. Дифференциальная психология: на пересечении европейских, российских, американских традиций. Гл. 14. М., 1999.
7. Александрова А. Ю. Меджународный туризм. М., 2001.
8. Алиев И. Градостроительная организация курортно-рекреационной системы в Азербайджанской ССР. Б., Эльм, 1989.
9. Антипов В. И. Сингапур. М., Мысль, 1982.
10. Ариарский М.А. Досуговедение в системе человекознания. ЛГИК 1990.
11. Афанасьев М.Н. Западные концепции художественного творчества. М. 1990.
12. Барри Томалин. Франция. Изд. Аст-Астрель.М. 2006.
13. Бирюков В. П. Париж. М., Просвещение, 1968.
14. Богатырева Т. Г., Воскресенский В. Ю. Качество жизни и культурно-образовательный туризм. М., 2002.
15. Бойл Карагессон Т. Восток есть восток. Иностранная литература. 1994. № 8.
16. Бороноев 4.0., Павленко В.Н. Этническая психология. СПб., 1994.
17. Бороноев А.О., Смирнов П.И. Россия и русские. Характер народа и судьба страны. СПб., 1992.
18. Вежбицкая А. Язык, культура, познание. М., 1997.
19. Вена. Путеводитель. Ле Пти Фюте, 2003.
20. Венедикт Р. Психологические типы в культурах Юго-запада США. Антология исследования культуры. Т.1, СПб., 1997.
21. Виржаков М. Б. Введение в туризм. М., 2000.
22. Воронин Н. Владимир. Боголюбово. Суздаль. Юрьев-Польской. Искусство, М., 1965.
23. Воскресенский В. Ю. Международный туризм и основы туристического страноведения. МГУ, М., 2004.
24. Все музеи России. В 3-х т. Энциклопедический справочник. Изд. «Бестселлер», М., 2005
25. Гачев Г Д. Национальные образы мира. М., 1998.
26. Гершунекий В. Менталитет и образование. М., 1997.
27. Глушкова В. Г., Симагин Ю. А. Тесты и задания по экономической и социальной географии мира. М., Владос, 2000.
28. Гнатенко П.Н. Национальный характер. Днепропетровск, 1992.
29. Гриишлева А.С. Культура послевоенной Японии. М., 1981.
30. Гуляев В. Г. Организация туристской деятельности. Учебное пособие. М., 1996.
31. Гуртик Луи. Франция. М., 1914.
32. Данилевский Н.Я. Россия и Европа. М., 1991.
33. Дежкин В. В. Природопользование. Курс лекций. М., МНЭПУ-2000.
34. Дейкер Х., Фрейд Н. Национальный характер и национальные стереотипы. Современная зарубежная этнопсихология. М., 1979.
35. Джин Тиг. США. Изд. Аст-Астрель.М. 2006.
36. Дмитриевский Ю. Д. Туристские районы мира. Учебное пособие. Смоленск, 2000.
37. Добро пожаловать в Азербайджан, (каталог). Баку, 2003.
38. Дубов И.1. Феномен менталитета: психологический анализ. Вопросы психологии. 1993. № 5.
39. Ерасов Б.С. Культура, религия и цивилизация на Востоке. Новосибирск. 1990.
40. Замошкин Ю.А. Вызовы цивилизации и опыт США. М., 1991.
41. Запад и Восток: Традиции и современность. М., 1963.
42. Зельдин Т. Все о французах. М., 1989.
43. Иофан А.С. Культура другой Японии. М., 1995.
44. Италия. Путеводитель. М., Алекс-пресс, 2004.
45. Изноча Сабуро. История японской культуры. М., 1972.
46. Каган М. С. Филсофия культуры. Санкт-Петербург, 1996.
47. Календарь в культуре народов мира: Сб. статей. М., 1993.
48. Касьянова К.О русском национальном характере. М., 1994.
49. Кон И.С. К проблеме национального характера. История и психология. М., 1971.
50. Коулле, Стрибнер С. Культура и мышление. М., 1977.
51. Кротова И. Н. Педагогика досуга в англоязычных странах. Санкт-Петербург. 1994.
52. Лаврентьев А. В., Пуришев И. Б. Золотое кольцо России. М., Профиздат, 1984.
53. Лихачев Д.С. О национальном характере русских. Вопросы философии. 1990. № 4.
54. Малая энциклопедия стран и народов мира. М., Центрполиграф, 2004.
55. Мамедов Ф. Культуролгия. Абилов, Зейналов и сыновья. Баку, 2002.

56. Мельникова Е.В. Культура и традиции народов мира. М. 2006. Мифы народов мира: Энциклопедия. В 2-х т. М., 1990.
57. Новикова И. В. Организация досуга подрастающего поколения в США: Традиция и современность: Изд. СПГИК им. Н.К. Крупской, Санкт-Петербург. 1991.
58. Овденко А.В., Овденко А. 18 километров по США. Харьков, 1972.
59. Пибоди Д., Шмелев Л., Андреев А., Раменицкий А. Психосемантический анализ стереотипов русского характера: кросскультурный аспект. Вопросы психологии. 1993. № 3.
60. Пол Норбурн. Великобритания. Изд. Аст-Астрель.М. 2006.
61. Пушкарев Л.Н. Что такое менталитет? Отечественная история. 1995. № 3.
62. Региональное развитие, опыт России и Европейского Союза. М., Экономика, 2000.
63. Роджер Джонс. Таиланд. Изд. Аст-Астрель.М. 2006.
64. Российская менталыюсть. Материалы круглого стола. Вопросы философии. 1994. № 1.
65. Рубинский Ю.Н. Французы у себя дома. М., 1989.
66. Русаков Е.М. Америка без стереотипов. М., 1989.
67. Салимова К.И. Восхождение к успеху. Воспитание в Японии: история и современность. М., 1993.
68. Сапожникова Е. Н. Страноведение. Теория и методика туристского изучения стран. М., Академия, 2004.
69. Сикевич З.В. Социология и психология национальных отношений. СПб., 1999.
70. Стефаненко Т.Г. Социальные стержни и межэтнические отношения.
71. Стефаненко Т.Г. Этнопсихология. М., 1989.
72. Стефаненко Т.Г., Шлягина Е. И., Ениколопов С. Н. Методы этнопсихологического исследования. М., 1993.
73. Страны и народы: Азия. М., 1980.
74. Страны и народы: Америка. М., 1980.
75. Страны и народы: Европа. М., 1980.
76. Страны и регионы мира. М., 2003.
77. Страны мира. Энциклопедический справочник. Минск, 1999.
78. Токарев С.А. Религия в истории народов мира. М., 1996.
79. Чечетин А. И. Основы драматургии театрализованных представлений. М., 1981.
80. Шароев И. Г. Режиссура эстрады и массовых представлений. М., 1985.

# BIBLIOGRAPHY

1. Atkinsons H., Berry A., Jarvis R. Business Accounting for Hospitality & Tourism. - London: Charman & Hall, 1993. -: Bolton Audrey. Quality Management Systems for the Food industry. A guide to ISO 9001/2. - New York: Blackie Academic & Professional, 1997.
2. Computer Systems in The Hotels & Catering Industry. Cassel. Cassel University, 1988.
3. Azerbaijan: 100 Questions answered. The Azeri-Anglo Youth Societi. Cagioglu, Baku, 2005.
4. Holloway J. Christopher. The Business of ITourism. – London. Longman, 1994.
5. Kotas Richard. Management Accounting for Hotels & Restaurants. Blackie Academic & Professional. - Washington: Massachusetts University press, 1997.
6. Marketing for Tourism. Case Study Assignments. Malta. McMillian, 1992.
7. McGraw-Hill International Editions. 1-st class. An introduction to Travel & Tourism. Hospitality series. Haague. The University of Haague, 1994.
8. Pompl W., Livery P. Tourism in Europe. CAB International. Haague. University of Amsterdam, 1993.
9. Principles of hotel Front office operations. A study guide, - Cassel. Cassel University, 1994.
10. Riley Michael. Caterer & Hotelkeeper. Hospitality Managers pocket book. Managing people. - New York: Butterworth, Heinemann, 1995.
11. Smith Valene L., Eadington William R. Tourism Alternatives. London, John Wiley & Sons, 1994.
12. Welford Richard. Environmental Strategy & Sustainable Development. - Rout ledge, 1995.